## AZƏRBAYCAN RESPUBLİKASININ CİNAYƏT-PROSESSUAL MƏCƏLLƏSİ[1]

(Bu Məcəllə Azərbaycan Respublikasının 2000-ci il 14 iyul tarixli 907-IQ nömrəli Qanunu ilə təsdiq edilmişdir)

**Ümumi hissə**

**Birinci bölmə**

**Əsas müddəalar**

**I fəsil**

**Cinayət-prosessual qanunvericiliyi**

**Maddə 1. Azərbaycan Respublikası cinayət-prosessual qanunvericiliyinin təyinatı**

1.1. Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi cinayətin əlamətlərini əks etdirən əməllərin cinayət olub-olmamağını, cinayəti törətməkdə təqsirləndirilən şəxsin təqsirli olub-olmamağını, habelə cinayət qanunu ilə nəzərdə tutulmuş əməlləri törətməkdə şübhəli və ya təqsirləndirilən şəxsin cinayət təqibinin və müdafiəsinin, *hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsinin*[2] hüquqi prosedurlarını müəyyən edir.

1.2. Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi ona yönəlmişdir ki:

1.2.1. qanunla cinayət hesab olunan əməli törətmiş hər bir şəxsi ifşa etmək və cinayət məsuliyyətinə cəlb etmək mümkün olsun;

1.2.2. cinayət törətməkdə təqsiri olmayan heç kəsi cinayət prosesini həyata keçirən orqanların vəzifəli şəxslərinin və ya hakimlərin özbaşına hərəkətləri ilə qanunsuz şübhə altına almaq, ittiham və ya məhkum etmək mümkün olmasın;

1.2.3. heç kəs qanunsuz və ya zərurət olmadan prosessual məcburiyyət tədbirlərinə, insan və vətəndaş hüquq və azadlıqlarının digər məhdudiyyətlərinə məruz qalmasın.

1.3. Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi qanunçuluğun, insan və vətəndaş hüquq və azadlıqlarına hörmətin bərqərar olmasına imkan yaradır.

**Maddə 2. Cinayət-prosessual qanunvericiliyin mənbələri**

2.1. Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi aşağıdakılardan ibarətdir:

2.1.1. Azərbaycan Respublikasının Konstitusiyasından;

2.1.2. bu Məcəllədən;

2.1.3. Azərbaycan Respublikasının digər qanunlarından;

2.1.4. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən.

2.2. Azərbaycan Respublikası Konstitusiyasının normaları Azərbaycan Respublikasının bütün ərazisində ali hüquqi qüvvəyə malikdir və birbaşa qüvvədədir. Azərbaycan Respublikası Konstitusiyasının normaları ilə bu Məcəllənin müddəaları arasında ziddiyyət olduqda Azərbaycan Respublikası Konstitusiyasının normaları tətbiq olunur.

2.3. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə bu Məcəllədən fərqli digər qaydalar müəyyən olunduqda, beynəlxalq müqavilənin qaydaları tətbiq edilir.

2.4. Cinayət-prosessual fəaliyyət daxilində insan və vətəndaş hüquq və azadlıqlarını ləğv edən və ya məhdudlaşdıran, hakimlərin müstəqilliyini və ədalət mühakiməsinin həyata keçirilməsində çəkişmə prinsipini pozan, əvvəlcədən sübutlara müəyyən hüquqi qüvvə verən normativ hüquqi aktlar tətbiq edilə bilməz. Digər qanunlardakı prosessual hüquq normaları bu Məcəllənin müddəalarına uyğunlaşdırılmalıdır.

**Maddə 3. Cinayət-prosessual qanunvericiliyin məkana görə qüvvəsi**

3.1. Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi Azərbaycan Respublikasının ərazisində bu Məcəllənin 3.3 və 3.4-cü maddələrində nəzərdə tutulan istisnalarla, heç bir məhdudiyyət qoyulmadan qüvvədədir.

3.2. Azərbaycan Respublikası cinayət-prosessual qanunvericiliyinin müddəaları Azərbaycan Respublikasının ərazisindən kənarda Azərbaycan Respublikasının Dövlət bayrağı altında olan və ya onun tanınma nişanlarını daşıyan, yaxud onun limanlarında qeydə alınan dəniz, çay və ya hava gəmilərində də tətbiq olunur.[3]

3.3. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə Azərbaycan Respublikası cinayət-prosessual qanunvericiliyinin məkana görə qüvvəsinin digər qaydalarının tətbiqi halları müəyyən edilə bilər.

3.4. Xarici dövlətin cinayət-prosessual qanunvericiliyinin normalarının Azərbaycan

Respublikasının ərazisində tətbiqinə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulduqda və Azərbaycan Respublikası cinayət-prosessual qanunvericiliyinin vəzifə və prinsiplərinə zidd olmadıqda yol verilir.

**Maddə 4. Cinayət-prosessual qanunvericiliyin zamana görə qüvvəsi**

4.1. Azərbaycan Respublikasında cinayət-prosessual hərəkətlərin aparılması, cinayət-prosessual qərarların qəbul və icra edilməsi həmin anda qüvvədə olan Azərbaycan Respublikası cinayət-prosessual qanunvericiliyinin müddəalarına uyğun həyata keçirilir.
4.2. Cinayət prosesi iştirakçılarının hüquqlarını məhdudlaşdıran Azərbaycan Respublikası cinayət-prosessual qanunvericiliyi müddəalarının geriyə qüvvəsi yoxdur.
4.3. Ədalət mühakiməsi həyata keçirilərkən sübutların mümkünlüyü həmin anda qüvvədə olan Azərbaycan Respublikası cinayət-prosessual qanunvericiliyinin müddəalarına uyğun olmalıdır. Azərbaycan Respublikası cinayət-prosessual qanunvericiliyinin yeni qəbul edilmiş müddəası sübutların mümkünlüyü şərtlərini əhəmiyyətli dərəcədə dəyişirsə, yeni müddəalara uyğun gəlməyən sübutlar ittihamın əsasını təşkil edə bilməz.

**Maddə 5. Cinayət-prosessual qanunvericiliyin xarici vətəndaşlar və vətəndaşlığı olmayan şəxslər barəsində qüvvəsi**

5.1. Cinayətin törədilməsində şübhə və ya ittiham olunan xarici vətəndaşlar və ya vətəndaşlığı olmayan şəxslər haqqında cinayət-prosessual fəaliyyət Azərbaycan Respublikası cinayət-prosessual qanunvericiliyinin müddəalarına uyğun həyata keçirilir.
5.2. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilmiş diplomatik, habelə digər imtiyaz və toxunulmazlıqlara malik şəxslər haqqında və ya onların iştirakı ilə həyata keçirilən cinayət-prosessual fəaliyyətin xüsusiyyətləri bu Məcəllənin 436–441-ci maddələrinin müddəaları ilə müəyyən olunur.

**Maddə 6. Cinayət-prosessual qanunvericiliyin tələblərinə əməl edilməsi**

6.1. Azərbaycan Respublikası cinayət-prosessual qanunvericiliyinin müddəaları Azərbaycan Respublikasının ərazisində olan bütün fiziki və hüquqi şəxslər üçün məcburidir.
6.2. Azərbaycan Respublikası cinayət-prosessual qanunvericiliyinin tələblərinə əməl edilməməsi Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş hallarda məsuliyyətə səbəb olur.

**Maddə 7. Cinayət-prosessual qanunvericiliyin əsas anlayışları**

7.0. Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində aşağıdakı əsas anlayışlardan istifadə olunur:
7.0.1. cinayət hadisəsi — cinayətin əlamətlərini özündə əks etdirən hadisədir;
7.0.2. ərizəçi — özünün həqiqi və ya ehtimal olunan hüquqlarının müdafiəsi üçün cinayət prosesini həyata keçirən orqanlara və ya məhkəməyə müraciət edən şəxsdir;
7.0.3. cinayət prosesi — cinayət təqibi üzrə həyata keçirilən prosessual hərəkətlərin və qəbul olunan prosessual qərarların məcmusudur;
7.0.4. cinayət təqibi — cinayət hadisəsinin müəyyən edilməsi, cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş şəxsin ifşa olunması, ittiham irəli sürülməsi, bu ittihamın məhkəmədə müdafiə edilməsi, ona cəza təyin edilməsi, zəruri olduqda prosessual məcburiyyət tədbirlərinin təmin edilməsi məqsədi ilə həyata keçirilən cinayət-prosessual fəaliyyətdir;
7.0.5. cinayət prosesini həyata keçirən orqanlar — icraatında cinayət işi və ya cinayət təqibi ilə bağlı digər materiallar olan təhqiqat, istintaq, prokurorluq orqanları və ya məhkəmələrdir;
7.0.6. cinayət işi — törədilən və ya törədilməsi ehtimal edilən cinayətlə əlaqədar cinayət təqibinin həyata keçirilməsi zamanı toplanmış materialların məcmusudur;
7.0.7. cinayət təqibi ilə bağlı digər materiallar — məhkəməyədək sadələşdirilmiş icraat və ya xüsusi ittiham qaydasında şikayət və ya xüsusi icraat üzrə cinayət təqibinin həyata keçirilməsi ilə əlaqədar toplanmış materiallardır;
7.0.8. cinayət mühakimə icraatı — bu Məcəllədə nəzərdə tutulmuş qaydada məhkəməyədək, habelə birinci, apellyasiya və kassasiya instansiyası məhkəmələrində aparılan icraatdır;
*7.0.8-1. cinayət təqibi üzrə qiyabi icraat – məhkəmə tərəfindən qəbul edilmiş cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə qərar əsasında təqsirləndirilən şəxsin iştirakı olmadan onun barəsində cinayət təqibi üzrə məhkəməyədək, həmçinin birinci, apellyasiya və kassasiya instansiyası məhkəmələrində aparılan icraatdır;*[4]
7.0.9. məhkəmə — Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq ədalət mühakiməsini həyata keçirmək məqsədi ilə yaradılan, bu Məcəllə ilə müəyyən edilmiş qaydada birinci, apellyasiya və kassasiya instansiyası qismində cinayət işlərinə və ya cinayət təqibi ilə bağlı digər materiallara baxan məhkəmədir;
7.0.10. birinci instansiya məhkəməsi — bu Məcəllə ilə müəyyən edilmiş qaydada və hallarda hər hansı şəxsə qarşı irəli sürülmüş ittihama baxmaq və həmin ittihamın mahiyyəti

üzrə hökm və ya digər yekun qərarı çıxarmaq səlahiyyətinə malik olan məhkəmədir;

7.0.11. apellyasiya instansiyası məhkəməsi — bu Məcəllə ilə müəyyən edilmiş qaydada və hallarda birinci instansiya məhkəməsinin qanuni qüvvəyə minməmiş hökmündən və ya digər qərarından verilmiş şikayət və ya protestlərə*, habelə xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması üzrə icraat qaydasında verilmiş müraciətlərə* baxmaq səlahiyyətinə malik olan məhkəmədir;[5]

7.0.12. kassasiya instansiyası məhkəməsi — bu Məcəllə ilə müəyyən edilmiş qaydada və hallarda ~~birinci instansiya məhkəməsinin andlı iclasçıların iştirakı ilə çıxarılmış və ya~~ apellyasiya instansiyası məhkəməsinin qanuni qüvvəyə minmiş hökmündən və ya digər qərarından verilmiş şikayət, protest, yaxud təqdimatlara baxmaq səlahiyyətinə malik olan məhkəmədir;[6]

7.0.13. hakim — Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həmin vəzifəyə təyin edilmiş şəxsdir (məhkəmənin sədri, onun müavini, kollegiya sədri və ya birinci, apellyasiya, yaxud kassasiya instansiyası məhkəməsinin hakimi);

7.0.14. məhkəmə iclasında sədrlik edən — cinayət işinə və ya cinayət təqibi ilə bağlı digər materiallara təkbaşına, bir neçə hakimdən ibarət tərkibdə ~~və ya andlı iclasçıların iştirakı ilə~~ baxılarkən məhkəmə iclasında sədrlik edən hakimdir;[7]

~~7.0.15. andlı iclasçı — Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada andlı iclasçılar siyahısına daxil edilmiş, bu Məcəllədə nəzərdə tutulmuş qaydalar üzrə seçilmiş və ədalət mühakiməsinin həyata keçirilməsində iştirak etmək üçün məhkəməyə çağırılmış şəxsdir;~~

~~7.0.16. andlı iclasçılar kollegiyası — bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada cinayət işlərinə baxılması üçün yaradılan andlı iclasçılardan ibarət qurumdur;~~

~~7.0.17. andlı iclasçıların aparıcısı — verdikt çıxarılması üçün müşavirə otağına gedənədək andlı iclasçıların öz tərkibindən seçdikləri şəxsdir;~~[8]

7.0.18. cinayət prosesinin iştirakçıları — təhqiqatçı, müstəntiq, prokuror, habelə zərər çəkmiş şəxs, xüsusi ittihamçı, mülki iddiaçı, onların qanuni nümayəndələri və nümayəndələri, şübhəli və ya təqsirləndirilən şəxs, onların qanuni nümayəndələri, müdafiəçi, *barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin nümayəndəsi,*[9] mülki cavabdeh, onun qanuni nümayəndəsi və ya nümayəndəsidir;

7.0.19. cinayət prosesinin tərəfləri — çəkişmə və hüquq bərabərliyi əsasında cinayət mühakimə icraatında ittihamı və müdafiəni həyata keçirən cinayət prosesinin iştirakçılarıdır; [10]

7.0.20. ittiham — bu Məcəllədə müəyyən olunmuş qaydada şəxsin cinayət qanunu ilə nəzərdə tutulmuş konkret əməli törətməsinin israr edilməsidir;

7.0.21. ittiham tərəfi — birlikdə götürülmüş təhqiqatçı, müstəntiq, prokuror, həmçinin zərər çəkmiş şəxs, xüsusi ittihamçı, mülki iddiaçıdır;

7.0.22. ibtidai araşdırma — cinayət işi üzrə ibtidai istintaq və təhqiqat növündə məhkəməyədək aparılan icraatdır;

7.0.23. prokuror — öz səlahiyyətləri daxilində bu Məcəllədə nəzərdə tutulmuş qaydada cinayət işləri üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən və ya dövlət ittihamçısı qismində məhkəmədə ictimai, yaxud ictimai-xüsusi ittihamı müdafiə edən şəxsdir;

7.0.24. müstəntiq — öz səlahiyyətləri daxilində bu Məcəllədə nəzərdə tutulmuş qaydada cinayət işi üzrə ibtidai istintaqı aparan şəxsdir;

7.0.25. təhqiqatçı — öz səlahiyyətləri daxilində bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada cinayət təqibi üzrə təhqiqat aparan şəxsdir;

7.0.26. xüsusi ittihamçı — bu Məcəllədə nəzərdə tutulmuş qaydada və hallarda məhkəmədə ittiham irəli sürən və onu müdafiə edən zərər çəkmiş şəxsdir;

7.0.27. müdafiə — cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətməsi istinad edilən şəxsə qarşı irəli sürülmüş ittihamın təkzibi və ya yüngülləşdirilməsi, onun hüquq və azadlıqlarının müdafiəsi, habelə cinayət təqibinə qanunsuz məruz qalmış şəxsin pozulmuş hüquq və azadlıqlarının bərpası məqsədi ilə həyata keçirilən prosessual fəaliyyətdir;

7.0.28. müdafiə tərəfi — birlikdə götürülmüş şübhəli və ya təqsirləndirilən şəxs, onun *müdafiəçisi, barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin nümayəndəsi, onun müdafiəçisi və*[11] mülki cavabdehdir;

7.0.29. cinayət prosesində iştirak edən digər şəxslər — hal şahidi, şahid, mütəxəssis, ekspert, məhkəmə iclasının katibi və tərcüməçidir;

7.0.30. zərər çəkmiş şəxsin, mülki iddiaçının, şübhəli və ya təqsirləndirilən şəxsin, yaxud mülki cavabdehin qanuni nümayəndələri — bu Məcəllədə nəzərdə tutulmuş hallarda cinayət prosesi zamanı zərər çəkmiş şəxsin, mülki iddiaçının, şübhəli və ya təqsirləndirilən şəxsin, yaxud mülki cavabdehin qanuni mənafeyini təmsil edən valideynlər, övladlığa götürənlər, qəyyumlar, himayəçilər, habelə qəyyumluq və ya himayəçilik orqanıdır;

7.0.31. zərər çəkmiş şəxsin, mülki iddiaçının və ya mülki cavabdehin nümayəndəsi — cinayət prosesi zamanı zərər çəkmiş şəxsin, mülki iddiaçının, yaxud mülki cavabdehin qanuni mənafeyini təmsil etmək üçün notariat qaydasında təsdiq edilmiş etibarnaməsi olan vəkil,

*həmçinin zərər çəkmiş fiziki şəxsin, yaxud mülki iddiaçı və ya mülki cavabdeh olan fiziki şəxsin yaxın qohumu, habelə zərər çəkmiş hüquqi şəxsin, yaxud mülki iddiaçı və ya mülki cavabdeh olan hüquqi şəxsin qanunlarla, digər hüquqi aktlarla və ya hüquqi şəxsin təsis sənədləri ilə müəyyən edilmiş səlahiyyətli şəxsləri, yaxud müvafiq qaydada səlahiyyət verilmiş və əsas iş yeri həmin hüquqi şəxs olan işçiləridir*;[12]

*7.0.31-1. barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin nümayəndəsi – hüquqi şəxsin maraqlarını təmsil edən, səlahiyyətləri qanunla və ya hüquqi şəxsin təsis sənədləri ilə müəyyən edilən hüquqi şəxsin təsisçisi, rəhbəri və ya digər vəzifəli şəxsidir;*[13]

7.0.32. yaxın qohumlar — babalar, nənələr, valideynlər, övladlığa götürənlər, doğma və ögey qardaşlar və bacılar, ər-arvad, uşaqlar, övladlığa götürülənlər, nəvələrdir;

7.0.33. qohumlar — babaya və nənəyə qədər əcdadları ümumi olan şəxslər, ər-arvadın yaxın qohumları, babanın, nənənin, valideynin, övladlığa götürənin, doğma və ya ögey qardaş və bacının, uşağın, övladlığa götürülənin və ya nəvənin əri (arvadı) və ya onların yaxın qohumlarıdır;

*7.0.33-1. yetkinlik yaşına çatmayan şəxs (uşaq) - 18 yaşına çatmayan şəxsdir;*

*7.0.33-2. cinsi istismarın və ya cinsi zorakılığın qurbanı olan uşaq - Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 149.2-1.1, 149.3.3, 150.2-1.1, 150.3.3, 152, 153, 171, 171-1-ci və 171-2-ci maddələrində göstərilən cinayətlərdən zərərçəkmiş və cinayətin törədilməsi anınadək yetkinlik yaşına çatmamış şəxsdir;*[14]

7.0.34. yaşayış yeri — bir və ya bir neçə şəxsin yaşaması üçün müvəqqəti, yaxud daimi istifadə edilən ~~mülkiyyətində olan və ya icarəyə götürülmüş~~ yer, o cümlədən ev, mənzil, bağ evi, mehmanxanada, *sanatoriyada, pansionatda, yataqxanada, istirahət evində, kempinqdə, turist bazasında* otaq, onlara bilavasitə bitişik aynabəndlər, terraslar, qalereyalar, eyvanlar, ümumi istifadə üçün yerlər (onların istirahət, əmlak saxlamaq, yaxud insanların digər tələbatlarını təmin etmək üçün istifadə olunan digər tərkib hissələri), çoxmənzilli evdən başqa tikililərin zirzəmisi və çardağı, habelə dəniz gəmisinin kayutası və ya uzaq səfərdə olan qatarın kupesidir (bunlardan əlavə bu Məcəllənin məqsədləri üçün yaşayış yeri anlayışı fiziki şəxsin xidməti kabinetini, ona məxsus çəpərli torpaq sahəsini, avtomobili, çay və dəniz gəmisini əhatə edir);[15]

7.0.35. gecə vaxtı — yerli vaxtla axşam saat 22-dən səhər saat 7-dək olan vaxt müddətidir;

7.0.36. zərər — cinayət nəticəsində zərər çəkmiş şəxsə vurulmuş mənəvi, fiziki və ya maddi ziyandır;

7.0.37. prosessual hərəkətlər — cinayət prosesi iştirakçılarının bu Məcəllədə nəzərdə tutulmuş və onun müddəalarına uyğun həyata keçirdikləri hərəkətlərdir;

7.0.38. qətimkan tədbiri — bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə tərəfindən şübhəli, yaxud təqsirləndirilən şəxsin hüquqlarını müvəqqəti məhdudlaşdırmaqla onun haqqında seçilən prosessual məcburiyyət tədbiridir;

*7.0.38-1. həbs yerləri – tutulmuş və ya həbs edilmiş şəxsin saxlanılması üçün nəzərdə tutulmuş müvəqqəti saxlama yerləri, istintaq təcridxanaları və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrin qarnizon hauptvaxtlarıdır;*[16]

7.0.39. tutulma — bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada şəxsin azadlığını qısa müddətə məhdudlaşdırmaqla onun müvəqqəti saxlanılma yerində saxlanılmasıdır;

7.0.40. həbs — qətimkan tədbiri qismində bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada təqsirləndirilən şəxsin azadlığını müvəqqəti məhdudlaşdırmaqla *həbs yerlərində* saxlanılmasıdır;

7.0.41. vəsatət — cinayət prosesi iştirakçılarının cinayət prosesini həyata keçirən orqana ünvanlanmış xahişidir;

7.0.42. izahat — cinayət prosesi iştirakçılarının və ya ərizəçilərin özlərinin, yaxud təmsil etdikləri şəxsin tələblərini əsaslandırmaq üçün göstərdikləri şifahi və ya yazılı dəlillərdir;

7.0.43. prosessual qərar — cinayət işi və ya cinayət təqibi ilə bağlı digər material üzrə hakimin və ya hakimlərin (hökmlər istisna edilməklə), habelə təhqiqatçının, müstəntiqin, yaxud prokurorun bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada qəbul etdiyi prosessual aktdır;

~~7.0.44. verdikt — məhkəmə baxışı nəticəsində təqsirləndirilən şəxsin təqsirliliyi və ya təqsirsizliyi məsələsi barəsində andlı iclasçıların çıxardığı qərardır;~~[17]

7.0.45. məhkəmənin hökmü — şəxsin təqsirləndirildiyi əməllərdə onun təqsirli olub-olmaması, təqsirləndirilən şəxsə cəza tətbiq edilib-edilməməsi haqqında birinci və apellyasiya instansiyası məhkəməsində məhkəmə baxışı nəticəsində hakimin (hakimlərin) çıxardığı qərardır;

7.0.46. protest — dövlət ittihamçısının iştirak etdiyi cinayət işi və ya cinayət təqibi ilə bağlı digər material üzrə hökmdən və ya məhkəmənin digər qərarından prokurorun yuxarı məhkəməyə verilən şikayətidir;

7.0.47. şikayət — prosessual hərəkətlərin və ya prosessual qərarların qanunsuz, yaxud əsassız olduğu barədə cinayət prosesini həyata keçirən orqana ünvanlanmış yazılı müraciətdir;

*7.0.48. prosessual sənədlər – ərizə, şikayət, protest, vəsatət, etiraz, bildiriş, çağırış vərəqəsi, rəy, ekspert rəyi, qərar, hökm və bu Məcəllə ilə müəyyən edilmiş hallarda və qaydada məhkəmə və ya cinayət prosesinin iştirakçıları tərəfindən tərtib edilən digər sənədlər.*[18]

## II fəsil

## Cinayət mühakimə icraatının vəzifələri, əsas prinsipləri və şərtləri

### Maddə 8. Cinayət mühakimə icraatının vəzifələri

8.0. Cinayət mühakimə icraatının vəzifələri aşağıdakılardan ibarətdir:
8.0.1. şəxsiyyəti, cəmiyyəti və dövləti cinayətkar qəsdlərdən qorumaq;
8.0.2. həqiqi və ya ehtimal edilən cinayət törətməsi ilə əlaqədar şəxsiyyəti vəzifə səlahiyyətlərindən sui-istifadə edilməsi hallarından qorumaq;
8.0.3. cinayətləri tezliklə açmaq, cinayət təqibi ilə bağlı bütün halları hərtərəfli, tam və obyektiv araşdırmaq;KMQ11
8.0.4. cinayət törətmiş şəxsləri ifşa və cinayət məsuliyyətinə cəlb etmək;
8.0.5. cinayət törətməkdə ittiham olunan şəxslərin təqsirini müəyyən edərək onları cəzalandırmaq və təqsirsiz şəxslərə bəraət vermək məqsədi ilə ədalət mühakiməsini həyata keçirmək;
*8.0.6. hüquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması üçün fiziki şəxslər tərəfindən törədilən cinayətlərə görə hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlər tətbiq etmək.*[19]

### Maddə 9. Cinayət mühakimə icraatının əsas prinsipləri və şərtlərinin təyinatı

9.1. Bu Məcəllənin 10–36-cı maddələrində göstərilmiş cinayət mühakimə icraatının əsas prinsipləri və şərtləri:
9.1.1. cinayət təqibinin həyata keçirilməsinin əsasını təşkil edən qaydaları müəyyən edir;
9.1.2. insan və vətəndaş hüquq və azadlıqlarının qanunsuz məhdudlaşdırılması hallarından onun müdafiəsini təmin edir;
9.1.3. hər bir cinayət təqibinin qanuniliyini və əsaslılığını müəyyən edir.
9.2. Bu Məcəllə ilə müəyyən edilmiş hallarda cinayət prosesi prinsiplərinin və ya şərtlərinin pozulması cinayət təqibi üzrə başa çatmış icraatın etibarsız sayılmasına, onun gedişində qəbul edilmiş qərarların ləğvinə, yaxud toplanmış materialların sübutedici qüvvəsinin olmaması qənaətinə gəlməyə səbəb ola bilər.

### Maddə 10. Qanunçuluq

10.1. Məhkəmələr və cinayət prosesinin iştirakçıları Azərbaycan Respublikası Konstitusiyasının, bu Məcəllənin, Azərbaycan Respublikasının digər qanunlarının, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin müddəalarına ciddi əməl etməlidirlər.
10.2. Azərbaycan Respublikasının qüvvəyə minmiş və dərc edilmiş qanunu ilə müəyyən olunan əsaslardan və qaydalardan kənar heç kəsin cinayət təqibi üzrə şübhəli və ya təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb edilməsinə, tutulmasına, həbsə alınmasına, axtarılmasına, məcburi gətirilməsinə və digər prosessual məcburiyyət tədbirlərinə məruz qalmasına, habelə məhkum edilməsinə, cəzalandırılmasına, hüquq və azadlıqlarının digər formada məhdudlaşdırılmasına yol verilmir.
10.3. Azərbaycan Respublikası Konstitusiyasının və digər qanunlarının təfsiri cinayət prosesi iştirakçılarına o halda məcburidir ki, bu təfsir Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin qərarında verilmiş olsun.
~~10.4. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun məhkəmə təcrübəsinə dair məsələlər üzrə izahları cinayət prosesini həyata keçirən orqanlar üçün tövsiyə xarakteri daşıyır.~~[20]
10.5. Qanunun bu maddəsində göstərilən tələblərin pozulması ilə aparılan prosessual hərəkətlərin və qəbul olunmuş qərarların hüquqi qüvvəsi yoxdur.

### Maddə 11. Hər kəsin qanun və məhkəmə qarşısında hüquq bərabərliyi

11.1. Azərbaycan Respublikasında cinayət prosesi hər kəsin qanun və məhkəmə qarşısında hüquq bərabərliyi əsasında həyata keçirilir.
11.2. Cinayət prosesini həyata keçirən orqanlar cinayət prosesində iştirak edən şəxslərdən hər hansı birinə vətəndaşlıq, sosial, cinsi, irqi, milli, siyasi və dini mənsubiyyətindən, dilindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, yaşayış yerindən və olduğu yerdən asılı olmayaraq və qanunla əsaslandırılmamış digər mülahizələrə görə üstünlük vermir.

11.3. Azərbaycan Respublikasının Prezidenti*, Azərbaycan Respublikasının keçmiş Prezidenti və onun arvadı (əri),* Azərbaycan Respublikası Milli Məclisinin deputatları, Azərbaycan Respublikasının Baş naziri*, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman), Məhkəmə-Hüquq Şurasının üzvləri* və Azərbaycan Respublikasının hakimləri barəsində cinayət təqibinin xüsusiyyətləri Azərbaycan Respublikasının Konstitusiyası, bu Məcəllə və Azərbaycan Respublikasının digər qanunları ilə müəyyən edilir. [21]

**Maddə 12. Konstitusiya ilə təsbit edilmiş insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması**

12.1. Cinayət prosesini həyata keçirən orqanlar cinayət prosesində iştirak edən bütün şəxslərin Konstitusiya ilə təsbit edilmiş insan və vətəndaş hüquq və azadlıqlarına riayət olunmasını təmin etməlidirlər.
12.2. Cinayətin əlamətləri olan əməldən zərər çəkmiş şəxsin bu Məcəllədə nəzərdə tutulmuş qaydada cinayət təqibinin başlanılmasını tələb etməyə, onun həyata keçirilməsində zərər çəkmiş şəxs və ya xüsusi ittihamçı qismində iştirak etməyə, habelə vurulmuş mənəvi, fiziki və maddi ziyana görə kompensasiya almağa hüququ vardır.
12.3. Cinayət prosesi gedişində hər kəsin özünün Konstitusiya ilə təsbit edilmiş hüquq və azadlıqlarını qanunla qadağan edilməyən bütün üsul və vasitələrlə müdafiə etməyə hüququ vardır.
12.4. Prosessual məcburiyyət tədbirlərinin tətbiqi ilə əlaqədar şəxsin Konstitusiya ilə təsbit olunmuş hüquq və azadlıqlarının müvəqqəti məhdudlaşdırılması barədə qərar yalnız zərurət olduqda bu Məcəllə ilə müəyyən edilmiş hallarda və qaydada qəbul edilə bilər.
12.5. Cinayət təqibi gedişində insanların həyat və səhhətinə və ya ətraf mühitə təhlükə yaradan üsul və vasitələrdən istifadə etmək qadağandır.
12.6. Cinayət prosesini həyata keçirən orqanlar insanların həyat və səhhətinə, ətraf mühitə təhlükə yaradan halları gizlətməyə haqlı deyillər.

**Maddə 13. Şəxsin şərəf və ləyaqətinə hörmət edilməsi**

13.1. Cinayət təqibi gedişində insanın şərəf və ləyaqətini alçaldan, təhqir edən, habelə cinayət prosesində iştirak edən şəxslərin həyatı və səhhəti üçün təhlükə törədə biləcək qərarların qəbul edilməsi və ya hərəkətlərə yol verilməsi qadağandır.
13.2. Cinayət təqibi gedişində heç kəs:
13.2.1. insan ləyaqətini alçaldan rəftara və cəzaya məruz qala bilməz;
13.2.2. insan ləyaqətini alçaldan şəraitdə saxlanıla bilməz;
13.2.3. ləyaqəti alçaldan prosessual hərəkətlərin keçirilməsində iştiraka məcbur edilə bilməz.

**Maddə 14. Azadlıq hüququnun təmin edilməsi**

14.1. Hər kəsin azadlıq hüququ yalnız qanunla nəzərdə tutulmuş qaydada və hallarda onun tutulması, həbsə alınması və ya azadlıqdan məhrum edilməsi ilə məhdudlaşdırıla bilər.
14.2. Bu Məcəllə və Azərbaycan Respublikasının digər qanunu ilə müəyyən edilmiş əsaslar olmadan heç kəs tutula və həbs edilə bilməz.
14.3. Şəxsin həbsdə saxlanılmasına, habelə tibb və ya tərbiyə müəssisəsinə məcburi yerləşdirilməsinə yalnız məhkəmə qərarı əsasında yol verilir.
14.4. Hər bir tutulmuş və ya həbsə alınmış şəxsə dərhal tutulmanın, yaxud həbsə almanın səbəbləri, habelə şübhənin və ya ittihamın mahiyyəti, ifadə verməmək və müdafiəçi tərəfindən hüquqi yardım almaq hüquqları *ona aydın olan dildə* bildirilməlidir.[22]
14.5. Təhqiqatçı, müstəntiq, prokuror və ya hakim qanunsuz tutulmuş, yaxud həbsdə saxlanılan şəxsi dərhal azad etməlidir.

**Maddə 15. Şəxsiyyətin toxunulmazlığı hüququnun təmin edilməsi**

15.1. Məhkəmənin qərarı olmadan və ya tutulma, yaxud həbsə alma hallarından başqa hər hansı şəxsin axtarışı və şəxsi müayinəsi, onun toxunulmazlığı hüququnu pozan digər prosessual hərəkətlər bu şəxsin və ya onun qanuni nümayəndəsinin iradəsi əleyhinə aparıla bilməz.
15.2. Cinayət təqibi gedişində aşağıdakılar qadağandır:
15.2.1. işgəncələr vermək, fiziki və psixi zorakılıqdan, o cümlədən tibbi preparatlardan istifadə etmək, aclığa, hipnoza məruz qoymaq, tibbi yardımdan məhrum etmək, digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və cəzalar tətbiq etmək;
15.2.2. uzun sürən və ya kəskin fiziki iztirabla, yaxud səhhətin müvəqqəti pozulması ilə müşayiət olunan eksperimentlərdə və ya digər prosessual hərəkətlərdə iştiraka cəlb etmək, habelə buna bənzər hər hansı digər sınaqlar keçirmək;
15.2.3. zərər çəkmiş, şübhəli və ya təqsirləndirilən şəxsdən, habelə cinayət prosesində

iştirak edən digər şəxslərdən zorakılıq, hədə-qorxu, aldatma yolu ilə və onların hüquqlarını pozan sair qanunsuz hərəkətlər tətbiq etməklə ifadə almaq.

**Maddə 16. Şəxsi həyatın toxunulmazlığı hüququnun təmin edilməsi**

16.1. Cinayət təqibi gedişində heç kəsin şəxsi (özünün və ailəsinin) həyatın sirrinin, yazışma, telefon danışıqları, poçt-teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatların və başqa məlumatların sirrinin saxlanılması hüququ bu Məcəllədə nəzərdə tutulmuş hallardan başqa məhdudlaşdırıla bilməz.

16.2. Poçt, teleqraf və digər göndərişlərin üzərinə həbs qoyma, onu yoxlama və götürmə, telefon və digər qurğularla aparılan danışıqların və başqa rabitə və texniki kanallar vasitəsi ilə ötürülən məlumatların və başqa məlumatların tutulması bu Məcəllə ilə müəyyən edilmiş hallarda, bir qayda olaraq, məhkəmənin qərarı ilə həyata keçirilə bilər.

**Maddə 17. Mənzil toxunulmazlığı hüququnun təmin edilməsi**

17.1. Bu Məcəllədə nəzərdə tutulmuş hallardan başqa, heç kəs *yaşayış yerində* yaşayanların iradəsi ziddinə *yaşayış yerinə* daxil ola bilməz.[23]

17.2. Bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada yaşayış yerinə, xidməti və ya istehsalat binalarına baxış, orada axtarış və mülkiyyət hüququnu məhdudlaşdıran digər istintaq və prosessual hərəkətlər, bir qayda olaraq, məhkəmənin qərarı əsasında məcburi həyata keçirilir.

**Maddə 18. Mülkiyyət hüququnun təmin edilməsi**

18.1. Cinayət təqibi gedişində bu Məcəllədə nəzərdə tutulmuş hallardan başqa, heç kəsin mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ məhdudlaşdırıla bilməz.

18.2. Prosessual hərəkətlərin həyata keçirilməsi zamanı götürülmüş əmlak müvafiq prosessual hərəkətə dair protokolda göstərilməli, ətraflı siyahıya alınmalı və əmlakın məsuliyyətlə saxlanılması üçün götürülməsinə dair əmlak sahibinə qəbz verilməlidir.

18.3. Cinayət təqibi gedişində pul cərimələsinin tətbiqi, habelə əmlak üzərinə həbs qoyulması məhkəmənin qərarı ilə həyata keçirilir. [24]

**Maddə 19. Hüquqi yardım almaq və müdafiə hüququnun təmin edilməsi**

19.1. Cinayət təqibi gedişində təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə zərər çəkmiş, şübhəli və ya təqsirləndirilən şəxslərin keyfiyyətli hüquqi yardım almaq hüququnu təmin etmək üçün tədbirlər görməlidir.

19.2. Cinayət prosesini həyata keçirən orqan, zərər çəkmiş şəxs (xüsusi ittihamçı), mülki iddiaçı , mülki cavabdeh və ya onların qanuni nümayəndələrinin, *habelə barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin* cinayət, prosesi gedişində özlərinin bu Məcəllə ilə müəyyən edilmiş qaydada dəvət etdiyi nümayəndənin hüquqi yardımından istifadə etmək hüququnu gözləməlidir. [25]

19.3. Zərər çəkmiş şəxsin və ya şahidin dindirilməsi zamanı cinayət prosesini həyata keçirən orqanın həmin şəxslərin nümayəndə qismində dəvət etdikləri vəkilin onların yanında olmasını qadağan etməyə hüququ yoxdur.

19.4. Cinayət prosesini həyata keçirən orqan şübhəli və ya təqsirləndirilən şəxsin bu məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada aşağıdakı hüquqlarını təmin etməlidir:

19.4.1. tutulduğu, həbsə alındığı və ya müvafiq olaraq şübhəli şəxs qismində birinci dindirməyədək, yaxud təqsirləndirilən şəxsə ittiham elan edildiyi andan müdafiəçinin yardımından istifadə etmək;

19.4.2. hüquqlarını izah etmək;

19.4.3. öz müdafiəsini hazırlamaq üçün kifayət qədər vaxt vermək və imkan yaratmaq;

19.4.4. şəxsən və ya özünün seçdiyi müdafiəçi vasitəsi ilə müdafiə olunmaq, yaxud müdafiəçinin haqqını ödəmək üçün kifayət qədər vəsaiti olmadıqda, pulsuz hüquqi yardım almaq;

19.4.5. onun əleyhinə ifadə vermiş şahidləri *məhkəmə istintaqı zamanı* dindirmək. [26]

19.5. Cinayət prosesini həyata keçirən orqan bu Məcəllə ilə müəyyən edilmiş hallarda şübhəli və ya təqsirləndirilən şəxsin qanuni nümayəndəsini işə cəlb etməlidir.

19.6. Cinayət prosesində şübhəli və ya təqsirləndirilən şəxsin müdafiəçisinin və qanuni nümayəndəsinin iştirak etməsi bu şübhəli və ya təqsirləndirilən şəxsin hüquqlarını məhdudlaşdıra bilməz.

19.7. Şübhəli və ya təqsirləndirilən şəxs ifadə verməyə, cinayət prosesini həyata keçirən orqana hər hansı materiallar təqdim etməyə və onlara hər hansı yardım göstərməyə məcbur edilə bilməz.

**Maddə 20. Özünü və qohumlarını ifşa etməkdə sərbəstlik**

20.1. Heç kəs şəxsən özünün və yaxın qohumlarının əleyhinə ifadə verməyə məcbur edilə bilməz və buna görə hər hansı təqibə məruz qala bilməz.
20.2. İbtidai araşdırma və ya məhkəmə baxışı zamanı özünü, yaxud yaxın qohumlarını cinayət törətməkdə ifşa edən məlumatları verməsi təklif olunan şəxs bunun özü üçün hər hansı mənfi hüquqi nəticə verə biləcəyindən qorxmadan ifadə verməkdən imtina etməyə haqlıdır.

**Maddə 21. Təqsirsizlik prezumpsiyası**

21.1. Cinayətin törədilməsində təqsirləndirilən hər bir şəxs onun təqsiri bu Məcəllədə nəzərdə tutulmuş qaydada sübuta yetirilməyibsə və bu barədə qanuni qüvvəyə minmiş məhkəmənin hökmü yoxdursa, təqsirsiz sayılır.
21.2. Şəxsin təqsirli olduğuna əsaslı şübhələr varsa da onun təqsirli bilinməsinə yol verilmir. Bu Məcəllənin müddəalarına uyğun surətdə müvafiq hüquqi prosedur daxilində ittihamın sübuta yetirilməsində aradan qaldırılması mümkün olmayan şübhələr təqsirləndirilən şəxsin (şübhəli şəxsin) xeyrinə həll edilir. Eyni ilə cinayət və cinayət-prosessual qanunlarının tətbiqində aradan qaldırılmamış şübhələr də onun xeyrinə həll olunmalıdır.
21.3. Cinayət törədilməsində təqsirləndirilən şəxs özünün təqsirsiz olmasını sübuta yetirməyə borclu deyildir. İttihamı sübuta yetirmək, şübhəli və ya təqsirləndirilən şəxsin müdafiəsi üçün irəli sürülən dəlilləri təkzib etmək vəzifəsi ittiham tərəfinin üzərinə düşür.

**Maddə 22. Məhkəmə baxışını tələb etmək hüququnun təmin olunması**

Cinayət prosesini həyata keçirən orqanlar bu Məcəllə ilə müəyyən edilmiş qaydada hər kəsin ona qarşı irəli sürülmüş ittiham, yaxud barəsində tətbiq olunmuş prosessual məcburiyyət tədbirləri ilə əlaqədar ədalətli və açıq məhkəmə baxışının aparılmasını tələb etmək hüququnu təmin etməlidirlər. Hər hansı səbəbdən məhkəmə baxışını tələb etmək hüququnun rədd edilməsi yolverilməzdir.

**Maddə 23. Cinayət mühakimə icraatının yalnız məhkəmə tərəfindən həyata keçirilməsi**

23.1. Cinayət mühakimə icraatı Azərbaycan Respublikasının məhkəmə sisteminə daxil olan səlahiyyətli məhkəmə tərəfindən həyata keçirilir. Məhkəmənin hökmü olmadan heç kəs cinayət törətməkdə təqsirli sayıla və məhkum oluna bilməz.
23.2. Fövqəladə məhkəmələrin yaradılması və ya məhkəmənin səlahiyyətlərinin mənimsənilməsi yolverilməzdir və Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş məsuliyyətə səbəb olur.
23.3. Fövqəladə məhkəmələrin və digər qanunsuz yaradılmış məhkəmələrin hökm və digər qərarlarının hüquqi qüvvəsi yoxdur və icra edilməməlidir.

**~~Maddə 24. Cinayət mühakimə icraatının xalqın nümayəndələrinin iştirakı ilə həyata keçirilməsi~~**[27]

~~24.1. Bu Məcəllənin 359-cu maddəsində nəzərdə tutulmuş hallarda təqsirləndirilən şəxs cinayət təqibi üzrə ona qarşı irəli sürülmüş ittiham üzrə ədalət mühakiməsinin andlılar məhkəməsi tərəfindən həyata keçirilməsini tələb etmək hüququna malikdir.~~
~~24.2. Bu Məcəllənin 24.1-ci maddəsində göstərilən hüququn təmin edilməsi üçün birinci instansiya məhkəməsi cinayət işləri üzrə ədalət mühakiməsinin həyata keçirilməsinə andlı iclasçılar qismində Azərbaycan Respublikasının vətəndaşlarını cəlb etməlidir.~~

**Maddə 25. Hakimlərin ~~və andlı iclasçıların~~ müstəqilliyi**[28]

25.1. Hakimlər ~~və andlı iclasçılar~~ müstəqildirlər və yalnız Azərbaycan Respublikası qanunlarının tələblərinə tabedirlər.
25.2. Hakimlər ~~və andlı iclasçılar~~ cinayət prosesini həyata keçirən orqanların ibtidai araşdırmada gəldikləri nəticələrlə bağlı deyillər.
25.3. Hakimlər ~~və andlı iclasçılar~~ cinayət işlərini və ya cinayət təqibi ilə bağlı digər materialları məhkəmə iclasında cinayət prosesi tərəflərinin təqdim etdikləri sübutların tədqiqinə əsaslanan öz daxili inamı və hüquq düşüncəsi ilə həll edirlər.
25.4. Azərbaycan Respublikasının məhkəmələri ədalət mühakiməsini hakimlərin ~~və andlı iclasçıların~~ müstəqilliyinə və iradəsinə qanunsuz təsiri istisna edən şəraitdə həyata keçirirlər.
25.5. Heç kəsin ədalət mühakiməsinin həyata keçirilməsinə müdaxilə etməyə, hakimlərdən

~~, andlı iclasçılardan~~ onların baxdığı, yaxud icraatlarında olan cinayət işləri və ya cinayət təqibi ilə bağlı digər materialların mahiyyəti üzrə izahat tələb etməyə hüququ yoxdur.

25.6. Hər hansı şəxs tərəfindən hər hansı səbəbdən ədalət mühakiməsinin həyata keçirilməsinin birbaşa və ya dolayı yolla məhdudlaşdırılması, ona qanunsuz təsir, hədə-qorxu, müdaxilə edilməsi, hörmətsizlik göstərilməsi, məhkəməyə qarşı açıq-aşkar etinasız hərəkətlər edilməsi yolverilməzdir və Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş məsuliyyətə səbəb olur.

**Maddə 26. Cinayət mühakimə icraatının aparıldığı dil**

26.1. Azərbaycan Respublikası məhkəmələrində cinayət mühakimə icraatı Azərbaycan Respublikasının dövlət dilində və ya müvafiq ərazinin əhalisinin çoxluq təşkil edən hissəsinin dilində aparılır.

26.2. Cinayət prosesini həyata keçirən orqan cinayət mühakimə icraatının aparıldığı dili bilməyən cinayət prosesi iştirakçılarının aşağıdakı hüquqlarını təmin etməlidir:

26.2.1. cinayət prosesi iştirakçılarına öz ana dilindən istifadə etmək hüququnu izah etmək:

26.2.2. ibtidai araşdırma və məhkəmə baxışı zamanı tərcüməçinin köməyindən pulsuz istifadə etmək, ibtidai araşdırma qurtardıqdan sonra cinayət işi və ya cinayət təqibi ilə bağlı digər materiallarla tam tanış olmaq, məhkəmədə ana dilində çıxış etmək;

26.3. Cinayət mühakimə icraatının aparıldığı dili bilməyən cinayət prosesi iştirakçılarının bu Məcəllənin 26.2.2-ci maddəsində göstərilən hüquqlarının təmin olunması Azərbaycan Respublikasının dövlət büdcəsi hesabına həyata keçirilir.

26.4. Cinayət prosesini həyata keçirən orqan təqdim edilməli sənədləri müvafiq şəxslərə cinayət mühakimə icraatının aparıldığı dildə təqdim edir. *Cinayət mühakimə icraatının aparıldığı dili bilməyən müvafiq şəxslərə təqdim edilməli sənədlər onların ana dilində və ya onların bildiyi başqa dildə təqdim edilir.* [29]

**Maddə 27. Cinayət mühakimə icraatının aşkarlığı**

27.1. Bu Məcəllədə nəzərdə tutulmuş dövlət, peşə və kommersiya sirlərinin, habelə vətəndaşların şəxsi və ailə sirlərinin, *yetkinlik yaşına çatmayan şəxslərin maraqlarının* qorunması halları istisna olmaqla, Azərbaycan Respublikasında cinayət işləri və cinayət təqibi ilə bağlı digər materiallar üzrə ədalət mühakiməsi bütün məhkəmələrdə açıq aparılır.[30]

27.2. Bu Məcəllədə nəzərdə tutulmuş hallar istisna olmaqla Azərbaycan Respublikasının məhkəmələrində cinayət işləri və cinayət təqibi ilə bağlı digər materiallar üzrə ədalət mühakiməsinin qiyabi aparılmasına yol verilmir.

27.3. Bütün hallarda cinayət mühakimə icraatı zamanı qəbul olunmuş məhkəmə qərarları açıq elan olunur.

**Maddə 28. Cinayət mühakimə icraatının obyektivliyi, qərəzsizliyi və ədalətliliyi**

28.1. Məhkəmələr cinayət işlərinə və cinayət təqibi ilə bağlı digər materiallara məhkəmə iclaslarında yalnız bu Məcəlləyə müvafiq surətdə müəyyən edilmiş hüquqi prosedurlara uyğun faktlar əsasında, qərəzsiz və ədalətlə baxmalıdırlar.

28.2. Hakimlər cinayət mühakimə icraatını həyata keçirərkən qanunun mənafeyindən başqa hər hansı bir mənafeyi ifadə edə bilməzlər.

28.3. Hakim ~~və ya andlı iclasçı~~ şəxsən cinayət prosesinin nəticəsi ilə birbaşa, yaxud dolayı yolla maraqlıdırsa, cinayət işi və ya cinayət təqibi ilə bağlı digər material üzrə ədalət mühakiməsinin həyata keçirilməsində iştirak edə bilməz.[31]

28.4. Cinayət mühakimə icraatını həyata keçirərkən məhkəmələr aşağıdakı vəzifələri yerinə yetirməlidirlər:

28.4.1. cinayət prosesində tərəflərə cinayət təqibi ilə əlaqədar bütün halların hərtərəfli, tam və obyektiv tədqiq edilməsi üçün zəruri şəraiti təmin etmək;

28.4.2. şübhəli və ya təqsirləndirilən şəxsi həm ifşa edən, həm də ona bəraət verən halları, habelə məsuliyyəti yüngülləşdirən və ağırlaşdıran halları nəzərə almaq;

28.4.3. şübhəli və ya təqsirləndirilən şəxsin təqsirsizliyi, yaxud az təqsirliliyi barədə, habelə ona bəraət verən və ya məsuliyyətini yüngülləşdirən hallar üzrə sübutların olması barədə özü, yaxud müdafiəçisi tərəfindən irəli sürülən ərizə və vəsatətlərə baxmaq;

28.4.4. cinayət prosesi gedişində qanunun pozulması ilə əlaqədar verilən şikayətləri yoxlamaq;

28.4.5. cinayət prosesi iştirakçılarının iştirak etmək hüququnu təmin etmək.

28.5. Şəxsin cinayət törətməkdə təqsirli olmasına dair məhkəmə qərarı mülahizələrə əsaslana bilməz və işə aid biri digərinə kifayət qədər uyğun gələn mötəbər sübutların məcmusu ilə təsdiq olunmalıdır.

28.6. Ədalət mühakiməsinin həyata keçirilməsi qaydalarının ayrı-ayrı işlər və şəxslər

üçün, habelə müəyyən şəraitə görə, yaxud hər hansı bir zaman dövründə özbaşınalıqla dəyişdirilməsinə yol verilmir.

**Maddə 29. Məhkəmə aidiyyətinə əməl olunması**

29.1. Heç kəs onun işinə aidiyyəti qanunla müəyyən edilmiş məhkəmədə baxılması hüququndan məhrum oluna bilməz. Şəxsin razılığı olmadan onun işinə başqa məhkəmədə baxılmasına yol verilmir.

*29.2. İşin qanuni hakimin icraatından əsassız götürülməsi və ya bu Məcəllədə nəzərdə tutulmuş hallar istisna olmaqla məhkəmə aidiyyətinin dəyişdirilməsi qadağandır.*[32]

**Maddə 30. Hakimin cinayət mühakimə icraatında iştirakının məhdudlaşdırılması**

30.1. Birinci, apellyasiya və ya kassasiya instansiyası məhkəməsində cinayət mühakimə icraatında iştirak etmiş hakimin məhkəmə baxışında təkrar iştirakına yol verilmir.

30.2. Bu Məcəllənin 109-cu maddəsində nəzərdə tutulmuş hallarda hakim cinayət işlərinə və cinayət təqibi ilə bağlı digər materiallara baxılmasından özü kənarlaşmalı və ya kənarlaşdırılmalıdır.

**Maddə 31. Cinayət mühakimə icraatında qeyri-prosessual münasibətlərin yolverilməzliyi**

Məhkəmə tərkibi və cinayət prosesi iştirakçıları arasında, habelə birinci, apellyasiya və kassasiya instansiyası məhkəmələri arasında cinayət işlərinə və ya cinayət təqibi ilə bağlı digər materiallara baxılması ilə əlaqədar bu Məcəllədə nəzərdə tutulmayan qeyri-prosessual münasibətlər yolverilməzdir.

**Maddə 32. Cinayət prosesində tərəflərin çəkişməsi**

32.1. Azərbaycan Respublikasında cinayət mühakimə icraatı ittiham və müdafiə tərəfinin çəkişməsi əsasında həyata keçirilir.

32.2. Bu Məcəllədə nəzərdə tutulmuş qaydada cinayət prosesində tərəflərin çəkişməsini təmin etmək məqsədi ilə:

32.2.1. hər bir tərəf məhkəmədə təmsil olunur;

32.2.2. hər bir tərəf məhkəmədə öz mövqeyini müdafiə etmək üçün bərabər hüquqlara və imkanlara malikdir;

32.2.3. ittiham tərəfi cinayət hadisəsinin baş verməsini, cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin əlamətlərinin mövcudluğunu, bu əməlin törədilməsinə təqsirləndirilən şəxsin aidiyyətini, cinayəti törətmiş şəxsin cinayət məsuliyyətinə cəlb olunmasının mümkünlüyünü sübut edir, təqsirləndirilən şəxsin əməlinin hüquqi tövsifinə və məhkəmənin yekun qərarına dair öz təkliflərini verir;

32.2.4. müdafiə tərəfi cinayət təqibi ilə bağlı irəli sürümüş ittihamı təkzib edir və ya cinayət prosesini həyata keçirən orqanın diqqətini təqsirləndirilən şəxsin cinayət məsuliyyətindən azad edilməsinə və ya cinayət məsuliyyətini yüngülləşdirən halların mövcudluğuna cəlb edir və təqsirləndirilən şəxsin əməlinin hüquqi tövsifinə və məhkəmənin yekun qərarına dair öz təkliflərini verir;

32.2.5. hər bir tərəf heç kimdən asılı olmayaraq müstəqil surətdə öz mövqeyini seçir və onu müdafiə etmək üçün vasitə və üsullarını müəyyən edir;

32.2.6. məhkəmə cinayət prosesi tərəflərindən hər birinin vəsatəti ilə əlavə olaraq zəruri materialların əldə edilməsinə kömək göstərir;

32.2.7. məhkəmə tərəfindən hökm yalnız cinayət prosesi tərəflərinin iştirakı bərabər əsaslarla təmin edilməklə tədqiq olunmuş sübutlarla əsaslandırılır;

32.2.8. dövlət ittihamçısı və xüsusi ittihamçı cinayət təqibini həyata keçirir və cinayət təqibindən imtina edir;

32.2.9. təqsirləndirilən şəxs sərbəst olaraq təqsirli olduğunu inkar edir və ya özünü təqsirli bilir;

32.2.10. mülki iddiaçı iddiadan imtina edir və ya mülki cavabdehlə barışıq sazişi bağlayır;

32.2.11. mülki cavabdeh iddianı qəbul edir və ya mülki iddiaçı ilə barışıq sazişi bağlayır.

**Maddə 33. Cinayət mühakimə icraatında sübutların qiymətləndirilməsi**

33.1. Hakimlər ~~və andlı iclasçılar~~ cinayət mühakimə icraatının həyata keçirilməsində cinayət işi üzrə toplanmış sübutları bu Məcəllənin tələblərinə əsasən qiymətləndirirlər.[33]

33.2. Cinayət mühakimə icraatı həyata keçirilərkən bu Məcəllənin 125, 144 -146-cı maddələrinin müddəalarının pozulması yolverilməzdir.

33.3. Cinayət prosesində heç bir sübutun və digər materialın qabaqcadan müəyyən edilmiş

qüvvəsi yoxdur.
33.4. Hakimlərin ~~və andlı iclasçıların~~ sübutlara və sair materiallara qərəzli münasibət bəsləməsi, mövcud hüquqi prosedur daxilində tədqiq edilənədək sübut və digər materiallardan birinə digərinə nisbətdə çox və ya az əhəmiyyət verilməsi yolverilməzdir.[34]

**Maddə 34. Eyni əmələ görə təkrar məhkum etmənin yolverilməzliyi**

34.1. Heç kəs eyni əməlin törədilməsinə görə təkrar məhkum edilə bilməz.
34.2. Bu Məcəllənin 41-ci maddəsində nəzərdə tutulmuş hallarda məhkəmədə müvafiq olaraq dövlət ittihamçısının və ya xüsusi ittihamçının şəxsə qarşı cinayət təqibindən könüllü imtina etməsi eyni əməlin təkrarən həmin şəxsə istinad edilməsini istisna edir (yeni açılmış hallardan başqa).
34.3. Hər hansı əməlin törədilməsinə görə şəxsin barəsində qanuni qüvvəyə minmiş məhkəmənin hökmü varsa, həmin şəxsin haqqında eyni əmələ görə cinayət təqibinin təzələnməsi, ittihamın daha ağır ittihamla əvəz edilməsi və ona daha ağır cəza təyin edilməsi yolverilməzdir.

**Maddə 35. Məhkəməyə təkrar müraciət etmək hüququnun təmin olunması**

35.1. Bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada cinayət prosesi iştirakçısının cinayət işinin və ya cinayət təqibi ilə bağlı digər materialın baxılmasında məhkəmənin qəbul etdiyi prosessual qərar və hərəkətlərdən yuxarı məhkəməyə şikayət etmək hüququ vardır.
35.2. Məhkum olunmuş hər bir şəxs yuxarı məhkəməyə şikayət verərək aşağıdakı hüquqları həyata keçirir:
35.2.1. barəsində çıxarılmış məhkəmə hökmünün qanunsuz və əsassız olması ilə əlaqədar işə yenidən baxılmasını xahiş etmək;
35.2.2. barəsində çıxarılmış hökmlə təyin olunmuş cəzanın ağırlığı ilə əlaqədar onun yüngülləşdirilməsini xahiş etmək.
35.3. Məhkumun bu Məcəllənin 35.1 və 35.2-ci maddələrində nəzərdə tutulmuş hüquqlarının məhdudlaşdırılması yolverilməzdir.

**Maddə 36. Bəraət qazanmış şəxsin pozulmuş hüquqlarının bərpasının təmin edilməsi**

36.1. Cinayət prosesinin gedişində bu Məcəllənin 55, 56-cı maddələrində nəzərdə tutulmuş şəxslərin pozulmuş hüquq və azadlıqlarının bərpasını və onlara vurulmuş ziyanın ödənilməsini tələb etmək hüququ cinayət prosesini həyata keçirən orqan tərəfindən təmin edilməlidir.
36.2. Vəzifə səlahiyyətlərindən sui-istifadə və ya cinayət nəticəsində zərər çəkmiş, habelə təqsirsiz məhkum olunmuş, qanunsuz həbsdə saxlanılmış, yaxud cinayət prosesi gedişində hüquqları digər formada məhdudlaşdırılmış şəxslərin hüquqları bu Məcəllə ilə və Azərbaycan Respublikasının digər qanunları ilə müəyyən edilmiş qaydada bərpa olunur.

## III fəsil

## Cinayət təqibi

**Maddə 37. Cinayət təqibinin növləri**

37.1. Cinayətin xarakterindən və ağırlıq dərəcəsindən asılı olaraq cinayət təqibi bu Məcəllənin müddəalarına uyğun xüsusi, ictimai-xüsusi və ya ictimai ittiham qaydasında həyata keçirilir.
37.2. Xüsusi ittiham qaydasında cinayət təqibi yalnız zərər çəkmiş şəxsin şikayəti əsasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 147, 148, 165.1 və 166.1-ci maddələrində göstərilən cinayətlər üzrə həyata keçirilir və məhkəmə müşavirə otağına gedənədək zərər çəkmiş şəxs təqsirləndirilən şəxslə barışdıqda ona xitam verilir.
37.3. İctimai-xüsusi ittiham qaydasında cinayət təqibi zərər çəkmiş şəxsin şikayəti əsasında və ya bu Məcəllənin 37.5-ci maddəsində nəzərdə tutulmuş hallarda prokurorun təşəbbüsü ilə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 127, 128, 129.2, 130.2, ~~131.1,~~ 133, 134, 142.1, *148-1,* 149.1, 150.1, 151, 156–158, 163, 169-1, 175–177.1, 178.1, 179.1, ~~184.1,~~ 186.1, 187.1, 190.1, 197 və 201.1-ci maddələrində göstərilən cinayətlərə görə həyata keçirilir.[35]
37.4. İctimai-xüsusi ittiham qaydasında cinayət təqibinə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 73-cü *və 73-1-ci maddələrində* nəzərdə tutulmuş hallardan başqa zərər çəkmiş şəxslə təqsirləndirilən şəxsin barışması ilə əlaqədar xitam verilə bilməz.[36]
37.5. İctimai-xüsusi ittiham qaydasında cinayət təqibi zərər çəkmiş şəxsin şikayəti olmadan prokuror tərəfindən yalnız aşağıdakı hallarda başlanıla bilər:

37.5.1. törədilmiş cinayət dövlətin və ya cəmiyyətin mənafeyinə toxunduqda;
37.5.2. cinayət hakimiyyət nümayəndəsi və ya dövlət orqanlarının digər vəzifəli şəxsləri tərəfindən, yaxud onlara qarşı törədildikdə;
37.5.3. cinayət hamilə vəziyyətdə olan qadın, qoca və köməksiz vəziyyətdə olan şəxs barəsində törədildikdə;
37.5.4. cinayət hədə-qorxu, məcburiyyət təsiri altında və ya onu törətmiş şəxsdən asılı vəziyyətdə olan digər şəxs barəsində törədildikdə;
37.5.5. cinayət fəaliyyət qabiliyyəti olmayan və ya cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamış şəxs tərəfindən və ya ona qarşı törədildikdə.
37.6. Bu Məcəllənin 37.2 və 37.3-cü maddələrində göstərilməyən digər cinayətlər üzrə cinayət təqibi ictimai ittiham qaydasında həyata keçirilir.

**Maddə 38. Cinayət təqibinin həyata keçirilməsi vəzifəsi**

38.1. Təhqiqatçı, müstəntiq və ya prokuror hazırlanan, yaxud törədilən cinayətin əlamətlərini əks etdirən əməllər barədə məlumat aldıqda və ya cinayət hadisəsini bilavasitə aşkar etdikdə bu Məcəllə ilə müəyyən edilmiş qaydada cinayətin izlərinin qorunması və götürülməsi üçün tədbirlər görməli, həmçinin öz səlahiyyətləri daxilində dərhal təhqiqat və ya istintaq aparmalıdırlar.
38.2. Cinayətin baş verməsi təsdiq olunarsa, dövlət ittihamçısı təqsirləndirilən şəxsi məhkəmə qarşısında ifşa və ona layiqli cəza tələb etməli, zəruri hallarda isə şəxsin barəsində tibbi və ya tərbiyəvi xarakterli məcburi tədbirlərin tətbiq edilməsini tələb etməlidir.
38.3. Cinayət prosesini həyata keçirən orqan cinayət qanunu ilə nəzərdə tutulmuş hərəkətlər nəticəsində vurulmuş ziyanın ödənilməsi məqsədi ilə tədbirlər görməlidir.
38.4. Cinayət təqibi cinayət məsuliyyətini istisna edən hallar aşkar edilənədək və ya bu Məcəllə ilə müəyyən edilmiş hallarda və qaydada dövlət ittihamçısı, yaxud xüsusi ittihamçı cinayət təqibindən imtina edənədək həyata keçirilməlidir.

**Maddə 39. Cinayət təqibini istisna edən hallar**

39.1. Aşağıdakı hallarda cinayət təqibi başlanıla bilməz, başlanmış cinayət təqibinə isə xitam verilməlidir (o cümlədən cinayət işi başlana bilməz, başlanılmış cinayət işi üzrə icraata isə xitam verilməlidir):
39.1.1. cinayət hadisəsi olmadıqda;
39.1.2. əməldə cinayət tərkibi olmadıqda;
39.1.3. cinayət məsuliyyətinə cəlbetmə müddətləri keçdikdə (cinayət məsuliyyətinə cəlbetmə müddətinin dayandırılması halları istisna edilməklə);
39.1.4. cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin baş verdiyi anda onu törətmiş şəxs cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmadıqda (həmin şəxsə qarşı tərbiyəvi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi zəruri olan hallar istisna edilməklə);
39.1.5. şəxs cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətdikdən sonra öldükdə (ölən şəxsə bəraət verilməsi zəruri olduğu hallar istisna edilməklə);
39.1.6. şəxs barəsində eyni ittiham üzrə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü və ya digər məhkəmənin cinayət təqibini qeyri-mümkün edən ləğv edilməmiş qərarı olduqda;
39.1.7. şəxs barəsində eyni ittiham üzrə təhqiqatçının, müstəntiqin və ya prokurorun cinayət işi başlanmasının rədd edilməsi və ya ona xitam verilməsi haqqında ləğv edilməmiş qərarı olduqda;
39.1.8. zərər çəkmiş şəxsin şikayəti olmadıqda (cinayət təqibi xüsusi ittiham qaydasında həyata keçirildikdə, habelə cinayət təqibinin başlanmasına prokurorun təşəbbüsü olmadığı halda cinayət təqibi ictimai-xüsusi ittiham qaydasında həyata keçirildikdə);
39.1.9. zərər çəkmiş şəxslə təqsirləndirilən şəxs barışdıqda (cinayət təqibi yalnız xüsusi ittiham qaydasında həyata keçirildikdə);
39.1.10. şəxs cinayət qanunu ilə nəzərdə tutulmuş əməli anlaqsız vəziyyətdə törətdikdə (bu şəxslərə qarşı tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi halları istisna olunmaqla);
39.1.11. cinayət qanunu müddəalarının qüvvəsinə görə şəxsin cinayət məsuliyyətindən azad edilməsi üçün əsaslar olduqda;KMQ9
39.1.12. amnistiya aktına əsasən şəxs cinayət məsuliyyətindən azad edilməli olduqda.
39.2. Hər hansı şəxs barəsində başlanılmış cinayət təqibinə həmçinin onun cinayət törədilməsinə aidiyyəti olmadıqda və ya təqsirliliyi sübuta yetirilmədikdə xitam verilir.
39.3. Bu Məcəllənin 39.1.1, 39.1.2 və 39.2-ci maddələrində nəzərdə tutulmuş hallarda cinayət təqibi bəraətverici əsaslarla xitam verilmiş hesab olunur.

**Maddə 40. Cinayət təqibinin həyata keçirilməməsinə imkan verən hallar**

40.1. Cinayət qanunu ilə nəzərdə tutulmuş cinayət məsuliyyətindən və cəzadan azad etmə

hallarının mövcudluğu cinayət təqibinin həyata keçirilməməsinə imkan verir.

40.2. Şəxsin cinayət məsuliyyətindən azad edilməsi üçün Azərbaycan Respublikası Cinayət Məcəlləsinin *72.1, 73.1, 73-1.3 və 74-cü* maddələrində nəzərdə tutulmuş *hallarda təhqiqatçının və ya* müstəntiqin prokurorla razılaşdırılmış qərarına əsasən cinayət təqibi başlanılmaya və ya ona xitam verilə bilər. [37]

~~40.2.1. səmimi peşmanlıq çəkdikdə;~~

~~40.2.2. zərər çəkmiş şəxslə barışdıqda;~~

~~40.2.3. şərait dəyişdikdə;~~

~~40.2.4. müddət keçdikdə.~~ [38] .

*40.3. Şəxsin cinayət məsuliyyətindən azad edilməsi üçün Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 72.2-ci, 73.2-ci, 73.3-cü, 73-1.1-ci və 73-1.2-ci maddələrində, habelə Xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş hallar müəyyən edildikdə təhqiqatçının və ya müstəntiqin prokurorla razılaşdırılmış qərarına əsasən cinayət təqibi başlanılmır və ya ona xitam verilir.* [39] KMQ12

*40.4. Şəxsin iqtisadi fəaliyyət sahəsində olan cinayətlərə görə cinayət məsuliyyətindən azad edilməsi üçün Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 73-2-ci maddəsində nəzərdə tutulmuş hallar müəyyən edildikdə təhqiqatçının və ya müstəntiqin qərarına əsasən cinayət təqibi başlanılmır və ya ona xitam verilir.*

*40.5. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 72 – 73-2-ci maddələrində nəzərdə tutulmuş cinayət əməlləri iştirakçılıqla törədildiyi hallarda həmin Məcəllənin 72-ci maddəsinin "Qeyd" hissəsinin 2-ci bəndinə əsasən zərərçəkmiş şəxsə dəymiş ziyan və dövlət büdcəsinə ödənişin iştirakçıların hər biri tərəfindən müəyyən pay üzrə ödənilməsi məhkəməyədək icraat zamanı təhqiqatçının və ya müstəntiqin prokurorla razılaşdırılmış qərarı, məhkəmə icraatı zamanı isə məhkəmənin qərarı ilə həll olunur.*[40]

**Maddə 41. Cinayət təqibinə xitam verilməsi qaydası**

41.1. Təhqiqatçı, müstəntiq və ya prokuror cinayət təqibi üzrə icraatın məhkəməyədək hər hansı mərhələsində bu Məcəllənin 39-cu maddəsində göstərilən halları aşkar edərsə, cinayət təqibinə xitam verilməsi barədə (o cümlədən cinayət işi üzrə icraata xitam verilməsi barədə) qərar çıxarır.

*41.1-1. Cinayət təqibi üzrə icraata bəraətverici əsaslar olmadan xitam verilməli olduğu, lakin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müddəalarına əsasən xüsusi müsadirənin tətbiq edilməsi üçün əsaslar müəyyən edildiyi hallarda, cinayət təqibi üzrə icraat bu Məcəllə ilə müəyyən edilmiş qaydada davam etdirilir və məhkəmənin yekun qərarının çıxarılması ilə başa çatdırılır.*[41]

41.2. Təhqiqatçı, müstəntiq və ya prokuror bəraətverici əsaslar olmadıqda təqsirləndirilən (şübhəli şəxsin) ,habelə ölmüş təqsirləndirilən (şübhəli) şəxsin və ya cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş, lakin təqsirləndirilən (şübhəli) şəxs qismində tanınanadək ölmüş şəxsin hüquqi varisinin, hüquqi varis müəyyən edilmədiyi, o cümlədən bu Məcəllənin 106-1.4-cü maddəsində nəzərdə tutulmuş hallarda müdafiəçinin, *barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin nümayəndəsinin* razılığı olmadan cinayət təqibinə xitam verilməsi barədə qərar çıxara bilməz. Belə halda cinayət təqibi üzrə icraat bu Məcəllə ilə müəyyən edilmiş qaydada davam etdirilir və hökmün, məhkəmənin digər qərarının çıxarılması ilə başa çatdırılır. [42]

41.3. Dövlət ittihamçısı məhkəmədə cinayət təqibini istisna edən *və bu Məcəllənin 40.3-cü və 40.4-cü maddələrində göstərilən cinayət təqibinin həyata keçirilməməsinə imkan verən* halları aşkar edərsə, təqsirləndirilən şəxs barəsində cinayət təqibindən imtina edilməsini bildirməlidir. *Dövlət ittihamçısı bəraətverici əsaslar olmadıqda təqsirləndirilən şəxs barəsində ittihamdan müdafiə tərəfinin razılığı ilə imtina edir.* Xüsusi ittihamçı ittihamı müdafiə etməkdə davam edərsə, təqsirləndirilən şəxsin cinayət təqibindən imtina edilməsi barədə dövlət ittihamçısının mövqeyi cinayət işinə və ya cinayət təqibi ilə bağlı digər materiala məhkəmədə baxılmasının davam etdirilməsinə mane olmur. [43]

41.4. Məhkəmə baxışı başlananadək məhkəmə cinayət təqibini istisna edən *və cinayət təqibinin həyata keçirilməməsinə imkan verən* halları aşkar edərsə, təqsirləndirilən şəxs haqqında cinayət təqibindən imtina edilməsi məsələsinin həll olunmasını dövlət ittihamçısına təklif edə bilər. [44]

41.5. Məhkəmə baxışı başlanandan sonra məhkəmə cinayət təqibini istisna edən *bəraətverici əsasları* aşkar edərsə, məhkəmə baxışını başa çatdırır və *dövlət ittihamçısı və xüsusi ittihamçı cinayət təqibindən imtina etmədiyi hallarda* bəraət hökmü çıxarır. ~~Cinayət işinə andlılar məhkəməsində baxılarkən göstərilən hallar aşkar edilərsə, şəxsin təqsirli olub-olmaması məsələsi andlı iclasçılar tərəfindən həll edilir.~~[45]

41.6. Dövlət ittihamçısı bu Məcəllənin *40.2-ci* maddəsində göstərilən cinayət təqibinin həyata keçirilməməsinə imkan verən halları məhkəmədə aşkar edərsə, təqsirləndirilən şəxsin barəsində cinayət təqibindən imtina edilməsini bildirməyə haqlıdır. Dövlət ittihamçısının cinayət təqibindən imtina etməsi barədə mövqeyi xüsusi ittihamçının təqsirləndirilən şəxsin barəsində cinayət təqibini davam etdirməsinə mane olmur.[46]

41.7. Xüsusi ittiham qaydasında cinayət təqibindən imtina edilməsi yalnız zərər çəkmiş

şəxsin iradəsindən asılıdır. Bu halda xüsusi ittiham qaydasında şikayət üzrə icraata məhkəmə tərəfindən xitam verilməlidir. [47]

**Maddə 42. Bəraətin əsasları**

42.1. Məhkəmə baxışı nəticəsində təqsirləndirilən şəxsə qarşı irəli sürülmüş cinayətin törədilməsində onun təqsirsizliyini təsdiq edən bəraət hökmü aşağıdakı hallarda çıxarılır:
42.1.1. cinayət hadisəsi olmadıqda;
42.1.2. əməldə cinayət tərkibi olmadıqda;
42.1.3. cinayətin törədilməsinə aidiyyəti olmadıqda;
42.1.4. təqsirliliyi sübuta yetirilmədikdə.
~~42.1.5. andlı iclasçılar kollegiyası şəxsin təqsirsizliyi barədə verdikt çıxardıqda.~~ [48]
42.2. Bəraət hökmü aşağıdakı hallarda çıxarılır:
42.2.1. bu Məcəllənin 42.1.1-ci maddəsində nəzərdə tutulmuş əsaslara görə hadisənin baş verməməsi sübut olunduqda və ya baş vermiş hadisədə cinayət hadisəsi sübut olunmadıqda;
42.2.2. bu Məcəllənin 42.1.2-ci maddəsində nəzərdə tutulmuş əsaslara görə təqsirləndirilən şəxsin əməlində cinayət tərkibi olmadıqda və ya əməlin cinayət olmasını aradan qaldıran hallar mövcud olduqda;
42.2.3. bu Məcəllənin 42.1.3-cü maddəsində nəzərdə tutulmuş əsaslara görə şəxsin təqsirləndirildiyi cinayətin törədilməsinə aidiyyəti olmaması sübut edildikdə və ya onun həmin əmələ aidiyyəti sübut edilmədikdə;
42.2.4. bu Məcəllənin 42.1.4-cü maddəsində nəzərdə tutulmuş əsaslara görə şəxsin təqsirliliyini təsdiq edən kifayət qədər sübutlar toplanılmadıqda və ya toplanmış sübutlar onun təqsirsizliyini təsdiq etdikdə.

**Maddə 43. Məhkəmə baxışı gedişində cinayət təqibinə xitam verilməsinin əsasları**

43.1. Məhkəmə baxışı gedişində təqsirləndirilən şəxsə qarşı cinayət təqibinə xitam verilməsi barədə məhkəmə qərarı aşağıdakı hallarda çıxarılır:
43.1.1. dövlət ittihamçısı və xüsusi ittihamçı cinayət təqibindən imtina etdikdə; KM
43.1.2. Bu Məcəllənin 39.1.4, *39.1.6–39.1.11, 40.3 və 40.4-cü* maddələrində nəzərdə tutulmuş hallar olduqda. [49] KMQ12
43.2. Xüsusi ittihamçının üzrlü səbəb olmadan məhkəmə iclasına təkrarən gəlməməsi və ya gəlməməsinə üzrlü səbəb olduğu barədə məhkəməyə məlumat verməməsi öz hüquqi əhəmiyyətinə görə cinayət təqibindən imtina etməyə bərabər tutulur.
43.3. Məhkəmə baxışının gedişində təqsirləndirilən şəxsə qarşı cinayət təqibinə, həmçinin bu Məcəllənin 39.1.3, 39.1.12 və 40.2-ci maddələrində nəzərdə tutulmuş hallarda müdafiə tərəfinin razılığı ilə xitam verilməsi barədə məhkəmə qərar çıxarmağa haqlıdır. [50]
43.3-1. Məhkəmə baxışının gedişində cinayət təqibinə bu Məcəllənin 39.1.5-ci maddəsində nəzərdə tutulmuş halda xitam verilməsinə ölmüş şəxsin hüquqi varisinin, hüquqi varis müəyyən edilmədiyi, o cümlədən bu Məcəllənin 106-1.4-cü maddəsində nəzərdə tutulmuş hallarda müdafiəçisinin razılığı ilə yol verilir. [51]
43.4. Məhkəmə baxışının gedişində dövlət ittihamçısının bu Məcəllənin 39.1.2 və 39.2-ci maddələrində nəzərdə tutulmuş hallarda cinayət təqibindən imtina etməsi ilə əlaqədar məhkəmənin qərarına əsasən cinayət təqibinə xitam verilərkən cinayət törətmiş şəxs müəyyən edilməmiş qaldıqda, qərar qanuni qüvvəyə mindikdən sonra bu Məcəllənin müddəaları ilə nəzərdə tutulmuş qaydada həmin şəxsin cinayət təqibi məsələsinin həll edilməsi üçün məhkəmə baxılmış cinayət işi üzrə materialları və ya məhkəməyədək sadələşdirilmiş icraatın materiallarını ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərir. [52]

**Maddə 44. Məhkum etmənin əsasları**

44.1. Məhkəmə baxışı gedişində tədqiq olunmuş sübutların məcmusuna əsasən təqsirləndirilən şəxsin cinayətdə təqsiri müəyyən edilərsə, məhkəmə ittiham hökmü çıxarır.
44.2. Bəraət hökmü və ya cinayət təqibinə xitam verilməsi barədə qərar çıxarılması üçün müvafiq olaraq bu Məcəllənin 42 və 43-cü maddələrində göstərilən əsaslar mövcud olmadıqda, məhkəmə aşağıdakılara riayət edərək ittiham hökmü çıxarır:
44.2.1. bu Məcəllənin 39.1.3-cü maddəsində nəzərdə tutulmuş halda — təqsirləndirilən şəxsə cəza təyin etməməklə;
44.2.1-1. bu Məcəllənin 39.1.5-ci maddəsində nəzərdə tutulmuş halda - ölmüş təqsirləndirilən (şübhəli) şəxsə və ya cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş, lakin təqsirləndirilən (şübhəli) şəxs qismində tanınanadək ölmüş şəxsə cəza təyin etməməklə; [53]
44.2.2. bu Məcəllənin 39.1.12-ci maddəsində nəzərdə tutulmuş halda — təqsirləndirilən

şəxsə təyin edilmiş cəzadan onu azad etməklə;

44.2.3. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müddəalarına əsasən cinayət məsuliyyətinə cəlb etmə müddətinin keçməsinin tətbiq edilməməsi qərarına gəldiyi halda — təqsirləndirilən şəxsə cəza təyin etməklə;

44.2.4. bu Məcəllə və cinayət qanunu ilə nəzərdə tutulmuş bütün digər hallarda — təqsirləndirilən şəxsə cəza təyin etməklə.

## IV fəsil

## Cinayət təqibi üzrə icraatın aparılması

### Maddə 45. Cinayət təqibi üzrə icraatın aparılmasının məcburiliyi

45.1. Cinayət təqibi həyata keçirilərkən onun gedişini və nəticələrini əks etdirən icraat aparılmalıdır.

45.2. Cinayət təqibi üzrə icraat cinayət işi üzrə materiallarda, məhkəməyədək sadələşdirilmiş icraatın materialında və ya xüsusi ittiham qaydasında şikayətin materialında əks olunur.

45.3. İctimai və ya ictimai-xüsusi ittiham qaydasında cinayət təqibi üzrə icraat cinayət işi başlandığı andan müvafiq olaraq təhqiqatçı, müstəntiq və ya prokuror tərəfindən açılır. Böyük ictimai təhlükə törətməyən aşkar cinayətə dair şikayət üzrə təhqiqatçı cinayət işi başlamadan sadələşdirilmiş icraat aça bilər.

45.4. Xüsusi ittiham qaydasında cinayət təqibi üzrə icraat xüsusi ittiham qaydasında şikayəti öz icraatına qəbul etmiş məhkəmə tərəfindən müvafiq qərar qəbul etdiyi andan açılır.

45.5. Cinayət təqibi üzrə icraata cinayət təqibini istisna edən hallara, cinayət təqibinin həyata keçirilməməsinə imkan verən hallara, habelə cinayət təqibinin həyata keçirilməsinə mane olan hallara görə cinayət prosesini həyata keçirən orqanın qərarı ilə xitam verilə bilər.

### Maddə 46. Cinayət işinin başlanması ilə bağlı cinayət təqibi üzrə icraatın açılmasının xüsusiyyətləri

46.1. İctimai ittiham və ictimai-xüsusi ittiham qaydasında cinayət təqibi üzrə cinayət işinin başlanması üçün müvafiq səbəb və əsaslar olmalıdır.

46.2. Cinayət işinin başlanması üçün səbəb kimi törədilmiş və ya hazırlanan cinayət haqqında fiziki şəxs tərəfindən verilən ərizə, hüquqi şəxsin (vəzifəli şəxsin) və ya *media subyektinin* məlumatları, yaxud bu məlumatların təhqiqatçı, müstəntiq və ya prokuror tərəfindən bilavasitə aşkar edilməsi ola bilər.[54]

46.3. Cinayət işinin başlanması üçün əsas cinayətin əlamətlərinə işarə edən kifayət qədər dəlillərin olmasıdır. Cinayətin əlamətlərini əks etdirən əməlin törədilməsini və cinayət təqibini istisna edən halların olmadığını güman etməyə əsaslar mövcuddursa, öz səlahiyyətləri daxilində fəaliyyət göstərən təhqiqatçı, müstəntiq və ya prokuror dərhal cinayət işi başlamalıdır.

46.4. Cinayət təqibini istisna edən halların mövcudluğu istisna edilməklə, məhkəmə iclasında sədrlik edən ədalət mühakiməsi əleyhinə olan hər hansı cinayətin əlamətlərinin məhkəmə baxışı zamanı müəyyən olunduğuna prokurorun diqqətini cəlb etdikdə, prokuror bununla bağlı dərhal cinayət işi başlamalıdır. Bu halda prokuror cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərar qəbul edərsə, məhkəmə iclasında sədrlik edən həmin qərarın qanunsuz və əsassız olması qənaətinə gəldikdə yuxarı prokurordan zəruri tədbirlərin görülməsini tələb edə bilər.

46.5. Cinayət işinin dərhal başlanması üçün bu Məcəllənin 209.2-ci maddəsində nəzərdə tutulmuş halların mövcudluğu da kifayətdir. Bu halda hərtərəfli, tam və obyektiv ibtidai araşdırma cinayət təqibinin həyata keçirilməsinə mane olan aşağıdakı hallar müəyyən olunanadək aparılır:

46.5.1. cinayət hadisəsinin mövcudluğunu təsdiq edən sübutlar əldə edilmədikdə;

46.5.2. cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsində yeganə təqsirləndirilə bilən şəxsə qarşı bu Məcəllənin 39.1.4-39.1.7 və 39.1.10-cu maddələrində göstərilən cinayət təqibini istisna edən hallar olduqda;

46.5.3. cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsinə görə hər hansı şəxsə qarşı bu Məcəllənin 39.1.3, 39.1.11 və 39.1.12-ci maddələrində göstərilən cinayət təqibini istisna edən hallar olduqda.

### Maddə 47. Cinayət təqibi üzrə icraatı aparan orqanlar

47.1. Cinayət təqibi üzrə icraat cinayət prosesini həyata keçirən orqan tərəfindən aparılır. Bununla əlaqədar məsuliyyət müvafiq olaraq icraatında cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraat üzrə material və ya xüsusi ittiham qaydasında şikayət üzrə material

olan təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmənin üzərinə düşür.

47.2. Xarici dövlətlərin müvafiq orqanları ilə cinayət təqibi üzrə münasibətlərin qurulması, həmçinin bu dövlətlərin məhkəmə və istintaq orqanlarının göstərişlərinin yerinə yetirilməsi ilə bağlı icraat aparılması Azərbaycan Respublikasının qanunvericiliyi və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə müəyyən edilən müvafiq məhkəmənin, prokurorun və müstəntiqin üzərinə düşür.

**Maddə 48. Cinayət təqibi üzrə icraatın tezliyinin təmin olunması**

48.1. Cinayət təqibi üzrə icraat təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə tərəfindən bu Məcəllədə nəzərdə tutulmuş müddətlərdə elə başlanmalı və qurtarmalıdır ki:

48.1.1. sübutların vaxtında əldə olunması və tədqiq edilməsi təmin olunsun;

48.1.2. şəxslər onlara ittiham elan olunmasını, işlərinə baxılmasını və pozulmuş hüquqlarının bərpasını həddən artıq uzun müddət gözləməsinlər.

48.2. Cinayət prosesini həyata keçirən orqan hər bir halda aşağıdakıları təmin etməlidir ki:

48.2.1. haqqında həbs, ev dustaqlığı və ya girov qismində qətimkan tədbiri seçilmiş təqsirləndirilən şəxs qətimkan tədbiri seçildikdən sonra bu Məcəllənin 158 və 159-cu maddələrində nəzərdə tutulmuş müddətlər keçənədək ittihamın əsaslılığının müəyyən olunması üçün məhkəmə qarşısında dayana ~~və məhkəmə baxışından keçə~~ bilsin;[55]

48.2.2. hər hansı cinayət işi başlandığı andan bu Məcəllənin 218-ci maddəsində nəzərdə tutulmuş müddətlərdə ittiham aktı ilə məhkəməyə göndərilsin və ya cinayət təqibinə xitam verilsin;

48.2.3. məhkəməyə daxil olmuş hər hansı cinayət işinə, məhkəməyədək sadələşdirilmiş icraat üzrə materiala və ya xüsusi ittiham qaydasında şikayətə, habelə çıxarılmış hökm və məhkəmənin digər qərarlarına dair şikayət və protestlərə bu Məcəllənin 298.2, 301.4, 391.1, 419.3, 426.2 və 427.1-ci maddələrində nəzərdə tutulmuş müddətlərdə baxılmağa başlansın.

48.3. Təqsirləndirilən şəxsin cinayət prosesini həyata keçirən orqandan gizlənməsi, cinayət təqibi üzrə icraatın dayandırılmasına səbəb olan digər hallar olduğu müddət ~~, habelə cinayət işinin ona təqdim olunmuş materialları ilə tanış olduğu müddət~~ bu Məcəllənin 48.2-ci maddəsində nəzərdə tutulmuş müddətlərə daxil deyildir.[56]

48.4. Şəxs cinayət işi üzrə məhkəməyədək icraatda bu Məcəllənin 158 və 159-cu maddələrində göstərilmiş müddətdən artıq həbsdə qalarsa, ona dəymiş mənəvi ziyana görə pul kompensasiyasını almaq hüququna malikdir. Kompensasiya cinayət işi üzrə çıxarılmış qərardan asılı olmayaraq, mülki mühakimə icraatı qaydasında həll olunur.

**Maddə 49. Cinayət təqibi üzrə icraatın birləşdirilməsi**

49.1. Yalnız bir neçə şəxsin bir cinayəti birlikdə törətməkdə ittiham olunmaları üzrə cinayət təqibi və ya bir şəxsin bir neçə cinayəti törətməsi barədə cinayət təqibi bir icraatda birləşdirilə bilər.

49.2. Müxtəlif cinayətlər törətmiş şəxslərin hər hansı cinayəti birgə və ya mütəşəkkil dəstənin tərkibində törətməsi halları istisna olunmaqla, həmin şəxslərə qarşı ittihamın bir cinayət işində birləşdirilməsi yolverilməzdir.

49.3. Toplanmış materialların həcminin böyüklüyünə və ya təqsirləndirilən şəxslərin sayının çoxluğuna görə işin məhkəmə baxışını gecikdirən və ya başqa formada çətinlik yaradan ittihamlar bir icraatda birləşdirilməməlidir.

49.4. Aşağıdakılar bir icraatda birləşdirilə bilməz:

9.4.1. ləğv edilmişdir. [57]

49.4.2. cinayətin törədilməsi ilə onun gizlədilməsi və ya xəbər verilməməsinə dair ittihamlar üzrə;KMQ11

49.4.3. cinayət təqibi bir əmələ görə xüsusi ittiham qaydasında, digəri ictimai və ya ictimai-xüsusi ittiham qaydasında həyata keçirilən ittihamlar üzrə;

49.4.4. birgə baxılması obyektiv araşdırılmasına mane ola bilən digər bütün ittihamlar üzrə.

49.5. Cinayət işi üzrə icraatın birləşdirilməsi müstəntiqin və ya prokurorun qərarı, xüsusi ittiham qaydasında icraat isə məhkəmənin qərarı əsasında həyata keçirilə bilər.

**Maddə 50. Cinayət təqibi üzrə icraatın ayrılması**

50.1. Cinayət təqibi ilə bağlı bütün halların hərtərəfli, tam, obyektiv və vaxtında baxılmasına mane olmayan və onun xarakterinə görə ayrıca baxılması mümkün olan bütün hallarda cinayət təqibi üzrə icraatın ayrılmasına yol verilir.

50.2. Cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsində iştirak etmiş, cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmayan şəxs digər şəxslərlə birlikdə cinayət təqibinə məruz qalarsa, onun barəsindəki icraat ibtidai araşdırma zamanı mümkün qədər ayrıca icraata ayrılmalıdır.

50.3. Cinayət təqibi üzrə icraatın ayrılması müstəntiqin, prokurorun və ya məhkəmənin qərarı ilə həyata keçirilir.

**Maddə 51. Cinayət təqibi üzrə aparılan prosessual hərəkətlərin gedişinin və nəticələrinin protokollaşdırılmasının məcburiliyi**

51.1. Cinayət təqibi üzrə aparılan prosessual hərəkətlərin gedişi və nəticələri protokol və digər yazılı sənədlərdə, habelə tərkib hissəsi kimi onlara əlavə olunan fotoqrafik neqativlərdə, fotoşəkillərdə, diapozitivlərdə, audio yazılarda, fonoqramlarda, video və kino çəkiliş lentlərində, planlarda, sxemlərdə, izlərin surətlərində və basmalarda, rəsmlərdə, elektron və digər məlumat daşıyıcılarında əks olunmalıdır.

51.2. Cinayət təqibi üzrə aparılan prosessual hərəkətlərin gedişinin və nəticələrinin protokollaşdırılması, bir qayda olaraq, cinayət prosesini həyata keçirən orqan tərəfindən təmin edilməlidir. Cinayət təqibi üzrə prosessual hərəkətin aparılması haqqında protokol bu hərəkətin gedişi zamanı və ya qurtardıqdan bilavasitə sonra həmin hərəkəti aparan təhqiqatçı, müstəntiq, prokuror və ya digər müvəkkil edilmiş şəxs tərəfindən tərtib edilir.

51.3. Cinayət təqibi üzrə aparılan prosessual hərəkətlərin protokolu əllə tərtib edilə, çap oluna, protokollaşdırılması üçün digər texniki vasitələrdən, o cümlədən elektron texnikasından istifadə edilə bilər. Protokolda doldurulmamış sətirlər və səhifələr pozulmalı, ona əlavələr, pozmalar və düzəlişlər xüsusi qeyd olunmalıdır.

51.4. Cinayət təqibi üzrə aparılan prosessual hərəkətlərin gedişini və nəticələrini protokollaşdıran sənədlər elə tərtib olunmalıdır ki, onların məzmunu bilavasitə və ya texniki vasitələrin köməyindən istifadə edilməklə aydın başa düşülsün.

51.5. Məhkəmə icraatı halları istisna edilməklə, prosessual hərəkətin aparılması haqqında protokol onu tərtib etmiş şəxs tərəfindən imzalanır. Bundan sonra protokol prosessual hərəkətin aparılmasında iştirak etmiş bütün şəxslərə oxunur, onlara protokola daxil edilməli olan qeydlər etmək hüququ və protokolu olduğu kimi və ya qeydlərlə birlikdə imzalamaq vəzifəsi izah olunur. Əgər bu şəxslərdən hər hansı biri fiziki *pozuntular* və sair səbəblər üzündən protokolu şəxsən imzalamaq imkanından məhrumdursa, onun əvəzinə protokolu müdafiəçisi, qanuni nümayəndəsi və ya nümayəndəsi imzalayır. Prosessual hərəkətin aparılmasında iştirak etmiş şəxs protokolu imzalamaqdan imtina edirsə, bu barədə protokolda müvafiq qeyd aparılır.[58]

51.6. Prosessual hərəkətin aparılması zamanı texniki vasitələrdən istifadə olunmaqla audio və başqa yazılar, foto, video, kino və digər çəkilişlər həyata keçirilirsə, prosessual hərəkəti aparan şəxs hərəkəti başlamazdan əvvəl bütün iştirakçıları bu barədə xəbərdar edir. Texniki vasitələrdən istifadə olunması prosessual hərəkətin aparılması haqqında protokolda qeyd olunur, yazı və ya çəkiliş isə möhürlənir və müvafiq protokolun əlavəsi kimi cinayət təqibi üzrə icraatın materialları ilə birlikdə saxlanılır. Prosessual hərəkətin gedişinə dair audio və başqa yazılar, foto, video, kino və ya digər çəkilişlər başqa prosessual hərəkətin aparılması zamanı dinlənildikdə və ya baxıldıqda, bu barədə qeyd axırıncı prosessual hərəkətin aparılması haqqında protokolda göstərilməlidir.

*51.6-1. Məhkəmə iclasında sədrlik edən iclasların fasiləsiz audioyazısının aparılmasını təmin edir, cinayət prosesinin tərəflərini və cinayət prosesində iştirak edən digər şəxsləri audioyazının aparılması barədə xəbərdar edir. Məhkəmə iclasının protokolu məhkəmə iclasının audioyazısına uyğun tərtib edilir və audioyazı barədə məlumat məhkəmə iclasının protokolunda göstərilməklə elektron və ya digər məlumat daşıyıcılarında ona əlavə olunur. Məhkəmə iclasının protokolu və audioyazısı arasında ziddiyyət olduğu halda, məhkəmə iclasının audioyazısına üstünlük verilir.*[59]

51.7. Məhkəmə iclasının protokolu məhkəmə iclasında sədrlik edən və məhkəmə iclasının katibi tərəfindən məhkəmə iclası qurtardıqdan sonra 3 (üç) gün müddətində imzalanır. Bundan sonra məhkəmə tərəfindən onunla tanış olmaq hüququ olan şəxslərə 3 (üç) gün müddətində protokolla *və ona əlavə edilmiş audioyazı ilə* tanış olmaq imkanı yaradılır. Həmin şəxslər protokola dair yazılı qeydlərini verdiyi halda, məhkəmə iclasında sədrlik edən qeydlərə baxaraq onlarla razılaşdıqda öz imzası ilə qeydləri təsdiq edir, razılaşmadıqda isə bu barədə müvafiq qərar qəbul edir. Protokola edilən qeydlərlə razılaşıb-razılaşmamasından asılı olmayaraq, həmin qeydlərin özü və onlara dair qərar məhkəmənin iclas protokoluna əlavə edilməlidir. [60]

***Maddə 51-1. Cinayət mühakimə icraatının elektron qaydada aparılması***

*51-1.1. Elektron qaydada məhkəmə icraatı, həmçinin məhkəmə nəzarətinin həyata keçirilməsi qaydasında məhkəmələrdə aparılan icraat bu Məcəllə ilə müəyyən edilmiş prosessual qaydalara uyğun olaraq “Elektron məhkəmə” informasiya sistemi vasitəsi ilə aparılır. Cinayət prosesini həyata keçirən digər orqanların informasiya sistemləri prosessual sənədlərin və digər materialların bu Məcəllə ilə müəyyən edilmiş prosessual qaydalara uyğun olaraq məhkəmələrlə elektron qaydada mübadilə edilməsi üçün “Elektron məhkəmə” informasiya sisteminə inteqrasiya olunur.*[61]

*51-1.2. Məhkəmə, cinayət prosesinin iştirakçıları və cinayət prosesində iştirak edən digər şəxslər tərəfindən prosessual sənədlərin elektron formada tərtib edilməsi, göndərilməsi, qəbulu, sənədlərin elektron qeydiyyatı və elektron dövriyyəsi müvafiq icra hakimiyyəti orqanının Azərbaycan Respublikasının Ali Məhkəməsi və Azərbaycan*

*Respublikasının Baş Prokurorluğu ilə razılaşdırmaqla müəyyən etdiyi cinayət mühakimə icraatında "Elektron məhkəmə" informasiya sistemindən istifadə qaydalarına uyğun olaraq həyata keçirilir.*

*51-1.3. "Elektron məhkəmə" informasiya sistemində cinayət prosesinin iştirakçılarının və cinayət prosesində iştirak edən digər şəxslərin iştirak etdiyi iş üzrə prosesin gedişi, çıxarılan qərarlar, onların icra vəziyyəti, onlardan verilən şikayət və ya protestlər barədə məlumat almaq, prosessual sənədləri göndərmək və qəbul etmək imkanlarını təmin edən elektron kabinet yaradılır.*

*51-1.4. "Elektron məhkəmə" informasiya sistemində elektron sənəd dövriyyəsi üçün gücləndirilmiş elektron imzadan və sertifikatlaşdırılmış elektron imza vasitələrindən istifadə edilir.*

*51-1.5. "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada elektron sənəd formasında tərtib edilmiş prosessual sənədlər kağız daşıyıcıda olan sənədlərlə eyni hüquqi qüvvəyə malikdir.*

*51-1.6. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə cinayət prosesinin iştirakçıları və cinayət prosesində iştirak edən digər şəxslər "Elektron məhkəmə" informasiya sistemində qeydiyyatdan keçmişlərsə, məhkəmə bu Məcəlləyə əsasən həmin şəxslərə verilməsi nəzərdə tutulmuş prosessual sənədləri və digər məlumatları onların elektron kabinetlərində yerləşdirir. Bu barədə həmin şəxslərə "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə elektron qaydada (elektron poçt və SMS vasitəsilə) məlumat verilir.*

*51-1.7. Bu Məcəllənin 51-1.6-cı maddəsində nəzərdə tutulmuş şəxslər bu Məcəlləyə əsasən məhkəməyə təqdim etmək hüququna malik olduqları prosessual sənədləri "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə göndərə bilərlər.*

*51-1.8. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə hakim bu Məcəlləyə müvafiq olaraq dövlət ittihamçısına verilməsi nəzərdə tutulmuş prosessual sənədləri və digər məlumatları onun həmin sistemdə yaradılmış elektron kabinetində yerləşdirir və bu barədə ona həmin sistem vasitəsilə elektron qaydada məlumat verir.*

*51-1.9. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə dövlət ittihamçısı bu Məcəllənin 84.6-cı maddəsində nəzərdə tutulmuş prosessual hərəkətlər üzrə elektron sənəd formasında tərtib edilmiş prosessual sənədləri "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə məhkəməyə təqdim edə bilər.*

*51-1.10. Bu Məcəllənin 51-1.7 – 51-1.9-cu maddələrində nəzərdə tutulmuş qaydada "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə təqdim edilmiş sənədlərin digər qaydada verilməsi məhkəmə tərəfindən tələb oluna bilməz.*

*51-1.11. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə, məhkəmə, bu Məcəlləyə müvafiq olaraq qəbul etdiyi hökm, qərar və digər prosessual sənədləri elektron sənəd formasında tərtib edərək bu Məcəllədə həmin prosessual sənədlər üçün müəyyən edilmiş müddətlərdə "Elektron məhkəmə" informasiya sistemində yerləşdirir.*

*51-1.12. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə məhkəmənin yekun qərarının nəticəvi hissəsi barədə məlumat həmin qərarın elan edildiyi gün hakimin elektron imzası ilə təsdiq edilməklə "Elektron məhkəmə" informasiya sistemində yerləşdirilir.*

***Maddə 51-2. Cinayət mühakimə icraatının videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilməsi***

*51-2.1. Cinayət mühakimə icraatında prosessual hərəkətlər aşağıdakı hallarda şübhəli və ya təqsirləndirilən şəxs, mülki iddiaçı, mülki cavabdeh, zərər çəkmiş şəxs, zərər çəkmiş şəxsin və təqsirləndirilən şəxsin hüquqi varisi, xüsusi ittihamçı, onların qanuni nümayəndələri və nümayəndələri, barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin nümayəndəsi, şahid, ekspert, mütəxəssis, tərcüməçi, yaxud məhkumun bilavasitə iştirakı olmadan videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilə bilər:*

*51-2.1.1. bu Məcəllənin 51-2.1-ci maddəsində göstərilən şəxslərin həyatı və sağlamlığı üçün real təhdidlər olduqda onların təhlükəsizliyinin təmin edilməsi, habelə onlara kənar təsirlərin qarşısının alınması zərurəti yarandıqda;*

*51-2.1.2. səhhətinin vəziyyəti, yaxud şübhəli, təqsirləndirilən şəxs və ya məhkum istisna olmaqla bu Məcəllənin 51-2.1-ci maddəsində göstərilən başqa şəxslərlə bağlı digər üzrlü səbəblər onların müvafiq icraatda bilavasitə iştirakını qeyri-mümkün etdikdə;*

*51-2.1.3. yetkinlik yaşına çatmayan şəxsin mənafeyinin qorunması zərurəti yarandıqda;*

*51-2.1.4. təbii və ya texnogen qəzalar, epidemiya, fövqəladə vəziyyət və ya qarşısıalınmaz qüvvənin təsiri nəticəsində bu Məcəllənin 51-2.1-ci maddəsində göstərilən şəxslər müvafiq icraatda bilavasitə iştirak edə bilmədikdə.*

*51-2.2. Videokonfrans əlaqə sistemindən istifadə edilməklə prosessual hərəkətlər bu Məcəllənin 51-2-ci maddəsində nəzərdə tutulmuş xüsusiyyətlər nəzərə alınmaqla bu Məcəllədə nəzərdə tutulmuş qaydada həyata keçirilməlidir.*

*51-2.3. Məhkəmə icraatı zamanı prosessual hərəkətlər cinayət prosesi tərəflərinin vəsatəti və ya bu Məcəllənin 51-2.1-ci maddəsində göstərilən digər şəxslərin müraciəti, yaxud məhkəmənin öz təşəbbüsü ilə və yalnız məhkəmənin əsaslandırılmış qərarı əsasında videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilir. Məhkəmə bir və ya bir neçə prosessual hərəkətin, habelə icraatın tamamilə və ya qismən videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilməsi barədə qərar qəbul edir.*

*51-2.4. İbtidai araşdırma zamanı bu Məcəllənin 51-2.1-ci maddəsində göstərilən şəxslərin videokonfrans əlaqə sistemindən istifadə edilməklə dindirilməsi müstəntiqin və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun əsaslandırılmış qərarı ilə həyata keçirilir. Bu Məcəllənin 51-2.1-ci maddəsində göstərilən şəxslər dindirmənin videokonfrans əlaqə sistemindən istifadə edilməklə keçirilməsi barədə vəsatət verə bilər. Videokonfrans əlaqə sistemindən istifadə edilməklə dindirilmiş şəxs cinayət prosesi tərəflərinin vəsatəti ilə təkrarən bilavasitə dindirilə bilər.*

*51-2.5. Şübhəli və ya təqsirləndirilən şəxsin, yaxud məhkumun iştirakı ilə prosessual hərəkətlər həmin şəxsin razılığı olduqda videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilir. Bu Məcəllənin 51-2.1.2-ci maddəsində nəzərdə tutulmuş halda şəxsin səhhətinin vəziyyəti ilə əlaqədar onun prosessual hərəkətin həyata keçirilməsində bilavasitə iştirakının məqsədəuyğun hesab edilməməsinə dair tibbi rəy olduqda, habelə bu Məcəllənin*

*51-2.1.4-cü maddəsində nəzərdə tutulmuş hallarda məhkəmənin əsaslandırılmış qərarı ilə prosessual hərəkətlər şübhəli və ya təqsirləndirilən şəxsin, yaxud məhkumun razılığı alınmadan videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilə bilər.*

*51-2.6. Videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilən prosessual hərəkətlərdə iştirak edən şəxslərə bu Məcəllə ilə nəzərdə tutulmuş hüquqlardan istifadə etmək və vəzifələri yerinə yetirmək üçün müvafiq şərait yaradılmalıdır.*

*51-2.7. Prosessual hərəkətlər videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirildikdə tətbiq edilən texniki vasitələr səsin və görüntünün keyfiyyətini və real vaxt rejimində ötürülməsini, cinayət mühakimə icraatının aşkarlığı və digər əsas prinsip və şərtlərinə riayət edilməsini, habelə informasiya təhlükəsizliyini təmin etməlidir.*

*51-2.8. Videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilən prosessual hərəkətlərin videoyazısı aparılmalı, prosessual hərəkətlərin nəticəsinə dair videoyazıya uyğun olaraq protokol tərtib edilməli və videoyazı elektron daşıyıcıda cinayət işinə əlavə edilməlidir.*

*51-2.9. Prosessual hərəkətlər bu Məcəllənin 51-2-ci maddəsində nəzərdə tutulmuş qaydada həyata keçirildikdə müdafiəçi və ya nümayəndənin videokonfrans əlaqənin yaradılması zamanı olacağı yer təmsil olunan şəxsin seçiminə əsasən müəyyən edilir.*

*51-2.10. Məhkəmə prosessual hərəkətin videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilməsi barədə qərarın icrasının təşkil edilməsini bu Məcəllənin 51-2.1-ci maddəsində göstərilən şəxsin olduğu yer üzrə müvafiq məhkəmə sədrinin vasitəsi ilə həmin məhkəmənin aparatına, azadlıqdan məhrum etmə və ya həbs yerlərində saxlanılan şəxs barəsində həbs və ya cəzaçəkmə yerinin müdiriyyətinə, hərbi qulluqçu barəsində isə komandanlığa həvalə edir.*

*51-2.11. Bu Məcəllənin 51-2.4-cü maddəsində nəzərdə tutulmuş qərarı qəbul etmiş müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror dindirmənin videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilməsi barədə qərarın icrasının təşkil edilməsini bu Məcəllənin 51-2.1-ci maddəsində göstərilən şəxsin olduğu yer üzrə müstəntiqə və ya təhqiqat orqanının əməkdaşına, azadlıqdan məhrum etmə və ya həbs yerlərində saxlanılan şəxs barəsində həbs və ya cəzaçəkmə yerinin müdiriyyətinə, hərbi qulluqçu barəsində isə komandanlığa həvalə edir.*

*51-2.12. Prosessual hərəkətin videokonfrans əlaqə sistemindən istifadə edilməklə icrasının təşkili həvalə edildiyi şəxs bu Məcəllənin 51-2.1-ci maddəsində göstərilən şəxsi bu Məcəllə ilə müəyyən edilmiş qaydada yanına çağırır və ya onun olduğu yerə gəlir. Daha sonra bu Məcəllənin 51-2.1-ci maddəsində göstərilən şəxsin şəxsiyyətini müəyyən edir, videokonfrans əlaqə sistemini yaradan texniki vasitənin işini təmin edir, bu hərəkətləri protokollaşdırır.*

*51-2.13. Cinayət prosesi iştirakçısının Azərbaycan Respublikasının hüdudlarından kənarda olması səbəbindən onun videokonfrans əlaqə sistemi vasitəsilə dindirilməsi zərurəti yarandıqda, bu haqda müvafiq olaraq müstəntiqin, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun və ya məhkəmənin qəbul etdiyi qərar icra olunması üçün hüquqi yardımın göstərilməsi qaydasında xarici dövlətin müvafiq dövlət qurumuna göndərilir.* [62]

**Maddə 52. Cinayət təqibi üzrə icraatın materialları**

52.1. Sübutlar qismində əlavə olunmuş sənədlər, bu Məcəllənin 51.1-ci maddəsində nəzərdə tutulmuş sənədlər, habelə cinayət prosesini həyata keçirən orqanlar tərəfindən qəbul olunmuş qərarlar və cinayət prosesi tərəflərinin yazılı müraciətləri müvafiq olaraq cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraatın və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatın materiallarında saxlanılır.

52.2. Hər bir sənəd müvafiq olaraq cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraatın və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatın materialına əlavə olunan kimi dərhal vərəqlər üzrə nömrələnməlidir. Cinayət prosesini həyata keçirən orqan həmin vərəqlərin ardıcıl nömrələnməsini və xronoloji qaydada müvafiq olaraq cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraatın və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatın materiallarına tikilməsini təmin etməlidir.

52.3. Bütün istintaq hərəkətlərinin protokolları dərhal və ya bütün hallarda istintaq hərəkətinin aparıldığı gündən sonrakı iş günündən gec olmayaraq Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının Azərbaycan Respublikası Baş Prokurorluğu ilə birgə müəyyən etdiyi qaydada qeydə alınmalıdır. Bütün prosessual qərarlar ciddi hesabat sənədləri olmaqla xüsusi formalı, nömrələnmiş blanklarda tərtib olunur. Həmin blankların formaları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları və Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən birgə müəyyən olunur.

52.4. Cinayət işinin materialları hər bir qovluğun üzərində müvafiq yazıları və orada olan sənədlərin siyahısı cildlənmiş bir və ya bir neçə qovluqda tikilməlidir.

52.5. Həcminə və ya xarakterinə görə cinayət işinin materiallarında saxlanıla bilməyən digər sənədlər və əşyalar onun tərkib hissəsi kimi ayrıca saxlanılır. Cinayət işinin materiallarından ayrı saxlanılan əşyaların və sənədlərin siyahısı cinayət işinin materiallarına əlavə edilməlidir.

52.6. Cinayət işinin materiallarına aid sənədlərin surətləri cinayət prosesini həyata keçirən orqan tərəfindən düzgünlüyü təsdiq edilmiş kağızda və ya elektron daşıyıcısında çıxarıla bilər.

**Maddə 53. Cinayət təqibi üzrə icraatın dayandırılması əsasları**

53.1. Cinayət təqibi üzrə icraat aşağıdakı hallarda dayandırıla bilər:

53.1.1. təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxs müəyyən olunmadıqda;
53.1.2. təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxsin olduğu yer müəyyən olunmadıqda;
53.1.3. təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxs istintaqdan və ya məhkəmədən gizləndikdə;
53.1.4. təqsirləndirilən şəxsin ağır xəstəliyi və ya Azərbaycan Respublikasının hüdudlarından kənarda olması ilə əlaqədar cinayət prosesində iştirakı müvəqqəti mümkün olmadıqda;
53.1.5. cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsində təqib olunan şəxsin toxunulmazlıq hüququndan məhrum edilməsi və ya xarici dövlət tərəfindən verilməsi məsələsi qanunla müəyyən olunmuş qaydada qoyulduqda;
*53.1.6. insan hüquq və azadlıqlarının həyata keçirilməsi məsələləri ilə bağlı məhkəmə tərəfindən Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının şərh edilməsi haqqında Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə müraciət edildikdə.* [63]
*53.1.7. məhkəmə qərarlarının icra edilməməsi ilə əlaqədar cinayət təqibi zamanı mülki-prosessual qanunvericiliyə uyğun olaraq qərarın icrası məhkəmə tərəfindən dayandırıldıqda.* [64]
53.2. Cinayət təqibi üzrə icraat dayandırıldıqda cinayət işi üzrə icraat, məhkəməyədək sadələşdirilmiş icraat və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraat da dayandırılır.
53.3. Cinayət təqibi üzrə icraat aşağıdakılara riayət edilməklə dayandırıla bilər:
53.3.1. bu Məcəllənin 53.1.1-ci maddəsində nəzərdə tutulmuş hallarda *böyük ictimai təhlükə törətməyən cinayətlərə dair işlər üzrə cinayət işinin başlanılmasından 1 (bir) ay, az ağır, ağır və xüsusilə ağır cinayətlərə dair işlər üzrə* cinayət işinin başlanılmasından 2 (iki) ay keçdikdə; [65]
53.3.2. bu Məcəllənin 53.1.2-ci maddəsində nəzərdə tutulmuş hallarda yalnız təqsirləndirilən şəxs haqqında axtarış elan edildikdən sonra;
53.3.3. bu Məcəllənin 53.1.3-cü maddəsində nəzərdə tutulmuş hallarda təqsirləndirilən şəxsin axtarışının elan edilməsi ilə eyni vaxtda;
53.3.4. bu Məcəllənin 53.1.4-53.1.6-cı maddələrində nəzərdə tutulmuş hallarda cinayət təqibinin dayandırılmasına əsas verən, müvafiq olaraq stasionar tibb müəssisəsinin şəxsin ağır xəstəliyini təsdiq edən tibbi rəyi, şəxsin Azərbaycan Respublikasının hüdudlarından kənarda olmasını təsdiq edən təhqiqat orqanının arayışı, şəxsin toxunulmazlıq hüququndan məhrum edilməsi barədə Azərbaycan Respublikası Baş prokurorunun təqdimatı və *ya Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə müraciət edilməsinə dair məhkəmənin qərarı* olduqda. [66]
*53.3.5. bu Məcəllənin 53.1.7-ci maddəsində nəzərdə tutulmuş hallarda qərarın icrasının dayandırılması haqqında məhkəmənin qərarı olduqda.* [67]
53.4. Cinayət təqibi üzrə iki və daha artıq təqsirləndirilən şəxs olarsa və icraatın dayandırılması əsasları onların hamısına aid deyilsə, müstəntiq, prokuror və ya məhkəmə bütün təqsirləndirilən şəxslərin iştirakı olmadan icraata obyektiv baxılması mümkün olmadıqda, icraatın bir hissəsini ayrıca icraata ayırmağa və onu dayandırmağa və ya bütün icraatı dayandırmağa haqlıdır.
53.5. Cinayət təqibi üzrə icraat dayandırılanadək cinayət prosesini həyata keçirən orqan təqsirləndirilən şəxs olmadan həyata keçirilməsi mümkün olan bütün prosessual hərəkətləri yerinə yetirməli, müstəntiq isə bundan əlavə, cinayət törətmiş şəxsin müəyyən edilməsi və tapılması üçün bütün tədbirləri görməlidir.
53.6. İcraatın dayandırılmasına əsas verən səbəblər aradan qalxanadək cinayət təqibi üzrə icraat dayandırılmış qalır. Bu səbəblər aradan qalxdıqdan sonra prokurorun, müstəntiqin və ya məhkəmənin qərarı ilə cinayət təqibi üzrə icraat təzələnir. *Cinayət təqibi üzrə icraat dayandırıldıqdan sonra ibtidai araşdırmanın hərtərəfli, tam və obyektiv aparılması üçün prosessual hərəkətlərin həyata keçirilməsi zərurəti yarandıqda, cinayət təqibi üzrə icraat təzələnir və həmin prosessual hərəkətlər başa çatdırıldıqdan sonra yenidən dayandırılır.* [68]
53.7. Təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxsin istintaqdan və ya məhkəmədən gizlənməsi, ömürlük azadlıqdan məhrum etmə növündə cəza nəzərdə tutulan cinayətin törədilməsi, habelə sülh və i*nsanlıq* əleyhinə, *terrorçuluq, terrorçuluğu maliyyələşdirmə* və müharibə cinayətləri törədilməsi halları istisna edilməklə, cinayət məsuliyyətinə cəlb etmə müddətlərinin keçməsi ilə əlaqədar *cinayət törətmiş şəxslərin müəyyən edildiyi* cinayət təqibi üzrə dayandırılmış icraata xitam verilir. [69]

**Maddə 54. Cinayət təqibi üzrə icraatın başa çatdırılması**

54.0. Cinayət təqibi üzrə icraat aşağıdakı hallarda başa çatır:
54.0.1. cinayət təqibi üzrə icraata tam xitam verilməsi barədə qərar qüvvəyə mindikdə;
54.0.2. icrası üçün xüsusi tədbirlərin görülməsi tələb edilmədikdə, cinayət işi məhkəməyədək sadələşdirilmiş icraatın və ya xüsusi ittiham qaydasında icraatın materialları üzrə hökm və ya məhkəmənin digər yekun qərarı qüvvəyə mindikdə;
54.0.3. icrası üçün xüsusi tədbirlərin görülməsi tələb edildikdə, cinayət işi məhkəməyədək sadələşdirilmiş icraatın və ya xüsusi ittiham qaydasında icraatın materialları

üzrə hökmün və ya məhkəmənin digər yekun qərarının icraya yönəldilməsi təsdiq olunduqda.

### *IV-I fəsil*

### *Prosessual sənədlərin rəsmi qaydada verilməsi*[70]

***Maddə 54-1. Prosessual sənədlərin çatdırılması***

*54-1.1. Bu Məcəllənin 54-1.5-ci və 54-1.6-cı maddələrində müəyyən edilmiş hallar istisna olmaqla, prosessual sənədlər "Poçt haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sifarişli poçt göndərişi (məktubu) ilə çatdırılır. Zəruri hallarda prosessual sənədlərin çatdırılması təhqiqatçı və ya müstəntiq tərəfindən həyata keçirilə bilər, habelə təhqiqatçı, müstəntiq, prokuror və ya hakim tərəfindən təhqiqat orqanına, eləcə də cinayət prosesini həyata keçirən müvafiq orqan tərəfindən öz əməkdaşlarına həvalə edilə bilər.*

*54-1.2. Prosessual sənəd onu göndərən orqana qaytarılmalı olan, forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş qəbzə və ya sənədin kötüyünə imza etdirilməklə, ünvan sahibinə şəxsən verilir. Hüquqi şəxsə ünvanlanmış prosessual sənəd müvafiq vəzifəli şəxsə qəbzə və ya sənədin kötüyünə imza etdirilməklə verilir. Prosessual sənədin rəsmi qaydada verilməsi cinayət prosesini həyata keçirən orqanda da həyata keçirilə bilər.*

*54-1.3. Prosessual sənədin çatdırılması vəzifəsi üzərinə düşən şəxslər bunu həmin prosessual sənədi aldıqları vaxtdan bir gündən gec olmayaraq yerinə yetirməli və bu barədə cinayət prosesini həyata keçirən orqana xəbər verməlidirlər.*

*54-1.4. Prosessual sənədin çatdırılması vəzifəsi üzərinə düşən şəxs ünvan sahibini onun yaşadığı, yaxud işlədiyi yer üzrə tapmadıqda, həmin sənəd ünvan sahibi ilə birlikdə yaşayan yetkinlik yaşına çatmış ailə üzvlərindən birinə (onların razılığı ilə), onlar olmadıqda müvafiq icra hakimiyyəti orqanına, ünvan sahibinin yaşadığı yer üzrə yerli özünüidarəetmə orqanına, yaxud onun işlədiyi yer üzrə müdiriyyətə verilir. Ünvan sahibinin əvəzinə prosessual sənədi qəbul etmiş şəxs qəbzdə və ya sənədin kötüyündə öz soyadını, adını, atasının adını, ünvan sahibinə münasibətini və ya tutduğu vəzifəni göstərməli və həmin sənədi mümkün olan ən qısa müddətdə ünvan sahibinə verməlidir.*

*54-1.5. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə prosessual sənədlərin çatdırılması bu Məcəllənin 51-1-ci maddəsində müəyyən edilmiş qaydada həyata keçirilir.*

*54-1.6. Azərbaycan Respublikasının hüdudlarından kənarda olduğu üçün şəxsə prosessual sənədlərin bu Məcəllənin 54-1.1 – 54-1.5-ci maddələrində nəzərdə tutulmuş qaydada çatdırılması mümkün olmadıqda və şəxsin olduğu ölkə barədə etibarlı məlumatlar olduqda, prosessual sənədlər həmin şəxsə çatdırılması üçün müvafiq icra hakimiyyəti orqanı vasitəsilə Azərbaycan Respublikasının həmin ölkədəki diplomatik nümayəndəliyinə və ya konsulluğuna, yaxud cinayət işlərinə dair hüquqi yardım göstərilməsi qaydasında həmin ölkənin müvafiq səlahiyyətli orqanına göndərilir.*

*54-1.7. Tutulmuş və ya həbs edilmiş şəxslərin ünvanına daxil olan prosessual sənədlərin surətləri bu Məcəllənin 161.1.7-ci maddəsində nəzərdə tutulmuş qaydada həbs yerlərinin müdiriyyəti tərəfindən onlara çatdırılmalıdır.*

*54-1.8. Bu Məcəllənin 54-1.2-ci, 54-1.4-cü, 54-1.5-ci və 54-1.7-ci maddələrində, habelə prosessual sənədin şəxsə çatdırılması barədə yazılı məlumat cinayət prosesini həyata keçirən orqana daxil olduğu təqdirdə bu Məcəllənin 54-1.6-cı maddəsində nəzərdə tutulmuş hallarda prosessual sənəd rəsmi qaydada verilmiş hesab edilir.*

***Maddə 54-2. Çağırış vərəqəsi***

*54-2.1. Çağırış vərəqəsində aşağıdakı məlumatlar göstərilməlidir:*

*54-2.1.1. cinayət prosesini həyata keçirən orqanın adı, ünvanı, əlaqə məlumatları (indeks, telefon, faks və s.), təhqiqatçı, müstəntiq, prokuror və ya hakimin soyadı, adı, vəzifəsi və imzası;*

*54-2.1.2. çağırış vərəqəsinin verilməli olduğu şəxsin prosessual statusu, soyadı, adı, atasının adı, ünvanı, hüquqi şəxsin adı və yerləşdiyi ünvan;*

*54-2.1.3. çağırışa gəlmənin vaxtı (tarix və saat) və yeri;*

*54-2.1.4. şübhəli və ya təqsirləndirilən şəxsə münasibətdə şübhənin və ya ittihamın mahiyyəti;*

*54-2.1.5. bu Məcəllənin müvafiq maddələrinə istinad edilməklə çağırılan şəxsin prosessual hüquq və vəzifələrinin izahı;*

*54-2.1.6. çağırış vərəqəsi üzrə gəlməmənin nəticələri barədə məlumat, o cümlədən çağırılan şəxsin bu Məcəllənin 178.2-ci maddəsində nəzərdə tutulmuş əsaslar olduqda cinayət prosesini həyata keçirən orqana məcburi gətiriləcəyi barədə xəbərdarlıq;*

*54-2.1.7. təqsirləndirilən şəxsə onun barəsində bu Məcəllə ilə müəyyən edilmiş hallarda qiyabi icraatın açıla biləcəyi və qiyabi hökmün və ya məhkəmənin digər yekun qərarının çıxarıla biləcəyi barədə xəbərdarlıq, habelə həmin icraatda özünün seçimi əsasında müdafiəçi vasitəsilə təmsil olunmaq hüququndan istifadə etmək istədiyi halda, müdafiəçisi barədə məlumatların cinayət prosesini həyata keçirən orqana göndərməli olduğu barədə məlumat.*

*54-2.2. Çağırış vərəqəsinin forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.*

*54-2.3. Çağırış vərəqəsində vaxt müəyyən edilərkən çağırılan şəxsin cinayət prosesini həyata keçirən orqana vaxtında gələ bilmə imkanı nəzərə alınmalıdır.*

*54-2.4. Çağırılan şəxsin xahişi ilə çağırışın tarixi və vaxtı dəyişdirilə bilər.*

*54-2.5. Çağırılan şəxs çağırışa gəlmədikdə bu Məcəllənin 178-ci maddəsində nəzərdə tutulmuş qaydada məcburi gətirilə bilər. Çağırılan şəxs üzrlü səbəbdən çağırışa gələ bilmədikdə bu barədə dərhal cinayət prosesini həyata keçirən orqana məlumat verməli, çağırışa gəlməməsinə səbəb olan üzrlü halları təsdiq edən dəlilləri təqdim etməlidir. Bu halda cinayət prosesini həyata keçirən orqan çağırılan şəxsin iştirak edə biləcəyi tarix və vaxtı nəzərə almaqla yeni çağırış tarixi və vaxtı müəyyən edir.*

*54-2.6. Şəxs telefon, videokonfrans əlaqə sistemi və ya digər rabitə və telekommunikasiya vasitələrindən istifadə*

*edilməklə çağırıla bilər. Bu halda çağırılan şəxsə çağırış vərəqəsinin bu Məcəllənin 54-2.1-ci maddəsində nəzərdə tutulmuş məzmunu, o cümlədən çağırılan şəxsin hüquq və vəzifələri izah edilir və bu barədə protokol tərtib olunur. Şübhəli və ya təqsirləndirilən şəxs telefon, videokonfrans əlaqə sistemi və ya digər rabitə və telekommunikasiya vasitələrindən istifadə edilməklə çağırıldıqda həmin şəxs qabaqcadan xəbərdar olunmaqla onun səsinin qeyd edilməsi təmin olunmalı, bu protokollaşdırılmalı və müvafiq elektron daşıyıcı protokola əlavə edilməlidir.*

*54-2.7. Həbs yerlərində saxlanılan şübhəli və təqsirləndirilən şəxslər həbs yerinin müdiriyyəti vasitəsilə çağırılırlar.*

*54-2.8. Fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli şəxslər onların qanuni nümayəndələri vasitəsi ilə çağırılırlar.*

***Maddə 54-3. Qəbzin məzmunu***

*54-3.1. Bu Məcəllənin 54-1.2-ci maddəsində nəzərdə tutulmuş qəbzdə aşağıdakılar göstərilməlidir:*

*54-3.1.1. cinayət prosesini həyata keçirən orqanın adı, ünvanı, təhqiqatçı, müstəntiq, prokuror və ya hakimin soyadı, adı, atasının adı, vəzifəsi;*

*54-3.1.2. prosessual sənədlərin verilməli olduğu şəxsin prosessual statusu, soyadı, adı, atasının adı, ünvanı, hüquqi şəxsin adı və yerləşdiyi ünvan;*

*54-3.1.3. prosessual sənədin adı;*

*54-3.1.4. prosessual sənədin verilmə vaxtı (tarix və saat), yeri, qəbul edən şəxsin soyadı, adı, atasının adı və imzası;*

*54-3.1.5. prosessual sənədin verilməməsinin səbəbləri;*

*54-3.1.6. ünvan sahibi olmadığı təqdirdə prosessual sənədin verildiyi şəxsin onu mümkün olan ən qısa müddətdə ünvan sahibinə vermək vəzifəsinə dair qeyd və onun imzası;*

*54-3.1.7. prosessual sənədin çatdırılması tapşırılmış şəxsin, yaxud rabitə orqanının nümayəndəsinin imzası.*

***Maddə 54-4. Prosessual sənədləri qəbul etməkdən imtina***

*Ünvan sahibi və ya digər şəxs prosessual sənədi qəbul etməkdən imtina etdikdə, onu təqdim edən şəxs ünvan sahibinin yaşadığı yer üzrə yerli özünüidarəetmə orqanı, müvafiq icra hakimiyyəti orqanı və ya iş yerinin müdiriyyətinin iştirakı ilə prosessual sənədin verilməməsinin səbəblərinə dair müvafiq qeydlər etdikdən sonra onu cinayət prosesini həyata keçirən orqana qaytarır. Bu halda prosessual sənəd rəsmi qaydada verilmiş hesab olunur.*

## V fəsil

## Bəraət qazanma (reabilitasiya). Vurulmuş ziyanın ödənilməsi

### Maddə 55. Şəxsin bəraət qazanması

55.1. Məhkəmə baxışı zamanı təqsiri sübuta yetirilməmiş şəxs həmin məhkəmə baxışında aşkar və təxirə salınmadan Azərbaycan Respublikasının adından təqsirsiz elan edilməli və ona məhkəmənin hökmü ilə bəraət verilməlidir.

55.2. Haqqında məhkəmənin bəraət hökmü çıxarılmış və ya məhkəməyədək icraat zamanı cinayət təqibinə bəraətverici əsasla xitam verilmiş hər hansı şəxs təqsirsiz sayılır.

55.3. Haqqında bəraət hökmü çıxarılmış və ya hər hansı əsaslarla cinayət təqibinə xitam verilmiş şəxsin mənzil, mülkiyyət, əmək və digər hüquqlarına hər hansı məhdudiyyət qoyula bilməz.

### Maddə 56. Vurulmuş ziyanın ödənilməsi hüququ olan şəxslər

56.0. Aşağıdakılar cinayət prosesini həyata keçirən orqanın səhvi və ya sui-istifadəsi nəticəsində vurulmuş ziyanın ödənilməsi hüququna malikdirlər:

56.0.1. bəraət almış təqsirləndirilən şəxs;

56.0.2. bu Məcəllənin 39.1.1, 39.1.2, 39.1.6–39.1.8, 39.2-ci maddələrində nəzərdə tutulmuş əsaslarla barəsində cinayət təqibinə xitam verilmiş şəxs;

56.0.3. bu Məcəllənin 39.1.3, 39.1.4, 39.1.10 və 39.1.11-ci maddələrində nəzərdə tutulmuş əsaslarla barəsində cinayət təqibinə xitam verilməli olan, lakin vaxtında xitam verilməyən və haqqında cinayət təqibi davam etdirilən şəxs;

56.0.4. bu Məcəllənin 39.1.12-ci maddəsində nəzərdə tutulmuş əsaslarla barəsində cinayət təqibinə xitam verilməli olan və buna razılıq alınmasına baxmayaraq, haqqında cinayət təqibi davam etdirilən şəxs;

56.0.5. qanunsuz həbs olunmuş və ya tibbi, yaxud tərbiyə müəssisəsinə məcburi yerləşdirilmiş, habelə qanuni əsas olmadan müəyyən edilmiş müddətdən artıq həbsdə saxlanılmış şəxs;

56.0.6. cinayət təqibi üzrə icraat zamanı qanunsuz olaraq bu Məcəllənin 176 və 177-ci maddələrində nəzərdə tutulmuş hallarda prosessual məcburiyyət tədbirlərinə məruz qalmış şəxs.

### Maddə 57. Vurulmuş ziyanın ödənilməsinin xüsusiyyətləri

57.1. Cinayət prosesini həyata keçirən orqanın səhvi və ya sui-istifadəsi nəticəsində bu Məcəllənin 56-cı maddəsində nəzərdə tutulmuş şəxslərə vurulmuş mənəvi, fiziki və maddi ziyan ödənilməlidir. Həmçinin, bu şəxslərin əmək və mənzil hüquqları bərpa edilməli, bunlar mümkün olmadıqda isə həmin hüquqların pozulması nəticəsində dəyən ziyanın pul kompensasiyası təmin edilməlidir.

57.2. Vurulmuş ziyan aşağıdakı andan hesablanır:

57.2.1. Bu Məcəllənin 56.0.1, 56.0.2, 56.0.5 və 56.0.6-cı maddələrində göstərilən şəxslərə — cinayət prosesini həyata keçirən orqanın cinayət təqibini istisna edən müvafiq halları bildiyi və bilməli olduğu gündən 7 (yeddi) gün keçdikdən sonra;

57.2.2. Bu Məcəllənin 56.0.3 və 56.0.4-cü maddələrində göstərilmiş şəxslərə — müvafiq olaraq cinayət qanununun və ya amnistiya aktının qüvvəyə mindiyi andan.

57.3. Bu Məcəllənin 56-cı maddəsində göstərilən şəxslərin könüllü gəlməsi və ya sonradan yalan olduğu aşkar edilərək məhkəmə qarşısında özlərinin təqsirli olduqları barədə bəyanatları ilə özlərinə qarşı cinayət təqibinin başlanmasına və prosessual məcburiyyət tədbirlərinin tətbiqinə şərait yaratmaları müəyyən edildikdə ziyan ödənilmir.

**Maddə 58. Vurulmuş ziyana görə kompensasiya**

58.1. Cinayət prosesini həyata keçirən orqanın səhvi və ya sui-istifadəsi nəticəsində vurulmuş maddi ziyan əsaslandırılaraq hesablandıqdan sonra kompensasiyası verilməklə tam həcmdə ödənilməlidir.

58.2. Fiziki və mənəvi ziyan Azərbaycan Respublikasının qanunvericiliyi ilə digər hal nəzərdə tutulmayıbsa, məhkəmə tərəfindən ədalətli hesab olunmuş məbləğdə ödənilir.

58.3. Bu Məcəllənin 56-cı maddəsində göstərilən şəxslərə aşağıdakılara görə kompensasiya verilir:

58.3.1. məhrum olduğu əmək haqqı, pensiya, müavinət və başqa gəlirlər;

58.3.2. müsadirə edilməsi, dövlət nəfinə keçirilməsi, istintaq orqanları tərəfindən götürülməsi, üzərinə həbs qoyulması ilə vurulmuş əmlak ziyanı;

58.3.3. ödənilmiş məhkəmə xərcləri;

58.3.4. müdafiəçiyə ödənilmiş pul məbləği;

58.3.5. hökmün icrası zamanı ödənilmiş və ya tutulmuş cərimə.

58.4. Həbsdə saxlanılmasına, məhkəmə məsrəflərinə, həbsdə saxlanılarkən gördüyü məcburi işlərə görə haqqın verilməsinə sərf olunmuş məbləğlər cinayət prosesini həyata keçirən orqanın səhvi və ya sui-istifadəsi nəticəsində şəxsə vurulmuş ziyanın ödənilməsi üçün nəzərdə tutulmuş məbləğdən çıxıla bilməz.

58.5. Ziyan bəraət hökmü və ya cinayət təqibinə xitam verilməsi haqqında qərara əsasən ödənilmişsə və sonradan bu qərar ləğv edilərək müvafiq şəxsin barəsində həmin cinayət təqibi ilə əlaqədar ittiham hökmü çıxarılmışsa, ziyanın ödənilməsinə yönəldilmiş məbləğlər tutulması üçün məhkəmə tərəfindən təkrar icraya yönəldilə bilər.

**Maddə 59. Vurulmuş ziyanın ödənilməsi ilə bağlı digər hüquqların bərpası**

59.1. Bu Məcəllənin 56-cı maddəsində göstərilən şəxslərin vurulmuş ziyanın ödənilməsi ilə bağlı aşağıdakı hüquqları vardır:

59.1.1. əvvəlki vəzifəsinə bərpa olunmaq, bu mümkün olmadıqda isə ona bərabər vəzifəyə təyin olunmaq və ya əvvəlki vəzifəsini itirməsi ilə əlaqədar vurulmuş ziyana görə pul kompensasiyasını almaq;

59.1.2. azadlıqdan məhrum edildiyi və ya azadlığının məhdudlaşdırıldığı vaxtı iş stajına daxil etdirmək;

59.1.3. əvvəl yaşadığı evini (mənzilini) qaytarmaq, bu mümkün olmadıqda isə ona bərabər tutulan, o cümlədən sahəsinə və yerləşdiyi yerə uyğun yaşayış evinə (mənzilə) köçürülmək;

59.1.4. məhrum olunduğu xüsusi və ya hərbi rütbəni bərpa etdirmək;

59.1.5. məhrum olunduğu fəxri adını və ya dövlət təltiflərini qaytarmaq.

59.2. Məhkəmə tərəfindən bəraət verilmiş, həmçinin barəsində cinayət təqibinə xitam verilmiş şəxsin tələbi ilə:

59.2.1. məhkəmə və ya istintaq orqanı iki həftə müddətində bu barədə həmin şəxsin əvvəlki və ya hazırkı iş yerinə, təhsil aldığı yerə, yaşayış yerinə məlumat verməlidir;

59.2.2. şübhəli və ya təqsirləndirilən şəxsi ləkələyən cinayət təqibi haqqında məlumatlar dərc edən *media subyekti* vətəndaşın təqsirsizliyini şübhə altına almadan bir ay müddətində iş üzrə yekun qərarı haqqında məlumat verməlidir.

59.3. Cinayət prosesini həyata keçirən orqan onun səhvi və ya sui-istifadəsi nəticəsində həbsdə saxlanılmış, yaxud təqsirləndirilən şəxs qismində cəlb edilmiş şəxsdən yazılı surətdə üzr istəməlidir.

**Maddə 60. Vurulmuş ziyanın ödənilməsini tələb etmə hüququ olan şəxslər**

60.1. Cinayət prosesini həyata keçirən orqanın səhvi və ya sui-istifadəsi nəticəsində vurulmuş ziyanın ödənilməsini tələb etmək və kompensasiya almaq hüququna bu Məcəllənin 56-

cı maddəsində göstərilən şəxslər, onların qanuni nümayəndələri, növbə üzrə daha yaxın vərəsələri, habelə vurulmuş ziyanın ödənilməsi hüququ olan şəxs öldükdə qanuna əsasən ailə başçısının itirilməsinə görə pensiya ilə təmin edilməli ölmüş şəxsin ailə üzvləri malikdir.

60.2. Bu Məcəllənin 59.2-ci maddəsində nəzərdə tutulmuş hərəkətlərin yerinə yetirilməsini tələb etmək hüququ bu Məcəllənin 56-cı maddəsində göstərilən şəxs öldüyü, yaxud fəaliyyət qabiliyyətini itirdiyi hallarda onun hər hansı qohumuna məxsusdur. Göstərilən halda *media subyekti* tərəfindən icrası məcburi olan müvafiq tələbi həmçinin ərazi və ya ixtisaslaşdırılmış prokuror verməyə haqlıdır.

**Maddə 61. Vurulmuş ziyanın ödənilməsini tələb etmək hüququnun tanınması**

61.1. Cinayət prosesi gedişi zamanı vurulmuş ziyanın ödənilməsini tələb etmək hüququ qanuni qüvvəyə minmiş bəraət hökmündə və ya cinayət təqibinə xitam verilməsi haqqında qərarda tanınır.

61.2. Bəraət hökmündə və ya cinayət təqibinə xitam verilməsi haqqında qərarda cinayət prosesini həyata keçirən orqanın səhvi və ya sui-istifadəsi nəticəsində vurulmuş ziyanın ödənilməsi məsələsi əks olunmayıbsa, bu məsələnin həlli cinayət təqibi üzrə icraat qurtardıqdan sonra həyata keçirilir.

**Maddə 62. Vurulmuş ziyanın ödənilməsini tələb etmək hüququnun izah edilməsi**

62.1. Bəraət hökmü çıxarmış məhkəmə, habelə cinayət təqibinə xitam verilməsi haqqında qərar çıxarmış təhqiqatçı, müstəntiq və ya prokuror cinayət prosesini həyata keçirən orqanın səhvi və ya sui-istifadəsi nəticəsində vurulmuş ziyanın ödənilməsi cinayət təqibinin gedişində mümkün olmadıqda, buna hüququ olan şəxsə, həmin şəxs olmadıqda isə bu Məcəllənin 60.2-ci maddəsində nəzərdə tutulmuş digər şəxsə cinayət təqibi üzrə icraat qurtardıqdan sonra ziyanın ödənilməsi qaydalarını izah etməlidir.

62.2. Cinayət prosesini həyata keçirən orqanın səhvi və ya sui-istifadəsi nəticəsində vurulmuş ziyanın ödənilməsi hüququnun şəxsə izah edilməsi haqqında ayrıca protokol tərtib olunur.

**Maddə 63. Cinayət təqibi üzrə icraat qurtardıqdan sonra vurulmuş ziyanın ödənilməsi qaydaları**

Cinayət prosesini həyata keçirən orqanın səhvi və ya sui-istifadəsi nəticəsində vurulmuş ziyanın cinayət təqibi üzrə icraat qurtardıqdan sonra ödənilməsi qaydaları mülki mühakimə icraatı qaydasında «Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında» Azərbaycan Respublikasının Qanunu ilə həyata keçirilir.

## VI fəsil

## Prosessual qərarların məcburiliyi

**Maddə 64. Prosessual qərarların icrasının məcburiliyi**

64.1. Cinayət prosesini həyata keçirən orqanın qüvvəyə minmiş qərarları, habelə göstərişləri, çağırışları və digər qanuni müraciətləri bütün dövlət orqanları, fiziki və hüquqi şəxslər üçün məcburidir və Azərbaycan Respublikasının ərazisində şərtsiz icra edilməlidir.

64.2. Cinayət prosesini həyata keçirən orqanın qərarlarının icra edilməməsi Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

64.3. Xarici dövlətlərin məhkəmələri və istintaq orqanları qərarlarının Azərbaycan Respublikası ərazisində məcburiliyi Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilir.

**Maddə 65. Prosessual qərarların preyudisial əhəmiyyəti**

65.1. Cinayət prosesini həyata keçirən orqanın ləğv edilməmiş qərarı həmin məsələ üzrə yeni qərar çıxarılmasına yol vermir. Cinayət prosesini həyata keçirən orqanın qərarı, şəxsin cinayət təqibini istisna edən qərarlardan başqa, hökmün və ya məhkəmənin digər yekun qərarının çıxarılması ilə əlaqədar məcburi qüvvəyə malik deyildir.

65.2. Aşağıdakı qərarlar cinayət prosesini həyata keçirən orqan üçün məcburi qüvvəyə malik deyildir və yeni hallar aşkar edilərsə və ya əvvəlki hallar aradan qalxarsa, onlara ləğv edilmədən yenidən baxıla bilər:

65.2.1. şəxslərin cinayət prosesinin iştirakçısı qismində tanınması və bu qisimdə onların cinayət prosesində iştirakına xitam verilməsi haqqında;

65.2.2. qətimkan tədbirinin seçilməsi və ya digər prosessual məcburiyyət tədbirlərinin

tətbiqi haqqında;

65.2.3. cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiə tədbirlərinin tətbiqi və onlara xitam verilməsi haqqında;

65.2.4. sübutların və cinayət təqibi üzrə icraatın digər materiallarının axtarılıb tapılması, toplanması, əlavə edilməsi, tədqiqi məsələləri haqqında;

65.2.5. prosessual hərəkətlərin icraatının növbəliliyi və vaxtı haqqında.

65.3. Məhkəmənin qanuni qüvvəyə minmiş hökmünün, habelə cinayət təqibi üzrə qüvvəyə minmiş digər qərarlarının bütün dövlət orqanları, fiziki və hüquqi şəxslər üçün məcburiliyi məhkəmə hökmünün və digər qərarının kassasiya qaydasında və yeni açılmış hallar üzrə yoxlanılmasına, ləğv edilməsinə və dəyişdirilməsinə mane olmur.

65.4. Məhkəmənin qanuni qüvvəyə minmiş hökmü, habelə cinayət təqibi üzrə qüvvəyə minmiş digər qərarı mülki işə, *kommersiya və ya inzibati mübahisəyə* baxılarkən məhkəmə üçün *hadisənin olub-olmaması və şəxsin həmin hadisəyə aidiyyəti* hissəsində məcburidir. İddianın təmin edilməsi hüququnu təsdiq edən məhkəmənin qanuni qüvvəyə minmiş hökmü mülki işə baxılarkən məhkəmə üçün bu hissədə məcburidir. **[71]**

65.5. Məhkəmə cinayət təqibinə xitam verilməsi haqqında təhqiqatçının, müstəntiqin və ya prokurorun qərarını məhkəmə nəzarəti funksiyalarını həyata keçirərkən ləğv edə bilər, məhkəmə baxışı nəticəsində isə həmçinin xüsusi qərar çıxara bilər.

65.6. Birinci və apellyasiya instansiyası məhkəməsi üçün şəxsin əvvəllər məhkum edilməsinə və ya bəraət almasına dair qanuni qüvvəyə minmiş hökm şərtsiz məcburidir.

65.7. Məhkəmənin mülki iş, *kommersiya və ya inzibati mübahisə* üzrə qanuni qüvvəyə minmiş qərarı cinayət prosesini həyata keçirən orqan və cinayət işinə baxan məhkəmə üçün yalnız hadisənin olub-olmaması hissəsində məcburidir. **[72]**

## İkinci bölmə

## Məhkəmə və cinayət prosesində iştirak edən şəxslər

## VII fəsil

## Məhkəmə

### Maddə 66. Cinayət mühakimə icraatını həyata keçirən məhkəmələr

66.0. Azərbaycan Respublikasında cinayət mühakimə icraatını aşağıdakı məhkəmələr həyata keçirir:

66.0.1. rayon (şəhər) məhkəmələri;

66.0.2. hərbi məhkəmələr;

66.0.3. *ağır cinayətlər məhkəmələri*; [73]

66.0.4. ləğv edilmişdir. [74]

*66.0.5. Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsi* ; [75]

66.0.6. Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi;

66.0.7. *apellyasiya məhkəmələri*; [76]

66.0.8. Azərbaycan Respublikasının Ali Məhkəməsi.

### Maddə 67. Rayon (şəhər) məhkəmələrinin aidiyyəti

67.1. Rayon (şəhər) məhkəmələri birinci instansiya məhkəmələri qismində fəaliyyət göstərirlər.

67.2. Rayon (şəhər) məhkəmələri böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə dair işlərə baxırlar.

67.3. Rayon (şəhər) məhkəmələri, həmçinin məhkəməyədək sadələşdirilmiş icraat üzrə materiallara, xüsusi ittiham qaydasında şikayətlərə, habelə məhkəmə nəzarəti funksiyalarının həyata keçirilməsinə dair və digər materiallara baxırlar.

67.4. Hər bir rayon (şəhər) məhkəməsinə yalnız məhkəmənin *yurisdiksıyasında* baş vermiş cinayətlərlə bağlı işlər və digər materiallar aiddir. [77]

### Maddə 68. Hərbi məhkəmələrin aidiyyəti

68.1. Hərbi məhkəmələr birinci instansiya məhkəməsi qismində fəaliyyət göstərirlər.

68.2. Hərbi məhkəmələr müharibə və hərbi xidmət əleyhinə olan böyük ictimai təhlükə törətməyən, *az ağır, ağır və xüsusilə ağır* cinayətlərə dair, habelə hərbi qulluqçular tərəfindən törədilmiş böyük ictimai təhlükə törətməyən və *az ağır, ağır və xüsusilə ağır* cinayətlərə dair işlərə baxırlar (göstərilən cinayətlər hərbi qulluqçu olmayan şəxsin iştirakı ilə törədilərsə, onun barəsində işə də hərbi məhkəmə tərəfindən baxılır). [78]

68.3. Hərbi məhkəmələr məhkəmə nəzarəti funksiyalarının həyata keçirilməsinə dair və digər materiallara baxırlar. [79]

68.4. Hər bir hərbi məhkəməyə yalnız məhkəmənin *yurisdiksıyasında* baş vermiş cinayətlərlə bağlı işlər və digər materiallar aiddir. [80]

***Maddə 69. Ağır cinayətlər məhkəmələrinin aidiyyəti*** [81]

69.1. *Ağır cinayətlər məhkəmələri* birinci instansiya məhkəməsi qismində fəaliyyət göstərir. [82]

69.2. *Ağır cinayətlər məhkəmələri* ağır və xüsusilə ağır cinayətlərə dair işlərə və digər materiallara baxır.

*69.3. Hər bir ağır cinayətlər məhkəməsinə yalnız onun yurisdiksiyasında baş vermiş cinayətlərlə bağlı işlər aiddir.* [83]

**Maddə 70. Ləğv edilmişdir.** [84]

***Maddə 70-1. Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsinin aidiyyəti*** [85]

*70-1.1. Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsi birinci instansiya məhkəməsi qismində fəaliyyət göstərir.*

*70-1.2. Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsi ağır və xüsusilə ağır cinayətlərə dair işlərə və digər materiallara baxır.*

*70-1.3. Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsinə yalnız onun yurisdiksiyasında baş vermiş cinayətlərlə bağlı işlər aiddir.* [86]

***Maddə 71. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin aidiyyəti***

*71.1. Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi cinayət işləri və cinayət təqibi ilə bağlı digər materiallar üzrə apellyasiya instansiyası məhkəməsi qismində fəaliyyət göstərir.*

*71.2. Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi aşağıda göstərilən birinci instansiya məhkəmələrinin qanuni qüvvəyə minməmiş hökmlərindən və digər qərarlarından apellyasiya şikayətləri və ya protestləri əsasında cinayət işlərinə və cinayət təqibi ilə bağlı digər materiallara baxır:*

*71.2.1. Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələrinin;*

*71.2.2. yurisdiksiyasına aid edilmiş hərbi məhkəmələrin;*

*71.2.3. Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsinin.* [87]

***Maddə 72. Apellyasiya məhkəmələrinin aidiyyəti***

*72.1. Apellyasiya məhkəmələri cinayət işləri və cinayət təqibi ilə bağlı materiallar üzrə apellyasiya instansiyası məhkəməsi qismində fəaliyyət göstərir.*

*72.2. Apellyasiya məhkəmələri aşağıda göstərilən məhkəmələrin qanuni qüvvəyə minməmiş hökmlərindən və digər qərarlarından apellyasiya şikayətləri və ya protestləri əsasında cinayət işlərinə və cinayət təqibi ilə bağlı digər materiallara baxır:*

*72.2.1. yurisdiksiyalarına aid edilmiş rayon (şəhər) məhkəmələrinin;*

*72.2.2. yurisdiksiyalarına aid edilmiş hərbi məhkəmələrin;*

*72.2.3. yurisdiksiyalarına aid edilmiş ağır cinayətlər məhkəmələrinin.* [88]

*72.2.4. ləğv edilmişdir* [89]

**Maddə 73. Azərbaycan Respublikası Ali Məhkəməsinin aidiyyəti**

73.1. Azərbaycan Respublikasının Ali Məhkəməsi cinayət işləri və cinayət təqibi ilə bağlı digər materiallar üzrə kassasiya instansiyası məhkəməsi qismində fəaliyyət göstərir.

73.2. Azərbaycan Respublikası Ali Məhkəməsinin *cinayət kollegiyası* ~~*və ya hərbi kollegiyası*~~ apellyasiya instansiyası məhkəmələri ~~və andlılar məhkəməsi~~ tərəfindən çıxarılmış hökmlərdən və digər qərarlardan verilmiş kassasiya şikayətləri və ya protestləri əsasında cinayət işlərinə və cinayət təqibi ilə bağlı digər materiallara baxır.**[90]**

73.3. Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu əlavə kassasiya qaydasında kassasiya instansiyası məhkəməsi tərəfindən çıxarılmış qərarlardan Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin təqdimatları, Azərbaycan Respublikası Baş prokurorunun protestləri, müdafiə tərəfinin şikayətləri əsasında və *hüquq və azadlıqların pozulması ilə bağlı* yeni hallar və yeni açılmış hallar üzrə işlərə baxır.**[91]**

**Maddə 74. Ərazi üzrə məhkəmə aidiyyəti** **KMQ13**

74.1. Cinayət işinə və digər materiala cinayətin törədildiyi yerin *yurisdiksıyasına* aid olan birinci instansiya məhkəməsində baxılır.[92]

74.2. Uzanan və ya davam edən cinayətlərin törədilməsi ilə bağlı cinayət işlərinin məhkəmə aidiyyəti aşağıdakılara əsasən müəyyənləşdirilir:

74.2.1. uzanan cinayətin başa çatdığı yer onun törədildiyi yer hesab olunur;

74.2.2. cinayət qanunu ilə nəzərdə tutulmuş son əməlin törədildiyi yer davam edən cinayətin başa çatdığı yer hesab olunur.

74.3. Xaricdə törədilməsi ehtimal olunan cinayət üzrə iş təqsirləndirilən şəxsin Azərbaycan Respublikasında axırıncı yaşayış yeri üzrə fəaliyyət göstərən məhkəməyə aiddir.

74.4. Cinayətin törədildiyi yeri müəyyən etmək mümkün olmadıqda, cinayət işi həmin işin məhkəməyədək icraatının başa çatdığı yer üzrə fəaliyyət göstərən məhkəməyə aiddir.

74.5. Cinayət işlərindən biri *ağır cinayətlər məhkəməsinə*, digəri isə rayon (şəhər) məhkəməsinə aid olan bir icraatda birləşdirilmiş cinayət işlərinə *ağır cinayətlər məhkəməsində* baxılır.[93]

*74.6. Cinayət işlərindən biri hərbi məhkəməyə, digəri isə rayon (şəhər) məhkəməsinə, yaxud ağır cinayətlər məhkəməsinə aid olan bir icraatda birləşdirilmiş cinayət işlərinə hərbi məhkəmədə baxılır.*[94]

*74.7. Cinayət işlərindən biri Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsinə, digəri isə Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəməsinə aid olan bir icraatda birləşdirilmiş cinayət işlərinə Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsində baxılır.*[95]

74.8. Eyni səviyyəli *birinci instansiya məhkəmələrinə* aid olan iki və ya daha çox cinayətlər üzrə işə, həmin cinayət işinin məhkəməyədək icraatının başa çatdığı yer üzrə fəaliyyət göstərən məhkəmə tərəfindən baxılır.[96]

*74.9. Məhkəmə nəzarətinin həyata keçirilməsi qaydasında, habelə hökm və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında materiallara birinci instansiya məhkəmələrində aidiyyəti üzrə baxılması bu Məcəllənin 442.1, 510.1, 511.1, 511-1.1, 512.1, 513.1, 514.1, 515.2, 516 - 519-cu maddələri ilə müəyyən olunur.*[97]

**Maddə 75. Cinayət işinin və ya digər materialın məhkəmə aidiyyəti üzrə verilməsi**

75.1. Cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraat üzrə materialın, xüsusi ittiham qaydasında şikayətin, habelə digər materialın məhkəmənin icraatına qəbul edilməsi məsələsi həll edilərkən onların məhkəmə aidiyyəti mütləq yoxlanılmalıdır. Məhkəməyə daxil olmuş cinayət işinin və ya digər materialın həmin məhkəməyə aid olmadığı müəyyən edildikdə, məhkəmə onu aidiyyəti üzrə göndərməlidir.

75.2. Məhkəmə öz icraatına qəbul etdiyi cinayət işinə bu Məcəllənin 74.5 və 74.6-cı maddələrində nəzərdə tutulmuş şərtlərə uyğun başqa məhkəmədə baxılmalı olduğunu məhkəmə baxışı zamanı müəyyən edərsə, işi məhkəmə aidiyyəti üzrə göndərməlidir.

**Maddə 76. Cinayət işinin və ya digər materialın məhkəmə aidiyyətinin dəyişdirilməsi**

76.1. Cinayət işinin və ya digər materialın ərazi üzrə məhkəmə aidiyyəti bu Məcəllənin 107, 109-cu maddələrinin müddəalarına əsasən aşağıdakı hallarda dəyişdirilə bilər:

76.1.1. bir hakimdən ibarət olan məhkəmənin fəaliyyət göstərdiyi ərazidə həmin hakimin özü-özünə verdiyi və ya ona edilmiş etiraz təmin edildikdə;

76.1.2. məhkəmənin bütün hakimləri özü-özlərinə verdikləri və ya onlara edilmiş etiraz təmin edildikdə;

76.2. Bu Məcəllənin 76.1.2-ci maddəsində nəzərdə tutulmuş hallarda məhkəmə aidiyyətinin dəyişdirilməsinə dair qərar müvafiq apellyasiya instansiyası məhkəməsinin sədri tərəfindən qəbul edilir.

*76.3. Fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə ədalət mühakiməsinin birinci instansiya məhkəməsi tərəfindən həyata keçirilməsi qeyri-mümkün olduqda bu səlahiyyət Azərbaycan Respublikasının Ali Məhkəməsi tərəfindən başqa birinci instansiya məhkəməsinə verilə bilər.*[98]

**Maddə 77. Məhkəmə aidiyyətinə dair mübahisələrin həlli**

77.1. Məhkəmələr arasında məhkəmə aidiyyətinə dair mübahisələrə yol verilmir. Məhkəmə aidiyyəti qaydalarına müvafiq olaraq hər hansı cinayət işi və ya digər material bir məhkəmədən digərinə göndərildikdə şərtsiz olaraq göndərildiyi məhkəmənin icraatına götürülməlidir. Məhkəmələr arasında bununla əlaqədar fikir ayrılığı olduqda cinayət işi və ya digər material bir məhkəmədən digərinə müvafiq apellyasiya instansiyası məhkəməsinin sədri tərəfindən göndərilir.

77.2. Cinayət işinin və ya digər materialın məhkəməyə aidiyyəti olmaması barədə cinayət prosesi tərəflərinin şikayətlərinə həmin məhkəmədə baxılır.

**Maddə 78. Məhkəmənin tərkibi**

78.1. Azərbaycan Respublikasının məhkəmələrində cinayət işlərinə hakimlər təkbaşına və ya kollegial tərkibdə baxırlar.

78.2. Böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayətlərə dair cinayət işlərinə və cinayət təqibi ilə bağlı digər materiallara birinci instansiya məhkəmələrinin hakimləri tərəfindən təkbaşına baxılır.

*78.3. Ağır cinayətlər məhkəmələrində, Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsində və ağır və xüsusilə ağır cinayətlərə dair işlərə baxarkən hərbi məhkəmələrdə cinayət işlərinə ~~andlı iclasçıların iştirakı ilə və ya~~ üç hakimdən ibarət kollegial tərkibdə baxılır.*[99]

78.4. Apellyasiya instansiyası məhkəməsində *birinci instansiya məhkəməsinin qanuni qüvvəyə minməmiş hökmündən və ya digər qərarından verilmiş şikayət və ya protestlərə, habelə xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması üzrə icraat qaydasında verilmiş müraciətlərə* üç hakimdən ibarət kollegial tərkibdə baxılır. [100]

78.5. Azərbaycan Respublikası Ali Məhkəməsinin *cinayət kollegiyasında ~~və ya hərbi kollegiyasında~~* cinayət işlərinə və cinayət təqibi ilə bağlı digər materiallara kassasiya şikayəti və ya protesti üzrə üç hakimdən ibarət kollegial tərkibdə, həmin işlərə və materiallara əlavə kassasiya qaydasında və ya yeni açılmış hallar üzrə — Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun iclasında baxılır.[101]

78.6. Bu maddədə nəzərdə tutulmuş qaydalara zidd olaraq cinayət işlərinə və cinayət təqibi ilə bağlı digər materiallara baxılması üçün hər hansı hakimin ~~və ya andlı iclasçının~~ cəlb edilməsi qadağandır.[102]

**~~Maddə 79. Andlı iclasçılar kollegiyası~~**[103]

*~~79.1. Bu Məcəllənin 359-cu maddəsində nəzərdə tutulmuş hallarda ağır cinayətlər məhkəmələrində, Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsində və hərbi məhkəmələrdə cinayət işlərinə baxılması üçün andlı iclasçılar kollegiyası yaradılır.~~*[104]

~~79.2. Andlı iclasçılar kollegiyası bu Məcəllənin 360-366-cı maddələrində nəzərdə tutulmuş qaydada on iki əsas və iki ehtiyat andlı iclasçıdan ibarət tərkibdə yaradılır.~~

~~79.3. Məhkəmə baxışı nəticəsində andlı iclasçılar kollegiyası yalnız təqsirləndirilən şəxsin törədilmiş cinayətdə təqsirliliyinə və ya təqsirsizliyinə dair verdikt çıxarır.~~

~~79.4. Cinayətin törədilməsi və cinayət təqibi ilə bağlı olan hallardan asılı olaraq andlı iclasçılar kollegiyası məhkəmə iclasında sədrlik edənin diqqətini təqsirli bildiyi şəxsə qarşı mərhəmətli olmaq imkanına cəlb edə bilər.~~

**Maddə 80. Hakim**

80.1. Cinayət mühakimə icraatında hakimin səlahiyyətləri bu Məcəllə və Azərbaycan Respublikasının digər qanunları ilə müəyyən edilir.

80.2. Birinci instansiya məhkəməsində cinayət işlərinə və cinayət təqibi ilə bağlı digər materiallara təkbaşına baxan, məhkəmə baxışına hazırlıq görülməsi və ya məhkəmənin qanuni qüvvəyə minmiş hökmünün, yaxud digər qərarının icrasının təmin edilməsini həyata keçirən hakim bu Məcəllənin müddəaları ilə müəyyən edilmiş məhkəmə səlahiyyətlərindən istifadə edir.

80.3. Hakimlər kollegiyasının tərkibində cinayət işinə baxan hakim işə baxılması ilə əlaqədar ortaya çıxan bütün məsələlərin həllində digər hakimlərlə bərabər hüquqlardan istifadə edir.

80.4. Hakimlər kollegiyası tərəfindən məhkəmə baxışı keçirilərkən məhkəmə iclasında sədrlik edən və ya cinayət işinə, yaxud cinayət təqibi ilə bağlı digər materiallara təkbaşına baxan hakim bu Məcəllənin 81-ci maddəsində nəzərdə tutulmuş səlahiyyətlərindən istifadə edir.[105]

**Maddə 81. Məhkəmə iclasında sədrlik edən**

81.1. ~~Andlı iclasçıların iştirakı ilə məhkəmə baxışı keçirilərkən məhkəmə iclasında hakim sədrlik edir.~~ Cinayət işinə və ya materiala hakimlər kollegiyası tərəfindən baxılarkən məhkəmənin sədri, onun müavini və ya hakimlərdən biri sədrlik edir.[106]

81.2. Sədrlik edən məhkəmə iclasının gedişinə rəhbərlik edir, cinayət işinə ədalətlə baxılmasının təmin edilməsi və məhkəmə baxışına və məhkəmə iclasında iştirak edən şəxslərin davranışına aid digər prosessual tələblərə əməl edilməsi üçün bu Məcəllədə nəzərdə tutulmuş bütün tədbirləri görür. Məhkəmə iclasında sədrlik edən baxılan cinayət işinə və materiala aidiyyəti olmayanları məhkəmə baxışından kənarlaşdırır.

~~81.3. Andlılar məhkəməsinin iclasında sədrlik edən hakim, verdikt çıxarılması istisna olmaqla, cinayət işinə baxılması ilə əlaqədar bütün məsələlər üzrə məhkəmənin səlahiyyətlərini həyata keçirir. Sədrlik edən məhkəmə iclasının gedişində andlı~~

iclasçıların sübutları tədqiq etməsini və tam qavramasını, onların hüquqlarının həyata keçirilməsini təmin edir.[107]

81.4. Hakimlər kollegiyası tərəfindən işə baxılarkən məhkəmə iclasında sədrlik edən hakim işə baxılması və həll edilməsi ilə bağlı bütün məsələləri digər hakimlərin müzakirəsinə verir.

**Maddə 82. Andlı iclasçı**[108]

—

82.1. Andlı iclasçı bu Məcəllədə nəzərdə tutulmuş qaydada aşağıdakı vəzifələri yerinə yetirməlidir:

82.1.1. cinayət işinə baxılmasında iştirak etmək üçün seçmə zamanı məhkəmə iclasına gəlmək və sədrlik edənin suallarına düzgün cavab vermək;

82.1.2. özü və digər şəxslərlə münasibətləri barədə məhkəmə iclasında sədrlik edənə əlavə məlumatlar təqdim etmək;

82.1.3. bu Məcəllənin 367.2-ci maddəsində müəyyən edilmiş mətn üzrə and içmək;

82.1.4. məhkəmə iclasının qaydalarına əməl etmək və məhkəmə iclasında sədrlik edənin göstərişlərinə tabe olmaq;

82.1.5. məhkəmə iclasında fasilə elan edildikdə və ya işə baxılması təxirə salındıqda məhkəmə iclasında sədrlik edənin təyin etdiyi vaxtda məhkəmə baxışının davam etdirilməsi üçün gəlmək;

82.1.6. məhkəmə iclasında sədrlik edən hakim tərəfindən qoyulmuş hər bir xüsusata dair sual-cavabında və ya verdikt çıxarılması məsələləri ilə əlaqədar müşavirə otağında təsdiqedici və ya inkaredici səs vermək;

82.1.7. şəxsi həyatın toxunulmazlığına, ailə, dövlət, peşə, kommersiya və qanunla qorunan digər sirlərə toxunan hallar barədə məlumatları yaymamaq;

82.1.8. bu Məcəllədə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

82.2. Andlı iclasçı bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada aşağıdakı hüquqları həyata keçirir:

82.2.1. məhkəmədə baxılan sübutların tədqiqində iştirak etmək;

82.2.2. məhkəmə iclasında sədrlik edənə müraciət edərək cinayət hadisəsinə dair onlara aid olmayan halların müəyyən edilməsi üçün suallar verilməsini xahiş etmək;

82.2.3. maddi sübutlara, sənədlərə, əraziyə və binalara baxış keçirilməsində, məhkəmədə aparılan digər bütün istintaq hərəkətlərində iştirak etmək;

82.2.4. baxılan cinayət işinə aid qanunun normalarını, məhkəmədə elan edilən sənədlərin məzmununu, cinayətin törədilməsində təqsirləndirilən şəxsin təqsirli bilindiyi cinayətlərin əlamətlərini və aydın olmayan anlayışları izah etməyi məhkəmə iclasında sədrlik edəndən xahiş etmək;

82.2.5. məhkəmə iclasında sədrlik edən, yazılı müraciət edərək mütəxəssisə onun səlahiyyətinə aid məsələlərin izah olunmasını xahiş etmək;

82.2.6. məhkəmə iclasında yazılı qeydlər aparmaq.

82.3. Andlı iclasçıya aşağıdakılar qadağandır:

82.3.1. cinayət işinə baxılarkən məhkəmə iclası zalını tərk etmək;

82.3.2. məhkəmə iclasında sədrlik edənin icazəsi olmadan baxılan işin mahiyyəti ilə əlaqədar hər hansı şəxslə ünsiyyət saxlamaq;

82.3.3. baxılan cinayət işinə dair məhkəmə iclasından kənarda məlumat toplamaq.

—

**Maddə 83. Andlı iclasçıların aparıcısı**[109]

—

83.1. Andlı iclasçıların aparıcısı məhkəmə iclasında işə baxılması zamanı ortaya çıxan bütün məsələlərin həllində və andlı iclasçılar kollegiyası tərəfindən verdikt çıxarılmasında digər andlı iclasçılarla bərabər hüquqlardan istifadə edir.

83.2. Digər andlı iclasçıların birgə ümumi vəzifələri ilə yanaşı andlı iclasçıların aparıcısı aşağıdakı əlavə vəzifələri yerinə yetirir:

83.2.1. baxılan cinayət işinin müzakirəsində andlı iclasçıların hər birinin iştirakına bərabər imkanlar yaratmaqla onların müşavirələrinin gedişinə rəhbərlik etmək;

83.2.2. müşavirə otağında andlı iclasçılara sual vərəqəsini elan etmək;

83.2.3. zərurət olduqda andlı iclasçılar kollegiyasında səsverməni təşkil etmək və onun nəticələrini yekunlaşdırmaq;

83.2.4. sual vərəqəsindəki suallara andlı iclasçılar kollegiyasının cavablarını yazmaq;

83.2.5. məhkəmə iclasında andlı iclasçılar kollegiyasının verdiktini elan etmək;

83.2.6. andlı iclasçıların tapşırığı ilə məhkəmə iclasında sədrlik edənə xahişlə müraciət etmək.

## VIII fəsil

## İttiham tərəfi

**Maddə 84. Prokuror**

84.1. Cinayət təqibini həyata keçirərkən prokuror cinayət işinin bütün hallarının tədqiqi nəticəsinə əsaslanaraq yalnız qanunun tələblərini və daxili inamını rəhbər tutur.

84.2. Prokuror bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada aşağıdakı vəzifələri yerinə yetirməlidir:

84.2.1. törədilmiş və ya hazırlanan cinayətlərə dair daxil olmuş ərizə və digər məlumatlara baxmaq, kifayət qədər səbəblər və əsaslar olduqda cinayət işi başlamaq və bu halda müstəntiqin səlahiyyətlərindən istifadə edərək onun ibtidai istintaqını aparmaq, yaxud onu təhqiqatçıya və ya müstəntiqə tapşırmaq;

84.2.2. cinayət işi üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirmək;

84.2.3. məhkəmədə mülki iddia qaldırmaq və onu müdafiə etmək;

84.2.4. məhkəmədə cinayət işi üzrə ittihamı müdafiə etmək;

84.2.5. cinayət təqibinin gedişində digər səlahiyyətləri həyata keçirmək.

84.3. Cinayət işi üzrə məhkəməyədək icraat zamanı bu Məcəllənin müddəalarının icrası və tətbiqinə həmin iş üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror məsuliyyət daşıyır. Cinayət işi üzrə ibtidai istintaq aparmış, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirmiş və ya məhkəmədə dövlət ittihamçısı qismində iştirak etmiş prokuror şəxsi həyatın toxunulmazlığına, ailə, dövlət, peşə, kommersiya və qanunla qorunan digər sirlərə toxunan hallar barədə məlumatları yaymamalıdır.

84.4. Cinayət işi üzrə ibtidai istintaq aparmış və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirmiş prokuror məhkəmə baxışında dövlət ittihamçısı qismində iştirak edə bilməz.

84.5. İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror cinayət işi üzrə aparılan təhqiqata və ibtidai istintaqa nəzarət edərkən aşağıdakı hüquqları həyata keçirir:

84.5.1. törədilmiş və ya hazırlanan cinayətlərə dair daxil olmuş ərizə və digər məlumatların təhqiqat və ibtidai istintaq orqanları tərəfindən qəbulu, qeydiyyatı və həll edilməsində qanunun tələblərinin yerinə yetirilməsi vəziyyətini yoxlamaq;

84.5.2. təhqiqatçıdan və ya müstəntiqdən cinayət işinin materiallarını, sənədlərini, ibtidai araşdırmanın gedişi haqqında məlumatları tələb etmək, habelə cinayət işlərinin materiallarını və sənədlərini yoxlamaq, ibtidai araşdırmanın gedişi vəziyyəti ilə yerində tanış olmaq;

84.5.3. cinayət işinin ibtidai istintaqı aparan bir *müvafiq icra hakimiyyəti orqanından* digərinə verilməsi halları istisna olmaqla, istintaqın hərtərəfli, tam və obyektiv aparılmasını və cinayət təqibi üzrə icraatın tezliyini təmin etmək məqsədi ilə , habelə qanunun tələblərinin pozulması ilə istintaq edilən cinayət işini təhqiqatçının və ya müstəntiqin icraatından götürərək digər təhqiqatçının və ya müstəntiqin icraatına vermək*, habelə istintaqı aid olan orqanın bir istintaq qurumundan digərinə vermək*;[110]

84.5.4. cinayət işi üzrə ibtidai araşdırmanı istintaq qrupuna tapşırmaq və qrupun tərkibini müəyyən etmək;

84.5.5. vəkilin cinayət prosesində iştirakını istisna edən hallar müəyyən edildikdə, onu cinayət işi üzrə icraatdan kənarlaşdırmaq;

84.5.6. təhqiqatçıya və ya müstəntiqə, habelə onların özü-özünə verilmiş etirazlara baxmaq;

84.5.7. hadisənin araşdırılması, qətimkan tədbirinin seçilməsi, dəyişdirilməsi və ya ləğv edilməsi, əməlin tövsifi, cinayət törətmiş şəxsin axtarışı, ittiham aktının məzmunu, qərarların qəbul edilməsi, habelə istintaq və ya digər prosessual hərəkətlərin aparılması barədə təhqiqatçıya və ya müstəntiqə yazılı göstərişlər vermək;

84.5.8. təhqiqatçının və ya müstəntiqin qanunsuz və əsassız qərarlarını ləğv etmək;

84.5.9. təhqiqatçının və ya müstəntiqin qərar və hərəkətlərindən verilmiş şikayətlərə baxmaq;

84.5.10. toxunulmazlıq hüququndan istifadə edən şəxsin cinayət təqibi zərurəti yarandıqda, onun toxunulmazlıq hüququndan məhrum edilməsinə razılıq verilməsi barədə müvafiq orqan qarşısında vəsatət vermək üçün Azərbaycan Respublikası Baş Prokurorluğuna müraciət etmək;

84.5.11. təqsirləndirilən şəxsin barəsində həbs qətimkan tədbirinin seçilməsi, həbsdə saxlama müddətinin *uzadılması məsələsinə baxılması üçün*, habelə bu Məcəllənin 177, 443 və 444-cü maddələrində nəzərdə tutulmuş hallarda təqdimatla məhkəməyə *və ya müvafiq təqdimatın verilməsi üçün yuxarı prokurora* müraciət etmək;[111]

84.5.12. məhkəmə qarşısında cinayət prosesini həyata keçirən orqanı təmsil etmək;

84.5.13. bu Məcəllənin 39, 40-cı maddələrində nəzərdə tutulmuş hallarda təqsirləndirilən şəxsə qarşı cinayət təqibinə xitam vermək və cinayət təqibindən imtina etmək;

84.5.14. ittiham aktını, habelə bu Məcəllədə nəzərdə tutulmuş hallarda təhqiqatçının və ya müstəntiqin qərarlarını təsdiq etmək, yaxud bundan imtina edərək icrası məcburi olan göstərişləri ilə cinayət işini müstəntiqə qaytarmaq;

84.5.15. cinayət işlərini və ya cinayət təqibi ilə bağlı digər materialları mahiyyəti üzrə baxılması üçün məhkəməyə göndərmək;

84.5.16. cinayət işi üzrə müvafiq qərarları şəxsən qəbul etmək, ayrı-ayrı istintaq və ya digər prosessual hərəkətləri həyata keçirmək;

84.5.17. cinayətin açılması, itkin düşmüş şəxsin və ya əmlakın tapılması üçün əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsini tapşırmaq və görülmüş tədbirlər barədə məlumat almaq;

84.5.18. hadisələr və onlarla əlaqəsi olan şəxslər barədə sənədləri və materialları tələb etmək;

84.5.19. təhqiqatçı və ya müstəntiq tərəfindən tutulma, məcburi gətirilmə və ya digər prosessual məcburiyyət tədbirlərinin aparılmasının qanuniliyinə nəzarət etmək, habelə prosessual hərəkətlərin aparılmasını təhqiqat orqanına tapşırmaq;

84.5.20. zərər çəkmiş şəxsin, şahidin və cinayət prosesində iştirak edən digər şəxslərin təhlükəsizliyi üçün t*ədbirlərin görülməsini təmin etmək*; [112]

84.5.21. qanuni əsaslar olmadan və ya bu Məcəllənin 148.4, 148.6, 148.7, 150.3, 151.5, 158, 159-cu maddələri ilə müəyyən olunmuş müddətlərdən artıq tutulan şübhəli şəxsi, yaxud həbsdə saxlanılan təqsirləndirilən şəxsi azad etmək; [113]

84.5.22. bu Məcəllədə nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək.

84.6. Xüsusi ittiham qaydasında cinayət təqibi halları istisna olmaqla, məhkəmə baxışında dövlət ittihamçısı qismində iştirak edərkən prokuror bu Məcəllədə nəzərdə tutulmuş qaydalara riayət etməklə aşağıdakı hüquqlara malikdir:

84.6.1. etirazlar etmək;

84.6.2. vəsatətlər vermək;

84.6.3. məhkəmədə həll edilən məsələlər və cinayət prosesinin digər iştirakçılarının vəsatətləri üzrə öz rəyini bildirmək;

84.6.4. ittiham tərəfinin sübutlarını məhkəməyə təqdim etmək, habelə məhkəməyə sübutların təqdim olunması məqsədi ilə məhkəmənin qərarı ilə prosessual məcburiyyət tədbirləri tətbiq etmək;

84.6.5. birinci və apellyasiya instansiyası məhkəmələrində məhkəmə istintaqında və işin materiallarının tədqiqində iştirak etmək;

~~84.6.6. birinci instansiya məhkəməsinin iclasında andlı iclasçıların seçilməsində iştirak etmək;~~**[114]**

84.6.7. müdafiə tərəfinin qanunsuz hərəkətlərinə öz etirazını bildirmək;

84.6.8. qeyd olunmalı hərəkətlərin istintaq və ya digər prosessual hərəkətlərin protokoluna və ya məhkəmənin iclas protokoluna daxil edilməsini tələb etmək;

84.6.9. bu Məcəllənin 41.3-cü maddəsində nəzərdə tutulmuş hallarda təqsirləndirilən şəxsə qarşı cinayət təqibindən imtina etmək;

*84.6.9-1. şəxsə qarşı irəli sürülmüş ittihamla müqayisədə onun əməlinin daha yüngül məsuliyyət nəzərdə tutan cinayət qanununun norması ilə tövsif edilməsini və ya şəxsə qarşı irəli sürülmüş ittihamdan ayrı-ayrı bəndlərin çıxarılmasını təklif etmək;*[115]

84.6.10. birinci və apellyasiya instansiyası məhkəmələrində giriş, yekun nitqi və replika söyləmək, kassasiya instansiyası məhkəməsində isə baxılan məsələ üzrə çıxış etmək;

84.6.11. *məhkəmələrdə cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraatın materialları ilə tanış olmaq*, hökmdən və məhkəmənin digər qərarlarından protest vermək; [116]

84.6.12. bu Məcəllədə nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək.

84.7. Dövlət ittihamçısı aşağıdakı vəzifələri yerinə yetirməlidir:

84.7.1. məhkəmə iclasında qaydaya riayət etmək;

84.7.2. məhkəmə iclasında sədrlik edənin sərəncamlarına tabe olmaq;

84.7.3. bu Məcəllədə nəzərdə tutulmuş digər vəzifələri icra etmək.

84.8. İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror yuxarı prokurorun göstərişlərini yerinə yetirməlidir. Təqsirləndirilən şəxs qismində cəlb edilməsi, qətimkan tədbirinin seçilməsi və ya dəyişdirilməsi, cinayətin tövsifi, ittihamın həcmi, işin icraatına xitam verilməsi və ya məhkəməyə göndərilməsinə dair yuxarı prokurorun göstərişləri ilə razı olmayan ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror öz əsaslandırılmış etirazını yuxarı prokurora göndərməyə haqlıdır. Bu halda yuxarı prokuror onun dəlilləri ilə razılaşır və öz yazılı göstərişlərini geri götürür və ya onun dəlilləri ilə razılaşmayaraq cinayət işi üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyi digər prokurora tapşırır. *Yuxarı prokurorun* yazılı göstərişlərindən edilən etiraz bu göstərişlərin icrasını dayandırmır. [117]

**Maddə 85. Müstəntiq**

85.1. Cinayət təqibini həyata keçirərkən müstəntiq qanunun tələblərini rəhbər tutaraq, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun göstərişlərinə və öz daxili inamına əsaslanaraq, zəruri prosessual qərarlar qəbul edir, istintaq və ya digər prosessual hərəkətləri həyata keçirir.

85.2. Müstəntiq bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada aşağıdakı vəzifələri yerinə yetirməlidir:
85.2.1. törədilmiş və ya hazırlanan cinayətlərə dair daxil olmuş ərizə və digər məlumatlara baxmaq, kifayət qədər səbəblər və əsaslar olduqda cinayət işi başlamaq, işi öz icraatına götürmək, cinayətin açılması, işin hərtərəfli, tam və obyektiv araşdırılması üçün zəruri tədbirlər görmək, səlahiyyəti daxilində bütün istintaq və ya digər prosessual hərəkətləri həyata keçirmək; KMQ15
85.2.2. şübhəli şəxsə tutulduğu, təqsirləndirilən şəxsə isə ittiham elan olunduğu və ya həbs edildiyi andan hüquqlarını bildirmək, müvafiq olaraq tutulmasının, cinayət məsuliyyətinə cəlb edilməsinin və ya həbsə alınmasının səbəblərini izah etmək;
85.2.3. şəxsin tutulduğu, ittiham elan olunduğu və ya həbsə alındığı andan müdafiəçinin yardımından istifadə hüququnu təmin etmək (bu Məcəllənin 153.2.5—153.2.8-ci maddələrində nəzərdə tutulmuş müddəalara uyğun olaraq);
85.2.4. şübhəli şəxs tərəfindən cinayət törədilməsini təsdiq edən kifayət qədər sübutlar toplandığı halda, onu cinayət işi üzrə təqsirləndirilən şəxs qismində cəlb etmək və ona ittiham elan etmək;
85.2.5. zərurət olduqda bu Məcəllənin 154—157, 160; 163—172-ci maddələrinin tələblərinə müvafiq olaraq şübhəli və ya təqsirləndirilən şəxs haqqında qətimkan tədbirinin seçilməsini təmin etmək; KMQ15
85.2.6. qanuni əsaslar olmadan və ya bu Məcəllənin 148.4, 148.6, 148.7, 150.3, 151.5, 158, 159-cu maddələri ilə müəyyən olunmuş müddətlərdən artıq tutulan şübhəli şəxsi, yaxud həbsdə saxlanılan təqsirləndirilən şəxsi azad etmək;
85.2.7. prokurorun göstərişlərini icra etmək;
85.2.8. prokurora və məhkəməyə yazılı və şifahi izahatlar vermək;
85.2.9. bu Məcəllənin 193-cü maddəsinə uyğun olaraq şübhəli və ya təqsirləndirilən şəxsi hüquqi yardım ödənişlərindən azad etmək;
85.2.10. müvafiq şəxsləri cinayət işi üzrə zərər çəkmiş şəxs, mülki iddiaçı və ya mülki cavabdeh qismində tanımaq;
85.2.11. cinayətin törədilməsi nəticəsində vurulmuş maddi ziyanın ödənilməsi, habelə tətbiq oluna biləcək *xüsusi müsadirənin* təmin edilməsi üçün tədbirlər görmək; [118]
85.2.12. bu Məcəllənin 158, 159, 218—221-ci maddələrinin tələblərinə riayət etməklə ibtidai istintaqı başa çatdırmaq, habelə cinayət işinin materialları ilə təqsirləndirilən şəxsi, onun müdafiəçisini, zərər çəkmiş şəxsi, mülki iddiaçını və onların nümayəndələrini tanış etmək, bununla əlaqədar verilmiş vəsatətlərə baxmaq və cinayət işi üzrə ittiham aktını tərtib edərək işi ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərmək;
85.2.13. şəxsi həyatın toxunulmazlığına, ailə, dövlət, peşə, kommersiya və qanunla qorunan digər sirlərə toxunan hallar barədə məlumatları yaymamaq;
85.2.14. bu Məcəllədə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.
85.3. Cinayət işi üzrə ibtidai istintaqı aparan müstəntiq istintaq və ya digər prosessual *hərəkətləri qanuni və vaxtında aparmağa borcludur.*
85.4. Bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada müstəntiq aşağıdakı hüquqları həyata keçirir:
85.4.1. hadisə və onunla əlaqəsi olan şəxslər barəsində məlumatları əks etdirən sənədləri və digər materialları tələb etmək;
85.4.2. şübhəli şəxsi tutmaq, onu, zərər çəkmiş şəxsi, şahidi dindirmək, ekspertiza təyin etmək, tanınmaya təqdim etmək, baxış, axtarış, götürmə, müayinə (şəxsi müayinə) və digər istintaq hərəkətlərini aparmaq;
85.4.3. dövlət orqanlarından tərcüməçinin, mütəxəssisin, ekspertin ayrılmasını tələb etmək, şəxslərin razılığı ilə onları müvafiq istintaq hərəkətlərinə hal şahidi, tərcüməçi, mütəxəssis və ekspert qismində cəlb etmək;
85.4.4. dövlət orqanlarından və ya auditor təşkilatlarından təftişlərin, inventarlaşdırmaların, ekspertizaların və digər yoxlamaların keçirilməsini tələb etmək;
85.4.5. müvafiq təhqiqat orqanına cinayətin açılması, itkin düşmüş şəxsin və ya əmlakın tapılması üçün əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsini tapşırmaq və görülmüş tədbirlər barədə məlumat almaq;
85.4.6. tutulma, məcburi gətirilmə və digər prosessual məcburiyyət tədbirlərinin aparılmasını müvafiq təhqiqat orqanına tapşırmaq, habelə ondan istintaq və ya digər prosessual hərəkətlərin keçirilməsinə kömək göstərilməsini tələb etmək;
85.4.7. müvafiq təhqiqat orqanına və ya təhqiqatçıya ayrı-ayrı istintaq hərəkətlərinin keçirilməsini tapşırmaq;
85.4.8. müdafiəçinin cinayət işinin icraatında iştirakını istisna edən hallar müəyyən edildikdə, onun cinayət işinin icraatında iştirak etməkdən kənarlaşdırılması barədə prokuror qarşısında vəsatət vermək;
85.4.9. hal şahidinə, tərcüməçiyə, mütəxəssisə və ya ekspertə edilmiş etirazlara baxmaq;
85.4.10. cinayət prosesində iştirak edən şəxslərin vəsatətlərinə və cinayət işinin icraatı ilə əlaqədar digər şəxslərin ərizə və digər müraciətlərinə baxmaq;

85.4.11. cinayət prosesində iştirak edən şəxslərin şikayətlərinə baxmaq;
85.4.12. məhkəmənin müstəsna səlahiyyətlərinə aid olanlar istisna edilməklə qətimkan tədbirlərinin seçilməsi, dəyişdirilməsi, ləğv edilməsi, istintaq və ya digər prosessual məcburiyyət tədbirlərinin aparılması barədə qərarlar qəbul etmək;
85.4.13. cinayət işi üzrə icraatın dayandırılması və ya xitam olunması barədə qərar qəbul etmək;
85.4.14. bu Məcəllədə nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək.
85.5. İbtidai istintaq apararkən müstəntiq təqsirləndirilən şəxs qismində cəlb edilməsi, qətimkan tədbirinin seçilməsi, dəyişdirilməsi və ya ləğv edilməsi, cinayətin tövsifi, ittihamın həcmi, işin icraatına xitam verilməsi və ya məhkəməyə göndərilməsinə dair ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun göstərişi, yaxud qərarı ilə razılaşmadıqda öz əsaslandırılmış etirazını yuxarı prokurora göndərməyə haqlıdır. Bu halda yuxarı prokuror onun dəlilləri ilə razılaşır və aşağı prokurorun yazılı göstərişlərini ləğv edir və ya onun dəlilləri ilə razılaşmayaraq ibtidai istintaqın aparılmasını digər müstəntiqə tapşırır. Prokurorun yazılı göstərişlərindən edilən etiraz bu göstərişlərin icrasını dayandırmır.
85.6. Müstəntiqin bütün səlahiyyətlərindən istifadə edən istintaq şöbəsinin (bölməsinin, idarəsinin) rəisi (rəis olmadıqda müavini) bu Məcəllənin tələblərinə əməl edərək:
85.6.1. törədilmiş və ya hazırlanan cinayətlərə dair daxil olmuş ərizə və digər məlumatların qeydiyyata alınmasını təşkil edir, onlara baxılmasını, cinayət işi üzrə ibtidai istintaqın və ya ayrı-ayrı istintaq hərəkətlərinin aparılmasını müstəntiq, yaxud müstəntiqlər qrupuna tapşırır;
85.6.2. müstəntiqin cinayətin açılması, araşdırılması və qarşısının alınması üçün vaxtında müvafiq tədbirlər görməsinə nəzarəti həyata keçirir;
85.6.3. cinayət işləri üzrə hərtərəfli, tam və obyektiv ibtidai istintaq aparılması üçün zəruri təşkilati tədbirlər görür;
85.6.4. müstəntiqin icraatında olan işlərlə əlaqədar bu Məcəllənin *84.5.3*, 84.5.5, 84.5.8, 84.5.10 və 84.5.20-ci maddələrində nəzərdə tutulmuş məsələlər üzrə baxılması məcburi olan vəsatətləri ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərir. [119]

**Maddə 86. Təhqiqatçı**

86.1. Cinayət təqibini həyata keçirərkən təhqiqatçı qanunun tələblərini rəhbər tutaraq, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun göstərişlərinə və öz daxili inamına əsaslanaraq, zəruri prosessual qərarlar qəbul edir, öz səlahiyyətləri daxilində istintaq və ya digər prosessual hərəkətləri həyata keçirir.
86.2. Təhqiqatçı bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada aşağıdakı vəzifələri yerinə yetirməlidir:
86.2.1. törədilmiş və ya hazırlanan cinayətlərə dair daxil olmuş ərizə və digər məlumatlara baxmaq, kifayət qədər səbəblər və əsaslar olduqda cinayət işi başlamaq, işi öz icraatına götürmək, cinayətin açılması, işin hərtərəfli, tam və obyektiv araşdırılması üçün zəruri tədbirlər görmək, səlahiyyəti daxilində bütün istintaq və ya digər prosessual hərəkətləri həyata keçirmək;
86.2.2. şübhəli şəxsə tutulduğu andan hüquqlarını bildirmək və tutulmasının səbəblərini izah etmək;
86.2.3. şəxsin tutulduğu andan müdafiəçinin yardımından istifadə hüququnu təmin etmək (bu Məcəllənin 153.2.5–153.2.8-ci maddələrində nəzərdə tutulmuş müddəalara uyğun olaraq);
86.2.4. zərurət olduqda bu Məcəllənin 154–156, 160, 165–172-ci maddələrinin tələblərinə müvafiq olaraq şübhəli şəxs haqqında qətimkan tədbirinin seçilməsini təmin etmək;
86.2.5. qanuni əsaslar olmadan və ya bu Məcəllənin 148.4, 148.6, 148.7, 150.3 və 151.5-ci maddələrində nəzərdə tutulmuş müddətlərdən artıq tutulan şəxsi azad etmək; [120]
86.2.6. müvafiq şəxsləri cinayət işi üzrə zərər çəkmiş şəxs, mülki iddiaçı və ya mülki cavabdeh qismində tanımaq;
86.2.7. cinayətin törədilməsi nəticəsində vurulmuş maddi ziyanın ödənilməsi, habelə tətbiq oluna biləcək *xüsusi müsadirənin* təmin edilməsi üçün tədbirlər görmək; **[121]**
86.2.8. bu Məcəllənin 193-cü maddəsinə uyğun olaraq tutulmuş şübhəli şəxsi hüquqi yardım ödənişlərindən azad etmək;
86.2.9. prokurorun və müstəntiqin göstərişlərini və qərarlarını icra etmək;
86.2.10. prokurora və məhkəməyə yazılı və şifahi izahatlar vermək;
*102.2.3. zərər çəkmiş hüquqi şəxsin, yaxud mülki iddiaçı və ya mülki cavabdeh olan hüquqi şəxsin qanunlarla, digər hüquqi aktlarla və ya hüquqi şəxsin təsis sənədləri ilə müəyyən edilmiş səlahiyyətli şəxsləri, yaxud müvafiq qaydada səlahiyyət verilmiş və əsas iş yeri həmin hüquqi şəxs olan işçiləri.*

102.3. Şəxs zərər çəkmiş şəxsin, mülki iddiaçının, mülki cavabdehin nümayəndəsi kimi tanındıqdan sonra şəxsin həmin qisimdə qalmasına əsasların olmadığı müəyyən edildikdə, cinayət prosesini həyata keçirən orqanın əsaslandırılmış qərarı ilə onun cinayət prosesində iştirakına xitam verilir. Zərər çəkmiş şəxs, mülki iddiaçı, mülki cavabdeh tərəfindən səlahiyyətlərinə xitam verildikdə, şəxsin də nümayəndə qismində cinayət prosesində iştirakına xitam verilir.

102.4. Zərər çəkmiş şəxsin, mülki iddiaçının və ya mülki cavabdehin bir neçə nümayəndəsi ola bilər. Cinayət prosesini həyata keçirən orqan istintaq və ya digər prosessual hərəkətin aparılmasında, habelə məhkəmə iclasında iştirak edən nümayəndələrin sayını eyni vaxtda bir nəfərədək məhdudlaşdırmağa haqlıdır.

102.5. Zərər çəkmiş şəxsin, mülki iddiaçının və ya mülki cavabdehin nümayəndəsi cinayət prosesi zamanı şəxsiyyətin ayrılmaz hüquqları istisna olmaqla, təmsil etdiyi şəxsin hüquqlarını həyata keçirir.

102.6. Zərər çəkmiş şəxsin, mülki iddiaçının və ya mülki cavabdehin nümayəndəsi bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada aşağıdakı hüquqları həyata keçirir:

102.6.1. ittihamın mahiyyətini bilmək;

102.6.2. bu Məcəllədə nəzərdə tutulmuş hallarda cinayət prosesini həyata keçirən orqanın təklifi ilə bu orqanın apardığı istintaq və ya digər prosessual hərəkətlərdə, habelə təmsil etdiyi şəxsin iştirakı ilə keçirilən hər hansı istintaq və ya digər prosessual hərəkətlərdə iştirak etmək;

102.6.3. izahatlar vermək;

102.6.4. cinayət işinə əlavə və ya məhkəmə iclasında tədqiq olunması üçün sübutlar və digər materiallar təqdim etmək;

102.6.5. etirazlar etmək və vəsatətlər vermək;

102.6.6. cinayət prosesini həyata keçirən orqanın hərəkətlərinə öz etirazını bildirmək və bu etirazın istintaq və ya digər prosessual hərəkətlər protokoluna yazılmasını tələb etmək;

102.6.7. özünün, yaxud təmsil etdiyi şəxsin iştirakı ilə keçirilən istintaq və ya digər prosessual hərəkətlərin *protokolları, habelə məhkəmə iclasının protokolu və ona əlavə edilmiş audioyazı* ilə tanış olmaq, iştirak etdiyi istintaq və ya digər prosessual hərəkətin protokolundakı yazıların düzgünlüyü və tamlığı barədə qeydlərini vermək; istintaq və ya digər prosessual

hərəkətlərdə və məhkəmə iclasında iştirak edərkən qeyd edilməsi zəruri olan halların müvafiq protokola daxil edilməsini tələb etmək; [172]

102.6.8. ibtidai araşdırma qurtardığı və ya cinayət işi üzrə icraata xitam verildiyi andan işin materialları ilə tanış olmaq, təmsil etdiyi şəxsə aid zəruri sənədlərin surətlərini çıxarmaq;

102.6.9. məhkəmə baxışı zamanı məhkəmə iclasında iştirak etmək, həmçinin təmsil etdiyi şəxsin iştirak edə biləcəyi bütün digər məhkəmə iclaslarında eyni əsaslarla iştirak etmək;

102.6.10. birinci və apellyasiya instansiyası məhkəmələrinin iclaslarında təmsil etdiyi zərər çəkmiş şəxsin, mülki iddiaçının, mülki cavabdehin əvəzinə müvafiq olaraq giriş sözü, nitq və ya replika söyləmək, kassasiya məhkəməsində isə baxılan məsələ üzrə çıxış etmək;

102.6.11. cinayət prosesini həyata keçirən orqan tərəfindən onun nəzərinə çatdırılmış məlumatlardan və ya cinayət prosesinin digər iştirakçılarının şikayətlərindən ona məlum olmuş hallara təmsil etdiyi şəxsin qanuni mənafeyinə toxunan hissədə öz etirazını bildirmək;

102.6.12. təmsil etdiyi şəxsin hüquqlarından istifadə edərək, məhkəmə iclasında cinayət prosesinin digər iştirakçıları tərəfindən verilmiş vəsatət və təkliflər haqqında, habelə məhkəmə tərəfindən həll edilən məsələlər üzrə öz fikrini bildirmək;

102.6.13. təmsil etdiyi şəxsin hüququndan istifadə edərək, cinayət prosesinin digər tərəfinin qanunsuz hərəkətlərinə öz etirazını bildirmək;

102.6.14. təmsil etdiyi şəxsin razılığı ilə onun üçün digər nümayəndə dəvət etmək və nümayəndəliyi digər şəxsə etibar etmək;

102.6.15. cinayət prosesini həyata keçirən orqanın qanunsuz hərəkətləri nəticəsində vurulmuş zərərin ödənilməsini tələb etmək;

102.6.16. təmsil etdiyi şəxsin qanuni mənafeyinə toxunan qərarın qəbul edilməsi barədə cinayət prosesini həyata keçirən orqandan məlumat almaq; Öz xahişinə əsasən göstərilən qərarların surətlərini əldə etmək;

102.6.17. bu Məcəllədə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

102.7. Zərər çəkmiş şəxsin, mülki iddiaçının və ya mülki cavabdehin nümayəndəsi təmsil etdiyi şəxsin qanuni mənafeyi əleyhinə hər hansı hərəkəti etməyə haqlı deyil.

102.8. Zərər çəkmiş şəxsin, mülki iddiaçının və ya mülki cavabdehin nümayəndəsinə verilmiş etibarnamədə nəzərdə tutulmuş halda nümayəndə, habelə vəzifəsinə görə mülki iddiaçının və ya mülki cavabdehin qanuni mənafeyini təmsil edən müvafiq hüquqi şəxsin rəhbəri öz səlahiyyəti daxilində bu Məcəllədə nəzərdə tutulmuş qaydada təmsil etdiyi şəxsin adından aşağıdakıları etmək hüququna malikdir:

102.8.1. təmsil etdiyi şəxsə qarşı cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsi barədə verilmiş şikayətdən imtina etmək;

102.8.2. şübhəli və ya təqsirləndirilən şəxslə barışmaq;

102.8.3. nümayəndəsi olduğu zərər çəkmiş şəxsin xüsusi ittihamçı qismində tanınmasını tələb etmək;

102.8.4. təmsil etdiyi şəxsin verdiyi mülki iddiadan imtina etmək;

102.8.5. təmsil etdiyi şəxsə qarşı irəli sürülmüş mülki iddianı qəbul etmək;

102.8.6. təmsil etdiyi şəxsə məhkəmənin qərarı ilə verilmiş əmlakı almaq.

102.9. Zərər çəkmiş şəxsin, mülki iddiaçının və ya mülki cavabdehin nümayəndəsi bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada aşağıdakı vəzifələri yerinə yetirməlidir:

102.9.1. təmsil etdiyi şəxsin göstərişlərinə əməl etmək;

102.9.2. özünün nümayəndə səlahiyyətlərini təsdiq edən sənədləri cinayət prosesini həyata keçirən orqana təqdim etmək;

102.9.3. təmsil etdiyi şəxsin qanuni mənafeyinin müdafiəsi üçün cinayət prosesini həyata keçirən orqanın çağırışı ilə gəlmək;

102.9.4. cinayət prosesini həyata keçirən orqanın tələbi ilə müqayisəli tədqiqat aparmaq üçün onda olan əşyaları, sənədləri və nümunələri təqdim etmək;

102.9.5. təhqiqatçının, müstəntiqin, prokurorun və ya məhkəmə iclasında sədrlik edənin göstərişlərinə tabe olmaq;

102.9.6. məhkəmə iclasında sədrlik edənin icazəsi olmadan fasilə elan ediləndək məhkəmənin iclas zalını tərk etməmək;

102.9.7. məhkəmə iclasında qaydaya riayət etmək;

102.9.8. şəxsi həyatın toxunulmazlığına, ailə, dövlət, peşə, kommersiya və qanunla qorunan digər sirlərə toxunan hallar barədə məlumatları yaymamaq;

102.9.9. bu Məcəllədə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

**Maddə 103. Xüsusi ittihamçının nümayəndəsi**

103.1. Xüsusi ittihamçının nümayəndəsi cinayət təqibi üzrə icraat zamanı şəxsiyyətin ayrılmaz hüquqları istisna olmaqla, xüsusi ittihamçının hüquqlarını həyata keçirir.

103.2. Xüsusi ittihamçının nümayəndəsinin cinayət təqibi üzrə icraatda iştirakı bu Məcəllənin 102-ci maddəsində nəzərdə tutulmuş zərər çəkmiş şəxsin nümayəndəsi üçün müəyyən olunmuş müddəalara və bu maddədə göstərilmiş xüsusiyyətlərə uyğun həyata keçirilir.

103.3. Məhkəmə cinayət təqibi üzrə icraatda iştirak edən xüsusi ittihamçının xahişi ilə

vəkili onun nümayəndəsi qismində təyin etməlidir.

103.4. Cinayət işinə məhkəmə baxışında xüsusi ittihamçının nümayəndəsi təmsil etdiyi şəxsin əvəzinə iştirak edə bilər.

103.5. Bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada xüsusi ittihamçının nümayəndəsi aşağıdakı hüquqlara malikdir:

103.5.1. cinayət təqibi üzrə materialların hazırlanmasını həyata keçirmək;

103.5.2. təmsil etdiyi şəxsin razılığı ilə cinayət prosesinin istənilən anında ittihamdan imtina etmək;

103.5.3. dövlət ittihamçısı cinayət təqibindən imtina etdikdə təqsirləndirilən şəxsə qarşı cinayət təqibini davam etdirmək;

103.5.4. birinci və apellyasiya instansiyası məhkəmələrinin iclaslarında təmsil etdiyi şəxsin əvəzinə giriş sözü, nitq və replika söyləmək, kassasiya məhkəməsində isə baxılan məsələ üzrə çıxış etmək;

103.5.5. bu Məcəllədə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

103.6. Xüsusi ittihamçının nümayəndəsi cinayət prosesinin gedişində xərclərin ödənilməsini təmsil etdiyi şəxsin hesabına, bu Məcəllənin 194.1-ci maddəsi ilə müəyyən edilmiş halda isə, xüsusi ittihamçıya hüquqi yardım pulsuz göstərildikdə Azərbaycan Respublikasının dövlət büdcəsi vəsaiti hesabına almaq hüququna malikdir.

**Maddə 104. Şahidin qanuni nümayəndəsi**

104.1. 14 yaşına çatmamış habelə daha artıq yaşı olan, lakin yetkinlik yaşına çatmayan və ya fəaliyyət qabiliyyəti olmayan şahidin qanuni nümayəndəsi olmadıqda cinayət prosesini həyata keçirən orqan tərəfindən qəyyumluq və himayəçilik orqanı həmin şəxsin qanuni nümayəndəsi qismində təyin edilir. [173]

104.2. İstintaq və ya digər prosessual hərəkətlərdə iştirak edərkən şahidin qanuni nümayəndəsi bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada aşağıdakı hüquqları həyata keçirir:

104.2.1. təmsil etdiyi şəxsin cinayət prosesini həyata keçirən orqana çağırılmasını bilmək, istintaq və ya digər prosessual hərəkətlərdə iştirak etmək;

104.2.2. cinayət prosesini həyata keçirən orqanın icazəsi ilə təmsil etdiyi şəxsə məsləhətlər vermək, irad tutmaq və suallarla müraciət etmək;

104.2.3. vəsatət vermək;

104.2.4. cinayət prosesini həyata keçirən orqanların hərəkətlərinə qarşı etiraz etmək və bu etirazın istintaq və ya digər prosessual hərəkət protokoluna qeyd edilməsini tələb etmək;

104.2.5. təmsil etdiyi şəxslə birgə iştirak etdiyi cinayət işi üzrə məhkəməyədək icraatda İstintaq və ya digər prosessual hərəkətlərin protokolları ilə tanış olmaq, protokolda yazılanların düzgünlüyünə və tamlığına dair qeydlər vermək, istintaq və ya digər prosessual hərəkətlərdə və ya məhkəmə iclasında iştirak edərkən qeyd edilməsi zəruri olan halların müvafiq protokola daxil edilməsini tələb etmək, məhkəmə iclasının protokolu *və ona əlavə edilmiş audioyazı ilə tanış olmaq, protokola* qeydlər vermək;

104.2.6. təmsil etdiyi şəxs üçün nümayəndə qismində vəkil dəvət etmək;

104.2.7. bu Məcəllədə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

104.3. Şahidin qanuni nümayəndəsi bu Məcəllənin 101.9-cu maddəsində nəzərdə tutulmuş vəzifələri yerinə yetirməlidir.

**Maddə 105. Şahidin nümayəndəsi**

105.1. İstintaq və ya digər prosessual hərəkətlərin icraatı zamanı şahidi cinayət prosesini həyata keçirən orqana müşayiət etmək üçün onun tərəfindən nümayəndə qismində dəvət edilmiş və bu hərəkətlərin aparılmasının başlanğıcında gəlmiş nümayəndə (vəkil və ya digər şəxs) səlahiyyətini təsdiq edən müvafiq sənədləri təqdim etdikdən sonra aşağıdakı hüquqlara malikdir:

105.1.1. təmsil etdiyi şəxsin hansı cinayət işi və ya cinayət təqibi ilə bağlı digər material üzrə çağırıldığını bilmək;

105.1.2. təmsil etdiyi şəxsin iştirakı ilə keçirilən istintaq və ya digər prosessual hərəkətlərdə iştirak etmək;

105.1.3. təmsil etdiyi şəxsin razılığı ilə onun dindirilməsində iştirak edən tərcüməçiyə etiraz etmək;

105.1.4. xahişlər etmək;

105.1.5. təmsil etdiyi şəxsə hüquqi məsələlər üzrə izahat vermək.

105.2. Şahidin nümayəndəsi bu Məcəllənin 102.9-cu maddəsində nəzərdə tutulmuş vəzifələri yerinə yetirməlidir.

**Maddə 106. Zərər çəkmiş şəxsin hüquqi varisi**

106.1. Hadisə nəticəsində ölmüş zərər çəkmiş şəxsin hüquq və vəzifələrini cinayət işi

üzrə icraat zamanı həyata keçirmək istəyini bildirən yaxın qohumlarından biri zərər çəkmiş şəxsin hüquqi varisi hesab olunur. *Ölmüş zərər çəkmiş şəxsin yaxın qohumları olmadıqda, digər qohumları, onlar da olmadıqda və ya həmin şəxslər bu Məcəllənin 106.2-ci maddəsinə əsasən hüquqi varis hesab edilə bilmədikdə, bu Məcəllənin 87.2-ci maddəsində nəzərdə tutulmuş qaydada təyin edilmiş vəkil həmin cinayət işi üzrə icraatda zərər çəkmiş şəxsin hüquqi varisi qismində tanınır.* [174]

106.2. Zərər çəkmiş şəxsə cinayət qanunu ilə nəzərdə tutulmuş əməllə mənəvi, fiziki və ya maddi ziyan vurmuş *şəxs* həmin zərər çəkmiş şəxsin hüquqi varisi hesab edilə bilməz. [175]

106.3. Zərər çəkmiş şəxsin ~~yaxın~~ qohumunun onun hüquqi varisi qismində tanınması haqqında qərarı həmin qohumun xahişi olduqda, cinayət prosesini həyata keçirən orqan qəbul edir. Bu zaman müvafiq xahişlə müraciət etmiş bir neçə ~~yaxın~~ qohum arasından zərər çəkmiş şəxsin hüquqi varisinin seçilməsində mübahisə olduqda həmin məsələni məhkəmə həll edir. Göstərilən xahişlə müraciət edilən anda şəxsin hüquqi varis qismində tanınması üçün kifayət qədər əsaslar olmadıqda, müvafiq qərar belə əsaslar müəyyən edildikdən dərhal sonra qəbul edilir. [176]

106.4. Şəxs zərər çəkmiş şəxsin hüquqi varisi kimi tanındıqdan sonra onun həmin qisimdə qalması üçün əsasların olmadığı müəyyən edildikdə, cinayət prosesini həyata keçirən orqan əsaslandırılmış qərarı ilə bu şəxsin cinayət prosesində zərər çəkmiş şəxsin hüquqi varisi kimi iştirakına xitam verir. Zərər çəkmiş şəxsin *qohumu olan* hüquqi varisi cinayət işi üzrə icraatın hər hansı anında müvafiq səlahiyyətləri öz üzərindən götürə bilər. [177]

106.5. Zərər çəkmiş şəxsin hüquqi varisi cinayət təqibi üzrə icraatda zərər çəkmiş şəxsin əvəzinə iştirak edir. Bu zaman o, zərər çəkmiş şəxsin ifadə vermək hüququndan və şəxsiyyətin ayrılmaz hüquqları istisna olmaqla, digər hüquqlardan istifadə edir və digər vəzifələr daşıyır. Zərər çəkmiş şəxsin hüquqi varisi zərər çəkmiş şəxs kimi eyni əsaslar üzrə xüsusi ittihamçı hüquqlarından istifadə edə və onun vəzifələrini daşıya bilər.

106.6. Zərər çəkmiş şəxsin *yaxın qohumu olan hüquqi varisi istisna olmaqla, digər hüquqi varisin* aşağıdakılara hüququ yoxdur: [178]

106.6.1. şübhəli və ya təqsirləndirilən şəxslə barışmaq;

106.6.2. xüsusi ittihamçı qismində cinayət təqibindən imtina etmək;

106.6.3. zərər çəkmiş şəxsin verdiyi şikayətdən imtina etmək.

106.7. Zərər çəkmiş şəxsin *qohumu olan* hüquqi varisi şahid qismində dindirilə bilər. [179]

106.8. Zərər çəkmiş şəxsin hüquqi varisi bu Məcəllədə nəzərdə tutulmuş digər hüquqları və vəzifələri yerinə yetirir.

### Maddə 106-1. Təqsirləndirilən (şübhəli) şəxsin hüquqi varisi [180]

106-1.1. Ölmüş təqsirləndirilən (şübhəli) şəxsin hüquq və vəzifələrini cinayət işi üzrə icraat zamanı həyata keçirmək istəyini bildirən yaxın qohumlarından biri təqsirləndirilən (şübhəli) şəxsin hüquqi varisi hesab olunur. Şəxs təqsirləndirilən (şübhəli) şəxs qismində tanınanadək ölmüşdürsə, onun yaxın qohumlarının da həmin şəxsin hüquqi varisi qismində tanınmaq hüququ vardır və bu Məcəllənin təqsirləndirilən (şübhəli) şəxsin hüquqi varisi ilə bağlı müddəaları onlara da şamil olunur.

106-1.2. Cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsində iştirakı olan, yaxud həmin əməllə mənəvi, fiziki və ya maddi ziyan vurulmuş yaxın qohum ölmüş şəxsin hüquqi varisi hesab edilə bilməz.

106-1.3. Cinayət prosesini həyata keçirən orqan bu Məcəllənin 106-1.1-ci maddəsində göstərilən şəxsin öldüyü vaxtdan 3 (üç) gün müddətində onun yaxın qohumlarına şəxsin hüquqi varisi qismində tanınmaq istəyinin olub-olmaması barədə yazılı bildiriş göndərir və ya təqdim edir. Həmin bildirişdə şəxsin ölməsi ilə əlaqədar cinayət təqibinə bu Məcəllənin 39.1.5-ci maddəsinə əsasən xitam verilməsinin bəraətverici əsas hesab edilmədiyi barədə müvafiq izah da verilir. Ölmüş şəxsin yaxın qohumu cinayət təqibinə xitam verilənədək və ya bu Məcəllənin 282.1-1-ci maddəsində nəzərdə tutulmuş halda müvafiq istəyini bildirdikdə onun hüquqi varis qismində tanınması barədə qərar qəbul edilir.

106-1.4. Ölmüş şəxs barəsində cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilməsi haqqında qərar bu Məcəllənin 106-1.3-cü maddəsində nəzərdə tutulan bildirişin göndərildiyi və ya təqdim edildiyi gündən 20 (iyirmi) gün sonra çıxarılır. Ölmüş şəxsin yaxın qohumu bu müddət ərzində onun hüquqi varis qismində tanınması barədə müvafiq istəyini bildirmədikdə, cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilməsi haqqında qərarın çıxarılması üçün müdafiəçinin razılığı tələb olunur. Cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilməsi haqqında qərarın surəti bu Məcəllənin 281-ci maddəsinin tələblərinə uyğun olaraq, cinayət işinin materialları ilə tanış olmaq hüququ və həmin qərardan şikayət etmək qaydası izah edilməklə, ölmüş şəxsin yaxın qohumlarına göndərilir və ya təqdim edilir.

106-1.5. Təqsirləndirilən (şübhəli) şəxsin hüquqi varisi qismində tanınması barədə müraciət etmiş bir neçə yaxın qohum arasından hüquqi varisin seçilməsində mübahisə olduqda,

həmin məsələni məhkəmə həll edir. Müraciət edilən anda şəxsin təqsirləndirilən (şübhəli) şəxsin hüquqi varisi qismində tanınması üçün kifayət qədər əsaslar olmadıqda, müvafiq qərar belə əsaslar müəyyən edildikdən dərhal sonra qəbul edilir.

106-1.6. Şəxs təqsirləndirilən (şübhəli) şəxsin hüquqi varisi kimi tanındıqdan sonra onun həmin qisimdə qalması üçün əsasların olmadığı müəyyən edildikdə, cinayət prosesini həyata keçirən orqan əsaslandırılmış qərarı ilə bu şəxsin cinayət prosesində təqsirləndirilən (şübhəli) şəxsin hüquqi varisi kimi iştirakına xitam verir. Təqsirləndirilən (şübhəli) şəxsin hüquqi varisi cinayət işi üzrə icraatın hər hansı anında müvafiq səlahiyyətləri öz üzərindən götürə bilər.

106-1.7. Təqsirləndirilən (şübhəli) şəxsin hüquqi varisi cinayət təqibi üzrə icraatda ölmüş şəxsin əvəzinə iştirak edir. Bu zaman o, təqsirləndirilən şəxsin ifadə vermək hüququndan və şəxsiyyətin ayrılmaz hüquqları və bu Məcəllənin 91.8.2-91.8.5-ci maddələrində nəzərdə tutulmuş vəzifələri istisna olmaqla, digər hüquqlardan istifadə edir və vəzifələrini yerinə yetirir.

106-1.8. Təqsirləndirilən (şübhəli) şəxsin hüquqi varisinin aşağıdakılara hüququ yoxdur:

106-1.8.1. ölmüş şəxsin ittiham olunduğu əməlin törədilməsində onun təqsirini etiraf etmək;

106-1.8.2. təqsirləndirilən (şübhəli) şəxsin verdiyi şikayətdən imtina etmək.

106-1.9. Təqsirləndirilən (şübhəli) şəxsin hüquqi varisi şahid qismində dindirilə bilər.

## XII fəsil

## Cinayət prosesində etirazlar

### Maddə 107. Etiraz və özü-özünə etirazın ümumi müddəaları

107.1. Cinayət prosesində müvafiq şəxslərin iştirakına etirazlar və özü-özünə etirazlar əsaslandırılmaqla yazılı formada edilir.

107.2. Hakimin, ~~andlı iclasçının,~~ prokurorun, müstəntiqin, təhqiqatçının, müdafiəçinin, zərər çəkmiş şəxsin, (xüsusi ittihamçının), mülki iddiaçının, mülki cavabdehin, yaxud şahidin nümayəndəsinin, eləcə də hal şahidinin, məhkəmə iclası katibinin, tərcüməçinin, mütəxəssisin və ya ekspertin cinayət prosesində iştirakını istisna edən, bu Məcəllənin 109, ~~110,~~ 112–118-ci maddələri ilə nəzərdə tutulmuş hallar mövcud olduqda, onlar özü-özünə etiraz etməlidirlər.[181]

107.3. Etiraz aşağıdakı qaydada edilə bilər:

107.3.1. prokurora, müstəntiqə, təhqiqatçıya, məhkəmə iclasının katibinə, tərcüməçiyə, mütəxəssisə, yaxud ekspertə — cinayət prosesinin hər hansı iştirakçısı tərəfindən cinayət prosesinin istənilən anında;

107.3.2. müdafiəçiyə, zərər çəkmiş şəxsin, xüsusi ittihamçının, mülki iddiaçının, mülki cavabdehin və ya şahidin nümayəndəsinə cinayət prosesinin istənilən anında şübhəli və ya təqsirləndirilən şəxs, dövlət ittihamçısı və ya xüsusi ittihamçı, habelə zərər çəkmiş şəxs, mülki iddiaçı, mülki cavabdeh, onların qanuni nümayəndələri və ya nümayəndələri tərəfindən;

107.3.3. hakimə ~~, yaxud andlı iclasçıya~~ — cinayət prosesinin istənilən iştirakçısı tərəfindən yalnız məhkəmə istintaqı başlananadək, məhkəmə istintaqı başlandıqdan sonra isə yalnız cinayət prosesinin etiraz edən hər hansı iştirakçısı müvafiq şəxsin prosesdə iştirakını istisna edən halların bilavasitə etiraz etməkdən əvvəl ona məlum olduğunu sübut etdikdə;

107.3.4. hal şahidinə — müvafiq istintaq hərəkəti başlananadək cinayət prosesinin həmin istintaq hərəkətində iştirak etmək hüququna malik olan hər hansı iştirakçısı tərəfindən.

107.4. Hakimə (məhkəmə tərkibinə) ~~və ya andlı iclasçıya~~ etiraz məhkəmə baxışını ləngitmək məqsədi ilə edilmişsə, yaxud etirazın dəlilləri uydurma olarsa (həqiqətə uyğun deyildirsə), etiraz etmiş şəxs məhkəmənin qərarına əsasən iki yüz iyirmi manat miqdarında cərimə edilə bilər.[182]

107.5. Cinayət prosesini həyata keçirən orqan öz səlahiyyətləri daxilində cinayət prosesinin gedişində etirazları və özü-özünə etirazları həll etməyə, müvafiq şəxsin cinayət prosesində iştirakını istisna edən halları aşkar etdikdə isə öz təşəbbüsü ilə onu cinayət prosesindən kənarlaşdırmağa haqlıdır.

107.6. Qohumluq əlaqələri və ya digər şəxsi asılılıq münasibətləri olan şəxslər məhkəmənin tərkibinə daxil ola bilməzlər.

107.7. Başqa şəxslərə edilən etirazları həll etmək səlahiyyəti olan şəxsə edilən etiraz ilk növbədə həll edilməlidir. Hakimə ~~və ya andlı iclasçıya~~ etiraz etmə ilə eyni zamanda cinayət prosesinin digər iştirakçısına, habelə məhkəmə iclası katibinə, tərcüməçiyə, ekspertə və ya mütəxəssisə etiraz edildikdə, ilk növbədə *hakimə* etiraz etmə məsələsi həll edilməlidir.[183]

107.8. Bir neçə şəxsin eyni vaxtda qohumluq və ya digər şəxsi asılılıq münasibətlərinə

görə cinayət prosesində iştirakı istisna olunduqda, digərlərindən daha gec hakim ~~, andlı iclasçı~~ və ya cinayət prosesinin iştirakçısı vəzifəsini əldə etmiş şəxslər ilk növbədə cinayət prosesindən kənarlaşdırılmalıdır.

107.9. Qohumluq və digər şəxsi asılılıq münasibətləri ilə bağlı şəxslər məhkəmə tərkibində olduqda, hansı şəxslərin cinayət prosesindən kənarlaşdırılması məsələsini məhkəmə iclasında sədrlik edən həll edir ~~və bu halda andlı iclasçı hakimdən əvvəl kənarlaşdırılmalıdır~~.[184]

**Maddə 108. Cinayət prosesində iştirakdan azad etmə**

108.0. Məhkəmə iclası katibinin, tərcüməçinin, mütəxəssisin və ekspertin cinayət prosesində iştirakını istisna edən hallar yoxdursa, məhkəmə istintaqı başlananadək onları öz xahişləri ilə aşağıdakı hallarda iştirakdan azad edə bilər:

108.0.1. öz borcunu yerinə yetirməsinə mane olan üzrlü səbəblər olduqda;

108.0.2. bu Məcəllədə nəzərdə tutulmuş digər hallarda.

**Maddə 109. Hakimə etiraz**

109.1. Hakimə (məhkəmə tərkibinə) edilən etiraz əsaslandırılmalıdır.

Etirazda konkret əsaslar olmadıqda o, işə baxan məhkəmə tərəfindən baxılmamış saxlanılır. Hakimə etiraz o halda əsaslı sayıla və şərtsiz təmin edilə bilər ki, hər hansı şəxsin cinayət prosesində hakim qismində iştirakını istisna edən aşağıdakı hallardan heç olmasa biri olsun. [185]

109.1.1. şəxs hakim vəzifəsinə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada təyin edilmədikdə;

109.1.2. hakim Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun müvafiq cinayət işinə və ya cinayət təqibi ilə bağlı digər materiala baxılması üçün lazımi səlahiyyətlərə malik olmadıqda;

109.1.3. hakim həmin cinayət işi və ya cinayət təqibi ilə bağlı digər material üzrə zərər çəkmiş şəxs, mülki iddiaçı, mülki cavabdeh və ya onların qanuni nümayəndəsi, yaxud nümayəndəsi olduqda;

109.1.4. hakim həmin cinayət işi və ya cinayət təqibi ilə bağlı digər material üzrə şahid qismində dindirildikdə və ya dindirilə bilərsə;

109.1.5. hakim həmin cinayət işi və ya cinayət təqibi ilə bağlı digər material üzrə hal şahidi, məhkəmə iclası katibi, tərcüməçi, mütəxəssis, yaxud ekspert qismində əvvəllər iştirak etdikdə;

109.1.6. hakim birinci, apellyasiya və ya kassasiya instansiyası məhkəməsində, həmçinin hüquq və azadlıqların pozulması ilə bağlı yeni açılmış hallar üzrə həmin cinayət işinin və ya cinayət təqibi ilə bağlı digər materialın baxılmasında hakim qismində əvvəllər iştirak etdikdə (hakimin məhkəmə nəzarəti qaydasında cinayət işi üzrə məhkəməyədək icraatda materiallara baxması və ya işin ilkin dinlənilməsi onun müvafiq cinayət işinə birinci instansiya, apellyasiya və ya kassasiya instansiyası məhkəməsi tərkibində sonradan işə baxılması hallarını istisna etmir); [186]

109.1.7. hakim ittiham və ya müdafiə tərəfindən cinayət prosesinin hər hansı iştirakçısı ilə, habelə belə iştirakçının qanuni nümayəndəsi və ya nümayəndəsi ilə qohumluq, yaxud şəxsi asılılıq münasibətində olduqda;

109.1.8. hakimin cinayət təqibində maraqlı olmasını təsdiq edən konkret və mötəbər sübutlar olduqda. [187]

109.2. Bu Məcəllənin 109.1-ci maddəsində nəzərdə tutulmuş hallardan biri olduqda, hakim özü-özünə etiraz etməlidir.

109.3. Etiraz məsələsini aşağıdakılar həll edir:

*109.3.1. birinci instansiya məhkəməsində cinayət işinə, yaxud cinayət təqibi ilə bağlı digər materiala hakim tərəfindən təkbaşına baxıldıqda, hakimin özü-özünə və ya ona edilmiş etirazı - həmin məhkəmənin sədri;*[188]

109.3.2. birinci, apellyasiya və kassasiya instansiyası məhkəməsində cinayət işinə və ya cinayət təqibi ilə bağlı digər materiala hakimlər kollegiyasından ibarət tərkibdə baxıldıqda hakimin özü-özünə və ya ona edilmiş etirazı — onun iştirakı olmadan hakimlər kollegiyası;

109.3.3. birinci instansiya məhkəməsində iki hakimin və ya bütün məhkəmə tərkibinin özü özünə, yaxud onlara edilmiş etirazı, habelə cinayət işinə, yaxud cinayət təqibi ilə bağlı digər materiala təkbaşına baxan məhkəmə sədrinə, özü-özünə və ya ona edilmiş etirazı — apellyasiya instansiyası məhkəməsinin hakimi;

109.3.4. apellyasiya və kassasiya instansiyası məhkəməsinin iki hakiminin və ya bütün məhkəmə tərkibinin özü-özünə, yaxud onlara edilmiş etirazı — müvafiq olaraq apellyasiya və kassasiya instansiyası məhkəmələrinin sədrləri.

109.4. Bu Məcəllənin 109.3-cü maddəsində nəzərdə tutulmuş hallarda özü-özünə etiraza və ya edilmiş etiraza baxılaraq, cinayət prosesi iştirakçılarının və etiraz edilmiş hakimin

fikri öyrənilir və müvafiq qərar çıxarılır. Bu qərardan şikayət verilə bilməz. Hakimlər kollegiyasında etirazın lehinə və ya əleyhinə verilmiş səslərin sayı bərabər olduqda hakim cinayət prosesindən kənarlaşdırılır.

109.5. Birinci, apellyasiya və ya kassasiya instansiyası məhkəməsində özü-özünə etiraz və ya etiraz təmin olunduqda işə həmin məhkəmədə başqa hakimlərin iştirakı ilə baxılır. Birinci instansiya məhkəməsində obyektiv səbəbdən bu mümkün olmadıqda, cinayət işi və ya cinayət təqibi ilə bağlı digər material apellyasiya instansiyası məhkəməsi tərəfindən baxılması üçün başqa birinci instansiya məhkəməsinə göndərilir.[189]

**~~Maddə 110. Andlı iclasçıya etiraz~~**[190]

~~110.1. Bu Məcəllənin 109.1-ci maddəsində nəzərdə tutulmuş hallardan hər hansı biri mövcuddursa, habelə qanuna əsasən şəxs andlı iclasçıların siyahısına daxil edilməli şəxs deyilsə, yaxud hakimdən və ya xidmətlə əlaqədar cinayət prosesinin tərəflərindən asılıdırsa, andlı iclasçıya etiraz şərtsiz təmin edilməlidir.~~

~~110.2. Andlı iclasçıların müəyyən olunmuş sayı ilə əlaqədar, bu Məcəllənin 364-cü maddəsində nəzərdə tutulmuş qaydada, ittiham və ya müdafiə tərəfi hər hansı andlı iclasçıya dəlilsiz etiraz edə bilər.~~

~~110.3. Andlı iclasçıya etirazı məhkəmə iclasında sədrlik edən təkbaşına həll edir.~~

**~~Maddə 111. Andlı iclasçının öz vəzifələrini icra etməkdən azad olunması~~**[191]

~~111.1. Məhkəmə iclasında sədrlik edən andlı iclasçını öz vəzifələrini icra etməkdən aşağıdakı hallarda azad edir:~~

~~111.1.1. o, cinayət törətməkdə təqsirləndirildikdə və ya şübhələnildikdə;~~

~~111.1.2. onun kar, kor, digər fiziki və ya əqli çatışmazlığı olması, habelə məhkəmə icraatı aparılan dili bilməməsi, yaxud kifayət qədər bilməməsi nəticəsində məhkəmə iclasının gedişini tam qavramaq, sənədlərlə tanış olmaq və andlı iclasçılar kollegiyası iclasında öz fikirlərini söyləmək qabiliyyəti olmadıqda;~~

~~111.1.3. konkret iş üzrə andlı iclasçıların seçilməsi qurtaranadək onun namizədliyinin siyahıdan çıxarılması xahişi təmin olunduqda.~~

~~111.2. Aşağıdakı andlı iclasçılar yazılı ərizələrində əks olunmuş öz xahişlərinə əsasən, məhkəmə iclasında sədrlik edən tərəfindən vəzifələrini icra etməkdən azad oluna bilərlər:~~

~~111.2.1. 65 yaşdan yuxarı şəxslər;~~

~~111.2.2. üç yaşınadək uşağı olan qadınlar, habelə üç yaşınadək uşağını təkbaşına böyüdən kişilər;~~[192]

~~111.2.3. dini və sair etiqadlarına görə ədalət mühakiməsinin həyata keçirilməsində iştirakı mümkün hesab edilməyən şəxslər;~~

~~111.2.4. xidməti vəzifəsinin icrasından ayrılması ilə əlaqədar ictimai və dövlət mənafeyinə əhəmiyyətli zərər vura biləcək şəxslər;~~

~~111.2.5. məhkəmə iclasında iştirak etməməsinə digər üzrlü səbəbləri olan şəxslər.~~

**Maddə 112. Prokurora etiraz**

112.1. Prokurora etiraz bu Məcəllənin 109.1-ci maddəsində nəzərdə tutulmuş hallardan hər hansı biri (109.1.6-cı maddədə göstəriləndən başqa) mövcud olduqda əsaslı sayılmalı və şərtsiz təmin olunmalıdır: [193]

112.2. Prokurorun cinayət işi üzrə ibtidai araşdırma aparılmasında iştirakı və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirməsi onun məhkəmədə dövlət ittihamını müdafiə etməsini istisna edir.

112.3. Bu Məcəllənin 109.1-ci maddəsində nəzərdə tutulmuş hallardan hər hansı biri (109.1.6-cı maddədə göstəriləndən başqa)mövcud olduqda, prokuror özü-özünə etiraz etməlidir. [194]

112.4. Prokurora etiraz məsələsini aşağıdakılar həll edirlər:

112.4.1. cinayət təqibi üzrə məhkəməyədək icraatın gedişi zamanı — yuxarı prokuror;

*112.4.2. cinayət işinə və ya cinayət təqibi ilə bağlı digər materiala hakim tərəfindən təkbaşına baxılması zamanı - məhkəmə iclasında sədrlik edən;*[195]

112.4.3. məhkəmədə cinayət işinə hakimlər kollegiyası tərkibində baxılması zamanı — hakimlər kollegiyası.

**Maddə 113. Müstəntiqə və ya təhqiqatçıya etiraz**

113.1. Müstəntiqə və ya təhqiqatçıya etiraz bu Məcəllənin 109.1-ci maddəsində nəzərdə tutulmuş hallardan hər hansı biri mövcud olduqda əsaslı sayılmalı və şərtsiz təmin

olunmalıdır.

113.2. Müstəntiqin və ya təhqiqatçının cinayət işi üzrə ibtidai araşdırma aparılmasında iştirakı, qanunun əhəmiyyətli dərəcədə pozulması halları istisna olmaqla, həmin cinayət işi üzrə ibtidai araşdırmada onun sonrakı iştirakını istisna etmir.

113.3. Bu Məcəllənin 109.1-ci maddəsində nəzərdə tutulmuş hallardan hər hansı biri mövcud olduqda, müstəntiq və ya təhqiqatçı özü-özünə etiraz etməlidir.

113.4. Müstəntiqə və ya təhqiqatçıya etiraz məsələsi ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror tərəfindən həll edilir.

**Maddə 114. Müdafiəçiyə və nümayəndəyə etiraz**

114.1. Müdafiəçiyə, həmçinin zərər çəkmiş şəxsin (xüsusi ittihamçının), mülki iddiaçının, mülki cavabdehin və ya şahidin nümayəndəsinə etiraz onun cinayət prosesində sonrakı iştirakını istisna edən aşağıdakı hallardan hər hansı biri olduqda əsaslı sayılmalı və şərtsiz təmin olunmalıdır:

114.1.1. cinayət prosesində iştirak edən və ya əvvəllər iştirak etmiş hakimlə, ~~andlı iclasçı ilə,~~ prokurorla, müstəntiqlə, təhqiqatçı ilə və ya məhkəmə iclasının katibi ilə qohumluq əlaqələrinin, habelə bu şəxslərdən şəxsi və ya xidməti asılılığın olması;[196]

114.1.2. cinayət təqibi üzrə icraatda hakim, ~~andlı iclasçı,~~ prokuror, müstəntiq, təhqiqatçı, hal şahidi, məhkəmə iclasının katibi, tərcüməçi, mütəxəssis, ekspert və ya şahid qismində iştirak etməsi;

114.1.3. hakim, prokuror, müstəntiq və ya təhqiqatçı vəzifələrini tutması (təqsirləndirilən, şübhəli şəxsin və ya cinayət prosesinin fəaliyyət qabiliyyəti olmayan iştirakçısının qanuni nümayəndəsi olması, yaxud mülki iddiaçı və ya mülki cavabdeh kimi tanınmış işlədiyi orqanın nümayəndəsi qismində iştirak etməsi hallarından başqa);

114.1.4. qanuni mənafeyini müdafiə etdiyi təqsirləndirilən və ya şübhəli şəxsin, həmçinin təmsil etdiyi zərər çəkmiş şəxs, mülki iddiaçı, yaxud mülki cavabdehin qanuni mənafeyi ilə ziddiyyət təşkil edən şəxsə hüquqi yardım göstərməsi; [197]

114.1.5. qanuna və ya məhkəmənin hökmünə əsasən müdafiəçi və ya nümayəndə olmaq hüququnun olmaması.

114.2. Bu Məcəllənin 114.1-ci maddəsində göstərilən hallardan hər hansı biri olduqda müdafiəçi, habelə zərər çəkmiş şəxsin (xüsusi ittihamçının), mülki iddiaçının, mülki cavabdehin və şahidin nümayəndəsi özü-özünə etiraz etməlidir.

114.3. Müdafiəçiyə, habelə zərər çəkmiş şəxsin (xüsusi ittihamçının), mülki iddiaçının, mülki cavabdehin və şahidin nümayəndəsinə etiraz məsələsi cinayət prosesini həyata keçirən orqan tərəfindən həll edilir.

114.4. Müdafiəçi və ya nümayəndə qismində təyin edilmiş şəxsin səriştəsinə və ya vicdanlı olmasına şübhə və ya digər səbəblər olduqda, müdafiə olunan, yaxud təmsil etdiyi şəxsin vəsatəti əsasında müdafiəçi və ya nümayəndə cinayət prosesindən kənarlaşdırılmalıdır.

**Maddə 115. Hal şahidinə etiraz**

115.1. Bu Məcəllənin 109.1.3–109.1.8-ci maddələrində nəzərdə tutulmuş hallardan hər hansı biri mövcud olduqda, habelə şəxs bu Məcəllənin 94.1-ci maddəsində göstərilən tələblərə uyğun olmadıqda, o, hal şahidi qismində cinayət prosesində iştirak edə bilməz.

115.2. Hal şahidinin iştirakının mütəmadi xarakter daşıması halları istisna olunmaqla, onun istintaq hərəkətinin icraatında əvvəllər iştirakı həmin cinayət təqibi üzrə aparılan digər istintaq hərəkətinin icraatında təkrar iştirakını istisna etmir.

115.3. Hal şahidinə etiraz məsələsini istintaq hərəkətlərini aparan şəxs həll edir.

115.4. Bu Məcəllənin 115.1 və 115.2-ci maddələrinin tələblərinə zidd hər hansı şəxsin istintaq hərəkətlərinin aparılmasında hal şahidi qismində iştirakı həmin hərəkətin etibarsız hesab edilməsinə əsas ola bilər.

**Maddə 116. Məhkəmə iclasının katibinə etiraz**

116.1. Məhkəmə iclasının katibi bu Məcəllənin 109.1.3–109.1.8-ci maddələrində nəzərdə tutulmuş hallardan hər hansı biri mövcud olduqda, habelə o, qanuna və ya məhkəmənin hökmünə əsasən məhkəmə iclasının katibi olmağa haqlı deyilsə, cinayət prosesində məhkəmə iclasının katibi qismində iştirak edə bilməz.

116.2. Şəxsin məhkəmə iclasında məhkəmə iclasının katibi qismində əvvəlki iştirakı onun sonrakı məhkəmə iclaslarında həmin qisimdə iştirakını istisna etmir.

116.3. Məhkəmə iclasının katibinə etiraz aşağıdakı kimi həll edilir:

116.3.1. cinayət işinə və ya cinayət təqibi ilə bağlı digər materiala hakim tərəfindən təkbaşına ~~və ya andlılar məhkəməsinin iştirakı ilə~~ baxılarkən — məhkəmə iclasında sədrlik edən tərəfindən;[198]

116.3.2. cinayət işinə məhkəmədə kollegial tərkibdə baxılarkən — məhkəmənin tərkibi

tərəfindən.

**Maddə 117. Tərcüməçiyə və ya mütəxəssisə etiraz**

117.1. Tərcüməçi və ya mütəxəssis bu Məcəllənin 109.1.3–109.1.8-ci maddələrində nəzərdə tutulmuş hallardan hər hansı biri mövcud olduqda, habelə onlar qanuna və ya məhkəmənin hökmünə əsasən tərcüməçi və ya mütəxəssis olmağa haqlı deyilsə, cinayət prosesində iştirak edə bilməzlər.
117.2. Şəxsin tərcüməçi və ya mütəxəssis qismində cinayət prosesində əvvəlki iştirakı onun müvafiq qisimdə bundan sonra cinayət prosesində iştirakını istisna etmir.
117.3. Tərcüməçiyə və ya mütəxəssisə etiraz aşağıdakı qaydada həll olunur:
117.3.1. cinayət işinə məhkəmədə kollegial tərkibdə baxılarkən – məhkəmənin tərkibi tərəfindən;
117.3.2. təhqiqat və ya ibtidai istintaq aparılarkən – müvafiq olaraq təhqiqatçı, müstəntiq və ya prokuror tərəfindən;
117.3.3. cinayət işinə və ya digər materiala hakim tərəfindən təkbaşına ~~və ya andlı iclasçıların iştirakı ilə~~ baxılarkən – məhkəmə iclasında sədrlik edən tərəfindən.[199]

**Maddə 118. Ekspertə etiraz**

118.1. Ekspert aşağıdakı hallarda cinayət prosesində iştirak edə bilməz:
118.1.1. bu Məcəllənin 109.1.3– 109.1.8-ci maddələrində nəzərdə tutulmuş halların hər hansı biri mövcud olduqda;
118.1.2. qanuna və ya məhkəmənin hökmünə əsasən onun ekspert olmaq hüququ olmadıqda;
118.1.3. o, təftiş, yaxud digər yoxlama hərəkətləri aparmışdırsa və nəticədə bunlar cinayət işinin başlanmasına əsas olmuşdursa.
118.2. rəyin düzgünlüyünə şübhə yaranması ilə əlaqədar təkrar ekspertizanın aparılması hallarından başqa şəxsin ekspert qismində cinayət prosesində əvvəlki iştirakı onun bundan sonra cinayət prosesində iştirakını istisna etmir.
118.3. Ekspertə etiraz aşağıdakı qaydada həll edilir:
118.3.1. ibtidai istintaq və ya təhqiqat aparılarkən – müvafiq olaraq təhqiqatçı, müstəntiq və ya prokuror tərəfindən;
118.3.2. cinayət işinə və ya digər materiala məhkəmədə hakim tərəfindən təkbaşına ~~və ya andlı iclasçılar tərəfindən~~ baxılarkən – məhkəmə iclasında sədrlik edən tərəfindən;[200]
118.3.3. cinayət işinə məhkəmədə kollegial tərkibdə baxılarkən – məhkəmənin tərkibi tərəfindən.

## XIII fəsil

## Cinayət prosesində iştirak edən şəxslərin hüquqlarının və qanuni mənafelərinin təmin edilməsi

**Maddə 119. Şəxsin cinayət prosesinin iştirakçısı qismində tanınması barədə ərizələrə baxılmasının məcburiliyi**

119.1. Bu Məcəllədə nəzərdə tutulmuş kifayət qədər əsaslar olduqda hər bir şəxs özünün zərər çəkmiş şəxs, xüsusi ittihamçı, mülki iddiaçı, mülki cavabdeh, onların və ya şahidin qanuni nümayəndəsi, yaxud nümayəndəsi qismində tanınması barədə ərizə ilə cinayət prosesini həyata keçirən orqana müraciət etməyə haqlıdır.
119.2. Cinayət prosesini həyata keçirən orqan şəxsin zərər çəkmiş şəxs, xüsusi ittihamçı, mülki iddiaçı, mülki cavabdeh, onların və ya şahidin qanuni nümayəndəsi, yaxud nümayəndəsi qismində tanınması barədə ərizəsini aldığı andan 3 (üç) gündən gec olmayaraq ona baxmalı və nəticəsindən asılı olaraq müvafiq qərar qəbul etməklə bu qərarın surətini ərizəçiyə göndərməlidir.
119.3. Ərizəçi aşağıdakı hüquqlara malikdir:
119.3.1. cinayət prosesinin iştirakçısı qismində tanınmasının rədd edilməsi barədə cinayət prosesini həyata keçirən orqanın qərarının surətini aldığı vaxtdan 5 (beş) gün müddətində qəbul edilmiş qərardan məhkəməyə şikayət vermək;
119.3.2. cinayət prosesinin iştirakçısı qismində tanınması üçün ərizə verildiyi gündən 1 (bir) ay müddətində onun ərizəsi üzrə qərar çıxarılmadıqda, ərizəyə baxmalı olan cinayət prosesini həyata keçirən orqanın hərəkətlərindən məhkəməyə şikayət vermək və ya məhkəmə vasitəsi ilə onun cinayət prosesinin iştirakçısı qismində tanınması üçün məhkəməyə ərizə vermək.
119.4. Ölmüş təqsirləndirilən (şübhəli) şəxsin və ya cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş, lakin təqsirləndirilən (şübhəli) şəxs qismində tanınanadək ölmüş şəxsin, habelə hadisə nəticəsində ölmüş zərərçəkmiş şəxsin yaxın qohumu özünün hüquqi varis qismində tanınmasını tələb edə bilər. Onun ərizəsinə cinayət prosesini həyata keçirən orqan

tərəfindən bu Məcəllənin 119.2-ci maddəsi ilə nəzərdə tutulmuş qaydada baxılır. [201]

**Maddə 120. Cinayət işi üzrə icraatda iştirak edən şəxslərə hüquq və vəzifələrinin, onların həyata keçirilməsi imkanlarının izah edilməsi**

120.1. Cinayət prosesində iştirak edən hər bir şəxsin öz hüquq və vəzifələrini, seçdiyi mövqeyinin hüquqi nəticələrini bilməyə, habelə onun iştirakı ilə keçirilən prosessual hərəkətlərin mahiyyəti ilə tanış olmaq üçün ona təqdim edilmiş sənədlərin məzmunu barədə izahlar almağa hüququ vardır.

120.2. Cinayət prosesini həyata keçirən orqan aşağıdakıları etməlidir:

120.2.1. cinayət prosesində iştirak edən hər bir şəxsə hüquq və vəzifələrini izah etmək, onların həyata keçirilməsinə imkan yaratmaq (bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada şəxsə onun hüquq və vəzifələri sadalanan yaddaş vərəqinin verilməsi cinayət prosesini həyata keçirən orqanı həmin şəxsin xahişi ilə müvafiq izahlar verməkdən azad etmir);

120.2.2. etiraz edilə bilən şəxslərin soyadları və bu şəxslər barədə digər zəruri məlumatları cinayət prosesinin iştirakçılarına bildirmək.

120.3. Cinayət prosesinin iştirakçısı statusunu əldə etmiş şəxsin hüquq və vəzifələri onun iştirakı ilə keçirilən istintaq və ya digər prosessual hərəkətlərin icraatına başlanmamışdan və onun cinayət prosesinin iştirakçısı qismində hər hansı bir mövqeyini bildirməmişdən əvvəl izah edilir.

120.4. Məhkəmə iclasına gəlmiş cinayət prosesi iştirakçısına cinayət işi üzrə məhkəməyədək icraatda hüquq və vəzifələrinin izah edilib-edilməməsindən asılı olmayaraq məhkəmə onun hüquq və vəzifələrini izah etməlidir.

120.5. Cinayət prosesini həyata keçirən orqan, istintaq və ya digər prosessual hərəkətləri həyata keçirən şəxs hal şahidinə, tərcüməçiyə, mütəxəssisə, ekspertə onların iştirakı ilə keçirilən hər bir istintaq və ya digər prosessual hərəkətə başlanmamışdan əvvəl onların hüquq və vəzifələrini izah etməlidir. Ekspertin hüquq və vəzifələri cinayət prosesini həyata keçirən orqanın xahişi ilə onu təyin etmiş ekspert idarəsinin rəhbəri tərəfindən də izah edilə bilər. Şahidin hüquq və vəzifələri cinayət prosesini həyata keçirən orqan tərəfindən bir dəfə birinci dindirmədən əvvəl və təkrarən məhkəmə iclasında izah edilir.

120.6. Cinayət prosesi iştirakçılarına, habelə cinayət prosesində iştirak edən digər şəxslərə hüquq və vəzifələri şəxsin inkişaf səviyyəsi, həyat təcrübəsi, təhsili və digər hallar nəzərə alınmaqla izah edilməlidir. Bu şəxslərin hər birinin xahişi ilə cinayət prosesini həyata keçirən orqan onun hüquq və vəzifələrini təkrarən izah etməlidir.

120.7. Hüquq və vəzifələr prokurora, müdafiəçiyə, ali hüquq təhsili olan ittiham və ya müdafiə tərəfi təmsil edən digər şəxsə, habelə müvafiq iş təcrübəsi olan məhkəmə iclasının katibinə izah edilməyə də bilər.

**Maddə 121. Vəsatətlərə və xahişlərə baxılmasının məcburiliyi**

121.1. Cinayət prosesini həyata keçirən orqan aşağıdakıları yerinə yetirməlidir:

121.1.1. istintaq və ya digər prosessual hərəkət aparılan zaman cinayət prosesi tərəflərinin verdikləri vəsatətləri, habelə cinayət prosesində iştirak edən digər şəxslərin xahişlərini bu hərəkətlərin (məhkəmə iclasının) protokoluna daxil etmək;

121.1.2. cinayət təqibi üzrə icraatın materiallarına cinayət prosesi tərəflərinin, habelə cinayət prosesində iştirak edən digər şəxslərin yazılı vəsatətlərini və xahişlərini əlavə etmək;

121.1.3. bu Məcəllədə digər qayda nəzərdə tutulmayıbsa, vəsatətlərə və xahişlərə onların verilməsindən bilavasitə sonra baxmaq və nəticələri üzrə müvafiq qərar çıxarmaq (vəsatətin həll olunması cinayət prosesini həyata keçirən orqan tərəfindən vəsatət üzrə qərarın qəbul edilməsi üçün əhəmiyyətli hallar müəyyən edilənədək təxirə salına bilər; bu Məcəllədə nəzərdə tutulmuş hallarda vəsatətin vaxtında verilməməsi onun baxılmamış saxlanılmasına səbəb olur);

121.1.4. vəsatətə və ya xahişə əsasən qəbul edilmiş qərarın surətini dərhal ərizəçiyə göndərmək.

121.2. Vəsatətə və ya xahişə əsasən qəbul edilmiş qərar əsaslandırılmalı və həmin qərarda ərizəçinin dəlillərinə verilmiş qiymət öz əksini tapmalıdır. Cinayət təqibi ilə bağlı olan bütün halların lazımi hüquqi prosedur daxilində hərtərəfli, tam və obyektiv araşdırılmasına, cinayət prosesi iştirakçılarının və cinayət prosesində iştirak edən digər şəxslərin pozulmuş hüquqlarının və qanuni mənafelərinin bərpa edilməsinə yönəldilmiş vəsatət və xahişlər rədd edilə bilməz.

121.3. Vəsatətin və ya xahişin rədd edilməsi onların cinayət prosesinin sonrakı mərhələlərində və ya cinayət prosesini həyata keçirən digər orqana vəsatət və ya xahişlə təkrar müraciətinə mane olmur. Vəsatətin və xahişin digər hallarda təkrar verilməsi yeni dəlil gətirildikdə və ya cinayət prosesinin gedişində onların təmin edilməsinin zəruriliyi təsdiq olunduqda mümkündür.

**Maddə 122. Prosessual hərəkətlərdən və qərarlardan şikayət etmək hüququ**

122.1. Cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərdən və ya qərarlarından cinayət prosesinin iştirakçıları, habelə bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada cinayət prosesində iştirak edən digər şəxslər tərəfindən şikayət verilə bilər.

122.2. Cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərindən və ya qərarlarından şikayət aşağıdakılara verilir:

122.2.1. təhqiqatçının və ya müstəntiqin hərəkətindən və ya qərarından — ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora;

122.2.2. ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun hərəkətindən və ya qərarından — yuxarı prokurora;

122.2.3. bu Məcəllənin 449.3-cü maddəsində nəzərdə tutulmuş təhqiqatçının, müstəntiqin və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun hərəkətlərindən və ya qərarlarından — məhkəmə nəzarəti funksiyasını həyata keçirən məhkəməyə;

122.2.4. bu Məcəllədə nəzərdə tutulmuş hallarda məhkəmənin hərəkətlərindən və ya qərarlarından — yuxarı məhkəməyə.

122.3. Cinayət prosesini həyata keçirən orqanın hərəkətlərindən və qərarlarından şikayət yazılı, bu Məcəllə ilə ərizənin yazılı forması xüsusi nəzərdə tutulmadıqda isə şifahi ola bilər (cinayət prosesini həyata keçirən orqan şifahi şikayəti bu zaman aparılan prosessual hərəkət protokolunda və ya ayrı protokolda qeyd edir).

122.4. Şikayət bilavasitə, yaxud hərəkətindən və ya qərarından şikayət edilən cinayət prosesini həyata keçirən orqan vasitəsilə verilir. Öz hərəkətlərindən və ya qərarlarından, yaxud başqa şəxslərin hərəkətlərindən və ya qərarlarından şikayəti qəbul etmiş təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə, bu Məcəllədə digər müddətlər nəzərdə tutulmayıbsa, onu aldığı andan təxirə salınmadan 24 saat müddətində aidiyyəti üzrə baxılması üçün göndərməlidir.

122.5. Cinayət prosesi iştirakçısının şikayətinə təxirə salınmadan və hər bir halda cinayət prosesini həyata keçirən orqanın onu aldığı gündən 3 (üç) gündən gec olmayaraq baxılmalıdır. Cinayət prosesində iştirak edən digər şəxslərin şikayətlərinə cinayət prosesini həyata keçirən orqanlar tərəfindən şikayətin alındığı gündən 15 (on beş) gündən gec olmayaraq baxılır. Bu Məcəllədə şikayətlərə baxılmasının digər müddətləri də nəzərdə tutula bilər.

122.6. Şikayət cinayət prosesi iştirakçısı və ya cinayət prosesində iştirak edən digər şəxs və ya onun nümayəndəsi tərəfindən imzalanmadıqda, yaxud şikayət edilən hərəkət və ya qərar göstərilmədikdə, baxılmadan saxlanıla və ya geri qaytarıla bilər.

122.7. Cinayət prosesini həyata keçirən orqanın, yaxud istintaq və ya digər prosessual hərəkəti həyata keçirən şəxsin hərəkət və qərarından verilmiş şikayətləri aşağıdakı şəxslərin geri götürməyə hüququ vardır:

122.7.1. şikayəti verən şəxsin özü (şübhəli və ya təqsirləndirilən şəxsin qanuni mənafeləri naminə verilmiş şikayət yalnız onların razılığı ilə geri götürülə bilər);

122.7.2. müdafiəçisinin şikayətini — şübhəli və ya təqsirləndirilən şəxs;

122.7.3. nümayəndəsinin şikayətini (qanuni nümayəndənin şikayətindən başqa) — mülki iddiaçı, zərər çəkmiş şəxs (xüsusi ittihamçı), mülki cavabdeh.

122.8. Bu Məcəllədə nəzərdə tutulmuş hallardan başqa, şikayətin geri götürülməsi müəyyən edilmiş müddətlər keçməmiş onun təkrar verilməsinə mane olmur.

122.9. Şübhəli və ya təqsirləndirilən şəxsin qanuni mənafeyi naminə onun özü və ya başqa şəxs tərəfindən verilmiş şikayətdən cinayət prosesini həyata keçirən orqan bu şəxsin əleyhinə istifadə etməyə haqlı deyil.

122.10. Cinayət prosesini həyata keçirən orqan şikayətin dəlilləri üzrə əsaslandırılmış qərar qəbul edir və bu barədə şikayətçiyə yazılı məlumat verir.

122.11. Cinayət prosesi iştirakçılarının və ya cinayət prosesində iştirak edən digər şəxslərin bu Məcəllədə və Azərbaycan Respublikasının digər qanunlarında nəzərdə tutulmuş hüquqi müdafiə vasitələri tükəndikdə, Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinə əsasən onlar insan hüquq və azadlıqlarının müdafiəsi üzrə beynəlxalq məhkəmələrə müraciət etməyə haqlıdırlar.

**Maddə 123. Cinayət prosesində iştirak edən zərər çəkmiş şəxslərin, şahidlərin, təqsirləndirilən və digər şəxslərin dövlət müdafiəsi üçün tədbirlər görülməsinin məcburiliyi**

123.1. Cinayət prosesini həyata keçirən orqan zərər çəkmiş şəxsin, şahidin, təqsirləndirilən şəxsin və ya cinayət prosesində iştirak edən digər şəxsin cinayət qanunu ilə nəzərdə tutulmuş qəsdlərdən müdafiəyə ehtiyacı olduğu və ya ehtiyacı ola biləcəyi halları aşkar etdikdə, bu şəxslərin xahişi və ya öz təşəbbüsü ilə onların dövlət müdafiəsi üçün müvafiq qərar qəbul etməklə təhlükəsizlik tədbirləri görməlidir.

123.2. Cinayət prosesində iştirak edən şəxslərin müdafiəsi üçün təhlükəsizlik

tədbirləri Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda və qaydada həyata keçirilir.

123.3. Cinayət prosesində iştirak edən şəxslərin onların müdafiəsi üçün təhlükəsizlik tədbirlərinin görülməsi barədə vəsatətlərinə və xahişlərinə cinayət prosesini həyata keçirən orqan təxirə salınmadan, lakin bu vəsatətləri aldıqdan sonra 72 saatdan gec olmayaraq baxmalıdır. Vəsatətə və ya xahişə baxılması nəticəsi ərizəçiyə dərhal bildirilməli və ona cinayət prosesini həyata keçirən orqan tərəfindən müvafiq qərarın surəti göndərilməlidir.

123.4. Ərizəçi onun müdafiəsi üçün təhlükəsizlik tədbirlərinin görülməsi barədə vəsatətin və ya xahişin rədd edilməsinə dair qərarın surətini aldıqdan sonra 5 (beş) gün müddətində məhkəməyə şikayət etməyə, yaxud vəsatətin və ya xahişin verildiyi andan 7 (yeddi) gün müddətində cinayət prosesini həyata keçirən orqanın müvafiq qərarının surətini almadıqda təhlükəsizlik tədbirlərinin görülməsi üçün məhkəməyə müraciət etməyə haqlıdır.

123.5. Müdafiə üçün təhlükəsizlik tədbirlərinin görülməsindən imtina edildikdən sonra cinayət prosesində iştirak edən şəxs yenidən hədəyə və ya hücuma məruz qaldıqda, yaxud vəsatətdə və ya xahişdə əvvəllər öz əksini tapmayan digər hallar yarandıqda, bu, onun göstərilən tədbirlərin görülməsi barədə təkrarən vəsatətlə və ya xahişlə müraciət etməsinə mane olmur.

***Maddə 123-1. İnsan alverinin qurbanına bərpa və fikirləşmə müddətinin verilməsi***[202]

*Törədilmiş və ya hazırlanan cinayət haqqında məlumatlara baxarkən təhqiqat orqanının əməkdaşı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror insan alverinin qurbanına öz vəziyyətini bərpa etmək, cinayətkarların təsirindən yayınmaq və cinayət təqibi orqanları ilə əməkdaşlıq etmək barədə düşünülmüş qərar qəbul etmək üçün 30 gün bərpa və fikirləşmə müddətinin verilməsi barədə qərar qəbul edir.*

***Maddə 123-2. Uşaqların hüquqlarının müdafiəsi üçün tədbirlər***[203]

*123-2.1. Cinayət prosesini həyata keçirən orqanlar tərəfindən uşaqların hüquqlarının müdafiəsi üçün aşağıdakı tədbirlər görülməlidir:*

*123-2.1.1. uşaqların qanuni nümayəndələrinə onların şikayətləri ilə bağlı görülən tədbirlər, habelə cinayət təqibinin gedişatı barədə məlumat verilməsi;*

*123-2.1.2. cinsi istismarın və ya cinsi zorakılığın qurbanı olan uşaqların qanuni nümayəndələrinə uşaqlara qarşı cinsi istismar və ya cinsi zorakılıqla bağlı cinayətə görə tutulmuş, həbs edilmiş və ya məhkum edilmiş şəxsin azad edilməsi barədə məlumat verilməsi;*

*123-2.1.3. uşaqların hüquq və mənafelərinin təmin edilməsi məqsədilə onlara yardım göstərilməsi;*

*123-2.1.4. cinsi istismarın və ya cinsi zorakılığın qurbanı olan uşaqların, onların ailələrinin və şahidlərin təhlükəsizliyinin təmin edilməsi;*

*123-2.1.5. cinsi istismarın və ya cinsi zorakılığın qurbanı olan uşaq və ya onun qanuni nümayəndəsi tələb etdikdə pulsuz hüquqi yardım göstərilməsi üçün uşaqlarla iş üzrə daha təcrübəli vəkilin iştirakının təmin edilməsi;*

*123-2.1.6. uşaqların valideynlərinin və ya digər qanuni nümayəndələrinin maraqlar toqquşmasına görə cinayət prosesində iştirak etməyə buraxılmadığı hallarda, qəyyumluq və himayəçilik orqanının uşaqlar üçün qanuni nümayəndə qismində təyin edilməsi;*

*123-2.1.7. uşaqlara verilən məlumatların onların yaşına və psixi inkişafı səviyyəsinə uyğun qaydada və onların başa düşdükləri dildə təqdim olunması;*

*123-2.1.8. uşağın mənafeyi, yaxud cinayət-prosessual fəaliyyətin məqsədləri üçün belə təmasın tələb olunduğu hallar istisna olmaqla, cinayət prosesinin istənilən mərhələsində uşaqla şübhəli və ya təqsirləndirilən şəxs arasında təmasın olmamasının təmin edilməsi.*

*123-2.2. Uşaqlardan ifadə alınarkən aşağıdakılar təmin edilir:*

*123-2.2.1. cinayət haqqında cinayət təqibi orqanlarına məlumat daxil olduqdan sonra uşağın mənafeyi tələb etdiyi hallar istisna olmaqla, hər hansı gecikdirməyə yol verilmədən uşaqdan ifadə alınır;*

*123-2.2.2. uşaqdan ifadənin alınması bu məqsədlə ayrılmış yerlərdə və ya yaradılmış xüsusi şəraitdə həyata keçirilir;*

*123-2.2.3. uşaqdan ifadənin alınması cinayət prosesini həyata keçirən orqanın bu məqsədlə xüsusi hazırlıq keçmiş əməkdaşları tərəfindən həyata keçirilir;*

*123-2.2.4. mümkün olduğu hallarda uşaqdan təkrar ifadənin alınması eyni şəxs tərəfindən həyata keçirilir;*

*123-2.2.5. uşaqdan ifadələr iş üçün əhəmiyyətli hallarda və mümkün qədər az sayda alınmalıdır;*

*123-2.2.6. mümkün olduğu hallarda uşaqdan bütün ifadələr videoçəkiliş aparılmaqla alınır.*

*123-2.3. Uşaq müvafiq istəyini bildirdikdə və ya onun mənafeyi nəzərə alınmaqla, uşağın məhkəmə zalında iştirak etmədən informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə ifadə verməsi təmin olunur.*

*123-2.4. Uşaqlara qarşı cinsi istismar və ya cinsi zorakılıqla bağlı cinayət üzrə məhkəmə iclası qapalı keçirilir.*

## Üçüncü bölmə

## Sübutlar və sübutetmə

## XIV fəsil

**Sübutlar**

**Maddə 124. Sübutların anlayışı və növləri**

124.1. Məhkəmənin və ya cinayət prosesi tərəflərinin əldə etdiyi mötəbər dəlillər (məlumatlar, sənədlər, əşyalar) cinayət təqibi üzrə sübutlar hesab olunur. Bu sübutlar:
124.1.1. cinayət-prosessual qanunvericiliyinin tələblərinə əməl edilməklə insan və vətəndaşın konstitusiya hüquq və azadlıqları məhdudlaşdırılmadan və ya məhkəmənin qərarı əsasında (bu Məcəllə ilə nəzərdə tutulmuş təxirə salına bilməyən hallarda isə müstəntiqin qərarı əsasında) məhdudlaşdırmaqla əldə olunmalı;
124.1.2. hadisənin cinayət hadisəsi olub-olmamasını, törədilmiş əməldə cinayətin əlamətlərinin olub-olmamasını, bu əməlin təqsirləndirilən şəxs tərəfindən törədilib-törədilməməsini, onun təqsirli olub-olmamasını, habelə ittihamın düzgün həll edilməsi üçün əhəmiyyət kəsb edən digər hallar göstərilməlidir.
124.2. Cinayət prosesində aşağıdakılar sübut kimi qəbul olunur:
124.2.1. şübhəli, təqsirləndirilən və zərər çəkmiş şəxsin və şahidlərin ifadələri;
124.2.2. ekspertin rəyi;
124.2.3. maddi sübutlar;
124.2.4. istintaq və məhkəmə hərəkətlərinin protokolları;
124.2.5. digər sənədlər.

**Maddə 125. Sübutların mümkünlüyü**

125.1. Məlumatların, sənədlərin və digər əşyaların həqiqiliyinə, yaranma mənbəyinə və əldə edilməsi hallarına şübhələr olmadıqda onlar sübut kimi qəbul edilə bilərlər.
125.2. Aşağıdakı hallarda əldə edilmiş məlumatların, sənədlərin və digər əşyaların cinayət işi üzrə sübut kimi qəbul edilməsinə yol verilmir:
125.2.1. İnsan və vətəndaşların konstitusiya hüquqlarının və azadlıqlarının, yaxud bu Məcəllənin digər tələblərinin pozulması ilə cinayət prosesi iştirakçılarının qanunla təminat verilən hüquqlarından məhrum etmə və ya onları məhdudlaşdırmaqla bu sübutların həqiqiliyinə hər hansı yolla təsir göstərəcəyi və ya göstərə biləcəyi halda;
125.2.2. zorakılıq, hədə-qorxu, aldatma, işgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan hərəkətlərin tətbiq edilməsi ilə;
125.2.3. şübhəli və ya təqsirləndirilən şəxsin müdafiə hüquqlarının, cinayət mühakimə icraatının aparıldığı dili bilməyən şəxsin hüquqlarının pozulması ilə;
125.2.4. cinayət prosesində iştirak edən şəxsin hüquq və vəzifələrinin izah edilməməsi, tam və ya düzgün izah edilməməsi nəticəsində öz hüquq və vəzifələrini yanlış başa düşməsindən istifadə etməklə;
125.2.5. cinayət təqibi üzrə icraatı həyata keçirmək, istintaq və ya digər prosessual hərəkətlər aparmaq hüququ olmayan şəxs tərəfindən bu hərəkətlər edildikdə;
125.2.6. cinayət prosesində onun iştirakını istisna edən halları bildiyi və ya bilməli olduğu halda etiraz edilməli şəxsin iştirakı ilə;
125.2.7. istintaq və ya digər prosessual hərəkətlərin icraatı qaydaları kobud pozuntularla aparıldıqda;
125.2.8. sənədi və ya digər əşyanı tanımağa qadir olmayan, onun həqiqiliyini, mənbəyini, əldə olunma hallarını təsdiq edə bilməyən şəxsdən alındıqda;
125.2.9. məhkəmə iclasında məlum olmayan şəxsdən, yaxud müəyyən olunmayan mənbədən alındıqda;
125.2.10. müasir elmi baxışlara zidd üsulların tətbiqi nəticəsində alındıqda.
125.3. Bu Məcəllənin 125.2-ci maddəsində nəzərdə tutulmuş hallarda alınmış məlumatlar, sənədlər və əşyalar hüquqi qüvvəsi olmayan hesab edilir və onlar ittihamın düzgün həlli üçün hər hansı halın sübut olunmasında istifadə edilə bilməz.
125.4. Bu Məcəllənin 125.2-ci maddəsində nəzərdə tutulmuş pozuntularla əldə edilmiş materiallar müvafiq pozuntu faktlarının və onlara yol vermiş şəxslərin təqsirliyinin sübut edilməsində istifadə oluna bilər.
125.5. Cinayət-prosessual qanunvericiliyinin tələblərinin ittiham tərəfindən pozulması nəticəsində sübuti əhəmiyyətini itirmiş hesab oluna bilən materialın sübut qismində qəbul edilməsinə müdafiə tərəfinin vəsatəti əsasında yol verilir. Bu halda həmin sübut digər proses iştirakçılarına deyil, yalnız müvafiq şübhəli və ya təqsirləndirilən şəxsə sübut kimi aid olur. Bu materialların sübut kimi qəbul edilməsi onun düzgünlüyünün mübahisə olunmasına mane olmur.
125.6. Müvafiq cinayət təqibi üzrə əhəmiyyət kəsb edən hər hansı hal üzrə verilmiş şikayət və çıxarılmış prosessual qərar yalnız şikayətin verilməsi və ya prosessual qərarın çıxarılması faktını təsdiq edir və sübut kimi qəbul oluna bilməz.
125.7. Cinayət təqibi üzrə icraat zamanı məlumatlardan, sənədlərdən və əşyalardan sübut kimi istifadə edilməsinin qeyri-mümkünlüyünü, habelə onlardan məhdud istifadə edilməsinin mümkünlüyünü prosesi aparan orqan öz təşəbbüsü və ya cinayət prosesi tərəflərinin vəsatəti

ilə müəyyən edir.
125.8. Bu Məcəllənin tələblərinə riayət olunmaqla sübutlar əldə edildikdə, onların qəbul olunmasının yolverilməzliyinin əsaslandırılması mübahisə edən tərəfin üzərinə düşür.
~~125.9. Cinayət işinə andlı iclasçıların kollegiyasında baxılarkən məhkəmə iclasında sədrlik edən məhkəmə baxışında sübut kimi qəbul edilə bilməyən materialları çıxarır və onların hüquqi əsassızlığını andlı iclasçılara izah edir, bununla əlaqədar andlı iclasçılarda cinayət prosesi tərəflərinin yanlış fikir yaratmasının qarşısını alır.~~[204]

**Maddə 126. Şübhəli, təqsirləndirilən, zərər çəkmiş şəxsin və şahidlərin ifadələri**

126.1. Bu Məcəllə ilə müəyyən edilmiş qaydada cinayət prosesini həyata keçirən orqan tərəfindən şübhəli, təqsirləndirilən, zərər çəkmiş şəxsdən və şahidlərdən alınmış şifahi və yazılı məlumatlar ifadələr hesab olunur.
126.2. Yalnız o ifadələr sübut hesab oluna bilər ki, onlar hadisəni, onun səbəblərini, xarakterini, mexanizmini və ya inkişafını bilavasitə qavrayan şəxsin məlumatlarına və ya nəticələrinə əsaslanmış olsun.
126.3. Şübhəli, təqsirləndirilən, zərər çəkmiş şəxsin və ya şahidlərin cinayət prosesini həyata keçirən orqana özgənin sözlərindən verdikləri məlumatlar sübut kimi istifadə edilə bilməz. Yalnız vəfat etmiş şəxsin sözlərindən alınmış məlumatlar məhkəmənin qərarı ilə istisna olaraq sübut kimi qəbul oluna bilər.
126.4. Aşağıdakı şəxslərin ifadələrinə sübuti əhəmiyyət verilə bilməz:
126.4.1. cinayət təqibi üzrə əhəmiyyət kəsb edən halların müvafiq anda dərk və ya təsvir edilməsi qabiliyyətinə malik olmadığı qəbul edildikdə;
126.4.2. cinayət təqibi üzrə əhəmiyyət kəsb edən halların dərk və ya təsvir edilməsi qabiliyyətinin ekspertiza vasitəsi ilə yoxlanılmasından imtina edildikdə.
126.5. Şahid qismində dindirilməli olmayan şəxslərin məlumatlarından sübut kimi istifadə oluna bilməz.
126.6. Təqsirləndirilən şəxsin cinayət törətməkdə öz təqsirini etiraf etməsi yalnız iş üzrə bütün sübutların məcmusu ilə təsdiq edildiyi halda ona qarşı ittihamın əsası kimi qəbul edilə bilər.

**Maddə 127. Ekspertin rəyi**

127.1. Ekspertin rəyi onun tərəfindən yazılı şəkildə ifadə edilmiş elm, texnika, incəsənət və ya peşə sahəsində xüsusi biliklərə əsaslanmış:
127.1.1. cinayət prosesini həyata keçirən orqanın və ya cinayət prosesi tərəflərinin ekspert qarşısında qoyduğu suallara, habelə iş materiallarının tədqiqi zamanı ortaya çıxan onun səlahiyyətlərinə aid digər halların araşdırılmasına dair nəticələridir;
127.1.2. bu nəticələri əsaslandıran ekspertin apardığı tədqiqatın təsviridir.
127.2. Ekspert tərəfindən aparılan tədqiqatın üsulları, qoyulmuş sualların cavablarının əsaslandırılması, habelə ekspertin öz təşəbbüsü ilə müəyyən etdiyi cinayət təqibi üzrə əhəmiyyət kəsb edən digər hallar ekspertin rəyində öz əksini tapmalıdır.
127.3. Ekspertin rəyi təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə üçün məcburi deyil, hər hansı başqa sübut kimi cinayət prosesini həyata keçirən orqan tərəfindən yoxlanılmalı və işin bütün halları ilə bağlı surətdə qiymətləndirilməlidir. Ekspertin rəyi ilə razılaşılmadıqda bu barədə əsaslandırılmış qərar çıxarılmalıdır.

**Maddə 128. Maddi sübutlar**

128.1. Öz xüsusiyyətinə və əlamətlərinə, mənşəyinə, aşkar edildiyi yerə və vaxtına və ya üzərində hadisənin izlərinin saxlanıldığına görə cinayət təqibi üzrə əhəmiyyət kəsb edən halların müəyyən edilməsinə kömək edən hər bir əşya maddi sübut hesab edilə bilər.
128.2. Əşya cinayət prosesini həyata keçirən orqanın qərarı ilə maddi sübut hesab edilir.
128.3. Əşyanın maddi sübuti əhəmiyyəti məhkəmə tərəfindən o halda qəbul olunur ki:
128.3.1. əşya əldə olunduqdan dərhal sonra o, ətraflı təsvir edilməklə, möhürlənməklə və bu kimi hərəkətlər yerinə yetirilməklə onun üzərindəki izlərin əlamətlərinin və xüsusiyyətlərinin əhəmiyyətli surətdə dəyişdirilməsi imkanı aradan qaldırılmış olsun;
128.3.2. şübhəli, təqsirləndirilən, zərər çəkmiş şəxs və ya şahid onu bilavasitə məhkəmədə tədqiqdən əvvəl tanısın.

**Maddə 129. Maddi sübutların və digər əşyaların saxlanılması**

129.1. Maddi sübutlar mümkün qədər qablaşdırılır, möhürlənmiş halda cinayət işində saxlanılır, həcmi böyük olduqda isə təşkilatlara, müəssisələrə və müvafiq şəxslərə onların razılığı ilə məsul saxlanışa verilə bilər.
129.2. Cinayət təqibi üzrə icraat zamanı aşağıdakı əşyalara baxış keçirilməsindən dərhal sonra, lakin götürmə hərəkəti edildiyi andan 7 (yeddi) gündən gec olmayaraq cinayət

prosesini həyata keçirən orqan dövlət bankına təhvil verməlidir:
129.2.1. qiymətli metallar və daşlar, mirvari, onlardan hazırlanan zərgərlik əşyaları;
129.2.2. milli və ya xarici valyuta ilə nağd pullar, çeklər, *sənədli qiymətli kağızlar* və lotereya biletləri.[205]
129.3. İstintaq hərəkətləri zamanı götürülmüş milli və ya xarici valyuta ilə nağd pul, həmçinin *sənədli* qiymətli kağızlar cinayət təqibi üzrə icraatın materiallarında o halda saxlanılır ki, onların fərdi əlamətləri cinayət təqibi üzrə əhəmiyyət kəsb edir.[206]
129.4. Maddi sübutların və iş üzrə götürülmüş digər əşyaların təyinatı məsələsi məhkəmənin qanuni qüvvəyə minmiş hökmü və cinayət prosesini həyata keçirən orqanın cinayət təqibi üzrə icraata xitam verilməsi haqqında qərarı ilə həll edilənədək bu əşyalar cinayət prosesini həyata keçirən orqanda saxlanılır. Bu Məcəllə ilə nəzərdə tutulmuş hallarda maddi sübutlar haqqında qərar cinayət təqibi üzrə icraat qurtaranadək də qəbul edilə bilər.
129.5. Maddi sübut kimi cinayət təqibi üzrə icraatın materiallarına əlavə edilmiş əşya üzərində hüquqa dair mübahisə mülki mühakimə icraatı qaydasında baxılmalı olduqda, bu əşya mülki iş üzrə qərar qüvvəyə minənədək saxlanılır.

**Maddə 130. Cinayət təqibi üzrə icraatın aparıldığı müddətdə əşyaların mühafizəsinin təmin edilməsi**

130.1. Maddi sübutların və digər əşyaların saxlanılması zamanı, habelə onların ekspertizadan keçirilməsi, cinayət işinin digər ibtidai araşdırma orqanına, prokurora və ya məhkəməyə göndərilməsi ilə əlaqədar bu əşyaların itirilməsi, zədələnməsi, xarab olması, bir-birinə toxunması və ya qarışmasının qarşısının alınması üçün müvafiq tədbirlər görülməlidir.
130.2. Cinayət təqibi üzrə icraatın materialları göndərilərkən onları müşayiət məktubunda, ayrıca siyahıda və ya ittiham aktına əlavə olunmuş arayışda həmin materiallarla göndərilən bütün maddi sübutlar və digər əşyalar qeyd olunmalıdır. Cinayət təqibi üzrə icraatın materialları ilə göndərilməyən əşyaların saxlanıldığı yerlər yuxarıda sadalanan sənədlərdə göstərilməlidir.
130.3. Poçt vasitəsi ilə və ya əllə göndərilən maddi sübutlara və digər əşyalara ekspert, təhqiqatçı, müstəntiq, prokuror və ya hakim baxır və bu əşyaları müşayiət məktubuna, siyahıya, ittiham aktına əlavə edilmiş arayışa, habelə onların əlamətlərini və götürülməsini əks etdirən protokollara və cinayət təqibi üzrə digər materiallara əsasən tutuşdurur. Əşyalara baxışın gedişi və nəticələri barədə protokol tərtib olunur. *Həmin əşyalara baxış hakim tərəfindən keçirildikdə onun nəticələri məhkəmə iclasında elan olunur.*[207]

**Maddə 131. Cinayət təqibi üzrə icraat başa çatanadək maddi sübutlar barədə qəbul edilən qərarlar**

131.1. Cinayət təqibi üzrə icraat başa çatanadək cinayət prosesini həyata keçirən orqan aşağıdakı maddi sübutları mülkiyyətçiyə və ya qanuni sahibinə qaytarır:
131.1.1. tez xarab olan əşyaları;
131.1.2. məişətdə gündəlik tələbat əşyalarını;
131.1.3. gündəlik qulluğa ehtiyacı olan ev heyvanlarını, quşları və digər heyvanları;
131.1.4. verilmiş mülki iddianın və ya əmlak tələbinin təmin edilməsi üçün üzərinə həbs qoyulmamış avtomobil və digər nəqliyyat vasitələrini.
131.2. Bu Məcəllənin 131.1-ci maddəsində nəzərdə tutulmuş əşyaların mülkiyyətçisi və ya qanuni sahibi məlum olmadıqda və ya hər hansı səbəbdən onların qaytarılması mümkün deyilsə, bu əşyalar istifadə, saxlanma və ya qulluq edilməsi üçün müvafiq təşkilatlara verilməlidir.

***Maddə 131-1. Maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi***[208]

*131-1.1. Cinayət təqibi üzrə məhkəməyədək icraat zamanı qanunsuz dövriyyədən çıxarılmaqla maddi sübut kimi götürülmüş narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin miqdarı qanunla həmin maddələr üçün müəyyən edilmiş xüsusilə külli miqdarın aşağı həddindən artıq olduqda, müstəntiq və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror həmin maddələrdən bu Məcəllə ilə müəyyən edilmiş qaydada ekspert tərəfindən nümunənin götürülməsini, qalan hissəsinin isə məhv edilməsini və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsini təmin etmək məqsədilə zəruri tədbirlər görməlidirlər.*
*131-1.2. Ekspertizanın keçirilməsi üçün təqdim edilmiş narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin müvafiq ekspertizası keçirildikdən sonra ekspert həmin maddədən qanunla müəyyən edilmiş xüsusilə külli miqdarının aşağı həddi miqdarında nümunə götürür, bu nümunəni və maddənin qalan hissəsini ayrılıqda qablaşdırır. Ekspert tədqiqatı nəticəsində ekspert həmçinin təqdim edilmiş maddələrin tibbi məqsədlərlə istifadə olunub-oluna bilməməsinə dair rəy verməlidir. Nümunə və həmin maddələrin qalan hissəsi ekspert rəyi ilə birlikdə ekspertiza təyin etmiş şəxsə təqdim edilir.*
*131-1.3. Maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi*

*məqsədlərlə istifadə üçün təhvil verilməsi məsələsinə müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmə nəzarətinin həyata keçirilməsi qaydasında baxılır. Müvafiq vəsatət və təqdimat ekspert rəyi cinayət təqibini həyata keçirən orqana daxil olduğu vaxtdan 10 gündən gec olmayaraq məhkəməyə təqdim edilməlidir.*

*131-1.4. Bu Məcəllənin 131-1.3-cü maddəsində nəzərdə tutulmuş vəsatətin təmin edilməsi barədə məhkəmənin qərarı qanuni qüvvəyə mindiyi gündən 10 gün müddətində bu Məcəllənin 131-1.1-ci maddəsində nəzərdə tutulmuş maddələrin qalan hissəsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada məhv edilir və ya tibbi məqsədlərlə istifadəsi üçün təhvil verilir.*

*131-1.5. Nümunələrin götürülməsi, habelə bu Məcəllənin 131-1.1-ci maddəsində nəzərdə tutulmuş maddələrin qalan hissəsinin məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi məqsədilə müvafiq dövlət qurumuna verilməsi zamanı videoçəkilişdən istifadə edilməklə protokol tərtib olunur. Protokol videoçəkilişi əks etdirən müvafiq məlumat daşıyıcısı ilə birlikdə cinayət təqibi ilə bağlı materiallara əlavə edilir.*

*131-1.6. Bu Məcəllənin 131-1.2-ci maddəsində nəzərdə tutulmuş nümunələr barədə məsələ cinayət təqibi üzrə icraat başa çatdıqdan sonra bu Məcəllənin 132-ci maddəsində nəzərdə tutulmuş qaydada həll edilir. Cinayət prosesini həyata keçirən orqan iş üzrə yekun qərar çıxararkən nümunələrin məhv edilməli və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməli olduğunu qeyd etməlidir.*

**Maddə 132. Cinayət təqibi üzrə icraat başa çatdıqda maddi sübutlar barədə qəbul edilən qərarlar**

*132.1. Maddi sübutlar barədə məsələnin həlli ilə əlaqədar məhkəmə yekun qərar çıxararkən aşağıdakı qaydalara riayət etməlidir:* [209]

*132.1.1. şəxsin cinayət törədilərkən istifadə etdiyi alət və vasitələr (qanuni sahibinə qaytarılmalı olan alət və vasitələr istisna olmaqla) xüsusi müsadirə olunmalı və müvafiq təşkilatlara verilməli, onların dəyəri olmadıqda isə məhv edilməlidir;*

*132.1.2. şəxsin cinayət yolu ilə əldə etdiyi ~~pul vəsaitləri və ya digər~~ əmlak, habelə həmin ~~pul vəsaitləri və ya digər~~ əmlak hesabına əldə edilmiş gəlirlər (qanuni sahibinə qaytarılmalı olan ~~pul vəsaitləri və ya digər~~ əmlak və ondan əldə edilmiş gəlirlər istisna olmaqla), həmçinin şəxsin cinayət yolu ilə əldə etdiyi ~~pul vəsaitləri və ya digər~~ əmlakın mülki-hüquqi əqdlərin bağlanması və ya digər üsullarla tam və ya qismən çevrildiyi digər əmlak və ya onun müvafiq hissəsi xüsusi müsadirə olunmalı və cinayət nəticəsində vurulmuş ziyanın ödənilməsinə yönəldilməli, qalan hissəsi dövlətin nəfinə keçirilməlidir (zərər çəkmiş şəxs məlum olmadıqda isə tam həcmdə dövlətin nəfinə keçirilməlidir);* [210]

*132.1.3. terrorçuluğun, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların, mütəşəkkil dəstələrin və ya cinayətkar birliklərin (cinayətkar təşkilatların) maliyyələşdirilməsi üçün nəzərdə tutulan və ya istifadə olunan əmlak xüsusi müsadirə olunmalı və dövlət nəfinə keçirilməlidir;*

*132.1.4. mülki dövriyyəsi məhdudlaşdırılmış (qanuni əsaslarla əldə etmə halları istisna olmaqla) və mülki dövriyyədən çıxarılmış əşyalar müvafiq təşkilatlara verilməli, onların dəyəri olmadıqda isə məhv edilməlidir;*

*132.1.5. cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsi nəticəsində qanuni sahiblikdən çıxarılmış pul və qiymətli əşyalar sahiblərinə, mülkiyyətçilərinə və ya hüquqi varislərinə qaytarılmalıdır;*

*132.1.6. maddi sübut olan sənədlər cinayət təqibi üzrə icraat materiallarının saxlanma müddəti ərzində işdə saxlanılmalı və ya maraqlı təşkilatların və şəxslərin vəsatəti olduqda bu Məcəllənin 136.3-cü maddəsində nəzərdə tutulmuş qaydada onlara verilməlidir;*

*132.1.7. dəyəri olmayan digər əşyalar məhv edilməlidir.*

*132.2. Maddi sübutlar barədə məsələnin həlli ilə əlaqədar cinayət prosesini həyata keçirən orqan cinayət təqibi üzrə icraata xitam verilməsi haqqında qərar çıxararkən bu Məcəllənin 132.1.4–132.1.7-ci maddələrində müəyyən edilmiş qaydalara riayət etməlidir.*

**Maddə 133. Əşyaların xarab olması, məhv edilməsi və ya itirilməsinin nəticələri**

133.1. Ekspertiza və ya qanuni keçirilmiş digər istintaq, yaxud prosessual hərəkətlər zamanı xarab olmuş, məhv edilmiş və ya itirilmiş əşyanın dəyəri məhkəmə məsrəflərinə aid edilir. Bu əşya məhkum olunmuş şəxsə və ya mülki cavabdehə məxsus olduqda, onun dəyəri ödənilmir. Bu əşya başqa şəxsə mənsub olduqda, onun dəyəri məhkəmənin hökmü ilə Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaiti hesabına ödənilir və ya məhkum olunmuş şəxsdən və mülki cavabdehdən tutula bilər.

133.2. Bəraət hökmü çıxarılarkən, habelə cinayət təqibi üzrə icraata xitam verilərkən ekspertiza və ya qanuni keçirilmiş digər istintaq, yaxud prosessual hərəkətlər zamanı xarab olmuş, məhv edilmiş və ya itirilmiş əşyaların dəyəri prosessual vəziyyətindən asılı olmayaraq sahibinə və ya onun qanuni mülkiyyətçisinə Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.

**Maddə 134. İstintaq hərəkətlərinin və məhkəmə iclasının protokolları**

134.1. İstintaq hərəkətlərinin və məhkəmə iclasının protokolları cinayət prosesini həyata keçirən orqanın cinayət təqibi üçün əhəmiyyət kəsb edən halların bilavasitə qavranılmasını təsdiq edən və bu Məcəlləyə uyğun yazılı formada tərtib edilmiş sənədlərdir.

134.2. Cinayət prosesini həyata keçirən orqan tərəfindən bu Məcəlləyə müvafiq tərtib edilmiş aşağıdakı istintaq hərəkətlərinin protokolları sübut kimi istifadə oluna bilər:

134.2.1. baxış;
134.2.2. şəxsi müayinə;
134.2.3. şəxsin və əşyaların tanınması;
134.2.4. götürmə;
134.2.5. axtarış;
134.2.6. əmlak üzərinə həbs qoyulması;
134.2.7. poçt, teleqraf və digər göndərişlər üzərinə həbs qoyulması;
134.2.8. telefon və digər qurğularla aparılan danışıqların, rabitə və digər texniki vasitələrlə ötürülən məlumatların ələ keçirilməsi;
134.2.9. maliyyə əməliyyatları, bank hesablarının vəziyyəti və vergilərin ödənilməsi barədə məlumatlar daxil olmaqla şəxsi, ailə, dövlət, kommersiya və ya peşə sirrini təşkil edən məlumatların ələ keçirilməsi;
134.2.10. meyitin qəbirdən çıxarılması (ekshumasiya);
134.2.11. dindirmə, üzləşdirmə və ifadəni yerində yoxlama;
134.2.12. ekspertiza və ya tədqiqat üçün nümunələri götürmə;
134.2.13. istintaq eksperimenti.

134.3. Cinayət barədə şifahi ərizənin qəbulu, təqsirini boynuna almaqla könüllü gəlmə, tutulma, şəxslərə hüquq və vəzifələrini izah etmə protokolları faktı təsdiq edən sübut növü kimi istifadə oluna bilər.

134.4. Qeydiyyatdan keçirilməyən və ya vaxtında qeydiyyatdan keçirilməyən istintaq hərəkətlərinin protokollarının sübut kimi qəbul edilməsi məhkəmə tərəfindən keçirilmiş araşdırmanın nəticəsindən asılı olaraq həll edilir.

134.5. İstintaq hərəkəti protokolundakı natamamlıq ittiham etmək məqsədi ilə təhqiqatçının, müstəntiqin, prokurorun və ya hal şahidinin ifadələri ilə aradan qaldırıla bilməz.

**Maddə 135. Sənədlər**

135.1. Cinayət təqibi üzrə əhəmiyyət kəsb edə bilən məlumatları hərf, rəqəm, qrafika və digər işarə formasında özündə əks etdirən kağız, elektron və ya digər daşıyıcılar sənəd hesab olunur. Şəxsin vəzifəsinə və yerinə yetirdiyi işə görə ona məlum olan halları imzası ilə təsdiq etdiyi və qanunvericiliyin müəyyən etdiyi formada tərtib edilmiş sənəd rəsmi sənəd hesab olunur.

135.2. Bu Məcəllənin 128.1-ci maddəsində nəzərdə tutulmuş xüsusiyyətlərə malik sənədlər də maddi sübut hesab edilə bilər.

135.3. İttiham üzrə sübut kimi sənədlərin əsli və ya əslinə bərabər surəti istifadə edilməlidir. Cinayət prosesində sənədlərin surətindən istifadə olunmasına tərəflərin razılığı ilə icazə verilir.

**Maddə 136. Sənədlərin cinayət təqibi üzrə icraatın materiallarına əlavə edilməsi, saxlanması və qaytarılması**

136.1. Sənəd cinayət prosesini həyata keçirən orqan tərəfindən cinayət təqibi üzrə icraatın materiallarına əlavə edilir və işin bütün saxlanma müddəti ərzində işdə saxlanılır.

136.2. Götürülmüş və işə əlavə edilmiş sənədləri cari uçot, hesabat və digər hüquqauyğun məqsədlər üçün qanuni sahibi tələb etdikdə, ona həmin sənədlərdən müvəqqəti istifadə etmək və ya surətini çıxarmaq imkanı verilməlidir.

136.3. Məhkəmənin hökmü qanuni qüvvəyə mindiyi gündən bir il keçdikdən sonra və ya cinayət prosesini həyata keçirən orqanın cinayət təqibi üzrə icraata xitam verilməsi haqqında qərarı qüvvəyə mindikdən sonra cinayət təqibi üzrə icraatın materiallarında olan sənədlərin əsilləri qanuni sahiblərinin xahişi ilə onlara qaytarıla bilər. Bu halda müstəntiq, prokuror və ya məhkəmə cinayət təqibi üzrə icraatın materiallarına saxlandığı yerdən asılı olaraq qaytarılan sənədlərin surətlərini çıxarmalı, doğruluğunu təsdiq etməli və həmin materiallarda saxlamalıdır.

**Maddə 137. Əməliyyat-axtarış fəaliyyətinin gedişində əldə edilmiş materiallardan sübut kimi istifadə edilməsi**

Əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş materiallar «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun əldə olunduqda və bu Məcəllənin tələblərinə uyğun təqdim edildikdə və yoxlanıldıqda, cinayət təqibi üzrə sübut kimi qəbul edilə bilər.

**Maddə 137-1. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti nəticəsində əldə edilmiş materiallardan sübut kimi istifadə edilməsi** [211]

137-1.1. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti nəticəsində əldə edilmiş məlumatlar,

sənədlər və digər əşyalar "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun əldə olunduqda və bu Məcəllənin tələblərinə uyğun təqdim edildikdə və yoxlanıldıqda, cinayət təqibi üzrə sübut kimi qəbul edilə bilər.

137-1.2. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin nəticələri yalnız həmin fəaliyyəti həyata keçirən orqanın səlahiyyətli şəxsinin qərarı əsasında ibtidai araşdırmanı aparan orqana və ya məhkəməyə verilə bilər.

## XV fəsil

## Sübutetmə

### Maddə 138. Sübutetmənin anlayışı

138.1. Sübutetmə ittihamın qanuni, əsaslı və ədalətli həlli üçün əhəmiyyət kəsb edən halların müəyyən edilməsi məqsədi ilə sübutların əldə edilməsindən, yoxlanılmasından və qiymətləndirilməsindən ibarətdir.

138.2. Təqsirləndirilən şəxsin cinayət məsuliyyətinə cəlb olunması əsaslarını və onun təqsirli olub-olmamasını sübutetmə vəzifəsi ittihamçının üzərinə düşür.

### Maddə 139. Sübut edilməli hallar

139.0. Cinayət təqibi üzrə icraat zamanı aşağıdakılar yalnız sübutlara əsasən müəyyən edilir:

139.0.1. cinayət hadisəsinin baş vermə faktı və halları;

139.0.2. şübhəli və ya təqsirləndirilən şəxsin cinayət hadisəsi ilə əlaqəsi;

139.0.3. cinayət qanunu ilə nəzərdə tutulmuş əməldə cinayətin əlamətləri;

139.0.4. cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsində şəxsin təqsirliliyi;

139.0.5. cinayət qanunu ilə nəzərdə tutulmuş cəzanı yüngülləşdirən və ağırlaşdıran hallar;

139.0.6. bu Məcəllə ilə başqa hal nəzərdə tutulmamışsa, cinayət prosesi iştirakçısının və ya cinayət prosesində iştirak edən digər şəxsin öz tələbini əsaslandırdığı hallar.

### Maddə 140. Bəzi sübutlar əsasında müəyyən edilən hallar

140.0. Cinayət prosesi gedişində aşağıdakı hallar yalnız aşağıda göstərilən sübutların əvvəlcədən əldə edilməsi və tədqiqi şərti ilə müəyyən edilə bilər:

140.0.1. ölümün səbəbi, bədən xəsarətinin ağırlıq dərəcəsi və xarakteri — tibb sahəsində ekspertin rəyi;

140.0.2. şübhəli və ya təqsirləndirilən şəxsin ictimai təhlükəli əməli törətdiyi zaman xroniki psixi xəstəlik, psixi fəaliyyətin müvəqqəti pozulması, *əqli gerilik* və ya sair psixi xəstəlik nəticəsində öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) faktiki xarakterini və ictimai təhlükəliliyini dərk etmək, yaxud onları idarə edə bilmək iqtidarında olub-olmaması — psixiatriya sahəsində ekspertlərin rəyi;

140.0.3. şahidin və ya zərər çəkmiş şəxsin cinayət işi üzrə müəyyən edilməli halları xroniki psixi xəstəlik, psixi fəaliyyətin müvəqqəti pozulması, *əqli gerilik* və ya sair psixi xəstəlik nəticəsində düzgün qavrayıb təsvir edə bilməməsi — psixiatriya sahəsində ekspertlərin rəyi;

140.0.4. zərər çəkmiş, şübhəli və ya təqsirləndirilən şəxsin müəyyən yaş həddinə çatması haqqında sənədləri olmadıqda yaşın müəyyən edilməsi — tibb və psixologiya sahəsində ekspertlərin rəyi;

140.0.5. təqsirləndirilən şəxsin əvvəlki məhkumluğunun olması və ona müəyyən cəza təyin edilməsi — məhkəmə hökmünün surəti.

### Maddə 141. Sübutsuz müəyyən edilən hallar

141.1. Cinayət təqibi üzrə icraatın materiallarından istifadə edilmədən aşağıdakı hallar sübut edilmiş hesab olunur:

141.1.1. ümumi məlum olan faktlar;

141.1.2. müasir elmdə, texnikada, incəsənətdə və digər sahələrdə ümumi qəbul edilmiş təhqiqat metodlarının düzgünlüyü;

141.1.3. məhkəmə üçün preyudisial qaydada məcburi qüvvəyə malik qərarla müəyyən edilmiş hallar.

141.2. Cinayət prosesinin tərəfləri cinayət təqibi üzrə əhəmiyyət kəsb edən hər hansı halı tədqiq etmədən onun mövcudluğu və ya müəyyən qiymət verilməsi barədə razılığa gələ bilərlər. Cinayət təqibi üzrə icraatın materiallarında olan sübutlara əsasən məhkəmə bu halların mövcudluğu və ona verilmiş qiymətin qanunla ziddiyyət yaratmadığını qəbul etdikdə, belə razılıq hökmün və ya digər qərarın əsası kimi qəbul edilə bilər. Bu halda sübutların tədqiq edilmədən müəyyən olunmuş halları cinayət prosesinin digər iştirakçılarına deyil,

yalnız razılığa gələnlərə münasibətdə müəyyən edilmiş hesab olunur.
141.3. Aşağıdakı hallar cinayət təqibi üzrə icraatın materiallarından istifadə edilmədən müəyyən edilmiş hesab olunur:
141.3.1. şəxslərin qanunu bilməsi;
141.3.2. şəxslərin xidməti ilə əlaqədar vəzifələrini və öz peşə qaydalarını bilməsi;
141.3.3. şəxs xüsusi hazırlığın və ya təhsilin olmasını təsdiq edən sənədlər təqdim etmədikdə, yaxud xüsusi hazırlıq və təhsil verən müəssisə və ya digər təşkilatın adını bildirmədikdə, onun xüsusi hazırlığının və təhsilinin olmaması.

**Maddə 142. Preyudisiya** KMQ8

142.1. Cinayət təqibi üzrə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü cinayət təqibi üzrə icraatda həm müəyyən olunmuş hallara, həm də onların hüquqi qiymətinə görə təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə üçün məcburidir.
142.2. Mülki *iş, kommersiya və ya inzibati mübahisə* üzrə qanuni qüvvəyə minmiş məhkəmənin qərarı cinayət işi üzrə icraatda təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəməyə yalnız hadisənin yaxud hərəkətin olub-olmaması hissəsində məcburidir və təqsirləndirilən şəxsin təqsirli olub-olmaması nəticəsini əvvəlcədən həll etmir.[212]

**Maddə 143. Sübutların toplanılması**

143.1. Sübutların toplanılması ibtidai araşdırma və məhkəmə baxışı zamanı dindirmə, üzləşdirmə, götürmə, axtarış, baxış, ekspertiza, tanınmaya təqdim etmə və digər prosessual hərəkətlərlə həyata keçirilir.
143.2. Təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə cinayət prosesi tərəflərinin vəsatəti, yaxud öz təşəbbüsü ilə sübutların toplanması prosesində fiziki, hüquqi və vəzifəli şəxslərdən, habelə əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlardan cinayət təqibi üzrə əhəmiyyət kəsb edən sənəd və əşyaları təqdim etməyə, yoxlama və təftişin keçirilməsini səlahiyyətli orqanlardan və vəzifəli şəxslərdən tələb etməyə haqlıdır.
143.3. Bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada cinayət prosesində iştirak etmək üçün buraxılmış müdafiəçi hüquqi yardım göstərilməsi üçün sübutlar təqdim etməyə və məlumat toplamağa, o cümlədən fərdi şəxslərdən izahat almağa, həmçinin müxtəlif təşkilatlardan və birliklərdən arayış, xasiyyətnamə və digər sənədlər tələb etməyə haqlıdır.
143.4. Şübhəli, təqsirləndirilən şəxs, müdafiəçi, ittihamçı, zərər çəkmiş şəxs, mülki iddiaçı, mülki cavabdeh və onların nümayəndələri, fiziki və hüquqi şəxslər sübut hesab oluna bilən əşya və sənədləri, habelə şifahi və ya yazılı məlumatları təqdim etməyə haqlıdırlar.

**Maddə 144. Sübutların yoxlanılması**

Cinayət təqibi üzrə toplanmış sübutlar tam, hərtərəfli və obyektiv yoxlanılmalıdır. Yoxlama zamanı cinayət təqibi üzrə toplanmış sübutlar təhlil olunur və bir-biri ilə müqayisə edilir, yeni sübutlar toplanır, əldə olunmuş sübutların mənbəyinin mötəbərliyi müəyyənləşdirilir.

**Maddə 145. Sübutların qiymətləndirilməsi**

145.1. Hər bir sübut mənsubiyyəti, mümkünlüyü, mötəbərliyi üzrə qiymətləndirilməlidir. Cinayət təqibi üzrə toplanmış bütün sübutların məcmusuna isə ittihamın həlli üçün onların kifayət etməsinə əsasən qiymət verilməlidir.
145.2. Təhqiqatçı, müstəntiq, prokuror, hakim ~~və ya andlı iclasçılar~~ qanunu və vicdanını rəhbər tutaraq sübutların məcmusunun hərtərəfli, tam və obyektiv baxılmasına əsaslanmaqla öz daxili inamına görə sübutları qiymətləndirirlər.[213]
145.3. İttihamın sübut olunmasında yaranan şübhələri digər sübutlarla aradan qaldırmaq mümkün olmadıqda, onlar şübhəli və ya təqsirləndirilən şəxsin xeyrinə təfsir edilir.

**Maddə 146. Sübutların kifayət etməsi**

146.1. Cinayət təqibi üzrə toplanmış sübutların kifayət etməsi dedikdə, müəyyən edilməli hallar üzrə mümkün sübutların elə bir həcmi nəzərdə tutulur ki, onlar sübut etmə predmetinin müəyyən edilməsi üçün mötəbər və yekun nəticəyə gəlməyə imkan versin.
146.2. Cinayət təqibi üzrə sübutların kifayət etməsi aşağıdakılara nail olunmasına kömək edir:
146.2.1. ibtidai araşdırmanın və ya məhkəmə baxışının məqsədyönlü aparılmasına;
146.2.2. cinayət təqibi üzrə məhkəmə perspektivinin vaxtında müəyyən edilməsinə;

146.2.3. cinayət təqibi üzrə düzgün və əsaslı qərar qəbul edilməsinə.
146.3. Sübutların məcmusunun toplanması aşağıdakılara gətirib çıxarmamalıdır:
146.3.1. sübut materiallarının lüzumsuz artıq toplanmasına;
146.3.2. ibtidai araşdırmanın və ya məhkəmə baxışının uzadılmasına (süründürməçiliyə);

## Dördüncü bölmə

## Prosessual məcburiyyət tədbirləri

## XVI fəsil

## Tutulma

### Maddə 147. Cinayət prosesində tutulmanın tətbiqi

147.1. Cinayət prosesində tutulma yalnız aşağıdakı şəxslərə tətbiq oluna bilər:
147.1.1. cinayəti törətməkdə şübhəli olan şəxsə;
147.1.2. ittiham elan edilməli olan şəxsə və ya haqqında seçilmiş qətimkan tədbirinin şərtlərini pozan təqsirləndirilən şəxsə;
147.1.3. hökmün və ya məhkəmənin digər yekun qərarının icrası yerinə məcburi göndərilməsi və ya təyin olunmuş cəzanın digər cəza növü ilə əvəz edilməsi, habelə şərti məhkum etmənin, *cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin, yaxud cəzanın çəkilməsinin təxirə salınmasının* ləğvi məsələsinin həlli məqsədi ilə məhkuma.[214]
147.2. Tutulma aşağıdakı hallarda tətbiq edilir:
147.2.1. şəxsin cinayət törətməsinə şübhə yarandıqda;
147.2.2. bu Məcəllənin 147.1.2-ci maddəsində nəzərdə tutulmuş şəxs haqqında cinayət təqibi orqanının müvafiq qərarı olduqda;
147.2.3. hökmün və ya məhkəmənin digər yekun qərarının icrası yerinə məcburi göndərilməsi və ya təyin olunmuş cəzanın digər cəza növü ilə əvəz edilməsi, habelə şərti məhkum etmənin *, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin və ya cəzanın çəkilməsinin təxirə salınmasının* ləğvi məsələsinin həllinədək məhkumun tutulması barədə məhkəmənin qərarı olduqda.[215]
147.3. Şəxsin qanunsuz tutulması Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.
*147.4. Barəsində tutulma tətbiq edilən şəxs azadlığının faktiki məhdudlaşdırıldığı vaxtdan tutulmuş hesab edilir.*
*147.5. Tutulma haqqında protokolda aşağıdakılar göstərilməlidir:*
*147.5.1. protokolun tərtib edildiyi yer, tarix və vaxt;*
*147.5.2. protokolu tərtib edən və tutulmanı aparan şəxsin soyadı, adı, atasının adı və vəzifəsi;*
*147.5.3. tutulan şəxsin soyadı, adı, atasının adı, doğulduğu il, ay, gün və yer, vətəndaşlığı, təhsili, iş yeri, məşğuliyyət növü və ya vəzifəsi, yaşadığı və qeydiyyatda olduğu yer, şəxsiyyətini təsdiq edən sənəd barədə məlumat;*
*147.5.4. tutulmanın aparıldığı yer, tarix və vaxt;*
*147.5.5. tutulmanın səbəbi, şübhənin və ya ittihamın mahiyyəti;*
*147.5.6. tutulan şəxsə onun hüquq və vəzifələrinin izah edilməsi haqqında qeyd.*
*147.6. Tutulma haqqında protokol onu tərtib edən vəzifəli şəxs, tutulan şəxs və tutulma haqqında protokolun imzalanması üçün tutulan şəxsə təqdim edilməsində iştirak etmiş müdafiəçi qismində dəvət edilmiş vəkil tərəfindən imzalanır.*[216]

### Maddə 148. Cinayət törətməsinə şübhə yarandıqda şəxsin tutulması

148.1. Cinayət törətməsinə şübhə yarandıqda şəxsin tutulması onun cinayət törətməsinə bilavasitə şübhə yarandığı və ya cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətməsindən şübhələnməyə əsas verən digər məlumatlar olduğu hallarda həyata keçirilir.
148.2. Şəxsin cinayət törətməsinə bilavasitə şübhə yarandıqda təhqiqatçı, təhqiqat orqanının digər əməkdaşı, müstəntiq və ya prokuror onun tutulmasını aşağıdakı hallarda tətbiq edə bilər:
148.2.1. şəxs cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törədərkən, yaxud bilavasitə bundan sonra cinayət başında yaxalandıqda;
148.2.2. zərər çəkmiş, yaxud hadisəni görən digər şəxslər cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin həmin şəxs tərəfindən törədilməsini birbaşa göstərdikdə;
148.2.3. şəxsin bədənində, üstündə, paltarında və ya istifadə etdiyi digər əşyalarda, yaşayış yerində, nəqliyyat vasitəsində cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsini göstərən aşkar izlər müəyyən olunduqda.
148.3. Şəxsin cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətməsindən şübhələnməyə əsas verən digər məlumatlar olduqda, o, təhqiqatçı, təhqiqat orqanının digər əməkdaşı, müstəntiq və ya prokuror tərəfindən aşağıdakı hallarda tutula bilər:
148.3.1. hadisə yerindən qaçıb gizlənməyə, yaxud cinayət prosesini həyata keçirən orqandan gizlənməyə cəhd göstərdikdə;

148.3.2. daimi yaşayış yeri olmadıqda və ya başqa ərazidə yaşadıqda;
148.3.3. şəxsiyyəti müəyyən edilmədikdə.

148.4. Bu Məcəllənin 148.1 və 148.2-ci maddələrində nəzərdə tutulmuş hallardan biri mövcud olduqda tutulma müvafiq cinayət işi başlananadək həyata keçirilə bilər. Cinayət işinin başlanmasına dair qərar şəxsin tutulduğu andan 24 saat keçənədək qəbul olunmazsa, tutulmuş şəxs dərhal azad olunmalıdır. ~~Belə qərar qəbul olunsa da şəxsin tutulması 48 saatdan artıq davam edə bilməz. Tutulmuş şəxsə tutulduğu andan 48 saat keçənədək ittiham elan edilməli, həbslə bağlı prokurorun təqdimatı olduqda isə o, məhkəməyə gətirilməli, məhkəmə işə təxirə salınmadan baxmalı və onun haqqında həbs qətimkan tədbirinin seçilməsi və ya onun azad edilməsi haqqında qərar çıxarmalıdır~~.[217]

*148.5. Cinayət törətməkdə şübhəli olduğu üçün tutulmuş şəxsin müvəqqəti saxlama yerində saxlanılması cinayət prosesini həyata keçirən orqanlar tərəfindən tərtib edilmiş tutulma haqqında protokol əsasında həyata keçirilir.*[218]

148.6. Cinayət törətməsinə şübhə yarandıqda şəxsin tutulması, bu Məcəllənin 148.7-ci maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, 48 saatdan artıq davam edə bilməz. Həmin müddət keçənədək tutulmuş şəxsə ittiham elan edilməli, həbslə bağlı prokurorun təqdimatı olduqda isə o, məhkəməyə gətirilməli, məhkəmə təxirə salmadan işə baxmalı və həmin şəxs barəsində həbs qətimkan tədbirinin seçilməsi və ya onun azad edilməsi haqqında qərar çıxarmalıdır.

148.7. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 102, 114, 120.2.11, 169, 214, 214-1, 214-3, 215.3, 217, 218, 219, 219-1, 220, 274, 275, 276, 277, 279, 280, 282 və ya 283-1-ci maddələri ilə istintaqı aparılan cinayət işləri üzrə şübhəli və ya təqsirləndirilən şəxslərin sayının çoxluğu, işin xüsusi mürəkkəbliyi və ya toplanmış materialların həcminin böyüklüyü bu Məcəllənin 148.6-cı maddəsində nəzərdə tutulan hərəkətlərin 48 saat müddətində həyata keçirilməsinə mane olduqda, həmin müddət müstəntiqin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə 48 saatdan artıq olmayan müddətə uzadıla bilər.[219]

### Maddə 149. Hadisəni görən şəxsin köməyi ilə cinayət törətmiş şəxsi tutub saxlamanın xüsusiyyətləri

149.1. Cinayət baş verdikdə və ya cinayət baş verdikdən bilavasitə sonra onu törətmiş şəxs gizlənməyə cəhd göstərdikdə, hadisəni görən şəxs onun yaxalanması üçün şəxsin tutulmasında cinayət təqibi orqanına kömək göstərə bilər, o cümlədən:
149.1.1. müqavimət göstərdikdə cinayət törətmiş şəxsin əl-ayağını bağlaya bilər;
149.1.2. cinayət törətmiş şəxsin üstündə silah və ya başqa təhlükəli alətin, yaxud cinayət işi üzrə əhəmiyyət kəsb edən digər əşyaların olmasını ehtimal etdikdə onun üstünü yoxlayaraq bu əşyaları cinayət təqibi orqanına təqdim etmək üçün götürə bilər.

149.2. Cinayət təqibi orqanının əməkdaşı olmadıqda, cinayəti törətmiş şəxsi yaxalayan dərhal polis çağırmalı, bunu etmək mümkün olmadıqda isə tutulmuş şəxsi təxirə salınmadan məcburi qaydada polisə çatdırmalıdır.

### Maddə 150. İttiham elan etmək üçün şəxsin tutulması

150.1. Cinayət işi üzrə toplanmış sübutlar şəxsin cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətməsini ehtimal etməyə əsas verdikdə və bu şəxs başqa ərazidə yaşadıqda, yaxud onun olduğu yer məlum olmadıqda, müstəntiq və ya prokuror həmin şəxsin tutulması barədə qərar çıxara bilər. Cinayət prosesini həyata keçirən orqandan gizlənən və ya çağırışa gəlməkdən qəsdən boyun qaçıran şəxsə ittiham elan etmək üçün onun tutulması haqqında qərar çıxarıldıqda, müstəntiq və ya prokuror eyni vaxtda həmçinin həmin şəxsin axtarışını elan edir.

150.2. İttiham elan etmək üçün şübhəli şəxsin tutulması barədə qərarı həmin şəxsi aşkar etmiş təhqiqat orqanının hər hansı əməkdaşı, müstəntiq və ya prokuror icra etməli və bundan dərhal sonra qərarı çıxarmış müstəntiq və ya prokurora xəbər verməlidir.

150.3. İttiham elan etmək üçün şübhəli şəxsin tutulması 48 saatdan artıq davam edə bilməz. Tutulmuş şəxs barəsində həbs qətimkan tədbirinin seçilməsi məsələsi həll olunarkən o, tutulduğu andan 48 saat keçənədək məhkəməyə gətirilməli, məhkəmə işə təxirə salınmadan baxmalı və onun haqqında həbs qətimkan tədbirinin seçilməsi və ya onun azad edilməsi haqqında qərar çıxarmalıdır.

### Maddə 151. Qətimkan tədbirinin şərtlərini pozduğuna görə *şübhəli və ya* təqsirləndirilən şəxsin tutulması[220]

151.1. *Şübhəli və ya təqsirləndirilən* şəxs barəsində seçilmiş qətimkan tədbirinin şərtləri pozulduqda, müstəntiq və ya prokuror onun tutulması barədə qərar çıxara bilər.[221]

151.2. Təqsirləndirilən şəxs barəsində ev dustaqlığı və ya girov qətimkan tədbiri hakim tərəfindən seçilmişsə, qətimkan tədbirinin şərtlərini pozduğuna görə prokuror həmin şəxsin

tutulması barədə qərar çıxarmaqla yanaşı onun həbsə alınmasına dair məhkəməyə təqdimat göndərir.

151.3. Qətimkan tədbirinin şərtlərini pozaraq cinayət prosesini həyata keçirən orqandan gizlənən və ya çağırışa gəlməkdən qəsdən boyun qaçıran şəxsin tutulması barədə qərar çıxarıldıqda, müstəntiq və ya prokuror, həmçinin eyni vaxtda həmin şəxsin axtarışını elan edir.

151.4. Qətimkan tədbirinin şərtlərini pozduğuna görə *şübhəli və ya* təqsirləndirilən şəxsin tutulması barədə qərarı həmin şəxsi aşkar etmiş təhqiqat orqanının əməkdaşı, müstəntiq və ya prokuror icra etməli və bundan dərhal sonra qərarı çıxarmış müstəntiqə və ya prokurora xəbər verməlidir.

151.5. Qətimkan tədbirinin şərtlərini pozduğuna görə *şübhəli və ya* təqsirləndirilən şəxsin tutulması 48 saatdan artıq davam edə bilməz. *Həmin müddət keçənədək tutulmuş şəxs barəsində daha ciddi qətimkan tədbiri seçilməli, yaxud bu Məcəllə ilə müəyyən edilmiş qaydada həbs və ya ev dustaqlığı qətimkan tədbirinin seçilməsi məsələsinə baxılması üçün məhkəməyə gətirilməlidir. Məhkəmə qətimkan tədbirinin seçilməsi məsələsinə təxirə salınmadan baxmalı və qərar qəbul etməlidir.* [222]

**Maddə 152. Hökmün və ya məhkəmənin digər yekun qərarının icrası yerinə məcburi göndərilməsi və ya təyin olunmuş cəzanın digər cəza növü ilə əvəz edilməsi, habelə şərti məhkum etmənin, *cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin və ya cəzanın çəkilməsinin təxirə salınmasının* ləğvi məsələsinin həlli məqsədi ilə tutulma**

*152.1. Hökmün və ya məhkəmənin digər yekun qərarının icrası yerinə məcburi göndərilməsi və ya təyin olunmuş cəzanın digər cəza növü ilə əvəz edilməsi, habelə şərti məhkum etmənin, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin və ya cəzanın çəkilməsinin təxirə salınmasının ləğvi məsələsinin həlli məqsədi ilə məhkumun tutulması bu Məcəllənin 519.2-ci maddəsində nəzərdə tutulmuş qaydada məhkəmənin qərarına əsasən həyata keçirilir. Məhkumun tutulması barədə məhkəmə qərarının çıxarılması üçün aşağıdakı hallarda cəzanı icra edən müəssisənin və ya orqanın vəsatəti əsasında müvafiq ərazi üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror tərəfindən müvafiq təqdimat verilir:* [223]

152.1.1. məhkum olunmuş şəxs qaçıb gizləndikdə və ya müvafiq müəssisəyə, yaxud orqana gəlməkdən boyun qaçırmaq cəhdləri olduqda;

152.1.2. məhkum olunmuş şəxs məhkəmə tərəfindən üzərinə qoyulmuş vəzifələri mütəmadi və ya qərəzli olaraq yerinə yetirməkdən boyun qaçırdıqda.

152.2. Hökmün və ya məhkəmənin digər yekun qərarının icrası yerinə məcburi göndərilməsi və ya təyin olunmuş cəzanın digər cəza növü ilə əvəz edilməsi, habelə şərti məhkum etmənin, *cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin və ya cəzanın çəkilməsinin təxirə salınmasının* ləğvi məsələsinin həlli məqsədi ilə tutulma barədə qərar çıxararkən, məhkəmə tutulma vaxtını şəxsin tutulduğu andan 7 (yeddi) gün müddətində müəyyən edir.

152.3. Hökmün və ya məhkəmənin digər yekun qərarının icrası yerinə məcburi göndərilməsi və ya təyin olunmuş cəzanın digər cəza növü ilə əvəz edilməsi, habelə şərti məhkum etmənin, *cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin və ya cəzanın çəkilməsinin təxirə salınmasının* ləğvi məsələsinin həlli məqsədi ilə şəxsin tutulması barədə məhkəmənin qərarı icra olunması üçün məhkumun yaşadığı ərazi üzrə polis orqanına göndərilir. Tutulma haqqında qərarı icra etmiş orqan icra barədə dərhal məhkəməyə məlumat verir.

152.4. Hökmün və ya məhkəmənin digər yekun qərarının icrası yerinə məcburi göndərilməsi və ya təyin olunmuş cəzanın digər cəza növü ilə əvəz edilməsi, habelə şərti məhkum etmənin, *cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin və ya cəzanın çəkilməsinin təxirə salınmasının* ləğvi məsələsinin həlli məqsədi ilə şəxsin tutulması məhkəmə tərəfindən müəyyən olunmuş müddətdən artıq davam edə bilməz. Bu müddətdə tutulmuş şəxs məhkəməyə gətirilməli, məhkəmə *bu Məcəllənin 519.1-ci maddəsində nəzərdə tutulmuş qaydada* işə təxirə salınmadan baxmalı, hökmün və ya məhkəmənin digər yekun qərarının icrası yerinə məcburi göndərilməsi və ya təyin olunmuş cəzanın digər cəza növü ilə əvəz edilməsi, habelə şərti məhkum etmənin, *cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin və ya cəzanın çəkilməsinin təxirə salınmasının* ləğv edilməsi və hökmlə təyin olunmuş cəzanın icra edilməsi və ya məhkumun azad edilməsi haqqında qərar çıxarmalıdır. [224]

**Maddə 153. Tutulmuş şəxsin hüquqlarının təmin edilməsi**

153.1. Cinayət təqibi orqanı hər hansı şəxsin tutulduğu halda onun hüquqi statusundan asılı olaraq bu Məcəllədə, *habelə "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda* şübhəli və ya təqsirləndirilən şəxs üçün nəzərdə tutulmuş hüquqlarını təmin etməlidir.

153.2. Tutulmuş şəxsin hüquqlarının təmin olunması üçün cinayət prosesini həyata keçirən orqanın və müvəqqəti saxlama yerlərinin əməkdaşları aşağıdakıları etməlidirlər:

153.2.1. tutulmadan dərhal sonra şəxsə tutulmanın əsaslarını bildirmək, özünə və yaxın qohumlarına qarşı ifadə verməmək, müdafiəçinin yardımından istifadə etmək hüquqlarını izah etmək;

153.2.2. tutulmuş şəxsi təxirə salınmadan polis və ya digər təhqiqat orqanlarının

müvəqqəti saxlama yerlərinə gətirmək, tutulma faktını qeydə almaq, protokollaşdırmaq və onu tutulma protokolu ilə tanış etmək;

153.2.3. hər bir tutulma faktı müvəqqəti saxlama yerlərində qeydiyyatdan keçirildikdən dərhal sonra müvafiq təhqiqat orqanının rəhbərinə və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora məlumat vermək (bu məlumat yazılı və tutulma anından sonra 12 saat müddətində verilir);

153.2.4. tutulmadan dərhal sonra şəxsin tutulması barədə xəbər vermək hüququnu təmin etmək (qocaların, yetkinlik yaşına çatmayanların və psixi vəziyyətinə görə imkanı olmayan tutulmuş şəxslərin ailə üzvlərinə müvəqqəti saxlama yerlərinin müdiriyyəti öz təşəbbüsü ilə xəbər verir);

153.2.5. şəxsə tutulduğu andan öz vəkili və qanuni nümayəndəsi ilə ləyaqətli şəraitdə və nəzarət altında təklikdə görüşmək və konfidensial ünsiyyət saxlamaq imkanı yaratmaq;

153.2.6. tutulmuş şəxsin öz vəkili olmadıqda, ona müvəqqəti saxlama yeri üzrə ərazidə yerləşən vəkil qurumlarında fəaliyyət göstərən vəkillərin siyahısını təqdim etmək, seçilmiş vəkillə əlaqə saxlamaq və onunla görüşmək imkanı yaratmaq;

153.2.7. tutulmuş şəxsin maddi vəziyyəti öz hesabına vəkil tutmağa imkan vermədikdə, ona dövlət hesabına müvəqqəti saxlama yeri üzrə ərazidə yerləşən vəkil qurumlarına daxil olan növbətçi vəkillə görüşmək imkanı yaratmaq;

153.2.8. tutulmuş şəxs vəkildən imtina etdikdə, bu barədə onun yazılı ərizəsini almaq (ərizə yazmaqdan boyun qaçırıldıqda, həmin faktla əlaqədar vəkil və müvəqqəti saxlama yerinin nümayəndəsi tərəfindən müvafiq protokol tərtib olunur);

153.2.9. cinayət mühakimə icraatının aparıldığı dili bilməyən şəxsin tərcüməçinin xidmətindən pulsuz istifadə etmək hüququnu təmin etmək;

153.2.10. tutulmuş şəxslə davranışda onun şəxsiyyətini və ləyaqətini alçaltmamaq, qadınlara, yetkinlik yaşına çatmayanlara, qocalara, xəstələrə və *əlilliyi olan şəxslərə* isə xüsusi diqqət yetirmək; [225]

153.2.11. tutulmuş şəxsin barəsində həbs qətimkan tədbiri seçmək, hökmün və ya məhkəmənin digər yekun qərarının icrası yerinə məcburi göndərilməsi və ya təyin olunmuş cəzanın digər cəza növü ilə əvəz edilməsi, habelə şərti məhkum etmənin, *cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin və ya cəzanın çəkilməsinin təxirə salınmasının* ləğvi məsələlərinin həlli üçün bu Məcəllənin 148, 150—152-ci maddələrində nəzərdə tutulmuş müddətlərə riayət edilməsi məqsədi ilə tutulmuş şəxsi qabaqcadan məhkəməyə gətirmək;

153.2.12. bu Məcəllənin *153.3-cü maddəsində nəzərdə tutulmuş hallarda tutulmuş şəxsi dərhal azad etmək*. [226]

*153.2-1. Müvəqqəti saxlama yerinin müdiriyyəti həmçinin bu Məcəllənin 161-ci maddəsində (161.1.5-ci, 161.1.15-ci – 16.1.17-ci maddələr istisna olmaqla) nəzərdə tutulmuş vəzifələri daşıyır.* [227]

153.3. Tutulmuş şəxs cinayət prosesini həyata keçirən orqan tərəfindən aşağıdakı hallarda azad edilməlidir:

153.3.1. şəxsin cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətməsi barədə şübhələr təsdiq edilmədikdə;

153.3.2. şəxsi gələcəkdə həbsdə saxlamaq üçün zərurət olmadıqda;

153.3.3. ləğv edilmişdir. [228]

153.3.4. hökmün və ya məhkəmənin digər yekun qərarının icrası yerinə məcburi göndərilməsi və ya təyin olunmuş cəzanın digər cəza növü ilə əvəz edilməsi, habelə şərti məhkum etmənin, *cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin və ya cəzanın çəkilməsinin təxirə salınmasının* ləğvi məsələlərinin həlli üçün tutulma anından 7 (yeddi) gün, digər hallarda isə tutulma anından 48 saat müddətində (bu Məcəllənin 148.7-ci maddəsində müəyyən edilmiş hallarda tutulmanın uzadıldığı müddətdə) tutulmuş şəxsi həbs etmək üçün məhkəmə qərarı verilmədikdə. [229]

153.4. Bu Məcəllənin 153.3.1 və 153.3.2-ci maddələrində nəzərdə tutulmuş hallarda tutulmuş şəxs müvafiq olaraq təhqiqatçı, müstəntiq, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror və ya məhkəmə tərəfindən, bu Məcəllənin 153.3.4-cü maddəsində nəzərdə tutulmuş halda isə həmçinin müvəqqəti *saxlama yerinin rəisi tərəfindən azad edilir*. [230]

153.5. Cinayətin törədilməsində şübhəli şəxs kimi tutulmuş və şübhə təsdiq olunmadığına görə azad olunmuş şəxs həmin şübhəyə görə yenidən tutula bilməz.

## XVII fəsil

## Qətimkan tədbirləri

### Maddə 154. Qətimkan tədbirinin anlayışı və növləri

154.1. Qətimkan tədbiri cinayət işi üzrə icraatda şübhəli və ya təqsirləndirilən şəxsin qanuna zidd davranışının qarşısını almaq və hökmün icrasını təmin etmək məqsədi ilə və bu Məcəllənin 155.1-ci maddəsində nəzərdə tutulmuş hallarda onların barəsində seçilən

prosessual məcburiyyət tədbiridir.
154.2. Qətimkan tədbirləri aşağıdakılardır:
154.2.1. həbs;
154.2.2. ev dustaqlığı;
154.2.3. girov;
154.2.4. başqa yerə getməmək barədə iltizam;
154.2.5. şəxsi zaminlik;
154.2.6. təşkilatın zaminliyi;
154.2.7. polisin nəzarəti altına vermə;
154.2.8. *yetkinlik yaşına çatmayanı* nəzarət altına vermə; [231]
154.2.9. komandanlığın müşahidəsi altına vermə;
154.2.10. vəzifədən kənarlaşdırma.
154.3. Həbs, ev dustaqlığı və girov yalnız təqsirləndirilən şəxsin barəsində seçilə bilər. *Bu Məcəllənin 154.2.8-ci maddəsində nəzərdə tutulmuş qətimkan tədbiri yalnız on səkkiz yaşına çatmayan şəxs barəsində seçilə bilər.* Komandanlığın müşahidəsi altına vermə yalnız hərbi qulluqçu və ya hərbi toplantıda təlim keçdiyi müddətdə hərbi mükəlləfiyyətli şəxs barəsində seçilə bilər. [232]

154.4. Bu Məcəllənin 154.2.1—154.2.9-cu maddələrində nəzərdə tutulmuş qətimkan tədbirləri əsas qətimkan tədbirləridir və biri digərilə birlikdə seçilə bilməz. Vəzifədən kənarlaşdırma həm əsas qətimkan tədbiri qismində, həm də digər qətimkan tədbirlərindən birinə əlavə kimi seçilə bilər. ~~Ev dustaqlığı və girov həbsə alternativ qətimkan tədbirləridir və təqsirləndirilən şəxsin həbsə alınması barədə məhkəmənin qərarı alındıqdan sonra onun əvəzinə seçilə bilər.~~ [233]

**Maddə 155. Qətimkan tədbirlərinin tətbiqi əsasları**

155.1. Qətimkan tədbirləri müvafiq təhqiqatçı, müstəntiq, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror və ya məhkəmə tərəfindən o hallarda tətbiq oluna bilər ki, cinayət təqibi üzrə toplanmış materiallar şübhəli və ya təqsirləndirilən şəxs tərəfindən aşağıdakı hərəkətlərin edilməsi ehtimalına kifayət qədər əsas versin:
155.1.1. cinayət prosesini həyata keçirən orqandan gizlənmək;
155.1.2. cinayət prosesində iştirak edən şəxslərə qanunsuz təsir göstərməklə, cinayət təqibi üzrə əhəmiyyət kəsb edən materialları gizlətməklə və ya saxtalaşdırmaqla ibtidai istintaqın və ya məhkəmə baxışının normal gedişinə mane olmaq;
155.1.3. cinayət qanunu ilə nəzərdə tutulmuş əməli yenidən törətmək və ya cəmiyyət üçün təhlükə yaratmaq;
155.1.4. cinayət prosesini həyata keçirən orqanın çağırışlarına üzrlü səbəblər olmadan gəlməmək və ya digər yolla cinayət məsuliyyətinə cəlb edilməkdən və cəza çəkməkdən boyun qaçırmaq;
155.1.5. məhkəmə hökmünün icra edilməsinə maneə törətmək.
155.2. Qətimkan tədbirinin seçilməsinin zəruriliyi və onlardan hansının konkret şübhəli və ya təqsirləndirilən şəxsə tətbiq edilməsi məsələsi həll edilərkən təhqiqatçı, müstəntiq, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror və ya məhkəmə aşağıdakıları nəzərə almalıdır:
155.2.1. şübhəli və ya təqsirləndirilən şəxsə istinad edilən əməlin ağırlığını, xarakterini və törədilmə şəraitini;
155.2.2. şübhəli və ya təqsirləndirilən şəxsin şəxsiyyətini, yaşını və səhhətini, məşğuliyyət növünü, ailə, maddi və sosial vəziyyətini, o cümlədən himayəsində şəxslərin və daimi yaşayış yerinin olmasını;
155.2.3. əvvəllər cinayətin törədilməsini *və qətimkan tədbirinin seçilməsini;* [234]
*155.2.4. şübhəli və ya təqsirləndirilən şəxsin zərərçəkmiş şəxslə və ya onun yaxın qohumu olan hüquqi varisi ilə barışıq əldə edib-etməməsini, cinayət nəticəsində vurulmuş ziyanın ödənilib-ödənilməməsini və digər əhəmiyyətli halları.*
*155.3. Həbs qətimkan tədbiri yalnız aşağıdakı şəxsə tətbiq oluna bilər:* [235]
*155.3.1. bu Məcəllənin 155.1.1-155.1.3-cü maddələrində nəzərdə tutulmuş hərəkətlərin qarşısını almaq məqsədi ilə, 2 (iki) ildən artıq müddətə azadlıqdan məhrum etmə növündə cəza təyin edilə bilən cinayətin törədilməsində ittiham olunan şəxsə;*
*155.3.2. cinayət prosesini həyata keçirən orqandan gizlənməsinin qarşısını almaq məqsədi ilə, 2 (iki) ilədək müddətə azadlıqdan məhrum etmə növündə cəza təyin edilə bilən cinayətin törədilməsində ittiham olunan şəxsə;*
*155.3.3 əvvəllər seçilmiş digər qətimkan tədbirinin şərtlərini pozmuş şəxsə və ya hökmün icrasını təmin etmək məqsədilə, barəsində azadlıqdan məhrum etmə növündə cəza təyin edilmiş şəxsə.*
155.4. Polisin nəzarəti altına vermə yalnız azadlıqdan məhrum etmə növündə cəza tətbiq edilə bilən cinayətin törədilməsində şübhəli və ya təqsirləndirilən şəxs barəsində seçilə bilər.
155.5. Qətimkan tədbirinin seçilməsinə zərurət olmadıqda, şübhəli və ya təqsirləndirilən şəxsdən təhqiqatçının, müstəntiqin, ibtidai araşdırmaya prosessual

rəhbərliyi həyata keçirən prokurorun və ya məhkəmənin çağırışlarına gəlməsi və onların yaşayış yerini dəyişməsi, *habelə müalicə və ya digər zərurətlə bağlı Azərbaycan Respublikası hüdudlarından kənara çıxması ilə əlaqədar əvvəlcədən* məlumat vermək barədə yazılı iltizam alınır. *Çağırış üzrə gəlmək və məlumat vermək barədə iltizama əməl edilmədikdə bu Məcəllənin 155.1-ci maddəsində nəzərdə tutulan əsasların mövcudluğu məsələsinə yenidən baxılır.*[236]

155.6. Təqsirləndirilən şəxs barəsində həbs, *ev dustaqlığı və girov* qətimkan tədbirləri seçildikdə ittihamın tam həllinədək ondan şəxsiyyətini təsdiq edən pasport və ya digər sənəd götürülür və cinayət işi üzrə icraatın materiallarına əlavə olunur. Təqsirləndirilən və ya şübhəli şəxs barəsində digər qətimkan tədbiri seçildikdə, habelə bu Məcəllənin 155.5-ci maddəsində nəzərdə tutulmuş halda, cinayət təqibi üzrə materiallara şübhəli və ya təqsirləndirilən şəxsin şəxsiyyətini təsdiq edən sənədin cinayət prosesini həyata keçirən orqanda təsdiq olunmuş surəti əlavə edilir. [237]

**Maddə 156. Qətimkan tədbirlərinin seçilməsinin ümumi qaydası**

156.1. Qətimkan tədbirləri müvafiq olaraq təhqiqatçının, müstəntiqin, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun və ya məhkəmənin qərarına əsasən seçilir. *Qətimkan tədbirinin seçilməsi barədə qərarda şəxsin şübhəli bilindiyi və ya ittiham olunduğu cinayəti törətməsinə əsaslı şübhələrin və müvafiq qətimkan tədbirinin tətbiqi əsaslarının mövcudluğuna dəlalət edən ilkin sübutlar göstərilməlidir.*[238]

156.2. Həbs və vəzifədən kənarlaşdırma müstəntiqin vəsatəti əsasında və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı, habelə cinayət işinə baxan məhkəmənin öz təşəbbüsü ilə və yalnız məhkəmənin qərarına əsasən seçilə bilər. *Ev dustaqlığı bu Məcəllənin 163-cü maddəsində nəzərdə tutulmuş qaydada məhkəmənin öz təşəbbüsü, müdafiə tərəfinin vəsatəti, habelə müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmə tərəfindən seçilir. Girov bu Məcəllənin 164-cü maddəsində nəzərdə tutulmuş qaydada yalnız müdafiə tərəfinin vəsatəti ilə məhkəmə tərəfindən seçilir.*[239]

156.3. Cinayət prosesini həyata keçirən orqan qətimkan tədbirinin seçilməsi barədə qərarı şübhəli və ya təqsirləndirilən şəxsə (axtarışda olan şəxs istisna edilməklə) dərhal elan edir və qərarın surətini ona təqdim edir.[240]

156.4. Cinayət işi üzrə icraata xitam verildiyi hallarda, şübhəli və ya təqsirləndirilən şəxs barəsində seçilmiş qətimkan tədbirləri xitam olunur.

***Maddə 156-1. Qətimkan tədbirləri üzrə elektron nəzarət vasitələrinin tətbiqi***[241]

*156-1.1. Elektron nəzarət vasitələri bu Məcəllənin 163-cü maddəsinə əsasən barəsində qətimkan tədbiri seçilmiş şəxslərə tətbiq edilir. Elektron nəzarət vasitələrinin siyahısı və tətbiqi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.*

*156-1.2. Elektron nəzarət vasitələri tətbiq edilmiş şəxsin üzərinə qoyulmuş vəzifələri yerinə yetirməsinə nəzarət müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.*

*156-1.3. Şəxsin üzərinə elektron nəzarət vasitəsini gəzdirmək və həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etmək vəzifəsi qoyulduqda, elektron nəzarət vasitəsi onun üzərinə bağlanılır və həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət qaydaları, hər hansı müdaxilənin və ya cihazın üzərindən çıxarılmasının yolverilməzliyi, həmçinin bu əməllərin hüquqi nəticələri izah edilir və bu barədə protokol tərtib edilir.*

*156-1.4. Elektron nəzarət vasitəsi tətbiq edilmiş şəxs həmin vasitəni zədələdikdə və ya digər üsulla yararsız vəziyyətə saldıqda onun dəyəri həmin şəxsdən tutulur.*

**Maddə 157. Həbs**

157.1. Təqsirsizlik prezumpsiyasına müvafiq olaraq şəxsin cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsinə aidiyyəti sübut olunmadıqda, o, həbs oluna və ya zərurət olmadıqda həbsdə saxlanıla bilməz.

157.2. Həbs qətimkan tədbiri qismində bu Məcəllənin 155.1—155.3-cü maddələrinin tələblərini nəzərə almaqla seçilə bilər.

157.3. Məhkəmə qərarına əsasən həbs olunmuş şəxs müvəqqəti saxlama yerində 24 saatdan artıq saxlanıla bilməz və *bu müddət bitənədək o,* istintaq təcridxanasına keçirilməlidir *(şəxsin nəqliyyat vasitələri ilə istintaq təcridxanasına aparılması müddəti göstərilən müddətə daxil deyildir)*.[242]

157.4. Müstəntiq, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror və ya məhkəmə eyni cinayət işi, yaxud əlaqəli bir neçə cinayət işi üzrə ittiham olunan şəxslərin ayrılıqda saxlanılması, təqsirləndirilən şəxsin digər həbs olunmuş şəxslərlə ünsiyyətinin qarşısının alınması, habelə həbs olunmuş şəxslərin saxlanılması qaydalarına zidd olmayan digər məsələlər barədə istintaq təcridxanasının müdiriyyətinə göstərişlər verə bilər.

*157.5. Həbsin qətimkan tədbiri qismində seçilməsi və ya uzadılması məsələsinə baxarkən məhkəmə təqsirləndirilən şəxsin cəmiyyətdən tam təcrid edilməsinə və ya həbsdə saxlanılmasına zərurət olmadığı qənaətinə*

*gəldikdə, onun barəsində müdafiə tərəfinin vəsatəti və ya öz təşəbbüsü ilə ev dustaqlığı, habelə müdafiə tərəfinin vəsatəti əsasında girov qətimkan tədbiri seçir.*[243]

157.6. Həbsin qətimkan tədbiri qismində seçilməsi və ya seçilməsindən imtina edilməsi barədə məhkəmənin qərarından cinayət prosesinin tərəfləri apellyasiya instansiyası məhkəməsinə şikayət verə bilərlər. Apellyasiya instansiyası məhkəməsinin bu məsələyə dair qərarı qətidir.

157.7. Həbsin qətimkan tədbiri qismində seçilməsi barədə qərar çıxarmış məhkəmə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatına əsasən bu qərarı vaxtından əvvəl dəyişməyə və ya ləğv etməyə haqlıdır.

157.8. Müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror məhkəmə tərəfindən seçilmiş həbs qətimkan tədbirinin tətbiqinə yalnız aşağıdakı hallarda xitam verə bilər:

157.8.1. təqsirləndirilən şəxsin ağır xəstəliyi ilə əlaqədar həbsdə saxlanılmasının qeyri mümkünlüyü barədə tibbi rəy olduqda;

157.8.2. təqsirləndirilən şəxsin əməlinin böyük ictimai təhlükə törətməyən cinayət kimi tövsif edilməsi barədə qərar çıxarıldıqda.

**Maddə 158. Həbsdə saxlama müddəti**

158.1. Cinayət işi üzrə məhkəməyədək icraat zamanı qətimkan tədbiri qismində həbs seçilməsi barədə qərar qəbul edərkən məhkəmə təqsirləndirilən şəxsin həbsdə saxlanılma müddətini böyük ictimai təhlükə törətməyən cinayət törədilməsinə görə 2 (iki) ay həddində, az ağır cinayət törədilməsinə görə 3 (üç) ay həddində, ağır və xüsusilə ağır cinayət törədilməsinə görə isə 4 (dörd) ay həddində müəyyən edir.[244]

158.2. Təqsirləndirilən şəxsi həbsdə saxlama müddəti şəxsin tutulma zamanı *azadlığının faktiki məhdudlaşdırıldığı vaxtdan*, o, tutulmadıqda isə həbs qətimkan tədbirinin seçilməsi barədə məhkəmə qərarının icra edildiyi andan hesablanır. Təqsirləndirilən şəxsi həbsdə saxlama müddətinə aşağıdakılar daxildir:[245]

158.2.1. tutulduğu və həbsdə saxlanıldığı müddət;

158.2.2. ev dustaqlığında saxlanıldığı müddət;

158.2.3. məhkəmənin qərarı əsasında prosessual məcburiyyət tədbirlərinin tətbiqi ilə tibb müəssisəsində stasionar ekspertizanın keçirilməsi və ya müvəqqəti xəstəliyi ilə əlaqədar saxlandığı müddət.

158.2.4. Azərbaycan Respublikasının hüdudlarından kənarda tutulduğu andan Azərbaycan Respublikasının ərazisində cinayət prosesini həyata keçirən orqana təhvil verilənədək olan müddət.[246]

158.3. Cinayət işi üzrə məhkəməyədək icraat zamanı həbsdə saxlama müddəti bu Məcəllənin 159-cu maddəsində nəzərdə tutulmuş həmin müddətlərin uzadılması halları istisna olmaqla, yuxarıda göstərilən müddətlərdən artıq ola bilməz. Şəxsin həbsdə, ev dustaqlığında və tibb müəssisəsində saxlanıldığı bütün müddətlər toplanılmaqla bütövlükdə təqsirləndirilən şəxsin həbsdə saxlanılma müddətinə hesablanır. Cinayət işi üzrə məhkəməyədək icraatda həbsdə saxlama müddətinin axımı məhkəməyə göndərilmiş cinayət işi üzrə qətimkan tədbiri ilə bağlı məsələyə baxıldığı, yaxud həbs və ya ev dustaqlığı qismində qətimkan tədbirinə xitam verildiyi gün dayandırılır.[247]

158.4. ləğv edilmişdir.[248]

158.5. ləğv edilmişdir.[249]

158.6. Cinayət işi üzrə icraatın aparılması zamanı (məhkəməyədək, habelə birinci və apellyasiya instansiyası məhkəmələrində aparılmış icraat daxil olmaqla) şəxsin həbsdə saxlanılması müddəti məhkəmə tərəfindən ona təyin olunmuş cəza müddətinə daxil edilir.

**Maddə 159. Cinayət işi üzrə məhkəməyədək icraat zamanı həbsdə saxlanılma müddətinin uzadılması**

159.1. Cinayət işi üzrə məhkəməyədək icraat zamanı təqsirləndirilən şəxsin həbsdə saxlanılması müddəti işin mürəkkəbliyi ilə əlaqədar *müstəntiqin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında* böyük ictimai təhlükə törətməyən cinayətlər üzrə 1 (bir) aydan, az ağır cinayətlər üzrə 2 (iki) aydan, ağır cinayətlər üzrə 3 (üç) aydan, xüsusilə ağır cinayətlər üzrə isə 4 (dörd) aydan artıq olmayan müddətə məhkəmə tərəfindən uzadıla bilər. [250]

159.2. Məhkəməyədək icraat zamanı işin müstəsna dərəcədə mürəkkəbliyi ilə əlaqədar həbsdə saxlanılma müddəti *bu Məcəllənin 159.3-1-ci maddəsində nəzərdə tutulmuş qaydada* az ağır cinayətlər üzrə 2 (iki) aydan, ağır cinayətlər üzrə 3 (üç) aydan, xüsusilə ağır cinayətlər üzrə isə 5 (beş) aydan artıq olmayan müddətə məhkəmə tərəfindən uzadıla bilər. [251]

159.3. *Bu Məcəllənin 159.1-ci maddəsində nəzərdə tutulmuş hallarda təqsirləndirilən* şəxsin həbsdə

saxlanılma müddətinin uzadılmasını zəruri hesab edən müstəntiq həbsdə saxlanılma müddətinin keçməsinə ən geci *6 (altı)* gün qalmış ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora müvafiq əsaslandırılmış vəsatət verir. İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror təqsirləndirilən şəxsin həbsdə saxlanılması müddətinin uzadılması zərurəti ilə razılaşdıqda, məhkəmə qərarı ilə müəyyən edilən həbsdə saxlama müddətinin keçməsinə ən geci 5 (beş) gün qalmış məhkəməyə müvafiq təqdimatla müraciət edir. Məhkəmə təqsirləndirilən şəxsin həbsdə saxlanılma müddətinin uzadılmasının zəruriliyi ilə razılaşdıqda, onun barəsində qətimkan tədbirinin seçilməsi haqqında qərarla müəyyən edilmiş həbsdə saxlanılma müddəti başa çatanadək təqsirləndirilən şəxsin həbsdə saxlanılma müddətinin uzadılması barədə qərar qəbul edir. [252]

*159.3-1. Bu Məcəllənin 159.2-ci maddəsində nəzərdə tutulmuş hallarda müstəntiq təqsirləndirilən şəxsin həbsdə saxlanılma müddətinin keçməsinə ən geci 8 (səkkiz) gün qalmış ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora müvafiq əsaslandırılmış vəsatət verir. İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror təqsirləndirilən şəxsin həbsdə saxlanılması müddətinin uzadılması zərurəti ilə razılaşdıqda, məhkəmə qərarı ilə müəyyən edilən həbsdə saxlama müddətinin keçməsinə ən geci 6 (altı) gün qalmış vəsatəti təqdimat verilməsi üçün müvafiq olaraq Azərbaycan Respublikasının Hərbi prokuroru, Naxçıvan Muxtar Respublikasının prokuroru, Bakı şəhər prokuroru və ya Azərbaycan Respublikası Baş prokurorunun müavininə göndərir. Azərbaycan Respublikasının Hərbi prokuroru, Bakı şəhər prokuroru, Naxçıvan Muxtar Respublikasının prokuroru və ya Azərbaycan Respublikası Baş prokurorunun müavini təqsirləndirilən şəxsin həbsdə saxlanılması müddətinin uzadılması zərurəti ilə razılaşdıqda, məhkəmə qərarı ilə müəyyən edilən həbsdə saxlama müddətinin keçməsinə ən geci 4 (dörd) gün qalmış məhkəməyə müvafiq təqdimatla müraciət edir. Məhkəmə təqsirləndirilən şəxsin həbsdə saxlanılma müddətinin uzadılmasının zəruriliyi ilə razılaşdıqda, onun barəsində qətimkan tədbirinin seçilməsi haqqında qərarla müəyyən edilmiş həbsdə saxlanılma müddəti başa çatanadək təqsirləndirilən şəxsin həbsdə saxlanılma müddətinin uzadılması barədə qərar qəbul edir.* [253]

159.4. Həbsdə saxlanılma müddətinin uzadılması barədə qərar qəbul edərkən həbsin ev dustaqlığı ilə əvəz edilməsi, habelə girov qoyulmaqla təqsirləndirilən şəxsin azad edilməsinin mümkünlüyü və girovun məbləğinin müəyyən edilməsi hüququ məhkəmədə saxlanılır.

159.5. Təqsirləndirilən şəxsin həbsdə saxlanılması müddətinin uzadılması barədə qərar qəbul edərkən, məhkəmə həbsdə saxlanılmanın sonrakı müddətini bu Məcəllənin 159.1 və 159.2-ci maddələrində nəzərdə tutulmuş hədlərdə müəyyən edir.

159.6. Həbsdə saxlanılma müddətinin uzadılması və ya bundan imtina edilməsi barədə məhkəmə qərarından apellyasiya instansiyası məhkəməsinə şikayət və ya protest verilə bilər. Apellyasiya instansiyası məhkəməsinin bu məsələ üzrə qərarı qətidir. [254]

159.7. Cinayət işinin məhkəməyədək icraatı zamanı təqsirləndirilən şəxsin ~~hər bir halda~~ həbsdə saxlanılmasının son müddəti bir qayda olaraq aşağıdakılardan artıq ola bilməz: [255]

159.7.1. böyük ictimai təhlükə törətməyən cinayətlər üzrə — 3 (üç) ay;

159.7.2. az ağır cinayətlər üzrə — 7 (yeddi) ay;

159.7.3. ağır cinayətlər üzrə — 10 (on) ay;

159.7.4. xüsusilə ağır cinayətlər üzrə — 13 (on üç) ay. [256]

159.8. Cinayət işi üzrə məhkəməyədək icraat zamanı toplanmış materialların həcminin böyüklüyü və ya təqsirləndirilən şəxslərin sayının çoxluğu işin istintaqını gecikdirdiyi və başqa formada çətinlik yaratdığı müstəsna hallarda təqsirləndirilən şəxsin həbsdə saxlanılmasının 159.7-ci maddədə göstərilən son müddəti *bu Məcəllənin 159.8-1-ci maddəsində nəzərdə tutulmuş qaydada* az ağır və ağır cinayətlər üzrə 3 (üç) aydan, xüsusilə ağır cinayətlər üzrə 6 (altı) aydan artıq olmayan müddətə məhkəmə tərəfindən uzadıla bilər. [257]

*159.8-1. Bu Məcəllənin 159.8-ci maddəsində nəzərdə tutulmuş hallarda müstəntiq təqsirləndirilən şəxsin həbsdə saxlanılmasının 159.7-ci maddədə göstərilən son müddətinin uzadılması barədə həbsdə saxlama müddətinin keçməsinə ən geci 10 (on) gün qalmış ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora müvafiq əsaslandırılmış vəsatət verir. İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror təqsirləndirilən şəxsin həbsdə saxlanılması müddətinin uzadılması zərurəti ilə razılaşdıqda, məhkəmə qərarı ilə müəyyən edilən həbsdə saxlama müddətinin keçməsinə ən geci 8 (səkkiz) gün qalmış vəsatəti Azərbaycan Respublikası Baş prokuroruna və ya onun birinci müavininə müraciət edilməsi üçün müvafiq olaraq Azərbaycan Respublikasının Hərbi prokuroru, Bakı şəhər prokuroru, Naxçıvan Muxtar Respublikasının prokuroru və ya Azərbaycan Respublikası Baş prokurorunun birinci müavininə təqdim edir. Azərbaycan Respublikasının Hərbi prokuroru, Bakı şəhər prokuroru, Naxçıvan Muxtar Respublikasının prokuroru və ya Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini təqsirləndirilən şəxsin həbsdə saxlanılması müddətinin uzadılması zərurəti ilə razılaşdıqda, məhkəmə qərarı ilə müəyyən edilən həbsdə saxlama müddətinin keçməsinə ən geci 6 (altı) gün qalmış təqdimatın verilməsi üçün müvafiq olaraq Azərbaycan Respublikasının Baş prokuroruna və ya onun birinci müavininə müraciət edir. Azərbaycan Respublikası Baş prokuroru və ya onun birinci müavini təqsirləndirilən şəxsin həbsdə saxlanılması müddətinin uzadılması zərurəti ilə razılaşdıqda, məhkəmə qərarı ilə müəyyən edilən həbsdə saxlama müddətinin keçməsinə ən geci 4 (dörd) gün qalmış məhkəməyə müvafiq təqdimatla müraciət edir. Məhkəmə təqsirləndirilən şəxsin həbsdə saxlanılma müddətinin uzadılmasının zəruriliyi ilə razılaşdıqda, onun barəsində qətimkan tədbirinin seçilməsi haqqında qərarla müəyyən edilmiş həbsdə saxlanılma müddəti başa çatanadək təqsirləndirilən şəxsin həbsdə saxlanılma müddətinin uzadılması barədə qərar qəbul edir.* [258]

159.9. Bu Məcəllənin 158.2.4-cü maddəsində nəzərdə tutulan hallarda təqsirləndirilən

şəxsin həbsdə saxlanılmasının 159.7-ci maddədə göstərilən son müddəti keçdikdə və ibtidai araşdırmanın davam etdirilməsi zərurəti olduqda həbsdə saxlanılma müddəti 6 (altı) aydan çox olmayan müddətə *bu Məcəllənin 159.3-cü maddəsində nəzərdə tutulmuş qaydada* məhkəmə tərəfindən uzadıla bilər. [259]

*159.10. Bu Məcəllənin 303 və ya 318.2-ci maddələrinə əsasən ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılmış cinayət işləri üzrə təqsirləndirilən şəxsin bu Məcəllənin 159.7-159.9-cu maddələrində göstərilən həbsdə saxlanılma müddətləri başa çatdıqda, məhkəmə tərəfindən həbsdə saxlanılma müddəti bu Məcəllənin 159.2-ci maddəsinin tələblərinə riayət etməklə uzadıla bilər.*[260]

*159.11. Bu Məcəllənin 159.3, 159.3-1 və 159.8-1-ci maddələrində nəzərdə tutulmuş hallarda təqsirləndirilən şəxs barəsində həbs qətimkan tədbirinin uzadılması məsələsinə baxılarkən bu Məcəllənin 292.1-1-ci maddəsində göstərilmiş müddət nəzərə alınmalıdır.*[261]

**Maddə 159-1. Həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi**[262]

*159-1.1. İstintaq təcridxanasının yerləşdiyi yaşayış məntəqəsindən uzaq yerdə istintaq hərəkətlərinin aparılması və ya həbs edilmiş şəxsin məhkəmə icraatında iştirakının təmin edilməsi zərurəti olduqda və onun hər gün gətirilib aparılması mümkün olmadıqda, həbs edilmiş şəxs məhkəməyədək icraat zamanı ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun, məhkəmə icraatı zamanı məhkəmənin əsaslandırılmış qərarı ilə 1 ayda 10 gündən artıq olmayan müddətə istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilə bilər. Həbs edilmiş şəxsin vəsatəti əsasında həmin müddət məhkəmənin əsaslandırılmış qərarı ilə məhkəmə icraatının sonunadək uzadıla bilər.* [263]

*159-1.2. İstintaq təcridxanasının yerləşdiyi yaşayış məntəqəsindən uzaq yerdə istintaq hərəkətlərinin aparılması məqsədi ilə həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsini zəruri hesab edən müstəntiq ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora bu barədə əsaslandırılmış vəsatət verir. İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror təqsirləndirilən şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi zərurəti ilə razılaşdıqda, müddəti göstərilməklə, təqsirləndirilən şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi barədə əsaslandırılmış qərar qəbul edir. İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror təqsirləndirilən şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi üçün kifayət qədər əsas olmadığı qənaətinə gəldikdə, vəsatətin rədd edilməsi barədə qərar qəbul edir.*[264]

*159-1.3. Həbs edilmiş şəxsin məhkəmə icraatında iştirakının təmin edilməsi zərurəti ilə bağlı, onun istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi məhkəmə baxışı zamanı tərəflərin vəsatəti əsasında məhkəmənin qərarı ilə həyata keçirilir.*

*159-1.4. Həbs edilmiş şəxsin məhkəməyədək icraat zamanı istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi barədə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun qərarından məhkəmə nəzarəti qaydasında şikayət verilə bilər.*[265]

*159-1.5. Həbs edilmiş şəxs istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirildikdə və geri qaytarıldıqda tibbi müayinədən keçirilir.*

*159-1.6. Həbs edilmiş şəxsin əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi məqsədi ilə istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi qadağandır.*

**Maddə 160. Himayə və əmlaka nəzarət etmə hüququ**

160.1. Valideynin və ya ailəni dolandıran şəxsin həbsə alınması, habelə cinayət prosesini həyata keçirən orqanın digər hərəkətləri nəticəsində nəzarətsiz, baxımsız qalmış və həyat üçün zəruri vəsaitlərdən məhrum olunmuş yetkinlik yaşına çatmamış, habelə əmək qabiliyyəti olmayan şəxslərin himayə olunmaq hüququ vardır və həmin orqan bu hüququ Azərbaycan Respublikasının dövlət büdcəsi vəsaiti hesabına təmin etməlidir. Əmək qabiliyyəti olmayan şəxslərin dövlət sosial müdafiə orqanına və ya tibb müəssisəsinə müvəqqəti yerləşdirilməsinin, onlara nəzarət və qulluq edilməsinin təşkil olunması barədə cinayət prosesini həyata keçirən orqanın göstərişləri qəyyumluq və himayəçilik orqanları və onların vəzifəli şəxsləri üçün məcburidir. Cinayət prosesini həyata keçirən orqan yetkinlik yaşına çatmamışları və əmək qabiliyyəti olmayan şəxsləri qohumlarının razılığı ilə onların himayəsinə etibar etməyə haqlıdır.

160.2. Həbsə alınma, habelə cinayət prosesini həyata keçirən orqanın digər hərəkətləri nəticəsində əmlakı baxımsız qalmış şəxs onun əmlakına nəzarət edilməsi hüququna malikdir. Göstərilən orqan həmin şəxsin əmlakına nəzarət edilməsi barədə xahişini onun hesabına təmin etməlidir. Şəxsin əmlakına nəzarət edilməsinin təşkili barədə cinayət prosesini həyata keçirən orqanın göstərişi müvafiq dövlət orqanları, müəssisə, idarə və təşkilatlar üçün məcburidir.

160.3. Cinayət prosesini həyata keçirən orqan bu maddəyə uyğun görülmüş tədbirlər barədə həbsdə saxlanılan şəxsə və ya digər maraqlı şəxsə təxirə salınmadan məlumat verməlidir.

***Maddə 161. İstintaq təcridxanasının müdiriyyətinin vəzifələri*** [266]

*161.1. İstintaq təcridxanasının müdiriyyətinin aşağıdakı vəzifələri vardır:*
*161.1.1. istintaq təcridxanasına gətirilmiş həbs edilmiş şəxsi qəbul etmək və dərhal aşağıdakı məlumatları qeydə almaq:*
*161.1.1.1. adı, atasının adı, soyadı, anadan olduğu tarix və yer, yaşadığı ünvan;*
*161.1.1.2. şəxsin həbs edilməsinin əsası və onun həbs edilməsi barədə qərarı qəbul etmiş orqan;*
*161.1.1.3. istintaq təcridxanasına gətirilmənin tarixi və vaxtı;*
*161.1.1.4. həbs edilmiş şəxsə məxsus olan və saxlanılmaq üçün anbara təhvil verilən əşyaların siyahısı;*
*161.1.1.5. həbs edilmiş şəxsin üzərində müşahidə olunan hər hansı bədən xəsarətləri və onun istintaq təcridxanasına daxil olanadək məruz qaldığı hər hansı işgəncə və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar barədə şikayəti;*
*161.1.1.6. həkim sirrinə aid tələblər nəzərə alınmaqla, həbs edilmiş şəxsin özünün və ya digər şəxslərin saxlanılması şəraitinə təsir göstərə biləcək psixi və fiziki pozuntuları barədə məlumatlar;* [267]
*161.1.2. həbs edilmiş şəxs istintaq təcridxanasına gətirildikdən dərhal sonra ona həbsə alındığı və harada saxlanıldığı barədə yaxın qohumlarına və ya əlaqə saxlaması onun üçün qanuni maraq doğuran digər şəxslərə telefonla və ya digər vasitələrlə məlumat vermək imkanını yaratmaq (istintaq təcridxanasının müdiriyyəti həbs edilmiş şəxsin qocalığı, yetkinlik yaşına çatmaması, sağlamlıq və psixi vəziyyəti ilə bağlı hallar istisna olmaqla, belə məlumatları öz təşəbbüsü ilə verə bilməz) əgər həbs edilmiş şəxs əcnəbi, yaxud vətəndaşlığı olmayan şəxsdirsə, onun vətəndaşı olduğu və ya daimi yaşadığı dövlətin Azərbaycan Respublikasında olan diplomatik nümayəndəliyinə və ya konsulluğuna bu barədə dərhal məlumat vermək və bu cür məlumatın verildiyini qeydə almaq;*
*161.1.3. həbs edilmiş şəxsin istintaq təcridxanasına gətirildikdən sonra təxirə salınmadan tibbi müayinədən keçirilməsini təmin etmək;*
*161.1.4. həbs edilmiş şəxsləri hüquq və vəzifələri, daxili intizam qaydaları, istintaq təcridxanasında saxlanılma rejimi, təklif, ərizə və şikayətlərin verilməsi qaydası ilə tanış etmək və onlara bu barədə izahat vermək;*
*161.1.5. həbs edilmiş şəxslərin müdafiəçisi, qanuni nümayəndəsi, yaxın qohumları ilə və ya əlaqə saxlaması onun üçün qanuni maraq doğuran digər şəxslərlə görüşlərini təmin etmək;*
*161.1.6. həbs edilmiş şəxslərin istintaq təcridxanasında şəxsi təhlükəsizliyini təmin etmək;*
*161.1.7. həbs edilmiş şəxslərin ünvanına daxil olan prosessual sənədlərin surətlərini həmin sənədlərin daxil olduğu gün, sənədlər gecə vaxtı daxil olmuşdursa, səhər saat 12-dək onlara vermək;*
*161.1.8. həbs edilmiş şəxslərin təklif, şikayət və ərizələrini qeydiyyata almaq;*
*161.1.9. həbs edilmiş şəxslərin məktub, teleqram, təklif, ərizə və şikayətlərinin qanunla müəyyən edilmiş qaydada göndərilməsini təmin etmək;*
*161.1.10. həbs edilmiş şəxslərin cinayət prosesini həyata keçirən orqana vaxtında çatdırılmasını təmin etmək;*
*161.1.11. eyni cinayət işi və ya əlaqəli bir neçə cinayət işi üzrə barəsində cinayət təqibi həyata keçirilən həbs edilmiş şəxsləri ayrılıqda saxlamaq, həbs edilmiş şəxsin digər həbs edilmiş şəxslərlə ünsiyyətinin qarşısını almaq, habelə həbs edilmiş şəxslərin qanunla müəyyən edilmiş saxlanılma rejiminə zidd olmayan digər məsələlər barədə cinayət prosesini həyata keçirən orqanın yazılı göstərişlərini yerinə yetirmək;*
*161.1.12. həbs edilmiş şəxslərin istintaq və ya digər prosessual hərəkətlərdə iştirak etməkdən imtina etməsi barədə protokol tərtib etmək;*
*161.1.13. cinayət prosesini həyata keçirən orqanın yazılı göstərişinə əsasən, həbs edilmiş şəxslərin iştirakı ilə istintaq təcridxanasında istintaq hərəkətlərinin, yaxud digər prosessual hərəkətlərin aparılmasına şərait yaratmaq;*
*161.1.14. həbs edilmiş şəxsləri məhkəmənin qərarına əsasən digər istintaq təcridxanasına köçürmək;*
*161.1.15. həbs edilmiş şəxsin telefonla danışmaq hüququnun təmin edilməsinə şərait yaratmaq;*
*161.1.16. həbs edilmiş şəxsin həbsdə saxlanılma müddətinin başa çatmasına 7 gün qalmış ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora bu barədə məlumat vermək;*
*161.1.17. həbs edilmiş şəxsin notariusun xidmətlərindən istifadə etməsinə şərait yaratmaq;*
*161.1.18. bu Məcəllənin 162-ci maddəsində nəzərdə tutulmuş hallarda həbs edilmiş şəxsi dərhal həbsdən azad etmək.*
*161.2. İstintaq təcridxanasının müdiriyyəti həbs edilmiş şəxs həbs yerinə gətirildikdən sonra keçirilmiş tibbi müayinənin nəticələrinin onun sağlamlığı barədə qeydə alınmış məlumatlara əlavə olunmasını təmin etməlidir.*
*161.3. Həbs edilmiş şəxsin prosessual hərəkətlərdə iştirak etməsi ilə əlaqədar onun barəsində aşağıdakı məlumatlar qeydə alınır:*
*161.3.1. prosessual hərəkəti həyata keçirən orqan;*
*161.3.2. prosessual hərəkətin yeri və vaxtı;*
*161.3.3. prosessual hərəkətin keçirilməsindən əvvəl və sonra müşahidə olunan bədən xəsarətləri və prosessual hərəkət zamanı yol verilən hər hansı işgəncə və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar barədə şikayət.*

**Maddə 162. Şəxsin həbsdən azad edilməsi**

162.1. Şəxs məhkəmənin qərarına əsasən aşağıdakı hallarda həbsdən azad edilməlidir:
162.1.1. təqsirləndirilən şəxsin cinayət qanunu ilə nəzərdə tutulmuş əməlinə görə ittiham təsdiq edilmədikdə və ya məhkəmədə cinayət işi üzrə icraata xitam verildikdə;
162.1.2. məhkəmə tərəfindən təqsirləndirilən şəxs barəsində seçilmiş həbs qətimkan tədbiri dəyişdirildikdə və ya ləğv edildikdə, habelə məhkuma təyin edilmiş cəza azadlıqdan məhrumetmə ilə bağlı olmadıqda; [268]
162.1.3. şəxsin həbsdə saxlanılmasına zərurət olmadığı müəyyən edildikdə.

162.2. Təqsirləndirilən şəxs müstəntiqin və ya prokurorun cinayət işi üzrə icraata xitam verilməsi barədə qərarına əsasən də həbsdən azad *edilir*.[269]

162.3. Bu Məcəllənin 162.1.1 və 162.1.2-ci maddələrində nəzərdə tutulmuş hallarda həbsdə saxlanılan şəxs məhkəmə zalında dərhal həbsdən azad olunmalıdır.

162.4. Həbs qətimkan tədbirinin ləğv edilməsi və ya dəyişdirilməsi barədə cinayət prosesini həyata keçirən orqanın qərarının surəti alındıqda, şəxs *həbs yerinin rəisi* tərəfindən dərhal həbsdən azad edilir.[270]

162.5. Cinayət prosesini həyata keçirən orqanın qərarı olmadan *həbs yerinin rəisi* müvafiq protokol tərtib etməklə aşağıdakı hallarda şəxsi həbsdən *dərhal* azad edir:[271]

162.5.1. məhkəmə qərarında müəyyən olunmuş həbsdə saxlanılma müddəti başa çatdıqda və bu müddət uzadılmadıqda;

162.5.2. bu Məcəllənin 159.7-ci maddəsində nəzərdə tutulmuş həbsdə saxlanmanın son müddəti başa çatdıqda *və həmin müddət bu Məcəllənin 159.8-159.10-cu maddələrində nəzərdə tutulmuş qaydada uzadılmadıqda*;[272]

*165.5.2-1. bu Məcəllənin 159.8-159.10-cu maddələrində nəzərdə tutulmuş qaydada uzadılmış həbsdə saxlanılma müddəti başa çatdıqda;*[273]

162.5.3. cinayət prosesini həyata keçirən orqandan şəxsin həbsdən azad edilməsi üçün məhkəmənin təyin etdiyi girovun verilməsi barədə məlumat daxil olduqda.

162.6. Şəxs həbsdən azad edildikdən sonra cinayət prosesini həyata keçirən orqana yeni əhəmiyyətli hallar məlum olduğu və ya haqqında seçilmiş qətimkan tədbiri şərtlərinin pozulduğu hallar istisna olmaqla, həbsdən azad olunmuş şəxs həmin ittiham üzrə yenidən həbs edilə bilməz.

**Maddə 163. Ev dustaqlığı**

163.1. Ev dustaqlığı qətimkan tədbiri qismində təqsirləndirilən şəxsi həbsdə saxlamadan və cəmiyyətdən tam təcrid etmədən, lakin məhkəmənin qərarı ilə müəyyən edilmiş azadlıq və digər bir sıra hüquqlara məhdudiyyətlər qoyulmasından ibarətdir.

*163.2. Ev dustaqlığı məhkəmə tərəfindən müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında, habelə həbs qətimkan tədbirinin seçilməsi və ya uzadılması məsələsinə baxılarkən müdafiə tərəfinin vəsatəti və ya məhkəmənin öz təşəbbüsü ilə seçilə bilər. Ev dustaqlığı qətimkan tədbirinin seçilməsi məsələsinə, həmçinin müdafiə tərəfinin vəsatəti əsasında həbs qətimkan tədbirinin əvəz edilməsi kimi baxıla bilər.*[274]

*163.3. Barəsində ev dustaqlığı qətimkan tədbiri seçilmiş təqsirləndirilən şəxs aşağıdakı vəzifələri yerinə yetirməlidir:* [275]

*163.3.1. yaşayış yerini tamamilə və ya günün müəyyən vaxtlarında tərk etməmək;*

*163.3.2. elektron nəzarət vasitəsini gəzdirmək və həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etmək;*

*163.3.3. məhkəmənin müəyyən etdiyi ərazi hüdudlarını tərk etməmək;*

*163.3.4. məhkəmənin müvafiq qərarı olmadan yaşayış yerini dəyişməmək.*

*163.3-1. Məhkəmə tərəfindən barəsində ev dustaqlığı qətimkan tədbiri seçilmiş təqsirləndirilən şəxs üçün aşağıdakı əlavə vəzifələr müəyyən edilə bilər:* [276]

*163.3-1.1. kütləvi və digər tədbirlər təşkil etməmək və ya belə tədbirlərdə iştirak etməmək;*

*163.3-1.2. məhkəmənin müəyyən etdiyi ərazi hüdudları daxilində müəyyən yerlərə getməmək;*

*163.3-1.3. alkoqolizmdən, narkomaniyadan, toksikomaniyadan və ya zöhrəvi xəstəliklərdən müalicə kursu keçmək;*

*163.3-1.4. müəyyən şəxslərlə ünsiyyətdə olmamaq;*

*163.3-1.5. təqsirləndirilən şəxsin lazımi davranışını və cəmiyyətdən qismən təcrid olunmasını təmin edən digər vəzifələr.*

*163.3-2. Ev dustaqlığı qətimkan tədbiri Azərbaycan Respublikası ərazisində daimi yaşayış yeri olmayan şəxslərə tətbiq edilmir.*

*163.3-3. Tibbi göstəricilərə görə təqsirləndirilən şəxs tibb müəssisəsinə stasionar müalicəyə yerləşdirildikdə ev dustaqlığı qətimkan tədbiri məhkəmə tərəfindən ləğv edilənə və ya dəyişdirilənədək bu qətimkan tədbirinin tətbiqi ilə əlaqədar təqsirləndirilən şəxsin üzərinə qoyulmuş vəzifələr qüvvəsində qalır. Bu halda ev dustaqlığı qətimkan tədbirinin icrası yeri müvafiq tibb müəssisəsi hesab edilir.*

163.4. Ev dustaqlığı, onun müddətinin müəyyən edilməsi və uzadılması, ev dustaqlığından azad etmə barədə qərarların qəbul edilməsi əsasları və qaydası bu Məcəllənin həbs qətimkan tədbirinə aid olan müddəaları ilə tənzimlənir.

163.5. Məhkəmə təqsirləndirilən şəxsin həbsdən azad edilməsi məsələsini həll edərkən ev dustaqlığının qətimkan tədbiri qismində seçilməsi və ya bundan imtina edilməsi barədə qərar qəbul edir. Ev dustaqlığı qətimkan tədbirinin seçilməsi və ya bundan imtina edilməsi barədə məhkəmənin qərarından apellyasiya instansiyası məhkəməsinə şikayət və ya protest verilə bilər. ~~İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror həmin qərarla razı olmadıqda:~~[277]

~~163.5.1. ev dustaqlığı qətimkan tədbirinin seçilməsi barədə məhkəmənin qərarı yalnız~~

~~apellyasiya instansiyası məhkəməsi tərəfindən təsdiq olunduqdan sonra qanuni qüvvəyə minir;~~[278]

~~163.5.2. bu qərarın qanuniliyi və əsaslılığı məsələsinə apellyasiya instansiyası məhkəməsində baxılanadək birinci instansiya məhkəməsinin həbs qətimkan tədbiri kimi seçdiyi qərar ev dustaqlığı məsələsi həll edilənədək qüvvədə saxlanılır.~~

163.6. Ev dustaqlığı qətimkan tədbirinin tətbiqinə bu Məcəllənin 157.8-ci maddəsində nəzərdə tutulmuş hallarda müstəntiqin və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun qərarına əsasən xitam verilə bilər.

*163.7. Barəsində ev dustaqlığı qətimkan tədbiri seçilmiş təqsirləndirilən şəxs və onun yaşayış yeri müşahidə altına alınır, onun ev dustaqlığı qətimkan tədbirinin şərtlərinə riayət etməsinə müvafiq icra hakimiyyəti orqanı tərəfindən nəzarət edilir. Barəsində ev dustaqlığı qətimkan tədbiri tətbiq edilmiş şəxsin müəyyən edilmiş vəzifələrə riayət etməməsinə dair əsaslı şübhələr olduqda müvafiq icra hakimiyyəti orqanının əməkdaşı ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun qərarı ilə təqsirləndirilən şəxsin yaşayış yerinə daxil olmaq və müəyyən edilmiş vəzifələrə əməl edilməsini yerində yoxlamaq hüququna malikdir.* [279]

*163.8. Ev dustaqlığı qətimkan tədbirinin tətbiqi ilə əlaqədar təqsirləndirilən şəxsin üzərinə qoyulmuş vəzifələrin dəyişdirilməsi və ya ləğv edilməsi, o cümlədən əlavə vəzifələrin müəyyən edilməsi müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı və ya müdafiə tərəfinin vəsatəti əsasında, habelə cinayət işinə baxan məhkəmənin öz təşəbbüsü ilə və ya tərəflərin vəsatəti əsasında yalnız məhkəmənin qərarı ilə həyata keçirilir.*

*163.9. Barəsində ev dustaqlığı qətimkan tədbiri seçilmiş təqsirləndirilən şəxs həmin qətimkan tədbirinin şərtlərini pozduğu və bu Məcəllənin 155.1.1-155.1.3-cü maddələrində nəzərdə tutulmuş əsaslar mövcud olduğu halda onun barəsində həbs qətimkan tədbiri seçilir.*

**Maddə 164. Girov**

164.1. Girov qismində qətimkan tədbiri böyük ictimai təhlükə törətməyən və ya az ağır, habelə *ictimai təhlükəliliyi yalnız maddi ziyanla bağlı olan və ya* ehtiyatsızlıq üzündən ağır cinayətləri törətməkdə ittiham olunan şəxsin ~~həbsdən azad edilməsi, lakin onun~~ cinayət prosesini həyata keçirən orqanın sərəncamında qalmasını təmin etmək məqsədi ilə məhkəmə tərəfindən müəyyən edilmiş pul məbləğini (*sənədli* qiymətli kağız) və ya digər qiymətli əşyaları dövlət bankında məhkəmənin depozitinə qoymaqdan ibarətdir. Məhkəmənin qərarı ilə girov qismində daşınmaz əmlak da qəbul edilə bilər. [280]

*164.2. Girov qətimkan tədbiri məhkəmə tərəfindən həbs qətimkan tədbirinin seçilməsi və ya uzadılması məsələsinə baxılarkən müdafiə tərəfinin vəsatəti əsasında seçilə bilər. Girov qətimkan tədbirinin seçilməsi məsələsinə, həmçinin müdafiə tərəfinin vəsatəti əsasında həbs qətimkan tədbirinin əvəz edilməsi kimi baxıla bilər. Məhkəmə girov qətimkan tədbirinin seçilməsini mümkün hesab etdikdə, girovun məbləğini müəyyən edir.*[281]

164.3. Girovun qoyulması həm təqsirləndirilən şəxsin əmlakı və vəsaiti, həm də onun yaxın qohumlarının və ya digər fiziki və hüquqi şəxslərin əmlakı və vəsaiti hesabına həyata keçirilə bilər. Girovun dəyərini sübut etmə vəzifəsi girov qoyanın üzərinə düşür.

164.4. Bu Məcəllənin 155.1 və 155.2-ci maddələrində nəzərdə tutulmuş hallardan hər hansı biri mövcuddursa, məhkəmə müvafiq motivlərə istinad edərək girov *qətimkan tədbirinin tətbiq edilməsini* qeyri-mümkün hesab edə bilər. [282]

164.5. Məhkəmə girovun məbləğini həddən artıq yüksək təyin etməməli, lakin onun məbləği, *bu Məcəllənin 164.5-1-ci maddəsi nəzərə alınmaqla,* aşağıdakılardan az olmamalıdır: [283]

164.5.1. böyük ictimai təhlükə törətməyən cinayət törədilməsinə görə verilmiş ittiham üzrə — beş min manat miqdarından; [284]

164.5.2. az ağır və ya *ictimai təhlükəliliyi yalnız maddi ziyanla bağlı olan və yaxud* ehtiyatsızlıq üzündən ağır cinayət törədilməsinə görə verilmiş ittiham üzrə — on min manat miqdarından.[285]

*164.5-1. Girovun məbləği cinayət nəticəsində vurulmuş ziyandan və ya onun ödənilməmiş hissəsindən artıq olmalıdır.*[286]

*164.6. Məhkəmə müdafiə tərəfinin vəsatəti əsasında girovun qətimkan tədbiri qismində tətbiq olunması məsələsini həll edərkən girovun qətimkan tədbiri qismində tətbiq olunması və ya bundan imtina edilməsi barədə qərar qəbul edir. Həmin qərardan apellyasiya instansiyası məhkəməsinə şikayət və ya protest verilə bilər.* [287]

164.7. Məhkəmə təqsirləndirilən şəxs barəsində həbs qətimkan tədbirini girovla əvəz etdikdə, girovun müəyyən edilmiş məbləği dövlət bankında məhkəmənin depozitinə köçürülməyənədək təqsirləndirilən şəxs həbsdə saxlanılır. Cinayət prosesini həyata keçirən orqan girovun qoyulduğunu təsdiq edən sübut əldə etdikdə məhkəmənin qanuni qüvvəyə minmiş qərarından sonra təqsirləndirilən şəxsin dərhal həbsdən azad edilməsi barədə *həbs yerinin rəisinə* məlumat verir.[288]

164.8. Təqsirləndirilən şəxs cinayət prosesini həyata keçirən orqandan gizləndiyi, onun icazəsi olmadan başqa yerə getdiyi və ya digər yolla cinayət məsuliyyətinə cəlb edilməkdən və cəza çəkməkdən boyun qaçırdığı halda ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata

keçirən prokuror girovun dövlət nəfinə keçirilməsi barədə təqdimatla məhkəməyə müraciət edir. Girov qoyan bu girovun dövlətin nəfinə keçirilməsi barədə məhkəmə qərarından apellyasiya instansiyası məhkəməsinə şikayət edə bilər.

164.9. Məhkəmənin hökmü qanuni qüvvəyə mindikdən sonra, habelə bu Məcəllənin 164.8-ci maddəsində nəzərdə tutulmuş pozuntuların sübut olunmadığı və ya girov qətimkan tədbirinin ləğv edildiyi, yaxud dəyişdirildiyi bütün hallarda girov onu qoymuş şəxsə qaytarılmalıdır. Girovun qaytarılması barədə qərar məhkəmə tərəfindən hökmlə və ya qətimkan tədbirinin dəyişdirilməsi, yaxud ləğv edilməsi barədə qərarla bir vaxtda çıxarılır.

164.10. Bu Məcəllənin 164.8-ci maddəsində nəzərdə tutulmuş halda girovun dövlət nəfinə keçirilməsi ilə eyni vaxtda ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmə girovu həbslə əvəz edir.

~~164.11. Girov qismində qətimkan tədbirinin tətbiqinə bu Məcəllənin 157.8-ci maddəsində nəzərdə tutulmuş hallarda müstəntiqin və ya prokurorun qərarına əsasən xitam verilə bilər.~~ [289]

**Maddə 165. Başqa yerə getməmək haqqında iltizam**

165.1. Başqa yerə getməmək haqqında iltizam qətimkan tədbiri qismində şübhəli və ya təqsirləndirilən şəxsin cinayət prosesini həyata keçirən orqanın sərəncamında olacağı, həmin orqanın icazəsi olmadan başqa yerə getməyəcəyi, ondan gizlənməyəcəyi, cinayətkar fəaliyyətlə məşğul olmayacağı, təhqiqata, istintaqa və məhkəmə baxışına maneçilik törətməyəcəyi, təhqiqatçının, müstəntiqin, prokurorun və ya məhkəmənin çağırışlarına gələcəyi və yaşayış yerini dəyişməsi haqqında onlara məlumat verəcəyi barədə yazılı öhdəliyindən ibarətdir.

165.2. Başqa yerə getməmək haqqında iltizamı şübhəli və ya təqsirləndirilən şəxsdən cinayət prosesini həyata keçirən orqan alır.

**Maddə 166. Şəxsi zaminlik**

166.1. Şəxsi zaminlik qətimkan tədbiri qismində şübhəli və ya təqsirləndirilən şəxsin ictimai qaydaya riayət edəcəyi, cinayət prosesini həyata keçirən orqanın çağırışlarına gələcəyi və digər prosessual vəzifələri icra edəcəyi də daxil olan müvafiq davranışlarına dair fiziki şəxslərin zamin durmaları barədə yazılı öhdəlikdən ibarətdir.

166.2. Şəxsi zamin kimi yalnız yetkinlik yaşına çatmış, etibar oluna bilən, götürdüyü öhdəliyi yerinə yetirmədikdə beş yüz əlli manat miqdarında tutula bilən cəriməni qabaqcadan dövlət bankında məhkəmənin depozitinə keçirmiş Azərbaycan Respublikasının vətəndaşları çıxış edə bilərlər. [290]

166.3. Şəxsi zaminlərin sayını cinayət prosesini həyata keçirən orqan 2-dən 5-dək şəxs həddində müəyyən edir.

166.4. Şəxsi zaminin hüquq və vəzifələri, habelə onların həyata keçirilmə qaydası bu Məcəllənin 168-ci maddəsində nəzərdə tutulmuşdur.

**Maddə 167. Təşkilatın zaminliyi**

167.1. Təşkilatın zaminliyi qətimkan tədbiri qismində Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq dövlət qeydiyyatından keçmiş etibar oluna bilən hüquqi şəxsin öz nüfuzu və şübhəli və ya təqsirləndirilən şəxsin ictimai qaydaya riayət edəcəyi, cinayət prosesini həyata keçirən orqanın çağırışlarına gələcəyi və digər prosessual vəzifələri icra edəcəyi də daxil olan müvafiq davranışına dair götürdüyü öhdəliyi yerinə yetirmədikdə min yüz manat tutula bilən cəriməni qabaqcadan dövlət bankında məhkəmənin depozitinə keçirdiyi pul məbləği ilə zamin durması barədə yazılı öhdəlikdən ibarətdir. [291]

167.2. Zamin kimi çıxış edən təşkilatın hüquq və vəzifələri, habelə onların həyata keçirilmə qaydası bu Məcəllənin 168-ci maddəsində nəzərdə tutulmuşdur.

**Maddə 168. Zaminliyin həyata keçirilməsi qaydası**

168.1. Zaminin etibarlı olduğunu, habelə şəxsi zaminlik və ya təşkilatın zaminliyi qismində qətimkan tədbirlərinin şübhəli və ya təqsirləndirilən şəxs barəsində seçilməsinin mümkünlüyünü yəqin edən cinayət prosesini həyata keçirən orqan ərizəçini, o cümlədən hüquqi şəxsin nümayəndəsini şübhənin və ya ittihamın məzmunu ilə tanış edir, zaminə hüquq və vəzifələrini izah edir və zaminə məsuliyyət barədə xəbərdarlıq edir. Bundan sonra ərizəçi öz xahişini təsdiq və ya ondan imtina edə bilər.

168.2. Bu Məcəllənin 168.1-ci maddəsində nəzərdə tutulmuş prosessual hərəkətlər protokolda göstərilir. Şəxsi zaminlik və ya təşkilatın zaminliyi qismində qətimkan tədbiri seçildiyi halda, zamin haqqında məlumatlar cinayət prosesini həyata keçirən orqanın qərarında göstərilir. Müvafiq qərarın surəti gecikdirilmədən zaminə verilir.

168.3. Zamin cinayət işi üzrə icraatın istənilən anında zaminlikdən imtina edə bilər.

Zaminlikdən imtinanın səbəblərini şübhəli və ya təqsirləndirilən şəxsin cinayət qanunu ilə nəzərdə tutulmuş yeni və ya daha ağır əməldə ittiham edilməsi; zaminliyin qəbulu anında zaminin bilmədiyi və bilməsi mümkün olmadığı əhəmiyyətli halların aşkar olunması; özünün başqa yerə getməsi, yaxud ağır xəstələnməsi, habelə zamin durmuş təşkilatın fəaliyyətinə xitam verilməsi, şübhəli va ya təqsirləndirilən şəxsin başqa yerə getməsi və ya başqa təşkilata keçməsi üzündən, zaminin şübhəli və ya təqsirləndirilən şəxsin sonrakı davranışına görə cavab vermək imkanı olmayan hallarda, cərimənin təmin olunması üçün qoyulmuş pul məbləği cinayət prosesini həyata keçirən orqan tərəfindən zaminə qaytarılır.

168.4. Zamin tutula biləcək cərimənin tətbiqinin təmin olunması üçün qoyduğu pul məbləğini aşağıdakı hallarda da geri almaq hüququna malikdir:

168.4.1. Cinayət prosesini həyata keçirən orqan qətimkan tədbirini şübhəli və ya təqsirləndirilən şəxsin müvafiq davranış qaydalarını pozması ilə əlaqədar olmayan səbəbdən dəyişdirdikdə;

168.4.2. cinayət prosesini həyata keçirən orqan şəxsi zaminlik və ya təşkilatın zaminliyi qismində qətimkan tədbirini ləğv etdikdə;

168.4.3. zamin fəaliyyət qabiliyyətini itirdikdə.

168.5. Zaminin qoyduğu pul məbləği aşağıdakı hallarda cinayət prosesini həyata keçirən orqanın qərarı ilə dövlət nəfinə keçirilir:

168.5.1. şübhəli və ya təqsirləndirilən şəxsin müvafiq davranışının təmin olunmasına dair öhdəliyi yerinə yetirmədikdə;

168.5.2. zaminlikdən özbaşına imtina etdikdə.

168.6. Zaminin qoyduğu pul məbləğinin dövlətin nəfinə keçirilməsi barədə qərardan məhkəmə qaydasında şikayət verilə bilər.

**Maddə 169. Polisin nəzarəti altına vermə**

169.1. Polisin nəzarəti altına vermə qətimkan tədbiri qismində bu maddədə müəyyən olunmuş hüquqi məhdudiyyətlərin şübhəli və ya təqsirləndirilən şəxsə tətbiqindən ibarətdir.

169.2. Polisin nəzarətində olan şübhəli və ya təqsirləndirilən şəxs təhqiqatçının, müstəntiqin, prokurorun və ya məhkəmənin icazəsi olmadan başqa yerə gedə, habelə müvafiq yaşayış məntəqəsi hüdudlarında daimi yaşayış yerini və ya müvəqqəti olduğu yeri dəyişə bilməz. O, polisin müəyyən etdiyi cədvəl üzrə polis orqanına gəlməli və gəlişini qeyd etdirməlidir. Şübhəli və ya təqsirləndirilən şəxs davranışına nəzarəti həyata keçirmək üçün istənilən anda polis orqanına çağırıla bilər. Bu məqsədlə polisin müvafiq əməkdaşları şübhəli və ya təqsirləndirilən şəxsin iradəsinin əksinə olduqda da onun mənzilinə gəlməyə haqlıdırlar.

169.3. Polisin nəzarəti altına vermə qismində qətimkan tədbirinin seçilməsi barədə cinayət prosesini həyata keçirən orqanın qərarı icra edilməsi üçün şübhəli və ya təqsirləndirilən şəxsin yaşayış yeri üzrə polis orqanına göndərilir. Polis orqanı göstərilən qərarı qəbul etdikdən sonra 24 saat müddətində şübhəli və ya təqsirləndirilən şəxsi çağırmalı, onu qeydiyyata almalı və nəzarətin tətbiqinə başlanması barədə cinayət prosesini həyata keçirən orqana məlumat verməlidir.

**Maddə 170. *Yetkinlik yaşına çatmayanı nəzarət* altına vermə**[292]

170.1. *Yetkinlik yaşına çatmayanı nəzarət* altına vermə qismində qətimkan tədbiri yetkinlik yaşına çatmamış şübhəli və ya təqsirləndirilən şəxsin valideynlərinin, qəyyumlarının, himayəçilərinin, yaxud onun saxlandığı qapalı uşaq müəssisəsi müdiriyyətinin üzərinə yetkinlik yaşına çatmamış şübhəli və ya təqsirləndirilən şəxsin ictimai qaydaya riayət etməsi, cinayət prosesini həyata keçirən orqanın çağırışına gəlməsi və digər prosessual vəzifələri icra etməsi də daxil olan davranışını təmin etmə vəzifəsinin qoyulmasından ibarətdir.

170.2. Yetkinlik yaşına çatmamış şəxsin nəzarət altına verilməsindən əvvəl təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə valideynlərin, qəyyumların, yaxud himayəçilərin şəxsiyyəti, onların yetkinlik yaşına çatmamış şəxsə qarşı münasibətləri barədə məlumat toplamalı, şübhəli və ya təqsirləndirilən şəxsi lazımi nəzarət altında saxlamalarını həyata keçirmək iqtidarında olduqlarını yəqin etməlidir.

170.3. *Yetkinlik yaşına çatmayanı* nəzarət altına vermə qismində qətimkan tədbirinin seçilməsinin mümkünlüyünü yəqin edən cinayət prosesini həyata keçirən orqan müvafiq qətimkan tədbirinin seçilməsinə dair qərar çıxarır. O, valideynləri, qəyyumları, himayəçiləri və ya uşaq müəssisəsinin nümayəndəsini *həmin* qərarla tanış edir və qərarın surətini onlara təqdim edir, habelə protokolda göstərilməklə onları şübhənin və ya ittihamın məzmunu ilə tanış, hüquq və vəzifələrini izah, məsuliyyət barədə xəbərdar edir. [293]

170.4. Valideynlər, qəyyumlar, himayəçilər yetkinlik yaşına çatmamış şübhəli və ya təqsirləndirilən şəxsin üzərində nəzarəti həyata keçirmək vəzifələrindən xəstəliyi, ailədə qarşılıqlı münasibətin pisləşməsi, bu şəxslərin lazımi davranışını təmin etmə imkanını istisna edən digər səbəblər üzündən azad olunmalarını xahiş etməyə haqlıdırlar.

170.5. Nəzarəti həyata keçirməli olan şəxslər qarşısı alınmayan qüvvənin təsirini sübut etdikləri hallar istisna olmaqla, şübhəli və ya təqsirləndirilən şəxsin davranışına nəzarəti həyata keçirmək imkanından məhrum olunduqlarına istinad etməyə haqlı deyillər.

170.6. Nəzarəti həyata keçirməli olan şəxslər xəbərdarlıq üçün haqqında nəzarət altına vermə qismində qətimkan tədbiri seçilmiş şübhəli və ya təqsirləndirilən şəxsin lazımi qaydada davranmaması barədə cinayət prosesini həyata keçirən orqana məlumat verməlidirlər.

170.7. Nəzarəti həyata keçirməli olan və bu vəzifələrini yerinə yetirməyən təqsirli şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş məsuliyyət daşıyırlar.

*170.8. Barəsində yetkinlik yaşına çatmayanı nəzarət altına vermə qətimkan tədbiri seçilmiş şəxs 18 yaşına çatdıqda və nəzarəti həyata keçirməli olan şəxslər onu lazımi nəzarət altında saxlamaq vəzifəsini davam etdirmək iqtidarında olduqlarını bildirdikdə qətimkan tədbiri dəyişdirilmir.*[294]

**Maddə 171. Komandanlığın müşahidəsi altına vermə**

171.1. Komandanlığın müşahidəsi altına vermə qətimkan tədbiri qismində şübhəli və ya təqsirləndirilən şəxsin xidmət etdiyi və ya toplanışlar keçdiyi hərbi hissə və ya birləşmə komandirinin, hərbi müəssisə rəisinin üzərinə bu şəxsin ictimai qaydaya riayət etməsi, cinayət prosesini həyata keçirən orqanın çağırışına gəlməsi və digər vəzifələri icra etməsi də daxil olan davranışını təmin etmə vəzifəsinin qoyulmasından ibarətdir.

171.2. Şübhəli və ya təqsirləndirilən şəxs barəsində komandanlığın müşahidəsi altına vermə qismində qətimkan tədbirinin seçilməsinin mümkünlüyünü yəqin edən cinayət prosesini həyata keçirən orqan müvafiq qətimkan tədbirinin seçilməsi barədə qərar çıxarır. O, komandanlığın nümayəndəsini qətimkan tədbirinin seçilməsi barədə qərarla tanış edir və qərarın surətini ona təqdim edir, habelə protokolda göstərilməklə onu şübhənin və ya ittihamın məzmunu ilə tanış, hüquq və vəzifələrini izah, məsuliyyət barədə xəbərdar edir.

171.3. Komandanlıq tabeliyində olan şəxsə qarşı müşahidə və onun lazımi davranışını təmin etmək üçün ümumqoşun nizamnamələrində nəzərdə tutulmuş müvafiq tədbirləri görməyə haqlıdır.

171.4. Şübhəli və ya təqsirləndirilən şəxs barəsində komandanlığın müşahidəsi altına vermə qismində qətimkan tədbirinin seçildiyi dövrdə o, qarovulun və döyüş növbətçiliyinin aparılması üçün təyin olunmur, sülh dövründə silah gəzdirmək hüququndan məhrum edilir, zabit, gizir və miçman olmayan hərbi qulluqçular isə bundan əlavə hərbi hissənin yerləşdiyi ərazidən kənarda təkbaşına işləməyə göndərilmir, habelə hissənin yerləşdiyi ərazidən kənara buraxılmırlar.

171.5. Müşahidəni icra edən komandanlıq qarşısı alınmayan qüvvənin təsirini sübut etdiyi hallar istisna olmaqla, şübhəli və ya təqsirləndirilən şəxsin davranışına nəzarəti həyata keçirə bilmək imkanından məhrum olunduğuna istinad etməyə haqlı deyil.

171.6. Şübhəli və ya təqsirləndirilən şəxsin müşahidə altına verildiyi komandanlıq tabeliyində olan bu şəxslərin lazımi qaydada davranmaması barədə cinayət prosesini həyata keçirən orqana məlumat verməlidir.

171.7. Müşahidə aparmalı olan və bu vəzifələrini yerinə yetirməyən təqsirli şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş məsuliyyət daşıyırlar.

**Maddə 172. Vəzifədən kənarlaşdırma**

172.1. Vəzifədən kənarlaşdırma qətimkan tədbiri qismində şübhəli və ya təqsirləndirilən şəxsin öz vəzifə səlahiyyətlərini icra etməsinə, yerinə yetirdiyi işi, yaxud məşğul olduğu fəaliyyəti davam etdirməsinə qadağan qoyulmasından ibarətdir.

172.2. Şübhəli və ya təqsirləndirilən şəxs barəsində vəzifədən kənarlaşdırma qismində qətimkan tədbirinin seçilməsi üçün kifayət qədər əsaslar olduqda, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror göstərilən şəxsə 3 (üç) gün müddətində vəzifə səlahiyyətlərini icra etməyi, yerinə yetirdiyi işi, yaxud məşğul olduğu fəaliyyəti davam etdirməyi əsaslandırılmış qərarı ilə qadağan edə bilər. Eyni vaxtda ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror məhkəməyə şübhəli və ya təqsirləndirilən şəxs barəsində vəzifədən kənarlaşdırma qismində qətimkan tədbirinin seçilməsi barədə təqdimat göndərir.

172.3. Vəzifədən kənarlaşdırma qismində qətimkan tədbirinin seçilməsi barədə məhkəmə qərarının surəti dərhal icra edilməsi üçün şübhəli və ya təqsirləndirilən şəxsin iş yerinin müdiriyyətinə göndərilir və o, qərarın surətini aldığı andan şübhəli və ya təqsirləndirilən şəxsin qadağan edilmiş işlə məşğul olmasına, yaxud fəaliyyətini həyata keçirməsinə imkan verməyə haqlı deyil.

**Maddə 173. Qətimkan tədbirlərindən şikayət verilməsi**

173.1. Şübhəli və ya təqsirləndirilən şəxs, onun müdafiəçisi və qanuni nümayəndəsi, cinayət prosesinin digər maraqlı iştirakçıları cinayət prosesini həyata keçirən orqanın qətimkan tədbirinin seçilməsi və ya dəyişdirilməsi barədə qərarından ibtidai araşdırmaya

prosessual rəhbərliyi həyata keçirən prokurora, yaxud məhkəməyə şikayət edə bilərlər.

173.2. Məhkəməyədək icraat zamanı hallar istisna olmaqla, qətimkan tədbirinin seçilməsi barədə məhkəmə qərarından apellyasiya instansiyası məhkəməsinə şikayət verilə bilməz.

**Maddə 174. Qətimkan tədbirinin təsdiq edilməsi**

174.1. Cinayət işini icraata qəbul etmiş təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror əvvəlcə digər şəxslər (hakimlər istisna olmaqla) tərəfindən tətbiq edilmiş qətimkan tədbirinin qanuniliyini və dəyişdirilmədən saxlanılmasının zəruriliyini yoxlamalı və müvafiq qərar çıxarmalıdır (təhqiqatçı və müstəntiqin prokurorun qərarını yoxlamaq səlahiyyəti yoxdur).

174.2. Məhkəmə ibtidai istintaqı başa çatmış işi öz icraatına qəbul etdikdən sonra məhkəməyədək icraatın gedişində tətbiq edilmiş qətimkan tədbirini öz qərarı ilə təsdiq və ya ləğv edir, yaxud dəyişdirir.

**Maddə 175. Qətimkan tədbirinin dəyişdirilməsi, ləğvi və ya ona xitam verilməsi**

175.1. Qətimkan tədbiri cinayət prosesini həyata keçirən orqan tərəfindən öz səlahiyyəti daxilində, bunun zəruriliyi sübutlarla təsdiq olunduqda daha ciddi qətimkan tədbiri ilə, cinayət işi üzrə icraatın gedişində şübhəli və ya təqsirləndirilən şəxsin lazımi qaydada davranışının və hökmün icrasının təmin edilməsinə nail olmaq mümkün olduğu halda isə daha yüngül qətimkan tədbiri ilə əvəz edilə bilər. [295]

175.2. Qətimkan tədbirinin tətbiqinə zərurət aradan qalxdıqda cinayət prosesini həyata keçirən orqan öz səlahiyyəti daxilində onu ləğv edir.

175.3. Məhkəmənin həbs, ev dustaqlığı və ya girov qismində seçdiyi qətimkan tədbiri yalnız məhkəmə tərəfindən dəyişdirilə və ya ləğv oluna bilər. Bu Məcəllənin 157.8 *və 163.6-cı maddələrində nəzərdə tutulmuş hallarda məhkəmə tərəfindən seçilmiş həbs və ya ev dustaqlığı* qətimkan tədbirinin tətbiqinə müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror xitam verə bilər. [296]

175.4. Həbs qismində qətimkan tədbirini ləğv edən və ya dəyişdirən, habelə tətbiqinə xitam verən cinayət prosesini həyata keçirən orqan *həbs yerinin rəisinə* bu barədə həmin gün məlumat verir və müvafiq qərarın surətini ona göndərir.[297]

175.5. Müvafiq qətimkan tədbiri onun ləğvindən, dəyişdirilməsindən, habelə şübhəli və ya təqsirləndirilən şəxsin barəsində cinayət təqibinə xitam verildikdən və ya məhkuma təyin edilən cəza icraya yönəldikdən sonra qüvvədən düşmüş sayılır.

## XVIII fəsil

## Cinayət prosesində digər prosessual məcburiyyət tədbirlərinin tətbiqi

**Maddə 176. Prosessual hərəkətlərin aparılması üçün tətbiq olunan məcburiyyət tədbirləri**

Bu Məcəllənin 147 və 154-cü maddələrində nəzərdə tutulmuş prosessual məcburiyyət tədbirlərindən başqa, cinayət prosesini həyata keçirən orqan sübutların əldə edilməsinə mane olan halları müəyyən etdikdə prosessual hərəkətlərin aparılması üçün digər məcburiyyət tədbirləri tətbiq edə bilər. Bu Məcəllənin 444.1.4 və 444.2-ci maddələrində nəzərdə tutulmuş hallarda prosessual məcburiyyət tədbirləri məhkəmənin qərarı əsasında tətbiq olunur.

**Maddə 177. İstintaq hərəkətlərinin məcburi aparılması hüququ**

177.1. Cinayət prosesini həyata keçirən orqan istintaqın normal gedişini təmin etmək üçün istintaq hərəkətini məcburi apara bilər, onun iştirakçılarının bu hərəkətin başlanmasını gözləmələri və onun aparıldığı yeri tərk etməmələri üçün tədbirlər görə bilər.

177.2. İstintaq hərəkətinin aparılmasına müvafiq şəxs tərəfindən icazə verilmədiyi və onun məcburi aparılması üçün məhkəmənin qərarı tələb olunduğu halda, müstəntiqin əsaslandırılmış vəsatəti ilə razı olan ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror məhkəməyə təqdimatla müraciət edir.

177.3. Aşağıdakı istintaq hərəkətlərinin məcburi aparılması üçün bir qayda olaraq məhkəmə qərarının alınması tələb olunur:

177.3.1. yaşayış yerinə, xidməti və ya istehsalat binalarına baxış, axtarış, götürmə və digər istintaq hərəkətlərinin aparılması;

177.3.2. tutulmuş və ya həbs edilmiş şəxsdən başqa, şəxsin iradəsinə zidd olaraq onun şəxsi müayinəsi;

177.3.3. əmlak üzərinə həbs qoyulması;

177.3.4. poçt, teleqraf və digər göndərişlərin üzərinə həbs qoyulması;

177.3.5. telefon və digər qurğularla aparılan danışıqların, rabitə və digər texniki vasitələrlə ötürülən məlumatların ələ keçirilməsi;
177.3.6. maliyyə əməliyyatları, bank hesablarının vəziyyəti və vergilərin ödənilməsi barədə məlumatlar daxil olmaqla, şəxsi, ailə, dövlət, kommersiya və ya peşə sirrini təşkil edən məlumatların ələ keçirilməsi;
177.3.7. meyitin qəbirdən çıxarılması (ekshumasiya).
177.3.8. cinayət yolu ilə əldə edilmiş ~~pul vəsaitlərinin və ya digər~~ əmlakın leqallaşdırılması və ya terrorçuluğun maliyyələşdirilməsinə şübhə yaradan əməliyyatların icrasının dayandırılması. [298]
177.4. Baxış, axtarış və götürmə istisna edilməklə yaşayış yerində, xidməti və istehsalat binalarında digər istintaq hərəkətləri, habelə bu Məcəllənin 177.3.6 və 177.3.7-ci maddələrində nəzərdə tutulmuş istintaq hərəkətləri yalnız məhkəmənin qərarı əsasında aparıla bilər. Müstəntiq müvafiq məhkəmə qərarı olmadan öz qərarı əsasında aşağıdakı istintaq hərəkətlərini məcburi apara bilər:
177.4.1. yaşayış yerində, xidməti və ya istehsalat binalarında baxış, axtarış və ya götürmə aparılması — bu Məcəllənin 243.3-cü maddəsində nəzərdə tutulmuş əsaslar və hallar olduqda;
177.4.2. şəxsi müayinə aparılması — bu Məcəllənin 238-2-ci maddəsində nəzərdə tutulmuş hallarda;
177.4.3. əmlak üzərinə həbs qoyulması — bu Məcəllənin 249.5-ci maddəsində nəzərdə tutulmuş hallarda;
177.4.4. poçt, teleqraf və digər göndərişlərin üzərinə həbs qoyulması, habelə telefon və digər qurğularla aparılan danışıqların, rabitə və digər texniki vasitələrlə ötürülən məlumatların ələ keçirilməsi — şəxsiyyət və ya dövlət hakimiyyəti əleyhinə olan ağır və ya xüsusilə ağır cinayətlər üzrə sübutların müəyyən edilməsi üçün təxirə salına bilməyən hallar yarandıqda.
177.4.5. cinayət yolu ilə əldə edilmiş ~~pul vəsaitlərinin və ya digər~~ əmlakın leqallaşdırılması və ya terrorçuluğun maliyyələşdirilməsinə şübhə yaradan əməliyyatların icrasının dayandırılması — ~~pul vəsaitləri və ya digər~~ əmlakla əməliyyatın terrorçuluğun maliyyələşdirilməsinə yönəlməsini və ya cinayət yolu ilə əldə edilmiş ~~pul vəsaitlərinin və ya digər~~ əmlakın leqallaşdırılmasını güman etməyə kifayət qədər əsas verən təxirə salına bilməyən hallar yarandıqda. [299]
177.5. Bu Məcəllənin 177.3.1-177.3.5 və 177.3.8-ci maddələrində nəzərdə tutulmuş istintaq hərəkətləri təxirə salına bilməyən hallarda müstəntiqin əsaslandırılmış qərarı ilə aparılmışdırsa, müstəntiq bu Məcəllənin 443.2-ci maddəsində nəzərdə tutulmuş vəzifələri yerinə yetirməlidir. Müstəntiqin qərarı istintaq hərəkətinin məhkəmənin qərarı olmadan aparılmasının zəruriliyi və təxirə salına bilməməyi əsaslandırılmaqla bu Məcəllənin 446.2-ci maddəsinin tələblərinə uyğun olaraq tərtib edilir. [300]
177.6. Yaşayış, xidməti və ya istehsalat yerində müvafiq olaraq yaşayan, işləyən və ya həmin yerin sahibi olan şəxsin dəvəti, yaxud onun icazəsi ilə müstəntiq tərəfindən bu Məcəllənin 177.3.1-ci maddəsində nəzərdə tutulmuş istintaq hərəkətlərinin aparılması üçün məhkəmə qərarının alınması tələb edilmir.

### Maddə 178. Məcburi gətirilmə

178.1. Məcburi gətirilmə şəxsin cinayət prosesi aparan orqana məcburi çatdırılmasından, habelə istintaq və ya digər prosessual hərəkətlərin aparılmasında onun iştirakının məcburi təmin edilməsindən ibarətdir.
178.2. Məcburi gətirilmə cinayət prosesində iştirak edən və cinayət prosesini həyata keçirən orqana çağırılan şəxsə yalnız aşağıdakı hallarda tətbiq edilə bilər:
178.2.1. cinayət prosesini həyata keçirən orqanın məcburi çağırışlarına üzürlü səbəb olmadan gəlmədikdə;
178.2.2. cinayət prosesini həyata keçirən orqanın çağırışlarını almaqdan boyun qaçırdıqda;
178.2.3. cinayət prosesini həyata keçirən orqandan gizləndikdə;
178.2.4. daimi yaşayış yeri olmadıqda.
178.3. 14 yaşınadək olan şəxslərin, hamilə qadınların, ağır xəstələrin, habelə xüsusi ittihamçının məcburi gətirilməsinə yol verilmir.
178.4. Məcburi gətirilmə cinayət prosesini həyata keçirən orqanın əsaslandırılmış qərarı və ya cinayət prosesi iştirakçılarının vəsatəti ilə məhkəmənin qərarı əsasında həyata keçirilir.
178.5. Məcburi gətirilmə barədə qərar təhqiqat orqanı və ya qanunla üzərinə bu vəzifə qoyulmuş digər orqan tərəfindən icra olunur.

## Beşinci bölmə

## Cinayət mühakimə icraatında əmlak məsələləri

## XIX fəsil

## Cinayət mühakimə icraatında mülki iddia

### Maddə 179. Mülki iddia üzrə tətbiq edilən qanunvericilik

179.1. Cinayət mühakimə icraatında mülki iddia bu Məcəllənin müddəaları ilə müəyyən edilmiş qaydalara əsasən verilir, sübut və həll olunur.

179.2. Mülki prosessual qanunvericiliyin normaları cinayət mühakimə icraatının prinsiplərinə zidd olmadıqda və mülki iddia üzrə icraatda zəruri olan qaydalar bu Məcəllədə nəzərdə tutulmadıqda mülki prosessual qanunvericiliyin normalarının tətbiqinə yol verilir.

179.3. Mülki iddia üzrə qərar iddianın predmetindən asılı olaraq mülki qanunvericiliyin və digər qanunvericilik sahələrinin normalarına uyğun qəbul edilir.

179.4. Cinayət mühakimə icraatında mülki iddiaya mülki hüquq və hüququn digər sahələri üçün müəyyən edilmiş iddia müddəti tətbiq edilmir.

### Maddə 180. Mülki iddia üzrə məhkəmənin qanuni qüvvəyə minmiş hökmünün və ya qərarının əhəmiyyəti

180.1. Eyni tərəflər arasında və eyni predmet üzrə mübahisəyə dair eyni əsaslarla qəbul edilmiş mülki iddia haqqında, mülki iddiaçının iddiadan imtina etməsinin qəbul olunması haqqında və ya barışıq sazişinin təsdiq edilməsi haqqında qanuni qüvvəyə minmiş məhkəmə qərarının olması, habelə iddianın rədd edilməsini, yaxud tamamilə və ya qismən təmin edilməsini nəzərdə tutan qanuni qüvvəyə minmiş məhkəmə hökmünün olması yenidən mülki iddia verilməsini istisna edir.

180.2. Şəxs cinayət mühakimə icraatı zamanı mülki iddia verməmişsə, o, mülki mühakimə icraatı qaydasında mülki iddia verməyə haqlıdır.

180.3. Cinayət mühakimə icraatı zamanı verilmiş, lakin məhkəmə tərəfindən baxılmadan saxlanılmış mülki iddia sonradan mülki mühakimə icraatı qaydasında verilə bilər.

### Maddə 181. Mülki iddia vermək hüququ olan şəxslər

181.1. Əmlakına vurulmuş ziyana görə fiziki və hüquqi şəxs cinayət mühakimə icraatı zamanı aşağıdakı hallarda mülki iddia verməyə haqlıdır:

181.1.1. ziyan bilavasitə cinayət qanunu ilə nəzərdə tutulmuş əməllə vurulduqda;

181.1.2. ziyan cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsi ilə əlaqədar vurulduqda.

181.2. Bilavasitə cinayət qanunu ilə nəzərdə tutulmuş əməllə fiziki və ya hüquqi şəxsə maddi ziyan vurulduqda o, ziyanın ödənilməsi barədə mülki iddia verməklə aşağıdakıları edə bilər:

181.2.1. itirilmiş və ya zədələnmiş əmlakın dəyərinin, mümkün olan hallarda isə əmlakın natura şəklində ödənilməsini;

181.2.2. itirilmiş əmlakın satın alınmasına, habelə zədələnmiş əmlakın keyfiyyətinin, əmtəə görünüşünün bərpa və təmir edilməsinə sərf olunmuş xərclərin ödənilməsini;

181.2.3. itirilmiş gəlirin ödənilməsini;

181.2.4. mənəvi ziyanın ödənilməsini.

181.3. Maddi ziyan o halda cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsi ilə əlaqədar vurulmuş hesab olunur ki, o, aşağıdakı xərclər şəklində özünü göstərir:

181.3.1. zərər çəkmiş şəxsin müalicəsinə və ona qulluq göstərilməsinə;

181.3.2. zərər çəkmiş şəxsin dəfninə;

181.3.3. sığorta ödəməsinə, müavinət və pensiya verilməsinə;

181.3.4. əmlakın mühafizəsinə dair müqavilənin icrasına çəkilən xərclər.

181.4. Cinayət mühakimə icraatı zamanı mülki iddia fiziki və ya hüquqi şəxsin adından onun nümayəndəsi tərəfindən verilə bilər.

181.5. Cinayət mühakimə icraatı zamanı mülki iddia vermək hüququ olan hər hansı fiziki şəxs öldükdə mülki iddia vermək hüququ onun varislərinə, hüquqi şəxsin ləğv və ya yenidən təşkil edildiyi hallarda isə onun hüquqi varisinə keçir.

181.6. Cinayət mühakimə icraatı zamanı dövlət əmlakının mühafizəsi, habelə mülki iddia vermək hüququ olan fiziki şəxsin öz qanuni mənafelərini şəxsən müdafiə etmək imkanı olmadıqda, prokuror onların hüquqlarının müdafiəsi üçün mülki iddia verir və onu müdafiə edir. Mənəvi ziyanın ödənilməsinə dair iddianı prokuror yalnız zərər çəkmiş şəxsin xahişi ilə verə bilər.

181.7. Cinayət mühakimə icraatı zamanı prokuror təqsirləndirilən şəxsə və ya onun hərəkətlərinə görə cavabdeh olan şəxsə qarşı aşağıdakı hallarda iddia verir və onu müdafiə edir:

181.7.1. dövlət mənafeyinin müdafiəsi üçün dövlət idarə, müəssisə və ya təşkilatının müraciəti olduqda;

181.7.2. mülki iddia vermək hüququna malik olan fiziki şəxsin fəaliyyət qabiliyyəti olmadıqda və ya o, məhdud fəaliyyət qabiliyyətli olduqda.

**Maddə 182. ləğv edilmişdir.** [301]

**Maddə 183. Mülki iddianın verilməsi**

183.1. Cinayət mühakimə icraatı zamanı mülki iddia cinayət təqibi başlanandan məhkəmə *baxışında cinayət prosesi tərəflərinin çıxışı* başlananadək istənilən an verilə bilər. Törədilmiş cinayət haqqında ərizə və ya müvafiq şikayət verməklə mülki iddia da eyni zamanda verilə bilər. [302]

183.2. Cinayət mühakimə icraatı zamanı mülki iddia təqsirləndirilən şəxsə və ya onun əməlinə görə üzərinə əmlak məsuliyyəti qoyula bilən şəxsə verilir.

183.3. Cinayət mühakimə icraatı zamanı mülki iddia yalnız yazılı formada verilə bilər. İddia ərizəsində hansı cinayət təqibi üzrə kimin kimə qarşı, hansı əsasla və hansı məbləğdə mülki iddia verməsi göstərilməli, həmçinin zərərin ödənilməsi üçün konkret məbləğin və ya əmlakın tutulması barədə xahiş öz əksini tapmalıdır.

183.4. Cinayət mühakimə icraatı zamanı mülki iddianın əsasını və iddia tələbinin məbləğini dəqiqləşdirmək zəruri olduqda müvafiq fiziki və ya hüquqi şəxs məhkəmə baxışında cinayət prosesi tərəflərinin çıxışı başlananadək mülki iddiasına əlavələr və dəyişikliklər etməyə haqlıdır.

**Maddə 184. İddia ərizəsini qəbul etməkdən imtina**

Cinayət mühakimə icraatı zamanı fiziki və ya hüquqi şəxsin tələbi bu Məcəllənin müddəalarına əsasən mümkün deyilsə, mülki iddia vaxtında və ya müvafiq şəxsə verilməmişdirsə, yaxud iddia ərizəsi bu Məcəllənin 183.3-cü maddəsində nəzərdə tutulmuş tələblərə uyğun deyildirsə, cinayət prosesini həyata keçirən orqan iddia ərizəsini qəbul etməkdən imtina edə bilər.

**Maddə 185. Mülki iddia üzrə ödəmənin təmin edilməsi**

Cinayət mühakimə icraatı zamanı təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə mülki iddiaçının, yaxud onun nümayəndəsinin vəsatəti və ya öz təşəbbüsü ilə verilmiş, yaxud gələcəkdə qaldırıla bilən mülki iddianın təmin edilməsi üçün tədbirlər görməlidir.

**Maddə 186. Mülki iddiadan imtina edilməsi**

186.1. Cinayət mühakimə icraatı zamanı mülki iddia vermiş şəxs məhkəmə hökm çıxarmaq üçün müşavirə otağına gedənədək cinayət təqibi üzrə icraatın istənilən anında digər şəxslərin hüquqları və qanuni mənafeləri pozulmursa, iddiadan imtina etməyə haqlıdır. Bu hüquqlara mənafeyinin müdafiəsi üçün prokuror tərəfindən mülki iddia verilmiş şəxslər də malikdirlər.

186.2. Təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə tərəfindən mülki iddiadan imtina edilməsinin qəbulu cinayət mühakimə icraatı zamanı mülki iddia üzrə icraata xitam verilməsinə səbəb olur və müvafiq şəxsləri cinayət mühakimə icraatında təkrar iddia vermək hüququndan məhrum edir.

**Maddə 187. Mülki iddianın məhkəmə aidiyyəti**

187.1. Mülki iddianın miqdarından asılı olmayaraq ona cinayət işinin və ya cinayət təqibi ilə bağlı digər materialın aid olduğu məhkəmədə müvafiq olaraq həmin işlə və yaxud materialla birlikdə baxılır.

187.2. Cinayət mühakimə icraatı zamanı mülki iddia üzrə qərarı məhkəmə öz hökmündə göstərir.

**Maddə 188. Məhkəmənin təşəbbüsü ilə maddi ziyanın ödətdirilməsi**

Cinayət işi və ya cinayət təqibi ilə bağlı digər material üzrə sənədlər və sübutlar buna imkan verirsə, müstəsna hallarda məhkəmə baxışı zamanı şəxs verilmiş mülki iddianı şəxsən müdafiə etmək imkanından məhrum olduqda məhkəmə öz təşəbbüsü ilə cinayət qanunu ilə nəzərdə tutulmuş əməllə ona vurulmuş ziyanın ödənilməsi barədə qərar qəbul etməyə haqlıdır.

## XX fəsil

## Zərər çəkmiş şəxsə kompensasiya verilməsi

**Maddə 189. Zərər çəkmiş şəxsin kompensasiya almaq hüququ**

189.0. Cinayət qanunu ilə nəzərdə tutulmuş əməllə vurulmuş ziyana görə zərər çəkmiş şəxs kompensasiya almaq hüququna o zaman malik olur ki, ona qarşı bu əməlin törədilməsi aşağıdakılarla müəyyən olunur:
189.0.1. məhkəmənin hökmü ilə;
189.0.2. cinayət prosesini həyata keçirən orqanın yekun qərarı ilə.

**Maddə 190. Zərər çəkmiş şəxsə verilən kompensasiyanın miqdarı**

190.0. Zərər çəkmiş şəxs cinayət qanunu ilə nəzərdə tutulmuş əməllə ona vurulmuş ziyana görə aşağıdakı məbləğdə kompensasiya almaq hüququna malikdir:
190.0.1. ona qarşı xüsusilə ağır cinayət törədildikdə —üç yüz otuz manat; [303]
190.0.2. ona qarşı ağır cinayət törədildikdə —yüz altmış beş manat; [304]
190.0.3. ona qarşı az ağır cinayət törədildikdə —əlli beş manat; [305]
190.0.4. ona qarşı böyük ictimai təhlükə törətməyən cinayət törədildikdə —on bir manat. [306]

**Maddə 191. Zərər çəkmiş şəxsə dövlət hesabına kompensasiya verilməsi məsələsinin həlli qaydası**

191.1. Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına zərər çəkmiş şəxsə cinayət qanunu ilə nəzərdə tutulmuş əməllə vurulmuş ziyana görə kompensasiya verilməsi məsələsini zərər çəkmiş şəxsin ərizəsi ilə məhkəmə həll edir.
191.2. Zərər çəkmiş şəxsə Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaiti hesabına kompensasiya verilməsi haqqında qərarı ittiham hökmündə əks etdirərkən məhkəmə həmçinin kompensasiya qismində ayrılan pul məbləğinin məhkum edilmiş şəxsdən tutulub dövlət büdcəsinə qaytarılmasını hökmdə göstərir.

## XXI fəsil

## Əməyin və çəkilmiş xərclərin ödənilməsi

~~**Maddə 192. Andlı iclasçının əməyinin ödənilməsi, təminatları və kompensasiyası**~~ [307]

~~192.1. Andlı iclasçıya məhkəmədə olduğu hər gün üçün Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi hallarda, qaydada və miqdarda haqq verilir.~~
~~192.2. Andlı iclasçıya:~~
~~192.2.1. ezamiyyət xərcləri — qanunvericiliklə hakimlər üçün nəzərdə tutulmuş qaydada və miqdarda;~~
~~192.2.2. məhkəmənin yerləşdiyi yerə getmək və geri qayıtmaq üçün nəqliyyat xərcləri — həmin yerdə qüvvədə olan tarif üzrə ödənilir.~~
~~192.3. Andlı iclasçının məhkəmədə vəzifələrini yerinə yetirdiyi müddət əmək stajının bütün növlərinin hesablanmasında nəzərə alınır.~~
~~192.4. Andlı iclasçının əsas iş yerində həmin idarə, müəssisə, təşkilatların işçiləri üçün nəzərdə tutulmuş bütün təminatlar və güzəştlər saxlanılır.~~
~~192.5. Andlı iclasçının məhkəmədə vəzifələrini yerinə yetirdiyi müddətdə idarə, müəssisə və təşkilatın müdiriyyətinin təşəbbüsü ilə onun işdən çıxarılması, azmaaşlı işə keçirilməsi yolverilməzdir.~~

**Maddə 193. Müdafiəçinin hüquqi yardımının ödənilməsi**

193.1. Müdafiəçi tərəfindən şübhəli və ya təqsirləndirilən şəxsə göstərilən hüquqi yardım müdafiəçi ilə müdafiə olunan şəxs arasında razılaşdırılmış şərtlər əsasında müdafiə olunanın hesabına ödənilir.
193.2. Şübhəli və ya təqsirləndirilən şəxsin müdafiəçinin xidmətlərini ödəməyə kifayət qədər vəsaiti yoxdursa və müdafiəçinin cinayət prosesində iştirakı bu Məcəllənin 92.3-cü maddəsində nəzərdə tutulmuş hallarda təmin olunmalıdırsa, cinayət prosesini həyata keçirən orqan həmin şəxsə hüquqi yardımın göstərilməsini Azərbaycan Respublikasının dövlət büdcəsi vəsaiti hesabına təmin etməlidir.
193.3. Məhkəmə şübhəli və ya təqsirləndirilən şəxsin orta aylıq gəlirini, maddi, əmlak və ailə vəziyyətini, habelə digər halları nəzərə alaraq həmin şəxsin müdafiəçi tərəfindən göstərilən hüquqi yardımı ödəməkdən azad edilməsi və ödəmənin Azərbaycan Respublikasının dövlət büdcəsi vəsaiti hesabına həyata keçirilməsi barədə əsaslandırılmış qərar qəbul edir.
193.4. Şübhəli və ya təqsirləndirilən şəxs müdafiəçidən imtina etdikdə və bu imtina cinayət prosesini həyata keçirən orqan tərəfindən qəbul edilmədikdə, cinayət prosesində

iştirak edən müdafiəçinin hüquqi yardımı göstərilən şəxslər üçün məhkəmənin qərarı əsasında pulsuz, Azərbaycan Respublikasının dövlət büdcəsi vəsaiti hesabına həyata keçirilir.

193.5. Bu Məcəllənin 193.2—193.4-cü maddələrində nəzərdə tutulmuş hallarda hüquqi yardım müdafiəçinin təqdim etdiyi hesabat əsasında hər iş saatı üçün Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi miqdarda vəkillərin müvafiq ərazi qurumu vasitəsilə ödənilir.

**Maddə 194. Xüsusi ittihamçının nümayəndəsinin, *ölmüş zərər çəkmiş şəxsin hüquqi varisi qismində tanınmış vəkilin, habelə cinsi istismarın və ya cinsi zorakılığın qurbanı olan uşağa xidmət göstərən vəkilin* hüquqi yardımının dövlət hesabına ödənilməsi**[308]

194.1. Məhkəmə baxışı zamanı dövlət ittihamçısı ictimai-xüsusi ittiham qaydasında həyata keçirilən cinayət təqibindən imtina etdikdə, xüsusi ittihamçıya cinayət təqibini davam etdirmək üçün nümayəndəsi tərəfindən göstərilən hüquqi yardımın ödənilməsi qaydası məhkəmənin qərarı ilə müəyyən olunur. Həmin cinayət təqibi üzrə ittiham hökmü çıxarıldıqda xüsusi ittihamçının nümayəndəsi tərəfindən göstərilən hüquqi yardımı ödəmək üçün xüsusi ittihamçının kifayət qədər vəsaiti olmadıqda, məhkəmə ödəmənin Azərbaycan Respublikasının dövlət büdcəsi vəsaiti hesabına həyata keçirilməsi barədə əsaslandırılmış qərar qəbul edir.

*194.1-1. Ölmüş zərər çəkmiş şəxsin hüquqi varisi qismində tanınmış vəkil tərəfindən göstərilən hüquqi yardımın ödənilməsi, məhkəmə tərəfindən məhkumun üzərinə qoyulduğu hallar istisna olmaqla Azərbaycan Respublikasının dövlət büdcəsi vəsaiti hesabına təmin edilir.*[309]

*194.1-2. Cinsi istismarın və ya cinsi zorakılığın qurbanı olan uşaqlara bu Məcəllənin 123-2.1.5-ci maddəsinə uyğun olaraq göstərilən pulsuz hüquqi yardımın ödənilməsi, məhkəmə tərəfindən məhkumun üzərinə qoyulduğu hallar istisna olmaqla, Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına təmin edilir.*[310]

194.2. Vəkilin xüsusi *ittihamçının nümayəndəsi və ya ölmüş zərər çəkmiş şəxsin hüquqi varisi qismində, yaxud cinsi istismarın və ya cinsi zorakılığın qurbanı olan uşaqlara dövlət hesabına göstərdiyi hüquqi yardım* bu Məcəllənin 193.5-ci maddəsində nəzərdə tutulmuş qaydada ödənilir.[311]

**Maddə 195. Tərcüməçi, mütəxəssis, ekspert tərəfindən görülmüş işlərin haqqının ödənilməsi**

195.1. Cinayət mühakimə icraatı zamanı tərcüməçi, mütəxəssis və ya ekspert tərəfindən görülən işin haqqı aşağıdakı qaydada ödənilir:

195.1.1. xidməti tapşırıq qaydasında yerinə yetirildikdə — iş yeri üzrə əmək haqqı həddində;

195.1.2. cinayət prosesini həyata keçirən orqanın tələbi ilə yerinə yetirildikdə — Azərbaycan Respublikasının dövlət büdcəsi vəsaiti hesabına miqdarı Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi həddə cinayət prosesini həyata keçirən orqanla şərtləşdirildiyi kimi;

195.1.3. müdafiə tərəfi ilə razılığa əsasən görüldükdə — həmin tərəflə şərtləşdirilmiş miqdarda.

195.2. Bu Məcəllənin 195.1.2-ci maddəsində nəzərdə tutulmuş hallarda haqq tərcüməçi, mütəxəssis və ya ekspert tərəfindən hesabat təqdim edildikdən sonra cinayət prosesini həyata keçirən orqanın qərarı ilə ödənilir.

**Maddə 196. Cinayət prosesində iştirak edən şəxslərin çəkdikləri xərclərin ödənilməsi**

196.1. Cinayət mühakimə icraatı zamanı zərər çəkmiş şəxsin, mülki iddiaçının, onların qanuni nümayəndələrinin, şübhəli və ya təqsirləndirilən şəxsə pulsuz hüquqi yardım göstərən müdafiəçinin, habelə hal şahidinin, tərcüməçinin, mütəxəssisin, ekspertin və şahidin aşağıdakı xərcləri ödənilməlidir:

196.1.1. cinayət prosesini həyata keçirən orqanın çağırışı ilə əlaqədar dəmiryolu və avtomobil nəqliyyatında (taksidən başqa) və nəqliyyatın digər növlərində, habelə cinayət prosesini həyata keçirən orqanın razılığı ilə hava nəqliyyatında yol xərcləri;

196.1.2. cinayət prosesini həyata keçirən orqanın tələbi ilə daimi yaşayış yerindən kənarda yaşamaq məcburiyyətində qaldıqda gündəlik xərclər, bu xərclər idarə, müəssisə, təşkilat və ya işə götürən tərəfindən ödənilmədikdə;

196.1.3. idarə, müəssisə, təşkilat və ya işə götürən tərəfindən orta aylıq əmək haqqının saxlanıldığı hallar istisna olmaqla, cinayət prosesini həyata keçirən orqanın tələbi ilə cinayət mühakimə icraatında iştirak etmənin bütün müddəti üçün orta aylıq əmək haqqı;

196.1.4. cinayət prosesini həyata keçirən orqanın tələbi ilə istintaq və ya digər prosessual hərəkətdə iştirak edərkən, xarab olan və ya itirilən əmlakın bərpa olunması və ya əldə edilməsinə çəkilən xərclər.

196.2. Dövlət orqanları, idarələri, müəssisələri və təşkilatları zərər çəkmiş şəxsin, mülki iddiaçının, onların qanuni nümayəndələrinin, habelə hal şahidinin, tərcüməçinin,

ekspertin və şahidin cinayət prosesini həyata keçirən orqanın tələbi ilə cinayət mühakimə icraatında iştirak etdiyi müddətdə onların orta aylıq əmək haqqını saxlamalıdırlar.

196.3. Mütəxəssisin və ekspertin gördüyü işlə əlaqədar sərf edilmiş kimyəvi reaktivlərin və digər materialların xərcləri, habelə bu məqsədlə avadanlıqdan istifadəyə, kommunal xidmətlərə görə çəkdiyi xərclər ödənilir.

196.4. Cinayət mühakimə icraatı zamanı çəkilən xərclər cinayət prosesini həyata keçirən orqan tərəfindən öz təşəbbüsü ilə və ya bu Məcəllənin 196.1-ci maddəsində göstərilən şəxslərin ərizələri üzrə cinayət prosesini həyata keçirən orqanın qərarına əsasən Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş miqdarda ödənilməlidir. Göstərilən xərclər Azərbaycan Respublikasının dövlət büdcəsi vəsaiti və ya cinayət təqibi üzrə təqsirli bilinmiş şəxsin (şəxslərin) hesabına ödənilir.

## XXII fəsil

## Məhkəmə məsrəfləri

### Maddə 197. Məhkəmə məsrəfləri

197.1. Məhkəmə məsrəfləri aşağıdakılardan ibarətdir:

197.1.1. cinayət qanunu ilə nəzərdə tutulmuş əməllə zərər çəkmiş şəxsə vurulmuş ziyana görə kompensasiya qismində ödənilmiş məbləğ;

197.1.2. zərər çəkmiş şəxsə, mülki iddiaçıya, onların qanuni nümayəndələrinə, şübhəli və ya təqsirləndirilən şəxsə, pulsuz hüquqi yardım göstərmiş müdafiəçiyə, tərcüməçiyə çağırışa və gündəlik xərclərə görə ödənilmiş məbləğ;

~~197.1.3. andlı iclasçılara cinayət işinin baxılmasında iştirak etməsinə görə ödənilmiş haqqın məbləği;~~[312]

197.1.4. mütəxəssisə, ekspertə ödənilməli haqlar və tərcüməçiyə ödəniş haqqı kimi verilməli olan məbləğ;

197.1.5. şübhəli və ya təqsirləndirilən şəxsə pulsuz hüquqi yardım göstərildiyi halda, cinayət prosesini həyata keçirən orqan tərəfindən təyin olunmuş müdafiəçiyə ödənilməli olan haqqın məbləği;

*197.1.5-1. ölmüş zərər çəkmiş şəxsin hüquqi varisi qismində tanınmış vəkil tərəfindən göstərilmiş hüquqi yardıma görə ödənilməli olan haqqın məbləği;*[313]

*197.1.5-2. cinsi istismarın və ya cinsi zorakılığın qurbanı olan uşaqlara bu Məcəllənin 123-2.1.5-ci maddəsinə uyğun olaraq pulsuz hüquqi yardım göstərildikdə vəkilə ödənilməli olan haqqın məbləği;*[314]

197.1.6. maddi sübutların saxlanması, göndərilməsi və tədqiqi üçün çəkilmiş xərclərin məbləği;

197.1.7. cinayət işi üzrə istintaq eksperimenti və ya ekspertiza keçirilərkən korlanmış və ya məhv olmuş əşyaların dəyərinin və bu kimi digər məsrəflərin ödənilməsinə çəkilmiş xərclərin məbləği;

197.1.8. cinayət işi və ya cinayət təqibi ilə bağlı digər material üzrə icraat aparılması üçün zəruri olan digər tədbirlərə sərf olunmuş xərclərin məbləği;

*197.1.9. Azərbaycan Respublikası ərazisindən kənarda istintaqdan gizlənən təqsirləndirilən şəxsin tutularaq cinayət prosesini həyata keçirən orqana gətirilməsi ilə əlaqədar çəkilmiş xərclərin məbləği.*[315]

197.2. Bu Məcəllədə digər qaydalar nəzərdə tutulmamışdırsa, məhkəmə məsrəfləri Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabından ödənilir.

### Maddə 198. Məhkəmə məsrəflərinin tutulması

198.1. Bu Məcəllənin 197.1.1, 197.1.2, 197.1.4*, 197.1.5-1, 197.1.5-2,* 197.1.6–*197.1.9-cu* maddələrində sadalanan məhkəmə məsrəfləri məhkəmə tərəfindən məhkumun üzərinə qoyula bilər və məhkəmənin qərarı ilə ondan tutulub dövlət nəfinə və ya müvafiq xərc çəkmiş *dövlət orqanının,* fiziki, yaxud hüquqi şəxsin hesabına keçirilə bilər.[316]

198.2. Məhkumun məhkəmə məsrəflərini ödəməyə imkanı olmadıqda, yaxud məhkəmə məsrəflərini ödəməsi öhdəsində olan şəxslərin maddi vəziyyətinə ciddi xələl gətirərsə, məhkəmə məhkumu məhkəmə məsrəflərinin tutulmasından tam və ya qismən azad edə bilər.

198.3. Cinayət təqibi üzrə bir neçə şəxs məhkum olunmuşsa, məhkəmə məsrəfləri məhkumların hər birindən təqsirlilik dərəcəsi, təyin olunmuş cəzanın ciddiliyi və əmlak vəziyyəti nəzərə alınaraq məhkəmə tərəfindən müəyyən olunmuş pay üzrə tutulmalıdır.

198.4. Yetkinlik yaşına çatmamış şəxs məhkum olunarkən onun qanuni nümayəndələrinin bu şəxsin davranışına zəruri nəzarət həyata keçirilmədiyindən cinayətin törədilməsi sübuta yetirilərsə, məhkəmə məsrəflərinin ödənilməsi onların üzərinə qoyula bilər.

198.5. Xüsusi ittiham qaydasında təqib olunan şəxsə bəraət verildikdə və ya xüsusi ittihamçı məhkəmədə ittihamın müdafiəsindən imtina etdikdə, məhkəmə bu Məcəllənin 198.1-ci maddəsində nəzərdə tutulmuş məhkəmə məsrəflərini tam və ya qismən xüsusi ittihamçının üzərinə qoymağa haqlıdır. Xüsusi ittiham qaydasında təqib olunan şəxslə xüsusi ittihamçı

arasında əldə olunmuş barışıq nəticəsində cinayət təqibinə xitam verildiyi halda, məhkəmə həmin məsrəfləri tam və ya qismən cinayət prosesi tərəflərindən birinin və ya hər ikisinin üzərinə qoymağa haqlıdır.

198.6. Hökm qanuni qüvvəyə minənədək məhkum öldükdə, onun vərəsələri məhkəmə məsrəfləri ilə əlaqədar öhdəliklərə cavabdehlik daşımırlar.

198.7. Məhkəmə məsrəflərinin tutulmasına dair məhkəmə qərarı qanuni qüvvəyə mindiyi gündən 3 (üç) il keçərsə, müddətin keçməsi ilə əlaqədar həmin məsrəflərin tutulması hüququna xitam verilir. Göstərilən müddət keçdikdən sonra ödəniş kimi tutulmuş məhkəmə məsrəflərinin məbləği geri qaytarılmır.

## Altıncı bölmə

## Cinayət mühakimə icraatı zamanı-konfidensiallıq və müddət məsələləri

## XXIII fəsil

## Cinayət mühakimə icraatı zamanı konfidensiallığın qorunması

### Maddə 199. Şəxsi və ailə sirrinin qorunması

199.1. Cinayət mühakimə icraatı zamanı şəxsi və ailə sirrini təşkil edən məlumatların qorunması üçün bu Məcəllə və Azərbaycan Respublikasının digər qanunları ilə nəzərdə tutulmuş tədbirlər görülür.

199.2. Prosessual hərəkətlərin gedişində hər hansı şəxsin şəxsi həyatına aid məlumatların, habelə onun gizli saxlanılmasını lazım bildiyi digər şəxsi xarakterli məlumatların lüzumsuz toplanılmasına, yayılmasına və onlardan istifadə edilməsinə yol verilmir. Müstəntiqin, prokurorun və ya məhkəmənin tələbi ilə istintaq və məhkəmə hərəkətlərinin iştirakçıları bu məlumatların yayılmamasını öhdələrinə götürür və onlardan bu barədə yazılı iltizam alınır.

199.3. Cinayət prosesini həyata keçirən orqan hər hansı şəxsə onun şəxsi həyatına aid məlumatların bildirilməsini və ya təqdim olunmasını məhkəmənin müvafiq qərarı əsasında təklif etdikdə, həmin şəxs bu məlumatların başlanmış cinayət işi üzrə toplanılmasının zəruriliyinə əmin olmaq, əks təqdirdə onları verməkdən imtina etmək hüququna malikdir. Cinayət prosesini həyata keçirən orqan şəxsə özünün və ya başqasının həyatına aid məlumatları bildirməsinin və ya təqdim olunmasının zəruriliyinə istinad edərək tələb etdikdə o, dindirmə və ya digər istintaq hərəkəti protokoluna bu məlumatların alınmasının zəruriliyi barədə təsdiqedici qeydlər daxil etməlidir.

199.4. Şəxsi və ya ailə sirlərini açıqlayan sübutlar qapalı məhkəmə iclasında tədqiq edilməlidir.

199.5. Şəxsi həyatın toxunulmazlığının pozulması, şəxsi və ya ailə sirrinin yayılması nəticəsində hər hansı şəxsə vurulan ziyan Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada ödənilməlidir.

### Maddə 200. Dövlət sirrinin qorunması

200.1. Cinayət mühakimə icraatı zamanı dövlət sirrini təşkil edən məlumatların qorunması üçün bu Məcəllə və Azərbaycan Respublikasının digər qanunları ilə nəzərdə tutulmuş tədbirlər görülür.

200.2. Cinayət prosesini həyata keçirən orqan hər hansı şəxsə dövlət sirrini özündə əks etdirən məlumatların bildirilməsini və ya təqdim olunmasını məhkəmənin müvafiq qərarı əsasında təklif etdikdə, həmin şəxs bu məlumatların başlanmış cinayət işi üzrə toplanılmasının zəruriliyinə əmin olmaq, əks təqdirdə onları verməkdən imtina etmək hüququna malikdir. Cinayət prosesini həyata keçirən orqan şəxsə dövlət sirrini özündə əks etdirən məlumatların bildirilməsinin və ya təqdim olunmasının zəruriliyinə istinad edərək tələb etdikdə, o, dindirmə və ya digər istintaq hərəkəti protokoluna bu məlumatların alınmasının zəruriliyi barədə təsdiqedici qeydlər daxil etməlidir.

200.3. Cinayət prosesini həyata keçirən orqan dindirmə və ya digər istintaq hərəkəti protokolunda bunun qadağan edilməsi barədə qeydlər etməyibsə, dövlət qulluqçusu ona etibar edilmiş dövlət sirrini təşkil edən məlumatlara dair ifadə verməsi barədə dərhal müvafiq dövlət orqanının rəhbərinə yazılı məlumat verməlidir.

200.4. Dövlət sirrini özündə əks etdirən məlumatlarla bağlı cinayət işlərinin icraatı bu cür məlumatların yayılmaması barədə öhdəlik götürmüş müstəntiqlərə, prokurorlara və ya hakimlərə həvalə edilir. Öz vəzifələrinin icrası zamanı hakimlər, habelə dövlət sirri təşkil edən məlumatlarla bağlı cinayət işləri üzrə cinayət mühakimə icraatında müdafiəçi qismində çıxış edən vəkillər dövlət sirri ilə işləməyə “Dövlət sirri haqqında” Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmuş yoxlama tədbirləri keçirilmədən buraxılırlar. Dövlət sirrini açıqlayan sübutlar qapalı məhkəmə iclasında tədqiq edilməlidir. [317]

200.5. Məhkəmə və prokurorluq orqanlarında dövlət sirrinin mühafizəsinin təmin

olunmasına nəzarət bu orqanların rəhbərləri tərəfindən təşkil edilir. [318]

**Maddə 201. Peşə və kommersiya sirrinin qorunması**

201.1. Cinayət mühakimə icraatı zamanı peşə və kommersiya sirlərini təşkil edən məlumatların qorunması üçün bu Məcəllə və Azərbaycan Respublikasının digər qanunları ilə nəzərdə tutulmuş tədbirlər görülür.
201.2. Prosessual hərəkətlər aparılarkən peşə və ya kommersiya sirlərini əks etdirən məlumatların zərurət olmadan toplanmasına, istifadə və yayılmasına yol verilmir. Müstəntiqin, prokurorun və ya məhkəmənin tələbi ilə istintaq və məhkəmə hərəkətlərinin iştirakçıları həmin məlumatları yaymamalıdırlar və onlardan bu barədə iltizam alınır.
201.3. Cinayət prosesini həyata keçirən orqan hər hansı şəxsə peşə və ya kommersiya sirlərini əks etdirən məlumatların bildirilməsini və ya təqdim olunmasını məhkəmənin müvafiq qərarı əsasında təklif etdikdə, həmin şəxs bu məlumatların başlanmış cinayət işi üzrə toplanılmasının zəruriliyinə əmin olmaq, əks təqdirdə onları verməkdən imtina etmək hüququna malikdir.
201.4. Cinayət prosesini həyata keçirən orqan şəxsə peşə və kommersiya sirrini özündə əks etdirən məlumatların bildirilməsinin və ya təqdim olunmasının zəruriliyinə istinad edərək tələb etdikdə, o, dindirmə və ya digər istintaq hərəkəti protokoluna bu məlumatların alınmasının zəruriliyi barədə təsdiqedici qeydlər daxil etməlidir.
201.5. Cinayət prosesini həyata keçirən orqan dindirmə və ya digər istintaq hərəkəti protokolunda bunun qadağan edilməsi barədə qeydlər etməyibsə, dövlət qulluqçusu və ya hər hansı mülkiyyət formasına malik müəssisə və ya təşkilatın işçisi ona etibar edilmiş peşə və kommersiya sirrini təşkil edən məlumatlara dair ifadə verməsi barədə dərhal müvafiq orqanın, müəssisə və təşkilatın rəhbərinə yazılı məlumat verməlidir.
201.6. Peşə və ya kommersiya sirrini açıqlayan sübutlar qapalı məhkəmə iclasında tədqiq olunmalıdır.

## XXIV fəsil

## Cinayət mühakimə icraatında müddətlər

**Maddə 202. Müddətlərin hesablanması**

202.1. Cinayət mühakimə icraatı zamanı bu Məcəllə ilə müəyyən olunmuş müddətlər saatlar, günlər, aylar və illərlə hesablanır.
202.2. Cinayət mühakimə icraatı zamanı müddətlər hesablanarkən müddətin başlandığı saat və gün hesaba alınmır.
202.3. Cinayət mühakimə icraatı zamanı müddətlər günlərlə hesablanarkən müddət birinci gün gecə saat 12-də başlayır və müddətin sonuncu günü gecə saat 12-də qurtarır. Müddətlər aylar və ya illərlə hesablandıqda müddət sonuncu ayın müvafiq günündə qurtarır, həmin ayda müvafiq tarix yoxdursa, müddət ayın sonuncu günü qurtarır. Müddətin qurtarması iş gününə düşmürsə, həmin gündən sonrakı birinci iş günü müddətin axırıncı günü sayılır.
202.4. Cinayət mühakimə icraatı zamanı şikayət və ya digər sənəd müddət keçənədək poçta, həbsdə olan və tibbi müəssisələrə yerləşdirilmiş şəxslər üçün isə şikayət və ya digər sənəd müddət keçənədək *həbs yerinin* və ya tibb müəssisəsinin müdiriyyətinə verilmişsə, müddət buraxılmış sayılmır. Şikayətin və ya digər sənədin poçta verilməsi tarixi poçtun ştempeli, *həbs yerinin* və ya tibb müəssisəsinin müdiriyyətinə verilmə tarixi isə dəftərxananın, yaxud həmin müəssisələrin vəzifəli şəxslərinin qeydlərinə əsasən müəyyən edilir.[319]
202.5. Cinayət mühakimə icraatı zamanı vəzifəli şəxslərin müəyyən olunmuş müddətlərə riayət etməsi prosessual sənədlərdə müvafiq qeydlərlə təsdiq olunur. Cinayət prosesində iştirak edən şəxslərə təqdim olunması nəzərdə tutulmuş sənədlərin onlar tərəfindən alınması həmin şəxslərin işə əlavə edilmiş qəbzləri ilə təsdiq olunur.

**Maddə 203. Müddətin buraxılmasının nəticələri və onun bərpa olunması qaydaları**

203.1. Cinayət mühakimə icraatı zamanı müddətlər keçdikdən sonra aparılan prosessual hərəkətlər müddət bərpa edilməmişsə, etibarsız sayılır.
203.2. Cinayət prosesini həyata keçirən orqanın qərarından şikayət vermə müddəti bitmişsə, onun icrası göstərilən şəxsin vəsatəti və ya xahişi ilə buraxılmış müddətin bərpa edilməsi məsələsinin həllinədək dayandırıla bilər.
203.3. Cinayət mühakimə icraatı zamanı üzrlü səbəblərə görə buraxılmış müddət maraqlı şəxsin vəsatəti və ya xahişi ilə cinayət prosesini həyata keçirən orqanın qərarı ilə bərpa olunmalıdır. Cinayət prosesini həyata keçirən orqanın qərarında başqa hal nəzərdə tutulmayıbsa, müddət digər şəxslər üçün deyil, ancaq onu buraxmış şəxs üçün bərpa edilir.
203.4. Təhqiqat və ya istintaq orqanının müddətin bərpasından imtina etməsindən

prokurora şikayət verilə bilər. Məhkəmənin buraxılmış müddətin bərpasından imtina etməsindən apellyasiya instansiyası məhkəməsinə şikayət verilə bilər. Apellyasiya instansiyası məhkəməsinin öz səlahiyyəti daxilində ona müraciət etmək üçün buraxılmış müddəti bərpa etmək hüququ vardır. Digər prosessual müddətlərin uzadılması və ya bərpa olunması məsələsi bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada həll edilir. [320]

## Xüsusi hissə

## Yeddinci bölmə

## Cinayət təqibi üzrə məhkəməyədək icraat

## XXV fəsil

## Cinayət işinin başlanması

### Maddə 204. Törədilmiş və ya hazırlanan cinayət haqqında fiziki şəxslərin məlumatları

204.1. Törədilmiş və ya hazırlanan cinayət haqqında cinayət işinin başlanması üçün səbəb hesab edilən fiziki şəxslərin məlumatları yazılı və ya şifahi şəkildə ola bilər.
204.2. İstintaq hərəkətlərinin aparılması və ya məhkəmə baxışı zamanı, törədilmiş və ya hazırlanan cinayət haqqında verilmiş şifahi məlumat müvafiq olaraq istintaq hərəkəti və ya məhkəmə iclası protokoluna yazılır. *Belə məlumat məhkəmə baxışı zamanı verildikdə, həmçinin məhkəmə iclasında elan olunur.* Digər hallarda ayrıca protokol tərtib edilir. Protokolda məlumatı verən şəxsin soyadı, adı, atasının adı, doğulduğu il, yaşayış və ya iş yerinin ünvanı, onun cinayətə münasibəti, məlumatı aldığı mənbə, habelə onun təqdim etdiyi vətəndaşın şəxsiyyət vəsiqəsi, pasport və ya şəxsiyyəti təsdiq edən digər sənəd haqqında məlumatlar qeyd edilməlidir. Törədilmiş və ya hazırlanan cinayət haqqında məlumat verən şəxs tərəfindən vətəndaşın şəxsiyyət vəsiqəsi, pasport və ya şəxsiyyəti təsdiq edən digər sənəd təqdim edilmədikdə onun şəxsiyyəti haqqında məlumatların yoxlanılması üçün digər tədbirlər görülməlidir. [321]
204.3. Törədilmiş və ya hazırlanan cinayət haqqında məlumat verən şəxs on altı yaşına çatmışsa, ona bilə-bilə yalan xəbərçilik etməyə görə məsuliyyət haqqında yazılı xəbərdarlıq edilir və həmin şəxs bunu öz imzası ilə təsdiq edir.
204.4. Törədilmiş və ya hazırlanan cinayət haqqında və məlumat verən şəxsə onların məlum olduğu hallar barədə məlumatlar protokolda birinci şəxs adından qeyd olunur.
204.5. Protokolu törədilmiş və ya hazırlanan cinayət haqqında məlumat verən şəxs və məlumatı qəbul edən vəzifəli şəxs imzalayırlar.
204.6. Törədilmiş və ya hazırlanan cinayət haqqında imzalanmamış və ya saxta imza ilə imzalanmış, yaxud uydurma fiziki şəxs adından yazılmış ərizə və ya digər anonim məlumat cinayət işinin başlanması üçün səbəb ola bilməz.
204.7. Bu Məcəllənin 204.1, 204.2, 204.4 və 204.5-ci maddələrində nəzərdə tutulmuş qaydalar şəxsin təqsirini könüllü boynuna alma haqqında ərizə ilə müraciət etdiyi hallara da şamil edilir.

### Maddə 205. Törədilmiş və ya hazırlanan cinayətlər haqqında hüquqi şəxslərin (vəzifəli şəxslərin) məlumatları

205.1. Törədilmiş və ya hazırlanan cinayət haqqında cinayət işinin başlanması üçün səbəb hesab edilən hüquqi şəxsin (vəzifəli şəxsin) məlumatları məktub, yaxud təsdiq edilmiş teleqram, telefonoqram, radioqram, teleks və ya digər qəbul edilmiş müraciət formasında olmalıdır.
205.2. Törədilmiş və ya hazırlanan cinayət haqqında hüquqi şəxsin (vəzifəli şəxsin) məktubuna cinayətin törədilməsini təsdiq edən sənədlər əlavə edilməlidir.
205.3. Törədilmiş və ya hazırlanan cinayət haqqında hüquqi şəxsin (vəzifəli şəxsin) məktubunda hüquqi şəxsin tam adı, yaxud vəzifəli şəxsin soyadı, adı, atasının adı, ərizəçinin xidməti ünvanı, onun cinayətə münasibəti, məlumatı aldığı mənbə, eləcə də məktuba əlavə edilən sənədlər haqqında məlumatlar qeyd edilməlidir.
205.4. Törədilmiş və ya hazırlanan cinayət haqqında imzalanmamış və ya saxta imza ilə imzalanmış, yaxud uydurma hüquqi şəxs (vəzifəli şəxs) adından yazılmış ərizə və ya digər anonim məlumat cinayət işinin başlanması üçün səbəb ola bilməz.

### Maddə 206. Törədilmiş və ya hazırlanan cinayətlər haqqında *media subyektlərinin* məlumatları[322]

206.1. Cinayətin törədilməsi və ya onun törədilməsinə hazırlıq faktına dair müvafiq *media subyektinə* məlum olmuş, cinayət işinin başlanması üçün səbəb hesab edilən *media*

*subyektlərinin* məlumatları mətbuatda, radioda, televiziyada əks etdirildikdən sonra cinayət təqibi orqanlarına göndərilməlidir.

206.2. Törədilmiş və ya hazırlanan cinayətlərlə əlaqədar *media subyektlərinə* ünvanlanmış, dərc edilməmiş yazışmalar *media subyektlərinin* vəzifəli şəxsləri tərəfindən bu Məcəllənin 205-ci maddəsində nəzərdə tutulmuş qaydada cinayət təqibi orqanlarına göndərilə bilər.

206.3. Törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatları dərc etmiş və ya aidiyyəti üzrə göndərmiş *media subyektlərinin* vəzifəli şəxsləri, habelə həmin məlumatların müəllifləri onlarda olan və cinayət haqqında məlumatı təsdiq edən sənədləri təhqiqatçı ya, müstəntiq, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora və ya məhkəməyə təqdim etməlidirlər.

**Maddə 207. Törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatlara baxılması qaydası**

207.1. Təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror aşağıdakı hərəkətləri yerinə yetirməlidir:

207.1.1. törədilmiş və ya hazırlanan cinayət haqqında fiziki və ya hüquqi şəxs tərəfindən daxil olmuş, habelə onun səlahiyyətlərinə aid olan və *mediada* əks etdirilmiş və təsdiq edən sənədlərlə birgə təqdim edilmiş məlumatı dərhal qeydə almaq və ona baxmaq;[323]

207.1.2. zəruri hallarda törədilmiş və ya hazırlanan cinayət haqqında məlumat (aşkar cinayətlər haqqında məlumatlar istisna olmaqla) alındıqdan sonra 3 (üç) gün müddətində, bu mümkün olmadıqda 10 (on) gündən, ekspertin rəyinin alınması ilə əlaqədar və ya bu Məcəllənin 207.3-cü maddəsində nəzərdə tutulmuş hallarda isə 30 (otuz) gündən artıq olmayan müddətdə cinayət işinin başlanması üçün əsasların kifayət qədər olmasına dair ilkin yoxlama aparmaq; [324]

207.1.3. törədilmiş və ya hazırlanan cinayət haqqında məlumatlara baxılmasının (aparılmış yoxlamanın) nəticələri üzrə cinayət işinin başlanması və ya cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərar qəbul etmək.

207.2. Təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror ictimai-xüsusi ittiham qaydasında təqib olunan cinayətlər haqqında məlumatlara baxarkən həmin cinayətlərdən zərər çəkmiş şəxslərin şikayəti olduğu halda yoxlama apara bilər. Belə şikayət olmadığı halda ictimai-xüsusi ittiham qaydasında təqib olunan cinayətlər haqqında digər şəxslərin məlumatları təhqiqatçı və ya müstəntiq tərəfindən nəzərə alınmamalıdır. Həmin məlumatlara prokuror bu Məcəllənin 37.5-ci maddəsində nəzərdə tutulmuş hallarda baxa bilər.

207.3. Törədilmiş və ya hazırlanan cinayət haqqında məlumatlara baxılarkən hüquqi şəxsin fəaliyyətinin elm, texnika, incəsənət və digər peşə sahələrində xüsusi biliklərdən istifadə etməklə yoxlanılması zərurəti yarandıqda aşağıdakı hərəkətlər yerinə yetirilir:

207.3.1. müvafiq dövlət orqanları və ya auditor təşkilatlarından mütəxəssisin ayrılmasının təmin edilməsinə dair ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror tərəfindən qərar qəbul edilir;

207.3.2. toplanmış yoxlama materialları əsasında cinayət işinin başlanması və ya cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərar qəbul edilir. [325]

207.4. Törədilmiş və ya hazırlanan cinayət haqqında məlumatlara baxarkən təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror ərizəçilərdən əlavə sənədləri, onlardan və digər şəxslərdən izahatları tələb edə, *bu maddə ilə nəzərdə tutulmuş istintaq və digər prosessual hərəkətlərini apara* və ekspertiza təyin edə bilər. Hadisə yerinə baxış və ekspertizanın təyin edilməsi, *bu Məcəllənin 177.3.6-cı maddəsində nəzərdə tutulmuş istintaq hərəkətinin aparılması, habelə cinayət törətməkdə şübhələnildiyinə görə tutulmuş şəxsə münasibətdə bu Məcəllənin 90.11.2-90.11.5-ci maddələrində müəyyən edilmiş vəzifələrin yerinə yetirməsi ilə bağlı həyata keçirilən prosessual hərəkətlər* istisna olmaqla cinayət işinin başlanmasından əvvəl digər istintaq hərəkətlərinin aparılması, habelə tutulma istisna olmaqla digər prosessual məcburiyyət tədbirlərinin tətbiqi qadağandır.[326]

207.5. Törədilmiş və ya hazırlanan cinayət haqqında məlumatların alındığı hər bir halda təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror aşağıdakı qərarlardan birini qəbul etməlidir:

207.5.1. cinayət işi başlamaq;

207.5.2. cinayət işinin başlanmasını rədd etmək;

207.5.3. məlumatı istintaq aidiyyəti üzrə göndərmək;

207.5.4. xüsusi ittiham qaydasında təqib olunan cinayətə dair məlumatı məhkəmə aidiyyəti üzrə göndərmək.

207.6. Bu Məcəllənin 207.5.4-cü maddəsində nəzərdə tutulmuş hal istisna edilməklə törədilmiş və ya hazırlanan cinayət haqqında məlumatları aldıqda məhkəmə onda olan bütün məlumatları dərhal baxılması üçün ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərir.

207.7. Böyük ictimai təhlükə törətməyən aşkar cinayətlərə dair şikayətlərə baxılması

qaydası bu Məcəllənin 293–297-ci maddələri ilə müəyyən olunur.

**Maddə 208. Törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatların cinayət təqibi orqanı tərəfindən bilavasitə aşkar edilməsi**

208.0. Törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatların təhqiqatçı, müstəntiq və ya prokuror tərəfindən bilavasitə aşkar edilməsi cinayət işinin başlanmasına aşağıdakı hallarda səbəb olur:

208.0.1. təhqiqatçı, müstəntiq və ya prokuror cinayətin törədilməsini göstərən halları, yaxud cinayətin törədilməsindən dərhal sonra onun izlərini və nəticələrini aşkar etdikdə;

208.0.2. təhqiqatçı cinayət haqqında məlumatı təhqiqat orqanının əməliyyat-axtarış fəaliyyətini həyata keçirən əməkdaşlarından və ya bu Məcəllənin 86-cı maddəsinə müvafiq olaraq digər cinayətin təhqiqatı zamanı öz səlahiyyətlərini yerinə yetirərkən aldıqda;

208.0.3. müstəntiq cinayət haqqında məlumatı bu Məcəllənin 85-ci maddəsinə müvafiq olaraq digər cinayətin istintaqı zamanı öz səlahiyyətlərini yerinə yetirərkən aldıqda;

208.0.4. prokuror cinayət haqqında məlumatı bu Məcəllənin 84-cü maddəsinə müvafiq olaraq digər cinayətin ibtidai araşdırması və ya məhkəmə icraatı zamanı, habelə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq öz səlahiyyətlərini yerinə yetirərkən aldıqda;

208.0.5. məhkəmə cinayət haqqında məlumatı ədalət mühakiməsinin hər hansı icraatı üzrə həyata keçirilməsi zamanı öz səlahiyyətlərini yerinə yetirərkən aldıqda.

**Maddə 209. Cinayət işinin dərhal başlanması**

209.1. Bu Məcəllədə nəzərdə tutulmuş səbəblər və əsaslar mövcud olduğu bütün hallarda təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror dərhal cinayət işi başlamalıdır.

209.2. İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror həmçinin aşağıdakı hallarda dərhal cinayət işini aşkar edilmiş fakt üzrə başlamalıdır:

209.2.1. qətl əlamətlərinin izləri ilə insan meyiti aşkar edildikdə;

209.2.2. tanınmamış insan meyiti, insan bədəninin hissələri, yaxud onların basdırılma yerləri aşkar edildikdə;

209.2.3. insanların kütləvi həlak olması, yoluxması və ya zəhərlənməsi əlamətləri olduqda;

209.2.4. ictimai və ya yaşayış yerlərində, habelə dövlət müəssisə, idarə və ya təşkilatlarının binalarında güclü partlayış, yaxud yanğın baş verdikdə;

209.2.5. qanuni əsaslarla saxlama halları istisna olmaqla, odlu silah, döyüş sursatı, partlayıcı maddələr və qurğular, radioaktiv materiallar, zəhərləyici maddələr aşkar edildikdə;

209.2.6. insanların oğurlanması və ya onların girov götürülməsi əlamətləri, habelə insanlar xəbərsiz itkin düşdüyü hallarda onların qətlə yetirilməsinə şübhələr olduqda;

209.2.7. insan qanunsuz olaraq azadlıqdan məhrum edildikdə;

209.2.8. tarix və ya mədəniyyət abidələri, habelə qəbirlər üzərində təhqiredici hərəkətlər edildikdə;

209.2.9. silahlı qiyam olduqda, hakimiyyət zorla ələ keçirildikdə və ya zorla saxlanıldıqda;

209.2.10. Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsi barədə açıq çağırışlar olduqda;

209.2.11. kütləvi iğtişaş olduqda;

209.2.12. təxribat və ya terror aktı törədildikdə;

209.2.13. Azərbaycan Respublikası Prezidentinin, *Azərbaycan Respublikasının keçmiş Prezidentinin və ya onun arvadının (ərinin),* Azərbaycan Respublikası Milli Məclisi deputatının, Azərbaycan Respublikası Nazirlər Kabineti üzvünün həyatına sui-qəsd edildikdə; [327]

209.2.14. məhkəməyə hörmətsizlik edildikdə;

209.2.15. hakimin, prokurorun, müstəntiqin, təhqiqatçının, vəkilin, ekspertin, habelə təhqiqat və ya ibtidai istintaq orqanının, məhkəmənin icraatında olan cinayət işi üzrə zərər çəkmiş şəxsin və ya şahidin həyatına sui-qəsd edildikdə;

209.2.16. cəza çəkən və ya həbsdə olan şəxs müvafiq olaraq azadlıqdan məhrum etmə yerindən, həbsdən, yaxud mühafizə altından qaçdıqda.

**Maddə 210. Cinayət işinin başlanması qaydası**

210.1. Bu Məcəllənin 209-cu maddəsində nəzərdə tutulmuş hallarda təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror öz səlahiyyətləri daxilində cinayət işinin başlanması barədə qərar çıxarır.

210.2. Cinayət işinin başlanması barədə qərarda aşağıdakılar göstərilməlidir:

210.2.1. qərarın çıxarıldığı tarix, vaxt və yer;

210.2.2. qərarı çıxarmış şəxsin soyadı, adı və atasının adı, vəzifəsi;

210.2.3. cinayət işinin başlanmasına səbəb, əsas və ya fakt;

210.2.4. cinayət işinin başlanmasına dair cinayəti nəzərdə tutan cinayət qanununun maddəsi;

210.2.5. cinayət işinin başlanmasından sonra onun ibtidai araşdırılma aparılması üçün icraata götürülməsi və ya verilməsi. [328]

210.3. Cinayət işinin başlanması anında cinayətin törədilməsindən zərər çəkmiş şəxs məlum olduqda, cinayət işinin başlanması ilə eyni vaxtda həmin şəxs zərər çəkmiş kimi, cinayətin törədilməsi barədə məlumatla birlikdə mülki iddia verildikdə isə, bu şəxs həmin qərarda həmçinin mülki iddiaçı kimi tanınır.

210.4. Cinayət işinin başlanması barədə qərarın surəti həmin qərarı qəbul etmiş şəxs tərəfindən 24 saat müddətində cinayət haqqında məlumat vermiş fiziki, hüquqi və ya vəzifəli şəxsə, habelə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilir.

210.5. Cinayət işinin başlanması ilə eyni vaxtda davam edən və təkrar cinayətlərin qarşısının alınması, habelə cinayətin izlərinin, iş üçün əhəmiyyətli ola biləcək əşya və sənədlərin saxlanılması və mühafizəsi üçün tədbirlər görülməlidir.

210.6. Cinayət işinin başlanmasından sonra:

210.6.1. ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror cinayət işinin icraata götürülməsi və ibtidai istintaq aparılması üçün cinayət işini müstəntiqə göndərir və ya cinayət işini öz icraatına götürür və ibtidai istintaq aparır;

210.6.2. müstəntiq ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuroru cinayət işinin başlanması haqda məlumatlandırmaqla cinayət işi üzrə ibtidai istintaq aparır;

210.6.3. təhqiqatçı ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuroru cinayət işinin başlanması haqda məlumatlandırmaqla cinayət işi üzrə təhqiqat aparır.

**Maddə 211. Cinayət işlərinin birləşdirilməsi və cinayət işinin materiallarından başqa cinayət işinin ayrılması**

211.1. Cinayət işlərinin birləşdirilməsi bu Məcəllənin 49-cu maddəsində nəzərdə tutulmuş hallarda və qaydada həyata keçirilir.

211.2. Müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror aşağıdakı şərtlərdən biri mövcud olduqda öz icraatında olan cinayət işinin materiallarından başqa cinayət işini ayrıca icraata ayırır:

211.2.1. təqsirləndirilən şəxsin ittiham edildiyi cinayətlə bərabər onunla bağlı olmayan, təqsirləndirilən şəxs tərəfindən deyil, digər məlum və ya naməlum şəxslər tərəfindən təqsirləndirilən şəxsin iştirakı olmadan törədilmiş başqa cinayət müəyyən edildikdə;

211.2.2. ilkin cinayət işi üzrə icraat araşdırılan bəzi cinayətlərə aid olan hissədə dayandırılmalı olduqda;

211.2.3. ilkin cinayət işi üzrə icraat bir təqsirləndirilən şəxslər barəsində dayandırılmalı olduqda və digər təqsirləndirilən şəxslər barəsində dayandırılmalı olmadıqda;

211.2.4. digər şəxslərlə yanaşı ilkin cinayət işi üzrə təqsirləndirilən şəxs qismində yetkinlik yaşına çatmayanlar cəlb edildikdə (icraatın ayrılması mümkündürsə);

211.2.5. qapalı məhkəmə baxışı üçün əsaslar bir təqsirləndirilən şəxsə aid olduqda, digərlərinə aid olmadıqda;

211.2.6. cinayət işinin həcminin həddən artıq böyüklüyü işdə iştirak edən şəxslərin hüquq və qanuni mənafelərinin təmin edilməsinə maneçilik törətdikdə, araşdırmanı və işin məhkəməyə göndərilməsini yolverilməz dərəcədə uzatdıqda.

211.3. Bu Məcəllənin 211.2-ci maddəsində nəzərdə tutulmuş şərtlərdən biri və ya bir neçəsi mövcud olsa da, cinayət təqibi ilə bağlı bütün halların hərtərəfli, tam, obyektiv və vaxtında araşdırılmasına maneələr olduqda başqa cinayət işi ayrıla bilməz.

211.4. Başqa cinayət işinin ayrılması haqqında qərarda aşağıdakılar göstərilməlidir:

211.4.1. cinayət işinin ayrılması üçün əsaslar;

211.4.2. cinayət işinin ayrılması üçün səbəb olmuş epizodlar və şəxslər;

211.4.3. cinayət işinin ayrılmasına dair cinayəti nəzərdə tutan cinayət qanununun maddəsi;

211.4.4. cinayət işinin sonrakı ibtidai istintaqının aparılması və öz icraatına qəbul edilməsi haqqında qərar.

211.5. Başqa cinayət işinin ayrılması haqqında qərara işə daxil edilən materialların siyahısı və qərarların, protokolların, sənədlərin, maddi sübutların surətləri, yaxud əslləri əlavə edilir.

211.6. Başqa cinayət işinin ayrılması haqqında qərarın və ona daxil edilən materialların siyahısının birinci nüsxəsi cinayət işi üzrə ilkin icraata, ikinci nüsxəsi isə ayrılan cinayət işi üzrə icraata əlavə edilir. Başqa cinayət işinin ayrılması haqqında qərarın surəti 24 saat müddətində ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilir.

211.7. Başqa cinayət işinin ayrılması və onun gələcək istiqaməti barədə cinayət işi üzrə ilkin icraatda iştirak etmiş təqsirləndirilən şəxs, onun qanuni nümayəndəsi və müdafiəçisi, habelə qanuni mənafeləri ilə əlaqəli olduqda zərər çəkmiş şəxs, mülki iddiaçı, mülki cavabdeh və onların nümayəndələri məlumatlandırılır.

**Maddə 212. Cinayət işinin başlanmasının rədd edilməsi**

212.1. Cinayət işinin başlanması üçün səbəblərin qanunsuz olduğu və ya əsasın olmadığı halda təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərar çıxarır.
212.2. Cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarın surəti həmin qərarı qəbul etmiş şəxs tərəfindən 24 saat müddətində ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora, habelə törədilmiş və ya hazırlanan cinayət haqqında məlumat vermiş fiziki, hüquqi və ya vəzifəli şəxsə göndərilir. [329]
212.3. Təhqiqatçının, müstəntiqin və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarından müvafiq olaraq ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora, yuxarı prokurora, yaxud məhkəməyə şikayət verilə bilər.
212.4. Təhqiqatçının, müstəntiqin və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarında verilmiş şikayət üzrə aşağıdakı hərəkətlər yerinə yetirilir:
212.4.1. ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror və ya yuxarı prokuror göstərilən qərarı ləğv edir, 10 (on) gündən artıq olmayan müddətdə əlavə yoxlama keçirilməklə və yaxud keçirilməməklə cinayət işinin başlanması haqqında qərar qəbul edir və onu ibtidai istintaqın aparılması üçün müstəntiqə göndərir, yaxud cinayət işinin başlanmasının rədd edilməsi haqqında çıxarılmış qərarı dəyişdirilmədən saxlayır; [330]
212.4.2. məhkəmə nəzarəti funksiyalarını həyata keçirən məhkəmə göstərilən qərarı ləğv edir və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun diqqətini bu Məcəllənin 207, 209 və 210-cu maddələrinin tələblərinin pozulmasına cəlb etməklə bu tələblərin yerinə yetirilməsinin təmin edilməsi barədə qərar qəbul edir, yaxud cinayət işinin başlanmasının rədd edilməsi haqqında çıxarılmış qərarı dəyişdirilmədən saxlayır.

**Maddə 213. Cinayət haqqında məlumatın istintaq və ya məhkəmə aidiyyəti üzrə göndərilməsi**

213.1. Aşağıdakı hallarda təhqiqatçı və ya müstəntiq cinayət işini başlamadan törədilmiş və ya hazırlanan cinayət haqqında məlumatı istintaq aidiyyəti üzrə göndərə bilər:
213.1.1. həmin cinayətin araşdırılması onun səlahiyyətinə aid olmadıqda;
213.1.2. cinayət onun fəaliyyət dairəsinin hüdudlarından kənar ərazidə törədildikdə.
213.2. İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror cinayət işini başlamadan törədilmiş və ya hazırlanan cinayət haqqında məlumatı yalnız həmin cinayət onun fəaliyyət dairəsinin hüdudlarından kənar ərazidə törədildikdə, cinayət işinin başlanması haqqında məsələnin həll edilməsi üçün isə cinayətin törədildiyi yer üzrə yoxlama hərəkətlərinin aparılması zərurəti olduqda, istintaq aidiyyəti üzrə göndərə bilər.
213.3. Təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror xüsusi ittiham qaydasında təqib edilən cinayətlər haqqında zərər çəkmiş şəxslərin şikayətlərini məhkəmə aidiyyəti üzrə birinci instansiya məhkəməsinə göndərməlidir.
213.4. Törədilmiş və ya hazırlanan cinayət haqqında məlumatı istintaq aidiyyəti qaydasında almış təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror öz səlahiyyətləri daxilində bu Məcəllənin 207, 209 və 210-cu maddələrində nəzərdə tutulmuş tədbirlər görməlidir.
213.5. Cinayət haqqında məlumatın istintaq və ya məhkəmə aidiyyəti üzrə göndərilməsi barədə qərarın surəti həmin qərarı qəbul etmiş şəxs tərəfindən 24 saat müddətində ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora, habelə törədilmiş və ya hazırlanan cinayət haqqında məlumat vermiş fiziki, hüquqi və ya vəzifəli şəxsə göndərilir. [331]

## XXVI fəsil

## İbtidai araşdırmanın ümumi şərtləri

**Maddə 214. Cinayət işləri üzrə təhqiqatın aparılması**

214.1. Təhqiqat ibtidai araşdırmanın növü kimi aşağıdakı şəkildə aparılır:
214.1.1. ibtidai istintaqı məcburi olan cinayət işləri üzrə təxirəsalınmaz istintaq

hərəkətlərinin icraatı;

214.1.2. böyük ictimai təhlükə törətməyən bəzi aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat.

214.2. Cinayət işləri üzrə təhqiqatı aşağıdakı təhqiqat orqanları və şəxslər aparırlar:

214.2.1. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının (təhqiqat orqanlarının) təhqiqatçıları — Azərbaycan Respublikasının həmin müvafiq icra hakimiyyəti orqanları müstəntiqlərinin səlahiyyətlərinə aid edilmiş cinayət işləri üzrə;

214.2.2. rəhbərlik etdikləri hərbi hissələrin, hərbi idarələrin (müvafiq icra hakimiyyəti orqanına aid hərbi hissələr və hərbi idarələr istisna olmaqla), cəzaçəkmə müəssisələrinin, *həbs yerlərinin*, dəniz gəmilərinin yerləşdiyi ərazidə (ərazi üzrə) törədilmiş cinayətlərə dair cinayət işləri üzrə — müvafiq olaraq təhqiqatçı səlahiyyətlərini həyata keçirən hərbi hissə komandirləri, hərbi idarə rəisləri, cəzaçəkmə müəssisələrinin və ya *həbs yerlərinin* rəisləri, dəniz gəmilərinin kapitanları və digər müvəkkil edilmiş şəxslər; əks-kəşfiyyat fəaliyyətinin təminatını, həyata keçirilən hərbi hissələrdə, hərbi idarələrdə təhlükəsizlik orqanlarının səlahiyyətlərinə aid olan işlər üzrə — müvafiq icra hakimiyyəti orqanlarının təhqiqatçıları.[332]

214.2.3. müvafiq icra hakimiyyəti orqanına aid hərbi hissələrin və hərbi idarələrin ərazisində hərbi qulluqçular tərəfindən və ya hərbi xidmət əleyhinə törədilmiş cinayətlərə dair işlər üzrə — müvafiq icra hakimiyyəti orqanının təhqiqatçıları. [333]

214.3. Təxirəsalınmaz istintaq hərəkətlərinin aparılması şəklində təhqiqat cinayətin izlərinin müəyyən edilməsi və rəsmiləşdirilməsi məqsədi ilə aparılır. Təhqiqatı bu şəkildə apararkən bu Məcəllənin 147, 148, 153, 207, 209, 210, *227*—232, *234 – 236, 238 – 247, 260 – 264* , 268—270, 273—276-cı maddələrinin müddəalarına müvafiq olaraq təhqiqatçı:[334]

214.3.1. cinayət işini başlayır və bu barədə dərhal ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora məlumat verir;

214.3.2. şübhəli şəxsi *tutur və bu Məcəllənin 86.4.2-ci maddəsində göstərilən təxirəsalınmaz* istintaq hərəkətlərini aparır; [335]

214.3.3. cinayət işinin başlanmasından sonra 10 (on) gündən gec olmayaraq sonrakı araşdırmanın aparılması üçün cinayət işini istintaq orqanına göndərir;

214.3.4. cinayət işinin başlanmasından 10 (on) gün keçdikdən sonra müstəntiq və ya ibtidai araşdırmanı həyata keçirən prokurorun tapşırığı ilə ayrı-ayrı istintaq hərəkətlərini aparır və ya əməliyyat-axtarış tədbirlərini həyata keçirir;

214.3.5. cinayət işinin başlanmasından 10 (on) gün keçdikdən sonra cinayət açılmamış qalarsa, cinayəti törətmiş şəxsin müəyyən və aşkar edilməsi, tutulması və müstəntiqə təhvil verilməsinə dair tədbirlər görür.

214.4. Məhkəməyədək sadələşdirilmiş icraat şəklində təhqiqat Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 127.1, 128-131, 174, 175, 177.1, 185.1, 186.1, 187.1, 187.2, 188, 197.1, 200.1, 201.1, 221.1, 256.1, 256.2, 258.1, 258.2, 259.1, 263.1 və 326-cı maddələri ilə nəzərdə tutulmuş böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə aparılır.[336]

214.5. Böyük ictimai təhlükə törətməyən cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat şəklində təhqiqat bu Məcəllənin 293—297-ci maddələrində nəzərdə tutulmuş müddəalara uyğun aparılır.

214.6. Öz səlahiyyətləri daxilində istintaq hərəkətlərini apararkən təhqiqatçı aparılan təhqiqatın növündən asılı olmayaraq müvafiq istintaq hərəkətlərinin keçirilməsi qaydasını nəzərdə tutan bu Məcəllənin maddələrinin tələblərinin yerinə yetirilməsini təmin etməklə müstəntiqin hüquqlarından istifadə edir və onun vəzifələrini yerinə yetirir.

**Maddə 215. Cinayət işləri üzrə ibtidai istintaqın aparılması**

215.1. Böyük ictimai təhlükə törətməyən cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat şəklində aparılan təhqiqat istisna olmaqla, bütün cinayət işləri üzrə ibtidai istintaqın aparılması məcburidir.

215.2. Cinayət işləri üzrə ibtidai istintaq prokurorluq və Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları tərəfindən aparılır.

215.3. İbtidai istintaq aşağıdakı hallarda prokurorluq tərəfindən aparılır: [337]

215.3.1. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100—113, 120—125, 126.3, 135—138, 145, 146, *148-1,* 149, 154-162, 162-1 (cinayət işi prokurorluqda başlandıqda), 163, 164, 165.2, 165-2, 165-3, 166.2, ~~167—168,~~ 169-1, 179, 189-1, 190, 191, *192-2,* 193-1 *(cinayət işi prokurorluqda başlandıqda)*, 195, 195-1, *195-2,* 202 - 203-1, 208, 210—212, 222, 223, 262, 268, 286—288, 290—302, 304, 307—315, 316-2.1, 317, 317-1.2, 318-1, ~~*318-2,*~~ 321, 323-cü maddələrində nəzərdə tutulmuş cinayətlərə dair işlər üzrə;[338]

215.3.2. cinayətin törədilməsində Azərbaycan Respublikası Prezidentinin, *Azərbaycan Respublikasının keçmiş Prezidentinin və ya onun arvadının (ərinin),* Milli Məclisin deputatlarının, Baş nazirin, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın), Məhkəmə-Hüquq Şurasının üzvlərinin, hakimlərin, prokurorluq orqanları əməkdaşlarının,

Azərbaycan Respublikasının xaricdəki diplomatik idarələrinin və xarici dövlətlərin Azərbaycan Respublikasındakı diplomatik nümayəndəliklərinin əməkdaşlarının, habelə ədliyyə, polis, təhlükəsizlik, miqrasiya, *fövqəladə hallar*, vergi və gömrük orqanları əməkdaşlarının təqsirləndirilməsi ilə bağlı cinayət işləri üzrə. [339]

215.4. Müharibə cinayətlərinə və hərbi xidmət əleyhinə olan cinayətlərə dair, habelə hərbi qulluqçular tərəfindən törədilmiş cinayətlərə dair işlər üzrə ibtidai istintaq hərbi prokurorluq tərəfindən aparılır (göstərilən cinayətlər hərbi qulluqçu olmayan şəxsin iştirakı ilə törədilərsə, onun barəsində cinayət işi üzrə ibtidai istintaq da hərbi prokurorluq tərəfindən aparılır). [340]

215.5. Bu Məcəllənin 215.3 və 215.4-cü maddələrində nəzərdə tutulmuş hallardan başqa, digər cinayət işləri üzrə ibtidai istintaq Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları tərəfindən aparılır.

215.6. Cinayət işi üzrə məhkəməyədək icraat zamanı həmin işin bir neçə istintaq orqanına aid olduğu müəyyən edildikdə, ibtidai istintaqın hərtərəfli, tam və obyektiv aparılması üçün Azərbaycan Respublikası Baş prokurorunun, onun müavinlərinin, habelə Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən müvafiq səlahiyyət verilmiş ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun əsaslandırılmış qərarı əsasında:**[341]**

215.6.1. prokurorluğa və Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarına aid olan cinayət işi üzrə — prokurorun və ya prokurorluğun müstəntiqinin rəhbərliyi ilə birgə istintaq qrupu yaradılır;

215.6.2. Azərbaycan Respublikasının bir neçə müvafiq icra hakimiyyəti orqanına aid olan cinayət işi üzrə — cinayətin ağırlıq dərəcəsindən asılı olaraq həmin orqanların müstəntiqlərindən ibarət birgə istintaq qrupu yaradılır və onun rəhbəri müəyyən edilir.

215.7. Cinayət işi üzrə ibtidai istintaqın hərtərəfli, tam obyektiv aparılması üçün işin aidiyyəti olan istintaq orqanından digər istintaq orqanına verilməsinə aşağıdakı müstəsna hallarda Azərbaycan Respublikası Baş prokurorunun əsaslandırılmış qərarı əsasında yol verilir:

215.7.1. cinayət işinin istintaqı aid olan orqan tərəfindən cinayətin qeydiyyatdan gizlədilməsi müəyyən edildikdə (Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının rəhbəri tərəfindən zəruri tədbirlər görülməmişdirsə, o cümlədən göstərilən hallar aradan qaldırılmamışdırsa və təqsirli şəxslər məsuliyyətə cəlb olunmamışdırsa);

215.7.2. cinayət işinin istintaqı aid olan orqan tərəfindən işin istintaqı zamanı təqsirləndirilən şəxsin qanunsuz həbsdə saxlanılması və ya ona işgəncə verilməsi müəyyən edildikdə;

215.7.3. cinayət işinin istintaqı aid olan orqan tərəfindən bu Məcəllənin 92.3-cü maddəsində nəzərdə tutulmuş hallarda şəxsin müdafiəçi ilə təmin edilməməsi müəyyən olunduqda;

215.7.4. cinayət işinin istintaqı aid olan Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanının rəhbəri, yaxud onun yaxın qohumu həmin iş üzrə zərər çəkmiş, şübhəli və ya təqsirləndirilən şəxs, mülki iddiaçı, yaxud mülki cavabdeh olduqda;

*215.7.5. dövlətin və cəmiyyətin mənafeyinə qəsd edən cinayətin xarakteri, işin xüsusiyyətləri və ibtidai araşdırmanın maraqları tələb etdikdə.* **[342]**

215.8. Azərbaycan Respublikası Baş prokurorunun özü və ya yaxın qohumu iş üzrə zərər çəkmiş, şübhəli və ya təqsirləndirilən şəxs, mülki iddiaçı, yaxud mülki cavabdehdirsə, istintaqı prokurorluğa aid olan işin digər istintaq orqanına verilməsi Azərbaycan Respublikası Baş prokurorunun birinci müavininin əsaslandırılmış qərarı əsasında həyata keçirilir.

215.9. Bu Məcəllənin tələblərinə uyğun olaraq başlanmış cinayət işi üzrə istintaq aparan orqanın səlahiyyətinə aid olmayan cinayət qanunu ilə nəzərdə tutulmuş əməllərin əlamətləri sonradan aşkar edildikdə, toplanmış materialların həcminin böyüklüyü və ya təqsirləndirilən şəxslərin sayının çoxluğu işin istintaqını gecikdirdiyi və başqa formada çətinlik yaratdığı müstəsna hallarda cinayət təqibinin səmərəliliyini və istintaq müddətlərinə riayət olunmasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Baş prokurorunun əsaslandırılmış qərarı ilə istintaqın davam etdirilməsi həmin orqana həvalə edilə bilər. [343]

### Maddə 216. İbtidai araşdırmanın aparıldığı yer

216.1. İbtidai araşdırma cinayətin törədildiyi yer üzrə (inzibati ərazi vahidi üzrə) aparılır.

216.2. Cinayət işi üzrə məhkəməyədək icraatın hərtərəfli, tam, obyektiv və vaxtında aparılmasını təmin etmək məqsədi ilə ibtidai araşdırma Azərbaycan Respublikası Baş prokurorunun, Naxçıvan Muxtar Respublikasının ərazisində həmçinin Naxçıvan Muxtar Respublikası prokurorunun qərarı əsasında cinayətin aşkar olunduğu, şübhəli və ya təqsirləndirilən şəxsin, habelə şahidlərin əksəriyyətinin olduğu yer üzrə də aparıla bilər.

[344]

216.3. İbtidai araşdırma zamanı ayrı-ayrı istintaq hərəkətlərinin başqa ərazidə aparılması zərurəti yarandıqda müstəntiq aşağıdakı hərəkətləri yerinə yetirmək hüququna malikdir:

216.3.1. öz qərarı ilə bu hərəkətlərin aparılmasını şübhəli, təqsirləndirilən şəxsin və ya şahidlərin əksəriyyətinin olduğu yeri üzrə müstəntiqə, yaxud təhqiqatçıya həvalə etmək;

216.3.2. təxirəsalınmaz hallarda həmin hərəkətləri təqsirləndirilən, şübhəli şəxsin və ya şahidlərin əksəriyyətinin olduqları yer üzrə həmin ərazidə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora məlumat verməklə aparmaq.[345]

**Maddə 217. İbtidai araşdırmanın başlanması**

217.1. İbtidai istintaq və ya təhqiqat şəklində ibtidai araşdırma *(bu Məcəllənin 207.4-cü maddəsində nəzərdə tutulmuş prosessual hərəkətlər istisna olmaqla)* yalnız cinayət işinin başlanması haqqında qərar çıxarıldıqdan sonra aparılır.[346]

217.2. Cinayət işinin başlanmasından sonra müstəntiq və ya təhqiqatçı bu Məcəllənin 85 və 86-cı maddələrində nəzərdə tutulmuş səlahiyyətlərinə və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun göstərişinə əsasən onu öz icraatına qəbul edir və müvafiq qərar çıxarmaqla iş üzrə ibtidai araşdırmaya başlayır. Cinayət işi eyni müstəntiq və ya təhqiqatçı tərəfindən başlandıqda və onlar tərəfindən öz icraatına qəbul edildikdə cinayət işinin başlanması və onun öz icraatına qəbul edilməsi haqqında vahid qərar tərtib edilir.

217.3. Bu Məcəllənin 217.1-ci maddəsində göstərilən qərar çıxarıldıqdan sonra onun*, habelə işin icraata qəbul edilməsi haqqında qərarın* surəti 24 saat müddətində ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilir.[347]

**Maddə 218. İbtidai araşdırmanın müddətləri**

218.1. Təxirəsalınmaz istintaq hərəkətlərinin aparılması şəklində təhqiqat hər bir halda cinayət işinin başlanmasından ən geci 10 (on) gündən artıq olmayan müddətdə başa çatır. Böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat şəklində təhqiqat şikayətin daxil olduğu vaxtdan 10 (on) gün müddətində, bu Məcəllənin 295.3-cü maddəsində nəzərdə tutulmuş hallarda isə 20 (iyirmi) gün müddətində aparılır.[348]

218.2. Cinayət işi üzrə ibtidai istintaq aşağıdakı müddətlərdə başa çatmalıdır:

218.2.1. böyük ictimai təhlükə törətməyən cinayətlər üzrə — cinayət işinin başlanmasından ən geci 2 (iki) ay keçdikdən sonra;

218.2.2. az ağır cinayətlər üzrə — cinayət işinin başlanmasından ən geci 3 (üç) ay keçdikdən sonra;

218.2.3. ağır cinayətlər üzrə — cinayət işinin başlanmasından ən geci 4 (dörd) ay keçdikdən sonra;[349]

218.2.4. xüsusilə ağır cinayətlər üzrə — cinayət işinin başlanmasından ən geci 4 (dörd) ay keçdikdən sonra.

218.3. İbtidai istintaq müddəti cinayət işinin başlandığı gündən hesablanır, işin məhkəməyə göndərilməsi və ya icraatına xitam verilməsi haqqında qərarın çıxarıldığı gün bitir.

218.4. ~~Təqsirləndirilən şəxsin və onun müdafiəçisinin cinayət işinin materialları ilə tanış olma müddəti cinayət işi üzrə ibtidai istintaqın müddətinə daxil deyil.~~ Təqsirləndirilən şəxs və onun müdafiəçisi qəsdən və üzrlü səbəblər olmadan cinayət işinin materialları ilə tanışlığı uzatdıqda, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror müstəntiqin vəsatəti üzrə öz qərarı ilə həmin müddəti məhdudlaşdıra bilər.[350]

218.5. İbtidai istintaq müddətinə həmçinin bu Məcəllənin 53.1-ci maddəsində nəzərdə tutulmuş əsaslarla cinayət işi üzrə ibtidai istintaqın dayandırıldığı müddət daxil edilmir.

218.6. Cinayət işinin mürəkkəbliyi ilə əlaqədar bu Məcəllənin 218.2-ci maddəsi ilə müəyyən edilmiş ibtidai istintaq müddəti müstəntiqin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında müvafiq olaraq Azərbaycan Respublikasının Hərbi prokuroru, Bakı şəhər prokuroru, Naxçıvan Muxtar Respublikasının prokuroru və ya Azərbaycan Respublikası Baş prokurorunun müavini tərəfindən aşağıdakı qaydada uzadıla bilər:

218.6.1. böyük ictimai təhlükə törətməyən cinayətlər üzrə — 2 (iki) aydan çox olmayan müddətə;

218.6.2. az ağır cinayətlər üzrə — 2 (iki) aydan çox olmayan müddətə;[351]

218.6.3. ağır cinayətlər üzrə — 3 (üç) aydan çox olmayan müddətə;

218.6.4. xüsusilə ağır cinayətlər üzrə — 4 (dörd) aydan çox olmayan müddətə.

218.7. Cinayət işinin xüsusi mürəkkəbliyi ilə əlaqədar bu Məcəllənin 218.6-cı maddəsinə müvafiq olaraq yuxarı prokuror tərəfindən həmin iş üzrə ibtidai istintaqın uzadılmış müddəti müstəntiqin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun müvafiq olaraq Azərbaycan Respublikasının Hərbi prokuroru, Bakı şəhər prokuroru və ya Naxçıvan Muxtar Respublikasının prokuroru ilə razılaşdırılmış təqdimatı əsasında Azərbaycan Respublikası Baş prokurorunun müavini tərəfindən aşağıdakı qaydada uzadıla bilər:

218.7.1. böyük ictimai təhlükə törətməyən cinayətlər üzrə — 1 (bir) aydan çox olmayan müddətə;

218.7.2. az ağır cinayətlər üzrə — 2 (iki) aydan çox olmayan müddətə;

218.7.3. ağır cinayətlər üzrə — 3 (üç) aydan çox olmayan müddətə;

218.7.4. xüsusilə ağır cinayətlər üzrə — 5 (beş) aydan çox olmayan müddətə.[352]

218.8. Cinayət işinin müstəsna mürəkkəbliyi ilə əlaqədar bu Məcəllənin 218.7-ci maddəsinə müvafiq olaraq yuxarı prokuror tərəfindən həmin iş üzrə ibtidai istintaqın uzadılmış müddəti müstəntiqin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun müvafiq olaraq Azərbaycan Respublikasının Hərbi prokuroru, Bakı şəhər prokuroru və ya Naxçıvan Muxtar Respublikasının prokuroru, habelə Azərbaycan Respublikası Baş prokurorunun müavini ilə razılaşdırılmış təqdimatı əsasında Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən aşağıdakı qaydada uzadıla bilər:

218.8.1. böyük ictimai təhlükə törətməyən cinayətlər üzrə — 1 (bir) aydan çox olmayan müddətə;

218.8.2. az ağır cinayətlər üzrə — 3 (üç) aydan çox olmayan müddətə;[353]

218.8.3. ağır cinayətlər üzrə — 3 (üç) aydan çox olmayan müddətə;

218.8.4. xüsusilə ağır cinayətlər üzrə — 6 (altı) aydan çox olmayan müddətə.

218.9. İbtidai istintaqın müddətinin uzadılması haqqında müstəntiqin əsaslandırılmış vəsatəti və müvafiq prokurorlarla razılaşdırılmış ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı ibtidai istintaq müddətinin bitməsinə ən geci 7 (yeddi) gün qalmış yuxarı prokurora təqdim edilməlidir. Yuxarı prokuror ibtidai istintaq müddətinin uzadılması məsələsinə baxarkən aşağıdakı hərəkətləri yerinə yetirməlidir:

218.9.1. müstəntiqlərin vəsatətlərinin və aşağı prokurorların təqdimatlarının qanuniliyini və əsaslılığını yoxlamaq;

218.9.2. cinayət işi üzrə məhkəməyədək icraatın hərtərəfli, tam, obyektiv və vaxtında aparılmasının təmin edilməsi üzrə müstəntiqin və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun fəaliyyətini qiymətləndirmək;

218.9.3. cinayət işi üzrə ibtidai istintaq müddətinin uzadılması və ya həmin müddətin uzadılmasının rədd edilməsi haqqında əsaslandırılmış qərar qəbul etmək;

218.9.4. cinayət işinin araşdırılması ilə bağlı süründürməçilik və ya bu Məcəllənin tələblərinin pozulması hallarını müəyyən etdikdə, öz səlahiyyətləri daxilində təsir tədbirləri görmək.

218.10. Bu Məcəllənin 218.3—218.9-cu maddələrinin müddəalarına riayət etməklə açılmış cinayət haqqında cinayət işi üzrə ibtidai istintaq hər bir halda aşağıdakı müddətlər daxilində qurtarmalıdır:

218.10.1. böyük ictimai təhlükə törətməyən cinayətin törədilməsində ittiham üzrə — 6 (altı) aydan çox olmayan müddətdə;

218.10.2. az ağır cinayətin törədilməsində ittiham üzrə — 10 (on) aydan çox olmayan müddətdə;[354]

218.10.3. ağır cinayətin törədilməsində ittiham üzrə — 13 (on üç) aydan çox olmayan müddətdə;[355]

218.10.4. xüsusilə ağır cinayətin törədilməsində ittiham üzrə — 19 (on doqquz) aydan çox olmayan müddətdə.[356]

218.11. Açılmamış cinayət haqqında cinayət işi üzrə ibtidai istintaq müddətləri bu Məcəllənin 218.8 və 218.9-cu maddələrinin tələblərinə riayət etməklə cinayət açılanadək bir neçə dəfə Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən uzadıla bilər. Cinayət açıldıqdan sonra iş üzrə ibtidai istintaq müddətləri Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən bu Məcəllənin 218.8 və 218.9-cu maddələrinin tələblərinə riayət etməklə yalnız bir dəfə uzadıla bilər. Cinayətin törədilməsində iştirakı müəyyən olunmuş şəxsin obyektiv səbəblərə görə cinayət məsuliyyətinə cəlb olunmadığı halda da ibtidai istintaq müddətləri ittiham aktında həmin şəxsə qarşı ittiham irəli sürülənədək Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən bu Məcəllənin 218.8 və 218.9-cu maddələrinin tələblərinə riayət etməklə uzadıla bilər. [357]

*218.12. Bu Məcəllənin 303 və ya 318.2-ci maddələrinə əsasən ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılmış cinayət işi üzrə bu Məcəllənin 218.10 və ya 218.11-ci maddələrində göstərilən ibtidai istintaq müddətləri qurtardıqda, Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən iş üzrə ibtidai istintaq müddətləri bu Məcəllənin 218.8 və 218.9-cu maddələrinin tələblərinə riayət etməklə bir dəfə uzadıla bilər.* [358]

**Maddə 219. İbtidai araşdırmanın qurtarması**

219.1. İbtidai araşdırma ittiham aktının tərtib edilməsi ilə tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üçün cinayət işinin məhkəməyə göndərilməsi haqqında və ya cinayət işi üzrə icraata xitam verilməsi haqqında qərarla qurtarır.
219.2. İbtidai istintaqın aparılması məcburi olan cinayət işləri üzrə təxirəsalınmaz istintaq hərəkətlərini apardıqdan sonra və hər bir halda cinayət işi başlanandan 10 (on) gün sonra təhqiqatçı müvafiq qərar çıxarmaqla cinayət işini müstəntiqə göndərir. Həmin qərarın surəti 24 saat müddətində ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilir. Cinayət işinin müstəntiqə göndərilməsi barədə cinayət işi üzrə ilkin istintaq hərəkətlərinin aparılmasında iştirak etmiş təqsirləndirilən şəxsə, onun qanuni nümayəndəsinə və müdafiəçisinə, habelə zərər çəkmiş şəxsə, mülki iddiaçıya, mülki cavabdehə və onların nümayəndələrinə məlumat verilir.

**Maddə 220. Cinayət prosesi iştirakçılarının hüquqlarının izahının təmin edilməsinin və vəsatətlərinə baxılmasının məcburiliyi**

220.1. İbtidai araşdırmanın aparılması zamanı müstəntiq və ya təhqiqatçı şübhəli, təqsirləndirilən şəxsə, mülki iddiaçıya, mülki cavabdehə və onların nümayəndələrinə, istintaq hərəkətlərinin aparılmasında iştirak edən digər şəxslərə onların hüquq və vəzifələrini, habelə üzərlərinə qoyulmuş vəzifələrin icra edilməməsinin nəticələrini izah etməlidir.
220.2. İbtidai araşdırmanın aparılması zamanı müstəntiq və ya təhqiqatçı cinayət prosesi iştirakçılarının qaldırdığı bütün vəsatətlərə baxmalıdır.
220.3. Cinayət təqibi ilə bağlı olan bütün halların hərtərəfli, tam və obyektiv araşdırılması üçün əhəmiyyət kəsb etdikdə, müstəntiq və ya təhqiqatçı şübhəli, təqsirləndirilən şəxsin, mülki iddiaçının, mülki cavabdehin və onların nümayəndələrinin, şahidlərin dindirilməsi, ekspertizanın keçirilməsi, digər istintaq hərəkətlərinin aparılması haqqında yazılı vəsatətlərinin təmin edilməsini əsassız rədd edə bilməz.
220.4. Yazılı və şifahi vəsatətlərə müstəntiq və ya təhqiqatçı tərəfindən daxil olduğu vaxtdan 5 (beş) gündən artıq olmayan müddətdə baxılmalıdır.
220.5. Vəsatətlərin təmin edilməsinin və ya tam, yaxud qismən rədd edilməsi haqqında müstəntiq və ya təhqiqatçı əsaslandırılmış qərar çıxarmalı və bu qərarı dərhal vəsatəti qaldırmış şəxsə göndərməlidir.

**Maddə 221. Cinayətin törədilməsinə şərait yaradan halların müəyyən edilməsi və aradan qaldırılması vəzifəsi**

221.1. İbtidai araşdırmanın aparılması zamanı müstəntiq cinayətin törədilməsinə imkan yaradan halları (səbəb və şəraiti) müəyyən etməlidir. Bu halları müəyyən etdikdə müstəntiq zərurət olduqda müvafiq hüquqi və ya vəzifəli şəxsin ünvanına cinayətin törədilməsinə şərait yaradan halların aradan qaldırılması üçün tədbirlər görülməsi barədə təqdimat göndərir.
221.2. Cinayətin törədilməsinə şərait yaradan halların aradan qaldırılması üçün tədbirlər görülməsi haqqında müstəntiqin təqdimatına baxılması məcburidir, nəticəsi barədə bir ay müddətində müstəntiqə yazılı məlumat verilməlidir.

**Maddə 222. İbtidai araşdırma məlumatlarının yayılmasının yolverilməzliyi**

*222.1. İbtidai araşdırma məlumatlarının yayılması, bu Məcəllənin 222.2 və 222.6-cı maddələrində nəzərdə tutulmuş hallardan başqa, yolverilməzdir.*
*222.2. İbtidai araşdırma məlumatları cinayət prosesinin iştirakçıları və jurnalistlər tərəfindən yalnız müvafiq olaraq müstəntiqin, təhqiqatçının, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun və ya məhkəmənin icazəsi ilə ibtidai araşdırmanın maraqlarına zidd olmayan və cinayət prosesinin digər iştirakçılarının hüquq və qanuni mənafelərini pozmayan həddə yayıla bilər.*
*222.3. Terrorçuluq cinayətləri, silahlı mütəşəkkil dəstələr tərəfindən törədilən cinayətlər üzrə davam edən ibtidai araşdırmanın məlumatlarının yayılmasına, habelə bu Məcəllənin 52-ci maddəsində nəzərdə tutulmuş qaydada tərtib edilən və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sənədləşdirilmiş informasiya hesab edilən cinayət təqibi üzrə icraat materiallarının surətlərinin olduğu kimi yayılmasına icazə verilmir (cinayət prosesi iştirakçılarının bu Məcəllə ilə müəyyən edilən prosessual hüquqlarının təmin edilməsi ilə bağlı olan hallar istisna olmaqla).*[359]
222.4. İbtidai araşdırma zamanı bu Məcəllənin 222.1—222.3-cü maddələrinin müddəalarına riayət edilməsinin təmin edilməsi məqsədi ilə müstəntiq və ya təhqiqatçı şahidə, zərər çəkmiş şəxsə, mülki iddiaçıya və mülki cavabdehə, onların nümayəndələrinə, mütəxəssislərə, ekspertlərə, tərcüməçilərə, hal şahidlərinə, müdafiəçilərə və digər şəxslərə onların razılığı olmadan ibtidai araşdırma məlumatlarının yayılmasının, *o cümlədən bu Məcəllə ilə nəzərdə tutulmuş hallarda və qaydada əldə edilmiş prosessual sənədlərin surətlərinin prosessual məqsədlərdən kənar yayılmasının* yolverilməzliyi barədə yazılı xəbərdarlıq edir. *Belə xəbərdarlıq edilməmişdirsə,*

*yayılması cinayətin açılmasına, cinayət törətmiş şəxsin tutulmasına, ibtidai araşdırmanın normal gedişinə mane ola bilən məlumatların yayılmasına görə cinayət prosesini həyata keçirən şəxs məsuliyyət daşıyır.*[360]

222.5. Şəxsi həyatın toxunulmazlığının pozulması nəticəsində hər hansı şəxsə mənəvi və ya maddi ziyan vurulduqda həmin pozuntuya yol vermiş təhqiqatçı, müstəntiq, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror və ya hakim, habelə ibtidai araşdırma məlumatlarının yayılmasının yolverilməzliyi haqqında xəbərdar edilmiş hər bir şəxs Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məsuliyyət daşıyır.

*222.6. İctimai maraq kəsb etməsi, yanlış məlumatların yayılmasının qarşısının alınması və ya cinayətə görə məsuliyyətin labüdlüyünün nümayiş etdirilməsi ilə əlaqədar ibtidai araşdırma məlumatları ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən və ya ibtidai araşdırmanı aparan orqan tərəfindən bilavasitə və ya media ilə açıqlana bilər. Bu zaman açıqlanan məlumat cinayət hadisəsi ilə bağlı əldə edilmiş ibtidai araşdırma nəticələrindən ibarət olmalı, davam edən ibtidai araşdırmanın maraqlarına, cinayət prosesinin digər iştirakçılarının şəxsi həyat toxunulmazlığı hüququna zidd olmayan həddə olmalı, təqsirsizlik prezumpsiyasına uyğun olaraq şübhəli və ya təqsirləndirilən şəxsin cinayətə aidiyyəti ilə bağlı hissədə onun cinayəti törətməkdə şübhəli bilinməsinə dair həddi keçməməlidir.*

*222.7. Yetkinlik yaşına çatmayan şübhəli, təqsirləndirilən və ya zərər çəkmiş şəxslərin şəxsiyyəti barədə məlumatların açıqlanmasına yalnız həmin şəxslərin və onların qanuni nümayəndələrinin razılığı ilə yol verilir.*[361]

## XXVII fəsil

## Təqsirləndirilən şəxs qismində cəlb etmə

### Maddə 223. Təqsirləndirilən şəxs qismində cəlb etmənin əsası və qaydası

223.1. Şəxsin təqsirləndirilən şəxs qismində cəlb edilməsi üçün əsas cinayətin onun tərəfindən törədilməsinə dəlalət edən ilkin sübutların məcmusudur.

223.2. Bu Məcəllənin 223.1-ci maddəsində nəzərdə tutulmuş sübutlar olduqda müstəntiq şəxsin təqsirləndirilən şəxs qismində cəlb edilməsi haqqında əsaslandırılmış qərar çıxarır.

223.3. Şəxsin təqsirləndirilən şəxs qismində cəlb edilməsi haqqında qərarın təsviri-əsaslandırıcı hissəsində aşağıdakılar göstərilir:

223.3.1. təqsirləndirilən şəxsin soyadı, adı, atasının adı və onun şəxsiyyəti barədə hüquqi əhəmiyyət kəsb edən digər məlumatlar;

223.3.2. cinayətin törədildiyi yer, vaxt, törədilmə üsulu, nəticəsi, təqsirin forması, cinayətin motivi və tövsifedici əlamətlər göstərilməklə ittihamın mahiyyəti;

223.3.3. cinayət etməyə cəhd və ya cinayətə hazırlıq mövcud olduqda, cinayətin başa çatdırılmamasının səbəbləri;

223.3.4. cinayət bir qrup şəxs tərəfindən törədildikdə, iştirakçılığın növü;

223.3.5. məsuliyyəti ağırlaşdıran hallar.

223.4. Qərarın nəticə hissəsində şəxsin cinayət işi üzrə təqsirləndirilən şəxs qismində cəlb edilməsi haqqında qərar və törədilmiş cinayətə görə məsuliyyət nəzərdə tutan cinayət qanununun maddəsi göstərilir.

223.5. Təqsirləndirilən şəxs cinayət qanununun müxtəlif maddələri ilə tövsif edilən bir neçə cinayətin törədilməsinə görə məsuliyyətə cəlb edildikdə, qərarın təsviri-əsaslandırıcı hissəsində məhz hansı cinayətlərin törədildiyi, nəticə hissəsində isə cinayət qanununun həmin cinayətlərə görə məsuliyyət nəzərdə tutan maddəsi göstərilir.

223.6. Qərarın surəti onun qəbul edildiyi andan 24 saat müddətində müstəntiq tərəfindən ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilir.

### Maddə 224. İttihamı elan etmə qaydası

224.1. Müstəntiq tərəfindən şəxsin təqsirləndirilən şəxs qismində cəlb edilməsi haqqında qərarın çıxarıldığı andan 48 saatdan gec olmayaraq və hər bir halda təqsirləndirilən şəxsin gəldiyi, yaxud tutulduğu və məcburi gətirildiyi gündən gec olmayaraq ona ittiham elan edilməlidir. [362]

224.2. Təqsirləndirilən şəxsin şəxsiyyətini müəyyən etdikdən sonra müstəntiq ona təqsirləndirilən şəxs qismində cəlb edilməsi haqqında qərarı elan edir və elan edilən ittihamın mahiyyətini izah edir. Bu hərəkətlərin yerinə yetirilməsi, ittihamın elan edildiyi saat və tarix, təqsirləndirilən şəxsin və müstəntiqin imzaları ilə qərarda təsdiq edilir. Hər hansı şəxsə ittihamın elan edilməsində təqsirləndirilən şəxsin müdafiəçisi iştirak etmək hüququna malikdir.

224.3. İttihamı elan etdikdən sonra müstəntiq təqsirləndirilən şəxsə onun bu Məcəllənin 91-ci maddəsində nəzərdə tutulmuş hüquq və vəzifələrini izah etməlidir. Təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərarın surəti, habelə hüquq və vəzifələrə dair yazılı bildiriş təqsirləndirilən şəxsə verilir. Müstəntiq ittihamın elan edilməsi, təqsirləndirilən şəxsə onun hüquq və vəzifələrinin izah edilməsi və qərarın surətinin verilməsi haqqında protokol tərtib edir. Bu protokol müstəntiq, təqsirləndirilən şəxs,

müdafiəçi (bu hərəkətin yerinə yetirilməsində iştirak edirsə) tərəfindən imzalanır.[363]

224.4. Təqsirləndirilən şəxs və ya müdafiəçi qərarı, yaxud protokolu imza etməkdən imtina etdikdə, müstəntiq həmin sənədlərdə imza etməkdən imtina və imtinanın səbəbləri haqqında qeyd aparmaqla 24 saat müddətində bu barədə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora məlumat verir.

**Maddə 225. İttihamın dəyişdirilməsi və ona əlavələr edilməsi**

225.1. İbtidai istintaq zamanı elan edilmiş ittihamı dəyişdirmək və ya ona əlavələr etmək zərurəti yarandıqda, müstəntiq bu Məcəllənin 223 və 224-cü maddələrində müəyyən edilmiş tələblərə riayət etməklə yenidən ittiham elan etməlidir.

225.2. İbtidai istintaq zamanı elan edilmiş ittihamın bir hissəsi təsdiq edilmədikdə, müstəntiq öz qərarı ilə ittihamın həmin hissəsində cinayət işi üzrə icraata xitam verir, onu təqsirləndirilən şəxsə elan edir və qərarın surətini ona təqdim edir.

## XXVIII fəsil

## Dindirmə və üzləşdirmə

~~**Maddə 226. Dindirməyə çağırışın qaydaları**~~

~~226.1. Şahid, zərər çəkmiş, şübhəli, təqsirləndirilən şəxs və başqa şəxslər müstəntiqin yanına şəxsən, özləri olmadıqda isə onların yetkinlik yaşına çatmış ailə üzvlərindən, qonşularından, mənzil istismar təşkilatının nümayəndələrindən birinə və ya onların iş, yaxud təhsil yeri üzrə verilən çağırış vərəqəsi ilə çağırılırlar. *Onlar, həmçinin çağırışın məzmununun yazılı ötürülməsini təmin edən rabitə vasitələrindən istifadə edilməklə, o cümlədən elektron qaydada çağırıla bilərlər.*~~[364]

~~226.2. Çağırış vərəqəsində kimin, hansı prosessual qisimdə çağırıldığı, habelə çağırılan şəxsin haraya və nə vaxt (gəlmə günü və saatı) gəlməli olduğu göstərilir. Çağırış vərəqəsində çağırılan şəxsin gəlmədiyi halda onun bu Məcəllənin 178-ci maddəsində nəzərdə tutulmuş qaydada məcburi gətirilməyə məruz qala biləcəyi barədə xəbərdarlıq qeyd olunur.~~

~~226.3. Yetkinlik yaşına çatmayan şəxslər, bir qayda olaraq, onların qanuni nümayəndələri vasitəsi ilə çağırılırlar.~~

~~226.4. Həbsdə saxlanılan şübhəli və təqsirləndirilən şəxs *həbs yerinin müdiriyyəti vasitəsilə çağırılır*.~~[365]

**Maddə 227. Şahidin dindirilməsi**

227.1. Şahidi cinayət təqibi üçün əhəmiyyəti olan hər bir hal üzrə, o cümlədən şübhəli, təqsirləndirilən, zərər çəkmiş şəxsin, digər şahidlərin şəxsiyyəti barədə dindirmək olar. Şahidin dindirilməsində onun nümayəndəsi (vəkil və ya digər şəxs) iştirak etmək hüququna malikdir.[366]

227.2. Şahid ibtidai istintaq hərəkətinin aparıldığı yer üzrə, zəruri hallarda isə onun olduğu yer üzrə dindirilir.

227.3. Hər bir şahid digər şahiddən ayrılıqda dindirilir. Bu halda müstəntiq dindirmə qurtaranadək eyni iş üzrə çağırılmış şahidlərin öz aralarında ünsiyyətdə ola bilməməsi üçün tədbirlər görür.

227.4. Dindirmədən əvvəl müstəntiq şahidin şəxsiyyətini müəyyən edir, ona hansı iş üzrə çağırıldığı barədə məlumat verir və ona iş üzrə məlum olan bütün hallar barədə danışmaq vəzifəsi, habelə ifadə verməkdən imtina etməyə, boyun qaçırmağa, bilə-bilə yalan ifadə verməyə görə cinayət məsuliyyəti barədə xəbərdarlıq edir. Şahidə özünün və ya yaxın qohumlarının əleyhinə ifadə verməyə borclu olmadığı barədə məlumat verilir. Bundan sonra müstəntiq şahidlə şübhəli, təqsirləndirilən, zərər çəkmiş şəxsin münasibətlərini müəyyənləşdirir və dindirməyə başlayır.

227.5. Dindirmə şahidə cinayət təqibi ilə bağlı bütün halları danışmaq təklifi ilə başlanır və bundan sonra ona suallar verilə bilər.

227.6. Müstəntiq şahidi audio yazıdan, video və kino çəkilişdən və digər yazan texniki vasitələrdən istifadə etməklə dindirmək hüququna malikdir.

***Maddə 227-1. Barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin nümayəndəsinin dindirilməsi***[367]

*Cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin hüquqi şəxsin xeyrinə və ya maraqlarının qorunması üçün törədilməsinə dəlalət edən hallar olduqda və bununla əlaqədar hüquqi şəxsin nümayəndəsi dindirildikdə, onun dindirilməsi bu Məcəllənin 227, 229 və 230-cu maddələrində nəzərdə tutulmuş qaydalara müvafiq aparılır.*

**Maddə 228. Yetkinlik yaşına çatmamış şahidin dindirilməsi**

366.3. Məhkəmə iclasında sədrlik edən andlı iclasçıların seçilməsini etibarsız elan etdikdə, andlı iclasçılar kollegiyasının yaradılması bu Məcəllənin müddəalarına uyğun olaraq tam həcmdə və ya qismən yenidən aparılır.

366.4. Seçilmiş andlı iclasçıların soyadları onların püşkatma üzrə qutudan çıxarıldığı ardıcıllıqla məhkəmə baxışında iştirak etmək üçün məhkəmə iclasının katibi tərəfindən andlı iclasçılar kollegiyasının tərkibinə daxil edilir. Andlı iclasçılar kollegiyasının tərkibi məhkəmə iclasında sədrlik edən və məhkəmə iclasının katibi tərəfindən imzalanır. Seçilmiş andlı iclasçıların soyadlarının qeyd edildiyi biletlər birinci instansiya məhkəməsində icraatın materiallarına əlavə edilir.

**Maddə 367. Andlı iclasçıların and içməsi və onlara hüquq və vəzifələrinin izah edilməsi**

367.1. Məhkəmə iclasında sədrlik edən məhkəmə baxışında iştirak etmək üçün andlı iclasçılar kollegiyasının tərkibini elan etdikdən sonra məhkəmə iclasının katibi məhkəmənin iclas zalında olanlara ayağa qalxmağı təklif edir.

367.2. Məhkəmə iclasında sədrlik edən püşkatma əsasında seçilmiş andlı iclasçılara aşağıdakı məzmunda and içməyi təklif edir: «Öz vəzifələrimi vicdanla və qərəzsiz, təqsirkara haqq qazandırmadan və təqsirsizi məhkum etmədən yerinə yetirəcəyimə and içirəm».

367.3. Sonra məhkəmə iclasında sədrlik edən andlı iclasçılardan hər birinin soyadını çəkir və onlar «And içirəm» deyərək cavab verirlər. And içmə barəsində məhkəmənin iclas protokolunda qeyd aparılır.

367.4. Andlı iclasçılar and içdikdən sonra məhkəmə iclasında sədrlik edən aşağıdakı hərəkətləri yerinə yetirir:

367.4.1. andlı iclasçılara məhkəmənin iclas zalında olan şəxslərdən ayrı olan və bir qayda olaraq, təqsirləndirilən şəxslərin oturacağının qarşısında yerləşən onlar üçün ayrılmış yeri tutmağı təklif edir;

367.4.2. andlı iclasçılara bu Məcəllənin 82 və 83-cü maddələrində nəzərdə tutulmuş hüquq və vəzifələrini izah edir və həmin vəzifələrin pozulmasının nəticələri barədə xəbərdarlıq edir;

367.4.3. ehtiyatda olan andlı iclasçılara əsas andlı iclasçılardan hər hansı birinin məhkəmə baxışında iştirakı qeyri-mümkün olduğu halda verdikt çıxarılanadək onların əsas andlı iclasçılar siyahısına daxil edilə biləcəyini bildirir. Məhkəmə baxışından çıxmış əsas andlı iclasçıların ehtiyat andlı iclasçılarla əvəz edilməsi püşkatma üzrə ehtiyatda olan andlı iclasçıların soyadları qeyd edilmiş biletlərin qutudan çıxarıldığı ardıcıllıqla həyata keçirilir.

**Maddə 368. Andlı iclasçıların iştirakı ilə məhkəmə baxışının keçirilməsinin xüsusiyyətləri**

368.1. Andlı iclasçıların seçilməsindən sonra məhkəmə iclasında sədrlik edən bu andlı iclasçıların iştirakı ilə məhkəmə baxışına başlayır.

368.2. Andlı iclasçıların iştirakı ilə keçirilən məhkəmə iclası aşağıdakı qaydalara riayət etməklə aparılır:

368.2.1. bu Məcəllənin 359-380-ci maddələrinin tələbləri nəzərə alınmaqla;

368.2.2. bu Məcəllənin 308-358-ci maddələrində nəzərdə tutulmuş qaydada.

368.3. Dövlət ittihamçısına, zərər çəkmiş şəxsə (xüsusi ittihamçıya), təqsirləndirilən şəxsə və onun müdafiəçisinə, habelə cinayət prosesinin digər iştirakçılarına məhkəmə iclaslarının keçirildiyi vaxt və iclaslararası tənəffüslər zamanı məhkəmə baxışında iştirak edən andlı iclasçılarla ünsiyyətdə olmaq qadağandır.

368.4. Aşağıdakı əsasların məcmusu mövcud olduqda, andlı iclasçı məhkəmə iclasında sədrlik edənin əsaslandırılmış qərarı ilə məhkəmə baxışından kənarlaşdırıla bilər:

368.4.1. andlı iclasçı tərəfindən cinayət işinin Azərbaycan Respublikasının qanunvericiliyinə tam uyğun şəkildə həll edilməsi üçün zəruri olan qərəzsizliyin və obyektivliyin itirilməsinə dəlalət edən açıq-aşkar əlamətlər olduqda;

368.4.2. məhkəmə baxışının yekununda maraqlı olan şəxslər tərəfindən andlı iclasçıya qanunsuz təsir göstərilməsi halları və ya ona məhkəmə iclasından kənar edilmiş digər təsir barədə məlumat alındıqda.

368.5. Andlı iclasçıların iştirakı ilə məhkəmə baxışı zamanı əsas andlı iclasçıların ehtiyat andlı iclasçılarla əvəz edilməsi imkanları tükəndikdə, aparılmış məhkəmə baxışı məhkəmə iclasında sədrlik edənin qərarı ilə etibarsız elan edilir və bu Məcəllənin müddəalarına müvafiq olaraq andlı iclasçılar yenidən seçilir.

**Maddə 369. Andlı iclasçılar kollegiyası tərəfindən həll edilməli olan məsələlər**

369.0. Məhkəmə çıxışları qurtardıqdan və təqsirləndirilən şəxs son sözünü söylədikdən sonra məhkəmə iclasında sədrlik edən andlı iclasçılar kollegiyasına aşağıdakı sualları ötürür:

369.0.1. İttihamın müvafiq bəndi üzrə təqsirləndirilən şəxsin təqsirliliyi barədə (əsasında dövlət ittihamçısı tərəfindən ittiham irəli sürülmüş hər bir cinayətə dair məhkəmə baxışının həddi barədə tələblər nəzərə alınmaqla) mütləq olan əsas sual;

369.0.2. təqsirləndirilən şəxsin təqsirli bilindiyi halda təqsirli şəxsin mərhəmətə layiq olub-olmaması barədə mütləq olan sual.

**Maddə 370. Andlı iclasçılar kollegiyası tərəfindən həll edilməli olan sualların tərtib edilməsinə dair tələblər**

370.1. Məhkəmə iclasında sədrlik edən andlı iclasçılar kollegiyası tərəfindən həll edilməli olan sualların siyahısını dövlət ittihamçısının müdafiə etdiyi ittiham, məhkəmə baxışının nəticələri və məhkəmə çıxışlarının əsasında tərtib edir. Həmin suallar aşağıdakı tələblərə uyğun olmalıdır:

370.1.1. andlı iclasçılara aydın olan tərzdə, hər bir təqsirləndirilən şəxs barəsində ayrı-ayrılıqda qoyulmalıdır;

370.1.2. yazılı tərtib olunmalıdır;

370.1.3. məhkəmə iclasında elan edilməlidir;

370.1.4. dövlət ittihamçısına, habelə zərər çəkmiş şəxsə (xüsusi ittihamçıya), mülki iddiaçıya, mülki cavabdehə və onların nümayəndələrinə, təqsirləndirilən şəxsə və onun müdafiəçisinə verilməlidir.

370.2. Bu Məcəllənin 370.1.4-cü maddəsində göstərilən şəxslər məhkəmə iclasında sədrlik edən tərəfindən ifadə edilmiş suallara düzəlişlər və başqa sualların qoyulmasını xahiş etmək hüququna malikdirlər. Məhkəmə iclasında sədrlik edən törədilmiş əməlin təqsirləndirilən şəxsə istinad edilməməsinin və ya onun üçün az ciddi cəzaya səbəb olmasının səbəblərinin mövcudluğu barədə sualların qoyulmasından imtina edə bilməz.

370.3. Sonra məhkəmə iclasında sədrlik edən andlı iclasçılar kollegiyası tərəfindən həll edilməli olan sualları qəti şəkildə ifadə edir və onları suallar vərəqində əks etdirir.

370.4. Son variantda suallar vərəqi aşağıdakı tələblərə uyğun olmalıdır:

370.4.1. biri-birinə əks qaydada həll edilə biləcək suallar birləşdirilməməlidir;

370.4.2. sualların ifadə qaydası onlara dair hər hansı cavab verildikdə, əsasında təqsirləndirilən şəxsə dövlət ittihamçısı tərəfindən ittihamın irəli sürülmədiyi, yaxud sualın qoyulduğu anda həmin ittihamın onun tərəfindən müdafiə edilmədiyi cinayətin törədilməsində təqsirləndirilən şəxsin təqsirli bilinməsi imkanını özündə əks etdirməməlidir;

370.4.3. bununla təqsirləndirilən şəxsin vəziyyəti ağırlaşmadıqda və onun müdafiə hüququ pozulmadıqda, təqsirləndirilən şəxsin az ağır cinayətin törədilməsində təqsirliliyinin müəyyən edilməsinə imkan verən sualların qoyulmasına yol verilir.

370.5. Suallar vərəqi:

370.5.1. məhkəmə iclasında sədrlik edən tərəfindən imzalanır;

370.5.2. məhkəmə iclasında sədrlik edənin qərarı ilə təsdiq edilir;

370.5.3. məhkəmə iclasının protokoluna daxil edilməlidir;

370.5.4. məhkəmə iclasında sədrlik edən tərəfindən elan edilir və aparıcı andlı iclasçıya verilir.

**Maddə 371. Məhkəmə iclasında sədrlik edənin tövsiyəsi**

371.1. Andlı iclasçılar kollegiyası verdikt çıxarılması üçün məşvərət otağına getməmişdən əvvəl məhkəmə iclasında sədrlik edən onlara tövsiyə ilə müraciət edir.

371.2. Məhkəmə iclasında sədrlik edən tövsiyə verərkən andlı iclasçılar kollegiyasının qarşısında qoyulmuş suallara dair hər hansı şəkildə öz rəyini bildirməkdən çəkinməlidir.

371.3. Məhkəmə iclasında sədrlik edən öz tövsiyəsində aşağıdakıları göstərir:

371.3.1. ittihamın qısa məzmununu xatırladır;

371.3.2. törədilməsində təqsirləndirilən şəxsin təqsirləndirildiyi əmələ görə məsuliyyəti nəzərdə tutan cinayət qanununun məzmunu barədə məlumat verir;

371.3.3. zərurət olduqda obyektivliyi saxlamaqla məhkəmədə tədqiq edilmiş bütün və ya bəzi sübutları xatırladır və onların cinayət prosesinin iştirakçıları tərəfindən təhrif edilmiş məzmununu bərpa edir;

371.3.4. zərurət olduqda dövlət ittihamçısının və müdafiəçinin mövqelərini xatırladır;

371.3.5. sübutların qiymətləndirilməsinin əsas qaydalarını, təqsirsizlik prezumpsiyasının mahiyyətini və aradan qaldırılmamış şübhələrin təqsirləndirilən şəxsin xeyrinə şərh edilməsi qaydasını izah edir;

371.3.6. təqsirləndirilən şəxs məhkəmə baxışı zamanı ifadə verməkdən imtina etdikdə və

ya susduqda, andlı iclasçılar kollegiyasının diqqətini həmin faktın hüquqi əhəmiyyət daşımamasına və təqsirləndirilən şəxsin təqsirliliyinin təsdiqi kimi şərh edilə bilməməsinə yönəldir;

371.3.7. andlı iclasçıların verdiktinin yalnız məhkəmə iclasında bilavasitə tədqiq edilmiş sübutlara əsaslana biləcəyini, heç bir sübutun onlar üçün əvvəlcədən müəyyən edilmiş qüvvəyə malik olmamasını, onların nəticələrinin ehtimallara, habelə məhkəmə baxışından xaric edilmiş sübutlara əsaslana bilməyəcəyini andlı iclasçılara izah edir;

371.3.8. andlı iclasçılara onların müşavirə, qoyulmuş suallara cavabların hazırlanması və verdiktin çıxarılması qaydasını izah edir;

371.3.9. andlı iclasçıların öz verdiktlərinin çıxarılması üçün müşavirə otağında olma vaxtının müddətini (işin mürəkkəbliyini və suallar vərəqinin həcmini nəzərə almaqla 3 saatdan az və 24 saatdan çox olmamaqla) müəyyən edir;

371.3.10. andlı iclasçılara verdiktin çıxarılma qaydasını, bu zaman yekdil qərarların qəbul edilməsinə səylər göstərilməsinin arzu olunduğunu, habelə səsvermə nəticəsində səs çoxluğu ilə qəbul edilmiş cavabların suallar vərəqində əks etdirilməsi qaydasını izah edir;

371.3.11. andlı iclasçılara onların içdiyi andın məzmununu xatırlatmaqla və onların diqqətini ittiham verdiktinin çıxarıldığı halda təqsirləndirilən şəxsi mərhəmətə layiq hesab edə biləcəklərinə yönəldir.

371.4. Andlı iclasçılar məhkəmə iclasında sədrlik edənin tövsiyəsini dinlədikdən və andlı iclasçılar kollegiyasının qarşısında qoyulmuş suallarla tanış olduqdan sonra məhkəmə iclasında sədrlik edəndən əlavə izahatlar almaq hüququna malikdirlər.

**Maddə 372. Andlı iclasçıların müşavirə otağına getməsi**

Tövsiyəni bitirdikdən dərhal sonra məhkəmə iclasında sədrlik edən ehtiyatda olan andlı iclasçıları sonrakı məhkəmə baxışında iştirak etməkdən azad edir və əsas andlı iclasçılara verdiktin çıxarılmasına başlamağı təklif edir və bu məqsədlə andlı iclasçılar kollegiyası məşvərət otağına gedir.

**Maddə 373. Məhkəmə iclasında sədrlik edənin tövsiyələrinə qarşı etirazlar**

373.1. Andlı iclasçılar məhkəmənin iclas zalından çıxdıqdan sonra dövlət ittihamçısı, zərər çəkmiş şəxs, mülki iddiaçı, mülki cavabdeh və onların nümayəndələri, təqsirləndirilən şəxs və onun müdafiəçisi məhkəmə iclasında sədrlik edən tərəfindən obyektivlik prinsipinin pozulması ilə bağlı onun tövsiyəsinin məzmununa dair öz etirazlarını bildirmək hüququna malikdirlər.

373.2. Cinayət prosesi tərəflərinin belə etirazlar bildirmədiyi halda onlar həmin işə yuxarı məhkəmə tərəfindən yenidən baxılmasının əsası kimi məhkəmə iclasında sədrlik edənin tövsiyəsinin məzmununa istinad edə bilməzlər.

373.3. Cinayət prosesi tərəflərinin etirazlarını əsaslı hesab etdikdə, məhkəmə iclasında sədrlik edən andlı iclasçıları müşavirə otağından geri qaytarır və onlara əlavə tövsiyələr verir.

**Maddə 374. Andlı iclasçıların müşavirəsinin gizliliyi**

374.1. Əsas andlı iclasçılardan başqa müşavirə otağında digər şəxslərin olmasına yol verilmir. Gecə vaxtı, məhkəmə iclasında sədrlik edənin icazəsi ilə iş vaxtı başa çatdıqda andlı iclasçılar istirahət üçün müşavirəni dayandırmaq hüququna malikdirlər.

374.2. Andlı iclasçılar müşavirə zamanı söylənilmiş mülahizələri yaymağa haqlı deyillər.

**Maddə 375. Andlı iclasçıların müşavirəsi, səs verməsi və verdikt çıxarılması qaydası**

375.1. Andlı iclasçıların müşavirəsinə rəhbərlik, həll edilməli olan sualları ardıcıllıqla müzakirəyə çıxaran, cavablar üzrə səsvermə aparan və səsləri hesablayan aparıcı andlı iclasçı tərəfindən həyata keçirilir.

375.2. Aşağıda göstərilən materiallar aparıcı andlı iclasçı tərəfindən məhkəmə iclasında sədrlik edənə cinayət prosesi iştirakçılarının fikri nəzərə alınmaqla təqdim edildikdə andlı iclasçılar müşavirənin gedişində aşağıdakı ardıcıllıqla müvafiq sənədlərlə bir daha tanış olurlar:

375.2.1. ittiham hökmünün nəticəvi hissəsinin mətni;

375.2.2. məhkəmə iclasında elan edilmiş sənədlər;

375.2.3. maddi sübutlar, o cümlədən məhkəmə iclasında tədqiq edilmiş fotoşəkil və sxemlər;

375.2.4. məhkəmə iclasında səsləndirilmiş audio yazılar və nümayiş etdirilmiş video və ya kino çəkilişlər;

375.2.5. məhkəmə iclasında sədrlik edənin tövsiyəsinin mətni.

375.3. Andlı iclasçıların müşavirəsi zamanı səsvermə açıq aparılır. Andlı iclasçılardan

heç kəs səsvermə zamanı bitərəf qala bilməz. Aparıcı andlı iclasçı sonuncu olaraq səs verir.

375.4. Andlı iclasçılar kollegiyasının sualların müzakirəsi zamanı müəyyən edilmiş müddətdə yekdil qərarın qəbul edilməsinə nail ola bilməməsi aşağıdakı nəticələrə səbəb olur:

375.4.1. təqsirləndirilən şəxsin təqsirliliyi barədə əsas suala andlı iclasçıların əksəriyyəti təsdiqedici cavabın lehinə səs verdiyi halda ittiham verdikti qəbul edilmiş hesab olunur;

375.4.2. təqsirləndirilən şəxsin təqsirliliyi barədə əsas suala ən azı 6 andlı iclasçı mənfi cavabın lehinə səs verdikdə, bəraət verdikti qəbul edilmiş hesab olunur;

375.4.3. digər suallara cavablar andlı iclasçıların sadə səs çoxluğu ilə müəyyən edilir, səslər bərabər bölündükdə isə təqsirləndirilən şəxs üçün daha əlverişli cavab qəbul olunur.

375.5. Sual vərəqində qoyulmuş hər bir suala cavab mütləq «hə, təqsirkardır», «yox, təqsirkar deyildir», '"hə, təqsirkardır, lakin həyatdan məhrum etmək niyyəti olmadan», «hə, mərhəmətə layiqdir» və sair cavabların mahiyyətini açıqlayan izahedici söz və ya söz birləşmələri ilə təsdiqedici və ya inkaredici şəkildə olmalıdır.

375.6. Suallara cavablar suallar vərəqinə aparıcı andlı iclasçı tərəfindən bilavasitə hər müvafiq sualdan sonra daxil edilir. Əvvəlki suala verilmiş cavab sonrakı suala cavab verilməsi zərurətini istisna etdikdə andlı iclasçıların əksəriyyətinin razılığı ilə aparıcı andlı iclasçı həmin sualdan sonra «cavabsız» sözünü qeyd edir.

375.7. Suala cavab səsvermə yolu ilə qəbul edildikdə, aparıcı andlı iclasçı cavabdan sonra səslərin hesablanmasının nəticələrini göstərir.

375.8. Andlı iclasçılar kollegiyasının cavabları ilə suallar vərəqi aparıcı andlı iclasçı tərəfindən imzalanır.

—

**Maddə 376. Andlı iclasçılar kollegiyasının xahişi ilə məhkəmə istintaqının təzələnməsi**

—

376.1. Müşavirə zamanı andlı iclasçıların əksəriyyəti onların qarşısında qoyulmuş suallara cavab verilməsi üçün mühüm əhəmiyyətə malik olan hər hansı halların əlavə tədqiq edilməsini zəruri hesab etdikdə, aşağıdakı hərəkətləri yerinə yetirirlər:

376.1.1. andlı iclasçılar məhkəmənin iclas zalına qayıdırlar;

376.1.2. aparıcı andlı iclasçı andlı iclasçılar kollegiyasının adından müvafiq məqsədlə məhkəmə istintaqının təzələnməsi barədə rəsmi xahişlə məhkəmə iclasında sədrlik edənə müraciət edir.

376.2. Andlı iclasçılar kollegiyasının xahişinin təmin edilməsi mümkün və zəruri olduqda aşağıdakı hərəkətlər yerinə yetirilir:

376.2.1. məhkəmə iclasında sədrlik edən öz qərarı ilə məhkəmə istintaqını təzələyir və məhkəmə istintaqı başa çatdıqdan sonra cinayət prosesi tərəflərinin fikri nəzərə alınmaqla andlı iclasçılar kollegiyasının qarşısına qoyulmuş sualları dəqiqləşdirir və ya yeni suallar ifadə edir;

376.2.2. yeni tədqiq edilmiş hallar üzrə cinayət prosesi tərəflərinin nitq və replikalarını, habelə təqsirləndirilən şəxsin son sözünü və məhkəmə iclasında sədrlik edənin tövsiyəsini dinlədikdən sonra andlı iclasçılar kollegiyası verdiktin çıxarılması üçün müşavirə otağına qayıdır.

—

**Maddə 377. Andlı iclasçıların verdiktinin elan edilməsi**

—

377.1. Sual vərəqi tərtib edildikdən və imzalandıqdan sonra andlı iclasçılar tərəfindən aşağıdakı hərəkətlər yerinə yetirilir:

377.1.1. andlı iclasçılar məhkəmənin iclas zalına qayıdırlar;

377.1.2. aparıcı andlı iclasçı cavabların qeyd edildiyi sual vərəqini məhkəmə iclasında sədrlik edənə verir.

377.2. Verdikti öyrənib onu aydın olmayan və ya ziddiyyətli hesab etdikdə, məhkəmə iclasında sədrlik edən aşağıdakı hüquqlara malikdir:

377.2.1. andlı iclasçıların verdiktinin qeyri-aydınlığını və ya ziddiyyətli olduğunu andlı iclasçılara bildirmək və müşavirə otağında onun dəqiqləşdirilməsini təklif etmək;

377.2.2. cinayət prosesi tərəflərinin fikrini dinlədikdən sonra sual vərəqinə zəruri dəyişikliklər etmək.

377.3. Bu Məcəllənin 377.2-ci maddəsində nəzərdə tutulmuş halda andlı iclasçılar kollegiyası sual vərəqində edilmiş dəyişikliklərlə bağlı məhkəmə iclasında sədrlik edənin qısa tövsiyyəsini dinlədikdən sonra verdiktin çıxarılması üçün müşavirə otağına qayıdır.

377.4. Andlı iclasçıların verdiktinə dair qeydlər olmadıqda, aşağıdakı hərəkətlər yerinə yetirilir:

377.4.1. məhkəmə iclasında sədrlik edən andlı iclasçılar kollegiyasının cavabları qeyd edilmiş sual vərəqini aparıcı andlı iclasçıya qaytarır;

377.4.2. aparıcı andlı iclasçı andlı iclasçılar kollegiyasının qarşısında qoyulmuş sualları və onlara verilmiş cavabları oxuyaraq andlı iclasçıların verdiktini səsləndirir.

~~377.5. Məhkəmə iclası zalında olanların hamısı andlı iclasçıların verdiktini ayaq üstə dinləyirlər.~~

~~377.6. Andlı iclasçıların elan edilmiş verdikti məhkəmə icraatının materiallarına əlavə edilməsi üçün məhkəmə iclasının katibinə verilir.~~

—

**~~Maddə 378. Andlı iclasçıların verdikti elan edildikdən sonra məhkəmə iclasında sədrlik edənin hərəkətləri~~**

—

~~378.0. Andlı iclasçıların verdikti çıxarıldıqdan dərhal sonra göstərilən ardıcıllıqla aşağıdakı hərəkətlər yerinə yetirilir:~~

~~378.0.1. həbsdə saxlanılan şəxs tam təqsirsiz hesab edildikdə, məhkəmə iclasında sədrlik edən onun məhkəmə iclası zalında həbsdən azad edilməsi barədə dərhal göstəriş verir;~~

~~378.0.2. məhkəmə iclasında sədrlik edən andlı iclasçılara təşəkkürünü bildirir, onların məhkəmə iclasında iştirakının sona yetdiyini və məhkəmə iclasında tənəffüs elan edir.~~

—

**~~Maddə 379. Andlı iclasçıların verdiktinin nəticələrinin müzakirə edilməsi~~**

—

~~379.1. Zərurət olduqda andlı iclasçıların verdiktinin nəticələri andlı iclasçıların məhkəmə baxışında iştirakı olmadan məhkəmə iclasında müzakirə edilir. Andlı iclasçılar məhkəmə baxışı qurtaranadək digər iştirak edənlər üçün ayrılmış yerlərdə məhkəmə iclası zalında qalmaq hüququna malikdirlər.~~

~~379.2. Andlı iclasçıların verdiktinin nəticələrinin müzakirəsi məhkəmə iclasında təqsirləndirilən şəxsin məhkumluğu barədə sənədlərin elan edilməsindən, habelə məhkəmə istintaqının qaydalarına uyğun olaraq andlı iclasçıların iştirakı ilə tədqiq edilməli olmayan sübutların tədqiqindən başlanır.~~

~~379.3. Məhkəmə iclasında sədrlik edən dövlət ittihamçısına, habelə zərər çəkmiş şəxsə (xüsusi ittihamçıya), mülki iddiaçıya, mülki cavabdehə və ya onların nümayəndələrinə, təqsirləndirilən şəxsə və onun müdafiəçisinə təqsirləndirilən şəxs tərəfindən törədilmiş əməlin tövsifi, ona cəzanın təyin edilməsi və mülki iddianın həll edilməsi məsələləri daxil olmaqla andlı iclasçılar kollegiyasının çıxardığı verdiktin hüquqi nəticələri ilə bağlı məsələlərə dair bir dəfə çıxış etmək imkanı verir. Təqsirləndirilən şəxs və onun müdafiəçisi hər dəfə sonuncu olaraq çıxış edirlər.~~

~~379.4. Cinayət prosesinin tərəflərinə öz çıxışlarında andlı iclasçıların verdiktinin düzgünlüyünü şübhə altına almaq qadağan edilir.~~

~~379.5. Cinayət prosesi tərəflərinin çıxışları qurtardıqdan sonra məhkəmə iclasında sədrlik edən hökmün çıxarılması üçün müşavirə otağına gedir.~~

~~379.6. Təqsirləndirilən şəxs güzəştlərə layiq hesab edildikdə, məhkəmə iclasında sədrlik edənin üzərinə aşağıdakı vəzifələr düşür:~~

~~379.6.1. cinayət qanununun tələblərinə uyğun olaraq törədilməsində təqsirləndirilən şəxsin təqsirli bilindiyi cinayətlərdən ən ağırının ağırlıq dərəcəsini müəyyən etmək;~~

~~379.6.2. təqsirləndirilən şəxsə bu Məcəllənin 379.6.1-ci maddəsinə müvafiq olaraq müəyyən edilmiş cinayətdən ağırlıq dərəcəsinə görə bir pillə aşağı olan cinayətlər üçün nəzərdə tutulmuş maksimum yol verilən həddi aşmayan cəza təyin etmək;~~

~~379.6.3. törədilməsində təqsirləndirilən şəxsin təqsirli bilindiyi cinayətlərdən ən ağırı böyük ictimai təhlükə törətməyən cinayətlər kateqoriyasına aid olduqda, cəza təyin etmədən ittiham hökmü çıxarmaq.~~

—

**~~Maddə 380. Andlı iclasçıların iştirakı ilə məhkəmə baxışının nəticələrinə dair çıxarılmış hökmlərdən şikayət verilməsinin xüsusiyyətləri~~**

—

~~380.0. Andlı iclasçıların verdikti əsasında çıxarılmış birinci instansiya məhkəməsinin hökmü aşağıdakı xüsusiyyətlərə malikdir:~~

~~380.0.1. bu hökmdən apellyasiya instansiyası məhkəməsinə apellyasiya şikayəti və ya apellyasiya protesti verilə bilməz;~~

~~380.0.2. bu hökm elan edildikdən dərhal sonra qanuni qüvvəyə minir;~~

~~380.0.3. bu hökmdən bu Məcəllənin 410-cu maddəsinin müddəalarında nəzərdə tutulmuş əsaslarla və müddətlərdə kassasiya instansiyası məhkəməsinə kassasiya şikayəti və ya kassasiya protesti verilə bilər.~~

## Doqquzuncu bölmə

## Apellyasiya və kassasiya instansiyaları məhkəmələrində icraat

### XLVII fəsil

### Məhkəmələrin hökm və qərarlarına apellyasiya qaydasında yenidən baxılması

**Maddə 381. Birinci instansiya məhkəmələri tərəfindən çıxarılmış hökm və qərarlardan apellyasiya şikayətinin və ya apellyasiya protestinin verilməsi**

381.1. Birinci instansiya məhkəmələri tərəfindən çıxarılmış hökm və ya qərarlardan bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada apellyasiya instansiyası məhkəməsinə apellyasiya şikayəti və ya protesti verilə bilər.

381.2. Apellyasiya şikayətinin və ya apellyasiya protestinin verildiyi məhkəmələr:

381.2.1. Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri tərəfindən çıxarılmış hökm və ya qərarlardan - Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasına; [479]

381.2.2. Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri istisna olmaqla rayon (şəhər) məhkəmələri tərəfindən çıxarılmış hökm və ya qərarlardan - yurisdiksiya üzrə apellyasiya məhkəməsinin cinayət kollegiyasına; [480]

381.2.3. ~~andlılar məhkəməsinin çıxardığı hökmlər istisna olmaqla,~~ hərbi məhkəmələr tərəfindən çıxarılmış hökm və ya qərarlardan - yurisdiksiya üzrə müvafiq apellyasiya məhkəməsinin *cinayət kollegiyasına*, yaxud Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin *cinayət kollegiyasına*;[481]

381.2.4. ~~andlılar məhkəməsinin çıxardığı hökmlər istisna olmaqla,~~ Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsi tərəfindən çıxarılmış hökm və ya qərarlardan - Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasına; [482]

381.2.5. ~~andlılar məhkəməsinin çıxardığı hökmlər istisna olmaqla,~~ ağır cinayətlər məhkəmələri tərəfindən çıxarılmış hökm və ya qərarlardan - yurisdiksiya üzrə apellyasiya məhkəməsinin cinayət kollegiyasına; [483]

381.2.6. ləğv edilmişdir. [484]

**Maddə 382. Apellyasiya şikayəti və ya apellyasiya protesti üzrə icraatın xüsusiyyətləri**

382.1. Cinayət işinə, məhkəməyədək sadələşdirilmiş icraat materiallarına və ya xüsusi ittiham qaydasında şikayətə baxılması zamanı birinci instansiya məhkəməsi tərəfindən çıxarılmış hökm və ya qərarlardan apellyasiya şikayəti və ya apellyasiya protesti üzrə icraat bu Məcəllənin 381–407-ci maddələrinin müddəalarına müvafiq olaraq aparılır.

382.2. Məhkəmə nəzarəti qaydasında birinci instansiya məhkəməsi tərəfindən çıxarılmış qərarlardan apellyasiya şikayəti və ya apellyasiya protesti üzrə icraat bu Məcəllənin 452–454-cü maddələrinin müddəalarına müvafiq olaraq apellyasiya instansiyası məhkəməsi tərəfindən aparılır.

**Maddə 383. Apellyasiya şikayəti və ya apellyasiya protesti vermək hüququna malik olan şəxslər**

383.1. Apellyasiya şikayəti vermək hüququna aşağıdakı şəxslər malikdir:

383.1.1. məhkum edilmiş şəxsin mənafeyinə aid hissədə—məhkum edilmiş şəxs, onun qanuni nümayəndəsi və ya müdafiəçisi;

383.1.2. bəraətin dəlil və əsaslarına aid hissədə—bəraət almış şəxs, onun qanuni nümayəndəsi və ya müdafiəçisi;

383.1.3. tərbiyəvi xarakterli məcburi tədbirlərin tətbiq edilməsinə və ya qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilməsinə dair—yetkinlik yaşına çatmamış şəxsin özü, onun qanuni nümayəndəsi və ya müdafiəçisi; [485]

383.1.4. tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsinə dair—barəsində tibbi xarakterli məcburi tədbir tətbiq edilmiş şəxsin qanuni nümayəndəsi və müdafiəçisi, xəstəliyin xüsusiyyəti ona öz hüquqlarından istifadə etməyə mane olmadıqda isə həmin şəxsin özü;

383.1.5. zərər çəkmiş şəxsin mənafelərinə aid hissədə—zərər çəkmiş şəxs (xüsusi ittihamçı) və onun nümayəndəsi; [486]KMQ2

383.1.6. mülki iddiaya dair hissədə—mülki iddiaçı, mülki cavabdeh, onların qanuni nümayəndələri və ya nümayəndələri;

*383.1.7. hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsinə dair hissədə - hüquqi şəxsin nümayəndəsi və ya müdafiəçisi.*[487]

383.2. Apellyasiya protesti vermək hüququna onun gəldiyi nəticələrin və təkliflərin nəzərə alınmadığı hissədə birinci instansiya məhkəməsində işə baxılmasında iştirak etmiş dövlət ittihamçısı malikdir. Göstərilən dövlət ittihamçısı vəfat etdikdə, xəbərsiz itkin düşdükdə, uzunsürən ağır xəstəliyə tutulduqda, protest verməkdən yayındıqda və ya imtina etdikdə, habelə onun mövqeyi ilə razılaşmadıqda Azərbaycan Respublikasının Baş prokuroru və ya onun müavini, habelə Naxçıvan Muxtar Respublikasının birinci instansiya məhkəmələri tərəfindən çıxarılmış hökm və ya qərarlardan, həmçinin Naxçıvan Muxtar Respublikasının

prokuroru birinci instansiya məhkəməsində iştirak etmiş dövlət ittihamçısının əvəzinə apellyasiya protesti vermək hüququna malikdir. Birinci instansiya məhkəməsində cinayət işi və ya məhkəməyədək sadələşdirilmiş icraatın materiallarına bu Məcəllənin 314.1, 314.3 və 314.4-cü maddələrinin tələblərinin ziddinə baxıldığı halda apellyasiya protesti vermək hüququna Azərbaycan Respublikasının Baş prokuroru və ya onun müavini, habelə Naxçıvan Muxtar Respublikasının birinci instansiya məhkəmələri tərəfindən çıxarılmış hökm və ya qərarlardan həmçinin Naxçıvan Muxtar Respublikasının prokuroru malikdir. [488]

383.3. Məhkumun və ya zərər çəkmiş şəxsin yaxın qohumlarının şikayətləri yalnız o halda apellyasiya icraatına səbəb olur ki, həmin şəxslər bu Məcəllənin qaydalarına uyğun olaraq müstəntiq və ya birinci instansiya məhkəməsi tərəfindən təqsirləndirilən və ya zərər çəkmiş şəxsin qanuni nümayəndəsi qismində işə buraxılır.

**Maddə 384. Apellyasiya şikayətinin və ya apellyasiya protestinin verilmə müddətləri və halları**

384.1. Apellyasiya şikayəti və ya apellyasiya protesti apellyasiya şikayəti və ya apellyasiya protesti vermək hüququna malik olan şəxslər tərəfindən hökm və ya məhkəmənin digər qərarının elan *olunduğu, bu Məcəllənin 384.2-ci maddəsində nəzərdə tutulmuş halda isə həmin şəxsə verildiyi andan* 20 (iyirmi) gün müddətində aşağıdakı hallarda verilir: [489]

384.1.1. ittiham və ya bəraət hökmü çıxarıldıqda;

384.1.2. cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatın dayandırılması haqqında qərar çıxarıldıqda;

384.1.3. cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraata xitam verilməsi haqqında qərar çıxarıldıqda;

384.1.4. ləğv edilmişdir. [490]

384.1.5. ləğv edilmişdir. [491]

384.1.6. ləğv edilmişdir. [492]

384.1.7. xüsusi ittiham qaydasında şikayətin öz icraatına qəbul edilməsindən imtina olunması barədə qərar çıxarıldıqda;

384.1.8. tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi haqqında qərar çıxarıldıqda;

384.1.9. tərbiyəvi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi və ya qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilməsi haqqında qərar çıxarıldıqda. [493]

384.1.10. hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında qərar çıxarıldıqda; [494]

*384.1.11. hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsinə dair icraat üzrə məhkəmənin yekun qərarı çıxarıldıqda;* [495]

*384.1.12. apellyasiya şikayətinin və ya apellyasiya protestinin verilməsi müddətinin bərpa olunmasına dair vəsatətin rədd edilməsi barədə qərar çıxarıldıqda.* [496]

384.2. Həbsdə saxlanılan məhkum tərəfindən ittiham hökmündən apellyasiya şikayəti hökmün və ya müvafiq qərarın surətinin ona verildiyi andan 20 (iyirmi) gün müddətində verilir.

384.3. Məhkəməyə gəlməkdən boyun qaçıran məhkum və ya bəraət almış şəxs çıxarılmış hökm barədə birinci instansiya məhkəməsinin elanlar lövhəsində məlumatın yerləşdirildiyindən sonra 20 (iyirmi) gün müddətində apellyasiya şikayəti vermək hüququna malikdirlər.

384.4. Apellyasiya şikayətinin və ya apellyasiya protestinin verilməsi üçün müəyyən edilmiş müddət ərzində cinayət işi yuxarı məhkəmə tərəfindən birinci instansiya məhkəməsindən tələb edilə bilməz.

384.5. Apellyasiya şikayəti və ya apellyasiya protesti vermək hüququna malik olan şəxslər məhkəmə baxışı zamanı birinci instansiya məhkəməsi tərəfindən qəbul edilmiş digər qərarlardan narazı olduqlarını cinayət işi üzrə yekun məhkəmə qərarından verdikləri müvafiq olaraq apellyasiya şikayətində və ya apellyasiya protestində əsaslandırmaq hüququna malikdirlər.

**Maddə 385. Apellyasiya şikayətinin və ya apellyasiya protestinin verilməsi qaydası**

385.1. Apellyasiya şikayəti və ya apellyasiya protesti hökm və ya qərarı çıxarmış birinci instansiya məhkəməsi vasitəsi ilə verilir.

385.2. Apellyasiya şikayətinin və ya apellyasiya protestinin surətləri apellyasiyanın maraqlarına aid olduğu cinayət prosesinin iştirakçılarına çatacaq sayda apellyasiya şikayətinə və ya apellyasiya protestinə əlavə edilir. Bu vəzifə həbsdə olan məhkuma, yetkinlik yaşına çatmamış şəxsə və barəsində tibbi xarakterli məcburi tədbir tətbiq edilən şəxsə şamil edilmir. Belə hallarda lazım olan miqdarda apellyasiya şikayətlərinin surətlərini birinci instansiya məhkəməsi hazırlayır.

385.3. Apellyasiya şikayəti və ya apellyasiya protesti bilavasitə apellyasiya instansiyası məhkəməsinə verildiyi halda apellyasiya instansiyası məhkəməsi bu Məcəllənin 385.2-ci maddəsində nəzərdə tutulmuş tələblərin görülməsi üçün şikayəti və ya protesti birinci instansiya məhkəməsinə göndərir.

**Maddə 386. Apellyasiya şikayətinin və ya apellyasiya protestinin verilməsi müddətinin bərpa edilmə qaydası**

386.1. Apellyasiya şikayətinin və ya apellyasiya protestinin verilməsi müddəti üzrlü səbəblərə görə buraxıldıqda, bu Məcəllənin 383-cü maddəsində göstərilən şəxslər hökm və ya qərarı çıxarmış birinci instansiya məhkəməsi qarşısında buraxılmış müddətin bərpa edilməsi haqqında vəsatət qaldırmaq hüququna malikdirlər.
386.2. Apellyasiya şikayətinin və ya apellyasiya protestinin verilmə müddətinin bərpa edilməsi məsələsi birinci instansiya məhkəməsində məhkəmə iclasında sədrlik edən və ya hakim tərəfindən həll edilir. Belə vəsatətin baxılma günü və saatı barədə vəsatəti qaldırmış şəxsə vaxtında xəbər verilməlidir. Həmin şəxsin məhkəmə iclasına gəlməməsi vəsatətə baxılmasına mane olmur.
386.3. Apellyasiya şikayətinin və ya apellyasiya protestinin verilməsi müddətinin bərpa olunmasına dair vəsatət rədd edildikdə, bu qərardan apellyasiya instansiyası məhkəməsinə şikayət və ya protest verilə bilər. Apellyasiya instansiyası məhkəməsi apellyasiya şikayəti və apellyasiya protestinin verilmə müddətini bərpa etdikdə öz qərarını icra üçün birinci instansiya məhkəməsinə göndərir. [497]

**Maddə 387. Apellyasiya şikayətinə və ya apellyasiya protestinə dair tələblər**

387.1. Apellyasiya şikayətində və ya apellyasiya protestində aşağıdakılar göstərilməlidir:
387.1.1. apellyasiya şikayətinin və ya apellyasiya protestinin ünvanlandığı apellyasiya instansiyası məhkəməsinin adı;
387.1.2. apellyasiya şikayətini və ya apellyasiya protestini verən şəxsin adı;
387.1.3. hökm və ya qərar çıxarmış birinci instansiya məhkəməsinin adı;
387.1.4. hökm və ya məhkəmənin digər yekun qərarının qısa məzmunu və apellyasiya şikayəti, yaxud protesti verən şəxsin mülahizələrinə görə onun qanunsuzluğunun, əsassızlığının yaxud ədalətsizliyinin nədən ibarət olması;
387.1.5. apellyasiya şikayəti və ya apellyasiya protesti verən şəxsin xahişi.
387.1.6. apellyasiya şikayətinə və ya apellyasiya protestinə əlavə olunan sənədlərin siyahısı.
387.2. Hökmün dəyişdirilməsi və ya ləğv edilməsinin zəruriliyi əsaslandırıldıqda apellyasiya şikayətində və ya apellyasiya protestində işin müvafiq vərəqlərinə istinad olunmalıdır. Bu tələb həbsdə saxlanılan məhkuma və yetkinlik yaşına çatmamış şəxsə şamil edilmir.
387.3. Apellyasiya şikayəti və ya apellyasiya protesti yazılı şəkildə verilir və onu verən şəxs tərəfindən imzalanır.
387.4. Qanuni nümayəndənin və ya nümayəndənin səlahiyyətlərini təsdiq edən sənəd cinayət işində, məhkəməyədək sadələşdirilmiş icraatın materiallarında və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraat materiallarında olmadıqda qanuni nümayəndənin və ya nümayəndənin verdiyi apellyasiya şikayətinə onların səlahiyyətlərini təsdiq edən sənəd əlavə edilməlidir.
387.5. Apellyasiya şikayətində və ya apellyasiya protestində birinci instansiya məhkəməsinə təqdim edilməmiş yeni sübutlara istinad edilməsinə yalnız həmin sübutların birinci instansiya məhkəməsinə təqdim edilməsinin mümkünsüzlüyünün və ya onların həmin məhkəmə tərəfindən qəbul edilməməsinin əsaslandırıldığı halda yol verilir.

**Maddə 388. Apellyasiya şikayətinin və ya apellyasiya protestinin daxil olması haqqında bildiriş**

388.1. Apellyasiya şikayəti və ya apellyasiya protesti daxil olduqdan sonra birinci instansiya məhkəməsi 48 saat müddətində onların surətlərini bu Məcəllənin 383.1 və 383.2-ci maddələrində göstərilən şəxslərə təqdim edir və ya göndərir və onlara bu sənədlərə dair öz etirazlarını bildirmək və digər şəxslərin etirazları ilə tanış olmaq hüququnu və müddətini izah edir.
388.2. Apellyasiya şikayətinə və ya apellyasiya protestinə dair etirazlar işə əlavə olunur, bu etirazlar iş məhkəməyə göndərildikdən sonra daxil olduqda bilavasitə apellyasiya instansiyası məhkəməsinə göndərilir.

**Maddə 389. Apellyasiya şikayətinin və apellyasiya protestinin verilməsinin nəticələri**

389.1. Birinci instansiya məhkəməsinin hökm və ya qərarından apellyasiya şikayətinin və

ya apellyasiya protestinin verilməsi onların qanuni qüvvəyə minməsini dayandırır.

389.2. Apellyasiya şikayəti və ya apellyasiya protesti məhkəməyə daxil olduqdan sonra hökmü və ya qərarı çıxarmış məhkəmə 10 (on) gün müddətində onları cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə bütün icraat materialları ilə birlikdə apellyasiya instansiyası məhkəməsinə göndərir.

**Maddə 390. Apellyasiya şikayətinin və ya apellyasiya protestinin geri götürülməsi, dəyişdirilməsi və onlara əlavə edilməsi**

390.1. Apellyasiya instansiyası məhkəməsində işə baxılmamışdan əvvəl apellyasiya şikayətini və apellyasiya protestini verən şəxs onu geri götürmək, dəyişdirmək və ya ona əlavələr etmək, habelə cinayət prosesinin digər iştirakçısının apellyasiya şikayətinə, yaxud apellyasiya protestinə öz etirazlarını bildirmək hüququna malikdir.

390.2. Apellyasiya instansiyası məhkəməsində icraatda iştirak etmək üçün təyin edilmiş dövlət ittihamçısı birinci instansiya məhkəməsində həmin icraatda iştirak etmiş dövlət ittihamçısının verdiyi apellyasiya protestinə əlavə etmək, onu dəyişmək və ya geri götürmək hüququna malikdir.

390.3. Barəsində tərbiyəvi və ya tibbi xarakterli məcburi tədbirlər tətbiq edilmiş şəxsin, habelə məhkumun və ya bəraət almış şəxsin vəziyyətinin pisləşməsinə səbəb olan dəyişikliklərin edilməsi yalnız apellyasiya şikayətinin və apellyasiya protestinin verilməsi üçün müəyyən edilmiş müddət ərzində apellyasiya şikayətinə və ya apellyasiya protestinə verilə bilər.

390.4. Bu Məcəllənin 390.5 və 390.6-cı maddələrində nəzərdə tutulmuş hallar istisna olmaqla, apellyasiya şikayəti və ya apellyasiya protesti vermiş şəxs apellyasiya instansiyası məhkəməsində məhkəmənin yekun qərarı çıxarılanadək öz şikayətini və ya protestini geri götürmək hüququna malikdir.

390.5. Müdafiəçi öz apellyasiya şikayətini yalnız müdafiə etdiyi şəxsin və ya onun qanuni nümayəndəsinin razılığı ilə gəri götürə bilər. Apellyasiya icraatında cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraata cəlb edilmiş müdafiəçi yalnız məhkum olunmuş və ya bəraət almış şəxsin və onların qanuni nümayəndələrinin razılığı ilə birinci instansiya məhkəməsində iştirak etmiş müdafiəçinin apellyasiya şikayətinə əlavə və dəyişikliklər etmək hüququna malikdir.

390.6. Məhkum və ya bəraət almış şəxs öz müdafiəçisinin apellyasiya şikayətini geri götürmək hüququna malikdir.

390.7. Zərər çəkmiş şəxsin (xüsusi ittihamçının) apellyasiya instansiyası məhkəməsində iştirak edən nümayəndəsi öz apellyasiya şikayətini, habelə zərər çəkmiş şəxsin birinci instansiya məhkəməsində iştirak edən nümayəndəsinin apellyasiya şikayətini yalnız zərər çəkmiş şəxsin (xüsusi ittihamçının) və ya onun qanuni nümayəndəsinin razılığı ilə geri götürmək hüququna malikdir.

*390.8. Barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin nümayəndəsi ona verilmiş etibarnamə ilə müəyyən edildiyi hallarda, müdafiəçisi isə nümayəndənin razılığı ilə apellyasiya şikayətini geri götürə bilər.* [498]

**Maddə 391. Apellyasiya şikayətinə və ya apellyasiya protestinə ilkin baxılması**

391.1. Apellyasiya şikayətləri və ya apellyasiya protestləri apellyasiya instansiyası məhkəməsinə daxil olduqdan sonra bu Məcəllənin 298.1-ci maddəsində nəzərdə tutulmuş qaydaya uyğun olaraq hakimlərin icraatına verilir. Apellyasiya instansiyası məhkəməsi 15 (on beş) gün müddətində (cinayət işinin həcminin böyüklüyü, təqsirləndirilən şəxslərin sayının çoxluğu və ya baxışın təşkilinin xüsusilə mürəkkəb olması ilə əlaqədar bu müddət məhkəmənin qərarı ilə 30 (otuz) günədək uzadıla bilər) üç hakimdən ibarət tərkibdə və məhkəmə iclası katibinin iştirakı ilə məhkəmə iclasında apellyasiya şikayətinin və ya apellyasiya protestinin ilkin baxışını aparır. Apellyasiya şikayəti vermək hüququ olan şəxslər və apellyasiya instansiyasında ittiham tərəfi təmsil edən dövlət ittihamçısı məhkəmənin iclasında iştirak etmək hüququna malikdirlər. Həmin şəxslər müəyyən edilmiş qaydada məhkəmə iclasının keçirilməsinin vaxtı və yeri barədə əvvəlcədən xəbərdar edilirlər, lakin onların gəlməməsi apellyasiya şikayətinə və ya apellyasiya protestinə ilkin baxılmasına mane olmur. Apellyasiya şikayətinə və ya apellyasiya protestinə ilkin baxılması üzrə məhkəmə iclasında iştirak etmək barədə müraciət olduqda apellyasiya instansiyası məhkəməsi həbsdə saxlanılan məhkumun gətirilməsi barədə qərar çıxarır. [499]

391.2. Apellyasiya şikayətinə və ya apellyasiya protestinə ilkin baxılması qaydası apellyasiya instansiyası məhkəməsi tərəfindən müəyyən edilir. Bu zaman hər bir halda apellyasiya instansiyası məhkəməsi aşağıdakı məsələləri araşdırmalıdır:

391.2.1. daxil olmuş apellyasiya şikayətinin və ya apellyasiya protestinin həmin məhkəməyə aid olub-olmadığını;

391.2.2. apellyasiya şikayəti və ya apellyasiya protesti verilərkən bu Məcəllənin 381–390-cı maddələrinin tələblərinə riayət olunub-olunmadığını;

391.2.3. cinayət işinə, məhkəməyədək sadələşdirilmiş icraatın materiallarına və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraata xitam verilməsi və ya dayandırılması üçün əsasların olub-olmadığını;

391.2.4. cinayət işi üzrə qətimkan tədbirinin dəyişdirilməsi, ləğv edilməsi və ya seçilməsi üçün əsasların olub-olmadığını;

391.2.5. cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə birinci instansiya məhkəməsində icraat zamanı bu Məcəllənin tələblərinin kobud surətdə pozulmasına yol verilib-verilmədiyini.

391.3. Apellyasiya şikayətinə və ya apellyasiya protestinə ilkin baxılması zamanı apellyasiya instansiyası məhkəməsi bu Məcəllənin müddəalarına müvafiq olaraq aşağıdakı qərarlardan birini qəbul edir:

391.3.1. apellyasiya şikayətinin və ya apellyasiya protestinin hərəkətsiz saxlanılması haqqında;

391.3.2. apellyasiya şikayətinin və ya apellyasiya protestinin məhkəmə aidiyyəti üzrə göndərilməsi haqqında;

391.3.3. apellyasiya şikayətinin və ya apellyasiya protestinin verilməsi üçün müəyyən edilmiş müddətin bərpa edilməsi və ya bərpanın rədd edilməsi haqqında;

391.3.4. apellyasiya şikayəti və ya apellyasiya protesti üzrə məhkəmə baxışının təyin edilməsi haqqında;

391.3.5. apellyasiya şikayətinin və ya apellyasiya protestinin öz icraatına qəbul edilməsindən imtina haqqında;

391.3.6. cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraat materiallarının və ya xüsusi ittiham qaydasında şikayət üzrə, icraat materiallarının birinci instansiya məhkəməsinə qaytarılması haqqında;

301.3.7. apellyasiya şikayətinə və ya apellyasiya protestinə baxılmasına xitam verilməsi və cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraat materiallarının və ya xüsusi ittiham qaydasında şikayət üzrə materialların birinci instansiya məhkəməsinə qaytarılması haqqında;

391.3.8. cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraat materiallarının və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatın dayandırılması haqqında;

391.3.9. cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materiallarına və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraata xitam verilməsi haqqında;

391.3.10. apellyasiya şikayətinə və ya apellyasiya protestinə baxılmasına xitam verilməsi haqqında.

391.4. Bu Məcəllənin 386 və 387-ci maddələrinin tələbləri yerinə yetirilmədikdə apellyasiya instansiyası məhkəməsi apellyasiya şikayətinin və ya apellyasiya protestinin hərəkətsiz saxlanılması barədə qərar çıxarır və öz qərarı ilə həmin tələblərin yerinə yetirilməsi üçün 10 (on) gündən 20 (iyirmi) günədək müddət təyin edir. Təyin edilmiş müddət ərzində həmin tələblər yerinə yetirilmədikdə, apellyasiya instansiyası məhkəməsinin qərarı ilə apellyasiya şikayəti və ya apellyasiya protesti verilməmiş hesab edilir və baxılmamış saxlanılır.[500]

391.5. Apellyasiya şikayəti və ya apellyasiya protesti buna hüququ olmayan şəxs tərəfindən verildikdə apellyasiya instansiyası məhkəməsi apellyasiya şikayətinin və ya apellyasiya protestinin öz icraatına qəbul edilməsindən imtina haqqında qərar çıxarır.

391.6. Apellyasiya instansiyası məhkəməsi aşağıdakı hallarda cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraat materiallarının və ya xüsusi ittiham qaydasında şikayət üzrə materialların birinci instansiya məhkəməsinə qaytarılması haqqında qərar çıxarır:

391.6.1. birinci instansiya məhkəməsində icraat zamanı aparılmış məhkəmə iclasının protokolu məhkəmə iclasında sədrlik edən və ya məhkəmənin katibi tərəfindən imzalanmadıqda;

391.6.2. hökmün surəti məhkuma və ya bəraət almış şəxsə verilmədikdə və ya onun ana dilinə, yaxud bildiyi dilə tərcümə edilmədən verildikdə;

391.6.3. birinci instansiya məhkəməsinin hökm və ya qərarı məhkəmə baxışında iştirak edən hakim tərəfindən imzalanmadıqda;

391.6.4. cinayət işində, məhkəməyədək sadələşdirilmiş icraat materiallarında və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraat materiallarında məhkəmə iclasının protokolu *və məhkəmə iclasının audioyazısı*, birinci instansiya məhkəməsində məhkəmə baxışı zamanı çıxarılmış hökm və ya qərar olmadıqda.[501]

391.7. Bu Məcəllənin 391.6-cı maddəsində nəzərdə tutulmuş hallarda aşağıdakı hərəkətlər yerinə yetirilir:

391.7.1. apellyasiya instansiyası məhkəməsi öz qərarı ilə yol verilmiş pozuntuların aradan qaldırılması üçün 10 (on) gündən çox olmamaq şərtilə müddət təyin edir və cinayət işini, məhkəməyədək sadələşdirilmiş icraat materiallarını və ya xüsusi ittiham qaydasında şikayət üzrə materialları birinci instansiya məhkəməsinə göndərir;

391.7.2. birinci instansiya məhkəməsi təyin edilmiş müddət ərzində yol verilmiş pozuntuları imkan daxilində aradan qaldırır və cinayət işini, məhkəməyədək sadələşdirilmiş icraatın materiallarını və ya xüsusi ittiham qaydasında şikayət üzrə materialları apellyasiya şikayətinə və ya apellyasiya protestinə yenidən baxılması üçün apellyasiya

instansiyası məhkəməsinə göndərir.
391.8. Bu Məcəllənin müddəalarının aşağıdakı kobud pozuntularına yol verildiyi hallarda apellyasiya instansiyası məhkəməsi apellyasiya şikayətinə və apellyasiya protestinə baxılmasına xitam verilməsi və cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraat materiallarının və ya xüsusi ittiham qaydasında şikayət üzrə materialların birinci instansiya məhkəməsinə qaytarılması haqqında qərar çıxarır:
391.8.1. birinci instansiya məhkəməsində məhkəmə baxışı bu Məcəllənin 303.3-cü maddəsinin tələbləri pozulmaqla keçirildikdə;
391.8.2. birinci instansiya məhkəməsi bu Məcəllənin 391.6-cı maddəsində göstərilən pozuntulardan hər hansı birini aradan qaldırmadıqda;
391.8.3. birinci instansiya məhkəməsində məhkəmə baxışı məhkəmə aidiyyətinin qaydaları pozulmaqla keçirildikdə;
391.8.4. birinci instansiya məhkəməsində məhkəmə baxışı özü-özünə etiraz etmiş və ya etiraz edilmiş hakimin qanunsuz iştirakı ilə keçirildikdə;
391.8.5. birinci instansiya məhkəməsində məhkəmə baxışı hakimlərin tərkibinin dəyişilməzliyi barədə tələblər pozulmaqla keçirildikdə;
391.8.6. birinci instansiya məhkəməsində məhkəmə baxışı təqsirləndirilən şəxsin müdafiə hüquqlarının pozulması ilə keçirildikdə;
391.8.7. birinci instansiya məhkəməsində məhkəmə baxışı təqsirləndirilən şəxsin sərbəst bildikləri ana dilindən və tərcüməçinin köməyindən istifadə etmək hüququnun pozulması ilə keçirildikdə;
391.8.8. birinci instansiya məhkəməsində məhkəmə baxışı dövlət ittihamçısının, təqsirləndirilən şəxsin və ya onun müdafiəçisinin iştirakına dair tələblərin pozulması ilə keçirildikdə;
391.8.9. birinci instansiya məhkəməsində məhkəmə baxışı təqsirləndirilən və zərər çəkmiş şəxsə, dövlət ittihamçısına məhkəmə çıxışları, təqsirləndirilən şəxsə isə, həmçinin son sözlə çıxış etmək imkanının yaradılması barədə tələblərin pozulması ilə keçirildikdə;
391.8.10. birinci instansiya məhkəməsində məhkəmə baxışının nəticələrinə dair yekun məhkəmə qərarı hakimlərin müşavirəsinin gizliliyi haqqında tələbin pozulması ilə çıxarıldıqda;
391.8.11. birinci instansiya məhkəməsində məhkəmə baxışı ittihamın hüdudları barədə tələblərin pozulması ilə keçirildikdə (ittihamın irəli sürüldüyü cinayətlə müqayisədə ittiham hökmü daha ağır cinayət üzrə çıxarıldıqda); [502]
391.8.12. birinci instansiya məhkəməsinin hökm və ya qərarı hakimlər tərəfindən bu Məcəllənin 352.5 və 352.6-cı maddələrinin tələblərinə müvafiq surətdə imzalanmadıqda.
*391.8-1. Apellyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsində dövlət ittihamçısı tərəfindən müdafiə edilmiş ittihamla müqayisədə daha ağır cinayət üzrə ittihamın irəli sürülməsinə dair Azərbaycan Respublikası Baş prokurorunun, Naxçıvan Muxtar Respublikasının ərazisində, həmçinin Naxçıvan Muxtar Respublikasının prokurorunun protesti ilə razılaşdıqda apellyasiya şikayətinə və apellyasiya protestinə baxılmasına xitam verilməsi və cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraat materiallarının birinci instansiya məhkəməsinə qaytarılması haqqında qərar çıxarır.*[503]
391.9. Bu Məcəllənin 391.8 və 391.8-1-ci maddəsində nəzərdə tutulmuş hallarda apellyasiya instansiyası məhkəməsi öz qərarı ilə: [504]
391.9.1. məhkəmə baxışının nəticələri üzrə çıxarılmış birinci instansiya məhkəməsinin hökm və ya qərarını ləğv edir;
391.9.2. cinayət işini, məhkəməyədək sadələşdirilmiş icraat materiallarını və ya xüsusi ittiham qaydasında şikayət üzrə materialları birinci instansiya məhkəməsinə məhkəmənin hazırlıq iclasının keçirilməsi mərhələsinə və ya yeni məhkəmə baxışına göndərir.
391.10. Bu Məcəllənin 391.6 , 391.8 və 391.8-1-ci maddələrində nəzərdə tutulmuş hallarda apellyasiya instansiyası məhkəməsi bu Məcəllənin yol verilmiş kobud pozuntularına dair xüsusi qərar çıxara bilər və həmin qərarı müvafiq olaraq aşağıdakı şəxslərə göndərməlidir: [505]
391.10.1. dövlət orqanlarının vəzifəli şəxsləri barəsində tabeçilik qaydasında müvafiq yuxarı dövlət orqanının rəhbərinə;
391.10.2. müstəntiqlər, təhqiqatçılar və təhqiqat orqanın əməkdaşları barəsində—tabeçilik qaydasında Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanının rəhbərinə;
391.10.3. prokurorlar və prokurorluğun müstəntiqləri barəsində—Azərbaycan Respublikasının Baş prokuroruna;
391.10.4. birinci instansiya məhkəməsinin hakimləri barəsində—apellyasiya instansiyası məhkəməsi sədrinin vasitəsilə Məhkəmə-Hüquq Şurasına. [506]
391.11. Apellyasiya şikayətini və ya apellyasiya protestini vermiş şəxs öz apellyasiya tələblərindən imtina etdikdə və cinayət prosesinin digər iştirakçılarının apellyasiya şikayəti və ya apellyasiya protesti olmadığı halda, məhkəmə apellyasiya şikayətinə və ya apellyasiya protestinə baxılmasına xitam verilməsi haqqında qərar çıxarır. Apellyasiya şikayətinə və ya apellyasiya protestinə baxılmasına xitam verildiyi andan birinci instansiya məhkəməsinin hökm və ya digər yekun qərarı qanuni qüvvəyə minir.

391.12. Apellyasiya instansiyası məhkəməsinin apellyasiya şikayətinə və ya apellyasiya protestinə ilkin baxılması nəticələrinə dair çıxarılmış qərarlarından *(bu Məcəllənin 391.3.4-cü maddəsində nəzərdə tutulmuş qərar istisna olmaqla)* kassasiya instansiyası məhkəməsinə şikayət və ya protest verilə bilər. [507]

**Maddə 392. Apellyasiya instansiyası məhkəməsində baxışın təyin edilməsi**

392.1. Apellyasiya şikayətinin və ya apellyasiya protestinin baxışını təyin edərkən apellyasiya instansiyası məhkəməsi aşağıdakı məsələləri həll edir:

392.1.1. məhkəmə istintaqının aparılması zərurəti və onun həcmi haqqında;

392.1.2. əlavə sübutların tələb edilməsinin zəruriliyi haqqında;

392.1.3. məhkəmə iclasına çağırılmalı olan şəxslər haqqında;

392.1.4. cinayət işi üzrə qətimkan tədbirinin dəyişdirilməsi, ləğv edilməsi və ya seçilməsi haqqında;

392.1.5. zəruri hallarda tərcüməçinin çağırılması haqqında;

392.1.6. apellyasiya şikayətinə və ya apellyasiya protestinə açıq, yaxud qapalı məhkəmə iclasında baxılması haqqında;

392.1.7. məhkəmə iclasının vaxtı və yeri haqqında;

392.1.8. apellyasiya instansiyasında məhkəmə baxışının keçirilməsi üçün hazırlıq tədbirlərinə dair bütün digər məsələlər.

392.2. Apellyasiya şikayətində və ya apellyasiya protestində məhkum edilmiş və ya bəraət almış şəxsin vəziyyətinin pisləşməsi barədə məsələ qoyulduqda, yaxud məhkəmə istintaqının aparılması apellyasiya instansiyası məhkəməsi tərəfindən zəruri hesab edildikdə, məhkum edilmiş və ya bəraət almış şəxs, onların qanuni nümayəndələri apellyasiya instansiyası məhkəməsinin iclasına mütləq çağırılmalıdırlar. Belə hallarda dövlət ittihamçısı və cinayət prosesində iştirakı məcburi olan müdafiəçilər də çağırılırlar. Apellyasiya şikayəti və ya apellyasiya protesti vermiş şəxsin, habelə apellyasiya instansiyası məhkəməsinin iclasına mütləq çağırılan digər şəxslərin məhkəmə baxışında iştirakı və onların gəlməməsinin nəticələri bu Məcəllənin 311 - 316-cı maddələrinin tələblərinə müvafiq olaraq müəyyən olunur. [508]

392.3. Birinci instansiya məhkəməsi tərəfindən məhkəmənin gəldiyi nəticələrin düzgünlüyü üçün mühüm əhəmiyyət kəsb edən bütün faktiki halların araşdırılmadığını güman etməyə əsaslar olduqda, apellyasiya instansiyası məhkəməsi məhkəmə istintaqının tam və ya qismən aparılmasını zəruri hesab edə bilər. Məhkəmə istintaqı tam və ya qismən aparıldıqda apellyasiya tələbinin əsaslandırıldığı bütün dəlillərin tədqiq edilməsi məcburidir.

392.4. Apellyasiya şikayəti və ya apellyasiya protesti məhkəməyə daxil olduğu vaxtdan 30 (otuz) gün müddətində apellyasiya instansiyası məhkəməsi onların baxışını təyin edir. Cinayət işinin həcminin böyüklüyü, təqsirləndirilən şəxslərin sayının çoxluğu və ya baxışın təşkilinin xüsusilə mürəkkəb olması ilə əlaqədar bu müddət apellyasiya instansiyası məhkəməsinin qərarı ilə 45 (qırx beş) günədək uzadıla bilər. [509]

**Maddə 393. Apellyasiya şikayətinə və ya apellyasiya protestinə baxıldığı gün barədə məlumatın verilməsi**

393.1. Apellyasiya instansiyası məhkəməsinin iclasına çağırılmalı olan şəxslər məhkəmə baxışına çağırılmaları barədə çağırış vərəqəsi ilə məlumatlandırılırlar. Məhkum edilmiş və ya bəraət almış şəxsə eyni zamanda işin apellyasiya baxışına təyin edilməsi haqqında qərarın surəti göndərilir.

393.2. Apellyasiya instansiyası məhkəməsi məhkəmə iclasına ən geci 3 (üç) gün qalmış apellyasiya şikayətinə və ya apellyasiya protestinə baxılmasının vaxtı və yeri barədə elanlar lövhəsində məlumat asmalıdır.

**Maddə 394. Apellyasiya şikayətinə və ya apellyasiya protestinə baxılması qaydası**

394.1. Bu Məcəllənin 322 və 323-cü maddələrində göstərilmiş ilkin hərəkətləri apellyasiya şikayəti və ya apellyasiya protestinin məhkəmə açılışına uyğun yerinə yetirdikdən sonra məhkəmə iclasında sədrlik edən aşağıdakı hüquqları izah edir: [510]

394.1.1. apellyasiya şikayəti və apellyasiya protesti vermək hüququna malik olan şəxslərə öz apellyasiya şikayətlərini və ya apellyasiya protestlərini müdafiə etmək, yaxud onlardan imtina etmək hüququnu;

394.1.2. cinayət prosesinin digər iştirakçılarına apellyasiya şikayətini və ya apellyasiya protestini müdafiə etmək, onlara dair öz etirazlarını bildirmək və ya izahat vermək hüququnu;

394.1.3. cinayət prosesi iştirakçılarına məhkəmədə çıxış etmək hüququnu;

394.1.4. cinayət prosesinin iştirakçılarına birinci instansiya məhkəməsinin hökm və ya qərarının yalnız apellyasiya qaydasında mübahisə edilən hissəsinə dair vəsatət qaldırmaq

hüququnu.
394.2. Bundan sonra məhkəmə iclasında sədrlik edən aşağıdakı hərəkətləri yerinə yetirir:
394.2.1. birinci instansiya məhkəməsinin mübahisə edilən hökm və ya qərarının mahiyyətini izah edir;
394.2.2. onlara dair kim tərəfindən və hansı həcmdə apellyasiya şikayətinin və ya apellyasiya protestinin verilməsi barədə məlumat verir;
394.2.3. apellyasiya şikayəti və ya apellyasiya protesti vermiş şəxslərdən öz şikayət və ya protestlərini müdafiə edib-etməmələrini araşdırır və apellyasiyaya dair etiraz vermiş şəxsləri sadalayır;
394.2.4. cinayət prosesinin digər iştirakçılarından öz etirazlarını müdafiə edib-etməmələrini aydınlaşdırır.
394.3. Apellyasiya instansiyası məhkəməsi apellyasiya şikayətinin və ya apellyasiya protestinin baxışını məhkəmə istintaqını aparmadan keçirdikdə bu Məcəllənin 394.2-ci maddəsində göstərilən hərəkətlər yerinə yetirildikdən sonra:
394.3.1. əlavə vəsatətlər verildiyi halda məhkəmə iclasında sədrlik edən cinayət prosesi iştirakçılarını həmin vəsatətlərlə tanış edir;
394.3.2. məhkəmə verilmiş apellyasiya şikayətlərinə və apellyasiya protestlərinə dair cinayət prosesi iştirakçılarının dəlillərini dinləyir və bu Məcəllənin 339—341-ci maddələrində nəzərdə tutulmuş qaydalara uyğun olaraq məhkəmə çıxışları keçirir. [511]
394.4. Apellyasiya instansiyası məhkəməsi apellyasiya şikayətinin və ya apellyasiya protestinin baxışını məhkəmə istintaqını aparmaqla keçirdikdə bu Məcəllənin 394.2-ci maddəsində göstərilən hərəkətlər yerinə yetirildikdən sonra:
394.4.1. məhkəmə istintaqı və məhkəmə çıxışları bu Məcəllənin 324—341-ci maddələrində nəzərdə tutulmuş qaydalara uyğun olaraq aparılır; [512]
394.4.2. apellyasiyanın daxil olduğu vaxt nəzərə alınmaqla məhkəmə çıxışlarında apellyasiya şikayəti və ya apellyasiya protesti ilə müraciət etmiş şəxslər birinci çıxış edirlər.
394.5. Apellyasiya şikayətinin və ya apellyasiya protestinin baxışı zamanı apellyasiya instansiyası məhkəməsi cinayət prosesi tərəflərinin verdikləri, vəsatətlərə və məhkəmə baxışının aparılması məsələlərinə dair qərarlar qəbul etmək hüququna malikdir.
394.6. Apellyasiya instansiyası məhkəməsi apellyasiya şikayəti və ya apellyasiya protestinin baxışını məhkəmə istintaqını aparmaqla keçirdikdə yekun məhkəmə qərarını qəbul etmək üçün müşavirə otağına getməmişdən əvvəl məhkuma (bəraət almış şəxsə) son söz verir. [513]

**Maddə 395. Məhkəmə istintaqının təzələnməsi**

Məhkəmə çıxışları, məhkumun (bəraət almış şəxsin) son sözünün səslənməsi və ya yekun məhkəmə qərarının çıxarılması zamanı yeni halların, yaxud sübutların tədqiq edilməsinə zərurət yarandıqda apellyasiya instansiyası məhkəməsi bu Məcəllənin 324—343-cü maddələrində nəzərdə tutulmuş tələblərə riayət etməklə məhkəmə istintaqını təzələyir.

**Maddə 396. Apellyasiya şikayətinin və ya apellyasiya protestinin baxılmasına xitam verilməsi**

Apellyasiya şikayətini və ya apellyasiya protestini vermiş şəxslər öz tələblərindən imtina etdiyi və cinayət prosesinin digər iştirakçılarının apellyasiya şikayətləri olmadığı halda apellyasiya instansiyası məhkəməsi apellyasiya şikayətinin və ya apellyasiya protestinin baxılmasına xitam verilməsi haqqında qərar çıxarmalıdır.

**Maddə 397. Apellyasiya şikayətinə və ya apellyasiya protestinə baxılması hüdudları**

397.1. Apellyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsi tərəfindən işin faktiki hallarının müəyyən edilməsinin, habelə cinayət qanununun və bu Məcəllənin normalarının tətbiq edilməsinin düzgünlüyünü yoxlayır._KMQ6
397.2. Birinci instansiya məhkəməsi tərəfindən müəyyən edilmiş faktiki hallar apellyasiya instansiyası məhkəməsi tərəfindən yalnız apellyasiya şikayətinin və ya apellyasiya protestinin hüdudlarında yoxlanılır. Birinci instansiya məhkəməsi tərəfindən cinayət qanununa və bu Məcəllənin normalarına riayət edilməsi apellyasiya instansiyası məhkəməsi tərəfindən apellyasiya şikayətinin və ya apellyasiya protestinin dəlillərindən asılı olmayaraq yoxlanılır.
397.3. Apellyasiya şikayətinin və ya apellyasiya protestinin baxışı zamanı aşağıdakı hallardan ən azı biri mövcud olduqda apellyasiya instansiyası məhkəməsi tərəfindən yeni sübutlar tədqiq edilir:
397.3.1. cinayət prosesinin iştirakçıları yeni sübutların birinci instansiya

məhkəməsinə təqdim edilməməsini onlardan asılı olmayan səbəblərlə əsaslandırdıqda; [514]

397.3.2. birinci instansiya məhkəməsi bu sübutların tədqiqini obyektiv səbəb olmadan rədd etdikdə.

397.4. Apellyasiya instansiyası məhkəməsi yeni sübutların tədqiqini apellyasiya şikayətinin və ya apellyasiya protestinin baxışının uzadılması cəhdi kimi qiymətləndirdikdə, həmin sübutların tədqiq edilməsi haqqında vəsatəti rədd etmək hüququna malikdir.

397.5. Apellyasiya instansiyası məhkəməsi, apellyasiya şikayətinin və ya apellyasiya protestinin baxışının nəticələri buna əsas verərsə, haqlarında apellyasiya verilməyən şəxslərin xeyrinə yekun qərar qəbul etməlidir.

**Maddə 398. Apellyasiya şikayətinin və ya apellyasiya protestinin baxışına dair yekun məhkəmə qərarı**

398.1. Apellyasiya şikayətinin və ya apellyasiya protestinin baxışı nəticəsində apellyasiya instansiyası məhkəməsi aşağıdakılardan birini etməyə haqlıdır:

398.1.1. birinci instansiya məhkəməsinin hökm və ya qərarını dəyişdirmədən, apellyasiya şikayətini və ya apellyasiya protestini isə təmin etmədən saxlanılması haqqında qərar qəbul etmək;

398.1.2. birinci instansiya məhkəməsinin hökmünü və ya qərarını ləğv edərək yeni hökm və ya qərar çıxarmaq; [515]

398.1.3. birinci instansiya məhkəməsinin hökm və ya qərarını ləğv edərək və cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraat və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraata xitam verilməsi barədə qərar qəbul etmək;

398.1.4. birinci instansiya məhkəməsinin hökm və ya qərarının dəyişdirilməsi barədə qərar qəbul etmək.

398.2. Apellyasiya instansiyası məhkəməsinin hökmü bu Məcəllənin 353-cü maddəsinin tələblərinə uyğun olmalıdır. Apellyasiya instansiyası məhkəməsinin digər yekun qərarı giriş, təsviri-əsaslandırıcı və nəticəvi hissələrdən ibarət olmalıdır. Yekun qərarı çıxarmaqla yanaşı apellyasiya instansiyası məhkəməsi, həmçinin apellyasiya şikayətinin və ya apellyasiya protestinin baxışı nəticəsində aşağıdakıları müəyyən etdikdə xüsusi qərar çıxara bilər:

398.2.1. cinayətin törədilməsinə səbəb və ya şərait, fiziki şəxslərin cinayət məsuliyyətinə səbəb olmayan hərəkət və hərəkətsizliyi, habelə dövlət hakimiyyəti orqanlarının və ya dövlət orqanlarının vəzifəli şəxslərinin fəaliyyətindəki pozuntular, çatışmazlıqlar və ya nöqsanlar olduqda;

398.2.2. cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraat zamanı müvafiq olaraq cinayət təqibi orqanları və ya birinci instansiya məhkəməsi tərəfindən bu Məcəllənin tələblərinin pozulmasına yol verildikdə.

**Maddə 399. Birinci instansiya məhkəməsinin hökm və ya qərarının ləğv edilməsi və ya dəyişdirilməsi üçün əsaslar**

399.1. Apellyasiya şikayətinin və ya apellyasiya protestinin baxışının nəticələri üzrə birinci instansiya məhkəməsinin hökm və ya qərarının ləğv edilməsi və ya dəyişdirilməsi üçün əsaslar aşağıdakılardır:

399.1.1. məhkəmənin gəldiyi nəticələr üzrə mühüm əhəmiyyət kəsb edən bütün faktiki halların araşdırılmaması;

399.1.2. məhkəmənin gəldiyi nəticələrin işin faktiki hallarına uyğun olmaması;

399.1.3. birinci instansiya məhkəməsi tərəfindən müəyyən edilmiş iş üçün əhəmiyyətli olan halların sübuta yetirilməməsi;

399.1.4. cinayət qanunu normasının düzgün tətbiq edilməməsi;

399.1.5. təyin edilmiş cəzanın cinayətin ağırlığına və ya məhkumun şəxsiyyətinə uyğun olmaması.

399.2. Apellyasiya instansiyası məhkəməsi bəraət hökmünü yalnız təqsirləndirilən şəxsin hüquqlarının əhəmiyyətli dərəcədə pozulmasına əsaslanaraq dəyişdirə bilməz.

399.3. İşin bütün hallarının araşdırılması nəticəsində çıxarılmış və mahiyyətcə düzgün olan birinci instansiya məhkəməsinin hökm və ya qərarı yalnız bu Məcəllənin tələblərinin pozulması səbəbindən formal mülahizələrə əsaslanaraq ləğv edilə bilməz.

**Maddə 400. Məhkəmənin gəldiyi nəticələr üçün mühüm əhəmiyyət kəsb edən bütün faktiki halların araşdırılmaması**

400.1. Apellyasiya instansiyası məhkəməsində yeni sübutların tədqiqi zamanı məhkəmənin gəldiyi nəticələrin düzgünlüyünə təsir göstərən digər faktiki hallar müəyyən edildikdə məhkəmənin gəldiyi nəticələr üçün mühüm əhəmiyyət kəsb edən bütün faktiki halların

araşdırılmaması birinci instansiya məhkəməsinin hökm və ya qərarının ləğv edilməsi və ya dəyişdirilməsi üçün əsasdır.

400.2. Məhkəmənin gəldiyi nəticələr üçün mühüm əhəmiyyət kəsb edən bütün faktiki halların araşdırılmaması aşağıdakılar hesab edilir:

400.2.1. işin düzgün həll edilməsi üçün mühüm əhəmiyyətə malik olan halların təsdiq və ya təkzib edilməsi üçün şəxslərin dindirilməməsi, sənədlərin, maddi və ya digər sübutların tələb edilməməsi;

400.2.2. bu və ya digər halın tədqiqinin zəruriliyinin apellyasiya şikayətinin və ya apellyasiya protestinin apellyasiya instansiyası məhkəməsində baxışı zamanı təqdim edilmiş yeni materiallardan irəli gəlməsi;

400.2.3. barəsində tərbiyəvi və ya tibbi xarakterli məcburi tədbirlər tətbiq edilmiş məhkumun və ya bəraət almış şəxsin şəxsiyyəti barədə məlumatların kifayət qədər tam aydınlaşdırılmaması.

**Maddə 401. Birinci instansiya məhkəməsinin gəldiyi nəticələrin işin faktiki hallarına uyğun olmaması**

401.1. Birinci instansiya məhkəməsinin gəldiyi nəticələrin işin faktiki hallarına uyğun gəlməməsi yalnız aşağıdakılara təsir göstərdiyi halda birinci instansiya məhkəməsinin hökm və ya qərarı ləğv edilməlidir:

401.1.1. məhkumun təqsirliliyi və ya bəraət almış şəxsin təqsirsizliyi haqqında məsələnin həll edilməsinə;

401.1.2. ictimai təhlükəli əməlin tövsifinə dair cinayət qanunvericiliyinin tətbiqinin düzgünlüyünə;

401.1.3. cəza tədbirinin müəyyən edilməsinə;

401.1.4. tibbi və ya tərbiyəvi xarakterli məcburi tədbirlərin tətbiq edilməsinə;[516]

*401.1.5. hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsinə.*

401.2. Aşağıdakı hallarda məhkəmənin gəldiyi nəticələr işin faktiki hallarına uyğun olmayan hesab edilir:

401.2.1. məhkəmənin hökm və ya qərarında əks etdirilmiş birinci instansiya məhkəməsinin gəldiyi nəticələr məhkəmə iclasında tədqiq edilmiş sübutlarla təsdiq edilmədikdə;

401.2.2. birinci instansiya məhkəməsi onun tərəfindən məhkəmə iclasında tədqiq edilmiş və özünün gəldiyi nəticələrin düzgünlüyünə əhəmiyyətli təsir göstərən sübutları nəzərə almadıqda;

401.2.3. birinci instansiya məhkəməsi öz hökm və ya qərarında bir sübutun qəbul edilməsinin və digər sübutun rədd edilməsinin səbəbini göstərmədikdə həmin məhkəmənin gəldiyi nəticələr üçün mühüm əhəmiyyətə malik olan ziddiyyətli sübutlar olduqda;

401.2.4. birinci instansiya məhkəməsinin hökm və ya qərarında şərh edilmiş hallarla, onun gəldiyi nəticələr arasında əhəmiyyətli ziddiyyətlər olduqda.

**Maddə 402. Birinci instansiya məhkəməsi tərəfindən müəyyən edilmiş halların sübuta yetirilməməsi**

402.0. Aşağıdakı hallarda birinci instansiya məhkəməsi tərəfindən müəyyən edilmiş hallar sübuta yetirilməmiş hesab edilir:

402.0.1. irəli sürülmüş ittihama baxılması üçün mühüm əhəmiyyətə malik olan hallar birinci instansiya məhkəməsinin hökm və ya qərarında qanunda göstərilən sübutlarla təsdiq edilmədikdə;

402.0.2. irəli sürülmüş ittihama baxılması üçün mühüm əhəmiyyətə malik olan hallar birinci instansiya məhkəməsinin hökm və ya qərarında mötəbər olmayan, ziddiyyətli, yolverilməz və ya aid olmayan sübutlarla təsdiq edildikdə.

**Maddə 403. Cinayət qanunu normasının düzgün tətbiq edilməməsi**

403.0. Birinci instansiya məhkəməsinin hökm və ya qərarının ləğv edilməsinə, yaxud dəyişdirilməsinə səbəb olan cinayət qanunu normasının düzgün tətbiq edilməməsi aşağıdakılar hesab edilir:

403.0.1. tətbiq edilməli olan cinayət qanunu normasının məhkəmə tərəfindən tətbiq edilməməsi;

403.0.2. tətbiq edilməli olmayan cinayət qanunu normasının tətbiq edilməsi;

403.0.3. cinayət qanunu normasının düzgün şərh edilməməsi.

**Maddə 404. Məhkəmənin təyin etdiyi cəzanın cinayətin ağırlığına və məhkumun şəxsiyyətinə uyğun olmaması**

Cinayət qanununun müvafiq maddəsi ilə müəyyən edilmiş hüdudlardan kənara çıxmasa da, həm sərtliyinə, həm də yüngüllüyünə görə açıq-aydın ədalətsiz olan cəza cinayətin ağırlığına və məhkumun şəxsiyyətinə uyğun olmayan cəza hesab edilir.

**Maddə 405. Birinci instansiya məhkəməsinin hökm və ya qərarının dəyişdirilməsi**

405.1. Apellyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsinin hökmünü aşağıdakı hallarda dəyişdirir:
405.1.1. cəzanın öz sərtliyinə görə cinayətin ağırlığına və məhkumun şəxsiyyətinə uyğun olmadığını hesab edərək təyin edilmiş cəzanı yüngülləşdirdikdə;
405.1.2. cinayətin tövsifini dəyişdirdiyi və az ağır cinayət haqqında cinayət qanunvericiliyini tətbiq etdiyi halda;
405.1.3. tutulmalı olan məbləğləri azaltdıqda və ya həmin məbləğləri artırdıqda, belə artırma ittihamın həcminə və cinayətin tövsifinə təsir göstərmədiyi halda;
405.1.4. hökmün dəyişdirilməsi ittihamın həcmini və məhkumun əməllərinin hüquqi tövsifini dəyişdirmədiyi, lakin birinci instansiya məhkəməsi tərəfindən ona təyin edilmiş cəzanı ağırlaşdırdığı digər hallarda.
405.2. Apellyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsinin qərarını aşağıdakı hallarda dəyişdirir:
405.2.1. ictimai təhlükəli əməlin tövsifinin dəyişdirilməsi və daha yüngül cinayət haqqında cinayət qanununun normasının tətbiq edilməsi;
405.2.2. tərbiyəvi və ya tibbi xarakterli məcburi tədbirlərin yüngülləşdirilməsi və ya ağırlaşdırılması;
*405.2.3. hüquqi* [517] *şəxs barəsində tətbiq edilən cinayət-hüquqi tədbirlərin yüngülləşdirilməsi və ya ağırlaşdırılması.*

**Maddə 406. Apellyasiya şikayətinin və ya apellyasiya protestinin baxışının nəticələrinə dair xüsusi qərar**

406.1. Apellyasiya şikayətinin və ya apellyasiya protestinin baxışı nəticəsində apellyasiya instansiyası məhkəməsi işin ibtidai araşdırması və ya birinci instansiya məhkəməsində baxış zamanı cinayət prosesi iştirakçılarının hüquqlarının əhəmiyyətli dərəcədə pozulmasına səbəb olan pozuntuları müəyyən etdikdə xüsusi qərar çıxara bilər.
406.2. Apellyasiya instansiyası məhkəməsinin xüsusi qərarında onun hansı cinayət işinə, məhkəməyədək sadələşdirilmiş icraatın materiallarına və ya xüsusi ittiham qaydasında şikayət üzrə materiala dair və kim tərəfindən çıxarıldığı göstərilməli, ittihamın mahiyyəti, xüsusi qərarın çıxarılmasının əsasları, kimin və dəqiq hansı pozuntuya yol verdiyi, habelə bu pozuntunun hansı hüquqi nəticələrə səbəb olduğu ətraflı şərh edilməlidir.
406.3. Apellyasiya instansiyası məhkəməsi tərəfindən çıxarılmış xüsusi qərar müvafiq təsir tədbirlərinin görülməsi üçün aşağıdakı şəxslərə göndərilməlidir:
406.3.1. dövlət orqanının vəzifəli şəxsləri barəsində tabeçiliyindən asılı olaraq yuxarı dövlət orqanının rəhbərinə;
406.3.2. müstəntiqlər, təhqiqatçılar və təhqiqat orqanının əməkdaşları barəsində—tabeçiliyindən asılı olaraq Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının rəhbərinə;
406.3.3. prokurorlar və ya prokurorluğun müstəntiqləri barəsində—Azərbaycan Respublikasının Baş prokuroruna;
406.3.4. birinci instansiya məhkəməsinin hakimləri barəsində—apellyasiya instansiyası məhkəməsi sədrinin vasitəsilə Məhkəmə-Hüquq Şurasına. [518]
406.4. Apellyasiya instansiyası məhkəməsinin xüsusi qərarının ünvanlandığı vəzifəli şəxslər həmin qərar onlara daxil olduğu vaxtdan 30 (otuz) gündən gec olmayaraq aşağıdakı tədbirləri görməlidirlər:
406.4.1. cinayət prosesi iştirakçılarının hüquqlarının pozulmasına yol vermiş şəxslərin məsuliyyəti haqqında məsələni həll etmək;
406.4.2. görülmüş tədbirlər haqqında məhkəməyə məlumat vermək.

**Maddə 407. Apellyasiya instansiyası məhkəməsinin yekun qərarının surətinin verilməsi və onun qanuni qüvvəyə minməsi**

407.1. Apellyasiya instansiyası məhkəməsində məhkəmə baxışının nəticələrinə dair yekun məhkəmə *qərarının giriş və nəticəvi hissəsi elan edilir. Həmin qərar* elan olunduğu vaxtdan 3 (üç) gündən gec olmayaraq aşağıdakı tədbirlər görülməlidir: [519]
407.1.1. hökmün surəti məhkuma və ya bəraət almış şəxsə, onun müdafiəçisinə, qanuni nümayəndəsinə, dövlət ittihamçısına, zərər çəkmiş şəxsə (xüsusi ittihamçıya), *mülki iddiaçı, mülki cavabdeh və onların nümayəndələrinə* verilməlidir; [520]
407.1.2. məhkəmənin digər yekun qərarının surəti, həmçinin cinayət prosesi iştirakçılarının vəsatətlərinə əsasən onlara verilməlidir.
407.2. Apellyasiya instansiyası məhkəməsinin yekun qərarı elan olunduğu andan dərhal

sonra qanuni qüvvəyə minir.

## XLVIII fəsil

## Məhkəmələrin hökm və ya qərarlarına kassasiya qaydasında yenidən baxılması

### Maddə 408. Kassasiya şikayətinin və ya kassasiya protestinin verilməsi

*408.1. Kassasiya şikayəti və ya kassasiya protesti bu Məcəllədə nəzərdə tutulmuş qaydada və hallarda apellyasiya instansiyası məhkəmələri tərəfindən çıxarılmış hökm və qərarlardan verilə bilər.*[521]

408.2. Kassasiya şikayəti və ya kassasiya protesti aşağıdakı qaydada verilir:

~~408.2.1. andlı iclasçıların iştirakı ilə Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsi tərəfindən çıxarılmış hökmlərdən - Azərbaycan Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasına;~~[522]

~~408.2.2. andlı iclasçıların iştirakı ilə ağır cinayətlər məhkəmələri tərəfindən çıxarılmış hökmlərdən - Azərbaycan Respublikası Ali Məhkəməsinin cinayət işləri üzrə kollegiyasına;~~[523]

~~408.2.3. andlı iclasçıların iştirakı ilə hərbi məhkəmələr tərəfindən çıxarılmış hökmlərdən - Azərbaycan Respublikası Ali Məhkəməsinin hərbi kollegiyasına;~~[524]

408.2.4. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyası tərəfindən çıxarılmış hökm və qərarlardan - Azərbaycan Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasına;[525]

408.2.5. apellyasiya məhkəmələrinin cinayət işləri üzrə məhkəmə kollegiyaları tərəfindən çıxarılmış hökm və qərarlardan - Azərbaycan Respublikası Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyasına. [526]

~~408.2.6. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hərbi kollegiyası tərəfindən çıxarılmış hökm və qərarlardan - Azərbaycan Respublikası Ali Məhkəməsinin hərbi kollegiyasına;~~

~~408.2.7. apellyasiya məhkəmələrinin hərbi kollegiyaları tərəfindən çıxarılmış hökm və qərarlardan - Azərbaycan Respublikası Ali Məhkəməsinin hərbi kollegiyasına.~~ [527]

408.3 Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri cinayət işində iştirak etməyə cəlb olunmayan hökm və ya məhkəmənin digər yekun qərarı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən apellyasiya instansiyası məhkəməsinin hökm və ya digər yekun qərarından bu Məcəllənin 408.2.4 - *408.2.5*, 410, 413-cü maddələrində nəzərdə tutulmuş tələblərə uyğun olaraq təqdimat verir. Təqdimata baxılması bu Məcəllənin 414, 416–420-ci maddələrində nəzərdə tutulmuş müddəalara uyğun olaraq həyata keçirilir. Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri bu səlahiyyətləri apellyasiya məhkəmələrinin sədrləri və ya Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi sədrinin təqdimatı əsasında da (yuxarıda göstərilmiş şəxslərin müraciətləri olduqda) həyata keçirir. [528]

### Maddə 409. Kassasiya şikayəti və ya kassasiya protesti vermək hüququ olan şəxslər [KMQ3]

409.1. Kassasiya şikayəti vermək hüququna aşağıdakı şəxslər malikdirlər:

409.1.1. məhkum edilmiş, bəraət almış təqsirləndirilən şəxs, onun müdafiəçisi və ya qanuni nümayəndəsi;

409.1.2. zərər çəkmiş şəxs (xüsusi ittihamçı), onun qanuni nümayəndəsi və ya nümayəndəsi;

409.1.3. mülki iddiaçı, mülki cavabdeh, onların qanuni nümayəndələri və ya nümayəndələri.

409.1.4. Barəsində tibbi xarakterli məcburi tədbirlər tətbiq edilmiş şəxsin müdafiəçisi və ya qanuni nümayəndəsi, xəstəliyin xüsusiyyəti ona öz hüquqlarından istifadə etməyə mane olmadıqda isə həmin şəxsin özü.

409.1.5. barəsində tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq edilmiş və ya qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilmiş yetkinlik yaşına çatmayan şəxsin özü, onun qanuni nümayəndəsi və ya müdafiəçisi; [529]

*409.1.6. barəsində cinayət-hüquqi tədbirlər tətbiq edilmiş hüquqi şəxsin nümayəndəsi və ya müdafiəçisi.* [530]

409.2. Məhkum edilmiş təqsirləndirilən şəxs, onun müdafiəçisi və ya qanuni nümayəndəsi yalnız məhkumun mənafelərinə aid hissədən kassasiya şikayəti vermək hüququna malikdirlər. Məhkumun müdafiəsi naminə verilmiş kassasiya şikayəti digər məhkumun və ya bəraət almış şəxsin vəziyyətinin pisləşdirilməsi üçün əsas ola bilməz.

409.3. Bəraət almış şəxs, onun müdafiəçisi və ya qanuni nümayəndəsi hökmdən yalnız bəraətin dəlil və əsaslarına aid hissəsindən şikayət vermək hüququna malikdirlər. Cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraat materiallarının və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraat materiallarının yeni məhkəmə baxışı zamanı belə kassasiya şikayəti

bəraət hökmünün ləğv edilməsi və ittiham hökmünün çıxarılması üçün əsas ola bilməz.

409.4. Zərər çəkmiş şəxs, onun qanuni nümayəndəsi və ya nümayəndəsi hökmdən yalnız zərər çəkmişə ziyan vurmuş şəxsə və hərəkətlərə aid hissədən şikayət vermək hüququna malikdirlər. [531]KMQ2

409.5. Mülki iddiaçı, mülki cavabdeh, onların qanuni nümayəndələri və ya nümayəndələri hökmdən mülki iddiaya aid hissədən və yalnız birinci instansiya məhkəməsinə verilmiş tələblərə uyğun olaraq şikayət vermək hüququna malikdirlər.

409.6. Barəsində tibbi xarakterli məcburi tədbirlər tətbiq edilmiş şəxsin müdafiəçisi və ya qanuni nümayəndəsi, xəstəliyin xüsusiyyəti ona öz hüquqlarından istifadə etməyə mane olmadıqda isə həmin şəxsin özü yalnız tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsinə aid hissədən kassasiya şikayəti vermək hüququna malikdirlər. [532]

409.7. Barəsində tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq edilmiş və ya qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilmiş yetkinlik yaşına çatmayan şəxs, onun qanuni nümayəndəsi və ya müdafiəçisi yalnız tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq edilməsinə və ya qapalı tipli xüsusi təlimtərbiyə müəssisəsinə göndərilməsinə aid hissədən kassasiya şikayəti vermək hüququna malikdir. [533]

*409.7-1. Barəsində cinayət-hüquqi tədbirlər tətbiq edilmiş hüquqi şəxsin nümayəndəsi və müdafiəçisi yalnız hüquqi şəxsin mənafeyinə aid hissədən şikayət vermək hüququna malikdirlər.* [534]

409.8. Məhkumun və ya zərər çəkmiş şəxsin yaxın qohumlarının şikayəti yalnız həmin şəxslər bu Məcəllənin qaydalarına uyğun olaraq cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraata müstəntiq və ya birinci instansiya məhkəməsi tərəfindən müvafiq olaraq təqsirləndirilən, zərər çəkmiş şəxsin (xüsusi ittihamçının) qanuni nümayəndəsi və ya nümayəndəsi kimi buraxıldıqda kassasiya icraatının açılmasına səbəb ola bilər.

409.9. Apellyasiya instansiyası məhkəməsinin icraatında iştirak etmiş dövlət ittihamçısı onun məhkəmə tərəfindən nəzərə alınmamış nəticə və təkliflərinə dair hissəsindən kassasiya protesti vermək hüququna malikdir. Göstərilən dövlət ittihamçısı vəfat etdikdə, xəbərsiz itkin düşdükdə, uzun sürən ağır xəstəliyə tutulduqda, protest verməkdən yayındıqda və ya imtina etdikdə, habelə onun mövqeyi ilə razılaşmadıqda hökmdən kassasiya protesti vermək hüququna Azərbaycan Respublikasının Baş prokuroru, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyası tərəfindən çıxarılmış hökm və ya qərarlardan həmçinin Naxçıvan Muxtar Respublikasının prokuroru apellyasiya instansiyası məhkəməsində iştirak etmiş dövlət ittihamçısının əvəzinə, kassasiya protesti vermək hüququna malikdir. Apellyasiya instansiyası məhkəməsində cinayət işi və ya məhkəməyədək sadələşdirilmiş icraatın materiallarına bu Məcəllənin 392.2-ci maddəsinin tələblərinin ziddinə baxıldığı halda kassasiya protesti vermək hüququna Azərbaycan Respublikasının Baş prokuroru və ya onun müavini malikdir. [535]

**Maddə 410. Kassasiya şikayətinin və ya kassasiya protestinin verilmə müddəti**

410.1. Kassasiya şikayəti və ya kassasiya protesti *onu vermək hüququna malik olan şəxslər tərəfindən* aşağıdakı müddətlərdə verilir: [536]

410.1.1. bu Məcəllənin 391.3 *(bu Məcəllənin 391.3.4-cü maddəsində nəzərdə tutulmuş qərar istisna olmaqla) , 411.5, 520.7 və 524.8-ci* maddələrində nəzərdə tutulmuş apellyasiya instansiyası məhkəməsinin qərarlarından—onların çıxarıldığı *, bu Məcəllənin 410.1-1-ci maddəsində nəzərdə tutulmuş halda isə həmin şəxsə verildiyi gündən* 1 (bir) ay müddətində; [537]

410.1.2. bəraət hökmündən və ya cinayət işi məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraata xitam verilməsi haqqında məhkəmə qərarından—onların çıxarıldığı gündən *3 (üç)* ay müddətində; [538]

410.1.3. daha ağır cinayət haqqında qanunun tətbiq edilməsinin zəruriliyi, təyin edilmiş cəzanın həddən artıq yüngüllüyü və ya məhkumun vəziyyətini pisləşdirən digər əsaslar üzrə ittiham hökmündən, habelə tərbiyəvi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi haqqında məhkəmə qərarından onların çıxarıldığı gündən *6 (altı)* ay müddətində; KMQ4[539]

410.1.4. məhkumun təqsirsizliyi, az ağır cinayət haqqında qanunun tətbiq edilməsi zəruriliyinin əsasları üzrə ittiham hökmündən, habelə tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi haqqında məhkəmə qərarından—onların çıxarıldığı *, bu Məcəllənin 410.1-1-ci maddəsində nəzərdə tutulmuş halda isə həmin şəxsə verildiyi gündən 12 (on iki)* ay müddətində. [540]

*410.1-1. Azadlıqdan məhrum etmə növündə cəza çəkən məhkumun apellyasiya instansiyası məhkəməsinin hökmündən (qərarından) kassasiya şikayətinin verilməsi üçün bu Məcəllənin 410.1-ci maddəsində nəzərə tutulmuş müddətlər hökmün və ya müvafiq qərarın ona verildiyi tarixdən hesablanır.*[541]

410.2. Kassasiya qaydasında təqdimat, şikayət və ya protest verildiyi hallar istisna olmaqla, kassasiya şikayətinin və ya kassasiya protestinin verilməsi üçün müəyyən edilmiş

müddət ərzində cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraat materialı yuxarı məhkəmə tərəfindən apellyasiya instansiyası məhkəməsindən tələb edilə bilməz.

**Maddə 411. Kassasiya şikayətinin və ya kassasiya protestinin verilməsi üçün buraxılmış müddətin bərpası**

411.1. Kassasiya şikayətinin və ya kassasiya protestinin verilməsi üçün müddət üzrlü səbəbdən buraxıldıqda bu Məcəllənin 409-cu maddəsində göstərilən şəxslər *apellyasiya instansiyası* məhkəməsi qarşısında kassasiya şikayətinin və ya kassasiya protestinin verilməsi üçün buraxılmış müddətin bərpası haqqında vəsatət qaldırmaq hüququna malikdirlər. [542]

411.2. *Apellyasiya* instansiyası məhkəməsi kassasiya şikayətinin və ya kassasiya protestinin verilməsi üçün buraxılmış müddətin bərpası haqqında vəsatəti aşağıdakı hallarda təmin etmək hüququna malikdir: [543]

411.2.1. bu Məcəllənin 409-cu maddəsində göstərilmiş şəxs səhhətinin uzun müddətli fiziki və ya psixi pozuntularına səbəb olan ağır xəstəliyə tutulduqda və bunun nəticəsində onun obyektiv olaraq vaxtında kassasiya şikayəti və ya kassasiya protesti vermək imkanı olmadıqda;

411.2.2. bu Məcəllənin 409-cu maddəsində göstərilən şəxsi vaxtında kassasiya şikayəti və ya kassasiya protesti vermək imkanından məhrum edən fövqəladə hadisə *və ya həmin şəxsin iradəsindən asılı olmayan digər hal* baş verdikdə. [544]

*411.3. Kassasiya şikayətinin və ya kassasiya protestinin verilməsi üçün buraxılmış müddətin bərpa edilməsi məsələsi apellyasiya instansiyası məhkəməsinin yekun qərar çıxarmış məhkəmə tərkibi (bu mümkün olmadıqda, digər hakimlərdən ibarət məhkəmə tərkibi) tərəfindən həll edilir. Belə vəsatətin baxılma vaxtı və yeri barədə vəsatəti qaldırmış şəxslərə lazımi qaydada məlumat verilir. Həmin şəxslərin məhkəmə iclasına gəlməməsi vəsatətə baxılmasına mane olmur. Vəsatətlə əlaqədar qəbul edilmiş qərarın surəti apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 409-cu maddəsində göstərilən şəxslərə göndərilir.*

*411.4. Apellyasiya instansiyası məhkəməsi kassasiya şikayətinin və ya kassasiya protestinin verilməsi müddətinin bərpa olunması haqqında vəsatəti təmin etdikdə, bu Məcəllənin 417.1-ci maddəsində nəzərdə tutulmuş tələblər yerinə yetirildikdən sonra kassasiya şikayətini və ya kassasiya protestini cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatın materialları ilə birlikdə kassasiya instansiyası məhkəməsinə göndərir.* [545]

*411.5. Apellyasiya instansiyası məhkəməsi kassasiya şikayətinin və ya kassasiya protestinin verilməsi müddətinin bərpa olunması haqqında vəsatəti rədd etdikdə, bu qərardan apellyasiya instansiyası məhkəməsi vasitəsi ilə kassasiya şikayəti və ya kassasiya protesti verilə bilər.*

*411.6. Bu Məcəllənin 411.5-ci maddəsində nəzərdə tutulmuş qərardan şikayət və ya protest verildiyi halda apellyasiya instansiyası məhkəməsi onu cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatın materialları ilə birlikdə kassasiya instansiyası məhkəməsinə göndərir. Kassasiya instansiyası məhkəməsinin hakimi kassasiya şikayəti və ya kassasiya protesti verilməsi müddətini bərpa etdikdə bu Məcəllənin 418.2-ci maddəsində nəzərdə tutulmuş hərəkətləri yerinə yetirir. Kassasiya instansiyası məhkəməsinin kassasiya şikayətinin və ya kassasiya protestinin verilməsi üçün buraxılmış müddətin bərpa edilməməsi barədə qərarı qətidir və ondan şikayət və ya protest verilə bilməz. Vəsatətlə əlaqədar qəbul edilmiş qərarın surəti hər bir halda kassasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 409-cu maddəsində göstərilən şəxslərə göndərilir.* [546]

**Maddə 412. Kassasiya şikayətinin və ya kassasiya protestinin verilmə qaydası**

*412.1. Kassasiya şikayəti və ya kassasiya protesti apellyasiya instansiyası məhkəməsi vasitəsilə verilir. Kassasiya şikayəti və ya kassasiya protesti birinci instansiya məhkəməsinə verildikdə şikayət və ya protest cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatın materialları ilə birlikdə apellyasiya instansiyası məhkəməsinə göndərilir. Kassasiya şikayəti və ya kassasiya protesti kassasiya instansiyası məhkəməsinə verildikdə şikayət və ya protest apellyasiya instansiyası məhkəməsinə göndərilir. Bu maddədə göstərilən hər üç halda apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 417.1-ci maddəsində nəzərdə tutulmuş tələblər yerinə yetirildikdən sonra kassasiya şikayəti və ya kassasiya protestinin apellyasiya instansiyası məhkəməsinə daxil olduğu vaxtdan 23 (iyirmi üç) gündən gec olmayaraq kassasiya şikayəti və ya kassasiya protesti cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatın materialları ilə birlikdə kassasiya instansiyası məhkəməsinə göndərilir.* [547]

412.2. Kassasiya şikayəti və ya kassasiya protesti yazılı şəkildə verilməlidir.

412.3. ~~Kassasiya şikayəti və ya kassasiya protestinə məhkəmənin mübahisə edilən hökmünün və ya qərarının surəti əlavə edilməlidir.~~ Kassasiya şikayəti və ya kassasiya protestinə ~~həmçinin~~ müraciət edən şəxsin dəlillərini təsdiq edən sənədlər əlavə edilə bilər. [548]

412.4. Kassasiya şikayəti və ya kassasiya protestinə onların surətləri həmin kassasiya şikayəti və ya kassasiya protesti mənafelərinə toxunan cinayət prosesinin bütün iştirakçılarına çatacaq sayda əlavə edilməlidir. Bu vəzifə həbsdə olan məhkuma, yetkinlik

yaşına çatmamış şəxsə və barəsində tibbi xarakterli məcburi tədbir tətbiq edilməyən şəxsə şamil olunmur.

412.5. Hüququ olmayan şəxslər tərəfindən və ya şifahi şəkildə ifadə edilmiş kassasiya şikayəti və ya kassasiya protesti qəbul edilə bilməz.

412.6. Kassasiya *şikayətinin və ya kassasiya protestinin geri götürülməsi haqqında müraciət* bu Məcəllənin 410.1-ci maddəsi ilə kassasiya şikayətinin və ya kassasiya protestinin verilməsi üçün müəyyən edilmiş müddət ərzində təkrar kassasiya şikayətinin və ya kassasiya protestinin verilməsi hüququnun həyata keçirilməsinə mane olmur. [549]

412.7. Məhkəmənin qanuni qüvvəyə minmiş hökm və ya qərarından kassasiya şikayəti, yaxud kassasiya protestinin verilməsi onların icrasını dayandırmır.

**Maddə 413. Kassasiya şikayəti və ya kassasiya protestinin məzmunu**

413.1. Kassasiya şikayəti və ya kassasiya protestində aşağıdakılar öz əksini tapmalıdır:

413.1.1. kassasiya şikayəti və ya kassasiya protestinin ünvanlandığı kassasiya instansiyası məhkəməsinin adı;

413.1.2. kassasiya şikayətini və ya kassasiya protestini verən şəxsin adı və statusu;

413.1.3. hökm və ya qərarı çıxarmış məhkəmənin adı;

413.1.4. hökmün və ya qərarın *tarixi,* qısa məzmunu və kassasiya şikayətini və ya kassasiya protestini verən şəxsin mülahizəsinə görə, onun qanunsuzluğunun, əsassızlılığının və ya ədalətsizliyinin nədən ibarət olması; [550]

413.1.5. kassasiya şikayətini və ya kassasiya protestini verən şəxsin xahişi;

413.1.6. kassasiya şikayətinə və ya kassasiya protestinə əlavə edilən sənədlərin siyahısı.

413.2. Hökmün dəyişdirilməsinin və ya ləğv edilməsinin zəruriliyi əsaslandırıldıqda kassasiya şikayəti və ya kassasiya protestində işin müvafiq vərəqlərinə istinad edilməlidir. Bu tələb həbsdə saxlanılan məhkuma və yetkinlik yaşına çatmamış şəxsə şamil edilmir.

**Maddə 414. Kassasiya şikayətinin və ya kassasiya protestinin geri götürülməsi, dəyişdirilməsi və onlara əlavələr edilməsi**

414.1. Kassasiya şikayəti və ya kassasiya protesti kassasiya instansiyası məhkəməsində baxılanadək kassasiya şikayətini və ya kassasiya protestini vermiş şəxs onu geri götürmək, dəyişdirmək və ya əlavələr etmək, habelə cinayət prosesinin digər iştirakçılarının kassasiya şikayətinə, yaxud kassasiya protestinə öz etirazlarını bildirmək hüququna malikdir.

414.2. Kassasiya instansiyası məhkəməsində cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları ~~və ya xüsusi ittiham qaydasında şikayət~~ üzrə icraatda iştirak etmək üçün təyin edilmiş dövlət ittihamçısı ~~birinci və ya~~ apellyasiya instansiyası məhkəməsində həmin icraatda iştirak etmiş dövlət ittihamçısının verdiyi kassasiya protestinə əlavə etmək, onu dəyişmək və ya geri götürmək hüququna malikdir. [551]

414.3. Barəsində tərbiyəvi və ya tibbi xarakterli məcburi tədbirlər tətbiq edilmiş şəxsin, habelə məhkumun və ya bəraət almış şəxsin vəziyyətinin pisləşməsinə səbəb olan dəyişikliklər yalnız kassasiya şikayəti və ya kassasiya protestinin verilməsi üçün müəyyən edilmiş müddət ərzində kassasiya şikayətinə və ya kassasiya protestinə daxil edilə bilər.

414.4. Müdafiəçi öz kassasiya şikayətini yalnız müdafiə etdiyi şəxsin və ya onun qanuni nümayəndəsinin razılığı ilə geri götürə bilər. Kassasiya icraatında cəlb edilmiş müdafiəçi cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraat materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə ~~birinci, yaxud~~ apellyasiya instansiyası məhkəməsində icraatda iştirak etmiş müdafiəçinin kassasiya şikayətinə yalnız məhkumun və ya bəraət almış şəxsin və onun qanuni nümayəndəsinin razılığı ilə əlavələr və dəyişikliklər etmək hüququna malikdir.[552]

414.5. Məhkum və ya bəraət almış şəxs öz müdafiəçisinin kassasiya şikayətini geri götürmək hüququna malikdir.

414.6. Məhkumun bəraət almış və ya barəsində tərbiyəvi və ya tibbi xarakterli məcburi tədbirlər tətbiq edilmiş şəxsin xeyrinə dövlət ittihamçısının verdiyi kassasiya protesti məhkumun, bəraət almış və ya yuxarıda göstərilən şəxsin və onların qanuni nümayəndələrinin razılığı olmadan dövlət ittihamçısı tərəfindən geri götürülə bilməz.

414.7. Kassasiya instansiyası məhkəməsində zərər çəkmiş şəxsin (xüsusi ittihamçının) nümayəndəsi yalnız zərər çəkmiş şəxsin (xüsusi ittihamçının) və onun qanuni nümayəndəsinin razılığı ilə öz kassasiya şikayətini, habelə cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatda ~~müvafiq olaraq birinci və ya~~ apellyasiya instansiyası məhkəməsində iştirak etmiş zərər çəkmiş şəxsin (xüsusi ittihamçının) nümayəndəsinin kassasiya şikayətini geri götürmək hüququna

malikdir.[553]

*414.7-1. Barəsində cinayət-hüquqi tədbirlər tətbiq edilmiş hüquqi şəxsin nümayəndəsi ona verilmiş etibarnamə ilə müəyyən edildiyi hallarda, müdafiəçisi isə nümayəndənin razılığı ilə kassasiya şikayətini geri götürə bilər.*[554]

414.8. Kassasiya şikayətini və ya kassasiya protestini vermiş şəxs öz kassasiya tələblərindən imtina etdikdə və cinayət prosesinin digər iştirakçılarının kassasiya şikayəti və ya kassasiya protesti olmadığı halda məhkəmə kassasiya şikayətinə və ya kassasiya protestinə baxılmasına xitam verilməsi haqqında qərar çıxarır. [555]

**Maddə 415. Kassasiya şikayətinin və ya kassasiya protestinin baxılmamış saxlanılması üçün əsaslar**

415.*1*. *Apellyasiya instansiyası* məhkəməsi məhkəmənin qanuni qüvvəyə minmiş hökm və ya qərarından kassasiya şikayəti və ya kassasiya protesti vermiş şəxsin kassasiya şikayətini və ya kassasiya protestini aşağıdakı hallarda baxılmamış saxlamaq hüququna malikdir: [556]

415.*1*.1. həmin şəxs kassasiya şikayəti və ya kassasiya protesti vermək hüququna malik olmadıqda;

415.*1*.2. həmin şəxs müvafiq olaraq kassasiya şikayətini və ya kassasiya protestini yazılı şəkildə təqdim etmədikdə;

*415.1.3. kassasiya şikayətinin və ya kassasiya protestinin məzmununa dair bu Məcəllənin 413-cü maddəsinin tələblərinə riayət edilmədikdə;*[557]

415.*1*.4. həmin şəxs kassasiya şikayəti və ya kassasiya protestinə onların surətlərini həmin kassasiya şikayəti və ya kassasiya protesti mənafelərinə toxunan, cinayət prosesinin bütün iştirakçılarına çatacaq sayda əlavə etmədikdə. [558]

*415.2. Bu Məcəllənin 415.1-ci maddəsinin tələbləri yerinə yetirilmədikdə apellyasiya instansiyası məhkəməsi ilkin olaraq kassasiya şikayətinin və ya kassasiya protestinin hərəkətsiz saxlanılması barədə qərar çıxarır və öz qərarı ilə həmin tələblərin yerinə yetirilməsi üçün 10 (on) gündən 20 (iyirmi) günədək müddət təyin edir. Təyin edilmiş müddət ərzində həmin tələblər yerinə yetirilmədikdə, kassasiya şikayəti və ya kassasiya protesti verilməmiş hesab edilir və baxılmamış saxlanılır. Bu halda şəxs bu Məcəllənin 410-cu maddəsində göstərilən müddətlərdə yenidən kassasiya şikayəti və ya kassasiya protesti verə bilər.* [559]

**Maddə 416. Məhkəmənin hökm və ya qərarının kassasiya qaydasında ləğv edilməsi və ya dəyişdirilməsi üçün əsaslar**

*416.1.* Kassasiya instansiyası məhkəməsi aşağıdakı hallarda ~~birinci və ya~~ apellyasiya instansiyası məhkəməsinin hökm və ya qərarını kassasiya qaydasında ləğv etmək və ya dəyişdirmək hüququna malikdir:[560]

*416.1.1.* məhkəmə cinayət prosesi tərəfinin təqdim etdiyi, irəli sürülmüş ittihamın hərtərəfli, tam və obyektiv baxılması üçün mühüm əhəmiyyət kəsb edə biləcək sübutların tədqiqindən əsassız imtina etdikdə;

*416.1.2*. məhkəmə bu Məcəllənin 143–146-cı maddələrinin tələblərinə müvafiq olaraq sübutları tədqiq etmədikdə;

*416.1.3*. məhkumun təqsirliliyi və ya bəraət almış şəxsin təqsirsizliyi barədə məhkəmə hökmünün əsasını yolverilməz sübutlar təşkil etdikdə;

*416.1.4.* məhkəmə bu Məcəllənin 391.6-cı maddəsinin müddəalarını yerinə yetirmədikdə;

*416.1.5.* məhkəmə təqsirləndirilən şəxsə istinad edilən əməllərdən hər hansı birinə öz fikrini bildirmədikdə;

*416.1.6.* məhkəmə cinayət tərkibinin əlamətləri olmadan ittiham hökmü çıxardıqda;

*416.1.7.* məhkəmə təqsirləndirilən şəxsin əməllərinin qanunun daha yüngül maddəsi ilə yenidən tövsif edilməsi halları istisna olmaqla, məhkuma ittiham elan edilməmiş əməlin törədilməsinə görə səhvən ittiham hökmü çıxardıqda;

*416.1.8.* məhkəmə cinayət qanunu ilə nəzərdə tutulmayan əməlin törədilməsinə görə səhvən ittiham hökmü çıxardıqda;

*416.1.9*. məhkəmə cinayət qanunu ilə nəzərdə tutulmayan ~~və ya andlı iclasçıların verdiktinə uyğun olaraq güzəşt edib yolverilməz~~ hədlərdə cəza tətbiq etməklə ittiham hökmü çıxardıqda;[561]

*416.1.10.* məhkəmə qanuni qüvvəyə minmiş hökmlə şəxsin barəsində əvvəllər məhkum edildiyi əməlin törədilməsinə görə ittiham hökmü çıxardıqda;

*416.1.11.* məhkəmə cinayət təqibini istisna edən halların mövcudluğuna baxmayaraq ittiham hökmü çıxardıqda;

*416.1.12.* məhkəmə yeni cinayət qanunu ilə ləğv edilmiş cəzanı tətbiq etməklə, yaxud amnistiya aktını tətbiq etməməklə ittiham hökmü çıxardıqda;

*416.1.13.* məhkəmə təqsirləndirilən şəxs tərəfindən törədilən əməlin cinayət qanunu ilə nəzərdə tutulmadığına əsasən səhvən bəraət hökmü çıxardıqda;

*416.1.14.* məhkəmə cinayət işi üzrə icraata, məhkəməyədək sadələşdirilmiş icraatın

materiallarına və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraata bu iş üzrə məhkəmənin qüvvəyə minmiş yekun qərarı, cinayət təqibini istisna edən halların və ya cəzanın tətbiqinin yeni cinayət qanunu, habelə amnistiya aktı ilə aradan qaldırması üçün əsaslar olmasına baxmayaraq səhvən xitam verdikdə;

*416.1.15.* məhkəmə törədilmiş əməlin tövsifində səhvə yol verdikdə;

*416.1.16.* məhkəmə digər hakimiyyət orqanının səlahiyyətlərini həyata keçirməklə, öz səlahiyyətlərini aşmaqla iş üzrə hökm və ya qərar çıxardıqda;

*416.1.17.* məhkəmə etirazlar və məhkəmə tərkibi barəsində bu Məcəllənin 107-109, 112-118, 308 və 309-cu maddələrinin tələblərini kobud surətdə pozduqda;[562]

*416.1.18.* məhkəmə bu Məcəllənin müddəalarına müvafiq olaraq dövlət ittihamçısının, xüsusi ittihamçının, təqsirləndirilən şəxsin, onun müdafiəçisinin və ya tərcüməçinin iştirakı məcburi olduğu halda cinayət işinə, məhkəməyədək sadələşdirilmiş icraatın materiallarına və ya xüsusi ittiham qaydasında şikayətə həmin şəxslərin iştirakı olmadan baxdıqda;

*416.1.19.* məhkəmə bu Məcəllənin 140.0.2-ci maddəsində nəzərdə tutulmuş halların müəyyən edilməsi üçün təqsirləndirilən şəxsin məhkəmə-psixiatriya ekspertizasının keçirilməsini təyin etmədikdə;

*416.1.20.* məhkəmə bu Məcəllənin 391.3.2–391.3.5, 391.3.7–391.3.9 və 391.6-cı maddələrində nəzərdə tutulmuş qərarları əsassız çıxardıqda;

*416.1.21.* məhkəmə məsuliyyəti ağırlaşdıran və ya yüngülləşdirən halları nəzərə almadan cəza təyin etdikdə;

*416.1.22. məhkəmə bu Məcəllənin 416.2-ci maddəsində nəzərdə tutulmuş hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulmasına yol verdikdə.*[563]

*416.2. Hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması hökm və ya digər qərarın ləğv edilməsinə və ya dəyişdirilməsinə yalnız o halda əsas olur ki, həmin hökm və ya digər qərar Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun maddi və ya prosessual hüquq normalarının tətbiqi ilə bağlı məhkəmə təcrübəsinə dair məsələlər üzrə izahlarına zidd olsun və həmin izahlarda təsbit olunmuş hüquqi mövqedən fərqli yanaşmanın tətbiqi zərurəti kifayət qədər əsaslandırılmasın.*[564]

### Maddə 417. Kassasiya şikayəti və ya kassasiya protestinin daxil olması barədə bildiriş

417.1. Kassasiya şikayəti və ya kassasiya protesti *apellyasiya instansiyası* məhkəməsinə daxil olduğu vaxtdan məhkəmə 3 (üç) gün müddətində onların surətlərini həmin kassasiya şikayəti və ya kassasiya protesti mənafelərinə toxunan, bu Məcəllənin 409-cu maddəsində göstərilən şəxslərə verir və ya çatdırır və onlara 20 (iyirmi) gün müddətində kassasiya şikayətinə və ya kassasiya protestinə öz etirazlarını bildirmək və digər şəxslərin etirazları ilə tanış olmaq hüququnu izah edir.[565]

417.2. Kassasiya şikayəti və ya kassasiya protesti vermək hüququna malik olan şəxslər *apellyasiya instansiyası* məhkəməsinə daxil olmuş kassasiya şikayəti və ya kassasiya protesti və cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatın materialları ilə tanış olmaq, habelə onlardan lazımi məlumatların çıxarışlarını etmək hüququna malikdirlər.

*417.3. Kassasiya şikayətinə və ya kassasiya protestinə dair etirazlar apellyasiya məhkəməsi tərəfindən işə əlavə olunur, bu etirazlar iş kassasiya instansiyası məhkəməsinə göndərildikdən sonra daxil olduqda bilavasitə kassasiya instansiyası məhkəməsinə göndərilir.*[566]

### Maddə 418. Kassasiya şikayətinin və ya kassasiya protestinin ilkin öyrənilməsi

418.1. Kassasiya instansiyası məhkəməsinə daxil olmuş kassasiya şikayətinin və ya kassasiya protestinin ilkin öyrənilməsi üçün onlar Azərbaycan Respublikası Ali Məhkəməsinin müvafiq kollegiyasının hakimlərindən birinə verilir. Kassasiya instansiyası məhkəməsinə daxil olmuş kassasiya şikayətlərinin və ya kassasiya protestlərinin bölüşdürülməsi bu Məcəllənin 298.1-ci maddəsində göstərilən qaydaya uyğun olaraq həyata keçirilir.

418.2. Kassasiya şikayətini və ya kassasiya protestini ilkin öyrənən hakim kassasiya şikayətinin və ya kassasiya protestinin ona daxil olduğu vaxtdan 3 (üç) aydan gec olmayaraq aşağıdakı hərəkətləri yerinə yetirir:

418.2.1. kassasiya şikayəti və ya kassasiya protesti və onlara əlavə edilmiş sənədlərlə tanış olur;

418.2.2. bu Məcəllənin 415 və 417-ci maddələrinin tələblərinin yerinə *yetirilib-yetirilmədiyini müəyyən edir*;[567]

~~418.2.3. cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materiallarının və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatın materiallarının tələb edilməsi barədə qərar qəbul edir və onun icrasını təmin edir;~~[568]

418.2.4. kassasiya şikayətinin və ya kassasiya protestinin dəlilləri ilə müqayisə etməklə cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materiallarını və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatın materiallarını öyrənir;

418.2.5. məhkəmənin qanuni qüvvəyə minmiş hökm və ya qərarına kassasiya qaydasında baxılması üçün kassasiya şikayəti və ya kassasiya protestinin dəlillərinə dair rəy hazırlayır (bu Məcəllənin 415-ci maddəsində göstərilən tələblər yerinə yetirildikdə kassasiya protesti və ya kassasiya şikayəti kassasiya qaydasında mütləq baxılmalıdır);[569]

418.2.6. kassasiya şikayətini və ya kassasiya protestini və onlara əlavə edilmiş cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materiallarını və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatın materiallarını, habelə hazırladığı rəyi müvafiq kollegiyanın iclasında baxılması üçün göndərir;

418.2.7. dövlət ittihamçısına, məhkuma (bəraət almış şəxsə) zərər çəkmiş şəxsə (xüsusi ittihamçıya), habelə digər maraqlı şəxslərə kassasiya şikayətinə və ya kassasiya protestinə mahiyyəti üzrə baxılmasının vaxtı və yeri haqqında məlumat verir.

nümayəndəlik rəhbərlərinin razılığı və ya xahişi ilə aparıla bilər.

441.4. Diplomatik nümayəndəliklərin və konsulluqların arxivləri, sənədləri və rəsmi yazışmaları toxunulmazdır. Diplomatik poçt açıla və gecikdirilə bilməz.

441.5. Diplomatik nümayəndəlik və konsulluqların bu Məcəllənin 441.1, 441.2 və 441.3-cü maddələrində qeyd edilən binalarına giriş, onlarda axtarış, götürmə və həbs aparılmasına dair razılığı istintaq və ya prokurorluq orqanı tərəfindən Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı vasitəsilə sorğu edilir.

441.6. Qeyd edilən binalarda axtarış, götürmə və həbs mütləq ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun və Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı nümayəndəsinin iştirakı ilə aparılır.

## On birinci bölmə

## Xüsusi icraatlar

## LII fəsil

## Məhkəmə nəzarətinin həyata keçirilməsi

### Maddə 442. Məhkəmə nəzarətinin həyata keçirilməsinə dair ümumi müddəalar

442.1. Məhkəmə nəzarəti istintaq hərəkətlərinin məcburi aparıldığı, prosessual məcburiyyət tədbirinin tətbiq edildiyi, *əməliyyat-axtarış tədbirinin həyata keçirildiyi və ya ibtidai araşdırmanın aparıldığı* yer üzrə səlahiyyəti daxilində müvafiq birinci instansiya məhkəməsi tərəfindən həyata keçirilir. [598]

442.2. Məhkəmə nəzarətinin həyata keçirilməsi qaydasında məhkəmə aşağıdakılara baxır:

442.2.1. hər kəsin azadlıq, mənzil toxunulmazlığı, şəxsi toxunulmazlıq , mülkiyyət hüququnu, şəxsi sirrinin (o cümlədən ailə həyatının, yazışmaların, telefon danışıqlarının, poçt, teleqraf və başqa məlumatların) saxlanılması hüququnu məhdudlaşdıran, habelə dövlət, peşə və ya kommersiya sirrini özündə əks etdirən məlumatları ilə bağlı istintaq hərəkətlərinin məcburi aparılmasına, prosessual məcburiyyət tədbirlərinin tətbiq edilməsinə, *maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsinə və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsinə*, ~~*həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsinə*~~ və ya əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinə dair *məsələlərlə bağlı* vəsatət və təqdimatlara;[599]

442.2.2. cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərinə və ya qərarlarına dair şikayətlərə;

*442.2.3. cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə vəsatət və təqdimatlara.* [600]

442.3. Bu Məcəllənin 442.2-ci maddəsində göstərilən vəsatət, təqdimat və şikayətlərə məhkəmə nəzarəti funksiyasını həyata keçirən məhkəmənin hakimi tərəfindən təkbaşına baxılır.

442.4. Bu Məcəllənin 442.2-ci maddəsində göstərilmiş məsələlər üzrə hakimin çıxardığı qərarlara apellyasiya instansiyası məhkəməsi tərəfindən aşağıdakı hallarda yenidən baxıla bilər:

442.4.1. ~~istintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi, *həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi* və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi nəticəsində~~ hüquq və azadlıqları məhdudlaşdırılan şəxsin şikayəti üzrə;[601]

442.4.2. ibtidai araşdırmaya prosessual rəhbərliyi və ya əməliyyat-axtarış fəaliyyəti üzərində nəzarəti həyata keçirən prokurorun protesti üzrə.

442.5. Məhkəmə nəzarəti sahəsinə aid olan məsələlər, habelə onların həyata keçirilməsi qaydası bu Məcəllənin 443–454-cü maddələri ilə müəyyən edilir.

### Maddə 443. Məhkəmənin qərarı əsasında məcburi aparılan istintaq hərəkətləri

443.1. Bu Məcəllənin 177.3-cü maddəsində nəzərdə tutulmuş istintaq hərəkətləri bir qayda olaraq məhkəmənin qərarı əsasında məcburi aparılır.

443.2. Bu Məcəllənin177.3.1-177.3.5 və 177.3.8-ci maddələrində nəzərdə tutulmuş istintaq hərəkətləri məhkəmənin qərarı olmadan müstəntiqin əsaslandırılmış qərarı əsasında məcburi aparıldığı hallarda müvafiq istintaq hərəkətinin aparılması qurtardıqdan sonra müstəntiq aşağıdakıları yerinə yetirməlidir: [602]

443.2.1. aparılmış istintaq hərəkəti barədə 24 saat müddətində məhkəmə nəzarətini həyata keçirən məhkəməyə və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora məlumat vermək;

443.2.2. 48 saat müddətində aparılmış istintaq hərəkətinin qanuniliyinin yoxlanılması üçün həmin istintaq hərəkətinə aid olan materialları məhkəmə nəzarətini həyata keçirən

məhkəməyə və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora təqdim etmək.

**Maddə 444. Məhkəmənin qərarı əsasında tətbiq edilən prosessual məcburiyyət tədbirləri *və bu tədbirlərlə bağlı digər məsələlər*** [603]

444.1. Aşağıdakı prosessual məcburiyyət tədbirləri yalnız məhkəmənin qərarı əsasında tətbiq edilir:

444.1.1. bu Məcəllənin 152-ci maddəsində nəzərdə tutulmuş hallarda tutulma və ya bu Məcəllənin 148.7-ci maddəsində nəzərdə tutulmuş hallarda tutulma müddətinin uzadılması; [604]

444.1.2. qətimkan tədbiri qismində həbs;

*444.1.2-1. qətimkan tədbiri qismində ev dustaqlığı;* [605]

*444.1.2-2. qətimkan tədbiri qismində girov;*

444.1.3. qətimkan tədbiri qismində təqsirləndirilən şəxsin vəzifədən kənarlaşdırılması;

444.1.4. məhkəmə-psixiatriya və ya məhkəmə-tibb ekspertizasının aparılması üçün şübhəli, təqsirləndirilən və ya psixi vəziyyətinə görə təqsirləndirilən şəxs qismində cəlb edilə bilməyən şəxsin tibb müəssisəsinə yerləşdirilməsi.

444.2. Cinayət təqibi orqanının tələbləri yerinə yetirilmədikdə, məhkəmənin qərarı əsasında, həmçinin aşağıdakı prosessual məcburiyyət tədbirləri tətbiq edilir:

444.2.1. şəxsin ekspertizadan keçirilməsi və ya tibb müəssisəsinə yerləşdirilməsi üçün onun tibb müəssisəsinə çatdırılması;

444.2.2. tədqiqat üçün nümunələrin götürülməsi.

*444.3. Ev dustaqlığı qətimkan tədbirinin tətbiqi ilə əlaqədar təqsirləndirilən şəxsin üzərinə qoyulmuş vəzifələr məhkəmənin qərarı əsasında dəyişdirilə, ləğv edilə, yaxud onun üzərinə əlavə vəzifələr qoyula bilər.* [606]

**Maddə 445. Məhkəmənin qərarı əsasında həyata keçirilən əməliyyat-axtarış tədbirləri**

445.1. Məhkəmənin qərarı əsasında aşağıdakı əməliyyat axtarış tədbirləri həyata keçirilir:

445.1.1. telefon danışıqlarına qulaqasma;

445.1.2. poçt, teleqraf və digər göndərişlərin yoxlanılması;

445.1.3. texniki rabitə kanallarından və digər texniki vasitələrdən məlumatın çıxarılması;

445.1.4. binaya, o cümlədən yaşayış yerlərinə, hasarlanmış tikinti obyektlərinə, qurğu və ya torpaq sahələrinə daxil olma və onlara baxış keçirilməsi;

445.1.5. texniki vasitələrdən istifadə etməklə və ya səs yazan, video, foto, kino və digər çəkiliş cihazların quraşdırılması yolu ilə *yaşayış yerinin* müşahidə edilməsi; [607]

445.1.6. insanların güdülməsi.

445.2. «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş hallarda bu Məcəllənin 445.1-ci maddəsində göstərilən əməliyyat-axtarış tədbirləri məhkəmənin qərarı olmadan, əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanın səlahiyyətli şəxsinin əsaslandırılmış qərarı ilə həyata keçirilə bilər. Bu halda əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanın səlahiyyətli şəxsi müvafiq tədbir aparıldıqdan sonra 48 saat müddətində əməliyyat-axtarış tədbirinin aparılması barədə əsaslandırılmış qərarı məhkəmə nəzarətini həyata keçirən məhkəməyə və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora təqdim etməlidir. [608]

**Maddə 446. İstintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi*, cinayət təqibi üzrə qiyabi icraatın açılması, maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi~~, həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi~~* və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi məsələlərinin həlli üçün məhkəməyə müraciət etmə** [609]

446.1. İstintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi*, cinayət təqibi üzrə qiyabi icraatın açılması, maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi~~, həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi~~* və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi məsələlərinin məhkəmədə baxılması üçün aşağıdakılar əsasdır:

446.1.1. istintaq hərəkətinin məcburi aparılması üçün müstəntiqin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı;

446.1.2. prosessual məcburiyyət tədbirlərinin tətbiq edilməsi*~~, həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi~~* üçün müstəntiqin və ya digər səlahiyyətli şəxsin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun *bu Məcəllənin 159.2-ci və 159.8-ci maddələrində nəzərdə tutulmuş hallarda isə müvafiq prokurorun*

təqdimatı; [610]

*446.1.2-1. ev dustaqlığı qətimkan tədbirinin tətbiqi ilə əlaqədar təqsirləndirilən şəxsin üzərinə qoyulmuş vəzifələrin dəyişdirilməsi, ləğv edilməsi və ya onun üzərinə əlavə vəzifələrin qoyulması üçün müstəntiqin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı;*[611]

*446.1.2-2. cinayət təqibi üzrə qiyabi icraatın açılması üçün müstəntiqin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı;*[612]

446.1.3. əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi üçün əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanın səlahiyyətli şəxsinin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı*;* [613]

*446.1.4. ev dustaqlığı qətimkan tədbirinin tətbiqi ilə əlaqədar təqsirləndirilən şəxsin üzərinə qoyulmuş vəzifələrin dəyişdirilməsi və ya ləğv edilməsi üçün təqsirləndirilən şəxs, onun müdafiəçisi və ya qanuni nümayəndəsinin vəsatəti*;[614]

*446.1.5. bu Məcəllənin 131-1.1-ci maddəsində nəzərdə tutulmuş maddi sübut olan bəzi maddələrdən nümunə götürüldükdən sonra həmin maddələrin qalan hissəsinin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi ilə əlaqədar müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı.*[615]

446.2. Bu Məcəllənin *446.1.1-446.1.3-cü və 446.1.5-ci maddələrində* nəzərdə tutulmuş ~~hər hansı~~ vəsatətdə aşağıdakılar göstərilməlidir: [616]

446.2.1. onun tərtib edildiyi tarix, vaxt və yer;

446.2.2. onu tərtib edən şəxsin soyadı, adı, atasının adı və vəzifəsi;

446.2.3. cinayət işinin olduğu halda, o nə vaxt, kimin tərəfindən və nə ilə əlaqədar başlandığı;

446.2.4. istintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi*, cinayət təqibi üzrə qiyabi icraatın açılması*~~*, həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi*~~ və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi ilə əlaqədar törədilən qarşısı alınan və ya xəbərdar edilən cinayət haqqında məlumatlar;

446.2.5. istintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi*, cinayət təqibi üzrə qiyabi icraatın açılması*~~*, həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi*~~ və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi nəticəsində kimin və hansı hüquq və ya azadlıqlarının məhdudlaşdırıla biləcəyi;

446.2.6. barəsində vəsatət verilən istintaq hərəkətinin məcburi aparılmasının, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsinin*, cinayət təqibi üzrə qiyabi icraatın açılmasının*~~*, həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsinin*~~ və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinin zəruriliyinin əsaslandırılması;[617]

446.2.7. istintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi*, cinayət təqibi üzrə qiyabi icraatın açılması* və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi nəticəsində hansı nəticənin əldə edilməli olduğu və nə üçün həmin nəticənin digər üsul və vasitələrlə əldə edilməsinin mümkün olmaması;

446.2.8. istintaq hərəkətinin məcburi aparılmasının prosessual məcburiyyət tədbirinin tətbiq edilməsini~~*, həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsini*~~ və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinin hansı müddətdə, harada və hansı üsullarla nəzərdə tutulduğu;

446.2.9. əməliyyat-axtarış tədbirinin həyata keçirilməsində hansı nəticələrin əldə edilməsinin güman edildiyi və həmin nəticənin hansı üsulla rəsmiləşdiriləcəyi;

*446.2.9-1. bu Məcəllənin 131-1.1-ci maddəsində nəzərdə tutulmuş maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməli və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməli olan miqdarı, saxlanılan nümunənin miqdarı, həmin maddələrin növü və digər xüsusi əlamətləri, ekspertin təqdim edilmiş maddələrin tibbi məqsədlərlə istifadə olunub-oluna bilməməsinə dair rəyi;*[618]

446.2.10. istintaq hərəkətinin məcburi aparılmasının, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsinin*, maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsinin və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsinin*~~*, həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsinin*~~ və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinin kimə həvalə edilməli olduğu;[619]

446.2.11. məsələyə dair qanuni və əsaslı qərarın qəbul edilməsi üçün zəruri olan digər məlumatlar.

*446.2-1. Ev dustaqlığı qətimkan tədbirinin tətbiqi ilə əlaqədar təqsirləndirilən şəxsin üzərinə qoyulmuş vəzifələrin dəyişdirilməsi və ya ləğv edilməsi üçün vəsatətdə bu Məcəllənin 446.2.1-446.2.3-cü maddələrində nəzərdə tutulan məlumatlarla yanaşı, məsələnin zəruriliyi əsaslandırılmalı, təqsirləndirilən şəxsi səciyyələndirən və müvafiq qərar qəbul edilməsi üçün əhəmiyyətli olan digər məlumatlar göstərilməli və vəsatətə əlavə edilməlidir.* [620]

446.3. İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror istintaq hərəkətinin məcburi aparılması və ya prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi, *cinayət təqibi üzrə qiyabi icraatın açılması, maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi*~~*, həbs edilmiş şəxsin istintaq təcridxanasından*~~

~~*müvəqqəti saxlama yerinə keçirilməsi*~~ *məsələlərinə dair* məhkəmənin qərarının alınması haqqında əsaslandırılmış vəsatəti aldıqdan sonra 24 saatdan müddətində müvafiq qərarın qəbul edilməsi barədə təqdimatı məhkəməyə verməli və ya vəsatətin müdafiə edilməsindən imtina haqqında əsaslandırılmış qərar çıxarmalıdır. [621]

446.4. İstintaq hərəkətinin məcburi aparılmasının, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsinin*, cinayət təqibi üzrə qiyabi icraatın açılmasının*~~*, həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsinin*~~ və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinin zəruriliyini təsdiq edən materiallar vəsatətə əlavə edilməlidir. Həmin materiallar kifayət etmədikdə, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror və ya məhkəmə nəzarəti funksiyalarını həyata keçirən hakim onların tamamlanmasını tələb etmək hüququna malikdir.

**Maddə 447. İstintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi*, cinayət təqibi üzrə qiyabi icraatın açılması, maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi*~~*, həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi*~~ və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi məsələlərinə dair müraciətlərə məhkəmə tərəfindən baxılma qaydası**[622]

447.1. İstintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi*, cinayət təqibi üzrə qiyabi icraatın açılması, maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi*~~*, həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi*~~ və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi məsələlərinə dair müraciətlərə hakim tərəfindən təkbaşına, qapalı məhkəmə iclasında baxılır.

447.2. Məhkəmədə qətimkan tədbiri qismində həbsin seçilməsi, tutulma müddətinin uzadılması və əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinə dair müraciətlərə onlar məhkəməyə daxil olduqdan sonra 24 saat müddətində, digər müraciətlərə isə 48 saat müddətində baxılır. [623]

447.3. İstintaq hərəkətinin məcburi aparılması və ya prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi*, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi və ya cinayət təqibi üzrə qiyabi icraatın açılması* ~~*, həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi*~~ məsələləri üzrə qapalı məhkəmə iclasında aşağıdakı şəxslər iştirak etmək hüququna malikdirlər:[624]

447.3.1. vəsatət vermiş şəxs;

447.3.2. ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror *və ya müvafiq prokuror*; [625]

447.3.3. vəsatətlə hüquqlarının məhdudlaşdırılması nəzərdə tutulan*, yaxud barəsində ev dustaqlığı qətimkan tədbirinin tətbiqi ilə bağlı məsələyə baxılan* şəxs onun müdafiəçisi və ya qanuni nümayəndəsi (bu Məcəllənin 177.3.4-177.3.6 və 177.3.8-ci maddələrində göstərilən prosessual məcburiyyət tədbirlərinə və Azərbaycan Respublikasının ərazisindən kənarda istintaqdan gizlənən və axtarışda olan təqsirləndirilən şəxslərə dair məsələlər istisna edilməklə). [626]

447.4. Əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi məsələləri üzrə qapalı məhkəmə iclasında yalnız hakim, məhkəmə iclasının katibi, vəsatət vermiş şəxs və əməliyyat-axtarış fəaliyyətinə nəzarəti həyata keçirən prokuror iştirak edirlər.

*447.4-1. Maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi məsələləri üzrə qapalı məhkəmə iclasında hakim, məhkəmə iclasının katibi, vəsatət vermiş şəxs, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror və ya müvafiq prokuror, təqsirləndirilən şəxs, onun müdafiəçisi və ya qanuni nümayəndəsi, habelə hakimin zəruri hesab etdiyi digər şəxslər iştirak edirlər.*[627]

447.5. Hakim istintaq hərəkətinin məcburi aparılması*, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi, cinayət təqibi üzrə qiyabi icraatın açılması və ya maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi məsələləri ilə bağlı məhkəmə iclasına* vəsatəti təsdiq və ya təkzib edən şəxsləri çağırıb dindirmək, müraciətin əsaslılığının yoxlanılması üçün zəruri olan sənəd və maddi sübutları tələb etmək hüququna malikdir. [628]

447.6. Müraciətlərin baxılma yeri və müddəti haqqında vaxtında məlumatlandırılmış bu Məcəllənin *447.3-cü və ya 447.4-1-ci maddələrində göstərilən şəxslərin istintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi, cinayət təqibi üzrə qiyabi icraatın açılması və ya maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi*~~*, həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi*~~ məsələləri üzrə məhkəmə iclasına gəlməməsi məhkəmə iclasının keçirilməsinə mane olmur.[629]

447.7. İstintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi*, cinayət təqibi üzrə qiyabi icraatın açılması, maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi*~~*, həbs edilmiş şəxsin istintaq*~~

~~*təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi*~~ və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi məsələləri üzrə məhkəmə iclası aşağıdakı ardıcıllıqla aparılır:[630]

447.7.1. hakim məhkəmə iclasını açır, hansı müraciətə baxılmasını elan edir, məhkəmə iclası iştirakçılarının səlahiyyətlərini yoxlayır, onlara hüquq və vəzifələrini izah edir;

447.7.2. vəsatət vermiş şəxs öz vəsatətini şifahi əsaslandırır, hakimin və məhkəmə iclasının digər iştirakçılarının suallarına cavab verir;

447.7.3. məhkəmə iclasında müraciətlə əlaqədar qanuni mənafeyinə toxunulan şəxslər, habelə onların müdafiəçiləri və nümayəndələri iştirak etdikdə, onlara izahat vermək və etirazlarını bildirmək imkanı yaradılır;

447.7.4. *məhkəmə iclasında iştirak edən* prokuror öz yekun sözündə məhkəməyə vəsatətin təmin və ya rədd edilməsini təklif edir, bu zaman prokuror özünün məhkəməyə göndərdiyi təqdimatdan imtina etmək hüququna malikdir; [631]

447.7.5. hakim bu Məcəllənin, Azərbaycan Respublikasının cinayət və digər qanunlarının tələblərinə müvafiq olaraq vəsatətin təmin və ya rədd edilməsi barədə qərar çıxarır və onu iştirak edən şəxslərə dərhal elan edir.

**Maddə 448. İstintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi***, cinayət təqibi üzrə qiyabi icraatın açılması***, maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi~~, həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi~~* və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi məsələlərinə dair hakimin qərarı**[632]

448.1. İstintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi*, cinayət təqibi üzrə qiyabi icraatın açılması, maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi~~, həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi~~* və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi məsələlərinə dair məhkəmə iclasının nəticələri üzrə hakim aşağıdakı qərarlardan birini qəbul edir:

448.1.1. müvafiq olaraq istintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi*, maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi* və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinə dair *məsələlərlə bağlı* vəsatətin təmin edilməsi barədə; [633]

448.1.2. istintaq hərəkətinin məcburi aparılmasına, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsinə*, maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsinə və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsinə* və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinə dair *məsələlərlə bağlı* vəsatətin rədd edilməsi barədə;[634]

448.1.3. təqsirləndirilən şəxs barəsində həbs*, ev dustaqlığı, girov və vəzifədən kənarlaşdırma* qətimkan tədbirinin seçilməsi, yaxud bundan imtina barədə, habelə həbsdə saxlama müddətinin uzadılması və ya bundan imtina barədə; [635]

*448.1.3-1. ev dustaqlığı qətimkan tədbirinin tətbiqi ilə əlaqədar təqsirləndirilən şəxsin üzərinə qoyulmuş vəzifələrin dəyişdirilməsi, ləğv edilməsi və ya onun üzərinə əlavə vəzifələrin qoyulması üçün verilmiş vəsatətin təmin edilməsi, yaxud bundan imtina edilməsi barədə*;[636]

*448.1.3-2. cinayət təqibi üzrə qiyabi icraatın açılması və ya bundan imtina edilməsi barədə.* [637]

~~*448.1.4. həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi və ya bundan imtina edilməsi barədə.*~~[638]

448.2. Əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi ilə əlaqədar qərar çıxarıldıqda, məhkəmə bu Məcəllənin və «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun müddəalarına əsaslanır.

448.3. Məhkəmə nəzarəti funksiyalarının həyata keçirən hakimin qərarında aşağıdakılar göstərilməlidir:

448.3.1. qərarın tərtib edildiyi tarix, vaxt və yer;

448.3.2. hakimin soyadı, adı, atasının adı və vəzifəsi;

448.3.3. vəsatət vermiş şəxsin və prokurorun soyadları, adları, atalarının adları və vəzifələri;

448.3.4. qərarın mahiyyəti (bu Məcəllənin 446.2.5–446.2.10-cu maddələrində göstərilən məsələlərə məhkəmənin münasibəti dəqiq göstərilməklə);

448.3.5. qərarın qüvvədə olma müddəti;

448.3.6. qərarın icra edilməsi həvalə edilən vəzifəli şəxs və ya orqan;

448.3.7. məhkəmənin möhürü ilə təsdiq edilmiş hakimin imzası.

448.4. İstintaq hərəkətinin məcburi aparılmasına, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsinə*, cinayət təqibi üzrə qiyabi icraatın açılmasına, maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsinə və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsinə, ~~həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsinə~~* və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinə dair *məsələlərlə bağlı* vəsatətin rədd edilməsi barədə məhkəmənin qərarına

bu Məcəllənin 448.3.1–448.3.3 və 448.3.7-ci maddələrində göstərilmiş müddəalar, imtinanın motivləri, habelə qərarın qəbul edilməsi ilə əlaqədar göstərilməli olan digər mühüm hallar daxil edilir.[639]

*448.4-1. Hakim maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi məsələlərinə dair vəsatətin təmin edilməsi barədə qərar qəbul etdikdə, qərarda həmin maddələrin məhv edilməli və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməli olduğunu qeyd etməlidir.*[640]

~~448.5. Həbs qismində qətimkan tədbirinin seçilməsinin və ya həbsdə saxlama müddətinin uzadılmasının rədd edilməsi haqqında hakimin qərarı elan edildikdən dərhal sonra ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror məhkəmənin qərarı ilə razı olmadığını və həmin qərardan apellyasiya instansiyası məhkəməsinə protest verəcəyini bildirdikdə, hakim öz qərarına təqsirləndirilən şəxsin müvəqqəti olaraq 7 (yeddi) gün müddətində ev dustaqlığı və ya həbsdə saxlanılması barədə müddəa ilə əlavə edir.~~[641]

448.6. İstintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi~~, *həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi*~~ və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi məsələləri ilə bağlı hakimin qərarının surəti həmin qərar çıxarıldıqdan sonra 3 (üç) gündən gec olmayaraq aşağıdakı şəxslərə göndərilir:

448.6.1. vəsatəti vermiş şəxsə;

448.6.2. İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora;

448.6.3. təqsirləndirilən şəxsin *saxlanıldığı həbs yerinin* müdiriyyətinə;[642]

448.6.4. müvafiq xahiş olduqda, barəsində istintaq hərəkətinin aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi məsələlərinin baxıldığı şəxsə.

*448.6-1. Maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi məsələsi ilə bağlı hakimin qərarının surəti həmin qərar çıxarıldıqdan sonra 3 (üç) gündən gec olmayaraq vəsatəti vermiş şəxsə, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora, təqsirləndirilən şəxsə, onun müdafiəçisinə və ya qanuni nümayəndəsinə, vəsatət təmin edildikdə isə həmçinin maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsini və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsini icra etməli olan müvafiq dövlət orqanının (qurumunun) rəhbərinə göndərilir.*

*448.6-2. Cinayət təqibi üzrə qiyabi icraatın açılması məsələsi ilə bağlı məhkəmə qərarının surətinin göndərilməsi bu Məcəllənin 467-13.11-ci maddəsində nəzərdə tutulmuş qaydada həyata keçirilir.*[643]

448.7. Təqsirləndirilən şəxs məhkəmənin iclasında iştirak etdikdə və məhkəmə onun barəsində həbs qismində qətimkan tədbiri seçilməsinə (həbsdə saxlama müddətinin uzadılmasına) imtina barədə qərar çıxardıqda, ~~bu Məcəllənin 448.5-ci maddəsində nəzərdə tutulmuş hal istisna olunmaqla,~~ təqsirləndirilən şəxs dərhal məhkəmə iclası zalında həbsdən azad edilir.[644]

448.8. İstintaq hərəkətinin məcburi aparılmasına, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsinə*, cinayət təqibi üzrə qiyabi icraatın açılmasına,* ~~*həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsinə*~~ və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinə dair *məsələlərlə bağlı* vəsatətin rədd edilməsi barədə, habelə həbs qismində qətimkan tədbiri seçilməsinə (həbsdə saxlama müddətinin uzadılmasına) imtina barədə hakim tərəfindən qərar çıxarıldıqdan sonra məhkəməyə təkrar müraciətə müvafiq olaraq istintaq hərəkətinin məcburi aparılmasının, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsinin*, cinayət təqibi üzrə qiyabi icraatın açılmasının*~~*, həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsinin*~~ və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinin zəruriliyini təsdiq edən yeni hallar aşkar edildikdə yol verilir.[645]

**Maddə 449. Cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərindən və ya qərarlarından məhkəməyə şikayət verilməsi**

449.1. Məhkəmə nəzarətini həyata keçirən məhkəməyə cinayət prosesini həyata keçirən orqanın aşağıdakı şəxslərinin prosessual hərəkətlərindən və ya qərarlarından şikayət verilə bilər:

449.1.1. təhqiqatçının (onun səlahiyyətlərini həyata keçirən şəxsin);

449.1.2. tutulmanı və ya tutulan şəxsin *həbs yerlərində* saxlanılmasını həyata keçirən şəxsin;[646]

449.1.3. əməliyyat-axtarış fəaliyyətini həyata keçirən şəxsin;

449.1.4. müstəntiqin;

449.1.5. ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun.

449.2. Cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərindən və ya qərarlarından aşağıdakı şəxslər şikayət vermək hüququna malikdirlər:

449.2.1. təqsirləndirilən (şübhəli) şəxs və onun müdafiəçisi;

449.2.2. zərər çəkmiş şəxs və onun qanuni nümayəndəsi;

449.2.3. qərarın qəbul edilməsi və ya hərəkətin aparılması nəticəsində hüquq və

azadlıqları pozulan digər şəxslər. KMQ6

449.3. Bu Məcəllənin 449.2-ci maddəsində göstərilən şəxslər aşağıdakılarla bağlı cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərindən və ya qərarlarından məhkəməyə şikayət vermək hüququna malikdirlər:

449.3.1. cinayət haqqında ərizənin qəbul edilməsindən imtina edilməsi;

449.3.2. tutma və həbsdə saxlanılması;

449.3.3. tutulmuş, *həbs edilmiş və ya barəsində ev dustaqlığı qətimkan tədbiri seçilmiş* şəxsin hüquqlarının pozulması;[647]

449.3.3-1. həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi;[648]

449.3.4. həbsdə saxlanılan şəxsə işgəncə verilməsi və ya digər amansız rəftar edilməsi;

*449.3.4-1. şəxsin cinayət prosesinin iştirakçısı qismində tanınmasının rədd edilməsi;*

*449.3.4-2. şəxsin müdafiəsi üçün təhlükəsizlik tədbirlərinin görülməsi barədə vəsatətin və ya xahişin rədd edilməsi;*

*449.3.4-3. ibtidai araşdırma orqanı tərəfindən qətimkan tədbirinin seçilməsi və ya dəyişdirilməsi;* [649]

449.3.5. cinayət işinin başlanmasının rədd edilməsi, cinayət işi üzrə icraatın dayandırılması və ya ona xitam verilməsi;[650]

449.3.6. məhkəmənin qərarı olmadan istintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi, *maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi*~~, həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi~~ və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi;[651]

449.3.7. təqsirləndirilən (şübhəli) şəxsin müdafiəçisinin cinayət prosesindən kənarlaşdırılması;

449.3.8. ləğv edilmişdir.[652]

**Maddə 450. Cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərinin və ya qərarlarının qanuniliyinin yoxlanılması**

450.1. Cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərindən və ya qərarlarından şikayətə onun daxil olduğu andan 10 (on) gün müddətində qapalı məhkəmə iclasında hakim tərəfindən təkbaşına baxılır.

450.2. Cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərinin və ya qərarlarının qanuniliyinin yoxlanılması üzrə məhkəmə iclasında aşağıdakı şəxslər iştirak etmək hüququna malikdirlər:

450.2.1. şikayət vermiş şəxs və onun qanuni nümayəndəsi;

450.2.2. hərəkət və ya qərar barəsində şikayət verilən şəxs;

450.2.3. ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror və ya yuxarı prokuror.

450.3. Şikayətin baxılması müddəti və yeri haqqında vaxtında məlumatlandırılmış, bu Məcəllənin 450.2-ci maddəsində göstərilən şəxslərin məhkəmə iclasına gəlməməsi cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərinin və ya qərarlarının qanuniliyinin yoxlanılması üzrə məhkəmə iclasının keçirilməsinə mane olmur.

450.4. Cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərinin və ya qərarlarının qanuniliyinin yoxlanılması üzrə məhkəmə iclası başlananadək məhkəmə ona təqdim olunmuş bütün materialları əvvəlcədən öyrənir.

450.5. Hakim ifadələri, şikayəti təsdiq və ya təkzib edən şəxsləri məhkəmə iclasına çağırmaq və onları dindirmək, şikayətin əsaslılığının yoxlanılması üçün zəruri olan sənəd və maddi sübutları tələb etmək hüququna malikdir.

450.6. Cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərinin və ya qərarlarının qanuniliyinin yoxlanılması üzrə məhkəmə iclası aşağıdakı ardıcıllıqla aparılır:

450.6.1. hakim məhkəmə iclasını açır, hansı şikayətə baxılmasını elan edir, məhkəmə iclası iştirakçılarının səlahiyyətlərini yoxlayır, onlara hüquq və vəzifələrini izah edir;

450.6.2. şikayət vermiş şəxs öz şikayətini şifahi əsaslandırır, hakimin və məhkəmə iclasının digər iştirakçılarının suallarına cavab verir;

450.6.3. məhkəmə iclasında şikayətlə əlaqədar qanuni mənafeyinə toxunulan şəxslər, habelə onların müdafiəçiləri və ya nümayəndələri iştirak etdikdə, onlara izahat vermək və etirazlarını bildirmək imkanı yaradılır;

450.6.4. məhkəmə iclasında iştirak edən prokuror öz yekun sözündə məhkəməyə şikayətin təmin və ya rədd edilməsini təklif edir;

450.6.5. hakim cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərinin və ya qərarlarının qanuni və əsaslı olub-olmaması barədə bu Məcəllənin, Azərbaycan Respublikasının cinayət və digər qanunlarının tələbləri və özünün daxili inamı əsasında qərar çıxarır və məhkəmə iclasında iştirak edən şəxslərə dərhal elan edir.

**Maddə 451. Cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərinin və ya qərarlarının qanuniliyinin yoxlanılmasının nəticələrinə dair hakimin qərarı**

451.1. Cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərinin və ya qərarlarının qanuniliyinin yoxlanılmasının nəticələrinə dair hakim aşağıdakı qərarlardan birini çıxarır:
451.1.1. barəsində şikayət verilmiş hərəkətin və ya qərarın qanuni hesab edilməsi barədə;
451.1.2. barəsində şikayət verilmiş hərəkətin və ya qərarın qanunsuz hesab edilməsi və bu qərarın ləğv edilməsi barədə.
451.2. Cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərinin və ya qərarlarının qanuniliyinin yoxlanılmasının nəticələrinə dair hakimin qərarında aşağıdakılar göstərilməlidir:
451.2.1. qərarın tərtib edildiyi vaxt və yer;
451.2.2. hakimin soyadı, adı və atasının adı, vəzifəsi;
451.2.3. şikayət vermiş şəxsin soyadı, adı və atasının adı;
451.2.4. hərəkətindən və ya qərarından şikayət verilən şəxsin soyadı, adı və atasının adı, vəzifəsi;
451.2.5. məhkəmə iclasında iştirak edən prokurorun soyadı, adı və atasının adı, vəzifəsi;
451.2.6. verilmiş şikayətin mahiyyəti;
451.2.7. hakim tərəfindən qəbul edilmiş qərarın motivlərinin əsaslandırılması, belə qərarın qəbul edilməsi ilə əlaqədar qeyd edilməli olan digər mühüm hallar;
451.2.8. hakimin qərarının icra edilməsi həvalə edilən vəzifəli şəxs və ya orqan;
451.2.9. məhkəmənin möhürü ilə təsdiq edilmiş hakimin imzası.
451.3. Şikayət edilmiş hərəkət və ya qərar qanunsuz hesab edildikdə, hakimin qərarına əsasən aşağıdakılar yerinə yetirilir:
451.3.1. ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror və ya yuxarı prokuror şikayət vermiş şəxsin hüquq və azadlıqlarının yol verilmiş pozuntularına son qoyulması, pozulmuş hüquq və azadlıqların bərpa edilməsi üçün təxirəsalınmaz zəruri tədbirlər görür;
451.3.2. şəxsin hüquq və azadlıqlarının pozulmasına yol vermiş vəzifəli şəxsə qarşı tabeçilik qaydasında yuxarı orqanın rəhbəri təqsirli şəxsin məsuliyyəti barədə məsələni Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada həll edir;
451.3.3. şikayət vermiş şəxsə vurulmuş ziyanın ödənilməsini tələb etmək hüququ izah edilir.
451.4. Cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərinin və ya qərarlarının qanuniliyinin yoxlanılmasının nəticələrinə dair hakimin qərarının surəti qərar çıxarıldıqdan sonra 3 (üç) gün müddətində aşağıdakı şəxslərə göndərilir:
451.4.1. şikayəti vermiş şəxsə;
451.4.2. hərəkətindən və ya qərarından şikayət verilən şəxsə;
451.4.3. ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora və ya yuxarı prokurora, habelə şəxsin hüquq və azadlıqlarının pozulmasına yol vermiş vəzifəli şəxsə qarşı tabeçilik qaydasında yuxarı orqanın rəhbərinə.

**Maddə 452. Həbs qismində qətimkan tədbirinin seçilməsi və ya bundan imtina barədə hakimin qərarından şikayətin və ya protestin verilməsi**

452.1. Elan olunduqdan sonra 3 (üç) gün müddətində həbs qismində qətimkan tədbirinin seçilməsi və ya bundan imtina barədə, habelə həbsdə saxlama müddətinin uzadılması, hakimin qərarından aşağıdakı qaydada ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror *və ya yuxarı prokuror* tərəfindən protest, təqsirləndirilən şəxs, onun müdafiəçisi və ya qanuni nümayəndəsi, habelə zərər çəkmiş şəxs, onun qanuni nümayəndəsi və ya nümayəndəsi tərəfindən isə şikayət verilə bilər: [653]
452.1.1. bilavasitə apellyasiya instansiyası məhkəməsinə;
452.1.2. qərarı qəbul etmiş məhkəmənin vasitəsilə;
452.1.3. *həbs yerinin* müdiriyyətinin vasitəsilə (yalnız şikayət üçün). [654]
452.2. Həbs qismində qətimkan tədbirinin seçilməsi və ya bundan imtina barədə, habelə həbsdə saxlama müddətinin uzadılması, yaxud bundan imtina barədə qərardan təqsirləndirilən şəxsin şikayətini aldıqda, *həbs yerinin* müdiriyyəti təxirə salmadan aşağıdakı hərəkətləri yerinə yetirməlidir:
452.2.1. şikayəti qeydə almaq;
452.2.2. şikayəti hakimi tərəfindən həmin qərarı qəbul etmiş məhkəməyə göndərmək;
452.2.3. şikayətin daxil olması barədə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora yazılı məlumat vermək.
452.3. Həbs qismində qətimkan tədbirinin seçilməsi və ya bundan imtina barədə, habelə

həbsdə saxlama müddətinin uzadılması, yaxud bundan imtina barədə qərardan şikayəti və ya protesti almış birinci instansiya məhkəməsi təxirə salmadan aşağıdakı hərəkətləri yerinə yetirməlidir:

452.3.1. şikayəti və ya protesti qeydə almaq.

452.3.2. onları məhkəmədə olan materiallarla birlikdə apellyasiya instansiyası məhkəməsinə göndərmək;

452.3.3. şikayətin və ya protestin daxil olması barədə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora, təqsirləndirilən şəxsə, habelə (məsələnin baxılmasında birinci instansiya məhkəməsində iştirak etdikləri halda) onun müdafiəçisinə və ya qanuni nümayəndəsinə yazılı məlumat vermək.

452.4. Həbs qismində qətimkan tədbirinin seçilməsi və ya bundan imtina barədə, habelə həbsdə saxlama müddətinin uzadılması, yaxud bundan imtina barədə hakimin qərarından protest və ya şikayət almış apellyasiya instansiyası məhkəməsi təxirə salmadan aşağıdakı hərəkətləri yerinə yetirməlidir:

452.4.1. birinci instansiya məhkəməsindən həbsə və ya həbsdə saxlama müddətinin uzadılmasına dair məsələnin baxılmasına aid olan materialları tələb etmək;

452.4.2. ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurordan həbsin tətbiqinin və ya həbsdə saxlama müddətinin uzadılmasının zəruriliyini təsdiq edən materialları tələb etmək.

452.5. Aşağıdakı hallarda ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror həbs və ya həbsdə saxlama müddətinin uzadılması barədə məsələnin baxılmasına aid olan materialları təxirə salmadan apellyasiya instansiyası məhkəməsinə göndərməlidir:

452.5.1. *həbs yerinin* müdiriyyətindən şikayətin verilməsi haqqında bildiriş aldıqda;

452.5.2. apellyasiya instansiyası məhkəməsinin tələbnaməsini aldıqdan sonra.

**Maddə 453. Həbs qismində qətimkan tədbirinin seçilməsi və ya bundan imtina barədə qərarın qanuniliyinin və əsaslılığının yoxlanılması**

453.1. Həbs qismində qətimkan tədbirinin seçilməsi və ya bundan imtina barədə, habelə həbsdə saxlama müddətinin uzadılması, yaxud bundan imtina barədə qərardan şikayətin və ya protestin alındığı gündən sonra 3 (üç) gün müddətində apellyasiya instansiyası məhkəməsi barəsində şikayət verilmiş qərarın qanuniliyinin və əsaslılığının yoxlanılmasına dair məhkəmə iclasını keçirməlidir.

453.2. Həbs qismində qətimkan tədbirinin seçilməsi və ya bundan imtina barədə, habelə həbsdə saxlama müddətinin uzadılması, yaxud bundan imtina barədə qərarın qanuniliyinin və əsaslılığının yoxlanılmasına dair apellyasiya instansiyası məhkəməsində qapalı məhkəmə iclasında 3 (üç) hakimdən ibarət tərkibdə baxılır.

453.3. Həbs qismində qətimkan tədbirinin seçilməsi və ya bundan imtina barədə, habelə həbsdə saxlama müddətinin uzadılması, yaxud bundan imtina barədə qərarın qanuniliyinin və əsaslılığının yoxlanılmasına dair məhkəmə iclasında şikayət vermiş şəxs, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror *və ya müvafiq prokuror*, təqsirləndirilən şəxsin müdafiəçisi və ya qanuni nümayəndəsi iştirak etmək hüququna malikdirlər. Apellyasiya instansiyası məhkəməsi izahat vermək üçün məhkəmə iclasına, həmçinin təhqiqatçını (təhqiqat aparan şəxsi), müstəntiqi, habelə zərər çəkmiş şəxsi çağıra bilər. Yuxarıda göstərilən protest və ya şikayətin baxılmasının müddəti və yeri haqqında vaxtında məlumatlandırılmış şəxslərin gəlməməsi məhkəmə iclasının keçirilməsinə mane olmur. [655]

453.4. Həbs qismində qətimkan tədbirinin seçilməsi və ya bundan imtina barədə, habelə həbsdə saxlama müddətinin uzadılması, yaxud bundan imtina barədə qərarın qanuniliyinin və əsaslılığının yoxlanılmasına dair məhkəmə iclası başlananadək apellyasiya instansiyası məhkəməsi ona təqdim olunmuş bütün materialları əvvəlcədən öyrənir.

453.5. Həbs qismində qətimkan tədbirinin seçilməsi və ya bundan imtina barədə, habelə həbsdə saxlama müddətinin uzadılması, yaxud bundan imtina barədə qərarın qanuniliyinin və əsaslılığının yoxlanılmasına dair məhkəmə iclası aşağıdakı ardıcıllıqla aparılır:

453.5.1. məhkəmə iclasında sədrlik edən məhkəmə iclasını açır, hansı qərardan verilmiş hansı şikayətə və ya protestə baxıldığını elan edir, məhkəmə iclasının iştirakçılarının səlahiyyətlərini yoxlayır və onlara hüquq və vəzifələrini izah edir;

453.5.2. şikayəti və ya protesti vermiş şəxs öz müraciətini şifahi əsaslandırır, hakimlərin və məhkəmə iclasının digər iştirakçılarının suallarına cavab verir;

453.5.3. məhkəmə iclasında müraciətlə qanuni mənafeyinə toxunulan şəxslər, habelə onların müdafiəçiləri və nümayəndələri iştirak etdiyi halda onlara izahat vermək və öz etirazlarını bildirmək üçün imkan yaradılır;

463.5.4. hakimlər məhkəmə iclasının iştirakçılarına dəqiqləşdirmə üçün zəruri olan suallar verir və yerində məsləhətlər aparıb qərar qəbul edirlər. Məhkəmə iclasında sədrlik edən qəbul olunmuş qərarı məhkəmə iclasında iştirak edən şəxslərə elan edir.

453.6. Həbs qismində qətimkan tədbirinin seçilməsi və ya bundan imtina barədə, habelə həbsdə saxlama müddətinin uzadılması, yaxud bundan imtina barədə qərarın qanuniliyinin və əsaslılığının yoxlanılması üzrə məhkəmə iclasının yekununda apellyasiya instansiyası

məhkəməsi aşağıdakı qərarlardan birini qəbul edir:

453.6.1. birinci instansiya məhkəməsinin qərarını dəyişdirmədən saxlaması barədə;

453.6.2. həbs qismində qətimkan tədbirinin seçilməsi barədə qərarın ləğv edilməsi və təqsirləndirilən şəxsin həbsdən azad edilməsi barədə;

453.6.3. həbs qismində qətimkan tədbirinin seçilməsindən imtina barədə hakimin qərarının ləğv edilməsi və təqsirləndirilən şəxs barəsində qətimkan tədbiri kimi həbsin seçilməsi barədə;

453.6.4. həbsdə saxlama müddətinin uzadılması barədə hakimin qərarının ləğv edilməsi və təqsirləndirilən şəxsin həbsdən azad edilməsi barədə;

453.6.5. həbsdə saxlama müddətinin uzadılmasına imtina barədə hakimin qərarının ləğv edilməsi və həbsdə saxlama müddətinin uzadılması barədə.

453.7. Həbs qismində qətimkan tədbirinin seçilməsi, habelə təqsirləndirilən şəxsin həbsdə saxlama müddətinin uzadılmasının qanuniliyini və əsaslılığını təsdiq edən materiallar məhkəmə iclasına təqdim edilmədiyi halda, apellyasiya instansiyası məhkəməsi müvafiq qərarın ləğv edilməsi və təqsirləndirilən şəxsin həbsdən azad edilməsi haqqında qərar çıxarır.

453.8. Apellyasiya instansiyası məhkəməsinin qərarının surəti həmin qərar qəbul edildikdən sonra 3 (üç) gün müddətində aşağıdakı şəxslərə göndərilir:

453.8.1. şikayət vermiş şəxsə;

453.8.2. ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora;

453.8.3. təqsirləndirilən şəxsin *saxlanıldığı həbs yerinin* müdiriyyətinə.

453.9. *Həbs yerinin* müdiriyyəti təqsirləndirilən şəxs barəsində həbs qismində qətimkan tədbirinin seçilməsi və ya həbsdə saxlama müddətinin uzadılması barədə qərarın ləğv edilməsi haqqında apellyasiya instansiyası məhkəməsinin qərarını aldıqdan dərhal sonra təqsirləndirilən şəxsi həbsdən azad edir.[656]

453.10. Apellyasiya instansiyası məhkəməsi tərəfindən hakimin qanuniliyi və əsaslılığı artıq yoxlanılmış qərarından şikayətə və ya protestə təkrarən baxılmasına yol verilmir.KMQ10

**Maddə 454. Məhkəmə nəzarətinin həyata keçirilməsi qaydasında hakimin çıxardığı digər qərarlardan şikayət və ya protest verilməsi və onların qanuniliyinin və əsaslılığının yoxlanılması**

İstintaq hərəkətlərinin məcburi aparılması, prosessual məcburiyyət tədbirlərinin tətbiq edilməsi, *cinayət təqibi üzrə qiyabi icraatın açılması, maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi* və ya əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi, ~~*həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi məsələsi və ya bundan imtina edilməsi,*~~ habelə cinayət prosesini həyata keçirən orqanların qərar və hərəkətlərinin qanuniliyinin yoxlanılması məsələlərinə dair hakimin qərarından şikayət və ya protest verilməsi və onun qanuniliyinin və əsaslılığının yoxlanılması bu Məcəllənin 452 və 453-cü maddələrində nəzərdə tutulmuş qaydada həyata keçirilir.[657]

## LIII fəsil[658]

## Hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar üzrə icraat

**Maddə 455. Məhkəmə aktlarına hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar üzrə baxılması üçün əsaslar** [659]

455.0. Məhkəmə aktlarına hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar üzrə baxılması üçün əsaslar aşağıdakılardır:

455.0.1. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən Azərbaycan Respublikası Ali Məhkəməsinin qərarlarının və ya məhkəməyə müraciət etmək hüququnu pozan məhkəmə aktlarının Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarına uyğun olmadığı hesab edilməsi;

455.0.2. İnsan Hüquqları üzrə Avropa Məhkəməsi tərəfindən Azərbaycan Respublikasının məhkəmələrində cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraat materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraat zamanı "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın müddəalarının pozulduğu müəyyən edilməsi;

455.0.3. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən məhkəmənin tətbiq etdiyi normativ hüquqi aktın Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına və müvafiq icra hakimiyyəti orqanları tərəfindən qəbul edilmiş normativ hüquqi aktlara uyğun olmadığı hesab edilməsi.

**Maddə 456. Hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar üzrə məhkəmə aktlarına baxılması** [660]

456.1. Hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar üzrə məhkəmə aktlarına baxılması hüququna Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu malikdir.

456.2. Bu məcəllənin 455.0.1-ci və 455.0.2-ci maddələrində nəzərdə tutulan əsaslar olduqda, Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının icrası ilə bağlı yalnız hüquqi məsələlər üzrə işlərə baxır. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və ya İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarı Azərbaycan Respublikasının Ali Məhkəməsinə daxil olduqda Ali Məhkəmənin sədri hakimlərin birinə işin plenumun məhkəmə iclasına hazırlanmasını və məruzə edilməsini tapşırır. İşə plenumun məhkəmə iclasında Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və ya İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarı Azərbaycan Respublikasının Ali Məhkəməsinə daxil olduqdan sonra 3 aydan gec olmayan müddətdə baxılır.

456.3. Bu məcəllənin 455.0.3-cü maddəsi ilə nəzərdə tutulan əsaslar olduqda Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu məhkəmə aktlarına ərizə əsasında hüquqi məsələlər üzrə yenidən baxır. Hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar üzrə məhkəmə aktlarına baxılması haqqında ərizənin verilməsi, ərizəyə dair tələblər və ərizənin ilkin öyrənilməsi məsələləri bu məcəllənin 464-466-cı maddələrinə uyğun olaraq həll edilir. Ərizənin ilkin öyrənilməsi onun Azərbaycan Respublikasının Ali Məhkəməsinə daxil olduqdan sonra 1 aydan çox olmayan müddət ərzində həyata keçirilir. Azərbaycan Respublikası Ali Məhkəməsi hakiminin rəyi alındıqdan sonra Ali Məhkəmənin sədri 3 ay müddətində işə baxılması barədə məsələni plenumun gündəliyinə daxil edir.

**Maddə 457. Hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar üzrə məhkəmə aktlarına baxılması qaydası** [661]

İşə Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun iş qaydasına müvafiq olaraq baxılır.

**Maddə 458. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən Azərbaycan Respublikası Ali Məhkəməsinin qərarlarının və ya məhkəməyə müraciət etmək hüququnu pozan məhkəmə aktlarının Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarına uyğun olmadığı hesab edilməsi ilə əlaqədar hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar üzrə işə yenidən baxmaq haqqında qərar** [662]

458.0. Bu məcəllənin 455.0.1-ci maddəsi ilə nəzərdə tutulan hallarda məhkəmə aktına yenidən baxmış Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu aşağıdakı qərarlardan birini qəbul etmək hüququna malikdir:

458.0.1. müvafiq birinci, apellyasiya və kassasiya instansiyası məhkəmələrinin, habelə əlavə kassasiya qaydasında hüquq və azadlıqların pozulması ilə çıxarılmış məhkəmə aktlarının tam və ya qismən ləğv edilməsi və cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraat materiallarının və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraat materiallarının yenidən baxılması üçün aidiyyəti üzrə müvafiq birinci və ya apellyasiya instansiyası məhkəməsinə göndərilməsi barədə;

458.0.2. kassasiya instansiyası məhkəməsinin qərarının və (və ya) əlavə kassasiya qaydasında çıxarılmış qərarın ləğv edilməsi və yeni qərarın çıxarılması barədə.

**Maddə 459. İnsan Hüquqları üzrə Avropa Məhkəməsi tərəfindən Azərbaycan Respublikasının məhkəmələrində cinayət təqibi üzrə icraat zamanı "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın pozulduğunun müəyyən edilməsi ilə əlaqədar hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar üzrə işə yenidən baxmaq haqqında qərar** [663]

459.0. Bu məcəllənin 455.0.2-ci maddəsi ilə nəzərdə tutulan hallarda məhkəmə aktına yenidən baxmış Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu aşağıdakı qərarlardan birini qəbul etmək hüququna malikdir:

459.0.1. müvafiq birinci, apellyasiya və kassasiya instansiyası məhkəmələrinin, habelə əlavə kassasiya qaydasında hüquq və azadlıqların pozulması ilə çıxarılmış məhkəmə aktlarının tam və ya qismən ləğv edilməsi və cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraat materiallarının və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraat materiallarının yenidən baxılması üçün aidiyyəti üzrə müvafiq birinci və ya apellyasiya instansiyası məhkəməsinə göndərilməsi barədə;

459.0.2. bu məcəllənin 421.1.2 və 421.1.3-cü maddələrində nəzərdə tutulmuş hallarda kassasiya instansiyası məhkəməsinin qərarının və (və ya) əlavə kassasiya qaydasında çıxarılmış qərarın dəyişdirilməsi barədə;

459.0.3. kassasiya instansiyası məhkəməsinin qərarının və (və ya) əlavə kassasiya qaydasında çıxarılmış qərarın ləğv edilməsi və yeni qərarın çıxarılması barədə.

**Maddə 460. Məhkəmənin tətbiq etdiyi normativ hüquqi aktın Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına və müvafiq icra hakimiyyəti orqanları tərəfindən qəbul edilən normativ hüquqi aktlara uyğun olmadığı hesab edilməsi ilə əlaqədar hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar üzrə işə yenidən baxmaq haqqında qərar** [664]

460.0. Bu məcəllənin 455.0.3-cü maddəsi ilə nəzərdə tutulan hallarda məhkəmə aktlarına yenidən baxmış Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu aşağıdakı qərarlardan birini qəbul etmək hüququna malikdir:

460.0.1. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən Konstitusiyaya uyğun olmayan normativ hüquqi akt əsasında birinci, apellyasiya və kassasiya instansiyası məhkəmələrinin aktlarının, habelə əlavə kassasiya qaydasında çıxarılmış qərarın tam və ya qismən ləğv edilməsi və cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraat materiallarının və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraat materiallarının yenidən baxılması üçün müvafiq olaraq birinci və ya apellyasiya instansiyası məhkəməsinə göndərilməsi barədə;

460.0.2. bu məcəllənin 421.1.2 və 421.1.3-cü maddələrində nəzərdə tutulmuş hallarda kassasiya instansiyası məhkəməsinin qərarının və (və ya) əlavə kassasiya qaydasında çıxarılmış qərarın dəyişdirilməsi barədə;

460.0.3. kassasiya instansiyası məhkəməsinin qərarının və (və ya) əlavə kassasiya qaydasında çıxarılmış qərarın ləğv edilməsi və yeni qərarın çıxarılması barədə;

460.0.4. birinci, apellyasiya və ya kassasiya instansiyası məhkəməsinin aktlarının, yaxud əlavə kassasiya qaydasında çıxarılmış qərarın dəyişdirilmədən saxlanılması barədə.

## LIV fəsil

## Yeni açılmış hallar üzrə icraat

**Maddə 461. Məhkəmənin hökm və ya qərarlarına yeni açılmış hallar üzrə baxılması üçün əsaslar**

461.0. Məhkəmənin hökm və ya qərarlarına yeni açılmış hallar üzrə baxılması üçün əsaslar aşağıdakılardır:

461.0.1. düzgün olmayan (səhv) hökm və ya qərarın çıxarılmasına səbəb olan zərər çəkmiş şəxsin, şahidin bilə-bilə yalan ifadə verməsi, ekspertin bilə-bilə yalan rəy verməsi, tərcüməçinin bilə-bilə yalan tərcümə etməsi, maddi sübutların, istintaq və məhkəmə hərəkəti protokollarının və digər sənədlərin saxtalığının məhkəmənin qanuni qüvvəyə minmiş hökm və ya qərarı ilə müəyyən edilməsi;

461.0.2. cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraat zamanı təhqiqatçının, müstəntiqin, prokurorun və ya hakimin məhkəmənin qanuni qüvvəyə minmiş hökm və qərarı ilə müəyyən edilmiş sui-istifadələrinin düzgün olmayan (səhv) hökm və ya qərarın çıxarılmasına səbəb olması;

461.0.3. Özü-özlüyündə və ya əvvəllər müəyyən edilmiş digər hallarla birlikdə məhkumun təqsirsizliyinə və ya onun məhkum olunduğu cinayət əməlindən ağırlıq dərəcəsinə görə fərqlənən cinayət törətməsinə, yaxud bəraət almış və ya barəsində cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraata xitam verildiyi şəxsin təqsirliliyinə dəlalət edən, hökm və ya qərarın çıxarılması zamanı məhkəməyə və cinayət prosesinin tərəflərinə məlum olmayan digər hallar.

**Maddə 462. Yeni açılmış hallar üzrə baxılması mümkün olan hökm və ya qərarlar**

462.0. Yeni açılmış hallar üzrə aşağıdakı qanuni qüvvəyə minmiş hökm və ya məhkəmənin digər qərarlarına baxıla bilər:

462.0.1. ittiham hökmü;

462.0.2. bəraət hökmü;

462.0.3. cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraata xitam verilməsi haqqında qərar;

462.0.4. tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi haqqında qərar;

462.0.5. tərbiyəvi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi haqqında qərar.

**Maddə 463. Yeni açılmış hallar üzrə məhkəmənin hökm və ya qərarlarına baxmaq hüququ olan məhkəmə**

Yeni açılmış hallar üzrə məhkəmənin hökm və ya qərarlarına baxılması hüququna yalnız Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu malikdir.

**Maddə 464. Yeni açılmış hallarla əlaqədar məhkəmənin hökm və ya qərarına baxılması haqqında ərizənin verilməsi**

464.1. Yeni açılmış hallarla əlaqədar məhkəmənin hökm və ya qərarına baxılması haqqında ərizə vermək hüququna kassasiya şikayəti, kassasiya protesti və ya təqdimat vermək hüququ olan şəxslər malikdirlər.
464.2. Yeni açılmış hallarla əlaqədar məhkəmənin hökm və ya qərarına baxılması haqqında ərizə yazılı şəkildə bu Məcəllənin 412-ci maddəsi ilə kassasiya şikayətlərinin və ya kassasiya protestlərinin verilməsi üçün müəyyən edilmiş qaydada verilir.
464.3. Yeni açılmış hallarla əlaqədar ittiham hökmünə məhkumun xeyrinə baxılması haqqında ərizənin verilmə müddəti məhdudlaşdırılmır.
464.4. Bəraət hökmünə bəraət almış şəxsin, habelə ittiham hökmünə məhkumun vəziyyətinin pisləşməsi ilə nəticələnə biləcək yenidən baxılması haqqında ərizənin verilməsinə müvafiq halların müəyyən edildiyi və ya müraciət etmiş şəxsin yeni açılmış hallar barədə məlumat aldığı andan 12 (on iki) ay müddətində yol verilir.
464.5. Yenidən baxılma haqqında məsələ məhkumun bəraət alması məqsədi ilə qoyulduqda həmin məhkumun vəfat etməsi məhkəmənin hökm və ya qərarına yeni açılmış hallar üzrə baxılmasına mane olmur. Bu halda yeni açılmış hallar üzrə məhkəmənin hökm və ya qərarına baxılması haqqında ərizənin vəfat etmiş şəxsin həyat yoldaşı və ya digər yaxın qohumu tərəfindən verilməsinə yol verilir.

**Maddə 465. Yeni açılmış hallar üzrə məhkəmənin hökm və ya qərarına baxılması haqqında ərizəyə dair tələblər**

465.1. Yeni açılmış hallar üzrə məhkəmənin hökm və ya qərarına baxılması haqqında ərizədə aşağıdakılar göstərilir:
465.1.1. ərizə ilə müraciət edən şəxsin soyadı, adı, atasının adı və prosessual statusu;
465.1.2. mübahisə edilən hökm və ya qərarın dəqiq adı (sənəd nə vaxt, kim tərəfindən və hansı icraat üzrə çıxarılmışdır);
465.1.3. məhkəmənin hökm və ya qərarına yenidən baxılması üçün baxılmanın zəruriliyini təsdiq edən əsasların və sübutların ətraflı izahı;
465.1.4. məhkəmənin hökm və ya qərarına yenidən baxılması haqqında məsələnin qoyulduğu səbəblərin əsaslandırılması;
465.1.5. ərizənin verilməsi üçün müddətlərə riayət edilməsi halları və mövcud olan sübut vasitələri barədə məlumatlar.
465.2. Məhkəmənin hökm və ya qərarına yenidən baxılması haqqında ərizəyə məhkəmənin barəsində mübahisə edilən hökm və ya qərarının surəti, habelə ərizənin əsaslandırıldığı sənədlər (əslləri və ya surətləri) əlavə edilməlidir.
465.3. Məhkəmənin hökm və ya qərarına yenidən baxılması haqqında ərizənin və ona edilmiş əlavələrin surətləri kassasiya şikayəti və ya kassasiya protesti vermək hüququna malik olan bütün şəxslərə çatacaq sayda olmalıdır.

**Maddə 466. Yeni açılmış hallar üzrə məhkəmənin hökm və ya qərarına baxılması haqqında ərizənin ilkin öyrənilməsi**

466.1. Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri yeni açılmış hallar üzrə məhkəmənin hökm və ya qərarına baxılması haqqında ərizəyə ilkin baxılmasını Azərbaycan Respublikası Ali Məhkəməsinin müvafiq kollegiyasının hakimlərindən birinə tapşırır.
466.2. Yeni açılmış hallarla əlaqədar məhkəmənin hökm və ya qərarına baxılması haqqında ərizəni öyrəndikdən sonra Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi aşağıdakı qərarlardan birini qəbul edir:
466.2.1. ərizə məhkəmənin barəsində mübahisə edilən hökm və ya qərarının əsaslılığına dair şübhə yaratmadıqda, onun baxılmamış saxlanılması haqqında;
466.2.2. ərizədən və ya ona əlavə edilmiş sənədlərdən həmin halların müəyyən edildiyi, yaxud onların mümkün mövcudluğu həqiqətən məhkəmənin mübahisə edilən hökm və ya qərarının əsaslılığına dair şübhə yarada biləcəyi məlum olduğu halda, yeni açılmış hallar üzrə məhkəmənin hökm və ya qərarına baxılması haqqında ərizə üzrə icraatın açılması haqqında.
466.3. Yeni açılmış hallar üzrə məhkəmənin hökm və ya qərarına baxılması haqqında ərizənin baxılmamış saxlanılması haqqında qərar çıxarıldıqda həmin qərarın surəti ərizəni vermiş şəxsə göndərilir.
466.4. Yeni açılmış hallar üzrə məhkəmənin hökm və ya qərarına baxılması haqqında ərizənin verilməsi üçün artıq müəyyən edilmiş hallar əsas olduqda hakim, barəsində şikayət verilən qərarın düzgünlüyünə olan şübhələri təsdiq edən məhkəmənin qanuni qüvvəyə minmiş hökmünün mövcudluğunu yoxlayır və belə halı müəyyən etdikdə, cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraat materiallarının və ya xüsusi ittiham qaydasında şikayətin yeni müəyyən edilmiş hallar üzrə baxılması haqqında rəy tərtib edir. Həmin rəy yeni açılmış hallar üzrə məhkəmənin hökm və ya qərarına baxılması haqqında ərizə və digər materiallarla birlikdə Azərbaycan Respublikası Ali Məhkəməsinin sədrinə verilir.
466.5. Hökmə və ya məhkəmənin qərarına yeni açılmış hallar üzrə baxılması üçün ərizənin verilməsinə əsas olmuş halların həqiqiliyinin və tamlığının müəyyən edilməsində, ötrü

xüsusi araşdırmanın aparılması tələb olunduqda Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi öz qərarı ilə Azərbaycan Respublikasının Baş prokuroruna belə araşdırmanın aparılmasını təşkil etməyi tapşırır.

466.6. Yeni açılmış hallar üzrə araşdırmanın aparılmasını Azərbaycan Respublikasının Baş prokuroru tabeçiliyində olan prokurorlardan və ya müstəntiqlərdən birinə həvalə etmək hüququna malikdir. Yeni açılmış halların araşdırılması zamanı istintaq hərəkətləri bu Məcəllənin *227*–276-cı maddələrinin tələblərinə riayət etməklə aparılır.[665]

466.7. Yeni açılmış halların araşdırılması qurtardıqdan sonra istintaq hərəkətlərinin bütün protokolları və digər materiallar yeni açılmış hallar üzrə icraat açmış Azərbaycan Respublikası Ali Məhkəməsinin hakiminə göndərilir.

466.8. Prokuror (müstəntiq) tərəfindən aparılmış araşdırmanın materiallarına baxaraq Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi aşağıdakı qərarlardan birini qəbul edir:

466.8.1. məhkəmənin barəsində mübahisə edilən hökmünə və ya qərarına yeni açılmış hallar üzrə baxılmasının rədd edilməsi haqqında;

466.8.2. məhkəmənin hökm və ya qərarına yenidən baxılması haqqında ərizənin və prokuror (müstəntiq) tərəfindən aparılmış araşdırma materiallarının mahiyyəti üzrə baxılması üçün Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumuna göndərilməsi haqqında. Belə qərar çıxarmaqla yanaşı, Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi məhkəmənin barəsində mübahisə edilən hökm və ya qərarının icrasını dayandırmaq hüququna malikdir. Bu qərarı çıxardıqdan sonra yeni açılmış hallar üzrə hakimdə olan bütün materiallar Azərbaycan Respublikası Ali məhkəməsinin sədrinə verilir.

466.9. Yeni açılmış hallar üzrə məhkəmənin hökm və ya qərarına baxılması haqqında ərizəyə ilkin baxan Azərbaycan Respublikası Ali Məhkəməsi hakiminin bütün qərarları qətidir və onlardan şikayət və ya protest verilə bilməz. [666]

466.10. Yeni açılmış hallar üzrə məhkəmənin hökm və ya qərarına baxılması haqqında ərizənin ilkin baxılmasının nəticələri barədə Azərbaycan Respublikasının Baş prokuroruna və ya prokurorun nümayəndəsinə, məhkuma (bəraət almış şəxsə), zərər çəkmiş şəxsə (xüsusi ittihamçıya), habelə məhkəmənin mübahisə edilən hökm və ya qərarının mənafelərinə toxunduğu digər şəxslərə məlumat verilir.

466.11. Yeni açılmış hallar üzrə məhkəmənin hökm və ya qərarına baxılması haqqında ərizənin və prokuror (müstəntiq) tərəfindən aparılmış araşdırma materiallarının mahiyyəti üzrə baxılması üçün Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumuna göndərilməsi haqqında qərar qəbul edildikdə bu Məcəllənin 466.10-cu maddəsində göstərilən şəxslərə, həmçinin məsələnin baxılması vaxtı və yeri haqqında məlumat verilir.

**Maddə 467. Yeni açılmış hallar üzrə məhkəmənin hökm və ya qərarına baxılması haqqında ərizəyə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu tərəfindən baxılması**

Yeni açılmış hallar üzrə məhkəmənin hökm və ya qərarına Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun iclasında baxılması bu Məcəllənin 427-ci maddəsində nəzərdə tutulmuş qaydalar üzrə həyata keçirilir.

### *LIV-I fəsil*[667]

### *Narkomaniya xəstəliyi ilə əlaqədar cinayət məsuliyyətindən azad edilməsi nəzərdə tutulmuş şəxs barəsində tibbi xarakterli məcburi tədbirlərintətbiq edilməsi üzrə icraat*

***Maddə 467-1. Narkomaniya xəstəliyi ilə əlaqədar cinayət məsuliyyətindən azad edilməsi nəzərdə tutulmuş şəxs barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə icraatın xüsusiyyətləri***

*Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 234.1-ci maddəsində nəzərdə tutulmuş cinayəti törətmiş, əməlində başqa cinayət tərkibi olmayan və narkomaniya xəstəliyinə düçar olmuş və bu xəstəliklə əlaqədar cinayət məsuliyyətindən azad edilməsi nəzərdə tutulmuş şəxs barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə icraat bu Məcəllənin 467-1-467-11-ci maddələri ilə müəyyən edilmiş xüsusiyyətlər nəzərə alınmaqla bu Məcəllənin ümumi qaydaları əsasında aparılır.*

***Maddə 467-2. Narkomaniya xəstəliyi ilə əlaqədar cinayət məsuliyyətindən azad edilməsi nəzərdə tutulmuş şəxs barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə məhkəməyədək icraat***

*467-2.1. Narkomaniya xəstəliyi ilə əlaqədar cinayət məsuliyyətindən azad edilməsi nəzərdə tutulmuş şəxs barəsində tibbi xarakterli məcburi tədbirlərin (bundan sonra - narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlər) tətbiq edilməsi üzrə məhkəməyədək icraat ibtidai istintaq şəklində aparılır.*

*467-2.2. Narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə icraatın aparılmasında barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan şəxs, bu Məcəllə ilə müəyyən edilmiş hallarda onun müdafiəçisi və qanuni nümayəndəsi iştirak edirlər.*

***Maddə 467-3. Narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə***

***icraat zamanı müəyyən edilməli olan hallar***

*467-3.0. Narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə icraat zamanı aşağıdakılar müəyyən edilməlidir:*

*467-3.0.1. cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsi;*

*467-3.0.2. həmin əməlin barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə icraatın aparıldığı şəxs tərəfindən törədilməsi;*

*467-3.0.3. şəxsin əməlində başqa cinayət tərkibinin olmaması;*

*467-3.0.4. şəxsin narkomaniya xəstəliyinə düçar olması;*

*467-3.0.5. şəxsin müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş məcburi müalicə tətbiq edilməyən narkomaniya xəstəliyinə düçar olmuş şəxslər kateqoriyasına daxil olmaması.*

***Maddə 467-4. Narkomaniya xəstəliyi ilə əlaqədar cinayət məsuliyyətindən azad edilməsi nəzərdə tutulmuş şəxs barəsində cinayət işinin ayrılması***

*İbtidai araşdırma bir neçə təqsirləndirilən şəxs barəsində aparıldıqda narkomaniya xəstəliyi ilə əlaqədar cinayət məsuliyyətindən azad edilməsi nəzərdə tutulmuş şəxs barəsində cinayət işi ayrıca icraata ayrılır.*

***Maddə 467-5. Narkomaniya xəstəliyi ilə əlaqədar cinayət məsuliyyətindən azad edilməsi nəzərdə tutulmuş şəxsə ittihamın elan edilməsi və onun barəsində qətimkan tədbirinin seçilməsi***

*467-5.1. Cinayətin törədilməsində ittihamın elan edilməsinə əsas verən kifayət qədər sübutlar olduğu halda müstəntiq narkomaniya xəstəliyi ilə əlaqədar cinayət məsuliyyətindən azad edilməsi nəzərdə tutulmuş şəxsin təqsirləndirilən şəxs qismində cəlb edilməsi haqqında əsaslandırılmış qərar çıxarır və ittihamı bu Məcəllənin 224-cü maddəsində müəyyən edilmiş qaydada elan edir.*

*467-5.2. Bu Məcəllənin 155-ci maddəsində nəzərdə tutulmuş əsaslar mövcud olduqda narkomaniya xəstəliyi ilə əlaqədar cinayət məsuliyyətindən azad edilməsi nəzərdə tutulmuş şəxs barəsində qətimkan tədbiri tətbiq edilir.*

***Maddə 467-6. Narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə məhkəməyədək icraatda müstəntiqin hərəkətləri***

*467-6.1. Toplanmış sübutlar tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə məhkəməyədək icraatın qurtarması üçün kifayət hesab edildikdə müstəntiq aşağıdakı qərarlardan birini qəbul edir:*

*467-6.1.1. şəxs barəsində cinayət işi üzrə icraatın dayandırılması və tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üçün məhkəməyə göndərilməsi haqqında məsələnin həll edilməsi məqsədi ilə iş materiallarının ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilməsi haqqında;*

*467-6.1.2. bu Məcəllənin müddəaları ilə nəzərdə tutulmuş əsaslar olduqda iş üzrə icraatın dayandırılması və ya icraata xitam verilməsi haqqında.*

*467-6.2. Narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə icraat zamanı bu Məcəllənin 467-6.1-ci maddəsində nəzərdə tutulmuş qərarlardan hər hansı biri qəbul edildikdən sonra müstəntiq başa çatmış icraatın materiallarını tanış olmaları üçün barəsində icraatın aparıldığı şəxsə, habelə olduğu hallarda onun müdafiəçisinə və qanuni nümayəndəsinə təqdim edir.*

*467-6.3. Bu Məcəllənin 467-6.2-ci maddəsində göstərilən şəxslərin narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi barədə iş materialları ilə tanış olmaları haqqında protokol tərtib edilir.*

***Maddə 467-7. Narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə məhkəməyədək icraat zamanı prokurorun hərəkətləri***

*467-7.0. Narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə icraat materialları müstəntiqin bu Məcəllənin 467-6.1.1-ci maddəsində nəzərdə tutulmuş qərarı ilə birlikdə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora təqdim edilir. Prokuror aşağıdakı qərarlardan birini qəbul edir:*

*467-7.0.1. müstəntiqin qərarını təsdiq edir və işi məhkəməyə göndərir;*

*467-7.0.2. bu Məcəllənin 467-3-cü maddəsində nəzərdə tutulmuş hallar düzgün müəyyən edilmədikdə işi əlavə araşdırmanın aparılması üçün müstəntiqə qaytarır;*

*467-7.0.3. bu Məcəllənin müddəaları ilə nəzərdə tutulmuş əsaslar olduqda iş üzrə icraatı dayandırır və ya icraata xitam verir.*

***Maddə 467-8. Narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə məhkəmə baxışının xüsusiyyətləri***

*467-8.1. Məhkəmə iclası cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş şəxs barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsinin zəruriliyi barədə dövlət ittihamçısının məruzəsi ilə başlanır. Sonra məhkəmə cinayət prosesi tərəflərinin təqdim etdikləri sübutları tədqiq edir, bu Məcəllənin 467-3-cü maddəsində nəzərdə tutulmuş halların müəyyən olunub-olunmadığını araşdırır və barəsində icraat aparıldığı şəxsi, olduğu halda onun müdafiəçisini və qanuni nümayəndəsini, habelə dövlət ittihamçısının fikrini dinləyir. Daha sonra məhkəmə qərar qəbul edilməsi üçün müşavirə otağına gedir.*

*467-8.2. Məhkəmə tərəfindən narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin tətbiq*

*edilməsi üzrə icraat zamanı aşağıdakı qərarlardan biri çıxarılır:*

*467-8.2.1. narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi haqqında;*

*467-8.2.2. bu Məcəllənin 467-3-cü maddəsində nəzərdə tutulmuş hallar düzgün müəyyən edilmədikdə işin əlavə araşdırmanın aparılması üçün ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması haqqında;*

*467-8.2.3. bu Məcəllənin müddəaları ilə nəzərdə tutulmuş əsaslar olduqda iş üzrə icraatın dayandırılması və ya icraata xitam verilməsi haqqında.*

*467-8.3. Məhkəmə tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi haqqında qanuni qüvvəyə minmiş qərarın surətini icra olunması üçün qərarda nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının tibb müəssisəsinə göndərir.*

***Maddə 467-9. Narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsini zəruri edən halların ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror və ya məhkəmə tərəfindən müəyyən edilməsi***

*467-9.1. İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror ittiham aktı ilə daxil olmuş cinayət işi üzrə bu Məcəllənin 467-3-cü maddəsində nəzərdə tutulmuş halları müəyyən etdikdə cinayət işi üzrə icraatın dayandırılması və narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi məsələsinə baxılması üçün işin məhkəməyə göndərilməsi haqqında qərar qəbul edir.*

*467-9.2. Cinayət işinə baxan məhkəmə bu Məcəllənin 467-3-cü maddəsində nəzərdə tutulmuş halları müəyyən etdikdə cinayət işi üzrə icraatın dayandırılması və narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi barədə qərar qəbul edir.*

***Maddə 467-10. Narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin uzadılması və ya ləğv edilməsi***

*467-10.1. Narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin uzadılması və ya ləğv edilməsi məsələlərinə məhkəmə tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 93-1.4-cü maddəsində nəzərdə tutulmuş qaydada prokurorun, həmin tədbirlərin həyata keçirildiyi tibb müəssisəsinin nümayəndəsinin və barəsində tibbi xarakterli məcburi tədbirinin uzadılması və ya ləğv edilməsi haqqında məsələyə baxılan şəxsin mütləq iştirakı ilə baxılır.*

*467-10.2. Məhkəmə bu Məcəllənin 467-10.1-ci maddəsində nəzərdə tutulmuş məsələlər üzrə qəbul edilmiş qərarları həmin tədbirləri tətbiq etmiş məhkəməyə göndərir.*

*467-10.3. Şəxs tibbi xarakterli məcburi tədbirlərdən yayındıqda müvafiq tibb müəssisəsinin müdiriyyəti həmin tədbirləri tətbiq etmiş məhkəməyə yazılı məlumat verir.*

*467-10.4. Tibb müəssisələrində narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlər müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi qaydalara uyğun aparılır.*

***Maddə 467-11. Narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə icraatın təzələnməsi***

*467-11.1. Şəxsin tam sağalması nəticəsində qəbul edilmiş narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin ləğv edilməsi haqqında qərar həmin tədbirləri tətbiq etmiş məhkəməyə daxil olduqda, məhkəmə iş üzrə icraatı təzələməklə, şəxsin cinayət məsuliyyətindən azad edilməsi və icraata xitam verilməsi haqqında qərar qəbul edir.*

*467-11.2. Şəxsin narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirdən yayınmasına dair müvafiq tibb müəssisəsinin müdiriyyətinin məlumatının əsaslı olduğu müəyyən edildikdə, həmin tədbirləri tətbiq etmiş məhkəmə iş üzrə icraatı təzələyir və aşağıdakı qərarlardan birini qəbul edir:*

*467-11.2.1. əgər narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlər bu Məcəllənin 467-9.2-ci maddəsində nəzərdə tutulmuş qaydada tətbiq edilmişdirsə, cinayət işi üzrə məhkəmə iclasının təyin edilməsi haqqında,*

*467-11.2.2. digər hallarda, işin ibtidai araşdırmanın aparılması üçün ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilməsi haqqında.*

*467-11.3. Bu Məcəllənin 467-11.2-ci maddəsində müəyyən edilmiş hallarda cinayət işi üzrə ibtidai istintaq və ya məhkəmə icraatı bu Məcəllənin ümumi qaydaları əsasında aparılır.*

## *LIV-II fəsil*

## *Cinayət təqibi üzrə qiyabi icraat*

***Maddə 467-12. Cinayət təqibi üzrə qiyabi icraatın xüsusiyyətləri***[668]

*467-12.1. Cinayət təqibi üzrə qiyabi icraat bu fəsildə müəyyən edilmiş xüsusiyyətlər nəzərə alınmaqla, bu Məcəllədə nəzərdə tutulmuş ümumi qaydalara uyğun olaraq aparılır.*

*467-12.2. Cinayət təqibi üzrə qiyabi icraat aparıldıqda bu Məcəllənin 91-ci maddəsində nəzərdə tutulmuş hüquqlar cinayət prosesini həyata keçirən orqan tərəfindən təmin edilməlidir.*

*467-12.3. Məhkəməyədək qiyabi icraat yalnız ibtidai istintaq şəklində aparılır.*

*467-12.4. Barəsində cinayət təqibi üzrə qiyabi icraat aparılan təqsirləndirilən şəxsə dair cinayət işi ayrıca icraata ayrılır.*

*467-12.5. Yetkinlik yaşına çatmayan şəxslər barəsində cinayət təqibi üzrə qiyabi icraatın aparılmasına yol verilmir.*

***Maddə 467-13. Cinayət təqibi üzrə qiyabi icraatın açılması***

*467-13.1. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100–119, 137, 144–145, 178, 179, 182, 193-1, 204, 205, 206, 206-1, 208, 214–219-1, 228, 274–283-1, 308–314-3, 318, 318-1, 319 və 324-cü maddələri, eləcə də həmin maddələrlə yanaşı eyni bir cinayət işi çərçivəsində cinayətlərin məcmusu üzrə həmin Məcəllənin digər maddələri ilə ittiham olunan təqsirləndirilən şəxsin Azərbaycan Respublikasının ərazisindən kənarda istintaqdan və ya məhkəmədən gizləndiyi və ya çağırışa gəlməkdən qəsdən boyun qaçırdığı üçün cinayət prosesində şəxsən iştirakının təmin edilməsi mümkün olmadıqda onun barəsində cinayət təqibi qiyabi icraat qaydasında aparıla bilər.*

*467-13.2. Təqsirləndirilən şəxsin bu Məcəllənin 54-1 – 54-4-cü maddələrində nəzərdə tutulmuş qaydada cinayət prosesini həyata keçirən orqana çağırılması nəticə vermədikdə, cinayət prosesini həyata keçirən orqandan gizlənən və ya çağırışa gəlməkdən qəsdən boyun qaçıran şəxsə ittiham elan etmək üçün onun tutulması, axtarışı, eləcə də bu Məcəllə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilmiş qaydada verilməsi (ekstradisiyası) üçün tədbirlər görülür.*

*467-13.3. Cinayət prosesini həyata keçirən orqan təqsirləndirilən şəxsin bu Məcəllənin 54-1 – 54-4-cü maddələrində nəzərdə tutulmuş qaydada çağırılmasını həyata keçirdikdə, eyni zamanda barəsində cinayət təqibinin qiyabi icraat qaydasında keçirilməsi imkanı barədə onu məlumatlandırır, habelə həmin icraatda özünün seçimi əsasında müdafiəçi vasitəsilə təmsil olunmaq hüququndan istifadə etmək istədiyi halda, müdafiəçisi barədə məlumatları cinayət prosesini həyata keçirən orqana göndərməli olduğunu bildirir.*

*467-13.4. Bu Məcəllənin 467-13.2-ci maddəsində nəzərdə tutulmuş tədbirlər nəticə vermədikdə, cinayət prosesini həyata keçirən orqan təqsirsizlik prezumpsiyasına riayət etməklə, bu Məcəllənin 54-2.1-ci maddəsində nəzərdə tutulmuş məlumatları (çağırış vərəqəsinin verilməli olduğu şəxsin ünvanı istisna olmaqla) ictimai televiziya və radio vasitəsilə yayımlayır və rəsmi internet səhifəsində dərc etdirir.*

*467-13.5. Təqsirləndirilən şəxs cinayət təqibi üzrə icraatın hər hansı mərhələsində şəxsən iştirak etdikdən sonra istintaq və ya məhkəmədən gizləndikdə, onun bu Məcəllənin 467-13.4-cü maddəsində nəzərdə tutulmuş qaydada məlumatlandırılması tələb edilmir və həmin şəxs cinayət təqibinin qiyabi icraat qaydasında aparılmasından məlumatlı hesab olunur.*

*467-13.6. Məhkəməyədək icraat zamanı cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə qərar müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun yuxarı prokurorla razılaşdırılmış təqdimatı əsasında məhkəmə nəzarətini həyata keçirən məhkəmə tərəfindən qəbul olunur. Vəsatətə bu Məcəllənin 442 – 454-cü maddələrində müəyyən edilmiş qaydada baxılır.*

*467-13.7. Təqsirləndirilən şəxsin özünün seçdiyi müdafiəçi barədə məlumat olmadıqda, cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə məsələyə baxılmasında müdafiəçinin iştirakı cinayət prosesini həyata keçirən orqan tərəfindən təmin edilir. Təqsirləndirilən şəxsə verilməli olan prosessual sənədlərin surətləri müdafiəçiyə təqdim edilir.*

*467-13.8. Məhkəmənin hazırlıq iclası və ya məhkəmə baxışı zamanı, habelə apellyasiya və kassasiya instansiyası məhkəmələrində cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə məsələ məhkəmənin öz təşəbbüsü ilə və ya ittiham tərəfinin vəsatəti əsasında işə baxan məhkəmənin qərarı ilə həll edilir.*

*467-13.9. Cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə qərar yalnız təqsirləndirilən şəxs barəsində axtarış elan olunduğu vaxtdan 3 ay keçdikdən sonra qəbul edilə bilər.*

*467-13.10. Cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə məsələyə baxılarkən məhkəmə tərəfindən aşağıdakı hallar nəzərə alınır:*

*467-13.10.1. təqsirləndirilən şəxsin bu Məcəllədə nəzərdə tutulmuş qaydada çağırılması, olduğu yerin müəyyən edilməsi və cinayət prosesini həyata keçirən orqanın sərəncamına verilməsi üçün görülən tədbirlər;*

*467-13.10.2. təqsirləndirilən şəxsin hüquqi yardım almaq və müdafiə hüququnun təmin edilməsi;*

*467-13.10.3. təqsirləndirilən şəxsin bu Məcəllədə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş qaydada axtarışı və verilməsi (ekstradisiyası) üçün görülmüş tədbirlər.*

*467-13.11. Cinayət təqibi üzrə qiyabi icraatın açılması məsələsi ilə bağlı məhkəmə qərarının surəti, həmin qərar çıxarıldıqdan sonra 3 gündən gec olmayaraq vəsatəti vermiş şəxsə, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora, təqsirləndirilən şəxsin müdafiəçisinə və təqsirləndirilən şəxsə (istintaqdan və ya məhkəmədən gizlənməsi müəyyən edildiyi hallar istisna olmaqla) məhkəmə tərəfindən göndərilir.*

***Maddə 467-14. Məhkəməyədək icraat zamanı cinayət təqibi üzrə qiyabi icraata xitam verilməsi***

*467-14.1. Müstəntiq tərəfindən ittiham aktı ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilənədək təqsirləndirilən şəxs könüllü gəldikdə və ya cinayət prosesini həyata keçirən orqanın sərəncamına verildikdə müstəntiq dərhal cinayət təqibi üzrə qiyabi icraata xitam verilməsi haqqında qərar qəbul edir və bu barədə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora məlumat verir. Cinayət işinə ittiham aktı ilə birlikdə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror tərəfindən baxılarkən təqsirləndirilən şəxs könüllü gəldikdə və ya cinayət prosesini həyata keçirən orqanın sərəncamına verildikdə prokuror dərhal bu Məcəllənin 290.3.3-1-ci maddəsində nəzərdə tutulmuş qərarı qəbul edir.*

*467-14.2. Bu Məcəllənin 467-14.1-ci maddəsində nəzərdə tutulmuş qərar çıxarıldığı vaxtdan cinayət təqibi üzrə icraat bu Məcəllə ilə müəyyən edilmiş ümumi qaydada davam etdirilir.*

*467-14.3. Təqsirləndirilən şəxs könüllü gəldiyi və ya cinayət prosesini həyata keçirən orqanın sərəncamına verildiyi gün müstəntiq təqsirləndirilən şəxsə bu Məcəllənin 91-ci maddəsində nəzərdə tutulmuş hüquq və vəzifələrini, o cümlədən bu Məcəllənin 467-14.4-cü maddəsinə uyğun olaraq vəsatət vermək hüququnu izah edir, bu barədə protokol tərtib edir və onu bu Məcəllənin 284 – 286-cı maddələrində nəzərdə tutulmuş qaydada cinayət işinin materialları ilə tanış edir.*

*467-14.4. Cinayət işinin materialları ilə tanışlıq başa çatdığı vaxtdan 48 saat ərzində təqsirləndirilən şəxs və onun müdafiəçisi təqsirləndirilən şəxsə aid istintaq və digər prosessual hərəkətlərin keçirilməsi barədə vəsatət verə bilər. Vəsatətə bu Məcəllənin 287.2-ci maddəsində nəzərdə tutulmuş qaydada və müddətdə baxılır.*

*467-14.5. Bu Məcəllənin 467-14.4-cü maddəsində nəzərdə tutulmuş vəsatət əsasında və ya müstəntiqin öz təşəbbüsü ilə cinayət təqibi üzrə qiyabi icraat zamanı aparılmış təqsirləndirilən şəxsə aid istintaq və digər prosessual hərəkətlər təkrar keçirilə, habelə əlavə istintaq və digər prosessual hərəkətlər aparıla bilər.*

***Maddə 467-15. Məhkəmə icraatı zamanı cinayət təqibi üzrə qiyabi icraata xitam verilməsi***

*467-15.1. Məhkəmə hökm və ya digər yekun qərar çıxarmaq üçün müşavirə otağına gedənədək təqsirləndirilən şəxs könüllü gəldikdə və ya məhkəmənin sərəncamına verildikdə məhkəmə dərhal cinayət təqibi üzrə qiyabi icraata xitam verilməsi haqqında qərar qəbul edir. Həmin qərar qəbul edildikdən sonra məhkəmə icraatı bu Məcəllə ilə müəyyən edilmiş ümumi qaydada aparılır.*

*467-15.2. Cinayət təqibi üzrə qiyabi icraata xitam verilməsi haqqında qərar çıxarıldıqdan sonra məhkəmə təqsirləndirilən şəxsə bu Məcəllənin 91-ci maddəsində nəzərdə tutulmuş hüquq və vəzifələrini, o cümlədən bu Məcəllənin 467-15.3-cü maddəsinə uyğun olaraq vəsatət vermək hüququnu izah edir, bunu məhkəmə iclasının protokoluna daxil edir və onun bu Məcəllənin 284–286-cı maddələrində nəzərdə tutulmuş qaydada cinayət işinin materialları ilə tanış olmasını təmin edir.*

*467-15.3. Cinayət işinin materialları ilə tanışlıq başa çatdığı vaxtdan 48 saat ərzində təqsirləndirilən şəxsin, onun müdafiəçisinin və dövlət ittihamçısının məhkəməyə aşağıdakılar barədə vəsatət vermək hüququ vardır:*

*467-15.3.1. təqsirləndirilən şəxsə aid istintaq və digər prosessual hərəkətlərin keçirilməsi;*

*467-15.3.2. cinayət işinin baxılmasına xitam verilməsi və onun hazırlıq iclasının keçirilməsi mərhələsinə qaytarılması.*

*467-15.4. Bu Məcəllənin 467-15.3-cü maddəsində nəzərdə tutulmuş vəsatət əsasında və ya məhkəmənin öz təşəbbüsü ilə cinayət təqibi üzrə qiyabi icraat zamanı aparılmış təqsirləndirilən şəxsə aid istintaq və digər prosessual hərəkətlər təkrar keçirilə, əlavə istintaq və digər prosessual hərəkətlər aparıla, habelə cinayət işinin baxılmasına xitam verilməsi və onun hazırlıq iclasının keçirilməsi mərhələsinə qaytarılması haqqında qərar qəbul edilə bilər.*

***Maddə 467-16. Qiyabi hökm və ya digər yekun qərarın çıxarılması***

*467-16.1. Qiyabi hökm və ya digər yekun qərar bu Məcəllə ilə nəzərdə tutulmuş ümumi qaydada çıxarılır və icra edilir.*

*467-16.2. Barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxs Azərbaycan Respublikasının hüdudlarından kənarda olduqda qiyabi hökmün və ya digər yekun qərarın icra olunması üçün bu Məcəllədə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş tədbirlər görülür.*

***Maddə 467-17. Qanuni qüvvəyə minmiş qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi***

*467-17.1. Barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxs qiyabi hökm və ya digər yekun qərar qanuni qüvvəyə mindikdən sonra könüllü gəldikdə və ya cəzanı icra edən orqanın sərəncamına verildikdə cəzanı icra edən orqan dərhal qiyabi hökm və ya digər yekun qərarı çıxarmış məhkəməyə qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi barədə məsələlərə baxılması üçün təqdimat verir.*

*467-17.2. Təqdimatın daxil olduğu vaxtdan 10 gün müddətində məhkəmə hökm və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında iclas təyin edir. Məhkəmənin iclasında barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxs, müdafiəçi və prokurorun iştirakı məcburidir.*

*467-17.3. Məhkəmə barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxsə qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi barədə ərizə vermək hüququnu izah edir, bunu məhkəmə iclasının protokoluna daxil edir, barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxsə və onun müdafiəçisinə 10 gün müddətində cinayət işinin materialları ilə tanış olmaq üçün şərait yaradır. Cinayət işinin həcminin böyüklüyü ilə əlaqədar barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxsin və ya onun müdafiəçisinin vəsatəti əsasında həmin müddət 30 günədək uzadılır.*

*467-17.4. Cinayət işinin materialları ilə tanışlıq başa çatdığı vaxtdan 48 saat ərzində barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxs və ya onun müdafiəçisi qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi barədə ərizə verməzsə, hakim qiyabi hökmün və ya digər yekun qərarın icrası barədə göstəriş verir və qiyabi hökm və ya digər yekun qərar ümumi qaydada icra olunur.*

*467-17.5. Barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxs və ya onun müdafiəçisi qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi barədə ərizə verdikdə, həmin qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi barədə qərar qəbul edilir və yeni məhkəmə baxışının keçirilməsi məqsədilə bu Məcəllənin 298 – 307-ci maddələrində nəzərdə tutulmuş tədbirlər görülür.*

## LV fəsil

## Anlaqsız vəziyyətdə cinayət törətmiş şəxslər barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsİ üzrə icraat

**Maddə 468. Anlaqsız vəziyyətdə cinayət törətmiş şəxslər barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə icraatın xüsusiyyətləri**

Anlaqsız vəziyyətdə cinayət törətmiş şəxslər barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə icraat bu Məcəllənin 468–478-ci maddələri ilə nəzərdə tutulmuş xüsusiyyətlər nəzərə alınmaqla bu Məcəllənin ümumi qaydaları əsasında aparılır.

**Maddə 469. Anlaqsız vəziyyətdə cinayət törətmiş şəxslər barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə məhkəməyədək icraat**

469.1. Anlaqsız vəziyyətdə cinayət törətmiş şəxslər barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə məhkəməyədək icraat ibtidai istintaq şəklində aparılır.

469.2. Anlaqsız vəziyyətdə cinayət törətmiş şəxslər cəmiyyət üçün təhlükəli olaraq qalmaqda davam etdikdə, müstəntiq və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror həmin şəxslər barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə işin başlanması haqqında qərar çıxarır.

469.3. Anlaqsız vəziyyətdə cinayət törətmiş şəxslər barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə icraatın aparılmasında, barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə iş başlanmış şəxsin psixi vəziyyəti buna mane olduğu hallar istisna olmaqla, həmin şəxsin özü, müdafiəçisi və qanuni nümayəndəsi iştirak edə bilərlər.

469.4. Barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə iş başlanmış şəxs öz psixi vəziyyətinə görə iş üzrə icraatda iştirak edə bilmədikdə, müstəntiq, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror bu barədə protokol tərtib edir və həmin protokol müvafiq şəxsin prosessual fəaliyyət qabiliyyəti olmayan hesab edilməsi barədə məsələnin həlli üçün hakimə göndərilir.

**Maddə 470. Anlaqsız vəziyyətdə olan şəxslərin işləri üzrə müəyyən edilməli olan hallar**

470.0. Barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi barədə iş üzrə icraat başlanmış şəxslərin işləri üzrə aşağıdakılar müəyyən edilməlidir:

470.0.1. onun tərəfindən cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədildiyi yer, vaxt, üsul və digər hallar;

470.0.2. əməlin həmin şəxs tərəfindən törədilməsi;

470.0.3. əməl törədilənədək həmin şəxsdə psixi xəstəliyinin olması, əməlin törədildiyi anda və ondan sonra araşdırmanın aparılması zamanı xəstəliyin dərəcəsi və xarakteri;

470.0.4. həmin şəxsin əməli törədənədək və ondan sonrakı davranışı;

470.0.5. vurulmuş zərərin xarakteri və məbləği.

**Maddə 471. Tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə işin ayrılması**

Cinayət işinin ibtidai araşdırılması zamanı iştirakçılardan hər hansının cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədildiyi anda anlaqsız vəziyyətdə olması müəyyən edildikdə, tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə iş cinayət işindən ayrıca icraata ayrılır.

**Maddə 472. Müdafiəçinin və qanuni nümayəndənin iştirakı**

472.1. Tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi barədə iş üzrə müdafiəçinin iştirakı işin başlandığı və ya ayrıca icraata ayrıldığı andan məcburidir.

472.2. Barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsinə dair icraat aparılan şəxslərin işləri üzrə işdə iştirak etmək üçün müstəntiqin, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun və ya məhkəmənin qərarı ilə qanuni nümayəndə qismində yaxın qohumları, həyat yoldaşları və göstərilən şəxsin olduğu müalicə müəssisəsinin nümayəndəsi cəlb edilə bilərlər.

**Maddə 473. Barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi barədə iş üzrə icraat aparılan şəxslərin hüquqları**

Barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi barədə iş üzrə icraat aparılan şəxs təqsirləndirilən şəxsin bütün hüquqlarından istifadə edir. Xəstəliyin dərəcəsindən və xarakterindən asılı olaraq, o, aşağıdakı hüquqlara malikdir: hansı ictimai təhlükəli əməlin törədilməsinin ona istinad edildiyini bilmək, müstəntiqin icazəsi ilə istintaq hərəkətlərinin aparılmasında iştirak etmək, özünün iştirak etdiyi istintaq hərəkətlərinin protokolları ilə tanış olmaq və onlardakı qeydlərin düzgünlüyünə və tamlığına dair öz qeydlərini bildirmək, vəsatət vermək və etirazlar bildirmək, iş üzrə icraat qurtardıqdan sonra işin bütün materialları ilə tanış olmaq və onlardan həcminə məhdudiyyət qoyulmadan istənilən çıxarışları etmək, tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üçün işin məhkəməyə göndərilməsi haqqında qərarların surətlərini almaq, məhkəmə baxışında, sübutların tədqiqində iştirak etmək, məhkəmə iclasının protokolu *və ona əlavə edilmiş audioyazı ilə tanış olmaq, protokola* qeydlər etmək. [669]

**Maddə 474. Anlaqsız vəziyyətdə cinayət törətmiş şəxslər barəsində təhlükəsizlik tədbirləri**

474.1. Cinayət qanunu ilə nəzərdə tutulmuş əməli anlaqsız vəziyyətdə törətmiş şəxs barəsində zəruri hallarda qətimkan tədbiri əvəzinə aşağıdakı təhlükəsizlik tədbirləri tətbiq edilə bilər:

474.1.1. *müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma)* bildirməklə xəstəni qohumlarının, himayəçilərinin və qəyyumlarının nəzarəti altına vermək; [670]

474.1.2. xəstəni xüsusi tibb müəssisəsinə (psixiatrik stasionara) yerləşdirmək.

474.2. *Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma)* bildirməklə xəstə qohumların, himayəçilərin və qəyyumların nəzarəti altına aşağıdakı qaydada verilə bilər: [671]

474.2.1. cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş və ətrafdakılar üçün təhlükə törətməyən şəxsin anlaqsız vəziyyətdə olması faktının müəyyən edildiyi andan;

474.2.2. müstəntiqin, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun və ya məhkəmənin əsaslandırılmış qərarı əsasında.

474.3. Həmin şəxsin xüsusi tibb müəssisəsinə (psixiatrık stasionara) yerləşdirilməsinə aşağıdakı hallarda yol verilir:

474.3.1. cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş və ətrafdakılar üçün təhlükəli olan şəxsin anlaqsız vəziyyətdə olması faktının müəyyən edildiyi andan;

474.3.2. cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş şəxsin mühafizəsi mütləq təmin edilməklə, yalnız məhkəmənin əsaslandırılmış qərarı əsasında.

**Maddə 475. Tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi barədə iş üzrə məhkəməyədək icraatın qurtarması**

475.1. Toplanmış sübutları tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi barədə iş üzrə icraatı qurtarması üçün kifayət hesab etdikdə müstəntiq aşağıdakı qərarlardan birini çıxarır:

475.1.1. cinayət qanunu ilə nəzərdə tutulmuş və cinayət məsuliyyətinə səbəb olan əməli anlaqsız vəziyyətda törətmiş şəxs barəsində işin məhkəməyə göndərilməsi haqqında;

475.1.2. cinayət qanunu ilə nəzərdə tutulmuş əməli anlaqsız vəziyyətdə törətmiş şəxs məhkəməyədək icraat ərəfəsində sağaldıqda və tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsinə ehtiyac duyulmadıqda, iş üzrə icraata xitam verilməsi haqqında;

475.1.3. cinayət işi üzrə icraata xitam verilməsi üçün bu Məcəllənin müddəaları ilə nəzərdə tutulmuş əsaslar olduqda iş üzrə icraata xitam verilməsi haqqında.

475.2. Tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi barədə iş üzrə məhkəməyədək icraat qurtardıqdan sonra müstəntiq başa çatmış icraatın materiallarını zərər çəkmiş şəxsə, onun nümayəndəsinə, barəsində icraatın aparıldığı şəxsə, onun qanuni nümayəndəsinə və müdafiəçiyə təqdim edir.

475.3. Bu Məcəllənin 475.2-ci maddəsində göstərilən şəxslərin tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi barədə işin materialları ilə tanış olmaları haqqında protokol tərtib edilir.

**Maddə 476. Tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi barədə iş üzrə məhkəməyədək icraat qurtardıqda prokurorun hərəkətləri**

476.0. Tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi barədə iş üzrə başa çatmış icraatın materialları işin məhkəməyə göndərilməsi haqqında müstəntiqin qərarı ilə birlikdə aşağıdakı qərarlardan birini qəbul edən ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora verilir. Prokuror:

476.0.1. müstəntiqin qərarını təsdiq edir və işi məhkəməyə göndərir*, gücləndirilmiş elektron imza ilə təsdiq edilmiş həmin qərarı “Elektron məhkəmə” informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə həmin sistemə yerləşdirir*; [672]

476.0.2. əlavə araşdırmanın aparılması üçün işi müstəntiqə göndərir;

476.0.3. iş üzrə icraata xitam verir.

**Maddə 477. Tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi barədə iş üzrə məhkəmə baxışının xüsusiyyətləri**

477.1. Məhkəmə istintaqı cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş şəxs barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsinin zəruriliyi barədə dövlət ittihamçısının məruzəsi ilə başlanır. Sonra məhkəmə cinayət prosesi tərəflərinin təqdim etdikləri sübutları tədqiq edir və barəsində icraat aparıldığı şəxsin müdafiəçisini və qanuni nümayəndəsini, habelə dövlət ittihamçısının fikrini dinləyir. Daha sonra qərarın çıxarılması üçün məhkəmə müşavirə otağına gedir.

477.2. Qərar çıxararkən məhkəmə aşağıdakı məsələləri həll etməlidir:
477.2.1. ictimai təhlükəli əməlin törədildiyini;
477.2.2. həmin əməlin barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə icraatın aparıldığı şəxs tərəfindən törədildiyini;
477.2.3. əməlin anlaqsız vəziyyətdə törədildiyini və həmin şəxsin məhkəmə baxışı zamanı həmin vəziyyətdə olmasını;
477.2.4. şəxsin barəsində tibbi xarakterli məcburi tədbirlərin və məhz hansının tətbiq edilməsinə ehtiyac olduğunu.
477.3. Şəxs tərəfindən cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin anlaqsız vəziyyətdə törədilməsini sübuta yetirilmiş hesab etdikdə, məhkəmə onun cinayət məsuliyyətindən və cəzadan azad edilməsi və barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi barədə qərar çıxarır.
477.4. Şəxs ictimai təhlükəli olmadıqda və onun tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə ehtiyacı olmadıqda, məhkəmə iş üzrə icraata xitam verilməsi haqqında qərar çıxarır. Məhkəmə şəxsin əməli törətdiyi anda anlaqsız olması, baxışı zamanı sağaldığı halda da məhkəmə iş üzrə icraata xitam verilməsi haqqında qərar çıxarır.

**Maddə 478. Tibbi xarakterli məcburi tədbirin ləğv edilməsi və ya dəyişdirilməsi**

478.1. Şəxsin səhhətinin yaxşılaşması və ya tam sağalması nəticəsində gələcəkdə tibbi xarakterli məcburi tədbirin tətbiq edilməsi zərurəti aradan qalxdıqda, məhkəmə həkim komissiyasının rəyinə əsaslanmış *müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun)* təqdimatı üzrə tibbi xarakterli məcburi tədbirin ləğv edilməsi və ya dəyişdirilməsi haqqında məsələyə baxır. [673]
478.2. Tibbi xarakterli məcburi tədbirin ləğv edilməsi və ya dəyişdirilməsi haqqında vəsatəti şəxsin yaxın qohumları, qanuni nümayəndələri və digər maraqlı şəxslər qaldıra bilərlər.
478.3. Bütün məsələlər tədbirin tətbiq edildiyi yer üzrə məhkəmə tərəfindən prokurorun və vəsatəti üzrə tibbi xarakterli məcburi tədbirin ləğv edilməsi və ya dəyişdirilməsi haqqında məsələyə baxılan şəxsin mütləq iştirakı ilə həll edilir.

## LVI fəsil

## Cinayət törətdikdən sonra psixi xəstəliyə tutulmuş şəxslər barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə icraat

**Maddə 479. Cinayət törətdikdən sonra psixi xəstəliyə tutulmuş şəxslər barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə icraatın xüsusiyyətləri**

Bu Məcəllənin 479–487-ci maddələri ilə nəzərdə tutulmuş xüsusiyyətlər nəzərə alınmaqla cinayət törətdikdən sonra psixi xəstəliyə tutulmuş şəxslər barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə icraat bu Məcəllənin ümumi qaydaları əsasında aparılır.

**Maddə 480. Cinayət törətdikdən sonra psixi xəstəliyə tutulmuş şəxslər barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə materialların məhkəməyədək hazırlığı**

480.1. Cinayət törətdikdən sonra psixi xəstəliyə tutulmuş şəxslər barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə materialların məhkəməyədək hazırlığı ibtidai istintaq şəklində aparılır.
480.2. Cinayət törətdikdən sonra psixi xəstəliyə tutulmuş şəxslər barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə icraatda hadisədən sonra psixi xəstəliyə tutulmuş şəxs, onun müdafiəçisi və qanuni nümayəndəsi iştirak edə bilərlər.
480.3. Psixi xəstəliyə tutulmuş şəxs səhhətinin vəziyyətinə görə tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə icraatda iştirak edə bilmədikdə, müstəntiq və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror bu barədə protokol tərtib etməlidirlər.
480.4. Toplanmış sübutları kifayət hesab etdikdə, müstəntiq aşağıdakı qərarlardan birini çıxarır:
480.4.1. iş üzrə icraatı dayandırmaqla tibbi xarakterli məcburi tədbirin tətbiq edilməsi üçün işin məhkəməyə göndərilməsi haqqında məsələnin həll edilməsi məqsədi ilə cinayət törətdikdən sonra psixi xəstəliyə tutulmuş şəxslər barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə materialları ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərmək;
480.4.2. cinayət işi üzrə icraata xitam vermək.
480.5. Bu Məcəllənin 480.4-cü maddəsində göstərilən materialları aldıqdan sonra ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror aşağıdakı qərarlardan birini qəbul edir:

480.5.1. tibbi xarakterli məcburi tədbirin tətbiq edilməsi üçün işin məhkəməyə göndərilməsi haqqında müstəntiqin qərarını təsdiq edir, *gücləndirilmiş elektron imza ilə təsdiq edilmiş həmin qərarı “Elektron məhkəmə” informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə həmin sistemə yerləşdirir*; [674]

480.5.2. əlavə araşdırmanın aparılması üçün materialları müstəntiqə qaytarır;

480.5.3. cinayət işi üzrə icraata xitam verir.

**Maddə 481. Cinayət törətdikdən sonra psixi xəstəliyə tutulmuş şəxslər barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə icraatda müdafiəçinin iştirakı**

Cinayət törətdikdən sonra psixi xəstəliyə tutulmuş şəxslər barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə icraatda müdafiəçinin iştirakı məcburidir. Müdafiəçinin işdə əvvəllər iştirak etmədiyi hallarda o, psixi pozuntu faktının müəyyən edildiyi andan icraata buraxılır.

Maddə 482. Cinayət törətdikdən sonra psixi xəstəliyə tutulmuş şəxs barəsində cinayət işinin ayrılması

İbtidai araşdırma zamanı cinayət törədildikdən sonra iştirakçılardan hər hansı birinin psixi xəstəliyə tutulduğu müəyyən edildikdə, həmin şəxs barəsində cinayət işi ayrıca icraata ayrıla bilər.

**Maddə 483. Cinayət törətdikdən sonra psixi xəstəliyə tutulmuş şəxs barəsində tətbiq edilən qətimkan tədbirləri**

483.1. Cinayət törətdikdən sonra psixi xəstəliyə tutulmuş şəxslərin səhhətinin vəziyyəti buna mane olmadıqda, onlar barəsində qətimkan tədbirləri tətbiq edilə bilər. Həmin şəxslər həbsdə saxlanıldığı halda onlar tibb müəssisələrinin müvafiq bölmələrində xüsusi həkim nəzarəti altında olmalıdırlar.

483.2. Psixi xəstəliyə tutulmuş şəxslər barəsində səhhətlərinin vəziyyətinə görə qətimkan tədbirlərinin tətbiq edilə bilmədiyi halda, onlar barəsində bu Məcəllənin 474-cü maddəsində nəzərdə tutulmuş təhlükəsizlik tədbirləri tətbiq edilir.

**Maddə 484. Cinayət törətdikdən sonra psixi xəstəliyə tutulmuş şəxsə ittihamın elan edilməsi**

484.1. Cinayətin törədilməsində ittihamın elan edilməsinə əsas verən kifayət qədər sübutlar olduğu halda müstəntiq psixi xəstəliyə tutulmuş şəxsin təqsirləndirilən şəxs qismində cəlb edilməsi haqqında əsaslandırılmış qərar çıxarır.

484.2. Səhhətinin vəziyyəti buna mane olmadığı halda ittihamın elan edilməsi haqqında qərar cinayət törətdikdən sonra psixi xəstəliyə tutulmuş şəxsin özünə təqdim edilə bilər. Şəxsin qərarla tanış edilməsi mümkün olmadıqda, bu barədə protokol tərtib edilir. Cinayət törətdikdən sonra psixi xəstəliyə tutulmuş şəxsə ittihamın elan edilməsi barədə qərarla təqsirləndirilən şəxsin müdafiəçisi, habelə qanuni nümayəndəsi tanış olur.

**Maddə 485. Cinayət törətdikdən sonra psixi xəstəliyə tutulmuş şəxslər barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə birinci instansiya məhkəməsində icraat**

485.1. Cinayət törətdikdən sonra psixi xəstəliyə tutulmuş şəxslər barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə birinci instansiya məhkəməsində icraatda dövlət ittihamçısının və müdafiəçinin iştirakı məcburidir. Məhkəmə iclasına məhkəmə eksperti dəvət edilə bilər.

485.2. Cinayət törətdikdən sonra psixi xəstəliyə tutulmuş şəxs barəsində material üzrə məhkəmə istintaqı tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üçün materialların məhkəməyə göndərilməsi haqqında müstəntiqin qərarının elan edilməsi ilə başlanır və sonra məhkəmə sübutların tədqiq edilməsinə keçir.

485.3. Məhkəmə istintaqı qurtardıqda dövlət ittihamçısı nitqlə çıxış edir, müdafiəçinin fikri dinlənilir.

485.4. Bundan sonra qərarın çıxarılması üçün məhkəmə müşavirə otağına gedir və orada aşağıdakı məsələləri həll edir:

485.4.1. əməlin törədilib-törədilmədiyini;

485.4.2. əməldə cinayət tərkibinin olub-olmadığını;

485.4.3. həmin əməlin təqsirləndirilən şəxs tərəfindən törədilib-törədilmədiyini;

485.4.4. şəxsin psixi xəstəliyə tutulub-tutulmadığını, xəstəliyin xarakterini və xəstəlik vəziyyətinin baş verdiyi vaxtı;

485.4.5. şəxsin barəsində tibbi xarakterli məcburi tədbirin tətbiq edilməsinə ehtiyacın olub-olmadığını və olduğu halda məhz hansı tədbirin tətbiq edilməsinə ehtiyac olduğunu.

485.5. Şəxs psixi xəstəliyə məhkəmə baxışı mərhələsində tutulduğu halda məhkəmə, həmçinin iş üzrə icraatın dayandırılması haqqında məsələni həll etməlidir.

**Maddə 486. Tibbi xarakterli məcburi tədbirin ləğv edilməsi və dəyişdirilməsi**

486.1. Şəxsin səhhətinin yaxşılaşması və ya. tam sağalması nəticəsində gələcəkdə tibbi xarakterli məcburi tədbirin tətbiq edilməsi zərurəti aradan qalxdıqda, *müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun)* həkim komissiyasının rəyinə əsaslanmış təqdimatı üzrə məhkəmə tibbi xarakterli məcburi tədbirin ləğv edilməsi və ya dəyişdirilməsi haqqında məsələyə baxır.

486.2. Tibbi xarakterli məcburi tədbirin ləğv edilməsi və ya dəyişdirilməsi haqqında vəsatəti şəxsin yaxın qohumları, qanuni nümayəndələri və digər maraqlı şəxslər qaldıra bilərlər.

486.3. Tibbi xarakterli məcburi tədbirlərin ləğv edilməsi və dəyişdirilməsi məsələləri tibbi xarakterli məcburi tədbirlərin tətbiq edildiyi yer üzrə məhkəmə tərəfindən həll edilir.

**Maddə 487. Cinayət işi üzrə icraatın təzələnməsi**

487.1. Məhkəmə, barəsində tibbi xarakterli məcburi tədbirin tətbiq edildiyi şəxsi sağalmış hesab etdikdə, tibbi rəy əsasında tibbi xarakterli məcburi tədbirin ləğv edilməsi haqqında qərar çıxarır və cinayət işini ibtidai araşdırmanın aparılması və ya məhkəmə baxışının keçirilməsi üçün göndərilməsi haqqında məsələni həll edir.

487.2. Barəsində tibbi xarakterli məcburi tədbirlər tətbiq edilmiş şəxsin tibb müəssisəsində olduğu vaxt şəxsin həbsdə saxlanıldığı müddətə daxil edilir

[675]

## *LVI-I fəsil*
## *HÜQUQİ ŞƏXS BARƏSİNDƏ CİNAYƏT-HÜQUQİ TƏDBİRLƏRİN TƏTBİQ EDİLMƏSİ ÜZRƏ İCRAAT*

***Maddə 487-1. Hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraatın xüsusiyyətləri***

*Hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat bu Məcəllənin 487-1-487-7-ci maddələri ilə nəzərdə tutulmuş xüsusiyyətlər nəzərə alınmaqla bu Məcəllənin ümumi qaydaları əsasında aparılır.*

***Maddə 487-2. Hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə məhkəməyədək icraat***

*487-2.1. Cinayət işi üzrə ibtidai istintaq zamanı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-4.1.1–99-4.1.4-cü maddələrində nəzərdə tutulmuş fiziki şəxslər tərəfindən hüquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması üçün cinayətin əlamətlərini əks etdirən əməlin törədilməsinə dəlalət edən sübutlar müəyyən edildikdə müstəntiq ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraatın başlanması barədə əsaslandırılmış vəsatət verir. İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror vəsatətlə razılaşdıqda hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraatın başlanması haqqında qərar qəbul edir.*

*487-2.2. Hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-4.1.1–99-4.1.4-cü maddələrində nəzərdə tutulmuş fiziki şəxsin şübhəli və ya təqsirləndirilən şəxs qismində tanındığı cinayət işi üzrə ibtidai istintaq, bu Məcəllənin 487-6.6-cı maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, bir icraatda aparılır.*

*487-2.3. İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraatın başlanması haqqında qərarın surətini 24 saat ərzində hüquqi şəxsə göndərir.*

*487-2.4. Hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat hüquqi şəxsin nümayəndəsinin iştirakı ilə həyata keçirilir.*

*487-2.5. Hüquqi şəxs onun barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraatın başlanması haqqında qərarın surətini aldığı vaxtdan 24 saat ərzində nümayəndəsini təyin etməli və bu barədə cinayət təqibi orqanına məlumat verməlidir.*

*487-2.6. Bu Məcəllənin 487-2.5-ci maddəsində nəzərdə tutulmuş müddətdə hüquqi şəxsin nümayəndəsi təyin edilmədikdə müstəntiq hüquqi şəxsin təsisçisi, rəhbəri və ya digər vəzifəli şəxslərdən birinin hüquqi şəxsin nümayəndəsi kimi tanınması barədə qərar qəbul edir və onun surətini dərhal hüquqi şəxsə göndərir. Hüquqi şəxs həmin nümayəndəni icraatın istənilən mərhələsində dəyişmək hüququna malikdir.*

***Maddə 487-3. Barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin nümayəndəsi və müdafiəçisi***

*487-3.1. Barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin nümayəndəsi (bundan sonra – hüquqi şəxsin nümayəndəsi) qismində onun qanuni maraqlarını təmsil etmək üçün notariat qaydasında təsdiq edilmiş etibarnaməsi olan (bu Məcəllənin 487-2.6-cı maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla) şəxs çıxış edir. Hüquqi şəxsin nümayəndəsi cinayət prosesini həyata keçirən orqana şəxsiyyətini və səlahiyyətlərini təsdiq edən sənədləri təqdim etməlidir. Həmin sənədlərin, habelə hüquqi şəxsin nizamnaməsinin, dövlət qeydiyyatına alınması barədə sənədin surətləri cinayət təqibi ilə bağlı materiallara əlavə olunur.*

*487-3.2. Hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat zamanı hüquqi şəxsin maraqlarını yalnız bir nümayəndə təmsil edir. Hüquqi şəxsin maraqlarını nümayəndə statusuna malik olmayan bir və*

*ya bir neçə müdafiəçi təmsil edə bilər.*

*487-3.3. Hüquqi şəxsin nümayəndəsi yalnız fiziki şəxsə aid edilə bilən hüquq və vəzifələr istisna olmaqla, bu Məcəllə ilə təqsirləndirilən şəxs (məhkum) üçün nəzərdə tutulmuş bütün hüquqlardan istifadə edir və vəzifələri yerinə yetirir. Bu Məcəllə ilə təqsirləndirilən şəxsin (məhkumun) məlumatlandırılması və qərarların surətinin verilməsi nəzərdə tutulmuş bütün hallarda hüquqi şəxsin nümayəndəsinin məlumatlandırılması və qərarların surətinin verilməsi cinayət prosesini həyata keçirən orqanın vəzifəsidir.*

*487-3.4. Cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat zamanı ibtidai istintaq orqanı hüquqi şəxsin nümayəndəsi barəsində bu Məcəllənin 178-ci maddəsində nəzərdə tutulmuş qaydada məcburi gətirilmə tətbiq etmək hüququna malikdir.*

***Maddə 487-4. Hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat zamanı müəyyən edilməli olan hallar***

*487-4.0. Hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat zamanı aşağıdakı hallar müəyyən edilməlidir:*

*487-4.0.1. cinayətin hüquqi şəxsi təmsil etmək, onun adından qərarlar qəbul etmək və ya onun fəaliyyətinə nəzarət etmək səlahiyyətinə malik olan vəzifəli şəxs, yaxud həmin vəzifəli şəxslər tərəfindən nəzarətin həyata keçirilməməsi nəticəsində hüquqi şəxsin işçisi tərəfindən törədilməsini təsdiq edən hallar;*

*487-4.0.2. cinayətin hüquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması üçün törədilməsini təsdiq edən hallar;*

*487-4.0.3. hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsini zəruri edən hallar;*

*487-4.0.4. bu Məcəllənin və cinayət qanununun normalarına əsasən hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməməsini zəruri edən hallar;*

*487-4.0.5. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-5.4-cü maddəsinə əsasən hüquqi şəxsə tətbiq olunacaq cinayət-hüquqi tədbirin növü və həddi seçilərkən nəzərə alınan hallar.* [676]

***Maddə 487-5. Hüquqi şəxslər barəsində tətbiq oluna biləcək cinayət-hüquqi tədbirlərin təmin edilməsi***

*487-5.1. Hüquqi şəxslər barəsində tətbiq oluna biləcək cinayət-hüquqi tədbirlərin təmin edilməsi məqsədilə hüquqi şəxsin əmlakı üzərinə bu Məcəllənin 248-254-cü maddələrində nəzərdə tutulmuş qaydada həbs qoyula bilər.*

*487-5.2. Barəsində tətbiq oluna biləcək cinayət-hüquqi tədbirlərin təmin edilməsi məqsədilə hüquqi şəxsin yenidən təşkil olunması, yaxud təsisçilərinin (iştirakçılarının) və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanının qərarı ilə ləğv edilməsi müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında, habelə məhkəmənin öz təşəbbüsü ilə və yalnız məhkəmənin qərarına əsasən bu Məcəllənin 446-448-ci maddələrində nəzərdə tutulmuş qaydada qadağan oluna bilər. Hüquqi şəxsin yenidən təşkil edilməsinin və ya ləğv olunmasının qadağan edilməsi barədə məhkəmənin qərarı dərhal müvafiq icra hakimiyyəti orqanına göndərilir.* [677]

*487-5.3. Hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraata xitam verildikdə, bəraət hökmü çıxarıldıqda və ya hüquqi şəxs barəsində tətbiq olunan cinayət-hüquqi tədbir icraya yönəldildikdə bu Məcəllənin 487-5.2-ci maddəsində nəzərdə tutulmuş prosessual məcburiyyət tədbiri qüvvədən düşmüş sayılır.*

***Maddə 487-6. Hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə məhkəməyədək icraatın qurtarması***

*487-6.1. Toplanmış sübutları hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi barədə iş üzrə icraatın qurtarması üçün kifayət hesab etdikdə müstəntiq bu Məcəllənin 284-290-cı maddələrində nəzərdə tutulmuş hərəkətləri yerinə yetirir.*

*487-6.2. Bu Məcəllənin 487-2.2-ci maddəsində nəzərdə tutulmuş cinayət işi üzrə tərtib edilən ittiham aktına bu Məcəllənin 487-4.0.1-487-4.0.5-ci maddələrində nəzərdə tutulmuş hallar barədə məlumatlar daxil edilir. İttiham aktında hüquqi şəxsin adı, olduğu yer, təşkilati-hüquqi forması, onun dövlət qeydiyyatını aparmış dövlət orqanının adı, qeydiyyat tarixi və nömrəsi qeyd edilir.*

*487-6.3. Aşağıdakı hallarda hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraata xitam verilməsi haqqında qərar qəbul edilir:*

*487-6.3.1. Bu Məcəllənin 487-2.2-ci maddəsində nəzərdə tutulmuş fiziki şəxs barəsində cinayət işinə bu Məcəllənin 39.1.1-39.1.3-cü, 39.1.6-39.1.8-ci və ya 39.2-ci maddələrində nəzərdə tutulmuş hallarda xitam verildikdə;*

*487-6.3.2. bu Məcəllənin 487-4.0.1-487-4.0.3-cü maddələrində nəzərdə tutulmuş hallar təsdiq edilmədikdə;*

*487-6.3.3. bu Məcəllənin 487-4.0.4-cü maddəsində nəzərdə tutulmuş hallar müəyyən edildikdə.*

*487-6.4. Hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraata xitam verilməsi haqqında qərar bu Məcəllənin 280 və 281-ci maddələrində nəzərdə tutulmuş qaydada tərtib edilir, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora və cinayət prosesinin iştirakçılarına göndərilir və həmin qərardan şikayət etmə qaydası izah edilir.*

*487-6.5. İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror ittiham aktı ilə daxil olmuş cinayət işini öyrənir, ittiham aktını təsdiq etdikdə cinayət işini məhkəməyə göndərir və ya bu Məcəllənin 290-cı maddəsində nəzərdə tutulmuş digər qərar qəbul edir.*

*487-6.6. Bu Məcəllənin 487-2.2-ci maddəsində nəzərdə tutulmuş fiziki şəxs barəsində cinayət işinə bu Məcəllənin 39.1.5, 39.1.10-39.1.12-ci və 40.2-ci maddələrində nəzərdə tutulmuş hallarda xitam verildikdə, toplanmış sübutlar hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi və işin məhkəməyə göndərilməsi üçün*

*kifayət hesab edilərsə müstəntiq hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə işin məhkəməyə göndərilməsi haqqında qərar qəbul edir. Hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə işin məhkəməyə göndərilməsi haqqında qərar bu Məcəllənin 487-6.2-ci maddəsində nəzərdə tutulmuş qaydada tərtib edilir və bu Məcəllənin 487-6.1-ci və 487-6.5-ci maddələrində nəzərdə tutulmuş tədbirlər həyata keçirilir.*

***Maddə 487-7. Hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə məhkəmə baxışının xüsusiyyətləri***

*487-7.1. Hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə məhkəmə baxışı bu Məcəllənin 298-358-ci maddələri ilə müəyyən edilmiş qaydada aparılır.*

*487-7.2. Hüquqi şəxsin nümayəndəsi hüquqi şəxsin hüquq və qanuni mənafelərinin müdafiəsi məqsədi ilə məhkəmə baxışı zamanı məhkəmə iclaslarında iştirak edir. Hüquqi şəxsin nümayəndəsi məhkəmə iclasına gəlmədikdə, məhkəmə baxışı təxirə salınır və məhkəmə iclası başqa vaxta keçirilir. Hüquqi şəxsin nümayəndəsinin məhkəmə iclasına üzrsüz səbəblərə görə təkrarən gəlməməsi məhkəmə baxışının davam etdirilməsinə mane olmur, bu halda müdafiəçinin məhkəmə iclasında iştirakı məcburidir.*

*487-7.3. Məhkəmə bu Məcəllənin 487-4.0.1-487-4.0.5-ci maddələrində nəzərdə tutulmuş halları müşavirə otağında müzakirə edərək bu barədə məlumatları, habelə bu Məcəllənin 487-6.2-ci maddəsində nəzərdə tutulmuş məlumatları məhkəmə baxışının nəticələrinə dair yekun qərarında əks etdirir.*

*487-7.4. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-4.1.1–99-4.1.4-cü maddələrində nəzərdə tutulmuş fiziki şəxslər tərəfindən hüquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması üçün cinayətin əlamətlərini əks etdirən əməlin törədilməsini sübuta yetirilmiş hesab etdikdə, məhkəmə hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi haqqında qərar qəbul edir.*

*487-7.5. Məhkəmə toplanmış sübutları tədqiq edərək bu Məcəllənin 487-6.3-cü maddəsində nəzərdə tutulmuş hallarda hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraata xitam verilməsi haqqında qərar qəbul edir.*

*487-7.6. Hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi və ya hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraata xitam verilməsi məhkəmə baxışının nəticələrinə dair yekun qərarda qeyd olunur.*

## LVII fəsil

## Cinayət işlərinə dair hüquqi yardımın göstərilməsi üzrə icraat

**Maddə 488. Azərbaycan Respublikasının ərazisində hüquqi yardım göstərilməsi qaydasında prosessual və digər hərəkətlərin həyata keçirilməsi**[678]

488.1. Cinayət işlərinə dair hüquqi yardım (bundan sonra "hüquqi yardım" adlanacaq) *və ekstradisiya məsələləri* Azərbaycan Respublikasının Konstitusiyası, bu Məcəllə, "Cinayət işlərinə dair hüquqi yardım haqqında" *və "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" Azərbaycan Respublikasının qanunları*, Azərbaycan Respublikasının digər qanunvericilik aktları və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr ilə tənzimlənir.[679]

*488.2. Hüquqi yardım göstərilməsinə dair və ekstradisiya haqqında Azərbaycan Respublikası ilə sorğu edən xarici dövlət arasında müvafiq müqavilə olmadıqda və ya müvafiq müqavilə ilə tənzimlənməyən məsələlər üzrə həmin müqaviləyə zidd olmayan hissədə bu Məcəllənin, "Cinayət işlərinə dair hüquqi yardım haqqında" və "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" Azərbaycan Respublikasının qanunlarının müddəaları tətbiq edilir.*[680]

488.3. Bu müddəalar beynəlxalq məhkəmə orqanları ilə əməkdaşlıq edilməsi məsələlərinə şamil olunmur.

**Maddə 489. Azərbaycan Respublikasının ərazisində hüquqi yardım göstərilməsinin ümumi şərtləri**[681]

489.1. Hüquqi yardım sorğu verildiyi zaman sorğu edən xarici dövlətin müvafiq səlahiyyətli orqanı tərəfindən istintaq edilən və ya məhkəmə baxışında olan cinayətlərlə bağlı müvafiq hərəkətlərin həyata keçirilməsindən ibarətdir.

489.2. Bu Məcəllənin 489.1-ci maddəsinin məqsədlərinə uyğun olaraq hüquqi yardımın göstərilməsi üzrə həyata keçirilən hərəkətlər "Cinayət işlərinə dair hüquqi yardım haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsi ilə müəyyən edilir.

*489.3. Azərbaycan Respublikasının ərazisində yaşayan, yaxud olan əcnəbi və ya vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasının hüdudlarından kənarda törətdiyi əməllərə görə xarici dövlət tərəfindən cinayət məsuliyyətinə cəlb edilməsi və ya məhkəmə tərəfindən təyin edilmiş cəzanın icrası üçün verilməsi və tranzit daşıma bu Məcəllənin 493-501-ci maddələri və "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" Azərbaycan Respublikasının Qanununun müddəalarına uyğun olaraq həyata keçirilir.*

*489.4. Xarici dövlətin səlahiyyətli hakimiyyət orqanının rəsmi müraciəti əsasında Azərbaycan Respublikası ərazisində cinayət təqibi bu Məcəllənin 502-504-cü maddələrinə uyğun olaraq həyata keçirilir.*[682]

**Maddə 490. Azərbaycan Respublikasının ərazisində hüquqi yardımın göstərilməsi xahişi**

**ilə rəsmi müraciətin məzmunu**

490.1. Azərbaycan Respublikasının ərazisində hüquqi yardımın göstərilməsi xahişi ilə rəsmi müraciətdə aşağıdakılar göstərilməlidir:
490.1.1. Azərbaycan Respublikasının sorğu edilən cinayət təqibi orqanının adı;
490.1.2. xarici dövlətin sorğu edən səlahiyyətli orqanının adı;
490.1.3. icraatı üzrə hüquqi yardımın göstərilməsi sorğu edilən cinayət işinin adı və ona dair qısa arayış;
490.1.4. törədilmiş əməlin təsviri və tövsifi;
490.1.5. şübhəli, təqsirləndirilən, zərər çəkmiş şəxslərin, habelə şahidlərin adları və soyadları, mümkün olduqda isə onların yaşayış yeri və ya olduğu yer, vətəndaşlığı, məşğuliyyət növü, doğulduğu yer və tarix;
490.1.6. hüquqi yardımın göstərilməsi barədə xahişin mahiyyəti;
490.1.7. hüquqi yardım göstərilməsi barədə müraciətə baxılması üçün zəruri olan "Cinayət işlərinə dair hüquqi yardım haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü maddəsi ilə nəzərdə tutulan digər məlumatlar. [683]
490.2. ləğv edilmişdir. [684]

**Maddə 491. Hüquqi yardım haqqında sorğunun icra qaydası** [685]

491.1. Hüquqi yardım haqqında sorğu bu Məcəllə və "Cinayət işlərinə dair hüquqi yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmuş qaydada icra edilir.
491.2. Hüquqi yardım haqqında sorğu icra edilərkən sorğu edən xarici dövlətin müvafiq orqanının xahişi ilə həmin dövlətin qanunvericiliyi Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmadıqda tətbiq edilə bilər.
491.3. Hüquqi yardım haqqında sorğu icra edilərkən məhkəmənin sanksiyasının (qərarının) alınmasını tələb edən prosessual və digər hərəkətlərin aparılması zərurəti yarandıqda, Azərbaycan Respublikasının cinayət təqibi orqanları bu Məcəllə ilə nəzərdə tutulmuş qaydada həmin məsələ ilə əlaqədar məhkəmə nəzarətini həyata keçirən Azərbaycan Respublikasının müvafiq məhkəməsinə müraciət etməlidirlər.
491.4. Hüquqi yardım haqqında sorğunun icrası mümkün olmadıqda, Azərbaycan Respublikasının cinayət təqibi orqanı sorğu edən xarici dövlətin müvafiq orqanına sorğunun icrasına mane olan hallar barədə məlumat verir.

**Maddə 492. Hüquqi yardımın göstərilməsindən imtina** [686]

492.1. Hüquqi yardımın göstərilməsindən "Cinayət işlərinə dair hüquqi yardım haqqında" Azərbaycan Respublikasının Qanununun 3.1-ci maddəsi ilə nəzərdə tutulmuş əsaslarla imtina edilir.
492.2. Hüquqi yardımın göstərilməsindən imtinanın əsasları barədə sorğu edən xarici dövlətə cavab verilir.

**Maddə 493. Şəxsin verilməsi haqqında rəsmi müraciətin məzmunu**

493.1. Şəxsin verilməsi haqqında rəsmi müraciətdə aşağıdakılar göstərilməlidir:
493.1.1. Azərbaycan Respublikasının sorğu edilən cinayət təqibi orqanının adı;
493.1.2. xarici dövlətin sorğu edən səlahiyyətli hakimiyyət orqanının adı;
493.1.3. icraatı üzrə hüquqi yardımın göstərilməsi xahiş edilən cinayət işinin adı və ona dair qısa arayış;
493.1.4. əməlin faktiki hallarının təsviri və sorğu edən dövlətin əsasında əməlin cinayət hesab edildiyi qanunun mətni;
493.1.5. verilməli olan şəxsin soyadı, adı, atasının adı, onun vətəndaşlığı, yaşayış yeri və ya olduğu yer, mümkün olduqda onun xarici görkəminin təsviri və onun şəxsiyyəti barədə digər məlumatlar;
493.1.6. cinayət nəticəsində vurulmuş zərərin məbləği.
493.2. Cinayət təqibinin həyata keçirilməsi üçün şəxsin verilməsi xahişi ilə rəsmi müraciətə həbsə alma haqqında qərarın təsdiq edilmiş surəti *və əməlin cinayət olmasını, cinayət məsuliyyətinə cəlb etmə müddətlərini müəyyən edən cinayət qanununun maddələrinin mətni* əlavə edilməlidir. [687]
493.3. Hökmün icra edilməsi üçün şəxsin verilməsi xahişi ilə rəsmi müraciətə qanuni qüvvəyə minmiş hökmün təsdiq edilmiş surəti*, onun məhkum edildiyi cinayəti və ittiham hökmünün icra müddətlərini müəyyən edən cinayət qanununun maddələrinin* mətni əlavə edilməlidir. Məhkum cəzanın bir hissəsini çəkdikdə bu barədə də məlumatlar verilir. [688]

**Maddə 494. Şəxsin verilməsi üçün əlavə sənədlərin tələb edilməsi**

494.1. Şəxsin verilməsi xahişi ilə rəsmi müraciətdə zəruri olan bütün məlumatlar olmadıqda Azərbaycan Respublikasının sorğu edilən cinayət təqibi orqanı əlavə məlumatları 1 (bir) ayadək müddətə təqdim edilməsini tələb edə bilər. Bu müddət xarici dövlətin sorğu edən səlahiyyətli hakimiyyət orqanının vəsatəti əsasında daha 1 (bir) ayadək müddətə uzadıla bilər.

494.2. Həbsdə olan şəxsin verilməsi üçün xarici dövlətin sorğu edən səlahiyyətli hakimiyyət orqanı təyin edilmiş müddət ərzində əlavə məlumatları təqdim etmədikdə həmin şəxs Azərbaycan Respublikasının sorğu edilən cinayət təqibi orqanı tərəfindən azad edilir.

**Maddə 495. Verilməsi üçün şəxsin həbsə alınması**

495.1. Xarici dövlətin səlahiyyətli hakimiyyət orqanından hər hansı şəxsin verilməsi barədə xahişi və onun həbsə alınması haqqında qərarın surətini aldıqdan sonra Azərbaycan Respublikasının sorğu edilən cinayət təqibi orqanı zərurət olduqda və bu Məcəllənin müddəalarına riayət etməklə şəxsin verilməsi haqqında qərar qəbul edilənədək onun tutulması və həbsə alınması üçün tədbirlər görə bilər. *Həmin şəxsin barəsində həbs qətimkan tədbiri Azərbaycan Respublikasının sorğu edilən cinayət təqibi orqanının vəsatəti və Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən müvafiq səlahiyyət verilmiş prokurorun təqdimatı əsasında məhkəmə nəzarətini həyata keçirən məhkəmə tərəfindən tətbiq edilə bilər.*[689]

*495.2. Verilməsi üçün şəxsin həbsə alınması bu Məcəllənin 157-ci maddəsində nəzərdə tutulmuş qaydalara uyğun olaraq həyata keçirilir.*[690]

495.3. *Təxirəsalınmaz* hallarda Azərbaycan Respublikasının sorğu edilən cinayət təqibi orqanı bu Məcəllənin müddəalarına riayət etməklə xarici dövlətin sorğu edən səlahiyyətli hakimiyyət orqanının vəsatəti əsasında hüquqi yardım göstərilməsi qaydasında, həmçinin barəsində verilməsi xahişi ilə rəsmi müraciət daxil olmamış şəxsi də tutmaq səlahiyyətinə malikdir. Belə halda müvafiq vəsatət:[691]

495.3.1. əvvəlcədən poçt, teleqraf, teleks və ya telefaks vasitəsi ilə alınmalı;

495.3.2. həmin vəsatət həbsə alma haqqında qərara və ya qanuni qüvvəyə minmiş hökmə istinadı əks etdirməlidir;

495.3.3. şəxsin verilməsi xahişi ilə rəsmi müraciətin əlavə olaraq yaxın 48 saat müddətində təqdim ediləcəyini təsdiq etməlidir.

*495.3-1. Rəsmi müraciət alınanadək şəxsin həbsə alınması barədə xarici dövlətin sorğu edən səlahiyyətli hakimiyyət orqanının vəsatəti olduqda və ya alınmış rəsmi müraciətə həbsə alma haqqında qərarın təsdiq edilmiş surəti əlavə olunmadıqda şəxsin verilməsi üçün həbsə alınması yalnız onun verilməsi üçün kifayət qədər ciddi əsasların mövcudluğunun məlum olduğu hallarda mümkündür.*[692]

495.4. Azərbaycan Respublikasının cinayət təqibi orqanı şəxsin verilməsi xahişi barəsində rəsmi müraciət əsasında həmin şəxsin tutulması və ya həbs edilməsi, habelə belə müraciət alınanadək hüquqi yardım göstərilməsi qaydasında xarici dövlətin vəsatəti əsasında onun tutulması barədə dərhal xarici dövlətin sorğu edən səlahiyyətli hakimiyyət orqanını məlumatlandırır.

495.5. Bu Məcəllənin 495.1 və 495.3-cü maddələrinin müddəalarına müvafiq olaraq *tutulmuş* şəxs cinayət təqibi orqanlarının hərəkətlərindən şikayətlə məhkəməyə müraciət etmək hüququna malikdir. Həmin şikayətə bu Məcəllənin *449-451-ci* maddələrində müəyyən edilmiş qaydada baxılır.[693]

*495.6. Şəxsin cinayət təqibinin həyata keçirilməsi məqsədi ilə verilməsi üçün həbsə alınmasından şikayət verməsi və ona baxılması ilə bağlı məsələlər bu Məcəllənin 452-453-cü maddələrində müəyyən edilmiş qaydada həyata keçirilir.*

*495.7. Verilməsi üçün tutulmuş və həbs edilmiş şəxs, barəsində prosessual məcburiyyət tədbirləri tətbiq edilən şəxsin bu Məcəllə ilə müəyyən edilmiş hüquqlarına malikdir.*

*495.8. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa hal nəzərdə tutulmamışdırsa, verilməsi üçün şəxsin həbsə alınması müddəti bu Məcəllənin 158-ci maddəsində nəzərdə tutulmuş qaydada müəyyən edilir. Bu müddət şəxsin verilməsinə dair rəsmi müraciətə əlavə edilmiş həbsə alma haqqında qərarda nəzərdə tutulan müddətdən çox ola bilməz. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa hal nəzərdə tutulmamışdırsa, verilməsi üçün şəxsin həbsə alınması müddətinin uzadılması bu Məcəllənin 159-cu maddəsində nəzərdə tutulmuş qaydada həyata keçirilir.*[694]

**Maddə 496. Şəxsin verilməsi haqqında məsələnin həll edilməsi**

496.1. Azərbaycan Respublikasının ərazisində olan şəxs onun cinayət məsuliyyətinə cəlb edilməsi və ya hökmün icra edilməsi üçün bu Məcəllənin 496.2–496.7-ci maddələrində nəzərdə tutulmuş tələblərin yerinə yetirilməsinin zəruriliyi nəzərə alınmaqla Azərbaycan Respublikasının cinayət təqibi orqanı tərəfindən xarici dövlətin səlahiyyətli hakimiyyət orqanının həmin şəxsin verilməsi xahişi ilə rəsmi müraciəti əsasında verilir.

496.2. Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün verilməsi Azərbaycan Respublikasının və sorğu edən dövlətin qanunvericiliyi ilə cinayət qaydasında

cəzalandırılmalı olan və törədilməsinə görə 1 (bir) ildən az olmayan müddətə azadlıqdan məhrum etmə növündə və ya daha ağır cəzanın nəzərdə tutulduğu əməllərə görə həyata keçirilir.

496.3. Şəxsin hökmün icra edilməsi üçün verilməsi Azərbaycan Respublikasının və sorğu edən dövlətin qanunvericiliyi ilə cinayət qaydasında cəzalandırılmalı olan və törədilməsinə görə verilməsi sorğu edilən şəxsin 6 (altı) aydan az olmayan müddətə azadlıqdan məhrum etmə və ya daha ciddi cəzaya məhkum olunduğu əməllərə görə həyata keçirilir.

496.4. Aşağıdakı hallarda şəxs verilmir:

496.4.1. şəxsin verilməsi haqqında xahişin alındığı anda Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq cinayət məsuliyyətinə cəlb etmək üçün müddətin başa çatması və ya digər qanuni əsaslar nəticəsində cinayət təqibinin başlana və ya hökmün icra edilə bilməyəcəyi halda;

496.4.2. verilməsi xahiş olunan şəxs barəsində iş üzrə icraata xitam verilməsi haqqında qanuni qüvvəyə minmiş qərar olduqda;

496.4.3. Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq cinayət xüsusi ittiham qaydasında (zərər çəkmiş şəxsin şikayəti əsasında) təqib edildiyi halda;

*496.4.4. “Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş digər hallarda.*[695]

*496.5. Şəxsin verilməsi xahişi ilə müraciət etmiş xarici dövlətin sorğu edən səlahiyyətli hakimiyyət orqanı şəxsin verilməsi üçün zəruri məlumatları təqdim etmədikdə, habelə “Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş digər hallarda şəxsin verilməsindən imtina edilə bilər.*[696]

496.6. Verilməsi barədə sorğu edilən şəxs Azərbaycan Respublikasının ərazisində başqa cinayətin törədilməsinə görə cinayət məsuliyyətinə cəlb və ya məhkum edildikdə onun verilməsi cinayət təqibinə xitam verilənə, hökmün icra edilənə və ya cəzadan azad edilənədək təxirə salına bilər.

496.7. Şəxsin verilməsi xahişi ilə rəsmi müraciət bir neçə dövlətdən daxil olduqda, Azərbaycan Respublikasının sorğu edilən cinayət təqibi orqanı müraciətlərdən hansının ilk növbədə təmin edilməli olduğunu müstəqil həll edir.

**Maddə 497. Verilməsi xahişi ilə əlaqədar həbs edilmiş şəxsin azad edilməsi**

497.1. *Verilməsi məqsədi ilə tutulmuş şəxs tutulduğu andan 48 saat müddətində həbs edilmədikdə, yaxud bu* Məcəllənin 495.3-cü maddəsinə müvafiq olaraq tutulmuş şəxs *həmin müddətdə* Azərbaycan Respublikasının cinayət təqibi orqanına həmin şəxsin verilməsi xahişi ilə rəsmi müraciət daxil olmadığı halda azad edilməlidir.[697]

497.2. *Verilməsi* haqqında qərar qəbul edilənədək həbsə alınmış şəxs Azərbaycan Respublikasının cinayət təqibi orqanı onun verilməsinin qeyri-mümkünlüyü və ya verilməsindən imtina haqqında qərar qəbul etdikdə*, yaxud həbs qətimkan tədbirinin bu Məcəllə ilə müəyyən edilən müddəti başa çatdıqda və uzadılmadıqda* dərhal azad edilməlidir.[698]

**Maddə 498. Verilmiş şəxsin cinayət təqibinin hüdudları**

498.1. Azərbaycan Respublikasının sorğu edilən cinayət təqibi orqanının razılığı olmadan verilmiş şəxs onun verilməsindən əvvəl törədilmiş, lakin törədilməsinə görə verilmədiyi cinayətə görə cinayət məsuliyyətinə cəlb edilə və ya cəzalandırıla bilməz.

498.2. Azərbaycan Respublikasının sorğu edilən cinayət təqibi orqanının razılığı olmadan şəxs həmçinin üçüncü dövlətə verilə bilməz.

498.3. Verilmiş şəxs cinayət icraatı qurtardıqdan sonra 1 (bir) ay keçənədək, onun məhkum edildiyi halda isə cəzanın çəkilməsindən və ya ondan azad edilməsindən sonra 1 (bir) ay müddətində sorğu edən xarici dövlətin ərazisini tərk etmədikdə və ya oraya könüllü olaraq qayıtdıqda, Azərbaycan Respublikasının sorğu edilən cinayət təqibi orqanının razılığı tələb olunmur. Bu müddətə verilmiş şəxsin öz günahı olmadan sorğu edən xarici dövlətin ərazisini tərk edə bilmədiyi vaxt daxil edilmir.

**Maddə 499. Verilmiş şəxsin təhvil verilməsi**

499.1. Azərbaycan Respublikasının sorğu edilən cinayət təqibi orqanı verilmənin vaxtı və yeri haqqında xarici dövlətin sorğu edən səlahiyyətli hakimiyyət orqanına məlumat verir.

499.2. Xarici dövlətin sorğu edən səlahiyyətli hakimiyyət orqanı müəyyən edilmiş verilmə tarixindən sonra 15 (on beş) gün müddətində verilməli olan şəxsi qəbul etmədikdə həmin şəxs həbsdən azad edilməlidir.

**Maddə 500. Təkrar vermə**

Verilmiş şəxsin cinayət təqibindən və ya cəza çəkməkdən yayındığı və Azərbaycan

Respublikasının ərazisinə qayıtdığı halda, onun xarici dövlətin sorğu edən səlahiyyətli hakimiyyət orqanına təkrarən verilməsi bu Məcəllənin 493.2 və 493.3-cü maddələrində göstərilən materialların təqdim edilməsi tələbi irəli sürülmədən həyata keçirilir.

**Maddə 501. Tranzit daşıma**

501.1. Xarici dövlətin sorğu edən səlahiyyətli hakimiyyət orqanının vəsatəti əsasında Azərbaycan Respublikasının sorğu edilən cinayət təqibi orqanı üçüncü dövlətlər tərəfindən verilmiş şəxslərin öz ərazisi ilə tranzit daşınmasına icazə verir.

501.2. Belə daşımaya icazə verilməsi haqqında vəsatətə Azərbaycan Respublikasının cinayət təqibi orqanı tərəfindən şəxsin verilməsi xahişi ilə rəsmi müraciətin baxılması üçün müəyyən edilmiş qaydada baxılır.

501.3. Azərbaycan Respublikasının sorğu edilən cinayət təqibi orqanı tranzit daşımanı özünün ən məqsədəuyğun hesab etdiyi üsulla həyata keçirilməsinə icazə verir.

**Maddə 502. Cinayət təqibinin həyata keçirilməsi vəzifəsi**

502.1. Azərbaycan Respublikasının cinayət təqibi orqanı xarici dövlətin səlahiyyətli hakimiyyət orqanının rəsmi müraciəti əsasında sorğu edən dövlətin ərazisində cinayətin törədilməsində şübhəli olan Azərbaycan Respublikasının vətəndaşları barəsində Azərbaycan Respublikası qanunvericiliyinə müvafiq olaraq cinayət təqibini həyata keçirməlidir.

502.2. Xarici dövlətin səlahiyyətli hakimiyyət orqanının cinayət təqibinin həyata keçirilməsini xahiş etdiyi cinayət qaydasında cəzalandırılmalı olan şəxsin törətdiyi əməl həmin cinayətdən zərər çəkmiş şəxslərin mülki iddiaya səbəb olduqda, həmin iddiaya bu şəxslərin zərərin ödənilməsi haqqında vəsatətləri olduqda, iş üzrə icraat zamanı baxılır.

**Maddə 503. Cinayət təqibinin həyata keçirilməsi xahişi ilə rəsmi müraciətin məzmunu**

503.1. Cinayət təqibinin həyata keçirilməsi xahişi ilə rəsmi müraciətdə aşağıdakılar göstərilməlidir:

503.1.1. Azərbaycan Respublikasının sorğu edilən cinayət təqibi orqanının adı;

503.1.2. xarici dövlətin sorğu edən səlahiyyətli orqanının adı;

503.1.3. barəsində cinayət təqibinin həyata keçirilməsi xahiş olunan əməlin təfsiri;

503.1.4. əməlin törədilmə vaxtının və yerinin mümkün qədər dəqiq göstərilməsi;

503.1.5. sorğu edən xarici dövlətin əməlin cinayət hesab edilən cinayət qanununun müddəalarının, habelə iş üzrə icraat üçün mühüm əhəmiyyətə malik olan digər qanunvericilik normalarının mətni;

503.1.6. şübhəli şəxsin soyadı və adı, onun vətəndaşlığı, habelə onun şəxsiyyəti barəsində digər məlumatlar;

503.1.7. zərər çəkmiş şəxsin ərizəsi əsasında başlanan cinayət işləri üzrə zərər çəkmiş şəxslərin ərizələri və ziyanın ödənilməsi haqqında ərizələr;

503.1.8. cinayət nəticəsində vurulmuş zərərin məbləği.

503.2. Cinayət təqibinin həyata keçirilməsi xahişi ilə rəsmi müraciətə xarici dövlətin sorğu edən səlahiyyətli orqanının sərəncamında olan bütün sənədlər və sübutlar əlavə edilir.

503.3. Xarici dövlətin sorğu edən səlahiyyətli orqanı tərəfindən başlanmış cinayət işi göndərildikdə həmin iş üzrə araşdırma Azərbaycan Respublikasının sorğu edilən cinayət təqibi orqanı tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq davam etdirilir. Cinayət işində olan hər bir sənəd və sübutlar xarici dövlətin səlahiyyətli orqanının gerbli möhürü ilə təsdiq edilməlidir.

**Maddə 504. Cinayət təqibinin nəticələri barədə bildiriş**

Azərbaycan Respublikasının sorğu edilən cinayət təqibi orqanı cinayət işi üzrə yekun qərar barədə xarici dövlətin sorğu edən səlahiyyətli hakimiyyət orqanına məlumat verməlidir. Xarici dövlətin sorğu edən səlahiyyətli hakimiyyət orqanının xahişi ilə onun ünvanına həmçinin iş üzrə yekun qərarının surəti göndərilir.

**Maddə 505. Əşyaların verilməsi**

505.1. Azərbaycan Respublikasının sorğu edilən cinayət təqibi orqanı xarici dövlətin sorğu edən səlahiyyətli orqanının xahişi ilə aşağıdakı əşyaları verir:

505.1.1. şəxsin verilməsinə səbəb olan cinayətin törədilməsi zamanı istifadə edilən əşyalar, o cümlədən cinayətin aləti, cinayət nəticəsində əldə edilmiş və ya ona görə haqq kimi alınmış əşyalar, habelə bu qaydada əldə edilmiş əşyaların əvəzinə cinayətkarın aldığı əşyalar;

505.1.2. cinayət işində sübut əhəmiyyətinə malik ola biləcək əşyalar.

505.2. Bu Məcəllənin 505.1-ci maddəsində göstərilən əşyalar həmçinin şəxsin ölümü,

qaçması və ya digər hallarla əlaqədar onun verilməsi mümkün olmadıqda da verilir.

505.3. Bu Məcəllənin 505.1-ci maddəsində göstərilən əşyalar Azərbaycan Respublikasının sorğu edilən cinayət təqibi orqanına cinayət işi üzrə sübut kimi lazım olduqda onların verilməsi iş üzrə icraat qurtaranadək təxirə salına bilər.

505.4. Verilmiş əşyalara üçüncü şəxslərin hüququ qüvvədə qalır. İş üzrə icraat qurtardıqdan sonra bu əşyalar onları xarici dövlətin səlahiyyətli hakimiyyət orqanına vermiş Azərbaycan Respublikasının sorğu edilən cinayət təqibi orqanına əvəzsiz olaraq qaytarılmalıdır.

## LVIII fəsil

## Hökm və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında icraat

### Maddə 506. Hökm və ya məhkəmənin digər yekun qərarlarının icrasının cinayət cəzalarını *və cinayət-hüquqi xarakterli digər tədbirləri* icra edən müəssisə və orqanlar tərəfindən vaxtında və lazımınca təmin edilməsi üzrə məhkəmələrin vəzifələri[699]

506.0. Hökm və ya məhkəmənin digər yekun qərarlarını çıxarmış məhkəmələr (onların çıxarılması zamanı məhkəmə iclasında sədrlik edən hakimlər) aşağıdakı hərəkətləri yerinə yetirməlidirlər:

506.0.1. məhkəmələrin qanuni qüvvəyə minmiş hökmlərinin və ya digər yekun qərarlarının icrası barədə dərhal göstəriş vermək;

506.0.2. hökm və ya məhkəmənin digər yekun qərarlarının vaxtında və lazımınca icrası üzərində nəzarəti müvafiq müraciətlərə məhkəmə iclasında baxarkən həyata keçirmək;

506.0.3. hər hansı şəxs tərəfindən hökmün və ya məhkəmənin digər yekun qərarının icra edilməməsi və ya onların icrasına maneçilik törədilməsinin hər bir halına onları icra etməyən şəxs barəsində cinayət təqibinin başlanması məqsədi ilə prokurorun diqqətini cəlb etmək;

506.0.4. məhkumun*, barəsində cinayət-hüquqi tədbirlər tətbiq edilən hüquqi şəxsin nümayəndəsinin ərizəsinə və ya cəzanı və ya cinayət-hüquqi xarakterli digər tədbirləri* icra edən müəssisə, yaxud orqanın təqdimatına baxmaq, habelə öz təşəbbüsü ilə hökmün və ya məhkəmənin digər yekun qərarının icrası ilə bağlı bütün şübhə və anlaşılmazlıqları həll etmək; [700]

506.0.5. bu Məcəllədə nəzərdə tutulmuş digər səlahiyyətlərindən istifadə etmək.

### Maddə 507. Hökmün və ya məhkəmənin digər yekun qərarının icrası barədə hakimin göstərişi

507.1. Hökmün və ya məhkəmənin digər yekun qərarının icrası barədə hakimin göstərişi, bir qayda olaraq, məhkəmənin müvafiq hökmünün və ya qərarının qanuni qüvvəyə mindiyi andan təxirə salınmadan yerinə yetirilir.

507.2. Təqsirləndirilən şəxsə bəraət verilməsi və ya onun cəzadan azad edilməsi haqqında məhkəmənin hökmünün icrası barədə hakimin göstərişi hökm elan edildikdən dərhal sonra verilir. Belə halda məhkəmə iclası zalında olan təqsirləndirilən şəxs dərhal həbsdən azad edilir.

507.3. Hökm elan edildikdən sonra hakimin göstərişi ilə aşağıdakı hallarda təqsirləndirilən şəxs dərhal həbsdən azad edilir:

507.3.1. şəxs cəza təyin edilmədən məhkum edildikdə;

507.3.2. şəxs azadlıqdan məhrum etməyə şərti və ya hökmün icrası təxirə salınmaqla məhkum edildikdə;

507.3.3. şəxs azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzaya məhkum edildikdə;

507.3.4. şəxs tutulma və ya qətimkan tədbirinin tətbiq edilməsi nəticəsində həbsdə olduğu və ya apellyasiya, yaxud kassasiya qaydasında ləğv edilmiş qərar əsasında həmin cinayət işi üzrə cəza çəkdiyi müddəti aşmayan müddətə azadlıqdan məhrum etməyə məhkum edildikdə.

507.4. Hökmün və ya məhkəmənin digər yekun qərarının icra edilməsi haqqında hakimin göstərişi hökm və ya məhkəmənin digər yekun qərarının icraya yönəldilməsi vəzifəsi üzərinə qoyulmuş müəssisə və orqanların vəzifəli şəxslərinə göndərilir. Hakimin göstərişi ilə birlikdə, həmçinin məhkəmənin müvafiq hökmünün və ya digər yekun qərarının surəti göndərilir.

507.5. Hökmün icra edilməsi haqqında göstərişlə eyni zamanda hakim həbsdə olan və azadlıqdan məhrum etməyə məhkum edilmiş şəxsin razılığı ilə onun ailəsinə hökmün icraya yönəldilməsi barədə məlumat verir. [701]

*507.6. Hökmlə məhkumun xüsusi və ya hərbi rütbədən, fəxri addan, yaxud dövlət təltifindən məhrum edilməsi haqqında məsələ nəzərdə tutulduğu halda, hakim məhkumun müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilmiş ali xüsusi və ya ali hərbi rütbədən, yaxud fəxri addan və ya dövlət təltifindən məhrum edilməsi məsələsinə baxılması üçün bu barədə təqdimatı və məhkəmə hökmünün surətini müvafiq icra hakimiyyəti orqanına göndərir, digər dövlət orqanı tərəfindən verilmiş xüsusi və ya hərbi rütbədən, yaxud təltifdən məhrum edilməsi hallarında isə bu barədə məhkəmə*

*hökmünün surətini icra olunması üçün həmin orqana göndərir.*[702]

**Maddə 508. Hökmün və ya məhkəmənin digər yekun qərarlarının icrası sahəsində vəzifəli şəxslərin vəzifələri**

508.1. Müvafiq müəssisə və ya orqanların vəzifəli şəxsləri təxirə salınmadan hökm, yaxud məhkəmənin digər yekun qərarının lazımınca icrasını təmin etməli və onun icraya yönəldilməsi barədə göstəriş vermiş hakimə dərhal məlumat verməlidirlər.
508.2. Cəzanı icra edən müəssisə və ya orqanın vəzifəli şəxsləri hökmün və ya məhkəmənin digər yekun qərarının icrası barədə göstəriş vermiş hakimə, habelə məhkumun razılığı ilə onun ailəsinə və ya yaxın qohumlarından birinə, yaxud məhkumun göstərdiyi şəxsə cəzanın icrası, cəzanın çəkildiyi yer, məhkumun yerdəyişmələri və azad edilməsi barədə dərhal məlumat verir. [703]
508.3. Bu Məcəllənin 508.1 və 508.2-ci maddələrinin tələblərinə müvafiq olaraq hökmün və ya məhkəmənin digər yekun qərarının icrasından boyun qaçıran, yaxud onları lazımınca icra etməyən müvafiq orqanların vəzifəli şəxsləri Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş cinayət məsuliyyəti daşıyırlar.

**Maddə 509. Məhkəmə hökmünün icrası zamanı məhkumun hüquqlarının təmin edilməsi**

509.1. Məhkəmənin hökmü çıxarıldıqdan sonra onun icrası qurtaranadək məhkum edilmiş şəxs aşağıdakı məsələlərə dair ərizə ilə məhkəməyə müraciət etmək hüququna malikdir:
509.1.1. cəzanın çəkilməsinin təxirə salınması haqqında;
509.1.2. xəstəliyə və ya ittiham hökmünün icrası müddətinin başa çatmasına görə cəza çəkməkdən azad edilməsi haqqında;
509.1.3. cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi haqqında;
509.1.4. cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza ilə əvəz edilməsi haqqında;
509.1.5. cəzaçəkmə və ya tərbiyə müəssisələrinin növünün dəyişdirilməsi haqqında;
509.1.6. amnistiyanın tətbiq edilməməsi və ya düzgün tətbiq edilməməsi haqqında;
509.1.7. müalicə müəssisəsində saxlanılma vaxtının cəzaçəkmə müddətinə daxil edilməsi haqqında;
509.1.8. məhkumluğun vaxtından əvvəl götürülməsi haqqında;
509.1.9. bu Məcəllədə nəzərdə tutulmuş digər məsələlər haqqında.
509.2. Məhkumun bu Məcəllənin 509.1-ci maddəsində göstərilən ərizələrinə bu Məcəllənin 510–520-ci maddələrinə uyğun olaraq məhkəmə tərəfindən baxılır.
509.3. Məhkumun bu Məcəllənin 509.1-ci maddəsində göstərilən ərizələrinə məhkəmə tərəfindən baxılarkən məhkum, onun müdafiəçisi və ya qanuni nümayəndəsi aşağıdakı hüquqlara malikdir:
509.3.1. məhkəmə iclasında iştirak etmək;
509.3.2. sübutlar təqdim etmək;
509.3.3. vəsatətlər qaldırmaq və etirazlar etmək;
509.3.4. bütün materiallarla tanış olmaq.
509.4. Yetkinlik yaşına çatmayan və ya fiziki *pozuntulardan*, yaxud psixi xəstəliklərdən əzab çəkən şəxsin barəsində hökmlərin və ya məhkəmənin digər yekun qərarlarının icrasına dair bu Məcəllənin 509.1-ci maddəsində göstərilən məsələlərə dair həmin şəxsin əvəzinə onun qanuni nümayəndəsi və ya müdafiəçisi məhkəməyə ərizə ilə müraciət edə bilər. Belə halda məhkəmə tərəfindən bu ərizələrə baxılması zamanı göstərilən şəxsin qanuni nümayəndəsinin və ya müdafiəçisinin iştirakı məcburidir.[704]

**Maddə 510. Hökmün *və ya məhkəmənin digər yekun qərarının* icrasının təxirə salınması**[705]

510.1. Cinayət qanunu ilə nəzərdə tutulmuş hallarda hamilə və ya *on dörd yaşına qədər* uşağı olan məhkum edilmiş qadın, habelə *on dörd* yaşına çatmamış uşağını təkbaşına böyüdən kişi barəsində cəzanın çəkilməsi hökmü çıxarmış məhkəmə tərəfindən uşağın *on dörd* yaşı tamam olanadək təxirə salına bilər.[706]
510.2. Mülki iddia və ya zərərin digər formada ödənilməsinə dair məhkəmə hökmünün icrasının təxirə salınması haqqında məsələ işin konkret halları və məhkumun maddi vəziyyəti nəzərə alınmaqla məhkəmə tərəfindən həll edilir. [707]
510.3. Məhkum *və ya hüquqi şəxs* tərəfindən cərimənin 1 (bir) ay müddətində ödənilməsi mümkün olmadıqda, cərimənin ödənilməsi 6 (altı) ayadək müddətdə təxirə salına və ya müddəti göstərilməklə hissə-hissə ödənilə bilər. [708]
510.4. Bu Məcəllənin 510.1 və 510.3-cü maddələrində nəzərdə tutulmuş hallarda hökmün icrasının təxirə salınması məsələsinə məhkumun ərizəsi əsasında məhkəmə tərəfindən baxılır. *Bu Məcəllənin 510.3-cü maddəsində nəzərdə tutulmuş halda hüquqi şəxs barəsində cərimə növündə cinayət-hüquqi tədbirin tətbiq edilməsi haqqında məhkəmənin yekun qərarının icrasının təxirə salınması məsələsinə hüquqi şəxsin*

*nümayəndəsinin ərizəsi əsasında məhkəmə tərəfindən baxılır.* [709]

**Maddə 511. Xəstəliyə görə cəzanı çəkməkdən azad etmə**

511.1. Məhkumun cəzanın çəkilməsinə mane olan ağır xəstəliyə tutulduğu halda, cəzaçəkmə yeri üzrə birinci instansiya məhkəməsi cinayət qanununun müddəalarına müvafiq olaraq həkim komissiyasının rəyi əsasında həmin şəxsi cəza çəkməkdən azad edə bilər.
511.2. Məhkumun cəza çəkməkdən azad edilməsi haqqında məsələyə məhkumun, onun müdafiəçisinin və ya qanuni nümayəndəsinin ərizəsi, yaxud cəzaçəkmə müəssisəsi müdriyyətinin təqdimatı əsasında baxılır.
511.3. Psixi xəstəliyə tutulmuş məhkum cəzanı çəkməkdən azad edildiyi halda, məhkəmə onun barəsində tibbi xarakterli məcburi tədbirlər tətbiq etmək, yaxud onu *dövlət tibb müəssisələrinin* və ya qohumlarının himayəsinə vermək hüququna malikdir. [710]
511.4. Psixi xəstəliyə tutulmuş şəxslər istisna olmaqla ağır xəstəliyə tutulmuş şəxslərin cəzanı çəkməkdən azad edilməsi haqqında məsələni həll edərkən, məhkəmə törədilmiş cinayətin ağırlığını, məhkumun şəxsiyyətini və digər halları nəzərə alır.
511.5. Məhkəmə məhkumu xəstəliyinə görə cəzanı çəkməkdən azad edərkən, onu həm əsas, həm də əlavə cəzadan azad etmək hüququna malikdir.

***Maddə 511-1. Zərərçəkmiş şəxslə barışmaqla, cinayət nəticəsində vurulmuş ziyanı və ya əldə edilmiş gəliri tamamilə ödəməklə bağlı cəza çəkməkdən azad etmə***

*511-1.1. Məhkumun Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 80-1-ci maddəsinə müvafiq olaraq zərərçəkmiş şəxslə barışmaqla, cinayət nəticəsində vurulmuş ziyanı və ya əldə edilmiş gəliri tamamilə ödəməklə bağlı cəza çəkməkdən azad edilməsi haqqında məsələyə məhkumun, onun müdafiəçisinin və ya qanuni nümayəndəsinin ərizəsi, yaxud cəzanı icra edən müəssisə və ya orqanın təqdimatı əsasında cəzanın çəkildiyi yer üzrə birinci instansiya məhkəməsi tərəfindən baxılır.*
*511-1.2. Bu Məcəllənin 511-1.1-ci maddəsində göstərilən qaydada cəza çəkməkdən azad etmə zərərçəkmiş şəxsin və mülki iddiaçının notariat qaydasında təsdiq edilmiş ərizəsi və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 73-1.2 və 73-2.2-ci maddələri ilə müəyyən edilmiş məbləğin dövlət büdcəsinə ödənilməsini təsdiq edən müvafiq sənəd nəzərə alınmaqla tətbiq edilir. Zərərçəkmiş şəxs və mülki iddiaçının notariat qaydasında təsdiq edilmiş ərizəsi olmadığı hallarda həmin şəxslərin və ya onların qanuni nümayəndələrinin məhkəmə iclasında iştirakı məcburidir.* [711]

**Maddə 512. İttiham hökmünün icrası müddətinin başa çatmasına görə cəza çəkməkdən azad etmə, habelə cəzanın çəkilməsinin təxirə salınmasını ləğv etmə**

512.1. Cinayət qanununun müddəalarına müvafiq olaraq hökm çıxarmış məhkəmə ittiham hökmünün icrası müddətinin başa çatmasına görə məhkumu onun ərizəsi əsasında cəza çəkməkdən azad edir.
512.2. Cəzanın çəkilməsinin təxirə salınmasının ləğv edilməsi və məhkumun azadlıqdan məhrum etmə cəzasının çəkilməsi üçün göndərilməsi cəzaları icra edən müəssisə və ya orqanın təqdimatına əsasən cinayət qanununun müddəalarına müvafiq olaraq hökm çıxarmış məhkəmə tərəfindən həyata keçirilir.

**Maddə 513. Cəza çəkməkdən şərti olaraq vaxtından əvvəl azad etmə və cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza ilə əvəz etmə**

513.1. Cəza çəkməkdən şərti olaraq vaxtından əvvəl azad etmə və cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza ilə əvəz etmə məhkumun ərizəsi, *habelə yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın vəsatəti* əsasında cinayət qanununun müddəalarına müvafiq olaraq cinayət cəzalarını icra edən müəssisə və ya orqanın mülahizəsi nəzərə alınmaqla *cəzanın çəkildiyi yer üzrə birinci instansiya məhkəməsi* tərəfindən tətbiq olunur. [712]
513.2. Məhkəmə cəzanın çəkilməsindən şərti olaraq vaxtından əvvəl azad etmədən və ya cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza ilə əvəz etmədən imtina etdikdə, həmin məsələlər üzrə ərizənin və ya vəsatətin təkrarən baxılmasına müvafiq ərizənin təmin edilməsinin rədd edilməsi haqqında məhkəmə qərarı çıxarıldığı gündən azı 6 (altı) ay keçdikdən sonra yol verilir. *Ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxs barəsində eyni məzmunlu ərizənin məhkəmə tərəfindən rədd olunması hallarında isə təkrar ərizə belə qərarın çıxarıldığı gündən azı 1 (bir) il keçdikdə verilə bilər.* [713]

**Maddə 514. Cəzaçəkmə müəssisələrinin növünün dəyişdirilməsi**

514.1. Cəzaçəkmə müəssisələrinin növünün dəyişdirilməklə məhkumun bir növ cəzaçəkmə müəssisəsindən başqa növ cəzaçəkmə müəssəsinə keçirilməsi cinayət qanununun müddəalarına müvafiq olaraq məhkumun ərizəsi və ya cəzaçəkmə müəssisəsinin təqdimatı əsasında cəzaçəkmə

müəssisəsinin mülahizəsi nəzərə alınmaqla cəzanın çəkildiyi yer üzrə birinci instansiya məhkəməsi tərəfindən həyata keçirilir. [714]

514.2. Yetkinlik yaşına çatmayan məhkumun bir növ tərbiyə müəssisəsindən başqa növ tərbiyə müəssisəsinə və ya tərbiyə müəssisəsindən cəzaçəkmə müəssisəsinə keçirilməsi məhkumun qanuni nümayəndəsi və ya müdafiəçisinin ərizəsi və ya tərbiyə müəssisəsinin təqdimatı əsasında həyata keçirilir.

514.3. Məhkəmə cəzaçəkmə və ya tərbiyə müəssisəsinin növünün dəyişdirilməsindən imtina etdikdə belə müraciətə təkrarən baxılmasına müraciətin rədd edilməsi haqqında məhkəmə qərarı çıxarıldığı gündən azı 6 (altı) ay keçdikdən sonra yol verilir.

514.4. Yetkinlik yaşına çatmış məhkumun tərbiyə müəssisəsindən cəzaçəkmə müəssisəsinə keçirilməsi haqqında məsələni həll edərkən, məhkəmə onun islah olunmasını nəzərə almalıdır. Məhkum iyirmi yaşı tamam olanadək tərbiyə müəssisəsində saxlanıla bilər.

**Maddə 515. Məhkumun barəsində amnistiyanın tətbiq edilməsi**

515.1. Cəza çəkən məhkumun barəsində amnistiyanın tətbiqi cəzanı icra edən müəssisə və ya orqan tərəfindən amnistiya aktının müddəalarına uyğun həyata keçirilir.

515.2. Amnistiya aktının tətbiq edilməməsi və ya düzgün tətbiq edilməməsi haqqında məhkumun ərizəsinə amnistiya aktı və cinayət qanununun müddəalarına müvafiq olaraq cəzanı icra edən müəssisə və ya orqanın mülahizəsi nəzərə alınmaqla cəzanın çəkildiyi yer üzrə birinci instansiya məhkəməsi tərəfindən baxılır.

**Maddə 516. Müalicə müəssisəsində saxlama vaxtının cəzaçəkmə müddətinə daxil edilməsi**

Azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxs cəzaçəkmə müddətində cəzaçəkmə müəssisələrindən kənarda mühafizə altında müalicə müəssisəsinə yerləşdirildikdə, cəzanın çəkildiyi yer üzrə birinci instansiya məhkəməsi məhkumun ərizəsi əsasında məhkumun müalicə müəssisəsində saxlandığı vaxtı cəzaçəkmə müddətinə daxil edir.

**Maddə 517. Məhkumluğun vaxtından əvvəl götürülməsi**

517.1. Məhkumluğun vaxtından əvvəl götürülməsini aşağıdakı məhkəmələr həyata keçirir:

517.1.1. şərti məhkum edilmiş, ittiham hökmünün icrası müddətinin başa çatmasına görə cəzadan və ya cəzanı çəkməkdən azad edilmiş şəxslər barəsində—hökmü çıxarmış məhkəmə və ya yaşayış yeri üzrə birinci instansiya məhkəməsi;

517.1.2. xəstəliyə görə cəza çəkməkdən azad edilmiş və ya cəzanı çəkməkdən şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxslər barəsində—cəzanın çəkildiyi yer üzrə birinci instansiya məhkəməsi;

517.1.3. müxtəlif cəza növlərinə məhkum edilmiş digər şəxslər barəsində cəza çəkənin yaşayış yeri üzrə birinci instansiya məhkəməsi.

517.2. Məhkumluğun vaxtından əvvəl götürülməsi məhkəmə tərəfindən məhkumun ərizəsi, habelə yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın vəsatəti əsasında cinayət qanununun müddəalarına müvafiq olaraq həyata keçirilir. [715]

517.3. Məhkumluğun vaxtından əvvəl götürülməsi barədə məhkumun ərizəsinə, habelə yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın vəsatətinə məhkəmə tərəfindən cəzanı icra edən müəssisə və ya orqanın mülahizəsi nəzərə alınmaqla baxılır. [716]

**Maddə 518. Hökmün və ya məhkəmənin digər yekun qərarının icrası zamanı şübhələrin və anlaşılmazlıqların həll edilməsi**

518.0. Hökmü və ya digər yekun qərarını çıxarmış məhkəmə onun icrası zamanı yaranan aşağıdakı şübhə və anlaşılmazlıqları məhkumun *və ya barəsində cinayət-hüquqi tədbirlər tətbiq edilmiş hüquqi şəxsin nümayəndəsinin ərizəsi, cəzanı və ya cinayət-hüquqi xarakterli digər tədbirləri* icra edən müəssisə və ya orqanın təqdimatı əsasında, habelə öz təşəbbüsü ilə həll etmək hüququna malikdir: **[717]**

518.0.1. hökmlə müəyyən edilmədiyi halda cəzanın həddini, *hüquqi şəxslərə təyin edilmiş cinayət-hüquqi tədbirlərin növlərini və həddini* **[718]** dəqiq müəyyən etmək;

518.0.2. hökmlə müəyyən edilmədiyi halda azadlıqdan məhrum etmə növündə cəzanın çəkilməli olduğu cəzaçəkmə və ya tərbiyə müəssisəsinin növünü müəyyən etmək;

518.0.3. hökmlə həll edilmədiyi və ya anlaşılmazlıqla həll edildiyi halda qətimkan tədbiri, məhkəmə xərclərinin bölüşdürülməsi və ya maddi sübutların taleyi haqqında məsələləri həll etmək;

518.0.4. öz hökmünün və ya digər yekun qərarının başqa anlaşılmazlıqlarını aradan qaldırmaq. [719]

**Maddə 519. Cəzaları icra edən müəssisə və ya orqanların, habelə tibbi xarakterli məcburi tədbirləri həyata keçirən müəssisələrin təqdimatı (vəsatəti) əsasında hökmün və ya məhkəmənin digər yekun qərarının icrasına dair başqa məsələlərin həll edilməsi**[720]

519.1. Məhkumun yaşayış yeri üzrə məhkəmə cəzaları icra edən müəssisənin və ya orqanın təqdimatı əsasında hökmün və ya məhkəmənin digər yekun qərarının icrası ilə əlaqədar aşağıdakı məsələlərə baxır:

519.1.1. hökmün və ya məhkəmənin digər yekun qərarının icrasından boyun qaçıran şəxsə təyin olunmuş cəzanın digər cəza növü ilə əvəz edilməsi barədə;

519.1.2. şərti məhkumetmə zamanı sınaq müddətinin uzadılması, şərti məhkum edilmiş şəxsin üzərinə qoyulmuş vəzifələrin dəyişdirilməsi, habelə şərti məhkumetmənin və ya şərti olaraq vaxtından əvvəl azad etmənin ləğv edilməsi, məhkumun məhkəmənin hökmü ilə təyin edilmiş cəzanın çəkilməsi üçün göndərilməsi barədə;

519.1.2-1. azadlığın məhdudlaşdırılması növündə cəza çəkən məhkumun üzərinə əlavə vəzifələrin qoyulması və yaxud əvvəllər qoyulmuş vəzifələrin dəyişdirilməsi və ya ləğv edilməsi, habelə məhkumun yaşayış yerini dəyişdirməsinə icazə verilməsi barədə;[721]

519.1.3. cəzasının çəkilməsi təxirə salınmış məhkumun cəzadan azad edilməsi və ya belə məhkumun cəzasının çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi barədə;

519.1.4. cəzanın çəkilməsinin təxirə salınmasının ləğv edilməsi və məhkumun azadlıqdan məhrum etmə növündə cəzanın çəkilməsi üçün göndərilməsi barədə.

~~519.1.5. tibbi xarakterli məcburi tədbirlərin ləğv edilməsi barədə.~~[722]

519.2. Məhkumun yaşayış yeri üzrə məhkəmə bu Məcəllənin 152-ci maddəsinə uyğun olaraq cəzaları icra edən müəssisənin və ya orqanın vəsatəti və müvafiq ərazi üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında hökmün və ya məhkəmənin digər yekun qərarının icrası ilə əlaqədar aşağıdakı məsələlərə baxır: [723]

519.2.1. hökmün və ya məhkəmənin digər yekun qərarının icrasından boyun qaçıran şəxsin hökmün, yaxud məhkəmənin digər yekun qərarının icrası yerinə məcburi göndərilməsi və ya ona təyin olunmuş cəzanın müəyyən müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəz edilməsi məsələlərinin həlli üçün məhkumun tutulması barədə; [724]

519.2.2. şərti məhkumetmənin, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin və ya cəzanın çəkilməsinin təxirə salınmasının ləğv edilərək məhkumun məhkəmənin hökmü ilə təyin edilmiş müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzanın çəkilməsi üçün göndərilməsi məsələlərinin həlli üçün məhkumun tutulması barədə.[725]

519.2-1. Tibbi xarakterli məcburi tədbirlərin tətbiqi məsələlərinə dair cəzaçəkmə müəssisəsinin və ya məcburi müalicəni həyata keçirən tibb müəssisəsinin müraciəti aşağıdakı qaydada həll edilir:

519.2-1.1. psixi pozuntusu olan şəxslər barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiqinin uzadılması, dəyişdirilməsi və ya ləğv edilməsi məsələlərinə məcburi müalicəni həyata keçirən tibb müəssisəsinin müdiriyyətinin təqdimatı və həkim-psixiatr komissiyasının rəyi nəzərə alınmaqla həmin tədbirlərin tətbiq edildiyi yer üzrə birinci instansiya məhkəməsi tərəfindən baxılır;

519.2-1.2. ixtisaslaşdırılmış tibb müəssisələrində məcburi müalicədə olan narkoloji xəstələrin məcburi müalicədən vaxtından əvvəl azad edilməsi və ya məcburi müalicə müddətinin uzadılması məsələlərinə məcburi müalicəni həyata keçirən müəssisənin müdiriyyətinin təqdimatı və həkim-məsləhət komissiyasının rəyi nəzərə alınmaqla müəssisənin yerləşdiyi yer üzrə birinci instansiya məhkəməsi tərəfindən baxılır;

519.2-1.3. cəzaçəkmə müəssisələrində cəza çəkən narkoloji xəstə məhkumlar barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiqinin ləğv edilməsi məsələsinə məcburi müalicəni həyata keçirən cəzaçəkmə müəssisəsinin müdiriyyətinin təqdimatı və həkim-məsləhət komissiyasının rəyi nəzərə alınmaqla cəzanın çəkildiyi yer üzrə birinci instansiya məhkəməsi tərəfindən baxılır.[726]

519.3. Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma cəzasının vaxtında icrasına mane olan üzrlü səbəblər olduqda cəzanı icra edən orqanın təqdimatı əsasında əcnəbi və ya vətəndaşlığı olmayan şəxslərin saxlanıldığı yer üzrə birinci instansiya məhkəməsi həmin cəzanın Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsində müəyyən edilmiş icra müddətinin uzadılması məsələsinə baxır.

519.4. Qiyabi hökm və ya digər yekun qərar qanuni qüvvəyə mindikdən sonra barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxs könüllü gəldikdə və ya cəzanı icra edən orqanın sərəncamına verildikdə qiyabi hökm və ya digər yekun qərar çıxarmış məhkəmə cəzanı icra edən orqanın təqdimatı əsasında qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi məsələsinə baxır.[727]

**Maddə 520. Hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında məsələlərə dair müraciətlərə məhkəmə iclasında baxılması**

520.1. Hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında məsələlərə dair müraciətlərə onlar məhkəməyə daxil olduqdan sonra 10 (on) gündən gec olmayaraq məhkəmə iclasında baxılır.[728]

520.2. Hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında məsələlər üzrə məhkəmə iclasında iştirak etmək hüququna aşağıdakı şəxslər malikdirlər:

520.2.1. məhkum və onun müdafiəçisi və ya qanuni nümayəndəsi;

520.2.2. hökmün və ya məhkəmənin digər yekun qərarının icra edilməsi vəzifəsi üzərinə

qoyulmuş müəssisə və ya orqanın nümayəndəsi;

520.2.3. prokuror.

520.3. Bu Məcəllə ilə müəyyən edilmiş hallarda hökmün və ya məhkəmənin digər yekun qərarının icrası ilə əlaqədar məsələlərə baxılması üzrə məhkəmə iclasında müdafiəçinin iştirakı məcburidir.

520.4. Məhkumun xəstəliyə görə cəzadan azad edilməsi yaxud onun xəstəxanaya yerləşdirilməsi məsələsinə dair və məsələ mülki iddiaya aid olduqda, məhkəmə iclasına həmçinin müvafiq olaraq rəy vermiş həkim komissiyasının nümayəndəsi, mülki iddiaçı və ya onun nümayəndəsi çağırıla bilər. Hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında məsələlər üzrə hakim məhkəmə iclasında ifadələri dinləmək, müraciətdə göstərilən halları təsdiq və ya təkzib edən şəxsləri çağırıb dindirmək, müraciətin əsaslılığının yoxlanılması üçün zəruri olan sənəd və maddi sübutlar tələb etmək hüququna malikdir.

520.5. Müdafiəçinin iştirakı məcburi olan hallar istisna edilməklə hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında məsələlərə dair müraciətin baxılma yeri və vaxtı haqqında vaxtında məlumatlandırılmış bu Məcəllənin 520.2-ci maddəsində göstərilən şəxslərin məhkəmə iclasına gəlməməsi məhkəmə iclasının keçirilməsinə mane olmur.

520.6. Hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında məsələlər üzrə məhkəmə iclası aşağıdakı ardıcıllıqla aparılır:

520.6.1. hakim məhkəmə iclasını açır, baxılan müraciəti elan edir, məhkəmə iclası iştirakçılarının səlahiyyətlərini yoxlayır və onlara hüquq və vəzifələrini izah edir;

520.6.2. müraciət etmiş şəxs və ya onun nümayəndəsi müraciəti şifahi əsaslandırır, hakimin və məhkəmə iclasının digər iştirakçılarının suallarına cavab verir;

520.6.3. məhkəmə iclasında müraciətlə mənafeyinə toxunulan şəxslər, habelə onların müdafiəçiləri və nümayəndələri iştirak etdikdə, onlara izahat vermək və etirazlarını bildirmək imkanı yaradılır;

520.6.4. məhkəmə iclasında iştirak edən şəxslər baxılan məsələ üzrə çıxış edir və hakim onlara təqdim olunmuş sübutların tədqiqində iştirak etmək imkanı yaradır;

520.6.5. prokuror öz yekun sözündə məhkəməyə müraciətin təmin və ya rədd edilməsini təklif edir;

520.6.6. hakim bu Məcəllənin, Azərbaycan Respublikasının cinayət və digər qanunlarının tələblərinə müvafiq olaraq müraciətin təmin və ya rədd edilməsi barədə qərar çıxarır və onu iştirak edən şəxslərə *dərhal* elan edir. [729]

*520.6-1. Hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında məsələlərə dair məhkəmənin qərarı bu Məcəllənin 520.1-ci maddəsində göstərilən müddət daxilində çıxarılmalı və qərarın surəti elan edildiyi vaxtdan 3 (üç) gündən gec olmayaraq bu Məcəllənin 520.2-ci maddəsində göstərilən şəxslərə verilməlidir.*[730]

520.7. Hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında çıxarılmış məhkəmə qərarından bu Məcəllədə nəzərdə tutulmuş qaydada apellyasiya və ya kassasiya şikayəti yaxud protesti verilə bilər. [731]

***Maddə 521. Əmlakın müsadirəsi barədə Azərbaycan Respublikasında çıxarılmış hökm və ya digər yekun qərarların xarici ölkədə icrası***

*521.1. Xarici ölkədə yerləşən əmlakın müsadirəsi barədə Azərbaycan Respublikasında çıxarılmış hökm və ya digər yekun qərar qanuni qüvvəyə mindiyi tarixdən 5 gün müddətində həmin hökm və ya digər yekun qərarı çıxarmış məhkəmə tərəfindən müsadirə olunmalı əmlakın hüquqi yardım çərçivəsində xarici ölkədə müsadirə edilməsi və həmin əmlakın, yaxud onun dəyərinin ölkəyə qaytarılmasının təmin edilməsi məqsədilə cinayət işi üzrə bütün materiallarla birlikdə Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilir.*

*521.2. Azərbaycan Respublikasının Baş Prokurorluğu xarici ölkədə yerləşən əmlakın müsadirə edilməsi və həmin əmlakın, yaxud onun dəyərinin ölkəyə qaytarılması məqsədilə Azərbaycan Respublikasının qanunvericiliyinə və tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, o cümlədən əmlakın yerləşdiyi sorğu edilən ölkənin qanunvericiliyinə əsasən tələb olunan zəruri tədbirləri görməlidir.*[732]

## *LIX fəsil*[733]

## *Xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması üzrə icraat*

***Maddə 522. Xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması qaydası***

*522.1. Xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması xarici dövlətlərin müvafiq səlahiyyətli orqanının sorğusu əsasında, yaxud Azərbaycan Respublikasında həyata keçirilən cinayət təqibi ilə əlaqədar zərurət yarandıqda bu Məcəllənin 522 – 525-ci maddələri ilə müəyyən edilmiş qaydada həyata keçirilir.*[734]

*522.1-1. Xarici dövlətlərin müvafiq səlahiyyətli orqanının sorğusu əsasında xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması bununla bağlı Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilə mövcud olduğu halda həyata keçirilir. Belə beynəlxalq müqavilə olmadıqda xarici dövlətlərin məhkəmələrinin hökmləri və ya digər yekun qərarları qarşılıqlılıq prinsipinə riayət ediləcəyinə dair həmin dövlətin müvafiq səlahiyyətli orqanı tərəfindən təminat verildiyi halda tanına bilər.*

*522.2. Xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması üçün xarici dövlətin müvafiq səlahiyyətli orqanı Azərbaycan Respublikasının Baş Prokurorluğuna və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda müvafiq icra hakimiyyəti orqanına sorğu ilə rəsmi müraciət edir. Xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması ilə bağlı sorğunun daxil olduğu müvafiq icra hakimiyyəti orqanı və ya digər dövlət orqanları daxil olmuş belə sorğunu xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının bu Məcəllənin 522 – 525-ci maddələri ilə müəyyən edilmiş qaydada tanınması üzrə icraatın təmin edilməsi üçün Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərir.*

*522.3. Azərbaycan Respublikasının Baş Prokurorluğu xarici dövlətin müvafiq səlahiyyətli orqanının rəsmi müraciətinin bu Məcəllənin 523-cü maddəsində nəzərdə tutulmuş tələblərə cavab verib-verməməsini araşdırır və tələblərə riayət edilmədikdə əlavə məlumatların təqdim edilməsinə dair müraciət edir.*

*522.3-1. Azərbaycan Respublikasının Baş Prokurorluğu xarici dövlətin müvafiq səlahiyyətli orqanının sorğusu əsasında, yaxud Azərbaycan Respublikasında həyata keçirilən cinayət təqibi ilə əlaqədar zərurət yarandıqda xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması barədə bu Məcəllənin 522.6-cı maddəsində nəzərdə tutulmuş qaydada təqdimat verir.*[735]

*522.4. Xarici dövlətin müvafiq səlahiyyətli orqanının sorğusu əsasında bu Məcəllənin 522.3-1-ci maddəsində nəzərdə tutulan təqdimat aşağıdakı hallardan hər hansı biri mövcud olduqda verilir:*[736]

*522.4.1. barəsində hökm və ya digər yekun qərar çıxarılmış şəxs son 12 ayın əksər hissəsini Azərbaycan Respublikasında yaşamışdırsa;*

*522.4.2. barəsində xarici dövlətlərin məhkəmələrinin hökmünün və ya digər yekun qərarının çıxarıldığı şəxsin mənşə ölkəsi Azərbaycan Respublikasıdır və Azərbaycan Respublikası qeyd edilən hökmün və ya qərarın icrası niyyətindədirsə;*

*522.4.3. xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının Azərbaycan Respublikasında icrası məhkum edilmiş şəxsin sosial reabilitasiya imkanlarını gücləndirirsə;*

*522.4.4. barəsində xarici dövlətlərin məhkəmələrinin azadlıqdan məhrum etmə ilə bağlı hökm və ya digər yekun qərarının çıxarıldığı şəxs Azərbaycan Respublikasında azadlıqdan məhrum etmə ilə bağlı cəza çəkirsə;*

*522.4.5. xarici dövlətlərin məhkəmələri tərəfindən müsadirə edilməsi barədə hökm və ya digər yekun qərar çıxarılmış əmlak Azərbaycan Respublikasında yerləşirsə.*[737]

*522.5. Azərbaycan Respublikasının Baş Prokurorluğu bu Məcəllənin 522.4-cü maddəsində nəzərdə tutulmuş hallardan ən azı biri mövcud olmadıqda rəsmi müraciəti baxılmamış saxlayır və bu barədə sorğu verən xarici dövlətə məlumatın verilməsini təmin edir.*

*522.6. Azərbaycan Respublikasının Baş prokuroru və ya onun müavini xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması barədə təqdimatı, barəsində hökmün və ya digər yekun qərarın çıxarıldığı şəxsin sonuncu yaşayış yeri üzrə, bu məlum olmadıqda isə hökmün və qərarın tanınmasının hüquq və mənafelərinə təsir göstərə biləcəyi digər maraqlı şəxslərin sonuncu yaşayış yeri üzrə, hökmün və ya digər yekun qərarın icrası əmlakla bağlı olduqda isə həmin əmlakın yerləşdiyi yer üzrə apellyasiya instansiyası məhkəməsinə verir.*

***Maddə 523. Xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınmasına dair rəsmi müraciətin məzmunu***

*523.1. Xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınmasına dair rəsmi müraciətdə aşağıdakılar göstərilməlidir:*

*523.1.1. Azərbaycan Respublikasının sorğu edilən səlahiyyətli orqanının adı;*

*523.1.2. xarici dövlətin sorğu edən səlahiyyətli orqanının adı;*

*523.1.3. tanınması xahiş edilən hökmün və ya digər yekun qərarın xarici dövlətin məhkəməsi tərəfindən təsdiq edilmiş surəti;*

*523.1.4. tanınması xahiş edilən hökmün və ya digər yekun qərarın qanuni qüvvəyə minməsini təsdiq edən sənəd;*

*523.1.5. barəsində hökm və ya digər yekun qərar çıxarılmış şəxsin adı, atasının adı, soyadı və yaşayış yeri haqqında məlumatlar;*

*523.1.6. barəsində cinayət-hüquqi tədbirlər tətbiq edilmiş hüquqi şəxsin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, qeydiyyat nömrəsi, təsisçiləri və qanuni təmsilçiləri barədə məlumatlar;*

*523.1.7. cinayət tərkibinin əlamətləri, faktların təsviri və əməlin tövsifi, məhkum olmuş şəxsin əleyhinə olan sübutlar;*

*523.1.8. xarici dövlətin müvafiq cinayət qanununun mətni;*

*523.1.9. müsadirə edilməli olan əmlak mövcud olduqda onun barəsində ətraflı məlumat və onun müfəssəl təsviri, yerləşdiyi yer, əmlakı saxlayan, sahiblik edən, ondan istifadə edən şəxslər haqqında və əmlakın barəsində hökm və ya digər yekun qərar çıxarılmış şəxsə və törədilmiş cinayətə aidiyyəti barəsində ətraflı məlumat;*[738]

*523.1.10. cinayət nəticəsində vurulmuş ziyanın məbləği;*

*523.1.11. sorğu olunan iş üzrə əmlak üzərinə həbs qoyulması da daxil olmaqla əvvəllər hüquqi yardım göstərilmişdirsə, Azərbaycan Respublikasının hüquqi yardım göstərmiş orqanı və göstərilmiş hüquqi yardım haqqında ətraflı məlumat;*

*523.1.12. Azərbaycan Respublikasının ərazisindən kənarda şəxsə məxsus olduğu məlum olan bütün başqa əmlak barəsində qısa məlumat.*

*523.2. Əmlakın müsadirə edilməsi xahişi ilə rəsmi müraciətə məhkumun və qərarın tanınmasının hüquq və mənafelərinə təsir göstərə biləcəyi digər maraqlı şəxslərin Azərbaycan Respublikasında aparılan icraat və çıxarılacaq qərar barəsində məlumatlandırılacağına dair öhdəlik məktubu əlavə edilməlidir.*

***Maddə 524. Xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınmasına dair təqdimata baxılması qaydası***

*524.1. Xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınmasına dair təqdimata, bu Məcəllədə nəzərdə tutulmuş hallar istisna olmaqla açıq məhkəmə iclasında baxılır.*

*524.2. Məhkəmə iclasının vaxtı və yeri barədə Azərbaycan Respublikasının Baş Prokurorluğuna, habelə barəsində hökmün və ya digər yekun qərarın çıxarıldığı şəxslərə və ya hökmün və qərarın tanınmasının hüquq və mənafelərinə təsir göstərə biləcəyi digər maraqlı şəxslərə (onlar məlum olduqda) məlumat verilməlidir.*

*524.3. Bildiriş vərəqəsinin maraqlı şəxslərə verilməsi barədə məhkəmədə məlumat olarsa, həmin şəxsin üzrlü səbəblər olmadan məhkəməyə gəlməməsi təqdimata baxılmasına mane olmur. Əgər şəxs təqdimata baxılmasının başqa vaxta keçirilməsi barədə xahişlə məhkəməyə müraciət edərsə və həmin xahiş məhkəmə tərəfindən üzrlü hesab edilərsə, məhkəmə işə baxılmasını başqa vaxta keçirir və müraciət etmiş şəxsi yeni məhkəmə baxışının vaxtı barədə xəbərdar edir.*

*524.4. Xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması barədə təqdimata baxılmasının yeri və vaxtı haqqında, barəsində hökmün və ya digər yekun qərarın çıxarıldığı şəxslər, habelə həmin hökmün və ya qərarın tanınmasının hüquq və mənafelərinə təsir göstərə biləcəyi digər maraqlı şəxslər bilavasitə və ya sorğu edən dövlət vasitəsilə məlumatlandırılır.*

*524.5. Xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının Azərbaycan Respublikası ərazisində tanınmasından aşağıdakı hallarda imtina edilir:*

*524.5.1. xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması Azərbaycan Respublikasının Konstitusiyası, qanunları, beynəlxalq hüququn hamılıqla qəbul edilmiş normalarına və prinsiplərinə, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə zidd olduqda;*

*524.5.2. xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının qəbul edilməsi zamanı şəxsin minimal hüquqi müdafiə vasitələrindən istifadə etmək hüququ təmin edilmədikdə;*

*524.5.3. xarici dövlətlərin məhkəmələrinin hökmləri və ya digər yekun qərarları sorğu edən ölkənin qanunvericiliyinə əsasən qüvvəyə minmədikdə və ya onun mübahisələndirilməsi vasitələri tükənmədikdə;*

*524.5.4. "Cinayət işlərinə dair hüquqi yardım haqqında" Azərbaycan Respublikası Qanununun 3.1-ci maddəsi ilə nəzərdə tutulmuş hallar mövcud olduqda;*

*524.5.5. sorğu edilən şəxs barəsində eyni əməl üzrə Azərbaycan Respublikasının cinayət təqibi orqanının cinayət işinin xitam olunması və ya cinayət işinin başlanmasının rədd edilməsi haqqında ləğv edilməmiş qərarı, Azərbaycan Respublikası məhkəmələrinin qanuni qüvvəyə minmiş hökm və ya yekun qərarı olduqda və ya həmin şəxs barəsində həmin əməl üzrə cinayət təqibi aparıldıqda;*

*524.5.6. əmlakın müsadirə edilməsi ilə bağlı xarici dövlətin səlahiyyətli orqanının sorğusunda və ona əlavə edilən xarici dövlətlərin məhkəmələrinin hökmlərində və ya digər yekun qərarlarında əmlakın cinayət yolu ilə əldə edilməsinə və ya Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən xüsusi müsadirə edilməli olan digər əmlak olmasına dair sübutlar olmadıqda;*

~~*524.5.7. cinayət sorğu edən dövlətin hüdudlarından kənarda törədildikdə;*~~ [739]

*524.5.8. xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının Azərbaycan Respublikasında icrası qeyri-mümkün olduqda;*

*524.5.9. xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının sorğu edən dövlətin müvafiq səlahiyyətli orqanları tərəfindən icra edilməsi mümkün olduqda;*

*524.5.10. xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması ilə bağlı sorğu edən xarici dövlət tərəfindən qarşılıqlılıq prinsipinə riayət olunmadıqda;*

*524.5.11. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulan digər hallarda.*

*524.6. Məhkəmə iclasda iştirak edən şəxsləri dinlədikdən sonra xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tam və ya qismən tanınması, yaxud bundan imtina edilməsi barədə əsaslandırılmış qərar qəbul edir. Həmin qərar dərhal qüvvəyə minir. Xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması və icrasına dair qərar Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi ilə müəyyən edilmiş qaydada icra edilir.*

*524.7. Qərarın surəti onun çıxarıldığı gündən 3 gün müddətində Azərbaycan Respublikasının Baş Prokurorluğuna, habelə barəsində qərarın çıxarıldığı şəxsə və ya onun nümayəndəsinə, hökmün və ya digər yekun qərarın tanınmasının hüquq və mənafelərinə təsir göstərə biləcəyi digər maraqlı şəxslərə (məlum olduqda) bilavasitə və ya sorğu edən xarici dövlət vasitəsilə göndərilir.*

*524.8. Xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması və ya bundan imtina edilməsi barədə apellyasiya instansiyası məhkəməsinin qərarından Azərbaycan Respublikasının Baş prokuroru və ya onun müavini, barəsində hökmün və ya digər yekun qərarın çıxarıldığı şəxs, habelə qərarın tanınmasının hüquq və mənafelərinə təsir göstərə biləcəyi digər maraqlı şəxslər həmin qərarı aldığı vaxtdan 1 (bir) ay müddətində Azərbaycan Respublikasının Ali Məhkəməsinə şikayət və ya protest verə bilərlər.*

***Maddə 525. Əmlakın müsadirəsi barədə rəsmi müraciətə baxılmasının xüsusiyyətləri***

*525.1. Əmlakın müsadirəsi barədə xarici dövlətlərin məhkəməsi tərəfindən çıxarılmış qərar yalnız həmin qərarda nəzərdə tutulmuş əmlak Azərbaycan Respublikası ərazisində yerləşdikdə tanınır.*

*525.2. Azərbaycan Respublikasının milli, tarixi və mədəni irsini təşkil edən əşyalara münasibətdə əmlakın müsadirəsi barədə xarici dövlətlərin məhkəməsi tərəfindən çıxarılmış qərarlar tanına bilməz.*

*525.3. Əmlakın müsadirəsi barədə qərarın icrasına dair sorğu bu Məcəllənin 523.1.9-cu maddəsinin tələblərinə cavab vermirsə və Azərbaycan Respublikasında həyata keçirilən cinayət mühakimə icraatına xələl yetirə bilərsə, sorğu*

*edən tərəfə məlumat verilməklə müsadirə qərarının icrası təxirə salına bilər. Bu barədə xarici dövlətin müvafiq səlahiyyətli orqanına məlumat verilir.*

*525.4. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa qayda nəzərdə tutulmamışdırsa, müsadirə edilmiş əmlakın və ya onun dəyərinin məhkəmə və əmlakın saxlama məsrəfləri çıxıldıqdan sonra əlli faizi sorğu edən dövlətə qaytarılır, qalan hissəsi isə dövlət nəfinə keçirilir.*

*525.5. Bu Məcəllənin 525.4-cü maddəsi müsadirə edilmiş əmlakdan və ya onun dəyərindən zərər çəkmiş şəxsə vurulmuş ziyanın ödənilməsi və ya müsadirə edilmiş əmlakın qanuni sahibinə qaytarılması hallarına şamil edilmir. Bu fəslin müddəaları çərçivəsində zərər çəkmiş şəxsə vurulmuş ziyanın ödənilməsi və ya əmlakın qanuni sahibinə qaytarılması üçün əmlak və ya onun dəyəri məhkəmə və əmlakın saxlama məsrəfləri çıxılmaqla sorğu edən dövlətə tam həcmdə qaytarılır.*

*525.6. Şəxsin cinayət əməlinə görə məhkum edilməməsi əmlak müsadirəsi barədə xarici dövlətlərin məhkəmələrinin yekun qərarlarının tanınmasını istisna etmir.*[740]

## *LX fəsil*[741]

### *Terrorçuluğa və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində sanksiya tətbiq edilməli fiziki şəxslərin və qurumların ölkədaxili siyahıya daxil edilməsi üzrə icraat*

#### *Maddə 526. Terrorçuluğa və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində sanksiya tətbiq edilməli fiziki şəxslərin və qurumların ölkədaxili siyahıya daxil edilməsinin ümumi şərtləri*

*526.1. Bu Məcəllənin 526.2-ci maddəsində nəzərdə tutulmuş şəxslər və ya qurumlar bu Məcəllə ilə müəyyən edilmiş qaydada terrorçuluğa və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində sanksiya tətbiq edilməli fiziki şəxslərin və qurumların ölkədaxili siyahısına (bundan sonra – ölkədaxili siyahıya) daxil edilərək onların "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq aktivləri dondurulur, həmin şəxslərin və qurumların aktivlər, iqtisadi resurslar və ya maliyyə və digər əlaqəli xidmətlərlə təmin edilməsi qadağan edilir.*

*526.2. Aşağıdakı fiziki şəxslər və qurumlar ölkədaxili siyahıya daxil edilirlər:*

*526.2.1. terrorçuluq və terrorçuluğun maliyyələşdirilməsi əməllərinin törədilməsi, yaxud belə əməllərin törədilməsində hər hansı şəkildə iştirak etməsi və ya kömək göstərməsi, habelə həmin əməllərin törədilməsinə cəhd göstərməsi, terrorçu olması, terrorçu qrupun (dəstənin, təşkilatın) yaradılmasında və ya fəaliyyətində hər hansı formada iştirak etməsi ilə bağlı əsaslı şübhələr olan fiziki şəxslər və qurumlar;*

*526.2.2. bu Məcəllənin 526.2.1-ci maddəsində göstərilən fiziki şəxslərin və qurumların birbaşa və ya dolayı, təkbaşına və ya başqaları ilə birlikdə mülkiyyətində və ya nəzarətində olan qurumlar;*

*526.2.3. bu Məcəllənin 526.2.1-ci maddəsində göstərilən fiziki şəxslərin və qurumların adından, yaxud onların tapşırığı ilə fəaliyyət göstərən fiziki şəxslər və qurumlar.*

*526.3. Fiziki şəxslər və qurumlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təqdimatı əsasında məhkəmənin qərarı ilə ölkədaxili siyahıya daxil edilirlər.*

*526.4. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təqdimatı Azərbaycan Respublikasının Baş Prokurorluğunun, "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş nəzarət orqanlarının, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) və ya maliyyə monitorinqi orqanının əsaslandırılmış müraciəti, həmçinin xarici dövlətin səlahiyyətli orqanının sorğusu əsasında, habelə öz təşəbbüsü ilə verir.*

#### *Maddə 527. Fiziki şəxsin və ya qurumun ölkədaxili siyahıya daxil edilməsi barədə təqdimatın məzmunu*

*527.1. Fiziki şəxsin və ya qurumun ölkədaxili siyahıya daxil edilməsi barədə təqdimatda aşağıdakılar göstərilməlidir:*

*527.1.1. onun tərtib edildiyi tarix, vaxt və yer;*

*527.1.2. onu tərtib edən şəxsin soyadı, adı, atasının adı və vəzifəsi;*

*527.1.3. cinayət işi olduğu halda, onun nə vaxt, kim tərəfindən və nə ilə əlaqədar başlandığı;*

*527.1.4. ölkədaxili siyahıya daxil edilmə üçün əsas hesab edilən törədilmiş və ya hazırlanan cinayət haqqında məlumatlar;*

*527.1.5. fiziki şəxsin və ya qurumun ölkədaxili siyahıya daxil edilməsinin zəruriliyinin əsaslandırılması, ölkədaxili siyahıya daxil edilməsi üçün bu Məcəllənin 526.2-ci maddəsində nəzərdə tutulanlara aid olmasına dair məlumatlar;*

*527.1.6. fiziki şəxsin və ya qurumun ölkədaxili siyahıya daxil edilməsi ilə hansı nəticənin əldə edilməli olduğu və nə üçün həmin nəticənin digər üsul və vasitələrlə əldə edilməsinin mümkün olmadığı;*

*527.1.7. fiziki şəxsin və ya qurumun dəqiq müəyyənləşdirilməsi üçün aşağıdakı eyniləşdirmə məlumatları:*

*527.1.7.1. fiziki şəxslər üçün — soyadı, adı, atasının adı, doğum tarixi, doğum yeri, milliyyəti, vətəndaşlığı, cinsi, məşğuliyyəti (peşəsi), yaşayış yeri və olduğu yer, əvvəlki yaşayış ünvanları, ümumvətəndaş pasportu və şəxsiyyəti təsdiq edən sənədin nömrəsi, verilmə tarixi, qüvvədə olma müddəti, olduğu halda ləqəbləri, telefon nömrələri, elektron poçt ünvanları və vergi ödəyicisinin eyniləşdirmə nömrəsi;*

*527.1.7.2. hüquqi şəxslər üçün — adı, hüquqi ünvanı, törəmə hüquqi şəxsləri, filialları, nümayəndəlikləri, fəaliyyət sahəsi, sahibkarlıq fəaliyyət növü, rəhbərliyi, təsisçisi (təsisçiləri), vergi ödəyicisinin eyniləşdirmə nömrəsi, elektron poçt ünvanları, telefon nömrələri, əvvəlki adları və ya eyniləşdirmə məlumatları;*

*527.1.8. məsələyə dair qanuni və əsaslı qərarın qəbul edilməsi üçün zəruri olan digər məlumatlar.*

*527.2. Təqdimata fiziki şəxsin və ya qurumun ölkədaxili siyahıya daxil edilməsinin zəruriliyini əsaslandıran sənədlər əlavə edilməlidir. Təqdim olunmuş məlumat və sənədlər kifayət etmədikdə, məhkəmə onların tamamlanmasını tələb etmək hüququna malikdir.*

*527.3. Fiziki şəxs və ya qurum xarici dövlətin səlahiyyətli orqanının sorğusuna əsasən ölkədaxili siyahıya daxil edildikdə, sorğu edən dövlətin təqdim etdiyi məlumat və sənədlər (əsli və tərcüməsi) təqdimata əlavə edilməlidir.*

***Maddə 528. Fiziki şəxsin və ya qurumun ölkədaxili siyahıya daxil edilməsi barədə təqdimata baxılması qaydası***

*528.1. Fiziki şəxsin və ya qurumun ölkədaxili siyahıya daxil edilməsi barədə təqdimata müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yerləşdiyi yer üzrə rayon (şəhər) məhkəməsi tərəfindən, təqdimat məhkəməyə daxil olduqdan sonra 48 saat müddətində baxılır.*

*528.2. Məhkəmə iclasının vaxtı və yeri barədə təqdimat vermiş orqana (quruma), barəsində təqdimat verilmiş fiziki şəxsə və ya quruma, çıxarılacaq məhkəmə qərarının hüquq və mənafelərinə təsir göstərə biləcək digər maraqlı şəxslərə (onlar məlum olduqda), onların müdafiəçilərinə və ya qanuni nümayəndələrinə, habelə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora məlumat verilməlidir. Barəsində təqdimat verilmiş fiziki şəxs və ya qurum, eləcə də maraqlı şəxs məhkəmə iclasında iştirak edə, habelə onların qanuni mənafeyini təmsil etmək üçün notariat qaydasında təsdiq edilmiş etibarnaməsi olan vəkil vasitəsi ilə təmsil oluna bilərlər.*

*528.3. Təqdimata baxılma yeri və vaxtı barədə məlumatlandırılmış bu Məcəllənin 528.2-ci maddəsində göstərilən şəxsin və ya qurumun nümayəndəsinin məhkəmə iclasında iştirak etməməsi təqdimata baxılmasına mane olmur.*

*528.4. Məhkəmə təqdimatda göstərilən məlumatları təsdiq və ya təkzib edən şəxsi və ya qurumun nümayəndəsini dindirmək, müraciətin əsaslılığının yoxlanılması üçün zəruri olan sənəd və maddi sübutları tələb etmək hüququna malikdir.*

*528.5. Məhkəmə təqdimatın təmin edilməsi və ya rədd edilməsi barədə əsaslandırılmış qərar qəbul edir. Qərar dərhal qüvvəyə minir.*

*528.6. Qərarın surəti elan edildiyi vaxtdan 3 gün müddətində bu Məcəllənin 528.2-ci maddəsində göstərilən şəxslərə və qurumlara göndərilir.*

*528.7. Bu Məcəllənin 528.2-ci maddəsində göstərilən şəxslər və qurumlar məhkəmənin qərarından, qərarın alındığı vaxtdan 10 gün müddətində apellyasiya şikayəti (protesti) və apellyasiya instansiyası məhkəməsinin qərarından eyni qaydada kassasiya şikayəti (protesti) verə bilərlər. Qərardan şikayət verilməsi onun icrasını dayandırmır.*

*528.8. Apellyasiya və kassasiya instansiyası məhkəmələrində müvafiq olaraq apellyasiya və kassasiya şikayətlərinə və ya protestlərinə bu maddədə nəzərdə tutulmuş xüsusiyyətlər nəzərə alınmaqla bu Məcəllədə müəyyən edilmiş ümumi qaydada baxılır.*

*528.9. Təqdimatın təmin edilməsi barədə qərar "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 9.1-ci maddəsi ilə müəyyən edilmiş qaydada icra edilir və barəsində qərar qəbul edilmiş fiziki şəxs və ya qurum məlumatlandırılır.*

***Maddə 529. Fiziki şəxsin və ya qurumun ölkədaxili siyahıdan çıxarılması***

*529.1. Ölkədaxili siyahıya daxil edilmə üçün əsaslar aradan qalxdıqda, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təqdimatı və ya siyahıya daxil edilmiş fiziki şəxsin və ya qurumun, habelə həmin fiziki şəxsin və ya qurumun siyahıya daxil edilməsi nəticəsində hüquq və qanuni mənafelərinin pozulduğunu iddia edən maraqlı şəxsin müraciəti əsasında ölkədaxili siyahıya daxil edilmə barədə qərarı qəbul etmiş müvafiq məhkəmənin qərarı ilə fiziki şəxs və ya qurum ölkədaxili siyahıdan çıxarılır.*

*529.2. Ölkədaxili siyahıdan çıxarılma barədə təqdimatda və ya müraciətdə aşağıdakılar göstərilir:*

*529.2.1. onun tərtib edildiyi tarix, vaxt və yer;*

*529.2.2. onu tərtib edən şəxsin soyadı, adı, atasının adı və vəzifəsi;*

*529.2.3. siyahıdan çıxarılacaq fiziki şəxsin və ya qurumun eyniləşdirmə məlumatları;*

*529.2.4. ölkədaxili siyahıya daxil edilmə üçün əsasların aradan qalxdığını təsdiq edən məlumat;*

*529.2.5. məsələyə dair qanuni və əsaslı qərarın qəbul edilməsi üçün zəruri olan digər məlumatlar.*

*529.3. Təqdimat və ya müraciətə ölkədaxili siyahıya daxil edilmə üçün əsasların aradan qalxdığını təsdiq edən sənədlər, təqdimata isə həmçinin ölkədaxili siyahıya daxil edilmə barədə qərarın surəti əlavə edilir. Fiziki şəxs və ya qurum xarici dövlətin səlahiyyətli orqanının sorğusuna əsasən ölkədaxili siyahıya daxil edilibsə, sorğu göndərən dövlətin fiziki şəxsin və ya qurumun ölkədaxili siyahıdan çıxarılması ilə bağlı sorğusu da təqdimata əlavə edilir.*

*529.4. Ölkədaxili siyahıdan çıxarılma barədə təqdimat və ya müraciətə bu Məcəllənin 528-ci maddəsində müəyyən edilmiş qaydada baxılır.*

***Maddə 530. Fiziki şəxsin və ya qurumun ölkədaxili siyahıya daxil edilməsi və ya ölkədaxili siyahıdan çıxarılması barədə təkrar təqdimat və təkrar müraciətlərə baxılması***

*Fiziki şəxsin və ya qurumun ölkədaxili siyahıya daxil edilməsi və ya ölkədaxili siyahıdan çıxarılması barədə təqdimat və ya müraciətin təmin edilməməsi barədə hakim tərəfindən qərar çıxarıldıqdan sonra məhkəməyə təkrar müraciətə müvafiq olaraq ölkədaxili siyahıya daxil edilmənin və ya ölkədaxili siyahıdan çıxarılmanın zəruriliyini təsdiq edən yeni hallar aşkar edildikdə yol verilir.*

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 2 iyul 2001-ci il tarixli **172-IIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikasının**

Qanunvericilik Toplusu, 2001-ci il, № 7, maddə 455)**

2. 27 dekabr 2001-ci il tarixli **240-IIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 1, maddə 9)**

3. 16 aprel 2002-ci il tarixli **301-IIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 5, maddə 233)**

4. 2 iyul 2002-ci il tarixli **356-IIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 8, maddə 463)**

5. 20 iyun 2003-cü il tarixli **486-IIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 6, maddə 276**)

6. 4 may 2004-cü il tarixli **646-IIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 5, maddə 321)**

7. 30 aprel 2004-cü il tarixli 643-IIQD nömrəli “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Rspublikasının bəzi qanunvericilik aktlarının qüvvədən düşmüş hesab edilməsi və bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2004-cü il, № 7, maddə 505**)

8. 11 iyun 2004-cü il tarixli 688-IIQD nömrəli “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişiklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2004-cü il, № 8, maddə 598**)

9. 7 sentyabr 2004-cü il tarixli 731-IIQD nömrəli “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarında dəyişikliklər edilməsi və bəzi qanunvericilik aktlarının qüvvədən düşmüş hesab edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2004-cü il, № 10, maddə 761**)

10. 12 oktyabr 2004-cü il tarixli 770-IIQD nömrəli “Azərbaycan folkloru nümunələrinin qorunması haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə və Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əlavələr edilməsi barədə” AzərbaycanRespublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinə əlavə edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2004-cü il, № 11, maddə 890**)

11. 14 dekabr 2004-cü il tarixli 812-IIQD nömrəli “Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əlavə edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 1, maddə 4**)

12. 4 mart 2005-ci il tarixli 856-IIQD nömrəli “Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi və bəzi qanunvericilik aktlarının qüvvədən düşmüş hesab edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 4 maddə 278**)

13. 15 aprel 2005-ci il 885-IIQD nömrəli nömrəli “Məlumat toplularının hüquqi qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 6 maddə 462)**

14. 14 iyun 2005-ci il tarixli 939-IIQD nömrəli “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 8 maddə 686**)

15. 1 sentyabr 2005-ci il tarixli 980-IIQD nömrəli “Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 25 oktyabr 2005-ci il**)

16. 30 sentyabr 2005-ci il tarixli 1022-IIQD nömrəli “Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarınaəlavələr edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 12, maddə 1079**)

17. 30 dekabr 2005-ci il tarixli 51-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 1, maddə 3**)

18. 23 dekabr 2005-ci il tarixli **32-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 2, maddə 64**)

19. 7 aprel 2006-cı il tarixli 92-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu(**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 5, maddə 390**)

20. 10 oktyabr 2006-cı il **160-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2006-cı il, № 10, maddə847)**

21. 10 oktyabr 2006-cı il tarixli 162-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 11, maddə 929**)

22. 22 dekabr 2006-cı il tarixli 209-IIIQD nömrəli Qanun (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 12, maddə 1032**)

23. 5 dekabr 2006-cı il tarixli **192-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2007-ci il, № 2, maddə 65** )

24. 19 dekabr 2006-cı il tarixli 200-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 2, maddə 68**)

25. 17 aprel 2007-ci il 313-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının**

**qanunvericilik toplusu, 2007-ci il, № 6, maddə 560**)

26. 16 iyun 2007-ci il 385-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2007-ci il, № 7, maddə 712**)

27. 16 iyun 2007-ci il tarixli 389-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 8, maddə 756**)

28. 1 oktyabr 2007-ci il tarixli 424-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2007-ci il, № 11, maddə 1049**)

29. 25 dekabr 2007-ci il tarixli 522-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, №12, maddə 1221**)

30. 2 iyun 2008-ci il tarixli **618-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 6, maddə 462**)

31. 24 iyun 2008-ci il tarixli 656-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, №7, maddə 606**)

32. 24 iyun 2008-ci il tarixli 657-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, №7, maddə 607**)

[509] 14 iyun 2005-ci il 939-IIQD nömrəli “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 8, maddə 686**) ilə 392.4-cü maddənin birinci cümləsində "**20 (iyirmi) gün**" sözləri "**30 (otuz) gün**" sözləri ilə əvəz edilmiş və ikinci cümlə yeni redaksiyada verilmişdir. Əvvəlki redaksiyada deyilirdi:

~~392.4. Apellyasiya şikayəti və ya apellyasiya protesti məhkəməyə daxil olduğu vaxtdan 20 (iyirmi) gün müddətində apellyasiya instansiyası məhkəməsi onların baxışını təyin edir. Apellyasiya şikayəti və ya apellyasiya protesti üzrə baxışın təşkili xüsusilə mürəkkəb olduğu halda bu müddət apellyasiya instansiyası məhkəməsi sədrinin qərarı ilə 30 (otuz) günədək uzadıla bilər.~~

[510] 28 oktyabr 2008-ci il tarixli 705-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti 14 dekabr 2008-ci il, № 279, Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2008-ci il, № 12, maddə 1045**) ilə 394.1-ci maddədə **"hüquqlarını"** sözü **"hüquqları"** sözü ilə əvəz edilmişdir.

[511] 2 iyul 2001-ci il tarixli 172-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2001-ci il, № 7, maddə 455)** ilə 394.3.2-ci maddədə **"343-cü"** rəqəmi **"341-ci"** rəqəmi ilə əvəz edilmişdir.

[512] 2 iyul 2001-ci il tarixli 172-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2001-ci il, № 7, maddə 455)** ilə 394.4.1-ci maddədə "**343-cü"** rəqəmi **"341-ci"** rəqəmi ilə əvəz edilmişdir.

[513] 2 iyul 2001-ci il tarixli 172-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2001-ci il, № 7, maddə 455)** ilə 394.6-cı maddədə **"yekun"** sözündən əvvəl **"apellyasiya şikayəti və ya apellyasiya protestinin baxışını məhkəmə istintaqını aparmaqla keçirdikdə"** sözləri əlavə edilmişdir.

KM6 12 may 2009-cu il tarixli Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenimunun Qərarı **(“Respublika” qəzeti 4 iyul 2009-cu il, № 143)** ilə 1. Qanunverici tərəfindən Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsində müvafiq dəyişikliklər edilənə qədər bu Məcəllənin 397.1 və 397.2-ci maddələrinin tətbiqi zamanı aşağıdakılar nəzərə alınmalıdır:

a) apelyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsi tərəfindən cinayət və cinayət-prosessual qanunvericiliyinin normalarına riayət edilməsini hər bir halda, o cümlədən müvafiq olaraq apelyasiya şikayətinin və ya protestinin dəlillərində bu barədə tələb irəli sürülməsə də yoxlamalıdır;

b) cinayət və cinayət-prosessual qanunvericiliyinin normalarına riayət edilməsinin yoxlanılmasından sonra Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 403-405-ci maddələrində nəzərdə tutulmuş hallar və səbəblər müəyyən edildikdə:

apelyasiya icraatı məhkum edilmiş və ya bəraət almış şəxsin və ya onun müdafiəçisinin verdiyi apelyasiya şikayəti və yaxud mahiyyətcə həmin şəxslərdən hər hansı birinin xeyrinə dövlət ittihamçısının verdiyi apelyasiya protesti üzrə keçirilərsə, apelyasiya instansiyası məhkəməsi göstərilən şəxsin vəziyyətini yaxşılaşdırmaqla birinci instansiya məhkəməsinin yekun qərarını dəyişdirə və ya ləğv edərək yeni qərar qəbul edə bilər;

apelyasiya icraatı mahiyyətcə məhkum edilmiş və ya bəraət almış şəxsin ziyanına dövlət ittihamçısının verdiyi apelyasiya protesti və ya xüsusi ittihamçının verdiyi apelyasiya şikayəti üzrə keçirilərsə, apelyasiya instansiyası məhkəməsi apelyasiya müraciətinin dəlillərindən asılı olmayaraq birinci instansiya məhkəməsinin yekun qərarını məhkum edilmiş və ya bəraət almış şəxsin vəziyyətini ağırlaşdırmaqla da dəyişdirə və ya ləğv edərək yeni qərar qəbul edə bilər; lakin belə qərarın qəbul edilməsi üçün əsas apelyasiya müraciətinin dəlillərində göstərilməmişdirsə, qərar işə baxan apelyasiya instansiyası məhkəməsinin bütün hakimləri tərəfindən yalnız yekdilliklə qəbul oluna bilər.

[514] 14 iyun 2005-ci il 939-IIQD nömrəli "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 8, maddə 686**) ilə 397.3.1-ci maddədə "**təqdim edilməsini**" sözləri "**təqdim edilməməsini**" sözləri ilə əvəz edilmişdir.

[515] 2 iyul 2001-ci il tarixli 172-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2001-ci il, № 7, maddə 455**) ilə 398.1.2-ci maddədə **"yeni hökm çıxarmaq"** sözlərindən sonra **"birinci instansiya məhkəməsinin qərarını ləğv edərək yeni qərar qəbul etmək"** sözləri əlavə edilmişdir.

14 iyun 2005-ci il 939-IIQD nömrəli "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 8, maddə 686**) ilə 398.1.2-ci maddədə "**hökmünü**" sözündən sonra "**və ya qərarını**" sözləri, "**yeni hökm**" sözlərindən sonra isə "**və ya qərar**" sözləri əlavə edilmiş, **", birinci instansiya məhkəməsinin qərarını ləğv edərək yeni qərar qəbul etmək**" sözləri çıxarılmışdır. Əvvəlki redaksiyada deyilirdi:

~~398.1.2. birinci instansiya məhkəməsinin hökmünü ləğv edərək yeni hökm çıxarmaq, birinci instansiya məhkəməsinin qərarını ləğv edərək yeni qərar qəbul etmək;~~

[516] 29 noyabr 2016-cı il tarixli **436-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 16 dekabr 2016-cı il, № 279, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 12, maddə 2031**) ilə 401.1.4-cü maddədə nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 401.1.5-ci maddə əlavə edilmişdir.

[517] 29 noyabr 2016-cı il tarixli **436-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 16 dekabr 2016-cı il, № 279, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 12, maddə 2031**) ilə 405.2.2-ci maddədə nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 405.2.3-cü maddə əlavə edilmişdir.

[518] 14 iyun 2005-ci il 939-IIQD nömrəli "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 8, maddə 686**) ilə 406.3.4-cü maddədə "**Azərbaycan Respublikası Ali Məhkəməsinin sədrinə**" sözləri "**apellyasiya instansiyası məhkəməsi sədrinin vasitəsilə Məhkəmə-Hüquq Şurasına**" sözləri ilə əvəz edilmişdir.

[519] 25 iyun 2020-ci il tarixli **140-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 12 iyun 2020-ci il, № 134, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 852**) ilə 407.1-ci maddədə "**qərarı**" sözü "**qərarının giriş və nəticəvi hissəsi elan edilir. Həmin qərar**" sözləri ilə əvəz edilmişdir.

[520] 14 iyun 2005-ci il 939-IIQD nömrəli "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 8, maddə 686**) ilə 407.1.1-ci maddədə "**qanuni nümayəndəsinə,**" sözlərindən sonra "**dövlət ittihamçısına,**" sözləri əlavə edilmişdir.

25 iyun 2020-ci il tarixli **140-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 12 iyun 2020-ci il, № 134, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 852**) ilə 407.1.1-ci maddədə "**onun nümayəndəsinə**" sözləri "**mülki iddiaçı, mülki cavabdeh və onların nümayəndələrinə**" sözləri ilə əvəz edilmişdir.

[521] 13 fevral 2015-ci il tarixli **1194-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 5 aprel 2015-ci il, № 070; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 4, maddə 342**) ilə 408.1-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~408.1. Kassasiya şikayəti və ya kassasiya protesti bu Məcəllədə nəzərdə tutulmuş qaydada və hallarda məhkəmənin aşağıdakı hökm və qərarlarından verilə bilər:~~

~~408.1.1. apellyasiya instansiyası məhkəmələri tərəfindən çıxarılmış hökm və qərarlardan;~~

~~408.1.2. andlı iclasçıların iştirakı ilə birinci instansiya məhkəməsi tərəfindən çıxarılmış hökmlərdən.~~

[522] 10 iyun 2011-ci il tarixli **147-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti 02 iyul 2011-ci il №141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 06, maddə 480**) ilə 408.2.1-ci maddədə "**Ağır cinayətlərə dair işlər üzrə Naxçıvan Muxtar Respublikasının məhkəməsi**" sözləri

“**Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsi**” sözləri ilə əvəz edilmişdir və “**işləri üzrə məhkəmə**” sözləri çıxarılmışdır.

13 fevral 2015-ci il tarixli **1194-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 5 aprel 2015-ci il, № 070; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 4, maddə 342)** ilə 408.2.1 - 408.2.3-cü maddələr ləğv edilmişdir.

[523] 10 iyun 2011-ci il tarixli **147-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti 02 iyul 2011-ci il №141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 06, maddə 480)** ilə 408.2.2-ci maddədə “**Ağır cinayətlərə dair işlər üzrə Azərbaycan Respublikasının məhkəməsi**” sözləri “**ağır cinayətlər məhkəmələri**” sözləri ilə əvəz edilmişdir və “**işləri üzrə**” sözləri çıxarılmışdır.

[524] 10 iyun 2011-ci il tarixli **147-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti 02 iyul 2011-ci il №141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 06, maddə 480)** ilə 408.2.3-cü maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~408.2.3. andlı iclasçıların iştirakı ilə Ağır cinayətlərə dair Azərbaycan Respublikasının hərbi məhkəməsi və ya Naxçıvan Muxtar Respublikasının ərazisində Ağır cinayətlərə dair işlər üzrə hərbi məhkəmənin yurisdiksiyasını həyata keçirən hərbi məhkəmə tərəfindən çıxarılmış hökmlərdən - Azərbaycan Respublikası Ali Məhkəməsinin hərbi məhkəmələrin işləri üzrə məhkəmə kollegiyasına;~~

[525] 10 iyun 2011-ci il tarixli **147-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti 02 iyul 2011-ci il №141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 06, maddə 480)** ilə 408.2.4-cü maddədə “**işləri və inzibati xətalara dair işlər üzrə**” və “**işləri üzrə məhkəmə**” sözləri çıxarılmışdır.

[526] 10 iyun 2011-ci il tarixli **147-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti 02 iyul 2011-ci il №141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 06, maddə 480)** ilə 408.2.5-ci maddədə “**və inzibati xətalara dair işlər üzrə**” sözləri və “**işləri üzrə məhkəmə**” sözləri çıxarılmışdır.

9 iyul 2019-cu il tarixli **1634-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 21 iyul 2019-cu il, № 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 7, maddə 1198)** ilə 408.2.5-ci maddənin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilmişdir, 408.2.6-cı və 408.2.7-ci maddələr ləğv edilmişdir.

**[527]** 7 sentyabr 2004-cü il tarixli 731-IIQD nömrəli “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarında dəyişikliklər edilməsi və bəzi qanunvericilik aktlarının qüvvədən düşmüş hesab edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2004-ci il, № 10, maddə 761**) ilə 408.2.1-408.2.3-cü və 408.2.5-ci maddələrində **"hüquqpozmalara"** sözü **"xətalara"** sözü ilə əvəz edilmişdir.

16 iyun 2007-ci il 385-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2007-ci il, № 7, maddə 712**) ilə 408.2-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~408.2. Kassasiya şikayəti və ya kassasiya protesti aşağıdakı qaydada verilir:~~

~~408.2.1. andlı iclasçıların iştirakı ilə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin ağır cinayətlərə dair işlər üzrə kollegiyası tərəfindən çıxarılmış hökmlərdən—Azərbaycan Respublikası Ali Məhkəməsinin cinayət işləri və inzibati xətalara dair işlər üzrə məhkəmə kollegiyasına;~~

~~408.2.2. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət işləri üzrə və inzibati xətalara dair işlər üzrə kollegiyası tərəfindən çıxarılmış hökm və qərarlardan—Azərbaycan Respublikası Ali Məhkəməsinin cinayət işləri və inzibati xətalara dair işlər üzrə məhkəmə kollegiyasına;~~

~~408.2.3. andlı iclasçıların iştirakı ilə Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsi tərəfindən çıxarılmış hökmlərdən—Azərbaycan Respublikası Ali Məhkəməsinin cinayət işləri və inzibati xətalara dair işlər üzrə məhkəmə kollegiyasına;~~

~~408.2.4. andlı iclasçıların iştirakı ilə Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikasının Hərbi Məhkəməsi tərəfindən çıxarılmış hökmlərdən—Azərbaycan Respublikası Ali Məhkəməsinin hərbi məhkəmələrin işləri üzrə məhkəmə kollegiyasına;~~

~~408.2.5. Azərbaycan Respublikası Apellyasiya Məhkəməsinin cinayət işləri və inzibati xətalara dair işlər üzrə kollegiyası tərəfindən çıxarılmış hökm və qərarlardan—Azərbaycan Respublikası Ali Məhkəməsinin cinayət işləri və inzibati xətalara dair işlər üzrə məhkəmə kollegiyasına;~~

~~408.2.6. Azərbaycan Respublikası Apellyasiya Məhkəməsinin hərbi məhkəmələrin işləri üzrə kollegiyası tərəfindən çıxarılmış hökm və qərarlardan—Azərbaycan Respublikası Ali Məhkəməsinin hərbi məhkəmələrin işləri üzrə məhkəmə kollegiyasına.~~

10 iyun 2011-ci il tarixli **147-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti 02 iyul 2011-ci il №141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 06, maddə 480)** ilə 408.2.6-cı və 408.2.7-ci maddələrdə “**məhkəmələrin işləri üzrə**” və “**məhkəmələrin işləri üzrə məhkəmə**” sözləri çıxarılmışdır.

[528] 16 iyun 2007-ci il 385-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2007-ci il, № 7, maddə 712**) ilə 408.3-cü maddənin birinci cümlədə "**408.2.2, 408.2.5, 408.2.6**" rəqəmləri "**408.2.4 - 408.2.7**" rəqəmləri ilə əvəz edilmişdir.

16 iyun 2007-ci il 385-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2007-ci il, № 7, maddə 712**) ilə 408.3-cü maddənin ikinci cümlədə "**Azərbaycan**

**Respublikası Apellyasiya Məhkəməsinin sədri**" sözləri "**apellyasiya məhkəmələrinin sədrləri**" sözləri ilə əvəz edilmişdir.

25 iyun 2020-ci il tarixli **140-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 12 iyun 2020-ci il, № 134, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 852)** ilə 408.3-cü maddədə “**408.2.7**” rəqəmləri “**408.2.5**” rəqəmləri ilə əvəz edilmişdir.

[529] 14 iyun 2005-ci il 939-IIQD nömrəli “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 8, maddə 686**) ilə Məcəlləyə yeni 409.1.4-cü maddə əlavə edilmişdir.

22 dekabr 2006-cı il tarixli 209-IIIQD nömrəli Qanun (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 12, maddə 1032**) ilə yeni məzmunda 409.1.5-ci maddə əlavə edilmişdir.

[530] 29 noyabr 2016-cı il tarixli **436-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 16 dekabr 2016-cı il, № 279, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 12, maddə 2031)** ilə 409.1.5-ci maddədə nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 409.1.6-cı maddə əlavə edilmişdir.

[531] 11 dekabr 2012-ci il tarixli **492-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 8 fevral 2013-cü il, № 29; “Azərbaycan” qəzeti, 10 fevral 2013-cü il, № 31; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 02, maddə 77)** ilə 409.4-cü maddənin ikinci cümləsi çıxarılmışdır.

[532] 14 iyun 2005-ci il 939-IIQD nömrəli “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 8, maddə 686**) ilə Məcələyə yeni 409.6-cı maddə əlavə edilmiş, əvvəlki 409.6-cı və 409.7-ci maddələr isə müvafiq olaraq 409.7-ci və 409.8-ci maddələr hesab edilmişdir.

[533] 22 dekabr 2006-cı il tarixli 209-IIIQD nömrəli Qanun (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 12, maddə 1032**) ilə yeni məzmunda 409.7-ci maddə əlavə edilmişdir, 409.7-ci və 409.8- ci maddələr müvafiq olaraq 409.8-ci və 409.9-cu maddələr hesab edilmişdir.

[534] 29 noyabr 2016-cı il tarixli **436-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 16 dekabr 2016-cı il, № 279, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 12, maddə 2031)** ilə yeni məzmunda 409.7-1-ci maddə əlavə edilmişdir.

[535] 2 iyul 2001-ci il tarixli 172-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2001-ci il, № 7, maddə 455)** ilə 409.7-ci maddədə "**xəstəliyə tutulduqda və ya protest verməkdən qəsdən yayındıqda**" sözləri "**xəstəliyə tutulduqda, protest verməkdən yayındıqda və ya imtina etdikdə, habelə onun mövqeyi ilə razılaşmadıqda**" sözləri ilə əvəz edilmiş və maddəyə aşağıdakı cümlə əlavə edilmişdir:

"Apellyasiya instansiyası məhkəməsində cinayət işi və ya məhkəməyədək sadələşdirilmiş icraatın materiallarına bu Məcəllənin 392.2-ci maddəsinin tələblərinin ziddinə baxıldığı halda kassasiya protesti vermək hüququna Azərbaycan Respublikasının Baş prokuroru və ya onun müavini malikdir."

14 iyun 2005-ci il 939-IIQD nömrəli “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 8, maddə 686**) ilə 409.8-ci maddənin birinci cümlədə "**hissəsindən**" sözü "**hissədən**" sözü ilə əvəz edilmiş və ikinci cümlədə "**hökmdən kassasiya protesti vermək hüququna**" sözləri çıxarılmışdır.

10 oktyabr 2006-cı il **160-IIIQD** nömrəli Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinə əlavələr və dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2006-cı il, № 10, maddə 847)** ilə 409.8-ci maddənin ikinci cümləsində "Azərbaycan Respublikasının Baş prokuroru" sözlərindən sonra ", Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət işləri və inzibati xətalara dair işlər üzrə kollegiyası tərəfindən çıxarılmış hökm və ya qərarlardan həmçinin Naxçıvan Muxtar Respublikasının prokuroru" sözləri əlavə edilmişdir.

10 iyun 2011-ci il tarixli **147-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti 02 iyul 2011-ci il №141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 06, maddə 480)** ilə 409.9-cu maddənin ikinci cümləsində “**işləri və inzibati xətalara dair işlər üzrə**” sözləri çıxarılmışdır.

[536] 25 iyun 2020-ci il tarixli **140-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 12 iyun 2020-ci il, № 134, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 852)** ilə 410.1-ci maddəyə “**protesti**” sözündən sonra “**onu vermək hüququna malik olan şəxslər tərəfindən**” sözləri əlavə edilmişdir.

[537] 2 iyul 2001-ci il tarixli 172-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2001-ci il, № 7, maddə 455)** ilə 410.1.1-ci maddədə "**391.3-cü maddəsində**" sözləri "**391.3 və 520.7-ci maddələrində**" sözləri ilə əvəz edilmişdir.

29 noyabr 2016-cı il tarixli **439-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 14 dekabr 2016-cı il, № 277, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 12, maddə 2034)** ilə 410.1.1-ci maddəsində “**391.3**” rəqəmindən sonra “**(bu Məcəllənin 391.3.4-cü maddəsində nəzərdə tutulmuş qərar istisna olmaqla)**” sözləri əlavə edilmişdir.

25 iyun 2020-ci il tarixli **140-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 12 iyun**

**2020-ci il, № 134, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 852)** ilə 410.1.1-ci maddədə “**və 520.7-ci**” sözləri “**, 411.5, 520.7 və 524.8-ci**” sözləri ilə, “**vaxtdan**” sözü “**, bu Məcəllənin 410.1-1-ci maddəsində nəzərdə tutulmuş halda isə həmin şəxsə verildiyi gündən**” sözləri ilə əvəz edilmişdir.

[538] 25 iyun 2020-ci il tarixli **140-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 12 iyun 2020-ci il, № 134, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 852)** ilə 410.1.2-ci maddədə “**6 (altı)**” sözləri “**3 (üç)**” sözləri ilə əvəz edilmişdir.

[539] 25 iyun 2020-ci il tarixli **140-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 12 iyun 2020-ci il, № 134, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 852)** ilə 410.1.3-cü maddədə “**12 (on iki)**” sözləri “**6 (altı)**” sözləri ilə əvəz edilmişdir.

[540] 25 iyun 2020-ci il tarixli **140-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 12 iyun 2020-ci il, № 134, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 852)** ilə 410.1.4-cü maddədə “**gündən 18 (on səkkiz)**” sözləri “**, bu Məcəllənin 410.1-1-ci maddəsində nəzərdə tutulmuş halda isə həmin şəxsə verildiyi gündən 12 (on iki)**” sözləri ilə əvəz edilmişdir.

[541] 25 iyun 2020-ci il tarixli **140-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 12 iyun 2020-ci il, № 134, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 852)** ilə yeni məzmunda 410.1-1-ci maddə əlavə edilmişdir.

[542] 25 iyun 2020-ci il tarixli **140-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 12 iyun 2020-ci il, № 134, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 852)** ilə 411.1-ci maddədə “**kassasiya instansiyası**” sözləri “**apellyasiya instansiyası**” sözləri ilə əvəz edilmişdir.

[543] 25 iyun 2020-ci il tarixli **140-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 12 iyun 2020-ci il, № 134, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 852)** ilə 411.2-ci maddədə “**Kassasiya**” sözü “**Apellyasiya**” sözü ilə əvəz edilmişdir.

[544] 25 iyun 2020-ci il tarixli **140-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 12 iyun 2020-ci il, № 134, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 852)** ilə 411.2.2-ci maddəyə “**hadisə**” sözündən sonra “**və ya həmin şəxsin iradəsindən asılı olmayan digər hal**” sözləri əlavə edilmişdir.

**[545]** 14 iyun 2005-ci il 939-IIQD nömrəli “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 8, maddə 686**) ilə 411.1-ci, 411.2.1-ci, 411.2.2-ci və 411.4-cü maddələrdə "**409.1-ci**" sözləri "**409-cu**" sözləri ilə əvəz edilmişdir.
25 iyun 2020-ci il tarixli **140-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 12 iyun 2020-ci il, № 134, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 852)** ilə 411.3-cü və 411.4-cü maddələr yeni redaksiyada verilmişdir.
əvvəlki redaksiyada deyilirdi:
~~411.3. Kassasiya şikayəti və ya kassasiya protestinin verilməsi üçün buraxılmış müddətin bərpasının rədd edilməsi haqqında kassasiya instansiyası məhkəməsinin qərarı qətidir və ondan şikayət verilə bilməz.~~
~~411.4. Kassasiya şikayəti və ya kassasiya protestinin verilməsi üçün müddətin bərpa edilməsi, yaxud kassasiya şikayəti və ya kassasiya protestinin verilməsi üçün müddətin bərpasının rədd edilməsi haqqında kassasiya instansiyası məhkəməsinin qərarı haqqında bu Məcəllənin 409-cu maddəsində göstərilən şəxslərə məlumat verilir.~~

**[546]** 25 iyun 2020-ci il tarixli **140-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 12 iyun 2020-ci il, № 134, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 852)** ilə yeni məzmunda 411.5-ci və 411.6-cı maddələr əlavə edilmişdir.

**[547]** 25 iyun 2020-ci il tarixli **140-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 12 iyun 2020-ci il, № 134, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 852)** ilə 412.1-ci maddə yeni redaksiyada verilmişdir.
əvvəlki redaksiyada deyilirdi:
~~412.1. Kassasiya şikayəti və ya kassasiya protesti bilavasitə kassasiya instansiyası məhkəməsinə verilir. Kassasiya şikayəti və ya kassasiya protesti birinci və ya apellyasiya instansiyası məhkəməsinə verildikdə, o, həmin şikayəti və ya protesti kassasiya instansiyası məhkəməsinə göndərir.~~

**[548]** 25 iyun 2020-ci il tarixli **140-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 12 iyun 2020-ci il, № 134, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 852)** ilə 412.3-cü maddənin birinci cümləsi ləğv edilmişdir, ikinci cümlədən “**həmçinin**” sözü çıxarılmışdır.

**[549]** 25 iyun 2020-ci il tarixli **140-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 12 iyun 2020-ci il, № 134, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 852)** ilə 412.6-cı maddədə “**şikayətindən və ya kassasiya protestindən imtina haqqında apellyasiya instansiyası məhkəməsinə verilmiş ərizə**” sözləri “**şikayətinin və ya kassasiya protestinin geri götürülməsi haqqında müraciət**” sözləri ilə

əvəz edilmişdir.

[550] 25 iyun 2020-ci il tarixli **140-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 12 iyun 2020-ci il, № 134, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 852**) ilə 413.1.4-cü maddəyə “**qərarın**” sözündən sonra “**tarixi,**” sözü əlavə edilmişdir.

[551] 25 iyun 2020-ci il tarixli **140-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 12 iyun 2020-ci il, № 134, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 852**) ilə 414.2-ci maddədən “**və ya xüsusi ittiham qaydasında şikayət**” sözləri çıxarılmışdır.

[552] 13 fevral 2015-ci il tarixli **1194-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Respublika” qəzeti, 5 aprel 2015-ci il, № 070; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 4, maddə 342)** ilə 414.4-cü maddənin ikinci cümləsindən “**birinci, yaxud**” sözləri çıxarılmışdır.

[553] 13 fevral 2015-ci il tarixli **1194-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Respublika” qəzeti, 5 aprel 2015-ci il, № 070; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 4, maddə 342)** ilə 414.7-ci maddədən “**müvafiq olaraq birinci və ya**” sözləri çıxarılmışdır.

[554] 29 noyabr 2016-cı il tarixli **436-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 16 dekabr 2016-cı il, № 279, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 12, maddə 2031)** ilə yeni məzmunda 414.7-1-ci maddə əlavə edilmişdir.

[555] 14 iyun 2005-ci il 939-IIQD nömrəli “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 8, maddə 686**) ilə Məcəlləyə yeni 414.8-ci maddə əlavə edilmişdir.

[556] 25 iyun 2020-ci il tarixli **140-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 12 iyun 2020-ci il, № 134, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 852**) ilə 415.0-cı maddə 415.1-ci maddə hesab edilsin və həmin maddədə “**Kassasiya instansiyası**” sözləri “**Apellyasiya instansiyası**” sözləri ilə əvəz edilmişdir.

[557] 25 iyun 2020-ci il tarixli **140-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 12 iyun 2020-ci il, № 134, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 852**) ilə 415.1.3-cü maddə yeni redaksiyada verilmişdir.
əvvəlki redaksiyada deyilirdi:
~~415.1.3. həmin şəxs kassasiya şikayətinə və ya kassasiya protestinə məhkəmənin mübahisə edilən hökm və ya qərarının surətlərini əlavə etmədikdə;~~

[558] 25 iyun 2020-ci il tarixli **140-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 12 iyun 2020-ci il, № 134, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 852**) ilə 415.0.1 – 415.0.4-cü maddələr müvafiq olaraq 415.1.1 – 415.1.4-cü maddələr hesab edilmişdir.

[559] 25 iyun 2020-ci il tarixli **140-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 12 iyun 2020-ci il, № 134, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 852**) ilə yeni məzmunda 415.2-ci maddə əlavə edilmişdir.

[560] 13 fevral 2015-ci il tarixli **1194-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Respublika” qəzeti, 5 aprel 2015-ci il, № 070; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 4, maddə 342**) ilə 412.1-ci maddənin ikinci cümləsindən, 414.2-ci və 416.0-cı maddələrdən “**birinci və ya**” sözləri çıxarılmışdır.

29 noyabr 2019-cu il tarixli **1711-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 22 dekabr 2019-cu il, № 285, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 12, maddə 1898)** ilə 416.0-cı, 416.0.1 – 416.0.22-ci maddələr müvafiq olaraq 416.1-ci, 416.1.1 – 416.1.22-ci maddələr hesab edilmişdir.

[561] 13 fevral 2015-ci il tarixli **1194-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Respublika” qəzeti, 5 aprel 2015-ci il, № 070; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 4, maddə 342)** ilə 416.0.9-cu maddədən “**və ya andlı iclasçıların verdiktinə uyğun olaraq güzəşt edib yolverilməz**” sözləri çıxarılmışdır.

[562] 13 fevral 2015-ci il tarixli **1194-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Respublika” qəzeti, 5 aprel 2015-ci il, № 070; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 4, maddə 342)** ilə 416.0.17-ci maddədə “**107-118**” rəqəmləri “**107-109, 112-118**” rəqəmləri ilə əvəz edilmişdir.

[563] 29 noyabr 2019-cu il tarixli **1711-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 22 dekabr 2019-cu il, № 285, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 12, maddə 1898)** ilə 416.0.21-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 416.0.22-ci maddə əlavə edilmişdir.

[564] 29 noyabr 2019-cu il tarixli **1711-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 22 dekabr 2019-cu il, № 285, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 12, maddə 1898)** ilə yeni məzmunda 416.2-ci maddə əlavə edilmişdir.

[565] 14 iyun 2005-ci il 939-IIQD nömrəli “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 8, maddə 686**) ilə 417.1-ci maddədə "**409.1-ci**" sözləri "**409-cu**" sözləri ilə əvəz edilmişdir.

25 iyun 2020-ci il tarixli **140-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 12 iyun 2020-ci il, № 134, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 852)** ilə 417.1-ci və 417.2-ci maddələrdə “**kassasiya instansiyası**” sözləri “**apellyasiya instansiyası**” sözləri ilə əvəz edilmişdir.

[566] 25 iyun 2020-ci il tarixli **140-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 12 iyun 2020-ci il, № 134, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 852)** ilə 417.3-cü maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~417.3. Kassasiya şikayətinə və ya kassasiya protestinə etirazlar bilavasitə kassasiya instansiyası məhkəməsinə verilir.~~

[567] 25 iyun 2020-ci il tarixli **140-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 12 iyun 2020-ci il, № 134, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 852)** ilə 418.2.2-ci maddədə “**yetirilməsini təmin edir**” sözləri “**yetirilib-yetirilmədiyini müəyyən edir**” sözləri ilə əvəz edilmişdir.

[568] 2 iyul 2001-ci il tarixli 172-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2001-ci il, № 7, maddə 455)** ilə 418.2.3-cü maddədən "**kassasiya şikayətinin və ya kassasiya protestinin məzmunu onda məhkəmənin mübahisə edilən hökm və ya qərarının qanuniliyinə və əsaslılığına şübhə yaratdıqda**" sözləri çıxarılmışdır. Maddənin əvvəlki redaksiyasında seyilirdi:

~~418.2.3. kassasiya şikayətinin və ya kassasiya protestinin məzmunu onda məhkəmənin mübahisə edilən hökm və ya qərarının qanuniliyinə və əsaslılığına şübhə yaratdıqda cinayət işi, əhkəməyədək sadələşdirilmiş icraatın materiallarının və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatın materiallarının tələb edilməsi barədə qərar qəbul edir və onun icrasını təmin edir;~~

25 iyun 2020-ci il tarixli **140-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 12 iyun 2020-ci il, № 134, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 852)** ilə 418.2.3-cü və 418.4-cü maddələr ləğv edilmişdir.

[569] 2 iyul 2001-ci il tarixli 172-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2001-ci il, № 7, maddə 455)** ilə 418.2.5-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~418.2.5. məhkəmənin qanuni qüvvəyə minmiş hökm və ya qərarına yenidən baxılması məsələsinə dair (barəsində mübahisə edilən hökm və ya qərarın kassasiya qaydasında yenidən baxılması üçün əsasların olub-olmaması barədə) rəy hazırlayır;~~

[570] 25 iyun 2020-ci il tarixli **140-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 12 iyun 2020-ci il, № 134, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 852)** ilə 418.3-cü maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiayada deyilridi:

~~418.3. Kassasiya şikayəti və ya kassasiya protesti vermiş şəxs bu Məcəllənin 415-ci maddəsində nəzərdə tutulmuş tələbləri yerinə yetirmədikdə kassasiya instansiyası məhkəməsinin hakimi aşağıdakı hüquqlara malikdir:~~

~~418.3.1. öz qərarı ilə kassasiya şikayətini və ya kassasiya protestini hərəkətsiz saxlamaq;~~

~~418.3.2. həmin tələblərin yerinə yetirilməsi üçün 10 (on) gündən 20 (iyirmi) günədək vaxt vermək.~~

[571] 29 iyun 2018-ci il tarixli **1205-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 15 iyul 2018-ci il, № 155, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 7, I kitab, maddə 1421)** ilə 419.1-ci maddədə “**baxaraq**” sözündən sonra “**müraciətin dəlillərindən asılı olmayaraq**” sözləri əlavə edilsin və yeni məzmunda ikinci cümlə əlavə edilmişdir.

[572] 13 fevral 2015-ci il tarixli **1194-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Respublika” qəzeti, 5 aprel 2015-ci il, № 070; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 4, maddə 342)** ilə 419.7-ci maddədən “**müvafiq olaraq birinci və ya** ” sözləri çıxarılmışdır.

[573] 2 iyul 2001-ci il tarixli 172-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2001-ci il, № 7, maddə 455)** ilə 419.10-cu maddədə "**apararaq**" sözündən sonra "**və ya məhkəmənin müşavirə otağında**" sözləri əlavə edilmişdir.

[574] 13 fevral 2015-ci il tarixli **1194-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Respublika” qəzeti, 5 aprel 2015-ci il, № 070; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 4, maddə 342)** ilə 419.10.1-ci maddədən “**müvafiq olaraq birinci və**” sözləri çıxarılmışdır.

[575] 13 fevral 2015-ci il tarixli **1194-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Respublika” qəzeti, 5 aprel 2015-ci il, № 070; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 4, maddə 342**) ilə 419.10.2-ci maddədən “**andlı iclasçıların iştirakı ilə birinci instansiya məhkəməsində və ya**” sözləri çıxarılmışdır.

[576] 13 fevral 2015-ci il tarixli **1194-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Respublika” qəzeti, 5 aprel 2015-ci il, № 070; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 4, maddə 342**) ilə 419.10.4-cü maddədən “**müvafiq olaraq birinci və ya**” sözləri çıxarılmışdır.

[577] 29 iyun 2018-ci il tarixli **1205-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 15 iyul 2018-ci il, № 155, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 7, I kitab, maddə 1421**) ilə 419.10.4-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 419.10.5-ci maddə əlavə edilmişdir.

[578] 13 fevral 2015-ci il tarixli **1194-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Respublika” qəzeti, 5 aprel 2015-ci il, № 070; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 4, maddə 342**) ilə 419.12-ci maddədən “**müvafiq olaraq birinci və ya**” sözləri çıxarılmışdır.

[579] 13 fevral 2015-ci il tarixli **1194-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Respublika” qəzeti, 5 aprel 2015-ci il, № 070; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 4, maddə 342**) ilə 419.12.4-cü maddədən “**müvafiq olaraq birinci və ya**” sözləri çıxarılmışdır.

[580] 13 fevral 2015-ci il tarixli **1194-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Respublika” qəzeti, 5 aprel 2015-ci il, № 070; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 4, maddə 342**) ilə 419.12.5-ci maddədən “**müvafiq olaraq birinci və ya**” sözləri çıxarılmışdır.

[581] 14 iyun 2005-ci il 939-IIQD nömrəli “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 8, maddə 686**) ilə Məcəlləyə yeni 419.15-ci maddə əlavə edilmişdir.

[582] 29 noyabr 2019-cu il tarixli **1711-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 22 dekabr 2019-cu il, № 285, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 12, maddə 1898**) ilə yeni məzmunda 419-1-ci maddə əlavə edilmişdir.

[583] 13 fevral 2015-ci il tarixli **1194-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Respublika” qəzeti, 5 aprel 2015-ci il, № 070; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 4, maddə 342**) ilə 420-ci maddənin mətni yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~420.1. Məhkəmənin hökmü və ya qərarı kassasiya qaydasında ləğv edildikdən sonra:~~

~~420.1.1. birinci instansiya məhkəməsində andlı iclasçıların iştirakı ilə cinayət işinin yenidən baxılması bu Məcəllənin 298–380-ci maddələrinin müddəalarına müvafiq olaraq aparılır;~~

~~420.1.2. apellyasiya instansiyası məhkəməsində cinayət işinin; məhkəməyədək sadələşdirilmiş icraat materiallarının və ya xüsusi ittiham qaydasında şikayətin yenidən baxılması bu Məcəllənin 381–407-ci maddələrinin müddəalarına müvafiq olaraq aparılır.~~

~~420.2. İşə andlı iclasçıların iştirakı ilə birinci instansiya məhkəməsi tərəfindən yenidən baxılması zamanı cəzanın ağırlaşdırılmasına və ya daha ağır cinayət haqqında qanunun tətbiq edilməsinə ilkin hökmün dövlət ittihamçısının kassasiya protesti və ya zərər çəkmiş şəxsin, yaxud onun nümayəndəsinin kassasiya şikayəti əsasında ləğv edildiyi halda yol verilir.~~[583]

~~420.3. Cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət apellyasiya instansiyası məhkəməsinə yeni məhkəmə baxışına göndərilərkən məhkumun vəziyyətini pisləşdirən qərar yalnız bu Məcəllənin 420.2-ci maddəsində göstərilən hallarda qəbul edilə bilər.~~[KMQ2]

[584] 25 iyun 2020-ci il tarixli **140-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 12 iyun 2020-ci il, № 134, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 852**) ilə 421.1.1-ci maddədən “**418.2.3,**” və “**418.4,**” rəqəmləri çıxarılmışdır.

[585] 29 noyabr 2019-cu il tarixli **1711-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 22 dekabr 2019-cu il, № 285, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 12, maddə 1898**) ilə 421.1.3-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 421.1.4-cü maddə əlavə edilmişdir.

[586] 11 iyun 2004-cü il tarixli 688-IIQD nömrəli “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişiklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2004-ci il, № 8, maddə 598**) ilə 421.2-ci maddə çıxarılmışdır. Əvvəlki redaksiyada deyilirdi:

~~421.2. Əlavə kassasiya qaydasında təqdimat həmçinin birinci, apellyasiya və ya kassasiya instansiyası məhkəməsinin qanuni qüvvəyə minmiş hökm və ya qərarının Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi~~

~~tərəfindən Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olmayan hesab edilmiş normativ hüquqi aktı əsasında çıxarıldığı halda da verilə bilər.~~

[587] 16 iyun 2007-ci il 385-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2007-ci il, № 7, maddə 712**) ilə 422.1-ci maddədə "**Azərbaycan Respublikası Apellyasiya Məhkəməsinin sədrinin**" sözləri "**apellyasiya məhkəmələrinin sədrlərinin**" sözləri ilə əvəz edilmişdir.

[588] 10 iyun 2011-ci il tarixli **156-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 31 iyul 2011-ci il, № 166, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 07, maddə 599)** ilə 422.3-cü maddədə “**yalnız məhkum**” sözləri “**zərər çəkmiş şəxs, mülki iddiaçı və ya onların nümayəndələri, məhkum**” sözləri ilə əvəz edilmişdir.

11 dekabr 2012-ci il tarixli **492-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 8 fevral 2013-cü il, № 29; “Azərbaycan” qəzeti, 10 fevral 2013-cü il, № 31; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 02, maddə 77)** ilə 422.3-cü maddədə “**mülki iddiaçı**” sözlərindən sonra “**, mülki cavabdeh**” sözləri əlavə edilmişdir.

29 noyabr 2016-cı il tarixli **436-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 16 dekabr 2016-cı il, № 279, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 12, maddə 2031)** ilə 422.3-cü maddədə “**nümayəndələri**,” sözündən sonra “**barəsində cinayət-hüquqi tədbirlər tətbiq edilmiş hüquqi şəxsin nümayəndəsi**,” sözləri əlavə edilmişdir.

[589] 11 iyun 2004-cü il tarixli 688-IIQD nömrəli “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişiklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2004-ci il, № 8, maddə 598**) ilə 423.2-ci maddənin ikinci cümləsi çıxarılmışdır. Əvvəlki redaksiyada deyilirdi:

~~423.2. Bu Məcəllənin 421.1-ci maddəsində nəzərdə tutulmuş hallarda əlavə kassasiya qaydasında təqdimat, protest və ya şikayət mübahisə edilən kassasiya instansiyası məhkəməsinin qərarının çıxarıldığı gündən sonra 12 (on iki) ay müddətində verilə bilər. Bu Məcəllənin 421.2-ci maddəsində nəzərdə tutulmuş hallarda əlavə kassasiya qaydasında təqdimatın verilmə vaxtı məhdudlaşdırılmır.~~

[590] 11 iyun 2004-cü il tarixli 688-IIQD nömrəli “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişiklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2004-ci il, № 8, maddə 598**) ilə 427.4.2-ci maddədə **"421.1.1 və 421.2-ci maddələrində"** sözləri **"421.1.1-ci maddəsində"** sözləri ilə əvəz edilmişdir.

[591] 11 iyun 2004-cü il tarixli 688-IIQD nömrəli “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişiklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2004-ci il, № 8, maddə 598**) ilə 427.5-ci maddə çıxarılmışdır. Əvvəlki redaksiyada deyilirdi:

~~427.5. Bu Məcəllənin 421.2-ci maddəsində nəzərdə tutulmuş hallarda Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu əlavə kassasiya qaydasında baxdığı təqdimata dair aşağıdakı qərarlardan birini qəbul etmək hüququna malikdir:~~

~~427.5.1. birinci, apellyasiya və ya kassasiya instansiyası məhkəməsinin barəsində mübahisə edilən hökm və ya qərarlarının dəyişdirilmədən, əlavə kassasiya qaydasında təqdimatın isə təmin edilmədən saxlanılması barədə;~~

~~427.5.2. Konstitusiyaya uyğun olmayan normativ hüquqi akt əsasında birinci, apellyasiya və kassasiya instansiyası məhkəmələri tərəfindən çıxarılmış hökm və qərarların tam və ya qismən ləğv edilməsi və cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraat materiallarının və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatın materiallarının yenidən baxılması üçün müvafiq olaraq birinci və ya apellyasiya instansiyası məhkəməsinə göndərilməsi barədə;~~

~~427.5.3. bu Məcəllənin 421.2 və 421.3-cü maddələrində nəzərdə tutulmuş hallarda kassasiya instansiyası məhkəməsi tərəfindən çıxarılmış qərarın dəyişdirilməsi barədə.~~

[592] 11 iyun 2004-cü il tarixli 688-IIQD nömrəli “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişiklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2004-ci il, № 8, maddə 598** ) ilə 427.7-ci maddə çıxarılmışdır. Əvvəlki redaksiyada deyilirdi:

~~427.7. Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu yalnız cinayət işinin apellyasiya instansiyası məhkəməsində məhkəmə baxışının predmeti olmadığı halda Konstitusiyaya uyğun olmayan normativ hüquqi akt əsasında birinci, apellyasiya və kassasiya instansiyaları məhkəmələri tərəfindən çıxarılmış hökm və ya qərarları tam və ya qismən ləğv etmək və cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materiallarını və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatın materiallarını birinci instansiya məhkəməsinə yenidan baxılması üçün göndərmək hüququna malikdir.~~

[593] 14 iyun 2005-ci il 939-IIQD nömrəli “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 8, maddə 686**) ilə Məcəlləyə yeni 427.11-ci maddə əlavə edilmişdir.

[594] 25 iyun 2020-ci il tarixli **140-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 12 iyun 2020-ci il, № 134, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 852)** ilə 432.6-cı maddəyə “**icraata**” sözündən sonra “**bəraətverici əsaslar olmadan**” sözləri əlavə edilmişdir.

[595] 25 iyun 2020-ci il tarixli **140-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 12 iyun 2020-ci il, № 134, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 852**) ilə 434.1-ci maddədə "**şübhəli və təqsirləndirilən şəxs barəsində həbsə alma qətimkan tədbirinin tətbiq edilməsinə yalnız ona az ağır zorakı cinayətin, habelə ağır və ya xüsusilə ağır cinayətin**" sözləri "**təqsirləndirilən şəxs barəsində həbs qətimkan tədbirinin tətbiq edilməsinə yalnız ona ağır və ya xüsusilə ağır cinayətin, 16 yaşına çatmış təqsirləndirilən şəxslərə isə həmçinin az ağır cinayətin zorakı üsulla və ya iki dəfədən çox**" sözləri ilə əvəz edilmişdir.

[596] 22 dekabr 2006-cı il tarixli 209-IIIQD nömrəli Qanun (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 12, maddə 1032**) ilə 435.5-ci maddə çıxarılmışdır, yeni məzmunda 435-1-ci və 435-2-ci maddələr əlavə edilmişdir;

əvvəlki redaksiyada deyilirdi:

~~435.5. Yekun məhkəmə qərarını çıxararkən yetkinlik yaşına çatmayan şəxsin cəza tədbiri tətbiq edilmədən islah edilə biləcəyi barədə nəticəyə gəldikdə, məhkəmə tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq etməklə yetkinlik yaşına çatmayan şəxsi cəzadan azad edə bilər.~~

[597] 25 iyun 2020-ci il tarixli **140-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 12 iyun 2020-ci il, № 134, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 852**) ilə 438.2-ci maddəyə "**ağır**" sözündən sonra "**və xüsusilə ağır**" sözləri əlavə edilmişdir.

[598] 1 dekabr 2017-ci il tarixli **914-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 20 dekabr 2017-ci il, № 281, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2267**) ilə 442.1-ci maddədə "**və ya əməliyyat-axtarış tədbirinin həyata keçirildiyi**" sözləri "**, əməliyyat-axtarış tədbirinin həyata keçirildiyi və ya ibtidai araşdırmanın aparıldığı**" sözləri ilə əvəz edilmişdir.

[599] 30 iyun 2009-cu il tarixli 856-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti 24 iyul 2009-cu il, № 160**) ilə 442.2.1-ci maddədə "**şəxsi toxunulmazlıq**" sözlərindən sonra "**, mülkiyyət**" sözü əlavə edilmişdir.

27 dekabr 2013-cü il tarixli **873-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 11 fevral 2014-cü il, № 29, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 2, maddə 90**) ilə 442.2.1-ci və 448.4-cü maddələrə "**tətbiq edilməsinə**" sözlərindən sonra "**, həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsinə**" sözləri əlavə edilmişdir.

18 aprel 2014-cü il tarixli **941-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 1 may 2014-cü il, № 89, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 04, maddə 344**) ilə 442.2.1-ci, 448.4-cü və 448.8-ci maddələrdən "**, həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsinə**" sözləri, 442.4.1-ci maddədən, 446-cı maddənin adından, 446.1-ci, 446.1.2-ci, 446.2.4-cü, 446.2.5-ci və 446.3-cü maddələrdən, 447-ci maddənin adından, 447.1-ci, 447.3-cü, 447.5-ci, 447.6-cı və 447.7-ci maddələrdən, 448-ci maddənin adından, 448.1-ci, 448.6-cı və 449.3.6-cı maddələrdən "**, həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi**" sözləri, 446.2.6-cı, 446.2.10-cu, 446.4-cü və 448.8-ci maddələrdən "**, həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsinin**" sözləri, 446.2.8-ci maddədən "**, həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsini**" sözləri çıxarılmışdır .

1 dekabr 2017-ci il tarixli **914-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 20 dekabr 2017-ci il, № 281, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2267**) ilə 442.2.1-ci maddədə "**dair**" sözündən sonra "**məsələlərlə bağlı**" sözləri əlavə edilmişdir.

26 aprel 2022-ci il tarixli **518-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 20 may 2022-ci il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 5, maddə 436**) ilə 442.2.1-ci maddəyə "**tətbiq edilməsinə**" sözlərindən sonra "**, maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsinə və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsinə**" sözləri əlavə edilmişdir.

[600] 22 dekabr 2023-cü il tarixli **1061-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 26 yanvar 2024-cü il, "Azərbaycan" qəzeti, 27 yanvar 2024-cü il, № 14**) ilə 442.2.2-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 442.2.3-cü maddə əlavə edilmişdir.

[601] 27 dekabr 2013-cü il tarixli **873-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 11 fevral 2014-cü il, № 29, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 2, maddə 90**) ilə 442.4.1-ci maddəyə, 446-cı maddənin adına, 446.1-ci, 446.1.2-ci, 446.2.4-cü, 446.2.5-ci və 446.3-cü maddələrə "**tətbiq edilməsi**" sözlərindən sonra "**, həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi**" sözləri, 446.2.6-cı, 446.2.10-cu və 446.4-cü maddələrə "**tətbiq edilməsinin**" sözlərindən sonra "**, həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsinin**" sözləri, 446.2.8-ci maddəyə isə "**tətbiq edilməsini**" sözlərindən sonra "**, həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsini**" sözləri əlavə edilmişdir.

1 dekabr 2017-ci il tarixli **914-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 20 dekabr 2017-ci il, № 281, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2267**) ilə 442.4.1-ci maddədə "**istintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi nəticəsində**" sözləri çıxarılmışdır.

[602] 30 iyun 2009-cu il tarixli 856-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti 24 iyul 2009-cu il, № 160**) ilə 177.5-ci və 443.2-ci maddələrdə "**177.3.1-177.3.5-ci**" sözləri "**177.3.1-177.3.5 və**

**177.3.8-ci”** sözləri ilə əvəz edilmişdir.

[603] 1 dekabr 2017-ci il tarixli **914-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 20 dekabr 2017-ci il, № 281, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2267)** ilə 444-cü maddənin adında “**tədbirləri**” sözündən sonra “**və bu tədbirlərlə bağlı digər məsələlər**” sözləri əlavə edilmişdir.

[604] 18 aprel 2014-cü il tarixli **941-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 1 may 2014-cü il, № 89, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 04, maddə 344)** ilə 444.1.1-ci maddədə “**tutulma**” sözündən sonra “**və ya bu Məcəllənin 148.7-ci maddəsində nəzərdə tutulmuş hallarda tutulma müddətinin uzadılması**” sözləri əlavə edilmişdir.

[605] 1 dekabr 2017-ci il tarixli **914-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 20 dekabr 2017-ci il, № 281, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2267)** ilə yeni məzmunda 444.1.2-1-ci və 444.1.2-2-ci maddələr əlavə edilmişdir.

[606] 1 dekabr 2017-ci il tarixli **914-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 20 dekabr 2017-ci il, № 281, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2267)** ilə yeni məzmunda 444.3-cü maddə əlavə edilmişdir.

[607] 1 fevral 2016-cı il tarixli **122-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 28 fevral 2016-cı il, № 46; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 02, II kitab, maddə 218)** ilə 445.1.5-ci maddədə “**mənzilin**” sözü “**yaşayış yerinin**” sözləri ilə əvəz edilmişdir.

[608] 2 iyul 2001-ci il tarixli 172-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2001-ci il, № 7, maddə 455)** ilə 445.2-ci maddədə **"məhkəmə nəzarətini həyata keçirən məhkəməyə"** sözlərindən sonra **"və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora"** sözləri əlavə edilmişdir.

[609] 26 aprel 2022-ci il tarixli **518-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 20 may 2022-ci il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 5, maddə 436)** ilə 446-cı maddənin adına və 446.1-ci maddəyə “**tətbiq edilməsi**” sözlərindən sonra “**, maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi**” sözləri əlavə edilmişdir.
22 dekabr 2023-cü il tarixli **1061-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 26 yanvar 2024-cü il, “Azərbaycan” qəzeti, 27 yanvar 2024-cü il, № 14)** ilə 446-cı maddənin adına, 446.1-ci maddənin birinci abzasına, 446.2.4-cü, 446.2.5-ci və 446.2.7-ci maddələrə “**tətbiq edilməsi**” sözlərindən sonra “**, cinayət təqibi üzrə qiyabi icraatın açılması**” sözləri əlavə edilmişdir.

[610] 1 dekabr 2017-ci il tarixli **914-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 20 dekabr 2017-ci il, № 281, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2267)** ilə 446.1.2-ci maddəyə “**prokurorun**” sözündən sonra “**, bu Məcəllənin 159.2-ci və 159.8-ci maddələrində nəzərdə tutulmuş hallarda isə müvafiq prokurorun**” sözləri əlavə edilmişdir.

[611] 1 dekabr 2017-ci il tarixli **914-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 20 dekabr 2017-ci il, № 281, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2267)** ilə yeni məzmunda 446.1.2-1 maddə əlavə edilmişdir.

[612] 22 dekabr 2023-cü il tarixli **1061-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 26 yanvar 2024-cü il, “Azərbaycan” qəzeti, 27 yanvar 2024-cü il, № 14)** ilə yeni məzmunda 446.1.2-2-ci maddə əlavə edilmişdir.

[613] 2 iyul 2001-ci il tarixli 172-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2001-ci il, № 7, maddə 455)** ilə 446.1.3-cü maddədə **"vəsatəti"** sözündən sonra **"və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı"** sözləri əlavə edilmişdir.

[614] 1 dekabr 2017-ci il tarixli **914-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 20 dekabr 2017-ci il, № 281, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2267)** ilə 446.1.3-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 446.1.4-cü maddə əlavə.

[615] 26 aprel 2022-ci il tarixli **518-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 20 may 2022-ci il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 5, maddə 436)** ilə 446.1.4-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 446.1.5-ci maddə əlavə edilmişdir.

[616] 1 dekabr 2017-ci il tarixli **914-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 20 dekabr 2017-ci il, № 281, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2267**) ilə 446.2-ci maddədə "**446.1-ci maddəsində**" sözləri "**446.1.1-446.1.3-cü maddələrində**" sözləri ilə əvəz edilmişdir.

26 aprel 2022-ci il tarixli **518-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 20 may 2022-ci il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 5, maddə 436**) ilə 446.2-ci maddəyə "**446.1.3-cü**" sözlərindən sonra "**və 446.1.5-ci**" sözləri əlavə edilmişdir və həmin maddədən "hər hansı" sözləri çıxarılmışdır.

[617] 22 dekabr 2023-cü il tarixli **1061-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 26 yanvar 2024-cü il, "Azərbaycan" qəzeti, 27 yanvar 2024-cü il, № 14**) ilə 446.2.6-cı maddəyə və 446.4-cü maddənin birinci cümləsinə "**edilməsinin**" sözündən sonra "**, cinayət təqibi üzrə qiyabi icraatın açılmasının**" sözləri əlavə edilmişdir.

[618] 26 aprel 2022-ci il tarixli **518-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 20 may 2022-ci il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 5, maddə 436**) ilə yeni məzmunda 446.2.9-1-ci maddə əlavə edilmişdir.

[619] 26 aprel 2022-ci il tarixli **518-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 20 may 2022-ci il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 5, maddə 436**) ilə 446.2.10-cu maddəyə "**tətbiq edilməsinin**" sözlərindən sonra "**, maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsinin və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsinin**" sözləri əlavə edilmişdir.

[620] 1 dekabr 2017-ci il tarixli **914-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 20 dekabr 2017-ci il, № 281, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2267**) ilə yeni məzmunda 446.2-1-ci maddə əlavə edilmişdir.

[621] 18 aprel 2014-cü il tarixli **941-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 1 may 2014-cü il, № 89, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 04, maddə 344**) ilə 446.3-cü maddədə "**48**" rəqəmləri "**24**" rəqəmləri ilə əvəz edilmişdir.

1 dekabr 2017-ci il tarixli **914-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 20 dekabr 2017-ci il, № 281, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2267**) ilə 446.3-cü maddədə "**üçün**" sözü "**məsələlərinə dair**" sözləri ilə əvəz edilmişdir.

26 aprel 2022-ci il tarixli **518-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 20 may 2022-ci il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 5, maddə 436**) ilə 446.3-cü maddəyə "**tətbiq edilməsi,**" sözlərindən sonra "**maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi**" sözləri əlavə edilmişdir.

22 dekabr 2023-cü il tarixli **1061-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 26 yanvar 2024-cü il, "Azərbaycan" qəzeti, 27 yanvar 2024-cü il, № 14**) ilə 446.3-cü maddəyə "**tətbiq edilməsi**" sözlərindən sonra "**, cinayət təqibi üzrə qiyabi icraatın açılması,**" sözləri əlavə edilmişdir.

[622] 27 dekabr 2013-cü il tarixli **873-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 11 fevral 2014-cü il, № 29, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 2, maddə 90**) ilə 447-ci maddənin adına, 447.1-ci, 447.3-cü, 447.5-ci, 447.6-cı və 447.7-ci maddələrə "**tətbiq edilməsi**" sözlərindən sonra "**, həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi**" sözləri əlavə edilmişdir.

26 aprel 2022-ci il tarixli **518-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 20 may 2022-ci il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 5, maddə 436**) ilə 447-ci maddənin adına və 447.1-ci maddəyə "**tətbiq edilməsi**" sözlərindən sonra "**, maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi**" sözləri əlavə edilmişdir.

22 dekabr 2023-cü il tarixli **1061-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 26 yanvar 2024-cü il, "Azərbaycan" qəzeti, 27 yanvar 2024-cü il, № 14**) ilə 447-ci maddənin adına, 447.1-ci və 447.5 – 447.7-ci maddələrə "**tətbiq edilməsi**" sözlərindən sonra "**, cinayət təqibi üzrə qiyabi icraatın açılması**" sözləri əlavə edilmişdir.

[623] 18 aprel 2014-cü il tarixli **941-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 1 may 2014-cü il, № 89, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 04, maddə 344**) ilə 447.2-ci maddədə "**seçilməsi**" sözündən sonra "**, tutulma müddətinin uzadılması**" sözləri əlavə edilmişdir.

[624] 22 dekabr 2023-cü il tarixli **1061-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 26 yanvar 2024-cü il, "Azərbaycan" qəzeti, 27 yanvar 2024-cü il, № 14**) ilə 447.3-cü maddədə "**və ya prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi**" sözləri "**, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi və ya cinayət təqibi üzrə qiyabi icraatın açılması**" sözləri ilə əvəz edilmişdir.

[625] 1 dekabr 2017-ci il tarixli **914-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 20 dekabr 2017-ci il, № 281, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə**

**2267)** ilə 447.3.2-ci maddəyə “**prokuror**” sözündən sonra “**və ya müvafiq prokuror**” sözləri əlavə edilmişdir.

[626] 2 iyul 2001-ci il tarixli 172-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2001-ci il, № 7, maddə 455)** ilə 447.3.3-cü maddədə **"tədbirlərinə"** sözündən sonra **"və Azərbaycan Respublikasının ərazisindən kənarda istintaqdan gizlənən və axtarışda olan təqsirləndirilən şəxslərə"** sözləri əlavə edilmişdir.

30 iyun 2009-cu il tarixli 856-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti 24 iyul 2009-cu il, № 160)** ilə 447.3.3-cü maddədə **“177.3.4-177.3.6-cı”** sözləri **“177.3.4-177.3.6 və 177.3.8-ci”** sözləri ilə əvəz edilmişdir.

1 dekabr 2017-ci il tarixli **914-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 20 dekabr 2017-ci il, № 281, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2267)** ilə 447.3.3-cü maddədə “**tutulan**” sözündən sonra “**, yaxud barəsində ev dustaqlığı qətimkan tədbirinin tətbiqi ilə bağlı məsələyə baxılan**” sözləri əlavə edilmişdir.

[627] 26 aprel 2022-ci il tarixli **518-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 20 may 2022-ci il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 5, maddə 436)** ilə yeni məzmunda 447.4-1-ci maddə əlavə edilmişdir.

[628] 1 dekabr 2017-ci il tarixli **914-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 20 dekabr 2017-ci il, № 281, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2267)** ilə 447.5-ci maddədə “**edilməsi**” sözündən sonra “**məsələləri**” sözü əlavə edilmişdir.

26 aprel 2022-ci il tarixli **518-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 20 may 2022-ci il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 5, maddə 436)** ilə 447.5-ci maddədə “**və ya prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi məsələləri ilə bağlı məhkəmə iclasına ifadələr,**” sözləri “**, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi və ya maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi məsələləri ilə bağlı məhkəmə iclasına**” sözləri ilə əvəz edilmişdir.

[629] 26 aprel 2022-ci il tarixli **518-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 20 may 2022-ci il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 5, maddə 436)** ilə 447.6-cı maddədə “**447.3-cü maddəsində göstərilən şəxslərin istintaq hərəkətinin məcburi aparılması və ya prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi**” sözləri “**447.3-cü və ya 447.4-1-ci maddələrində göstərilən şəxslərin istintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi və ya maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi**” sözləri ilə əvəz edilmişdir.

[630] 26 aprel 2022-ci il tarixli **518-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 20 may 2022-ci il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 5, maddə 436)** ilə 447.7-ci maddəyə “**tətbiq edilməsi**” sözlərindən sonra “**, maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi**” sözləri əlavə edilmişdir.

[631] 1 dekabr 2017-ci il tarixli **914-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 20 dekabr 2017-ci il, № 281, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2267)** ilə 447.7.4-cü maddədə **“ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən”** sözləri “**məhkəmə iclasında iştirak edən**” sözləri ilə əvəz edilmişdir.

[632] 27 dekabr 2013-cü il tarixli **873-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 11 fevral 2014-cü il, № 29, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 2, maddə 90)** ilə 448-ci maddənin adına, 448.1-ci, 448.6-cı və 449.3.6-cı maddələrə “**tətbiq edilməsi**” sözlərindən sonra “**, həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi**” sözləri əlavə edilmişdir.

26 aprel 2022-ci il tarixli **518-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 20 may 2022-ci il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 5, maddə 436)** ilə 448-ci maddənin adına, 448.1-ci və 448.1.1-ci maddələrə “**tətbiq edilməsi**” sözlərindən sonra “**, maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi**” sözləri əlavə edilmişdir.

22 dekabr 2023-cü il tarixli **1061-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 26 yanvar 2024-cü il, “Azərbaycan” qəzeti, 27 yanvar 2024-cü il, № 14)** ilə 448-ci maddənin adına və 448.1-ci maddənin birinci abzasına “**tətbiq edilməsi**” sözlərindən sonra “**, cinayət təqibi üzrə qiyabi icraatın açılması**” sözləri əlavə edilmişdir.

[633] 1 dekabr 2017-ci il tarixli **914-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 20 dekabr 2017-ci il, № 281, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2267)** ilə 448.1.1, 448.1.2, 448.4 və 448.8-ci maddələrdə “**dair**” sözündən sonra “**məsələlərlə bağlı**” sözləri əlavə edilmişdir.

[634] 26 aprel 2022-ci il tarixli **518-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 20 may 2022-ci il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 5, maddə 436)** ilə 448.1.2-ci və 448.4-cü maddələrə “**tətbiq edilməsinə**” sözlərindən sonra “**, maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsinə və ya tibbi məqsədlərlə istifadə üçün təhvil**

**verilməsinə**” sözləri əlavə edilmişdir.

[635] 1 dekabr 2017-ci il tarixli **914-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 20 dekabr 2017-ci il, № 281, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2267)** ilə 448.1.3-cü maddədə “**və ya ona alternativ olan**” sözləri “**, ev dustaqlığı, girov və vəzifədən kənarlaşdırma**” sözləri ilə əvəz edilmişdir.

[636] 1 dekabr 2017-ci il tarixli **914-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 20 dekabr 2017-ci il, № 281, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2267)** ilə yeni məzmunda 448.1.3-1-ci maddə əlavə edilmişdir.

[637] 22 dekabr 2023-cü il tarixli **1061-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 26 yanvar 2024-cü il, “Azərbaycan” qəzeti, 27 yanvar 2024-cü il, № 14)** ilə 448.1.3-1-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 448.1.3-2-ci maddə əlavə edilmişdir.

[638] 27 dekabr 2013-cü il tarixli **873-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 11 fevral 2014-cü il, № 29, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 2, maddə 90)** ilə 448.1.3-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və 448.1.4-cü maddə əlavə edilmişdir.

18 aprel 2014-cü il tarixli **941-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 1 may 2014-cü il, № 89, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 04, maddə 344)** ilə 448.1.4-cü maddə ləğv edilmişdir.

[639] 22 dekabr 2023-cü il tarixli **1061-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 26 yanvar 2024-cü il, “Azərbaycan” qəzeti, 27 yanvar 2024-cü il, № 14)** ilə 448.4-cü maddəyə “**tətbiq edilməsinə**” sözlərindən sonra “**, cinayət təqibi üzrə qiyabi icraatın açılmasına**” sözləri əlavə edilmişdir.

[640] 26 aprel 2022-ci il tarixli **518-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 20 may 2022-ci il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 5, maddə 436)** ilə yeni məzmunda 448.4-1-ci və 448.6-1-ci maddələr əlavə edilmişdir.

[641] 17 oktyabr 2014-cü il tarixli **1074-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 16 noyabr 2014-cü il, № 250; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 11, maddə 1354)** ilə 448.5-ci maddə ləğv edilmişdir.

[642] 27 dekabr 2013-cü il tarixli **873-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 11 fevral 2014-cü il, № 29, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 2, maddə 90)** ilə 448.6.3-cü və 453.8.3-cü maddələrdə “**həbsdə saxlanılma yerinin**” sözləri “**saxlanıldığı həbs yerinin**” sözləri ilə əvəz edilmişdir.

[643] 22 dekabr 2023-cü il tarixli **1061-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 26 yanvar 2024-cü il, “Azərbaycan” qəzeti, 27 yanvar 2024-cü il, № 14)** ilə yeni məzmunda 448.6-2-ci maddə əlavə edilmişdir.

[644] 17 oktyabr 2014-cü il tarixli **1074-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 16 noyabr 2014-cü il, № 250; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 11, maddə 1354)** ilə 448.7-ci maddədən “**bu Məcəllənin 448.5-ci maddəsində nəzərdə tutulmuş hal istisna olunmaqla,**” sözləri çıxarılmışdır.

[645] 27 dekabr 2013-cü il tarixli **873-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 11 fevral 2014-cü il, № 29, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 2, maddə 90)** ilə 448.8-ci maddəyə “**tətbiq edilməsinə**” sözlərindən sonra “**, həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsinə**” sözləri, “**tətbiq edilməsinin**” sözlərindən sonra “**, həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsinin**” sözləri əlavə edilmişdir.
22 dekabr 2023-cü il tarixli **1061-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 26 yanvar 2024-cü il, “Azərbaycan” qəzeti, 27 yanvar 2024-cü il, № 14)** ilə 448.8-ci maddəyə “**edilməsinə**” sözündən sonra “**, cinayət təqibi üzrə qiyabi icraatın açılmasına**” sözləri, “edilməsinin” sözündən sonra “**, cinayət təqibi üzrə qiyabi icraatın açılmasının**” sözləri əlavə edilmişdir.

[646] 27 dekabr 2013-cü il tarixli **873-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 11 fevral 2014-cü il, № 29, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 2, maddə 90)** ilə 449.1.2-ci maddədə “**həbsdə saxlanılma yerlərində**” sözləri “**həbs yerlərində**” sözləri ilə əvəz edilmişdir.

**KM6** 5 avqust 2009-cu il tarixli Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Qərarı **(“Xalq” qəzeti 10 oktyabr 2009-cu il, № 225)** ilə Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 449.2.3-cü

maddəsinin «qərarın qəbul edilməsi və ya hərəkətin aparılması nəticəsində hüquq və azadlıqları pozulan digər şəxslər» müddəası cinayət prosesinin digər iştirakçılarına aid olduğuna görə cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərindən və ya qərarlarından şahidin də şikayət vermək hüququnu istisna etmir. Lakin cinayət prosesinin digər iştirakçıları, o cümlədən şahidlər cinayət təqibini həyata keçirən orqanın vəzifəli şəxslərinin qərarlarından və hərəkətlərindən (hərəkətsizliyindən) şikayət vermək hüququna o halda malikdirlər ki, həyata keçirilmiş hərəkətlər və qəbul olunmuş qərarlar onların hüquq və qanuni maraqlarına toxunmuş olsun, Azərbaycan Respublikasının Konstitusiyası ilə təsbit olunmuş hüquqlarına və azadlıqlarına zərər yetirə və yaxud ədalət mühakiməsinə müraciətini (əlçatanlığını) çətinləşdirə bilsin.

[647] 27 dekabr 2013-cü il tarixli **873-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 11 fevral 2014-cü il, № 29, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 2, maddə 90)** ilə 449.3.3-cü maddədə “**tutulmuş**” sözündən sonra “**və ya həbs edilmiş**” sözləri əlavə edilmişdir.

1 dekabr 2017-ci il tarixli **914-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 20 dekabr 2017-ci il, № 281, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2267)** ilə 449.3.3-cü maddədə “**və ya həbs edilmiş**” sözləri “**, həbs edilmiş və ya barəsində ev dustaqlığı qətimkan tədbiri seçilmiş**” sözləri ilə əvəz edilmişdir.

**[648]** 18 aprel 2014-cü il tarixli **941-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 1 may 2014-cü il, № 89, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 04, maddə 344)** ilə yeni məzmunda 449.3.3-1-ci maddə əlavə edilmişdir.

**[649]** 25 iyun 2020-ci il tarixli **140-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 12 iyun 2020-ci il, № 134, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 852)** ilə yeni məzmunda 449.3.4-1 – 449.3.4-3-cü maddələr əlavə edilmişdir.

**[650]** 2 iyul 2001-ci il tarixli 172-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2001-ci il, № 7, maddə 455)** ilə 449.3.5-ci maddədə **"başlanması"** sözü **"başlanmasının rədd edilməsi"** sözləri ilə əvəz edilmişdir.

**[651]** 26 aprel 2022-ci il tarixli **518-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 20 may 2022-ci il, № 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, № 5, maddə 436)** ilə 449.3.6-cı və 454-cü maddələrə “**tətbiq edilməsi**” sözlərindən sonra “**, maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi**” sözləri əlavə edilmişdir.

**[652]** 2 iyul 2001-ci il tarixli 172-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2001-ci il, № 7, maddə 455)** ilə 449.3.8-ci maddə çıxarılmışdır.
Əvvəlki redaksiyada deyilirdi:
~~449.3.8. bu Məcəllədə nəzərdə tutulmuş digər hallarda.~~

**[653]** 1 dekabr 2017-ci il tarixli **914-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 20 dekabr 2017-ci il, № 281, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2267)** ilə 452.1-ci maddəyə “**prokuror**” sözündən sonra “**və ya yuxarı prokuror**” sözləri əlavə edilmişdir.

[654] 27 dekabr 2013-cü il tarixli **873-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 11 fevral 2014-cü il, № 29, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 2, maddə 90)** ilə 452.1.3-cü maddədə “**həbsdə saxlanılma yeri**” sözləri “**həbs yerinin**” sözləri ilə əvəz edilmişdir.

**[655]** 1 dekabr 2017-ci il tarixli **914-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 20 dekabr 2017-ci il, № 281, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2267)** ilə 453.3-cü maddənin birinci cümləsinə “**prokuror**” sözündən sonra “**və ya müvafiq prokuror**” sözləri əlavə edilmişdir.

[656] 27 dekabr 2013-cü il tarixli **873-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 11 fevral 2014-cü il, № 29, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 2, maddə 90)** ilə 453.9-cu maddədə “**Həbsdə saxlanılma yerinin**” sözləri “**Həbs yerinin**” sözləri ilə əvəz edilmişdir.

**[657]** 2 iyul 2001-ci il tarixli 172-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2001-ci il, № 7, maddə 455)** ilə 454-cü maddədə **"şikayət"** sözündən sonra **"və ya protest"** sözləri əlavə edilmişdir.
27 dekabr 2013-cü il tarixli **873-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 11 fevral 2014-cü il, № 29, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 2, maddə 90)** ilə 454-cü maddəyə “**həyata keçirilməsi**” sözlərindən sonra “**həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi məsələsi və ya bundan imtina edilməsi,**” sözləri əlavə edilmişdir.
18 aprel 2014-cü il tarixli **941-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 1 may 2014-cü il, № 89, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 04, maddə 344)** ilə 454-cü maddədən “**həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi məsələsi və ya bundan imtina edilməsi,**” sözləri çıxarılmışdır.
22 dekabr 2023-cü il tarixli **1061-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət**

**İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 26 yanvar 2024-cü il, "Azərbaycan" qəzeti, 27 yanvar 2024-cü il, № 14)** ilə 454-cü maddəyə "**tətbiq edilməsi**" sözlərindən sonra "**, cinayət təqibi üzrə qiyabi icraatın açılması**" sözləri əlavə edilmişdir.

[658] 11 iyun 2004-cü il tarixli 688-IIQD nömrəli "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişiklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2004-ci il, № 8, maddə 598**) ilə LIII fəsil yeni redaksiyada verilmişdir. Fəslin əvvəlki redaksiyasında deyilirdi:

~~LIII fəsil~~

~~**Normatİv hüquqİ aktın konstİtusİyaya uyğunluğunun yoxlanılması barədə vəsatət üzrə İcraat**~~

~~Maddə 455. **Normativ hüquqi aktın Konstitusiyaya uyğunluğunun yoxlanılması barədə vəsatət vermək hüququ**~~

~~455.1. Cinayət prosesinin iştirakçıları Azərbaycan Respublikasının Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1–6 və 8-ci bəndləri ilə nəzərdə tutulmuş qaydada normativ hüquqi aktın Konstitusiyaya uyğunluğunun yoxlanılması barədə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu göndərilməsi haqqında Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumuna vəsatət vermək hüququna malikdirlər.~~

~~455.2. Normativ hüquqi aktın Konstitusiyaya uyğunluğunun yoxlanılması barədə vəsatət aşağıdakı hallarda verilə bilər:~~

~~455.2.1. birinci, apellyasiya və ya kassasiya instansiyası məhkəməsində cinayət işinə, məhkəməyədək sadələşdirilmiş icraatın materiallarına və ya xüsusi ittiham qaydasında şikayətə baxılarkən cinayət prosesinin əvvəlki mərhələsində tətbiq edilmiş normativ hüquqi aktın Azərbaycan Respublikasının Konstitusiyasının müddəalarına uyğun olmadıqda;~~

~~455.2.2. cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə hökm və ya məhkəmənin digər yekun qərarlarından apellyasiya və kassasiya qaydasında şikayət vermək imkanları tükəndikdə, tətbiq edilmiş normativ hüquqi aktın şəxsin Azərbaycan Respublikasının Konstitusiyası ilə nəzərdə tutulmuş əsas hüquq və azadlıqlarını pozduğunu güman etdikdə.~~

~~455.3. Normativ hüquqi aktın Konstitusiyaya uyğunluğunun yoxlanılması barədə vəsatət aşağıdakı qaydada verilə bilər:~~

~~455.3.1. bu Məcəllənin 455.1-ci maddəsində nəzərdə tutulmuş halda—birinci, apellyasiya və ya kassasiya instansiyası məhkəmələrində cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə məhkəmə baxışına başlamamışdan əvvəl;~~

~~455.3.2. bu Məcəllənin 455.2-ci maddəsində nəzərdə tutulmuş halda—cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə yalnız kassasiya şikayətinə və ya kassasiya protestinə Azərbaycan Respublikası Ali Məhkəməsinin müvafiq kollegiyasında baxıldıqdan sonra.~~

~~455.4. Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi tərəfindən Naxçıvan Muxtar Respublikasının normativ hüquqi aktlarının Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılması qaydası bu Məcəllənin müddəaları nəzərə alınmaqla Naxçıvan Muxtar Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.~~

~~Maddə 456. **Normativ hüquqi aktın Konstitusiyaya uyğunluğunun yoxlanılması barədə vəsatətə dair tələblər**~~

~~456.1. Normativ hüquqi aktın Konstitusiyaya uyğunluğunun yoxlanılması barədə vəsatət yazılı şəkildə verilməlidir.~~

~~456.2. Normativ hüquqi aktın Konstitusiyaya uyğunluğunun yoxlanılması barədə vəsatətdə aşağıdakılar göstərilməlidir:~~

~~456.2.1. vəsatətin verildiyi məhkəmənin adı;~~

~~456.2.2. vəsatət verən şəxsin adı, onun poçt və ya hüquqi ünvanı;~~

~~456.2.3. mübahisə edilən normativ hüquqi aktın adı və qəbul edildiyi tarix;~~

~~456.2.4. mübahisə edilən normativ hüquqi aktı qəbul etmiş orqan və ya vəzifəli şəxs;~~

~~456.2.5. mübahisə edilən normativ hüquqi aktın Konstitusiyada nəzərdə tutulmuş əsas hüquq və azadlıqları pozan konkret müddəalarının izahı;~~

~~456.2.6. vəsatətin məqsədi və dəlillərinin əsaslandırılması;~~

~~456.2.7. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu göndərilməsi haqqında Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumuna ünvanlanmış xahiş.~~

~~456.3. Normativ hüquqi aktın Konstitusiyaya uyğunluğunun yoxlanılması barədə vəsatətə aşağıdakılar əlavə edilməlidir:~~

~~456.3.1. mübahisə edilən normativ hüquqi aktın rəsmi nəşrlərdə dərc edilmiş mətni;~~

~~456.3.2. müraciət etmiş şəxsin fikrincə, onun Azərbaycan Respublikasının Konstitusiyası ilə nəzərdə tutulmuş əsas hüquq və azadlıqlarını pozan məhkəmənin hökm və ya qərarının (normativ hüquqi aktla eyni zamanda onlar barəsində mübahisə edildikdə) surəti;~~

~~456.3.3. ittiham aktının, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə yekun protokolunun surəti və vəsatətin əsaslı olduğunu təsdiq edən digər zəruri sənədlər.~~

~~456.4. Normativ hüquqi aktın Konstitusiyaya uyğunluğunun yoxlanılması barədə vəsatət cinayət prosesinin iştirakçısı və ya onun imzalamaq səlahiyyətinə malik olan nümayəndəsi tərəfindən imzalanır.~~

~~Maddə 457. **Normativ hüquqi aktın Konstitusiyaya uyğunluğunun yoxlanılması barədə vəsatətə dair birinci, apellyasiya və ya kassasiya məhkəməsinin hərəkətləri**~~

~~457.1. Bu Məcəllənin 455.2.1-ci maddəsində nəzərdə tutulmuş halda birinci, apellyasiya və ya kassasiya instansiyası məhkəməsi normativ hüquqi aktın Konstitusiyaya uyğunluğunun yoxlanılması barədə vəsatət aldıqda, aşağıdakı hərəkətləri yerinə yetirir:~~

~~457.1.1. vəsatətin bu Məcəllənin 456-cı maddəsində nəzərdə tutulmuş tələblərə uyğunluğunu yoxlayır;~~

~~457.1.2. mübahisə edilən normativ hüquqi aktın həmin cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraat zamanı həqiqətən tətbiq edildiyini yoxlayır;~~

~~457.1.3. cinayət prosesində iştirakçısının vəsatəti tələblərə riayət etmədiyini və ya mübahisə edilən normativ hüquqi aktın tətbiq edilmədiyini müəyyən etdikdə vəsatətin rədd edilməsi haqqında qərar çıxarır;~~

~~457.1.4. cinayət prosesi iştirakçısının vəsatəti tələblərə riayət etdiyini və ya mübahisə edilən normativ hüquqi aktın tətbiq edildiyi müəyyən edildikdə, Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumuna həmin~~

vəsatətin göndərilməsi və iş üzrə icraatın dayandırılması haqqında qərar çıxarır.

457.2. Normativ hüquqi aktın Konstitusiyaya uyğunluğunun yoxlanılması barədə vəsatətə dair birinci, apellyasiya və ya kassasiya instansiyası məhkəməsinin qərarı bu Məcəllədə göstərilən ümumi tələblərə uyğun olmalıdır.

457.3. Normativ hüquqi aktın Konstitusiyaya uyğunluğunun yoxlanılması barədə vəsatətə dair birinci, apellyasiya və ya kassasiya instansiyası məhkəməsinin qərarının surətləri cinayət prosesin iştirakçılarının xahişi ilə onlara verilir.

457.4. Məhkəmənin normativ hüquqi aktın Konstitusiyaya uyğunluğunun yoxlanılması barədə vəsatətin Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumuna göndərilməsi və ya həmin vəsatətin rədd edilməsi haqqında qərarından şikayət verilə bilməz. Normativ hüquqi aktın Konstitusiyaya uyğunluğunun yoxlanılması barədə vəsatətdə göstərilən dəlillər apellyasiya və ya kassasiya şikayətində izah edilə bilər.

457.5. Cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraat aşağıdakı hallarda təzələnir:

457.5.1. vəsatət Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu tərəfindən rədd edildikdə—Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarı məhkəməyə daxil olduqdan dərhal sonra;

457.5.2. Azərbaycan Respublikası Ali Məhkəməsi tərəfindən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu göndərildikdə—Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin müvafiq qərarı (qərardadı) məhkəməyə daxil olduqdan dərhal sonra.

Maddə 458. **Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu göndərilməsi ilə bağlı məsələlərə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu tərəfindən baxılması**

458.1. Birinci, apellyasiya və ya kassasiya instansiyası məhkəməsinin qərarı ilə, habelə bu Məcəllənin 455.3.2-ci maddəsində nəzərdə tutulmuş halda bilavasitə cinayət prosesinin iştirakçısından əsasında normativ hüquqi aktın Konstitusiyaya uyğunluğunun yoxlanılması barədə daxil olmuş vəsatət aşağıdakı hərəkətlərin yerinə yetirilməsi üçün Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri tərəfindən Azərbaycan Respublikası Ali Məhkəməsinin müvafiq kollegiyasının hakimlərindən birinə verilir:

458.1.1. vəsatətdə bu Məcəllənin 456-cı maddəsində nəzərdə tutulmuş tələblərin yerinə yetirilməsinin yoxlanılması;

458.1.2. mübahisə edilən normativ hüquqi aktın həmin cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraat zamanı həqiqətən tətbiq edildiyinin yoxlanılması;

458.1.3. bu Məcəllənin 458.1.1 və 458.1-2-ci maddələrində göstərilən məsələlərə dair yazılı rəyin hazırlanması və həmin rəylə Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun iclasında məruzəçi kimi çıxış etməsi.

458.2. Normativ hüquqi aktın Konstitusiyaya uyğunluğunun yoxlanılması barədə vəsatətə baxarkən Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu öz iclasında vəsatətə dair məruzəçi hakimin rəyini dinləyərək və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin səlahiyyətlərinə müdaxilə etmədən cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraat zamanı tətbiq olunmuş normativ hüquqi aktın Konstitusiyaya uyğunluğunun yoxlanılması barədə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu göndərir.

